**NURƏDDİN KAZIMOV**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ
# III CİLD

## 3-cü SİNİFLƏRDƏ «ANA DİLİ»DƏRSLİYİNİN MƏZMUNU VƏ TƏDRİSİNƏ DAİR *(Şəkilsiz çap edilir)*

**BAKI – 2008**

Hazırkı «Seçilmiş əsərlər» «Milli pedaqogika məktəbi» idarə heyətinin qərarı ilə çap edilir.

**Elmi redaktor:** pedaqoji elmlər doktoru, professor
*Fərahim Balakişi oğlu Sadıqov*

**Rəyçi:** professor
*Fikrət Əhməd oğlu Seyidov*

**Tərtibçi:** pedaqoji elmlər namizədi, dosent
*Ayaz Nurəddin oğlu Kazımov*

# TƏRTİBÇİDƏN

Bu yaxınlarda həmkarlarından biri yarı zarafat, yarı ciddi müəllifə dedi:

-Nurəddin müəllim, Milli pedaqogikanın əsas yaradıcısı kimi sizə aid çap olunmuş biblioqrafik məlumatda yazılır ki, əsərlərinizin sayı 450-ni keçib; amma M.F.Axundov adına mərkəzi kitabxanada sizin qeydə alınmış əsərlərinizin sayı heç 10-nu keçmir. Bəs əsərlərinizi küll şəklində nə vaxt nəzərdən keçirmək olar?

Həmkarının iradı atamı xeyli düşündürdü. Nəhayət qərara gəldi ki, mən əsərləri toplayım, qruplaşdırım, sistemə salım və çapına nail olum. Bu vəzifə məndən əlavə vaxt, enerji və vəsait tələb etsə də geri çəkilmədim. Bir də ona görə ki, əvvəla, Nurəddin müəllimin əsərləri bir çox nəşriyyatlarda, qəzet və jurnallarda, habelə başqa ölkələrdə çap olunmuşdur. Onları əldə etmək ciddi çətinliklər yaradırdı; ikincisi, milli hisslərdən uzaq olan, «Milli» sözünə ağız büzən, elmi yaradıcılığa deyil, başqalarının fikirlərini özününküləşdirməyə meylli olan bəziləri bir daha yəqin etsinlər ki, Azərbaycan xalqının övladları da kifayət qədər yeni pedaqoji ideyalar formalaşdıra və xalqımızın istifadəsinə verə bilir.

Bu işdə bizi ruhlandıran həm də o oldu ki, Milli pedaqogika ruhunda yazılmış «Məktəb pedaqogikası» və «Ali məktəb pedaqogikası» respublikamızda təhsil nazirinin əmri ilə ilk dəfə dərsliklər kimi çap olunmuşdur. Təsadüfi deyil ki, Milli pedaqogika ideyaları əsasında ərsəyə gəlmiş «Məktəb pedaqogikası»nın müddəaları təhsil nazirinin xüsusi əmri ilə Bakı şəhərindəki 9№-li məktəbdə sınaqdan keçirilmiş və nəticəsi təhsil nazirliyində ətraflı müzakirə olunmuşdur. O da təsadüfi deyil ki, həmin müzakirənin yekunu olaraq təhsil naziri 2007-ci il avqustun 30-da 995№-li əmr vermişdir. Əmr belə adlanır: «N.Kazımovun «Məktəb pedaqogikası» dərsliyi müddəalarının pedaqoji prosesdə tətbiqi üzrə işlərin təşkili barədə». Bu əmrə əsasən dərsliyin müddəaları həm bütün təkmilləşmə və yenidənhazırlanma institutlarında,

həm də Sumqayıt və Bakı şəhərlərinin bəzi məktəblərində tətbiq edilmişdir.

Toplanan materiallar pedaqoji elmin və pedaqoji prosesin, demək olar ki, bütün sahələrini əhatə etdiyindən, onları, nisbi mənada, qruplaşdırmağa və sistemə salmağa çalışdıq. Nəticədə məlum oldu ki, bəzi yazılar indiki dövr üçün aktuallığını itirmişdir; xaricdə çap olunmuş yazıların bir neçəsini əldə etmək mümkün olmamışdır; bundan əlavə, çap olunmuş əsərlərdən bəziləri kitabxanaya verilməmişdir; bəzi başabəla oxucuların kitabxanada saxlanan jurnallardan materialı cırıb götürdükləri hallarla da rastlaşdıq. Yaxud, xüsusən 1990-cı ilin fevral, mart, aprel və may aylarında məlum hadisələrlə əlaqədar «Millət», «Müxalifət», «Vətən», «Kommunist», «Bilik», «Azərbaycan müəllimi», «Xalq qəzeti» kimi mətbu orqanlarında çap olunmuş «Kömək? Nəyin naminə?», «Nəyi və necə tənzimləməli», «Nə üçün susuruq?», «Razılaşmaq olmaz. Nə üçün?», «Qadağalar davam edir və yaxud xalqımızın səsi respublikadan kənarda niyə eşidilmir?», «Milli birlik yolunda maneələri kimlər yaradır?», «Bu da təxribatdır», «Siyasi şüur tələbələrə nə üçün lazımdır?», «Soy adımız və Milli mənsubiyyətimiz», «Azərbaycan diplomatiyası necədir, necə görmək istərdim», «Открытое письмо послу Российской Федерации в Азербайджане господину В.Шонии» kimi bir çox siyasi məzmunlu atamın yazılarını kitabxanalarda tapmaq mümkün olmadı. Bunlardan əlavə, III siniflər üçün eksperimental «Ana dili» dərsliyi (Bakı, Azərbaycan Qiyabi Pedaqoji İnstitutunun nəşriyyatı, 1959), 1963-cü ildən 1971-ci ilədək Y.Şirvanla, 1988-ci ilədək müstəqil çap olunan «Ana dili» dərsliyi «Maarif» nəşriyyatı tərəfindən 1978-ci ildə çap olunmuş «Ulyanovlar ailəsində tərbiyə məsələləri» və 1996-cı ildə nəşr edilmiş «Pedaqogika» dərsliyi, 2001-ci ildə «Ağrıdağ» nəşriyyatı tərəfindən çap olunmuş «Milli pedaqogika yollarında» adlı monoqrafiya hazırkı «Əsərlər»ə daxil edilməmişdir. Bunlardan əlavə, Nurəddin müəllimin bilavasitə rəhbərliyi, redaktəsi və iştirakı ilə ərsəyə gələrək işıq üzü görmüş bir sıra əsərlər, o cümlədən

«Azərbaycan Milli izahlı ensiklopedik pedaqoji lüğət» (Bakı, OKA Ofset nəşriyyatı, 2005), «Pedaqogika kafedrası üzrə təhsil proqramı» (Kurrikulum) (ADU nəşriyyatı, Bakı, 2007) bu «Əsərlər»dən kənarda qalmışdır. «Çaşıoğlu» nəşriyyatı tərəfindən 2005-ci ildə albom formasında çap olunmuş «Məktəb pedaqogikası sxemlərdə» adlı maraqlı əsəri də cildlərə daxil etmək mümkün olmamışdır.

Deyilənlər nəzərə alındığından, toplanmış materialları cildlər halında «Seçilmiş əsərlər» adlandırmalı olduq.

Ayrı-ayrı toplu halında çap olunan əsərlərin müəyyən dərəcədə Milli pedaqogika ideyaları ilə əlaqəsi vardır. Bunu nəzərə almağı oxuculardan xahiş etməyi özümüzə borc bildik.

Bununla yanaşı, toplularda cəmləşən materiallar məzmunca bəzi cəhətlərinə görə fərqləndiyindən, həmin fərqi cildlərin adlarında nəzərə almağa çalışmışıq.

Oxucuların işini asanlaşdırmaq üçün həm cildlər arasında, həm də hər cildin tərkibindəki əsərlər arasında tarix və mövzu baxımından ardıcıllığa əməl etməyə səy göstərmişik.

Hesab edirik ki, cildlərin burada adlandırılması onların hərəsində cəmləşmiş əsərlərin başlıca cəhətlərinə dair maraqlananlarda ilkin təəssüratların yaranmasına yardımçı ola bilər.

| | |
|---|---|
| **I cild:** | *Müqayisə nəzəriyyəsinin formalaşması.* |
| **II cild:** | *Pedaqoji prosesdə müqayisədən istifadənin zəruriliyi.* |
| **III cild:** | *3-cü siniflərdə «Ana dili» dərsliyinin məzmunu və tədrisinə dair (Şəkilsiz çap edilir).* |
| **IV cild:** | *4-cü siniflər üçün «Oxu» dərsliklərinin məzmunu (Şəkilsiz çap edilir).* |
| **V cild:** | *Milli pedaqogikanın həyatdan şüurlara, oradan auditoriyalara və məktəblərə süzülməsi.* |
| **VI cild:** | *İctimai-siyasi problemlərə pedaqoji müdaxilə.* |
| **VII cild:** | *Milli pedaqogikada tərbiyə məsələləri.* |
| **VIII cild:** | *Psixoloji inkişaf pedaqoji prosesin tərkib hissəsi kimi.* |
| **IX cild:** | *Pedaqoji fikir tarixindən səhifələr.* |

**X cild:** *Elmi-pedaqoji məsələlər Milli pedaqogika işığında.*

**XI cild:** *Pedaqoji prosesin bəzi ümumi məsələləri.*

**XII cild:** *Milli pedaqogikadan qidalanan orta təhsil pedaqogikasının məzmunu.*

**XIII cild:** *Milli pedaqogikadan qidalanan ali təhsil pedaqogikasının məzmunu.*

**XIV cild:** *Nurəddin Kazımov haqqında biblioqrafik məlumat.*

Haqqında sözü gedən cildlərin daha kamil çıxmasında öz köməkliyini əsirgəməyən universitetimizin əməkdaşlarına, xüsusən professor Fərahim Sadıqova (elmi redaktor), professor Fikrət Seyidova (rəyçi), dosent Ayaz Kazımova (tərtibçi), Məhbubə Ələkbərovaya, Gülnar Abdullayevaya, Tahirə Bağırovaya, Qəmər Məlikovaya, Sevda Xaspoladovaya və Səidə Qəmbərovaya (korrektorlar), Sədaqət Yusifovaya (texniki redaktor) və kompüterdə cildləri yığan əməkdaşlara müəllif öz minnətdarlığını bildirir.

# 1. BİR NEÇƏ SÖZ

Müəllimlərə təqdim etdiyimiz bu rəhbərlikdə dərsliyin bütün mətnləri üzrə metodik göstəriş verilməmişdir. Həcm imkan vermədiyindən, öyrədilməsi daha asan olan bir neçə mətn üzrə iş metodikasına toxunmamışıq. Onların öyrədilməsini müəllimlərin öhdəsinə buraxmışıq. Yay fəslinə aid bəzi materiallar da bütövlükdə bu qəbildəndir.

Tədris metodikası təqribən eyni olan mətnlərə dair göstərişlərdə də ixtisar yolu ilə getməyə məcbur olmuşuq.Bu cür şeir və ya hekayələrdən biri üzərində bir qədər ətraflı dayanaraq, onun öyrədilməsi yollarını konkretləşdirməyə çalışmışıq. Oxşar quruluşlu qalan şeirlərin və ya hekayələrin, yaxud nağılların tədrisini həmin metodikaya əsasən təşkil etməyi tövsiyə etmişik.

Rəhbərliyi yazarkən çalışmışıq ki, didaktikanın və metodikanın son nailiyyətlərinə əsaslanaq. Xüsusən təlim zamanı şagirdlərin fikri fəallığını və müstəqilliyini artıra biləcək iş tərzlərinə üstünlük verməyə çalışmışıq. Yeri gəldikcə texniki vasitələrdən istifadə etməyin imkanları göstərilmiş, materialları şagirdlərin necə başa düşdüklərinə nəzarət etməyin, lazım gəldikdə onların fikirlərini dəqiqləşdirməyin yolları müəyyənləşdirilmişdir.

Metodik məsləhətlərin konkretləşdirilməsində qabaqcıl təcrübəyə əsaslanmaq, müəllimlərin işində yol verilən nöqsanların qarşısını almaq üçün xüsusi məsləhətlər vermək rəhbərliyin əsasını təşkil edən prinsiplərdən biri olmuşdur.

Şagirdlərin nitqini inkişaf etdirməyin müxtəlif yollarından istifadə edilməsinə istiqamət vermək müəllifin diqqət mərkəzində duran məsələlərdən hesab edilməlidir.

Rəhbərliyin əsasında duran prinsiplərdən biri də mövcud metodik fikir və təcrübə ilə məhdudlaşmamaqdan, həm metodik fikrin, həm də təcrübənin sonrakı inkişafına kömək

edəcək iş priyomlarının məsləhət görülməsi və mümkün formada əsaslandırılmasından ibarətdir.

Gələcəkdə çalışacayıq ki, həmin metodik priyomların təcrübədə özünü nə dərəcədə doğrultduğunu öyrənək. Bu cəhətdən öz mülahizələrini müəllifə yazacaq müəllimlərə və başqa maarif işçilərinə qabaqcadan minnətdarlığımı bildirirəm.

## 2. «PİONERLƏRİN HƏYATI VƏ İŞLƏRİ» BÖLMƏSİ ÜZRƏ MATERİALLARIN PLANLAŞDIRILMASI VƏ TƏDRİSİ

| Dərslər | Mövzu | Müəllif | Saat |
|---|---|---|---|
| 1-ci | «İlk gün» | N.Gəncəli | 1 s. |
| 2-ci | «Poçtalyon» | Q.Musayev (İlkin) | 1 s. |
| 3-cü | «Dəftər üzü» | S.Qədirzadə | 1 s. |
| 4-cü | «İrəliləyirik» | | 1 s. |
| 5-ci | Sinifdənxaric qiraətə hazırlıq (oxunacaq əsərlərin hesaba alınması üçün dəftərin tərtibi haqqında) | | |
| 6-cı | «Yürüş mahnısı» | H.Abbaszadə | 1 s. |
| 7-ci | «Yaxşı yoldaş» | | 1 s. |
| 8-ci | «Yaxşı yoldaş» | Q.Musayev | 1 s. |
| 9-cu | «Ehtiyatlı olun» | Q.Musayev | 1 s. |
| 10-ci | «Pioner» | T.Mahmud | 1 s. |
| 11-ci | «Qoşa çinar» | X.Hasilova | 1 s. |
| 12-ci | Ümumiləşdirici dərs | | 1 s. |

**«İlk gün».**

Şeirin məzmununu yaxşı başa salmaq və onun şagirdlər tərəfindən şüurlu, ifadəli, sürətli oxusunu təşkil etmək məqsədi ilə müəllim şeirin oxunuşundan əvvəl kiçik giriş söhbəti keçirsə, faydalı olar. Giriş söhbəti zamanı müəllim ayrı-ayrı uşaqların yay tətili günlərini harada və necə keçirdiklərini aşkara çıxarır. Bundan sonra müəllim şagirdlərə dərsin başlandığı ilk günü – sentyabrın birini, həmin gün uşaqların dəstə-dəstə, gül-çiçəklə məktəbə gəlmələrini təsvir etdirir.

Bu cür söhbət əsasında müəllim deyir ki, şair Novruz Gəncəli dərslərin ilk gününə aid şeir yazmışdır.

Müəllim şeiri özü nümunə üçün oxuyur və sonra hər bəndi bir şagirdə oxutdurur. Qalan şagirdlərin diqqətini qiraətin texnikasına yönəldir, səhv ifadə və vurğuları şagirdlərin vasitəsi ilə düzəldir.

Müəllim şeirə nə üçün «İlk gün» adı verildiyini, şeirdəki «ulu», «üfüq», «çadır», «yaylaq», «meh», «zirvə», «şeh», «gümrah» kimi sözlərin mənasını uşaqlardan soruşur.

**Ulu** – böyük, dahi.

**Üfüq** – səmanın (göyün) yerlə birləşdiyini göstərən xətt; yerin uzaqlarda gözlə görünən son xətti.

**Çadır** – yay zamanı çəmənliklərdə, meşələrdə, dağın döşündəki yastanalarda keçədən, qalın parçadan (brezentdən) müvəqqəti qurulan yaşayış yeri – ev.

**Yaylaq** – yay zamanı sərin dağların qoynunda adamların dincəldikləri, istirahət etdikləri yer; yay zamanı qoyun sürülərinin, heyvanların otladıqları yer.

**Meh** – yayda yava-yavaş əsən sərin külək.

**Zirvə** – dağın ən uca hissəsi.

**Şeh** – yayda, payızda gecələr və səhərlər yarpaqların, otların üstündə yığılan su damcıları.

**Gümrahlıq** – çəldlik; çeviklik; oynaqlıq; sağlamlıq; xəstəlikdən uzaq olma.

**«Poçtalyon».**

1. **Giriş söhbəti.** Hekayəni oxumazdan əvvəl müəllim yayda uşaqların ata-analarına, böyüklərə nə ilə kömək etdikləri, təsərrüfatda, ictimai işlərdə necə iştirak etdikləri haqda söhbət keçirir. Söhbət zamanı şəhər və kənd ətrafındakı pioner düşərgələrinin, şəhərlərin bəzi böyük kvartallarındakı pioner düşərgələrinin həyatına toxunmaq, oralarda olmuş uşaqların ictimai işlərdəki fəaliyyətlərindən danışmalarını təşkil etmək olar.

2. **Mətnin oxunuşu**. Belə bir ictimai zəmin yaradandan sonra hekayənin izahlı qiraətinə başlamaq çox fayda verər. Sinifdə oxu texnikasına yaxşı yiyələnmiş uşaqlar varsa

hekayəni iki-üç hissəyə ayırıb həmin uşaqlara oxutmaq da məsləhət olardı. Sinifdə belə uşaqlar olmadıqda isə hekayəni müəllim özü oxumalı və sonra uşaqlara oxutmalıdır.

Hekayəni hissə-hissə oxutmazdan əvvəl sinifdəki şagirdlərə təklif etmək lazımdır ki, qiraətə diqqətlə qulaq assınlar, çünki hekayəni danışmaq tələb ediləcəkdir.

Sinfin diqqətini axıradək oxu texnikasına və hekayənin məzmununa cəlb etmək üçün vaxtaşırı ayrı-ayrı şagirdləri sorğu-suala tutmaq, oxunan yeri göstərməyi, oxunmuş son cümləni təkrar etməyi, orada nədən danışıldığını söyləməyi onlardan tələb etmək yaxşı nəticə verir.

3. **Mətn üzrə müsahibə**. Hekayə oxunub qurtardıqdan sonra mətn üzrə sual-cavab keçirilməsi məsləhətdir. Sual-cavabdan əsas məqsəd hekayədəki hadisələrə uşaqların münasibətini aşkara çıxartmaqdan ibarətdir. Bu cür suallarla sinfə müraciət etmək olar:

-Poçtalyon Həsən dayı nə üçün qəzet və məktubları paylamağa əvvəlcə razılıq vermədi?

-Necə oldu ki, Həsən dayı pionerlərlə razılaşdı?

-Pionerlərin qərarı xoşunuza gəlirmi? Nə üçün?

-Həsən dayı haqqında divar qəzetinə məqalə yazmaqda və onun şəklini çəkməkdə pionerlər nə üçün düzgün hərəkət etmişdilər?

-Sizcə, qəzetdə uşaqlar poçtalyon haqqında nə yazmışdılar?

4. **Yazıçı haqqında məlumat**. Müəllim yazıçı haqqında şagirdlərə kiçik məlumat da verə bilər. Məsələn, deyə bilər ki, hekayəni Qılman Musayev yazmışdır. Yazıçı 1914-cü ildə Bakıda anadan olmuşdur. O, Azərbaycan uşaq yazıçılarından biridir; bir sıra maraqı hekayələr yazmışdır: «Mayor», «Göy adamı», «Yazılı daş», «Üçtəpə uşaqları», «Çalpapaq» bu cür hekayələrdəndir.

**«Dəftər üzü».**

1. **Giriş söhbəti**. Hekayəni oxumazdan əvvəl müəllim giriş müsahibəsi keçirə bilər. Məsələn, uşaqlara deyə bilər ki, dərsə, dəftər və kitaba, oxumağa münasibət haqqında çox şey eşitmiş

və görmüş olarsınız. Uşaqların çoxu məktəbi, oxuyub bilik almağı sevir. Amma, oxumaqda tənbəllik edən, kitab və dəftərlərini səliqəsiz saxlayan tək-tək uşaqlar da olur. Bəzən, hətta müəllimə yalan danışanlarla da qarşılaşır. İndi biz bu cür şagirdlərdən biri haqqında yazılmış bir hekayəni oxuyacağıq.

2. **Hekayənin oxunuşu**. Bundan sonra müəllim hekayəni hissə-hissə uşaqlara oxudur. Oxunan hissələrin nisbətən bitmiş hissələr olduğunu müəllim əvvəlcədən müəyyənləşdirməlidir. Məsələn, şagirdlərdən biri «Uşaqlar, Tələtin hesab dəftərini tapan olmayıb?» sualına qədər, digəri «Bəs bu nədir? –deyə sakitcə soruşdu» ifadəsinə qədər, üçüncüsü isə arxasını oxuya bilər.

3. **Mətn üzrə müsahibə**. Hekayənin oxunuşu qurtardıqdan sonra sual-cavab aparmaq, ayrı-ayrı epizodların şagirdlər tərəfindən necə başa düşüldüyünü yoxlamaq olar. Hekayənin hissələrinin sinif tərəfindən mənimsənildiyini yəqin etdikdən sonra onu tam şəkildə bir-iki şagirdə danışdırmaq mümkündür. Bu əsasda hekayənin məzmununa yenidən qayıtmaq, oradakı epizodlara, Tələtin və Niyazinin hərəkətlərinə şagirdlərin münasibətini aydınlaşdırmaq lazımdır. Məsələn, sinif qarşısında bu cür suallar qoymaq olar.

-Tələt dəftərini çərpələng etməkdə düzgünmü hərəkət etmişdi?

-Tələtin yalan danışmağına siz necə baxırsınız?

-Sizcə, məsələnin üstünü açmaqda Niyaziyə nə üçün haqq qazandırmaq lazımdır?

-Niyazi sussa idi, məsələnin üstünü açmasaydı, yalanın axırı necə ola bilərdi?

-Hekayənin əhəmiyyətini nədə görürsünüz?

4. **Yazıçı haqqında söhbət**. Müəllim şagirdlərdən soruşa bilər: Salam Qədirzadənin daha hansı hekayələrini oxumusunuz?

Bu son suala sinifdə cavab verən olmasa müəllimin özü deyə bilər ki, S.Qədirzadənin bir çox hekayələri, o cümlədən «Sarmaşıqlı aynabənd», «Yarpaqlar pıçıldaşır» və s. adda hekayələri vardır.

**«İrəliləyirik».**

1. **Giriş söhbəti**. Hekayə üçün giriş söhbəti son dərəcə vacibdir. Pionerlərin həyatından, onların işlərindən danışmaq, pionerləri təşkilata daxil olmağa hazırlamaq üçün mətn əlverişli imkan yaradır. Həmin imkandan hər bir müəllim lazımınca istifadə etməlidir.

Müəllim giriş söhbətində pioner təşkilatının əhəmiyyətindən, Vətəndaş müharibəsi illərində pionerlərin qəhrəmanlıq nümunələrindən, Saşa Çekalin, Lyonya Qolikov, Volodya Dubinin, Vanya Andrianov, Kolya Leontyev, Kostya Kravçuk, Pavlik Morozov, Genya Şukin və başqa pionerlərin qəhrəmanlıqlarından, məktəb pionerlərinin nəcib işlərindən söz aça bilər. Həmin məktəbin pionerlərinin həyat və fəaliyyətlərindən, keçən il 3-cü sinifdə olmuş pionerlərin işlərindən də misallar gətirilməlidir. Söhbət nəzərdə tutulmuş mətnlə əlaqələndirilməlidir. Bu məqsədlə müəllim deyə bilər:

-Uşaqlar, bu gün biz 3-cü siniflərdə pionerlərin işinə həsr olunmuş bir hekayə ilə tanış olacağıq.

2. **Mətnin oxunuşu**. Sinifdə sürətli və ifadəli oxumağı bacaran şagird olarsa hekayəni ona oxutmaq, belə uşaq olmadıqda onu üç yerə bölmək və hər hissəni bir şagirdə oxutmaq da mümkündür. Şagirdlərdən biri, məsələn, «Sonra üçüncü «b» sinfinin şagirdi Çimnaz sözə başladı. O, fərəhlə dedi» ifadəsinədək, digəri «Pioner əməyi sevməlidir» ifadəsinə qədər olan yeri, üçüncüsü isə hekayənin son hissəsini oxuya bilər.

3. **Hekayə üzrə müsahibə**. Hekayə tam oxunduqdan sonra sual-cavab keçirmək və nəhayət, sinifdə pionerə keçmiş uşaqları danışdırmaq, qalan uşaqların isə pionerə keçmək üçün necə hazırlaşdıqları barədə fikir söyləmələrini təşkil etmək yaxşı nəticə verər.

4. **Əlavə məlumat**. Müəllim Sovet İttifaqı pionerlərinin qanunları ilə şagirdləri tanış edə bilər. Deyə bilər ki, pionerin aşağıdakı qanunları vardır:

*Pioner əməyi sevir.*

*Pioner komsomolçu olmağa hazırlaşır.*

*Pioner bütün ölkələrin zəhmətkeş balalarının və şagirdlərinin dostudur* və s.

*Pioner doğru danışır və öz dəstəsinin şərəfini qoruyur.*

*Pioner balacaların qeydinə qalır və böyüklərə hörmət edir* və s.

*«Həmişə hazır ol» pionerin rəmzidir.*

Pionerin çağırışı belədir: «*Gənc pionerlər, Sovet İttifaqı Kommunist Partiyası işi uğrunda mübarizəyə hazır ol!*»

Pionerlər cavab verirlər: *«Həmişə hazıram!»*

**Sinifdənxaric qiraətə hazırlıq.**

Hər sinif müəllimi sinifdə kitabxana yaradılmasına çalışır.

Uşaqların evdə xüsusi kitabxana təşkil etmələri də müəllimdən asılıdır. Müəllim valideynlərin vasitəsilə çalışmalıdır ki, uşaqlar evdəki və sinifdəki kitabxanadan istifadə etsinlər.

Təcrübəli müəllim məktəbin kitabxanasına da əsaslanır. Bu imkanları nəzərə alan müəllim il ərzində uşaqların sinifdənxaric oxusunu planlaşdırır. Ev, sinif və məktəb kitabxanasına əsaslanan müəllim şagirdlərin il ərzində oxumalı olacaqları kitabların siyahısını tutur. Həmin kitablarla birinci növbədə özü tanış olur. Bundan sonra müvafiq kitabların oxunmasını uşaqlara tövsiyə edir.

Aydındır ki, əvvəlcə həcmi kiçik və daha maraqlı kitabların qiraəti təşkil edilir. Bu, sinifdənxaric qiraətə qarşı uşaqlarda marağın güclənməsinə səbəb olur. Vaxt keçdikcə uşaqlara həcmcə iri olan materialları təklif etmək məsləhətdir.

Sinifdənxaric oxu üçün uşaqlara şeir də, hekayə də, nağıl da məsləhət görmək olar.

Sinifdəki bütün şagirdlərin eyni hekayəni, eyni şeiri və ya nağılı oxuması məsləhətdir. Bu, oxunmuş material üzrə sonralar sinifdə aparılacaq müsahibəni xeyli asanlaşdırır.

Eyni materialın miqdarı şagirdlərin sayı qədər olmadıqda uşaqlar bir deyil, bir neçə adda material oxuya bilərlər.

Başqa sözlə, sinifdənxaric qiraəti təşkil edərkən oxunacaq materialın miqdarını nəzərə almaq vacibdir.

Müəllim ona çalışmalıdır ki, sinifdənxaric qiraət üzrə hər şagird bir dəftər ayırmış olsun. Şagird oxuduğu kitabın adını, onun müəllifinin ad və soyadını qeyd edir. Oxunmuş kitabın, hekayənin, şeirin qısa məzmununu yazmaq, orada şagirdin xoşuna gələn cəhəti qeydə alması şagirdin ümumi inkişafı üçün son dərəcə vacibdir.

**«Yürüş mahnısı».**

1. **Giriş söhbəti**. Şeirin «İrəliləyirik» adlı hekayə ilə əlaqəsi olduğunu müəllim unutmamalıdır. Müəllim giriş söhbətində qeyd etməlidir ki, pionerlərin işi yalnız məktəblə, yalnız ailə ilə məhdudlaşmır. Pionerlər yaxşı oxuduqları, böyüklərə kömək etdikləri, ictimai işlərdə fəal olduqları kimi, fəal istirahət etməyi də bacarırlar. Onlar boş vaxtlarını səmərəli keçirir, müxtəlif oyunlar təşkil edirlər, istirahət günləri və tətil zamanı kollektiv şəkildə gəzintiyə gedir, parklarda olur, dəniz və çay kənarlarına, meşəyə, çölə, tarlaya səyahətə gedirlər. Böyük vətənimizin təbii gözəlliklərini seyr edir, bu gözəlliklərdən həzz alırlar.

Müəllim sözünə davam edərək deyə bilər ki, pionerlərin istirahətinə dair çoxlu hekayələr və şeirlər yazılmışdır. Onlardan biri də şair Hüseyn Abbaszadənin yazdığı «Yürüş mahnısı»dır. Biz bu gün həmin şeiri oxuyacağıq.

2. **Şeirin oxunuşu.** Şeir kiçik olduğundan, onu müəllimin özü və ya qiraəti gözəl olan şagirdlərdən biri nümunəvi oxuyur.

Bundan sonra şeiri bir neçə şagirdə də oxutmaq, uşaqların oxu texnikasını cilalamaq, inkişaf etdirmək olar.

3. **Şeir üzrə söhbət**. Bundan sonra şeirin məzmunu üzrə müsahibə keçirmək faydalıdır. Müsahibəni aşağıdakı suallar üzrə aparmağı məsləhət görərdik:

-Pionerlər özlərini nə üçün Leninin nəsli hesab edirlər?

-Pionerin məqsədləri haqqında şeirin hansı bəndində nə deyilir?

-«Fikrimiz yurdumuzun səhəri tək açıqdır» misrasını necə başa düşürsünüz?

4. **Mətnin həyatla əlaqələndirilməsi**. Şeir haqqında söhbəti sinif və məktəblə əlaqələndirmək də məqsədəmüvafiq olardı. Bu məqsədlə sinif qarşısında belə suallar qoymaq mümkündür:

-Bizim məktəbin pionerləri öz istirahətlərini necə keçirirlər?

-Onların hansı yerlərə səyahətə getdiyini bilirsiniz?

-Özünüz boş vaxtınızı necə keçirir, necə istirahət edirsiniz?

Ev üçün tapşırmaq olar ki, uşaqlar şeiri əzbərləsinlər və şeirin son bəndinin məzmununu ifadə edən şəkil çəksinlər.

**«Yaxşı yoldaş».**

1. **Giriş söhbəti**. Mövzu uşaqlar arasında dostluq hissini gücləndirmək, dostluq anlayışını dəqiqləşdirmək üçün müəllimə lazımi material verir. Buna görə də müəllim şagirdlərin nəzərinə çatdıra bilər ki, dostluq ən gözəl hisslərdən biridir. Dostluq uşaqlıq illərində də, böyüyəndə də çoxlarının köməyinə gəlir. Müəllim həyatda dostluğun mənasını uşaqların gözü qarşısında canlandırmaq üçün giriş söhbətində nəcib dostluq nümunələrindən, Marksla Engels; Leninlə Krupskaya arasında və başqa şəxslər arasında dostluq, yoldaşlıq əlaqələrindən danışa bilər.

Məktəbdə və sinifdə uşaqlar arasında dostluğa nümunə göstərilәsi fakt varsa, bu cür faktlara da müraciət etmək olar. Nəhayət, sinfə demək olar ki, şagirdlər arasında dostluq və yoldaşlığa həsr olunmuş hekayələrdən biri də «Yaxşı yoldaş» adlı hekayədir. Bu gün həmin hekayəni oxuyacağıq

2. **Hekayənin oxunuşu**. Hekayə üç hissəyə bölünmüşdür. Hər hissəni bir şagirdə oxutmaq, sonra isə həmin hissələrin hərəsini ayrılıqda bir şagirdə danışdırmaq olar.

3. **Mətn üzrə müsahibə**. Hekayənin məzmununu uşaqlara daha yaxşı mənimsətmək və onların məntiqi mühakimə

yürütmək qabiliyyətini inkişaf etdirmək məqsədi ilə aşağıdakı suallar ətrafında şagirdləri düşündürmək olar:

-Ramiz Cavaddan nə üçün küsmüşdü?

-Ramiz küsməkdə nə üçün səhv etmişdi?

-Məktəbdən gedərkən Cavadı gözləməməkdə Ramiz haqlı idimi? Nə üçün yox?

-Cavad əsl dost olduğunu necə sübut etdi?

-Sizcə, hadisəni eşidənlər, ata və anaları Cavad və Ramiz haqqında nə fikirdə olmuşlar?

4. **Evə tapşırıq**. Evə tapşırmaq olar ki, uşaqlar oxunmuş hekayənin hissələrinə ad verməklə onun planını tutsunlar və hekayəni həmin plan əsasında danışsınlar. Əgər sinifdəki şagirdlərin mətnin hissələrinə ad vermək yolu ilə plan tərtib etmək səriştəsi yoxdursa, müəllim bu sahədə onlara ilk istiqamət verə və hissələrə özü ad verə bilər. Məsələn, birinci hissəni – Cavadla Ramiz arasında narazılıq necə başladı; ikinci hissəni – Cavadın Ramizə çatması və onu tapması; üçüncü hissəni isə – Cavadın Ramizə köməyi kimi adlandırmaq olar.

5. **Atalar sözləri üzərində çalışma**. Hekayənin məzmununa uyğun gələn atalar sözlərini seçib yadda saxlamağı və gələn dərsdə deməyi də uşaqlara tapşırmaq yaxşı olardı.

**«Pioner».**

1. **Giriş söhbəti**. Şeir üzərində bilavasitə işə keçməzdən əvvəl müəllim «İrəliləyirik» adlı hekayəni və «Yürüş mahnısı» adlı şeiri uşaqlara xatırlada bilər. Çünki «Pioner» adlı şeirin məzmunu həmin materiallarla bağlıdır. Bu şeir pionerin həyatında əlamətdar günə – pioner sıralarına daxil olmaq hadisəsinə həsr edilmişdir. Pionerə isə uşaqlar, əsasən, üçüncü sinifdə daxil olurlar. Hələ pionerə daxil olmamış şagirdlərdə böyük həvəs əmələ gətirmək üçün «Pioner» adlı şeir müəllimə xeyli kömək edə bilər.

2. **Şeirin oxunuşu**. Bütün bu cəhətlərin giriş müsahibəsində nəzərə alan müəllim şeirin oxunuşunu təşkil edir. Yaxşı olar ki, şeiri ilk dəfə müəllim özü oxusun. Çünki şeirin

mənasından əlavə, onun axıcılığını, şeirin musiqililiyini, onun gözəlliyini yalnız ifadəli oxu hiss etdirə bilər.

Müəllimin nümunəvi oxusundan sonra şeiri şagirdlərə oxutmaq lazımdır. Bu zaman nümunəvi oxunun bütün tələblərini gözləməyi uşaqların nəzərinə çatdırmağın vacibliyini unutmaq olmaz.

3. **Mətnin həyatla əlaqələndirilməsi**. Şeirin məzmununu siniflə, sinifdəki uşaqların hissləri ilə əlaqələndirmək də yaxşı nəticə verər. Bu məqsədlə uşaqlara belə suallar vermək mümkündür.

-Pionerə keçərkən kim Məlik tək sevinmişdir?

-Pioner sıralarına daxil olmaq istəyənlər necə hazırlaşırlar?

4. **Evə tapşırıq**. Şeiri evdə əzbərləməyi uşaqlara tapşırmaq olar.

**«Ehtiyatlı olun».**

1. **Giriş söhbəti**. Maşınların sayının sürətlə artdığı indiki şəraitdə hərəkət qaydaları haqqında danışmağın böyük əhəmiyyəti vardır. Bu mövzuda söhbət xüsusən böyük şəhərlərdə, rayon mərkəzində yaşayan uşaqlar üçün faydalıdır. Küçədə ehtiyatsızlıq üzündən faciəli ölüm hadisələri haqqında uşaqlara məlumat vermək zəruridir. Küçələrdə və yollarda avtomobil, tramvay, trolleybus altında qalıb həlak olmaq halları ən çox hərəkət qaydalarına əməl etməməkdən irəli gəlir.

2. **Həyatla əlaqə**. Küçə və yol hərəkəti ilə əlaqədar bildikləri hadisələri danışmağı uşaqlara təklif etmək olar.

3. **Əyanilikdən istifadə**. Küçə və yol hərəkəti qaydaları haqqında söhbət apararkən əyani vasitələr, tablolar, sxemlər, şəkillərdən də istifadə etmək yaxşıdır. Məktəbin və ya rayonun filmotekasından hərəkət qaydalarına aid qısametrajlı film alıb sinifdə nümayiş etdirmək məqsədəuyğundur.

**«Qoşa çinar».**

1. **Giriş söhbəti**. Hekayə kənd həyatı ilə uşaqları tanış edir. Bu ideyadan əlavə mətn yaşlıların uşaqlara təsirindən, yaşlıların həyat təcrübəsini uşaqların öyrənməsinin vacibliyindən söhbət açmağa imkan verir.

Müəllim giriş söhbətində hər iki ideyanı nəzərə almalıdır. Müəllim deyə bilər ki, hər yerdə: evdə də, kənddə və ya şəhərdə də, tramvayda və ya avtobusda da qocalara hörmət etmək, onlara qulaq asmaq lazımdır. Çünki həyatda hər nə varsa hamısı: binalar da, bağlar da, maşınlar da yaşlıların əməyinin məhsuludur. Onlar dünyagörmüş adamlardır. Bizim ata-babalarımız çox yaşayıb, çox gəzib, çox görüb, çox bilirlər. Belə adamlar şəhərlərdə də, kəndlərdə də vardır.

Bu məzmunda giriş söhbətini hekayə ilə əlaqələndirmək üçün müəllim deyə bilər ki, uşaqlar, biz indi qocaların faydalı əməyini göstərən bir hekayə oxuyacağıq. Hekayə belə adlanır: «Qoşa çinar».

2. **Hekayənin oxunuşu**. Hekayəni beş şagirdə oxutmaq olar. Çinarı təsvir edən ilk abzası bir şagird, Nüsrət əminin özünü və əməyini tərənnüm edən ikinci abzası başqa şagird, «yoxsa indi, qoşa çinar olacaqdı» ifadəsinə qədər üçüncü şagird «İki çeşməmiz var. Kənddə nə əksən tutar» ifadəsinədək dördüncü şagird, qalan son abzası isə beşinci şagird oxuya bilər.

3. **Mətn üzrə müsahibə**. Bundan sonra mətn üzrə müsahibə təşkil etmək lazımdır. Müsahibə zamanı oxunmuş hər hissə üzrə bir sual vermək faydalıdır:

-Çinarı kim təsvir edər?

-Nüsrət əminin görkəmi və əməyi haqqında hekayədə nə deyilir?

-Çinarın dibində Nüsrət əmi Calala nə danışdı?

-Calal babasına nə təklif etdi?

-Calalın əkdiyi çinar haqqında hekayədə nə deyilir?

Göründüyü kimi, suallar da hekayənin hissələrinə uyğun qoyulmuşdur. Bu, hekayə üzrə şagirdlərin plan tutmasını və həmin plan üzrə danışmasını asanlaşdırar.

4. **Həyatla əlaqə**. Axırda hekayəni kəndin və ya şəhərin həyatı ilə əlaqələndirmək vacibdir. Bu məqsədlə uşaqlardan tələb etmək olar ki, Nüsrət baba kimi tanıdıqları və gördükləri qocalardan danışsınlar. Burada uşaqların yaşlılardan nələri öyrəndiklərinə də xüsusi diqqət yetirmək yaxşı olardı.

**Ümumiləşdirici dərs.**

İndiyədək keçilmiş materialları şagirdlərin fəal iştirakı ilə sistemə salmaq və ümumiləşdirmək lazımdır. Bu məqsədlə oxunmuş bütün mətnlərin adlarını şagirdlərdən soruşmaq olar. Yaddan çıxmış hekayənin və ya şeirin adını müəllim özü uşaqlara xatırladır.

Bundan sonra materialları qruplaşdırmaq məqsədi ilə müəllim aşağıdakı suallarla sinfə müraciət edə bilər:

-Hansı şeir və hekayə yay tətili zamanı uşaqların gördüyü işlərə aiddir?

-Hansı materiallar dərslərin başlanmasını tərənnüm edir?

-Hansı şeir və ya hekayə pionerlərin məktəbdə gördüyü işləri təsvir edir?

-Hansı mətnlər dərsdən sonra şagirdlərin gördüyü işləri əks edir?

-Pioner əsl pioner olduğunu hansı sahələrdə göstərə bilər?

Bu cür suallar ətrafında aparılan söhbət zamanı çalışmaq lazımdır ki, şagirdlər oxunmuş hekayələrdən və şeirlərdən faktlar, fikirlər gətirsinlər. Söhbət uşaqlarda belə bir əqidənin möhkəmləndiyinə xidmət etməlidir ki, pioner hər yerdə: məktəbdə də, məktəbdənkənar ictimai yerlərdə də, təlimdə də, ictimai işlərdə də ləyaqətli, nəcib əməlləri ilə fərqlənir, hamının sevimlisi olur. Bütün şagirdlərin, o cümlədən pionerlərin gümrah böyümələri üçün, oxuyub boya-başa çatmaları üçün lazım olan hər cür şəraiti Sovet hökuməti yaratmışdır.

## 3. «QƏHRƏMAN KEÇMİŞİMİZDƏN» BÖLMƏSİ ÜZRƏ MATERİALLARIN PLANLAŞDIRILMASI VƏ TƏDRİSİ

| Dərslər | Mövzu | Müəllif | Saat |
|---|---|---|---|
| 13-cü | «Ananın səsi» | Y.Şirvan | 1 s. |
| 14-cü | «Ananın səsi» | Y.Şirvan | 1 s. |
| 15-ci | «Babək» | Y.Şirvan | 1 s. |
| 16-cı | «Babək» | | 1 s. |
| 17-ci | «Koroğlu ilə Dəli Həsən» | | 1 s. |
| 18-ci | «Koroğlu ilə Dəli Həsən» | | 1 s. |

| | | | |
|---|---|---|---|
| 19-cu | Sinifdənxaric qiraətin yekunlaşdırılması | | |
| 20-ci | «Qaçaq Nəbi» | | 1 s. |
| 21-ci | «Qaçaq Nəbi» | | 1 s. |
| 22-ci | «Həcər» | Ə.Vəliyev | 1 s. |
| 23-cü | «Həcər» | Ə.Vəliyev | 1 s. |
| 24-cü | Ümumiləşdirici dərs | | 1 s. |

«Qəhrəman keçmişimizdən» adlı bölmədə bir sıra material verilmişdir. «Ananın səsi», «Babək», «Koroğlu ilə Dəli Həsən», «Qaçaq Nəbi», «Həcər» kimi mətnlərin qiraət kitabına daxil edilməsindən başlıca məqsəd bədii parçalar əsasında uşaqları Azərbaycan xalqının qəhrəman keçmişi ilə tanış etməkdən, onlarda xalqın igid keçmişinə rəğbət hissini, Vətənə, xalqa məhəbbət hissini, milli iftixar hissini gücləndirməkdən, keçmişlə müasir həyat arasında körpü yaratmaqdan ibarətdir. Bununla yanaşı müəllim hər mətnlə əlaqədar olaraq tarixi faktlar haqqında şagirdlərin müstəqil fikir söyləmələri, tarixi şəxslərə, onların hərəkətlərinə öz münasibətlərini bildirmələri qayğısına da qalmalıdır.

«Qəhrəman keçmişimizdən» adlı bölmədəki mətnlər ayrı-ayrı dərslərdə keçildikdən sonra yekun dərsdə bütün materialları şagirdlərin qüvvəsi ilə ümumiləşdirmək lazımdır.

Bölmənin materialları haqqında dediyimiz bu ümumi mülahizələri bir neçə mətn nümunəsində konkretləşdirək.

**«Ananın səsi».**

Hekayəni iki dərs ərzində birinci dərsdə keçmək məsləhətdir.

1. **Mətnin oxunuşu**. Hekayəni bir neçə məntiqi hissəyə bölüb, hər hissəni ifadəsi nümunəvi olan bir şagirdə oxutmaq lazımdır. Mətni, məsələn, yeddi hissəyə ayırmaq olar. Mətnin 14-cü səhifədəki hissəsini şagirdlərdən birisi, «Hökmdar» sözündən «Heç bir şey onun qoluna qüvvət verə bilməzdi» cümləsinə qədər digəri, «Ana el başçılarını yanına çağırtdırıb, onlara belə dedi» ifadəsinədək üçüncü, «Ana susdu» cümləsinədək dördüncü, «Ana Cavanşiri çağırtdırdı» cümləsinədək beşinci, «Bir neçə vaxt sonra

anaya xəbər çatdırdılar ki…» ifadəsinədək altıncı, qalan hissəni isə yeddinci şagird oxuya bilər.

2. **Lüğət üzərində iş**. Sonra çətin sözlər üzərində şagirdlərin işini təşkil etmək lazımdır. Həmin mətnə həsr olunan ikinci dərsdə hekayəni yenidən hissə-hissə oxutmaq məsləhətdir.

3. **Mətn üzrə sorğu**. Mətn tam oxunub qurtardıqdan sonra aparılan sorğu zamanı həmin hissələri nəzərə almaq, hərəsinin məzmununu açmağa xidmət edən suallar qoymaq olar.

4. **Plan üzərində iş**. Hekayənin hissələrə bölünməsi, hər hissənin bir şagird tərəfindən oxunması və hissələrin məzmununa uyğun gələn sualların qoyulması həm hekayənin yaxşı yadda qalmasına kömək edər, həm də hekayə üzrə plan tərtibini asanlaşdırar. Nəzərdə tutulan suallar təqribən belə ola bilər:

-Böyük Ağvan hökmdarının qocalıq illərində hansı əhvalat baş vermişdi?

-Hökmdarın çağırışına el necə cavab verdi?

-Ana elin dərdinə necə şərik oldu?

-Ana el başçılarına nə dedi?

-Cavanşir anasının sözünə nə ilə cavab verdi?

-Hekayə nə üçün «Ananın səsi» adlandırılmışdır?

5. **Hekayənin nağıl edilməsi**. Bu cür suallara cavab alandan sonra bir-iki şagirdə hekayəni danışmağı təklif etmək olar. Çalışmaq lazımdır ki, hekayəni qiraətdə iştirak etməmiş şagirdlər danışsınlar.

6. **Obrazlı ifadələr üzərində iş**. Bədii ifadələr üzrə şagirdlərin işini təşkil etmək üçün evə tapşırıq verilməsi şagirdlərin nitqini zənginləşdirməyə xidmət edir.

Tapşırıq əsasında işləyən uşaqlar bu cür obrazlı ifadələri seçib dəftərlərinə yaza bilərlər: «İllər onun belini əymiş, ömrü xəzana dönmüşdü», «Başı şah dağı kimi ağarmış ana», «O, böyük budaqda qalmış axırıncı meyvə idi» və s.

İkinci dərsdə bu cür ifadələrin mənasını və gözəlliyini ayrı-ayrı şagirdlərin necə başa düşdüklərini aydınlaşdırmaq lazımdır.

**«Babək».**

Hekayə özü iki hissəyə ayrılmışdır. Onun hər hissəsini bir dərsdə keçmək lazımdır. Çünki mətn həm ağır, həm də çoxdur.

*Birinci dərs.*

1. **Giriş söhbəti**. Giriş söhbəti Azərbaycan xalqının düşmənlərə qarşı qəhrəman mübarizəsinə həsr edilir. Müəllim deyir ki, hələ uzaq keçmişlərdə bizim ata və babalarımız düşmənlərə qarşı vuruşmuş, öz torpağını, öz vətənini yadellilərdən qorumuşdur. Həmin vuruşmalarda xalqımızın oğulları böyük igidliklər göstərir, ölümdən qorxmurdular. Azərbaycan xalqının belə oğullarından biri də Babək idi. Gəlin Babək haqqında hekayə oxuyaq.

2. **Hekayənin oxunuşu**. Müəllim hekayənin birinci yarısını beş yerə bölə bilər: 1) birinci abzas; 2) ikinci abzas; 3) üçüncü abzas; 4) dördüncü və beşinci abzaslar; 5) nəhayət beşinci abzasdan sonrakı hissə.

Hər hissəni bir şagirdə oxutmaq daha faydalıdır.

Hekayənin qiraətinə başlamazdan əvvəl uşaqlara tapşırmaq lazmdır ki, mənasını yaxşı başa düşmədikləri sözləri dəftərlərinə yazsınlar.

3. **Lüğət üzərində iş**. Hər şagird çətin hesab etdiyi sözü deyir, müəllim isə onu yazı taxtasına yazır. Sonra həmin sözlərin mənasını uşaqların köməyi ilə izah edir. Uşaqlar bu sözləri ayrı bilər: kədərli, obalar.

**Kədər** – qəm, qüssə.

**Oba** – el, doğma yer.

4. **Mətnin məzmunu üzərində iş**. Hekayənin məzmununu uşaqların daha yaxşı dərk etmələri üçün müəllim sual-cavab aparır. Bu zaman aşağıdakı suallardan istifadə etmək olar:

-Anası Babəkə çörək apararkən nə üçün kədərli idi?

-Babək nə üçün nökərçilik edirdi?

-Babək nə üçün güclü idi?

-Anası dağın başına çatanda nə gördü?

-Babək neçə canavar öldürmüşdü?

5. **Evə tapşırıq**. Tapşırmaq olar ki, hekayənin ilk yarısını uşaqlar evdə oxusunlar və belə bir suala cavab yazsınlar:

Balaca Babəkin qorxmaz, cəsarətli olduğunu nədən bilirsiniz?

*İkinci dərs.*

1. **Ev tapşırığının yoxlanması**. Verilmiş suala kimin necə cavab yazdığını müəllim yoxlayır. O, şagirdlərin arasında daha məzmunlu yazısı olanı ayağa qaldırır və oxudur. Lazım gələrsə, daha bir neçə şagird öz yazısı ilə sinfi tanış edir.

2. **İkinci hissənin oxunuşu**. Bu hissəni beş parçaya ayırmaq olar: 1) «İllər keçdikcə Babək toyda, bayramlarda güclü pəhlivanlarla güləşər və hər dəfə qalib gələrdi» cümləsinə qədər; 2) «Elə bir vaxt gəlib çatdı ki» ifadəsinə kimi; 3) «Babək də dərhal öz qoçaq yoldaşları ilə onların köməyinə gedir» ifadəsinədək; 4) «Bundan xəbər tutan Babək yolların ağzında bir neçə qala tikdirdi» ifadəsinə qədər və 5) Sona kimi.

Müəllimin göstərişi ilə hər hissəni bir şagird oxuyur.

3. **Məzmun üzərində iş**. Hekayənin ikinci yarısının məzmununu daha yaxşı başa düşmək üçün müəllim oxunan bir hissə üzrə şagirdlər tərəfindən sual qoyuluşunu təmin edir. Şagirdlər təqribən aşağıdakı sualları irəli sürə bilərlər:

-Necə oldu ki, quldurlar sürüdən qoyun apara bilmədilər?

-Ərəblərin hökmdarı nə qərara gəldi?

-Babəkin dəstəsini məğlub etmək nə üçün mümkün olmurdu?

Uşaqlar bu cür suallar verməkdə çətinlik çəkdikdə müəllim onların köməyinə gəlməli və sualı ifadə etməkdə şagirdlərə yardım göstərməlidir. Suallara cavab verməyin öhdəsindən sinif gələ bilməsə, hekayəni yenidən şagirdlərə oxutmaq lazımdır.

Hekayənin bütövlükdə nağıl edilməsi, vaxt imkan verərsə, hekayənin birinci və ikinci hissələrini əlaqəli şəkildə, tam halda uşaqlara söylətmək məsləhətdir.

**Sinifdənxaric qiraətin yekunlaşdırılması.**

1. **Oxunmuş materialın və ya materialın adının müəyyənləşdirilməsi**. Müəllim hansı hekayələrin, şeirlərin və

ya nağılların oxunduğunu müəyyənləşdirir. Bu cəhətdən xüsusi səy göstərmiş şagirdlərin adının çəkilməsi onları daha da ruhlandırır. Göstərilmiş hekayələri sinifdənxaric vaxtlarda oxumamış şagirdi aşkara çıxarmaq, onun səbəbini öyrənmək vacibdir. Çalışmaq lazımdır ki, bütün şagirdlər sinifdənxaric qiraətlə hökmən məşğul olsunlar.

2. **Oxunmuş materiallar haqqında qeydlərin nəzərdən keçirilməsi**. Müəllim oxuduqları hekayə və ya nağıl haqqında uşaqların dəftərə yazdıqları qeydləri nəzərdən keçirir. Nümunəvi dəftəri və dəftərində səliqəli, nümunəvi qeydlər olan şagirdləri qeyd etmək, onların səylərini sinfin nəzərinə çatdırmaq çox faydalı olar. Hələ xüsusi dəftər ayırmamış şagirdlər olarsa, yenidən onlara göstəriş vermək lazımdır.

3. **Oxunmuş materialların nağıl edilməsi**. Sinifdənxaric qiraəti yekunlaşdırmağın üçüncü mərhələsi oxunmuş hekayənin, nağılın və ya şeirin məzmununu uşaqlara nağıl etdirməkdən ibarət ola bilər. Əgər bütün şagirdlər eyni mətni oxumuşlarsa, onda uşaqlardan biri mətnin məzmununu nağıl edir. Başqaları isə həmin şagirdin fikrinə əlavələr edir. Əgər sinifdə şagirdlərin bir qismi bir hekayə, başqa bir qismi digər hekayə oxumuşlarsa, onda müəllim oxunmuş bütün hekayə və nağıl haqqında şagirdlərdən bəzilərinin fikrini öyrənir, həmin materialların məzmununu danışmalarını təşkil edir.

İlk vaxtlarda uşaqlar öz fikirlərini sistemli şəkildə danışmaqda çətinlik çəkərlərsə, hekayənin və ya nağılın müəyyən yerlərini həmin uşaqlara oxutmaq məsləhətdir. Buna görə də, şagirdlərə təklif etmək olar ki, oxuduqları kitabları sinifdənxaric qiraətin yekunlaşdırılmasına həsr olunmuş dərsə gətirsinlər. Bu cür kitabların sinfə gətirilməsinin tərbiyəvi əhəmiyyəti də vardır. Bəzən kitabın görkəmi, oradakı şəkillər sinifdəki başqa uşaqları əlavə olaraq maraqlandırır.

4. **Evə tapşırıq**. Dərsin sonunda müəllim yaxın günlərdə oxunmalı hekayənin, şeirin və ya nağılın adını deyir, şagirdləri təlimatlandırır və müəyyən göstərişlər verir. Sinifdənxaric qiraətin yekunlaşdırılmasına həsr olunacaq

dərsin vaxtını uşaqlara demək son dərəcə zəruridir. Başqa dərslərə hazırlaşdıqları kimi, uşaqlar sinifdənxaric qiraəti yekunlaşdıran dərsə də hazırlaşmalıdırlar. Bu dərsin xüsusiyyətləri haqqında şagirdlərə müəyyən məlumat verilməsini də lazım bilirik.

**«Qaçaq Nəbi».**

*Birinci dərs.*

1. **Giriş söhbəti**. Söhbət çar hökuməti zamanı Azərbaycan xalqının mübarizəsinə həsr edilir. Müəllim deyir ki, Azərbaycan xalqı, onun qabaqcıl oğulları əvvəllər ərəb işğalçılarına qarşı igidliklə vuruşduğu kimi, sonralar, inqilaba qədərki dövrdə çar hökumətinə qarşı mübarizə aparırdı. Xalqımızın bu cür oğullarından biri də Nəbi idi.

Qısa söhbətdən sonra müəllim dərsliyi açdırır və «Qaçaq Nəbi» adlı hekayənin qiraətini təşkil edir.

2. **Hekayənin ilk oxunuşu**. Mətnin oxunuşunu təşkil etmək üçün müəllim onu on bir hissəyə ayıra bilər: 1) İlk abzas; 2) «Ona görə də Nəbini qaçaq adlandırdılar» cümləsinə qədər; 3) «Bu vaxt aşıqlar Həcərin adından belə bir şeir oxudular» cümləsinə kimi; 4) Birinci bənd; 5) İkinci bənd; 6) İkinci bənddən sonra; 7) Üçüncü bənd; 8) Dördüncü bənd; 9) Beşinci bənd; 10) Beşinci bənddən sonrakı abzas; 11) Axırıncı abzas.

Müəllimin təklifi ilə hər hissəni bir şagird oxuyur. Beləliklə, ilk qiraətə on bir şagird cəlb edilir.

3. **Lüğət üzərində iş**. Bu məqsədlə müəllim təklif edir ki, uşaqlar hekayəni ürəklərində oxusunlar. Hər şagird hekayəni ürəyində oxuyur və çətin hesab etdiyi sözləri qeyd edir.

Sonra, müəllimin təklifi ilə şagirdlər çətin hesab etdikləri sözləri diktə edir və bir nəfər həmin sözləri yazı taxtasına yazır. Təqribən aşağıdakı sözlər yazıla bilər: *çar hökuməti, bəy, aşıq, qazamat, qandalaq, şamama, fəqir, irmaq, dara düşmək, şal, tirmə.*

Müəllimin rəhbərliyi ilə həmin söz və ifadələrin mənası izah edilir:

**Çar hökuməti** – böyük torpaq sahiblərinin hökuməti, hakimiyyətə bir nəfərin – çarın rəhbərliyi.

**Bəy** – varlı adamlara çar hökumətinin verdiyi ad.

**Aşıq** – xalq arasında söz qoşub saz çala-çala oxuyan adam.

**Qazamat** – həbsxana, dustaqxana.

**Qandalaq** – qaçmamaq üçün ayaqlara taxılan qıfıllı zəncir.

**Şamama** – yemiş sortlarından biri (bostanda yetişir. Yemişdən xeyli kiçikdir. Alma kimi yumru olur).

**Fəqir** – yazıq, kasıb.

**İrmaq** – bulaq, çay.

**Dara düşmək** – çətinə düşmək.

**Şal** – başa örtülən yaylıq, yun parça.

**Tirmə** – başa örtülən iri ipək yaylıq.

*İkinci dərs.*

4. **Hekayənin məzmunu üzərində iş**. Mətnin məzmununu uşaqlara daha yaxşı mənimsətmək üçün onu yenidən hissə-hissə oxutmaq və hər hissə üzrə bir sual qoymaq lazımdır. Sinfə verilən suallar belə ola bilər:

-Nəbi nə vaxt yaşamışdır?

-Nəbi nə üçün qaçaq düşmüşdür?

-Nəbini ələ keçirmək üçün çar hökumətinin adamları nə etdilər?

-Nəbinin arvadı Həcəri qazamatda necə saxlayırdılar?

-Həcəri necə tutub qazamata salmışdılar?

-Nəbi Həcəri qazamatdan necə qurtardı?

-Nəbinin dilindən aşıqlar nə deyirdilər?

-Camaatı, eli-obanı Nəbinin sevdiyini nədən bilmək olur?

-Nəbini tutmaq nə üçün çətin idi?

-Nəbini öldürmək nə üçün mümkün oldu?

-Biz indi Nəbini nə üçün unutmuruq?

5. **Evə tapşırıq**. Həmin sualları uşaqlara yazdırmağı və evdə suallara yazılı cavab hazırlamağı şagirdlərə tapşırmaq olar.

**«Həcər».**

*Birinci dərs.*

1. **Evə verilmiş tapşırığın yoxlanması**. Müəllim «Qaçaq Nəbi» hekayəsi üzrə verilmiş suallara kimin necə cavab yazdığını yoxlayır. Bu məqsədlə bir neçə şagirdi ayağa qaldırmaq və yazdığını oxumağı ondan tələb etmək olar.

2. **«Qaçaq Nəbi» adlı hekayə ilə əlaqə.** Həmin hekayə ilə «Həcər» adlı hekayə arasında əlaqə yaratmaq üçün müəllim sinifdən soruşur:

-Həcər kim idi?

-Həcər Qaçaq Nəbinin arvadı idi.

-Həcərin Nəbi kimi qoçaq olduğunu nədən bilirsiniz?

-Həcər Nəbiyə kömək edir, ona arxa olur, çar hökumətinə qarşı vuruşda Nəbi ilə çiyin-çiyinə gedirdi.

Belə bir müsahibədən sonra müəllim «Həcər» adlı hekayənin qiraətini təşkil edir.

3. **Hekayənin ilk oxunuşu.** Hekayənin ilk oxunuşunu təşkil etmək üçün müəllim mətni on bir hissəyə ayırır: 1) «Gün getdikcə yuxarıya qalxır» ifadəsinə qədər; 2) «Başına bahalı papaq qoymuş» ifadəsinə kimi; 3) «Gün qızır, isti isə bizə əsər eləyirdi» cümləsinədək; 4) «Adama iki güllə atdıq» ifadəsinə qədər; 5) «Qadın birdən qaşlarını çataraq dilləndi» cümləsinə kimi; 6) «Qadın bizim təəccüb etdiyimizi başa düşüb» ifadəsinədək; 7) «Arvad duruxdu, qaşları çatıldı» ifadəsinə qədər; 8) «Aşıq Humay özünü saxlaya bilməyib dedi» cümləsinə kimi; 9) «O, atı mahmızlayıb aradan çıxmaq istəyirdi» ifadəsinədək; 10) «O, nəğməni qurtarıb yenə üzümüzə baxdı» cümləsinə qədər və 11) Sona qədər.

Müəllim bir hissəni bir şagirdə oxutdurur.

4. **Evə tapşırıq**. Müəllimin tapşırığı ilə şagirdlər hekayəni evdə oxuyur və çətin hesab etdikləri sözləri lüğət dəftərinə qeyd edirlər.

*İkinci dərs.*

5. **Lüğət üzərində iş**. Şagirdlər çətin hesab etdikləri sözləri müəllimin təklifi ilə oxuyurlar; müəllim isə onları yazı taxtasına yazır. Aşağıdakı söz və ifadələr alına bilər: *köç, köç yolu, pərt olmaq, kəlağayı, əşrəfi, silahdaş, mehriban sifət*.

Müəllim həmin söz və ifadələrin mənasını qalan şagirdlərdən soruşur, lazım gəldikdə özü əlavə izahat verir.

**Köç** – adamların arandan yaylağa və yaylaqdan arana yataq və yemək şeyləri ilə, qoyun və qaramalla birlikdə yol getməsi.

**Köç yolu** – adamların yaylaqlara və ya arana getdiyi yollar.

**Pərt olmaq** – utanmaq, qızarmaq.

**Kalağayı** – ipəkdən toxunmuş nazik və iri baş yaylığı.

**Əşrəfi** – qızıl puldur; bəzək kimi işlədilib.

**Silahdaş** – yoldaş, məslək yoldaşı, ideya və mübarizə yoldaşı.

**Mehriban sifət** – xoş təsir bağışlayan, mülayim sifət.

6. **Hekayənin məzmunu üzərində iş**. Hekayənin məzmununu yaxşı başa düşmək və möhkəm yadda saxlamaq üçün müəllim mətni yenidən hissə-hissə oxudur. Bu dəfə qiraətə ilk oxuda iştirak etməmiş uşaqlar cəlb olunurlar.

Oxunmuş hər hissə üzrə sual qoymağı və suala cavab verməyi təşkil etmək lazımdır. Sualların şagirdlər tərəfindən qoyuluşuna və daha dəqiq ifadə edilməsinə müəllim rəhbərlik edir.

Oxunan hissələr üzrə suallar təqribən belə ola bilər:

-Çobanlar nə haqqında mahnı oxuyurdular?

-Bu zaman köç yolu ilə kimlər gedirdi?

-Yolda bəy balaları nökərlərlə necə rəftar edirdilər?

-Çobanlar nə üçün mərc gəlib yarışırdılar?

-Çobanlar yarışan zaman yoldan kim keçirdi?

-Qadın ayaq saxlayıb çobanlara nə dedi?

-Qadın tüfəngi ələ alanda nə üçün ağlamsındı?

-Qadın atəş sınağından necə çıxdı?

-Qadının atdığı ikinci atəş nə ilə nəticələndi?

-Qadın kim imiş? O kim olduğunu necə bildirdi?

-Həcər uzaqlaşandan sonra çobanlar nə fikirləşirdilər?

7. **Evə tapşırıq**. Həmin sualları müəllim uşaqlara yazdıra və evdə bu suallara cavab yazmalarını onlara tapşıra bilər.

**Ümumiləşdirici dərs.**

1. **Bölmə üzrə keçilən materialların yada salınması**. Müəllim «Qəhrəman keçmişimizdən» adlı bölmə üzrə keçilmiş materialların adını yada salmağı uşaqlara təklif edir. Bu məqsədlə sinifdən soruşur:

-Uşaqlar, kim deyər, «Qəhrəman keçmişimizdən» adlı bölmə üzrə hansı hekayələri oxumuşuq?

Bu suala uşaqlar cavab verir, biri digərini tamamlayır. Yaddan çıxmış hekayə olduqda müəllim sinfə xatırladır. Nəticədə uşaqlar yəqin edirlər ki, «Ananın səsi», «Babək», «Koroğlu ilə Dəli Həsən», «Qaçaq Nəbi», «Həcər» adlı hekayə və dastanları oxumuşlar.

2. **Oxunmuş hekayə və dastanların qəhrəmanlarını xatırlatmaq**. Hekayələrin adlarını yada saldıqdan sonra müəllim həmin materialların qəhrəmanları ilə əlaqədar olan işə keçir. Bu məqsədlə o, sinfə bu cür suallar verə bilər:

-«Ananın səsi» adlı hekayədə kimin qəhrəmanlığından söhbət gedir?

-«Babək» adlı hekayədə Azərbaycan xalqının hansı qəhrəman oğlu haqqında danışılır?

-«Koroğlu və Dəli Həsən» adlı dastanda kimin igidliyi mədh edilir?

-Bəs «Qaçaq Nəbi» və «Həcər» adlı hekayələr kimdən bəhs edir?

Həmin suallara cavab verən uşaqlar müvafiq olaraq Cavanşirin, Babəkin, Koroğlunun, Qaçaq Nəbininvə Həcərin adlarını çəkirlər.

3. **Azərbaycan xalqının igid oğul və qızlarının mübarizə hədəflərini uşaqlara xatırlatmaq**. Müəllim Cavanşirin və Babəkin, Koroğlunun və Nəbinin kimlərə qarşı mübarizə apardığını uşaqlardan soruşmalıdır. Bu məqsədlə müvafiq müsahibə keçirmək lazımdır. Müsahibəni bu ardıcıllıqda aparmaq olar:

**Müəllim** – Cavanşir və Babək kimlərə qarşı mübarizə aparırdılar?

**Şagird** – Cavanşir də, Babək də ərəb işğalçılarına qarşı vuruşurdular.

**Müəllim** – Koroğlu kimlərə qarşı vuruşurdu?

**Şagird** – Koroğlu paşalara, yerli bəy və xanlara qarşı vuruşurdu.

**Müəllim** – Bəs Qaçaq Nəbi və Həcər kimlərə qarşı mübarizə aparırdı?

**Şagird** – Qaçaq Nəbi də, Həcər də çar hökumətinə və yerli bəylərə qarşı vuruşurdular.

**Müəllim** – Bu deyilənlərdən hansı nəticəni çıxarmaq olar?

**Şagird** – Oxuduğumuz hekayələrdən aydın olur ki, xalqımızın igid oğulları yadelli düşmənlərə, bəylərə və xanlara qarşı həmişə ölüm-dirim mübarizəsi aparmışlar.

4. **Mübarizənin məqsədinin uşaqlara başa salınması**. Xalqın əsrlər boyu müxtəlif yadelli düşmənlərə qarşı apardığı mübarizənin mənasını müəllim uşaqlara dönə-dönə başa salmalı və çalışmalıdır ki, ümumi fikir uşaqların yadında möhkəm qalsın. Bu məqsədlə xüsusi müsahibə aparmaq lazımdır?

**Müəllim** – Uşaqlar, Cavanşir, Babək, Koroğlu, Qaçaq Nəbi, Həcər kimi igid adamlar nə üçün vuruşurdular?

## 4. «PAYIZ» BÖLMƏSİ ÜZRƏ MATERİALLARIN PLANLAŞDIRILMASI VƏ TƏDRİSİ

| Dərslər | Mövzu | Müəllif | Saat |
|---|---|---|---|
| 25-ci | «Payız gəlir» | M.Rzaquluzadə | 1 s. |
| 26-ci | «Payızda» | M.Dilbazi | 1 s. |
| 27-ci | «Səyyah qurbağa» | V.Qarşin | 1 s. |
| 28-ci | «Səyyah qurbağa» | V.Qarşin | 1 s. |
| 29-cu | «Əlcək» | B.Vahabzadə | 1 s. |
| 30-cu | «Qarğa və tülkü» | M.Ə.Sabir | 1 s. |
| 31-ci | «Qurd və quzu» | İ.Krılov | 1 s. |
| 32-ci | «Arxip baba və Lyonka» | M.Qorki | 1 s. |
| 33-cü | «Arxip baba və Lyonka» | M.Qorki | 1 s. |
| 34-cü | «Fatma» | | 1 s. |
| 35-ci | «Fatma» | | 1 s. |
| 36-cı | Ümumiləşdirici dərs | | 1 s. |
| 37-ci | Sinifdənxaric qiymətin yekunlaşdırılması | | 1 s. |

**Şagird** – Cavanşir də, Babək də, Nəbi də, Həcər də vətəni azad görmək, xalqı yadelli düşmənlərin əzab-əziyyətindən qurtarmaq istəyirdilər. Buna görə də onlar ölümə belə hazır idilər.

**Müəllim** – İndi xalqımız nə üçün Cavanşir, Babək, Koroğlu, Qaçaq Nəbi kimi adamları unutmur?

**Şagird** – Çünki onlar xalqın azadlığı və səadəti üçün ölümə gedirdilər.

**«Payız».**

«Ana dili» kitabında payız haqqında materiallar verməkdə üç əsas məqsəd vardır. Birincisi payız fəslində təbiətin necə dəyişdiyini şagirdlərin nəzərinə çatdırmaqdan ibarətdir. İkincisi payız fəslində görülən işlərlə, bu işin xüsusiyyətləri ilə uşaqları tanış etməkdir. Üçüncüsü payızda təbiətin gözəlliyini və insan əməyini bədii boyalarla ifadə etməyin gözəlliyini şagirdlərə hiss etdirməkdir.

**«Payız gəlir».**

1. **Şeirin oxunuşu**. Şeiri əvvəlcə müəllim nümunəvi oxuyur. Sonra bir neçə şagirdə ifadəli oxudur. Şeirin oxunuşu zamanı qiraət qaydalarına necə riayət olunduğuna qalan şagirdlərin diqqətini cəlb etmək, ifadəlilikdə, ahəngdə, sürətdə, məntiqi vurğuda və sairdə yol verilən qüsurları mümkün qədər uşaqların qüvvəsi ilə düzəltməyə çalışmaq lazımdır.

2. **Mətn üzərində iş**. Sonra şeirin məzmununu, hər bənddə nədən danışıldığını uşaqlardan soruşmaq olar. Məsələn, sinif qarşısında bu cür suallar qoymaq mümkündür:

-Şeirin birinci bəndində nədən danışılır?

-Şeirin ikinci bəndində nələr təsvir edilir?

-Şair şeirin üçüncü bəndində nələri qələmə almışdır?

-Hava haqqında şeirin hansı bəndində danışılır?

-Şair payızda yerə tökülmüş yarpaqları necə təsvir edir?

Şair quşları neçə qrupa ayırır və onlar haqqında nə deyir?

3. **Lüğət üzərində iş**. Şeirdə təbiətin təsviri ilə əlaqədar iş apardıqdan sonra, ayrı-ayrı sözlərin mənasını şagirdlərin necə başa düşdüyünü öyrənmək olar. Bu məqsədlə şagirdlərin diqqətini «şux», «şeh», «ayaz», «xəzəl» kimi sözlərə cəlb etmək, onların mənasını soruşmaq mümkündür:

-«Şux» sözünü necə başa düşürsünüz?

-«Şeh» nə deməkdir?

-«Ayaz» sözünü kim izah edər?

-Kim xəzəl görmüşdür? O, nədir?

**Şux** – təzə; təravətli; şən.

**Ayaz** – səhər və ya axşam havasının soyuq olması.

**Xəzəl** – payızda saralıb-solmuş və yerə tökülmüş quru yarpaqlar.

**«Səyyah qurbağa».**

1. **Yazıçı haqqında**. Payız fəslini təsvir edən, bu fəslin ayrı-ayrı cəhətlərini qələmə alan rus və sovet yazıçılarından biri də Qarşin Vsevolod Mixayloviçdir. O, 1855-ci ildə anadan olmuş və 1888-ci ildə vəfat etmişdir. Qarşin bir çox hekayə və romanların müəllifidir.

«Səyyah qurbağa» adlı nağılda yazıçı öz oxucularını payızda köçəri quşların və qurbağaların həyatı ilə, təbiətlə tanış edir. Bununla yanaşı, bəzi pis sifətlər tənqid edilir.

2. **Mətnin oxunuşu**. Müəllim nağılın hər iki cəhətini dərsdə nəzərə almalıdır. Bu məqsədlə müəllim nağılı əvvəlcə özü oxuya və ya ən qüvvətli şagirdlərdən birinə oxuda bilər.

Uşaqların nitqini daha da dəqiqləşdirib zənginləşdirmək üçün müəllim nağılı ikinci dəfə hissə-hissə şagirdlərə oxuda və bu zaman onların diqqətini ayrı-ayrı söz və ifadələrə cəlb edə bilər: «bataqlıq», «nəmişlik», «maraqlanmaq», «cənub», «ürəkaçan», «nəfəsi kəsildi», «çöl», «çəmənlik», «zəmilər», «ehtiyatlı olmaq», şagirdlər həmin sözləri təqribən aşağıdakı kimi izah edə bilərlər:

3. **Lüğət üzərində iş. Bataqlıq** – bir yerə yığılmış suyun torpağa qarışması; bu cür yerdən keçmək çətin olur.

**Nəmişlik** – havada xırda su damcılarının olması, torpağa suyun hopması.

**Maraqlanmaq** – hər hansı bir əşyanı, hadisəni öyrənməyə çalışmaq.

**Cənub** – üzümüzü səhər günəşə çevirsək – sağ tərəf, günorta çevirsək – qabaq tərəf, axşam çevirsək – sol tərəf cənub olur. Hər yerdə isti tərəfə getmək cənuba tərəf getmək olur.

**Ürəkaçan** – xoşagələn; sevindirən; qəlbaçan.

**Nəfəsi kəsildi** – çətin nəfəs aldı, tövşüdü, ürəyi döyündü, söz danışa bilmədi.

**Çöl** – boş yerlər, adamsız yerlər, evsiz-eşiksiz yerlər.

**Çəmənlik** – güllü-çiçəkli yerlər, yaşıl otlu yerlər.

**Zəmilər** – taxıl əkilmiş yerlər.

**Ehtiyatlı olmaq** – hər şeyi əvvəlcədən ölçüb-biçmək, qabaqcadan götür-qoy etmək.

4. **Hekayənin ideyası üzərində iş**. Bundan sonra hekayənin ideyasını şagirdlərə mənimsətmək üçün onları müvafiq suallar ətrafında düşündürmək olar:

-Qurbağa ördəkləri necə razı saldı?

-Necə oldu ki, qurbağa yerə düşdü?

-Qurbağanın lovğa, özündən bədgüman, özünü öyən olduğunu onun hansı sözlərindən bilmək olar?

-Qurbağada lovğalıq olmasaydı, o, cənuba qədər gedə bilərdimi?

-Nə üçün lovğalıq pis xüsusiyyətdir?

5. **Evə tapşırıq**. Mətnin sonundakı sual və tapşırıqlar əsasında nağılı evdə yenidən oxumağı və danışmaq üçün hazırlaşmağı uşaqlara tapşırmaq olar.

Nağılın bəzi xüsusiyyətlərini gələcəkdə şagirdlərə başa salmaq üçün nağılın necə başlandığına fikir verməyi də onlara tövsiyə etmək olar.

**«Əlcək».**

1. **Giriş**. Şeir müxtəlif istiqamətdə və müxtəlif məzmunda iş aparmaq üçün müəllimə geniş imkan verir. Şair öz kiçik oxucularını təkcə payız hadisələri ilə tanış etmir. Ən vacibi odur ki, şeirdə bir sıra nəcib ideyalar təbliğ olunur.

2. **Şeirin ifadəli oxunuşu**. Şeirin ikinci yarısını, yəni Ülkərlə nənə arasında söhbəti müəllim yeri gəldikcə nənənin və nəvənin səsinə, danışmaq tərzinə uyğun səslə oxumalıdır. Şeirin ikinci dəfə şagirdlər tərəfindən oxunuşunu təşkil edərkən çalışmaq lazımdır ki, şeirin «Salamlaşır qarıyla» ifadəsinə qədər olan hissəsini bir şagird oxusun. Qalan hissəsini oxumaq üçün iki şagird ayırmaq, Ülkərin sözlərini birinə, nənənin sözlərini ikinci şagirdə, son üç sətri oxumağı isə başqa bir şagirdə tapşırmaq olar.

3. **Lüğət üzərində iş**. Şeirdəki ayrı-ayrı sözlərin mənası üzərində şagirdlərin işini təşkil etmək vacibdir.

**Zər mütəkkə** – söykənmək, dirsəklənmək üçün istifadə edilir: *zər* sözü burada bərli-bəzəkli mənasında işlənmişdir.

**İp yumağı** – corab, əlcək və jaket toxuyanda ipin dolaşmaması üçün onun səliqə ilə bir şey ətrafına dolandırılması.

**Bardaş qurmaq** – qıçları bir-birinə keçirib əyləşmək (Bunu əyani olaraq dərslikdəki şəkildə də uşaqlara göstərmək olar).

**Səki** – otağın qabağı, qapının yan tərəfi; şəhərdə adamların getdiyi yer.

**Axşam çağı** – qaranlıq düşəndə.

**Xəzan** – payız, havaların soyuduğu, yağışların və küləyin çoxaldığı vaxt.

**Arx** – şəhərdə və kənddə yolların qırağı ilə suyun axması üçün adamların qazdığı yer; bağda, bostanda, dirrikdə su axmaq üçün hazırlanmış yer.

**Qatarlaşmaq** – sıra ilə uçmaq.

**Cığır** – meşədə, kənddə, çəmənlikdə adaların getdiyi ensiz yol.

**Sərt** – burada bərk, dah soyuq, şaxtalı, qarlı mənasındadır.

4. **Şeirin məzmunu üzərində iş**. Şeirdə payız hadisələrini tərənnüm edən yerlərə şagirdlərin diqqətini cəlb etmək lazımdır. Bu məqsədlə sinif qarşısında yeddi sual qoymaq və təqribən aşağıdakı yeddi cavabı almaq lazımdır:

-*Sarı xallı yarpaqlar da*
*Düşüb bir-bir budaqdan…*
-*Xəzan yeli hey titrədir*

*Arx üstündə otları*
-*Üfüq sarı,*
*Yarpaq sarı, ot sarı…*
-*Çay da susub, əks eləmir*
*Şən səsini gen dərə.*
-*Qatarlaşıb uçur quşlar*
*Uzaq-uzaq ellərə.*
-*Xəzəl tutub bağ arası*
*Cığırları, yolları.*
-*Başlarını dikib yerə*
*Dağda moruq kolları…*

5. **Şeirin ideyası üzərində iş**. Nənəyə göstərilən qayğını, nənənin başqaları haqqında fikirləşdiyini, yaşlıların faydalı həyat təcrübəsinə malik olduğunu, elin müdrik kəlamlar söylədiyini ifadə edən yerlərin kollektiv müzakirəsi. Bu məqsədlə aşağıdakı şəkildə söhbət keçirmək olar. Müəllim sual qoyur, şagirdlər cavab verir və şeirdən bəzi yerləri oxuyurlar:

-Nənəyə evdə ləyaqətli hörmət edildiyini şeirin haralarından görmək olar?

-*Arxasında zər mütəkkə,*
*Önündə ip yumağı,* -
*Pəri xala bardaş qurub*
*Səkidə axşam çağı.*
-*Elə bu vaxt Ülkər gəlir*
*Salamlaşır qarıyla.*

-Şəkildə qız nənəyə çay gətirir.

-Pəri nənənin başqalarına qayğı göstərdiyini şeirdə nədən bilmək olur?

-*İsti əlcək toxuyur o,*
*Kimə isə bayaqdan.*
-*Onunçun da Rizvanıma*
*Toxuyuram yun əlcək.*

-Nənənin dünya görmüş, həyat təcrübəsinə malik adam olduğunu nəyə əsasən deyə bilərsiniz?

-*Qızım, deyim, bil sən də*
*Qış sərt olar*
*Ala çinar yarpağını*
*Aşağıdan tökəndə.*
-*Bunu mənə nənəm deyib.*
*O zamandan hər il mən*
*Yoxlayıram, düz də çıxır.*
*Yalan olmaz el deyən…*

6. **Şeirin həyatla əlaqələndirilməsi**. Şeiri uşaqların həyatı ilə və əvvəl oxuduqları ilə əlaqələndirmək də yaxşı nəticə verir. Buna nail olmaq üçün müəllim uşaqlara belə müraciət edə bilər:

-Siz öz nənə və babalarınıza necə hörmət edirsiniz?

-Yaşlı adamların ağıllı, müdrik olduğu haqda oxuduğunuz hansı şeir və hekayələrdə söhbət gedirdi?

Uşaqlar «Qoşa çinar» adlı hekayədə Nüsrət babanın adını çəkə bilərlər.

7. **Şair haqqında**. Şeirin müəllifi haqqında uşaqlara qısa məlumat vermək olar. Demək olar ki, bu gözəl şeirin müəllifi Bəxtiyar Vahabzadədir. O, Azərbaycan Sovet şeir sənətinin görkəmli nümayəndələrindən biridir. Şair 1925-ci ildə Şəkidə (Nuxada) anadan olmuşdur. O, çoxlu şeirlər, poemalar, pyeslər yazmışdır: «İnsan və zaman», «Bir ürəkdə dörd fəsil», «Aylı gecələr», «İkinci səs» və s. Şair deyir: «Mənim bir şair kimi yetişməyimdə ədəbiyyat müəllimim İbrahim Cəfərin səy və qayğısını heç vaxt unuda bilmərəm. Mən hər dəfə yeni şeir yazanda ona müraciət edər və hər dəfə ondan ayrılanda təzə bir şey öyrənərdim».

**«Qarğa və tülkü».**

1. **Giriş.** Dərslikdə dalbadal iki təmsil verilmişdir. Təmsillərin dərsliyə daxil edilməsində başlıca məqsəd müəyyən əxlaqi sifətlər haqqında şagirdlərdə düzgün anlayışın yaradılmasına təsir etməkdən ibarətdir. Birinci təmsildə, yəni «Qarğa və tülkü» təmsilində iki əsas sifət bir-birinə qarşı qoyulur: yaltaqlıq və axmaqlıq. Şeirdə hər iki

sifət pislənir və axmaqlığın yaltaqlıq toruna tez düşdüyü göstərilir. İkincidə, yəni «Qurd və quzu» təmsilində isə yalan danışmaq, böhtan demək, acgözlük ifşa edilir.

Çalışmaq lazımdır ki, uşaqlar həmin təmsillərin ideyasını aydın başa düşsünlər və özləri üçün nəticə çıxarsınlar.

Təmsillərin dərsliyə daxil edilməsində ikinci məqsəd təmsilin xüsusiyyətlərini şagirdlərin nəzərinə çatdırmaqdır.

Təmsillər üzərində işin ümumi cəhətləri olduğundan onlarla əlaqədar məsləhətləri birlikdə verməyi lazım bilirik.

2. **Müəllimin nümunəvi oxusu**. Təmsil oxumaq tərzini şagirdlərə hiss etdirmək üçün bir dəfə onu hökmən müəllim özü oxumalıdır. Şeiri oxumazdan əvvəl müəllim şagirdlərə məsləhət görür ki, oxu zamanı məntiqi vurğulara, sətrin əvvəlindən axırınadək səsin necə dəyişdiyinə, alçalıb-yüksəlməsinə, axıcılığa, həm də mənaya, məzmuna fikir versinlər.

3. **Lüğət üzərində iş**. Müəllim təmsildə olan bütün çətin sözlərin necə başa düşüldüyünü şagirdlərdən soruşur. Dərslikdə bir çox qəliz sözlərin lüğəti verilmişdir. Müəllim həmin lüğətdən də istifadə edə bilər.

4. **Şagirdlərin qiraəti**. Təmsili hissə-hissə və ya bütövlükdə bir neçə şagirdə ifadəli oxutmaq olar. Şeiri bütövlükdə və ya hissə-hissə oxutmağın münasibliyi isə sinfin səviyyəsindən asılıdır. Şagirdlərin qiraəti hələlik zəifdirsə, təmsili onlara hissə-hissə oxutmaq məsləhətdir.

5. **İdeya üzərində iş**. Təmsilin ideya məzmununu açmaq üçün müəllim sinifdə sual-cavab apara bilər:

-Tülkünün hiyləgər və yaltaq olduğunu şeirin hansı yerlərindən görmək olur?

Şagird, «Tülkü görcək yavaş-yavaş gəldi» misrasından «Oxu versin mənə səfa nəfəsin» misrasına qədər oxuyur.

-Tülkünün qarğaya yaltaqlandığı onun hansı hərəkətində bir daha təsdiq edilir?

-*Tülkü förən havada qapdı yedi,*
*Qarğaya tənə ilə böylə dedi:*
*«Olmasaydı cahanda sarsaqlar,*
*Ac qalardı, yəqin ki, yaltaqlar».*

6. **Nəzəri məlumat**. Təmsilin bəzi xüsusiyyətlərini şagirdlərə başa salmaq işini yalnız ikinci şeir, yəni «Qurd və quzu» oxunduqdan sonra, hər iki təmsil əsasında aparmaq yaxşı olar. Bu cəhətdən məqsədə nail olmaq üçün müəllim uşaqlardan soruşa bilər:

-Həm «Qarğa və Tülkü», həm də «Qurd və quzu» təmsili üçün şeir cəhətdən oxşar xüsusiyyətlər hansılardır?

Şagirdlər təqribən bu cür cavab verə bilərlər:

-Hər iki şeirdə oxşhar cəhət odur ki, şair heyvanları və quşları danışdırır, şair heyvanları dilə gətirir, öz fikirlərini onların dili ilə verir.

-Axırda əxlaqi nəticə çıxarılır.

-Şair pis hesab etdiyi xüsusiyyətlərə rişxənd edir, onları tənqid atəşinə tutur. Quş və heyvanları dilə gətirir, öz fikirlərini onların dili ilə verir.

-Quş və heyvanlar adı altında şair müəyyən xarakterə malik olan insanları nəzərdə tutur.

7. **Şairlər haqqında məlumat**. Təmsilləri yazan şairlər – M.Ə.Sabir və İ.Krılov haqqında uşaqlara yığcam məlumat vermək olar. Demək olar ki, hər xalqın öz təmsil yazan şairləri vardır.

İvan Andreyeviç Krılov rus xalqının, Mirzə Ələkbər Sabir isə Azərbaycan xalqının təmsil yazan satirik şairlərindəndir.

İ.A.Krılov 1769-cu ildə anadan olmuş və 1844-cü ildə vəfat etmişdir. «Canavarlar və qoyunlar», «Ala qoyunlar», «Kəndlilər və çaylar» kimi çoxlu təmsil yazmışdır.

M.Ə.Sabir haqqında dərsliyin 67-ci səhifəsində xüsusi məlumat olduğunu və bu böyük şair haqqında ayrıca dərs keçiləcəyini şagirdlərə demək lazımdır.

**«Arxip baba və Lyonka».**

1. **Giriş söhbəti**. Müəllim hekayənin oxunuşuna qədər kiçik bir giriş söhbəti keçirə bilər. Deyə bilərik ki, inqilaba qədər, yəni Sovet hakimiyyəti qurulana qədər yoxsulların, zəhmət adamlarının vəziyyəti çox ağır olmuşdur. Bir parça çörək üçün onlar hər cür təhqirlərə dözmüşlər. O vaxt Çar

hökuməti yetim uşaqların qayğısına qalmır, onlara təhsil vermirdi.

2. **Yazıçı haqqında**. Sovet hakimiyyəti quruluna qədər zəhmətkeş adamların acınacaqlı vəziyyətləri haqqında hekayə yazanlardan biri də Maksim Qorki olmuşdur.

M.Qorki böyük proletar yazıçısı olmuşdur. O, 1868-ci ildə anadan olmuş, 1936-cı ildə vəfat etmişdir. M.Qorki çoxlu kitab oxuyardı. O yazırdı: «Kitabı sevin, kitab adamın ən yaxın dostudur».

M.Qorki çoxlu əsər yazmışdır: «Ana», «İnsan», «Çelkaş», «Qız və ölüm» və s.

M.Qorki uşaqlar üçün az kitab yazmamışdır. Bu gün biz M.Qorkinin uşaqlar üçün yazdığı hekayələrdən birini – «Arxip baba və Lyonka»nı oxuyacağıq.

3. **Mətnin oxunuşu**. Müəllim hekayəni bir neçə hissəyə ayıra və hər hissəni bir şagirdə oxuda bilər. Kitabda ulduzlarla ayrılmış birinci hissəni şagirdlərdən biri, «Di, haydı, …kilsənin yanında görüşərik» – «Yaxşı» ifadəsinədək digəri, ulduzlara qədər üçüncü şagird, «Lyonka diqqətlə babasına baxdı…» ifadəsinədək dördüncü şagird, «Onlar gəlib kəndin kənarında oturdular» cümləsinə qədər beşinci şagird, «Birdən bütün çöl titrədi…» ifadəsinə qədər altıncı şagird, «Qocanın səsi naziklәşdi…» ifadəsinədək yeddinci şagird, ulduzlara qədər səkkizinci, axıradək doqquzuncu şagird oxuyur.

4. **Lüğət üzərində iş**. Hər hissə oxunduqca bəzi sözlərin, o cümlədən *bulanıq, dalğa, hal, qürbət, vətən, tumarlamaq, rəhm, dilənçilik, kilsə, dağarcıq, kövrəlmək, sustalmaq, qamaşmaq* kimi sözlərin mənasını uşaqların necə başa düşdüklərini də yoxlamaq faydalıdır.

**Bulanıq** – suyun şəffaf olmaması, torpaq qarışmış su.

**Dalğa** – külək vaxtı suyun enib-qalxması.

**Hal** – vəziyyət, əhval, kef, gülüb-gülməmək, danışıb-danışmamaq, özünü yaxşı və ya pis hiss etmək.

**Qürbət** – adamın anadan olduğu, böyüdüyü yerdən, qohum-qardaşdan uzaqda olduğu yer.

**Vətən** – adamın doğulduğu, böyüdüyü, boya-başa çatdığı, qohum-qardaşlarının, xalqının yaşadığı yer.

**Tumarlamaq** – sığal çəkmək, oxşamaq.

**Rəhm** – yazığı gəlmək, günahından keçmək.

**Dilənçilik** – işləməyərək başqasından pul, yemək, yaxud paltar istəmək, başqasına əl açmaq.

**Kilsə** – allaha və dinə inanan adamların bir yerə yığışıb ibadət etdikləri bina. Azərbaycanda belə yerə – binaya məscid deyilir.

**Dağarcıq** – çörəyin və başqa yeməyin saxlanmaq üçün istifadə edilən və dəridən tikilən torba – kisə.

**Kövrəlmək** – ağlamsınmaq, qəhərlənmək, ağlamaq vəziyyətinə düşmək.

**Sustalmaq** – zəifləmək, gücdən düşmək, taqətdən düşmək.

**Qamaşmaq** – işığın birdən parıldamasından gözün ani olaraq ətrafdakı şeyləri görməməsi.

5. **Hekayənin ideyası üzərində iş**. Hekayənin ideyasını uşaqlara başa salmaq üçün bəzi məsələlər üzrə sual-cavab aparmaq olar. Bu zaman müəllim kitabda hekayənin sonunda verilmiş sual və tapşırıqlardan da istifadə edə bilər.

«**Fatma**».

1. **Giriş söhbəti**. Müəllim giriş söhbətini «nağıl» anlayışının bəzi mühüm cəhətinə yönəldə və şagirdlərə başa sala bilər ki, nağıl xalq yaradıcılığının məhsuludur, nağılı ayrı-ayrı adamlar yazmamışdır. Belə bir fikri uşaqlara başa salmaq üçün müəllim sinifdə oxunmuş bəzi şeir və hekayələrlə əlaqədar belə bir söhbət təşkil edə bilər:

-Kim deyər, hansı şeirləri oxuyub öyrənmişik?

-«İlk gün», «Yürüş mahnısı», «Pioner» və s. adda şeirləri.

-Bu şeirləri kim yazmışdır?

-Novruz Gəncəli, Hüseyn Abbaszadə, Tofiq Mahmud.

-Bəs hansı hekayələri oxumuşuq?

-«Poçtalyon», «Dəftər üzü», «Həcər»...

-Bu hekayələri hansı yazıçılar yazmışdır?

-Qılman Musayev, Salam Qədirzadə, Əli Vəliyev.

Buradan belə bir nəticə çıxara bilərsiniz ki, şeirləri də, hekayələri də ayrı-ayrı adamlar – yazıçı və şairlər yazmışlar.

-Hansı nağılları bilirsiniz?

-«Məlikməmməd», «Şəngülüm, Şüngülüm, Məngülüm» və «Daşdəmirin nağılı»nı.

-Bəs bu nağılları kim yazmışdır?

Uşaqlar duruxur, bir söz deyə bilmirlər... Müəllim söhbəti davam etdirir və deyir ki, nağılı bir şair və ya yazıçı yazmamışdır. Onu xalq özü yaratmışdır. Nağıl nəsildən-nəslə, dildən-dilə keçmişdir.

Bu gün biz xalqın yaratmış olduğu nağıllardan birini – «Fatma» adlı nağılı öyrənəcəyik.

2. **Mətnin oxunuşu**. Nağılı əvvəlcədən təqribən doqquz hissəyə bölüb uşaqlara oxutmaq mümkündür. Nağılı bu cür hissələrə ayırmağı məsləhət görürük: nağılın əvvəlindən «Çətinə düşəndə sənə lazım olaram» ifadəsinə qədər, «Fatma ayağını qapıdan içəri qoyan kimi...» ifadəsinədək, «Qarı Fatmanın əlçimini də özünə qaytarıb, onu evlərinə yola saldı» ifadəsinədək, «Qarı qızı görcək mehribancasına gülümsünüb dedi» ifadəsinədək, «Qarı tənbəl qızın əlçimini özünə qaytarıb onu evlərinə yola saldı» ifadəsinədək, «Fatmanın ağladığını görən Mərcan xoruz yaxına gəlib soruşdu» ifadəsinədək, «Mərcan xoruzsa barının üstünə atılıb banladı» ifadəsinə qədər və nəhayət, axıradək.

3. **Lüğət üzərində iş**. Nağılı oxuduqca ayrı-ayrı sözlərin mənası üzərində iş aparılmalıdır. Uşaqların diqqətini xüsusən aşağıdakı sözlərə cəlb etmək olar: *analıq, acıdil, tənbəl, çanaq, darı, başmaq, boğça, şahzadə.*

**Analıq** – ana öləndən sonra atanın aldığı ikinci arvad – ögey ana.

**Acıdil** – adamın üstünə qabaran, ağır söz deyən, adamı acılayan

**Tənbəl** – özünü işə verməyən, işdən aralı gəzən, işləmək əvəzinə boş-boşuna dolanan, bu günün işini sabaha qoyan.

**Çanaq** – ağacdan, taxtadan qayrılmış iri ölçü qabı, on altı kiloqram tutur.

**Darı** – arpa və buğdadan da kiçik yeməli toxum. Qabaqlar arpa və ya buğda tapa bilməyəndə adamlar darı da yeyirdilər. Darını toyuğa da verərdilər.

**Başmaq** – geymək üçün əldə xüsusi düzəldilmiş burnu geri qayıdan, dabanı açıq olan qadın ayaqqabısı, qabaqlar kişilər də geyərdi.

**Boğça** – düyünçə, sarıq, qabaqlar paltarları səliqə ilə qatlayır və hər hansı parçaya büküb bağlayardılar, yəni paltarı boğçada saxlayardılar.

**Şahzadə** – şah oğlu, yaxud şah qızı.

4. **Nağılın ideyası üzərində iş**. Nağılın ideyasını uşaqlara başa salmaq üçün xüsusi söhbət keçirmək lazımdır. Söhbəti aşağıdakı suallar ətrafında aparmaq olar:

-Analığı nə üçün Fatmanı incidir və döyürdü?

-Qoca qarı nə üçün ananın əsl qızına yaxşılıq eləmədi?

-Qızıl inəyin də, Mərcan xoruzun da Fatmaya kömək etdiklərini nə ilə izah edərsiniz?

-Fatma şirindil, işgüzar, qoçaq olmasaydı xoşbəxt olardımı?

-Ananın doğma qızı nə üçün acıdil və tənbəl idi?

-Nağılda hansı xüsusiyyətlər üstünlük təşkil edir?

Bütün bu suallara alınan cavablar uşaqları belə bir nəticəyə gətirməlidir ki, xalq yaratmış olduğu nağılda şirindilliyi, qoçaqlığı, işgüzarlığı tərifləyir, tənbəlliyi, acıdil olmağı isə pisləyir. Xalq istəyir ki, adamlar qoçaq, işgüzar və şirindil olsunlar.

5. **Nəzəri məlumatın verilməsi**. Müəllim nağılın bəzi başqa xüsusiyyətlərini də uşaqların nəzərinə çatdıra bilər. Bu məqsədlə sinifdən soruşmaq olar:

-Nağıl necə başlayır?

-Biri vardı, biri yoxdu.

-Adamdan başqa nağılda danışan nədir?

-«Fatma» nağılında Xoruz və İnək dil açıb danışır.

-Başqa nağıllarda yel, dağ, daş, ağac və s. əşyalar da dilə gəlir. Müəllim şagirdlərin fikirlərini ümumiləşdirərək deyir:

-Uşaqlar, nağılın xüsusiyyətlərindən biri də budur ki, xalq nağılda təbiət hadisələrini dilə gətirir, onları danışdırır.

6. **Evə tapşırıq**. Dərsin sonunda imkan olarsa, nağılı bir-iki şagirdə danışdırmaq da yaxşıdır. Nəhayət, nağılı evdə yenidən oxumağı uşaqlara tapşırmaq olar.

## 5. «OKTYABR İNQİLABI» BÖLMƏSİ ÜZRƏ MATERİALLARIN PLANLAŞDIRILMASI VƏ TƏDRİSİ

| Dərslər | Mövzu | Müəllif | Saat |
|---|---|---|---|
| 38-ci | «Lenin» | R.Rza | 1 s. |
| 39-cu | «Vladimir İliç Lenin» | N.K.Krupskaya | 1 s. |
| 40-cı | «Qanlı bazar günü» | L.Qmulevski | 1 s. |
| 41-ci | «Razliv gölü ətrafında» | A.Kononov | 1 s. |
| 42-ci | «Başlandı» | P.Kapitsa | 1 s. |
| 43-cü | «Başlandı» | P.Kapitsa | 1 s. |
| 44-cü | «Oktyabr üçün» | S.Rüstəm | 1 s. |
| 45-ci | «Smolnıda» | A.Kononov | 1 s. |
| 46-cı | Ümumiləşdirici dərs | | 1 s. |
| 47-ci | Sinifdənxaric qiymətin yekunlaşdırılması | | 1 s. |

Bu bölmədə yeddi material verilmişdir. Onların ikisi şeir, qalanı isə hekayədir. Materiallar birlikdə Böyük Oktyabr sosialist inqilabının hazırlanması və keçirilməsi haqqında, inqilabın təşkilatçısı və rəhbəri V.İ.Lenin haqqında uşaqlara bədii şəkildə məlumat verir.

**«Lenin».**

1. **Giriş söhbəti**. Giriş söhbətində müəllim deyir ki, V.İ.Lenin bütün sovet xalqının əziz rəhbəridir. O, həm də bütün dünya zəhmətkeşlərinin sevimli rəhbəridir. Xalqlar nə üçün Lenini bu qədər çox sevirlər? Çünki Lenin bütün zəhmətkeş adamların dostu olmuş, onlara arxa olmuşdur. Lenin ölkəmizin zəhmətkeşlərini azadlığa çıxarmış, başqa ölkələrin zəhmətkeşlərinə gələcəyin işıqlı yollarını göstərmişdir. Buna görə də xalqlar Lenini əziz tutur, onun xatirəsini iftixar hissi ilə daim yad edirlər. V.İ.Leninə çoxlu əsər həsr olunmuşdur. Bunlardan biri Rəsul Rzanın yazmış olduğu «Lenin» poemasıdır.

2. **Nümunəvi oxu**. Müəllim şeiri ilk dəfə özü ifadəli oxuyur. İfadəli oxunun bütün tələblərinə əməl etmək lazımdır ki, uşaqlar şeirin həm gözəlliyini, həm də məzmununu hiss etsinlər. Bənddən-bəndə keçid zamanı bir qədər fasilə vermək, dayanmaq lazımdır ki, hər bəndin ifadə etdiyi mənanı uşaqlar daha yaxşı dərk etsinlər.

3. **Lüğət üzərində iş**. Şeirdə bəzi sözlərin şagirdlər tərəfindən necə başa düşüldüyünü aydınlaşdırmaq yaxşı nəticə verər. Bu, şeiri həm ifadəli oxumağa, həm də məzmununu yaxşı başa düşməyə kömək edər. Müəllim, uşaqların diqqətini aşağıdakı sözlərə cəlb edə bilər: *xidmətçi, rəhbər, sərkərdə, əsgər, komandan, sirdaş, bağban, bağça, alim, zəkalı, əsrlər, nur, natiq*.

**Xidmətçi** – iş görən; qulluq edən, xidmət edən.

**Rəhbər** – istiqamət verən, yol göstərən.

**Sərkərdə** – bütün növdən olan orduların başçısı.

**Komandan** – bir ordunun, bir bölük əsgərin böyüyü.

**Sirdaş** – sirri bilən yoldaş, ürək sözünü bilən ən yaxın adam.

**Bağban** – üzüm bağına, alma və ya armud bağına baxan, ona qulluq edən adam.

**Bağça** – evin yanında müxtəlif ağaclar olan yer.

**Alim** – elmlə məşğul olan adam, bilikli şəxs.

**Zəkalı** – ağıllı, hafizəli, düşüncəli adam.

**Əsrlər** – min illər

**Nur** – işıq.

**Natiq** – yaxşı nitqi, yaxşı danışığı olan adam.

4. **Şagirdlərin qiraəti**. Ayrı-ayrı sözlərin mənasını şagirdlər düzgün başa düşdükdən sonra şeiri onlara oxumaq lazımdır. Hər şagird bir bəndi oxuya bilər. Sonra şeirin üç bəndini bir, qalan üç bəndini isə digər şagirdə oxutmaq və nəhayət, şeiri başqa bir şagirdə tam halda oxutmaq da yaxşı nəticə verər.

5. **Şeirin ayrı-ayrı bəndlərini sinifdə əzbər demək**. Aparılmış ardıcıl iş nəticəsində şeirin hər bəndini bir şagirdə oxudub həmin bəndi əzbər söyləməyi də uşaqlardan tələb etmək olar. Bu, evdə şeirin əzbər öyrənilməsini xeyli

asanlaşdırar və şeir əzbərləmək yolunu öyrənməyə kömək edər. Çalışmaq lazımdır ki, şeiri bütün uşaqlar evdə əzbər öyrənsinlər.

6. **Şair haqqında**. Dərsdə imkan tapıb uşaqları şairlə tanış etmək lazımdır: Rəsul Rza 1910-cu ildə Göyçay şəhərində anadan olmuşdur. O, Azərbaycan Sovet poeziyasının görkəmli nümayəndələrindən biridir. Şair 40-a qədər kitab çap etdirmişdir. «Ana», «Lenin», «Almaniya» kimi görkəmli əsərlər yazmışdır.

Rəsul Rza Lenin ordeni, «Şərəf nişanı» ordeni və bir sıra medallarla təltif edilmişdir. O, Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi, respublikanın Xalq şairi kimi fəxri adlara layiq görülmüşdür.

**«Başlandı».**

1. **Giriş söhbəti**. Giriş söhbətində müəllim yenidən V.İ.Leninin böyüklüyünə, sosialist inqilabında onun roluna, inqilabın əhəmiyyətinə qayıdır. O deyir ki, Oktyabr sosialist inqilabına aid çoxlu əsər yazılmışdır. Bunlardan biri də «Başlandı» adlı hekayədir. Hekayənin Pyotr İosifoviç Kapitsa yazmışdır. O, 1909-cu ildə anadan olmuşdur. Kapitsa çoxlu roman, povest və hekayələr yazmışdır: «İgidlik», «Açıq dənizdə», «Ayrılıq günlərində» və s.

2. **Hekayənin hissə-hissə şagirdlərə oxudulması**. Hekayəni 9 hissəyə ayırıb onun izahlı qiraətini təşkil etmək lazımdır. «Qayıqçılar adamları Neva çayında qayıqla keçirirdilər» cümləsinə qədər, «Oturub gözləsin» cümləsinədək; «Əgər saat on birə kimi gəlməsəniz...» ifadəsinə qədər, «Paxya işığı söndürdü» cümləsinədək, «Onun cavabı Vladimir İliçin çox xoşuna gəldi» cümləsinə kimi, «Yunker tatarını havada yelləsaid atını döndərdi...» ifadəsinə qədər, «Tez olun, yol verin, görək» cümləsinə kimi; «Yalnız Qış sarayı meydançası və ona yaxın olan küçələr...» ifadəsinə qədər; həmin ifadədən hekyənin sonunadək.

3. **İzahlı qiraət zamanı ayrı-ayrı söz və ifadələr üzərində iş**. Xüsusilə aşağıdakı söz və ifadələrin mənasını uşaqların necə başa düşdüklərini yoxlamaq vacibdir: *üsyan, qüvvələr,*

*Peterburq, Vıborq rayonu, Nikolayev körpüsü, qayıqçılar, parik, Smolnı, Nadejda Konstantinovna, şam yeməyi, Hərbi inqilab komitəsi, İnqilab qərargahı, konduktor, park burjuy, dalandar, səndələmək, əsilzadə, sərxoş, nümayəndə, zirehli avtomobil, Mandat komissiyası, menşevik, qurultay, Qırmızı qvardiyaçılar, vağzal, bank, telefon və Teleqraf stansiyaları, Müvəqqəti hökumət, Qış sarayı, şəfəq, sürəkli alqışlar, proletariat.*

**Üsyan** – ələ silah götürüb hökumətə qarşı çıxmaq.

**Qüvvələr** – üsyan etmək üçün toplanan adamlar.

**Peterburq** – indiki Leninqrad şəhəri.

**Vıborq rayonu** – Peterburqun (Leninqradın) bir rayonu.

**Nikolayev körpüsü** – Peterburq şəhərində Neva çayı, çayın üzərində isə çoxlu körpü vardır. Körpülərin hərəsi bir cür adlanır. Onlardan biri də Nikolayev körpüsüdür.

**Qayıqçılar** – çayda və ya dənizdə qayıq sürənlər.

**Parik** – görkəmi süni şəkildə dəyişmək üçün üzə qoyulmuş bığ, saqqal və ya saç

**Smolnı** – Peterburqda (Leninqradda) böyük binalardan birinin adıdır.

**Nadejda Konstantinovna** – V.İ.Leninin həyat yoldaşı, ən yaxun dostu və silahdaşı

**Şam yeməyi** – axşam yeməyi.

**Hərbi inqilab komitəsi** – inqilabın hazırlanması və keçirilməsinə rəhbərlik edən adamlar qrupu.

**İnqilab qərargahı** – inqilabla əlaqədar göstəriş, əmr və sərəncam verilən yer.

**Konduktor** – tramvayda bilet satan adam.

**Park** – tramvayların və digər nəqliyyat vasitələrinin qaldığı və təmir olunduğu yer.

**Burjuy** – fabrik və zavod sahibi, mağaza sahibi, yeməkxana, sex sahibi.

**Dalandar** – küçəyə baxan, nəzarət edən şəxs

**Sərxoş** – şəra, araq içib huşunu, ağlını itirən, danışığını bilməyən adam

**Əsilzadə** – varlı-dövlətli adam

**Nümayəndə** – yığıncaqda seçilib göndərilən adam

**Zirehli avtomobil** – ətrafına dəmir çəkilmiş avtomobil

**Mandat komissiyası** – sənəd hazırlayan, sənəd verən və sənəd yoxlayan komissiya

**Menşevik** – rus sözü olan *menşe* sözündən əmələ gəlmiş və *azlıq* deməkdir. Menşeviklər bolşeviklərin – Leninin və onun tərəfdarlarının əleyhinə idilər.

**Qurultay** – hər hansı təşkilatın ali, ən yüksək yığıncağı.

**Qırmızı qvardiyaçılar** – inqilaba hazırlaşan və onu keçirən adam dəstələri: fəhlə, kəndli, əsgər dəstələri.

**Vağzal** – dəmir yolunda qatarın dayandığını, sərnişinlərin yığıldığı yer.

**Bank** – dövlət pulunun saxlanıldığı yer.

**Telefon stansiyası** – telefonla danışılan bina.

**Müvəqqəti hökumət** – varlıların; fabrik, zavod, mağaza sahiblərinin, yəni burjuyların hökuməti.

**Qış sarayı** – Peterburqda rus çarlarının, sonra isə Müvəqqəti hökumətin yerləşdiyi böyük bina. Hazırda muzeydir.

**Şəfəq** – səhər-axşam göydə günəşin işıqlandırdığı sahə.

**Sürəkli alqışlar** – yığıncaqda adamların uzun müddət əl çalmaları.

**Proletariat** – burjuyların fabrik və zavodlarında işləyən adamlar.

4. **Mətn üzrə müsahibə**. Oxunmuş hissələr üzrə söhbət keçirmək və hər hissənin məzmununa uyğun sinif qarşısında suallar qoymaq lazımdır. Bu zaman hekayənin sonundakı sual və tapşırıqlardan da istifadə etmək olar. Oxunmuş hissələrə başlıq vermək və bu əsasda plan tutub hekayəni nağıl etmək də nəzərdə tutulmuşdur.

**«Oktyabr üçün».**

1. **Giriş söhbəti**. Giriş söhbətində müəllim «Başlandı» hekayəsinin ideyasını uşaqlara təkrar etdirə bilər. Sonra isə demək olar ki, Oktyabr inqilabı haqqında, onun mənası və əhəmiyyəti haqqında yazılmış şeirlərdən biri də «Oktyabr üçün» adlı şeirdir. Şeiri Süleyman Rüstəm yazmışdır. O, Azərbaycan sovet poeziyasının görkəmli nümayəndələ-

rindən biridir. S.Rüstəm «And», «İldırım», «Qaçaq Nəbi» kimi çoxlu poemalar, pyeslər, şeirlər yazmışdır. O, Lenin ordeni ilə, Qırmızı Əmək bayrağı ordeni ilə, bir sıra medallarla təltif olunmuşdur. S.Rüstəmə Azərbaycan SSR Əməkdar incəsənət xadimi, respublikanın Xalq şairi fəxri adları verilmişdir. O, Azərbaycan SSR Ali Sovetinin deputatıdır.

2. **Şeirin oxunuşu**. Şeiri əvvəlcə müəllim özü, yaxud ifadəsi yaxşı olan şagird nümunə üçün oxumalıdır. Eyni zamanda çətin anlaşılan sözlər və ifadələr üzərində şagirdləri işlətmək və yenidən hər bəndi bir şagirdə oxutmaq olar. Bizcə, birinci növbədə diqqət yetirilməli sözlər bunlardır: *zülmət, intiqam, uğurlu, şəfa, səfa, əməllər, ilham, ağ gün, büsat.*

**Zülmət** – qaranlıq, iztirab.

**İntiqam** – əvəzini çıxma, hayıf alma.

**Uğurlu –** yaxşı, xoş fikirli, xoş məqsədli.

**Şəfa** – sağaltma, ayağa qaldırma, ruhlandırma.

**Səfa** – kef, xoş gün, şadlıq

**Əməllər** – görülən işlər

**İlham** – həvəsə gəlmə, qurub-yaratmağa çalışma.

**Ağ gün** – yaxşı gün, xoşbəxt gün, əzab-əziyyətsiz gün.

**Büsat** – gözəllik

3. **Obrazlı ifadələr üzərində iş**. Ayrı-ayrı obrazlı ifadələr üzərində uşaqları işlətmək şeirin ideya məzmununun şagirdlər tərəfindən daha yaxşı mənimsənilməsinə kömək edər. Bu məqsədlə də sual-cavab aparmaq lazımdır. Müvafiq obrazlı ifadələrə uşaqlar təqribən aşağıdakı kimi izahat verə bilərlər:

**Coşqun bir dənizsən** – Oktyabr inqilabına işarədir. Dəniz coşanda onun dalğaları qarşıda nə varsa yıxıb dağıdır.

**Dalğalarında zülmət dünyasından intiqam aldın** – Oktyabr inqilabına işarədir, yəni inqilab əzab-əziyyət dünyasından, burjua dünyasından qisas aldı.

**Uğurlu bir quşsan** – inqilaba işarədir, yəni inqilab xoş niyyətli, xoş arzulu uçan bir quşdur.

**Şirin meyvəsisən gözəl bir bağın** – Oktyabr inqilabına işarədir, yəni inqilab Vətənimizin, xalqımızın dadlı məhsuludur.

**Ətrin bu ellərə səfa gətirdi** – inqilaba işarədir, yəni inqilabın ətri adamlara xoşbəxtlik gətirir.

**Sönməz bir günəşsən** – Oktyabr inqilabına işarədir, yəni inqilab günəş kimi sönmür, o hər yana işıq saçır.

**Öz tellərinlə qatı qaranlığı bir anda boğdun** – yəni inqilab daim parlayan günəş kimi qaranlıqları işıqlandırır.

**Ellərə xoş gələn əməllərində** – inqilaba işarədir, yəni inqilabın bütün işi xalqların ürəyindədir.

**Baharın qoynundan xəzanı qovdun** – yəni inqilab ilin ən yaxşı fəsli olan yazın qoynundan ən ağır fəsil olan payızı, ağır günləri qovdu, məhv etdi.

**Bitib tükənməz sənin büsatın** – inqilaba işarədir, yəni Oktyabr inqilabının faydası, onun gözəlliyi çoxdur, hüdudsuzdur.

**Sən ağ gün gətirdin bizim Vətənə** – yəni inqilab ölkəmizə xoşbəxt günlər, əzab-əziyyətsçiz günlər bəxş etdi.

4. **Evə tapşırıq**. Çalışmaq lazımdır ki, hər bir şagird şeiri əzbərdən öyrənsin.

## 6. «ƏSL İNSNAN OLMALI» BÖLMƏSİ ÜZRƏ MATERİALLARIN PLANLAŞDIRILMASI VƏ TƏDRİSİ

| Dərslər | Mövzu | Müəllif | Saat |
|---|---|---|---|
| 48-ci | «Vladimir İliçin uşaqlıq illəri haqqında» | V.Bonç-Bruyeviç | 1 s. |
| 49-cu | «Mirzə Ələkbər Sabir» | M.Ə.Sabir | 1 s. |
| 50-ci | «Hörümçək və ipəkqurdu» | C.Məmmədquluzadə | 1 s. |
| 51-ci | «Buz» | | 1 s. |
| 52-ci | «Üzeyir Hacıbəyov» | B.Bayramov | 1 s. |
| 53-cü | «Oğullar» | Y.Kupala | 1 s. |
| 54-cü | «Zəhmət, ağıl və bəxt» | Mir Cəlal | 1 s. |
| 55-ci | «İz açın, ay balalar» | H.Hüseynzadə | 1 s. |
| 56-cı | «İki kotan» | | 1 s. |
| 57-ci | «Sev» | N.Rəfibəyli | 1 s. |
| 58-ci | «Çalğıçı Yanko» | H.Sengeviç | 1 s. |

| | | | |
|---|---|---|---|
| 59-cu | «Çalğıçı Yanko» | | 1 s. |
| 60-cı | «Balıqçı və balıq nağılı» | A.S.Puşkin | 1 s. |
| 61-ci | «Balıqçı və balıq nağılı» | | 1 s. |
| 62-ci | «Daniyarın gözləri» | X.Hasilova | 1 s. |
| 63-cü | «Dənizdə şəhər» | Ə.Kərim | 1 s. |
| 64-cü | «Kəndli və muzdur» | İ.Krılov | 1 s. |
| 65-ci | «Qapıya gələni qovmazlar» | H.Zeynalova | 1 s. |
| 66-cı | «Kommunizmdə yaşayacağam» | H.Ziya | 1 s. |
| 67-ci | «Üç qardaş» | | 1 s. |
| 68-ci | «Üç qardaş» | | 1 s. |
| 69-cu | «Hər kəs tayını tapmalı» | | 1 s. |
| 70-ci | «Gicitkən» | H.Ziya | 1 s. |
| 71-ci | «Alicənablıq» | | 1 s. |
| 72-ci | «Qartala daş atan qarğa» | H.Ziya | 1 s. |
| 73-cü | Ümumiləşdirici dərs | | 1 s. |
| 74-cü | Sinifdənxaric qiraətin yekunlaşdırılması | | 1 s. |

Bu bölmədə verilmiş materialların başlıca məqsədi şagirdlərə ən nəcib insani keyfiyyətlər aşılamaq, onlarda insanpərvərlik, qayğıkeşlik, əməyə məhəbbət hisslərinin, böyüklərə hörmət, biliyə maraq və s. gözəl hisslərin tərbiyə olunmasına kömək etməkdir. Belə bir məqsədə nail olmaq üçün bir sıra bədii parçalardan, şeir və hekayələrdən istifadə olunur. Həmin materiallar konkret şəxslərə, konkret nümunələrə əsaslanaraq yazılmışdır. İlk material V.İ.Leninlə əlaqədardır. Bu materialda Lenin bir insan kimi canlandırılır, onun uşaqlıq dövrü ilə şagirdlər tanış olurlar.

**«Vladimir İliçin uşaqlıq illəri haqqında».**

1. **Hekayənin oxunuşu**. Hekayəni altı hissəyə ayırmaq və hər hissəni bir şagirdə oxutmaq olar: «Sonra Volodya oturub həmişə axşamdan hazırladığı dərsləri təkrar edərdi» ifadəsinə qədər; «Məktəbdən evə qayıdandan sonra Volodya havadan asılı olaraq, bir və ya iki saat həyətdə gəzərdi» cümləsinə qədər; «Nahar vaxtı hamımız stolun başına toplaşar…» ifadəsinədək; «Nahardan sonra Volodya oturub dərslərini hazırlayardı» cümləsinə kimi; «Dərslərini qurtardıqdan sonra

Volodya kiçik bacıları ilə həvəslə oynayardı» cümləsinə qədər və nəhayət, sonadək.

2. **Lüğət üzrində iş**. Hekayədəki olduqca çətin anlaşılan sözlər üzərində şagirdlərin fikir mübadiləsini təşkil etmək zəruridir. Şagirdlərin diqqətini xüsusən *gimnaziya, rişxənd, məzəmmət* kimi sözlərə cəlb etmək olar.

**Gimnaziya** – inqilabdan qabaq orta məktəb adı.

**Rişxənd etmək** – ələ salmaq; istehza etmək.

**Məzəmmət etmək** – yüngülcə danlamaq; umub küsmək

3. **Mətn üzrə müsahibə**. Oxunmuş hissələr üzrə sual-cavab keçirmək. Hər hiss üzrə elə sual qoymaq lazımdır ki, həmin sual gələcəkdə tutulmalı planın bir bəndinə çevrilə bilsin; yəni hekayə üzrə şagirdlərin plan tərtib etmək işini asanlaşdırsın. Suallar təqribən belə ola bilər:

-Volodya səhərlər nə ilə məşğul olurdu?

-Səhər yeməyi ilə əlaqədar Volodyanın hansı xüsusiyyətləri xoşunuza gəlir?

-Volodya oyun zamanı özünü necə aparırdı?

-Volodya dilləri necə öyrənirdi?

-Volodyanın dərsə, oxumağa münasibəti necə idi?

-O, axşamlar vaxtını necə keçirirdi?

4. **Plan tərtibi**. Bu cür suallara alınmış cavablardan sonra müəllim hekayəyə plan tutmağı və plan üzrə onu danışmağı tapşıra bilər. Sinifdə bir neçə şagirdin tərtib etdiyi planı müzakirə etdikdən sonra, müəllim onları ümumiləşdirib sinfə vahid plan təklif edə bilər. Təqribən bu cür plan təklif etmək mümkündür:

*1. Volodyanın səhər rejimi.*
*2. Volodyanın səhər yeməyi və məktəbə getməsi.*
*3. Volodya oyun zamanı.*
*4. Onun dillərə olan həvəsi.*
*5. Volodyanın dərslərə hazırlaşması.*
*6. Volodya axşamlar.*

5. **Əyanilikdən istifadə**. Dərsdə film nümayiş etdirmək yerinə düşərdi. «Vladimir İliç» adlı film vardır. Film aşağı sinif uşaqları üçün hazırlanmışdır. İki hissədən ibarətdir. Bir hissəsini həmin dərsdə, bir hissəsini isə V.İ.Leninin inqilaba

rəhbərliyi haqqında söhbət apararkən göstərmək olar. Lenin haqqında sonralar da mətn oxunacaqdır.

6. **Yazıçı haqqında söhbət**. Hekayəni Vladimir Dmitriyeviç Bonç-Bruyeviç yazmışdır. O, 1873-cü ildə anadan olmuş və 1955-ci ildə vəfat etmişdir. V.İ.Lenin Xalq Komissarları Sovetinin sədri olan zaman Bonç-Bruyeviç XKS-nin işlər müdiri vəzifəsində çalışmışdır. Bonç-Bruyeviç inqilabçı idi. O, həm də ədəbiyyatçı və tarixçi olmuşdur. Çoxlu kitablar, xatirələr və hekayələr yazmışdır.

**«Mirzə Ələkbər Sabir».**

1. **Giriş söhbəti**. Giriş söhbətində müəllim xalqa xidmət etməyin yollarından danışa bilər. Məsələn, deyə bilər ki, yaxşı həkim olub xəstələri müalicə etməklə, gözəl mühəndis olub yaraşıqlı binalar, körpülər tikməklə, bacarıqlı aqronom olub bağlar-bostanlar salmaqla xalqa xidmət etmək olur. Adamların arzu və istəklərini qələmə alıb mənalı şeir və hekayələr yazmaqla da öz xalqına xidmət etmək mümkündür. Mirzə Ələkbər Sabir məhz belə şair olmuşdur. O, inqilabdan əvvəl yaşamışdır. Sabir, cəmiyyət üçün, xalq üçün zərərli olan mollaları, o zamankı bəyləri və xanları, qoç döyüşdürən və it boğuşduran qoçuları, avamlıq və nadanlığı ifşa edirdi. Bütün bunlara görə də xalq Sabiri sevirdi. O zamankı Çar hökuməti Sabiri gözümçıxdıya salırdı.

Gəlin Sabirlə bir qədər yaxından tanış olaq.

2. **Mətnin oxunuşu və mətn üzrə söhbət**. Material həcmcə kiçik olduğundan, onu axıradək bir şagirdə oxutmaq olar. Bu zaman sinif diqqətlə qulaq asır. Sonra bir neçə məsələ üzrə sorğu keçirmək lazımdır. Sinifdən soruşmaq olar:

-Uşaqlar, Sabir adına hansı kənd, rayon, kitabxana, bağ və s. tanıyırsınız?

-Sabirabad rayonu.

-Sabir qəsəbəsi.

-Bakıda Sabir adına uşaq kitabxanası.

-Bakıda Sabir adına bağ.

-Bakıda Sabir adına pedaqoji texnikum.

-Bakıda, Kirovabadda Sabir adına küçə və s.

Yenə şagirdlərə müraciət etmək lazımdır ki, Sabirin hansı şeirlərini eşidiblər və kim onun şeirlərindən birini əzbər deyər.

Uşaqlar «Uşaq və buz», «Yaz günləri» və s. şeirləri əzbər deyə bilərlər.

3. **Şeirin oxunuşu**. Bütün bunlardan sonra dərslikdəki «Hörümçək və ipəkqurdu» təmsilini oxumaq olar. Şeirdə çətin sözlərin mənasını şagirdlərə başa salarkən dərslikdəki lüğətdən istifadə etmək lazımdır. Şeirin qiraəti zamanı çalışmaq lazımdır ki, şairin məqsədini uşaqlar başa düşsünlər, dərk etsinlər ki, şair oxucunu ümumiyyətlə işləməyə deyil, məhz faydalı əməyə, cəmiyyət üçün, xalq üçün yararlı əməyə dəvət edir. Şair istəyir ki, adamlar başdansovdu deyil, səbrlə, hövsələ ilə, keyfiyyətli işləsinlər.

«**Buz**».

1. **Giriş söhbəti**. Hekayə ilə uşaqları tanış etməzdən əvvəl Cəlil Məmmədquluzadə haqqında şagirdlərə qısa məlumat verilməsini məsləhət görürük. Demək olar ki, Sabir kimi görkəmli adamlarımız az deyildir. Bunlardan biri də C.Məmmədquluzadədir. O, 1866-cı ildə Naxçıvanda anadan olmuş və 1932-ci ildə Bakıda vəfat etmişdir. C.Məmmədquluzadə görkəmli Azərbaycan yazıçısı, jurnalist və ictimai xadim olmuşdur. Məşhur «Molla Nəsrəddin» jurnalının redaktoru idi. «Ölülər», «Danabaş kəndinin əhvalatları», «Poçt qutusu» və s. adda xeyli əsər yazmışdır.

C.Məmmədquluzadə haqqında qısa məlumatdan sonra şagirdlərə demək lazımdır ki, bu gün onun hekayələrindən birini – «Buz» adlı hekayəsini oxuyacağıq.

2. **Hekayənin izahlı oxunuşu**. Müəllim hekayəni 2-3 hissəyə ayıra və hər hissəni bir şagirdə oxuda bilər.

3. **Mətnin ideyası üzərində iş**. Mətn oxuduqdan sonra şagirdlərin diqqətini hekayənin ideyasına cəlb etmək olar. Bu məqsədlə sinif qarşısında bu cür suallar qoymağı faydalı hesab edirik:

-Buz nə üçün əridi?

-Musanın günahı nə idi?

-Buz əhvalatı yadına düşəndə Musa nə üçün narahat olurdu?

-Musa necə hərəkət etsə idi, sonralar özünü danlamazdı?

Bu cür suallara alınan cavabları ümumiləşdirmək və yazıçının məqsədini aydınlaşdırmaq zəruridir. Bu son məqsədə nail olmaq üçün aşağıdakı suallardan da istifadə etmək olar:

-Hekayəni yazmaqda yazıçının məqsədi nə olmuşdur?

-Yazıçı uşaqlarda hansı sifətləri görmək istəyir?

Şagirdlərdən təqribən bu cür cavab almaq lazımdır:

-Yazıçı istəyir ki, uşaqlar böyüklərə qarşı, öz valideynlərinə, qohumlara və yaxınlara, ümumiyyətlə, adamlara qarşı diqqətli olsunlar, tapşırılmış işə məsuliyyətlə yanaşsınlar, onu vaxtında yerinə yetirsinlər ki, sonralar peşman olmasınlar.

**«Üzeyir Hacıbəyov».**

Dərslikdəki bu mətn metodik cəhətdən çox aydın tərtib olunmuşdur. Buna görə də mətn üzrə xüsusi məsləhət verməyə ehtiyac yoxdur. Yalnız bunu deməyi lazım bilirik ki, Üzeyir Hacıbəyovla uşaqları tanış edərkən mümkün qədər böyük bəstəkarın bəstələmiş olduğu operalardan ayrı-ayrı parçaların maqnitofon lentində səsləndirilməsi məsləhətdir. Maqnitofon lentindən hər müəllim dərsdə istifadə edə bilər.

**«Oğullar».**

1. **Giriş**. Şeir dərsdə peşə oriyentasiyası üzrə iş aparmaq üçün müəllimə geniş imkan verir. Şagird lap aşağı sinifdən yəqin etməlidir ki, peşənin pisi yoxdur. Bizim ölkəmizdə bütün peşələr yaxşı hesab edilir. Namusla, vicdanla çalışan hər bir kəs, hansı peşədə olur-olsun, yüksələ, xalqın rəğbətini qazana bilər. Giriş söhbətində müəllim müxtəlif peşə sahələrindən konkret misallar gətirməli və hər peşə üzrə qabaqcıl olmağın mümkün olduğunu göstərməlidir. Bu cür misallar, birinci növbədə şagirdlərin yaşadığı kənddən, rayondan və ya şəhərdən olmalıdır.

2. **Şeirin oxunuşu**. Peşələr haqqında, ayrı-ayrı peşələr üzrə qabaqcıl adamlar haqqında kiçik söhbətdən sonra müəllim uşaqların diqqətini «Oğullar» şeirinə yönəldə bilər. Əvvəlcə şeiri müəllim özü ifadəli oxuyur. Sonra uşaqlardan biri şeiri əvvəldən axıradək oxuyur. Bundan sonra müəllim şeiri doqquz hissəyə ayıra və hər hissəni bir şagirdə oxuda bilər. Şagirdlərdən biri şeirin əvvəlindən «qoca böyük bir vüqarla soruşur» ifadəsinə qədər, digəri qocanın sözlərini oxuyur. Sonra hər oğulun sözünü bir şagird, axırıncı bəndi isə başqa bir şagird oxuyur.

3. **Evə tapşırıq**. Şeirin evdə əzbər öyrənilməsini uşaqlara tapşırmaq olar. Növbəti dərsdə isə şeiri tam şəkildə deməyi bütün uşaqlardan, həm də hər bəndi əzbərdən deməyi bir şagirddən tələb etmək olar. Bu, şeirin, bir növ səhnələşdirilməsinə kömək edər.

4. **Şair haqqında məlumat**. İmkan olarsa, dərsdə şair haqqında yığcam məlumat vermək yerinə düşər. Yanka Kupala 1882-ci ildə anadan olmuş, 1942-ci ildə vəfat etmişdir. Y.Kupala Belorus poeziyasının görkəmli nümayəndələrindən biridir. Çoxlu şeirlər yazmışdır. Onun bir sıra şeirlər məcmuəsi və poemaları çap olunmuşdur: «Quruculuq nəğməsi», «Ürəkdən», «Çay üzərində» və başqaları.

**«Zəhmət, əql və bəxt».**

1. **Giriş söhbəti**. Hekayənin məzmunu, onun əsas ideyası «Oğullar» adlı şeirlə bağlıdır. Buna görə də müəllim giriş söhbətində həmin əlaqəni aça bilər. Məsələn, şeirin adını çəkə və deyə bilər ki, şeirdən göründüyü kimi, zəhmət çəkən hər bir ağıllı adam istədiyi sahədə qabaqcıl adam, gözəl mütəxəssis ola bilər. Belə bir fikir «Zəhmət, əql və bəxt» adlı hekayədə ifadə olunmuşdur.

2. **Materialın oxunuşu**. Hekayəni dörd hissəyə bölüb, bir hissəni bir şagirdə oxutmaq məsləhətdir. Mətnin əvvəlindən «Əkinçi fikirləşməyə macal tapmamış, atlı gəlib yetişdi, salam verib soruşdu» ifadəsinə qədər; «Atlı başını bulayaraq, dönüb getdi» cümləsinə kimi, «Gəl, işin üstündə ol» ifadəsinədək və nəhayət, sona qədər.

Biz hətta ikinci hissəni də iki şagirdin oxumasını məsləhət bilirik. Çünki həmin hissə əkinçi ilə atlı arasındakı söhbətdən ibarətdir. Odur ki, əkinçinin sözlərini bir, atlının sözlərini isə başqa şagird oxusa hekayə uşaqlar tərəfindən daha şüurlu mənimsənilir.

3. **Lüğət üzərində iş**. *Tarla, kotan, əkinçi, küp, təlaş, gövşəmək, bəhs, mürgüləmək, güzəran* kimi sözlərin mənasını sinifdəki uşaqların necə başa düşdüklərini yoxlamaq lazımdır.

**Tarla** – arpa, buğda, pambıq əkmək üçün şumlanan yer.

**Kotan** – qabaqlar öküz, kəl və ya at qoşub torpağı şumlamaq üçün istifadə olunan dəmir alət. İndi öküzü və ya kəli traktor əvəz edir, kotanı traktor çəkir.

**Əkinçi** – kənd yerlərində arpa, buğda və s. kənd təsərrüfat məhsulu əkib-becərən adam.

**Küp** – saxsıdan düzəldilmiş ağzı kiçik, qarnı iri qab.

**Təlaş** – təşviş, vurnuxmaq, narahat olmaq.

**Bəhs** – deyişmə, mübahisə etmə.

**Mürgüləmək** – oturub, yaxud uzanıb gözünü yummaq, yarıyuxulu vəziyyətdə olmaq.

**Gövşəmək** – çeynəmək (inək, camış, qoyun və bəzi başqa heyvanlar mədəsinə ötürdüyü yemi geri qaytarıb ağzında yenidən yumşaldır, yəni gövşəyir).

**Güzəran** – yaşayış, dolanmaq, həyat sürmək.

4. **Bədii ifadələr üzərində iş**. Hekayədəki bəzi ifadələr üzərində şagirdlərin xüsusi düşünməsini təşkil etmək olar. Biz aşağıdakı ifadə tərzlərini nəzərdə tuturuq:

**Lənət sənə, kor şeytan** – səbir etmək, özünü ələ almaq, hissiyyata qapılmamaq, ağıllı hərəkət etmək.

**İşin avand olsun** – işdə məqsədinə çatasan, işində dolaşıqlıq olmasın.

**Ay qafil adam** – ay xəbərsiz adam.

**Məni niyə yoldan eləyirsən** – məni niyə gecikdirirsən, məni niyə getməyə qoymursan, məni niyələngidirsən.

**Gün-güzəran** – dolanacaq, maddi vəziyyət.

**İşin üstündə ol** – işlə məşğul ol, işdən ayrılma.

5. **Hekayənin ideyası üzərində iş**. Hekayənin əsas ideyasını uşaqların necə başa düşdüyünü yoxlamaq lazımdır. Bu məqsədlə aşağıdakı suallar üzrə sorğu keçirmək olar:

-Əkinçinin yaxşı işləməsində bəxtin, əqlin, yoxsa zəhmətin rolu böyükdür?

-Bəs əqlin rolu nədən ibarətdir?

-Həyatda bəxtin rolu varmı?

-Birinci sualla əlaqədar olaraq uşaqlar deməlidirlər ki, əməyin rolu daha böyükdür.

İkinci sualla əlaqədar olaraq uşaqlar bilməlidirlər ki, ağılla, şüurla çəkilən zəhmətin mənası dərin, bəhrəsi çox olur. Şüursuz çəkilən zəhmət isə hədər gedə bilər. Üçüncü sualla əlaqədar olaraq uşaqlar hiss etməlidirlər ki, bəxt adicə təsadüfdür. Təsadüf üzərində yaşamaq, təsadüfə ümid bəsləmək olmaz.

Növbəti dərsdə hekayəni uşaqlar nağıl edən zaman izah olunmuş söz və ifdələri də onlardan soruşmaq lazımdır.

6. **Yazıçı haqqında məlumat**. Hekayənin müəllifi Mir Cəlal 1908-ci ildə anadan olmuş, uşaqlıq illərini Gəncədə keçirmişdir.

Mir Cəlalın çoxlu roman və hekayələri vardır. Eyni zamanda o, filoloq-alimdir. Mir Cəlal «Dirilən adam», «Bir gəncin manifesti», «Yeni şəhər» və s. kimi dərin məzmunlu əsərlərin müəllifidir.

**«İz açın, ay balalar!».**

1. **Giriş söhbəti**. Müəllim giriş söhbətində «Zəhmət, əql, bəxt» adlı hekayə ilə əlaqə yarada bilər. Məsələn, deyə bilər ki, ağıllı, düşünülmüş əmək adamı xoşbəxtliyə çıxarır. «İz açın, ay balalar!» adlı şeirdə uşaqları bilik qazanmağa, zəhmətə çağırır. Şair uşaqlara xatırladır ki, təbiətdə hələ öyrənilməmiş sirlər çoxdur, he bir çətinlikdən qorxmayın, bu sirləri öyrənin, xalqımıza fayda verin.

2. **Şeirin qiraəti**. Şeirin ideyasını, onun gözəlliyini şagirdlərə hiss etdirmək üçün onu müəllim özü oxuya bilər. İfadəsi nümunəvi olan şagirdin də oxuması məsləhətdir.

3. **Söz və ifadələr üzərində şagirdlərin işi**. Bəzi sözlər:

**Aran** – isti yerlər, dağdan qayıdandan sonra adamların yaşadığı yerlər (dağ, aran. Adamlar arandan dağa gedir).

**Hikmət** – dərin, mənalı.

**Kainat** – Yer-göy, Ay, Günəş ulduzlar.

Bəzi ifadələr:

**Qıy vurmaq** – qışqırmaq, bağırmaq.

**Təbiətin dilini öyrənmək** – təbiətin qanunauyğunluqlarını öyrənmək, təbiətin sirrindən baş açmaq.

**Ucalmaq həvəsi** – hörmətli olmağa, bilikli olmağa çalışmaq.

**Vətən torpağı geniş,**
**Aranı var, dağı var** – Vətənimiz o qədər genişdir ki, onun bir tərəfində yay olanda, o biri tərəfində qış olur, bir tərəfində gül-çiçək açdığı halda, başqa tərəfində qar-boran olur.

4. **Şeirin oxunuşu**. İlk on iki misranı bir şagirdə oxudub, burada şairin uşaqlara nə məsləhət gördüyünü sinifdən soruşmaq olar.

İkinci on iki misranı başqa bir şagird oxuya bilər. Şairin orada uşaqlara nə məsləhət gördüyünü sinifdən soruşmaq olar.

Üçüncü on iki misra ilə əlaqədar da bu cür iş aparmaq məsləhətdir.

5. **Tapmaca ilə əlaqə**. Axırda tapmaca da oxutmaq və onun məzmununu şeirlə əlaqələndirmək vacibdir. Burada vacib cəhət ondan ibarətdir ki, təbiətin hələ açılmamış sirlərini öyrənməkdə kitabın, bilik öyrənməyin ilk köməkçi olduğunu şagirdlər başa düşsünlər.

6. **Şeirin müəllifi haqqında**. Hüseyn Abbaszadə 1923-cü ildə Bakıda anadan olmuşdur. Şair xeyli əsər yazmışdır: «General», «İlqar», «Ləpədöyəndə», «Yasəmən» və s. Onun bir çox əsərləri rus, alman, ingilis, fransız, ərəb, bolqar və s. dillərə tərcümə olunmuşdur.

**«Çalğıçı Yanko».**

1. **Giriş söhbəti**. Əmək adamları uşaqlarının inqilabdan əvvəlki və sonrakı vəziyyəti haqqında qısa məlumat vermək olar. Söhbət zamanı həm də demək lazımdır ki, yoxsul

uşaqların vəziyyəti hər yerdə – Azərbaycanda da, Rusiyada da, xaricdə də çox ağır olub. Belə uşaqların qayğısına qalan, onların arzularını yerinə yetirən, onları başa düşən yox idi. «Çalğıçı Yanko» inqilabdan əvvəl yoxsul ailəsində bir uşağın həyatından bəhs edir. Gəlin hekayəni oxuyaq.

2. **Hekayənin oxunuşu**. Hekayəni yeddi hissəyə ayırmaq və hər hissəni bir şagirdə oxutmaq olar. «Onun musiqiyə böyük həvəsi vardı» cümləsinə qədər; «Bir dəfə o, saçları dağınıq halda dayanaraq...» ifadəsinə kimi; «O özü üçün çiləkəndən və at tükündən skripka düzəltdi» cümləsinədək «Bir dəfə axşam çağı yemək otağında heç kəs yox idi...» ifadəsinə kimi; «Lakin bir dəqiqə keçəndən sonra kim isə yuxulu bir səslə...» ifadəsinə qədər; «Səhəri gün yazıq Yanko kəndxudanın məhkəməsi qarşısında durmuşdu» cümləsinə kimi və nəhayət, hekayənin sonuna qədər.

3. **Plan üzərində iş**. Hər hissə oxunan kimi şagirdlər tərəfindən ona başlıq verilməsi məsləhətdir. Nəticədə təqribən bu cür başlıqlar alına bilər: 1) Yankonun görkəmi; 2) Hər şey Yanko üçün musiqi çalırdı; 3) Meyxanadakı çalğıya Yankonun qulaq asması; 4) Yanko skripka düzəldir; 5) Yanko başqasının skripkasına baxmaq istəyir; 6) Otaqda Yankonun başına gələn əhvalat; 7) Yanko mühakimə olunur.

Ayrı-ayrı hissələrə uşaqların verdiyi başlıqlar hekayəni ardıcıl nağıl etmək üçün plan ola bilər.

4. **Hekayənin nağıl edilməsi**. Hekayənin oxunan və başlıq verilən hissələrinin ayrılıqda məzmununu arı-ayrı uşaqların danışması yaxşı olar. Sonra isə plan üzrə hekayəni tam şəkildə uşaqların nağıl etməsi məsləhətdir.

5. **Həyatla əlaqə**. Dərsin sonunda isə, keçmişdə uşaqların həyatını indi uşaqlarımızın həyatı ilə müqayis etdirmək, uşaqların hər cür arzuları üçün, o cümlədən musiqi arzuları üçün ölkəmizdə hər cür şəraitin yaradıldığını göstərmək lazımdır. İndi hər bir ailədə, hər bir məktəbdə, hətta məktəbdənkənar müəssisələrdə – pioner saraylarında, pioner düşərgələrində və s. çalıb-oxumaq, oynamaq üçün geniş şərait yaradılır.

5. **Yazıçı haqqında.** Hekayənin müəllifi Henrix Senkeviçdir. O, Polşa yazıçısıdır. Çoxlu roman, povest və hekayələr yazmışdır. «Od və qılıncla», «Xaçgəzdirənlər», «Daşqın» və başqaları H.Senkeviçin ən yaxşı əsərləridir. Yazıçı 1846-cı ildə anadan olmuş və 1916-cı ildə vəfat etmişdir.

**«Balıqçı və balıq nağılı».**

1. **Giriş söhbəti.** Giriş söhbətində müəllim nağıl və onun bəzi xüsusiyyətləri haqqında uşaqlara məlumat verə bilər. Bu zaman uşaqların oxumuş olduqları nağıllara, o cümlədən dərslikdəki «Fatma», «Zəhmət, əql və bəxt» adlı nağıllara da müraciət etmək olar. Müəllim bilməlidir ki, nağıllar iki əsas qrupa bölünür: 1) xalq tərəfindən yaradılan və müəllifi məlum olmayan nağıllar; 2) ayrı-ayrı şəxslər tərəfindən yazılan, müəllifi məlum olan nağıllar.

Müəllim sinifdən soruşa bilər:

-Uşaqlar, sizcə, «Fatma» adlı nağıl hansı qrup nağıllara aiddir?

-«Fatma» nağılı xalq nağıllarına aiddir. Çünki onun müəllifi məlum deyil.

-Bəs «Zəhmət, ağıl və bəxt» nağılı?

-Bu nağıl ikinci qrup nağıllara aiddir. Çünki onun müəllifi məlumdur – Mir Cəlaldır.

Bu gün biz müəllifi məlum olan başqa bir nağıl da öyrənəcəyik. «Balıqçı və balıq nağılı». Bu nağılı Puşkin yazmışdır.

2. **Puşkin haqqında qısa məlumat**. Aleksandr Sergeyeviç Puşkin rus xalqının ən böyük şairlərindən biridir. O, 1799-cu ildə anadan olmuş və 1837-ci ildə vəfat etmişdir. Puşkin ana vətəni, onun təbiətini ürəkdən sevir, diqqətlə müşahidə edər, kəndlilərin həyatını öyrənər, nağıllara maraqla qulaq asar, özü də nağıllar, şeirlər, romanlar yazardı. «Yevgeni Onegin», «Boris Qodunov», «Qafqaz əsiri», «Qaraçılar» və s. A.S.Puşkinin ən yaxşı əsərlərindəndir.

A.S.Puşkin çoxlu nağıllar da yazmışdır.

3. **Müəllim üçün əlavə məlumat**. Ədəbiyyatda tanınmış nağıl yazan müəlliflər: Azərbaycanda – S.S.Axundov, S.Rəhimov, Ə.Vəliyev, E.Mahmudov və b.; Rusiyada – A.S.Puşkin, P.P.Yerşov, V.F.Odoyevski, K.D.Uşinski, L.N.Tolstoy, S.Y.Marşak, K.İ.Çukovski, V.A.Oseyeva və b.; xaricdə – Şarl Perro (fransız), Yakob Qrimm (alman), Hans Andersen (danimarkalı), Canni Rodari (italyan) və s. Dərsdə və bəzən də sinifdənkənar oxu zamanı həmin yazıçı və şairlərlə, onların əsərləri ilə uşaqları tanış etmək lazımdır.

Şagirdlər bilməlidirlər ki, xalq öz fikir və istəklərini nağıllarda ifadə etdiyi kimi, həmin yazıçı və şairlər də arzularını öz nağıllarında ifadə etmişlər.

4. **Lüğət üzərində iş**. Nağılın oxunuşunu təşkil etməzdən əvvəl, onun məzmununu yaxşı başa düşmək üçün nağılda ifadə olunan bəzi sözləri şagirdlərə izah etmək yaxşıdır: «qarı, cəhrə, lil, dənizotu, rəhm elə, haqq, tor, möcüzə, teknə, koma, zəhrimar, daxma, eyvan, qudurmaq, rəiyyət, dvoryan, xiyaban, inci, birçəkləmək, tövlə, mehtər, ədalar, pysər, mujik, gürzlər, kaftar, boyar, cəllad, məsxərə, nadan, qəsr».

**Qarı** – qoca arvad, yaşı 60-70-i keçmiş qadın.

**Cəhrə** – keçmişdə ip əyirən əl aləti, yundan ip əyirmək üçün keçmişdə adamların işlətdiyi kiçik alət.

**Lil** – suyun dibində yığılan torpaq, zir-zibil.

**Dənizotu** – dənizin içində bitən otlar.

**Daxma** – kiçik ev.

**Eyvan** – evin qabağına kölgə salan, yağışdan qoruyan yer.

**Rəhm elə** – yazığın gəlsin, kömək elə.

**Haqq** – əvəz, ödəmə, əvəzini vermə, doğruluq, düzlük.

**Möcüzə** – görünməmiş hadisə, qeyri-adi hadisə, səbəbi anlaşılmayan hadisə.

**Təknə** – ağacdan və ya taxtadan düzəldilmiş qab.

**Koma** – daldalanmaq üçün olan uçuq-sökük yer.

**Zəhrimar** – ən acı dad, ilan zəhəri.

**Qudurmaq** – həddini aşmaq, hay-küy salmaq, kobudluq etmək.

**Rəiyyət** – keçmişdə mülkədara tabe olan hüquqsuz kəndli.

**Dvoryan** – keçmişdə Rusiyada böyük torpaq sahibi.

**Xiyaban** – o tərəf-bu tərəfi gül-çiçəkli yol.

**İnci** – dümağ sümükdən düzəldilən bəzək şeyləri.

**Birçəkləmək** – saçlamaq, saçından tutmaq.

**Tövlə** – at saxlanan yer.

**Mehtər** – ata baxan adam.

**Əda** – forslu-fasonlu duruş, özünü çəkmə.

**Peysər** – boynunun arxası.

**Mujik** – keçmişdə rus kəndlisinə belə deyirdilər.

**Gürzlər** – gözətçilərin əlindəki ucu şiş dəmir.

**Kaftar** – dişləri tökülmüş qocanı təhqir edəndə belə deyirlər.

**Boyar** – keçmişdə Rusiyada yüksək hərbi vəzifəli şəxs.

**Cəllad** – sarayda adam öldürən şəxs belə adlanırdı.

**Məsxərə** – ələ salma, lağa qoyma.

**Qəsr** – ətrafı hasara alınmış gözəl saray.

5. **Nağılın oxunuşu**. Nağılı doqquz hissəyə ayırmaq və hər hissəni qiraəti yaxşı olan bir şagirdə oxutmaq olar. Sinifdə ifadəli qiraəti yaxşı olan şagird yoxdursa, nağılı müəllim özü oxumalıdır: «Qarının yanına qayıtdı qoca» ifadəsinədək; «Qoca döndü, birbaş gəldi evinə» cümləsinə qədər; «Qoca gəlib gördü yox olub koma» cümləsinə kimi, «Qoca qarısının yanına döncək» ifadəsinə qədər, «Yönəldi sahilə qoca həvəssiz» ifadəsinə kimi; «Qayıdıb gələndə nə gördü qoca» ifadəsinədək, «Bir-iki həftədə qudurdu qarı» ifadəsinə kimi, nəhayət, nağılın sonuna qədər. Oxunmuş hissələrin məzmununu öz sözləri ilə danışmağı uşaqlardan tələb etmək olar.

6. **Plan tərtibi üzərində iş**. Həmin hissələrin məzmununa uyğun olaraq şagirdlər onlara başlıqlar verə bilərlər. Təqribən bu cür başlıqlar alınar: 1) Qoca və qarının otuz üç il səmimi həyatı; 2) Qocanın qızıl balıq tutması; 3) Qarının qocadan ilk tələbi; 4) Qarının yeni daxma tələb etməsi; 5) Qarının dvoryan olmaq tələbi; 6) Qarının padşah olmaq arzusu; 7) Qarının padşahlığı; 8) Qarının dənizlər padşahı olmaq arzusu; 9) Balığın aclığı və qarının aqibəti.

7. **Nağılın ideyası üzərində iş**. Çalışmaq lazımdır ki, uşaqlar nağılın ideyasını yaxşı başa düşsünlər. Mümkün qədər bu ideyanı şagirdlərin özlərindən almaq məsləhətdir. Bu məqsədlə sual-cavab keçirmək lazımdır.

-Kim deyər, şair nağılda hansı xüsusiyyətləri pisləyir?

-Acgözlüyü, qudurğanlığı, ədalətsizliyi, insafsızlığı.

-Şarin məqsədi nədir?

-Şair istəyir ki, adamlar insaflı, gözütox olsunlar, acgöz olmasınlar, ədalətli və qədirbilən olsunlar.

Mətnin sonundakı atalar sözlərinin mənasına da diqqət yetirilməlidir.

8. **Nağılın bədiiliyi üzərində iş**. Şagirdlərin nitqini gözəlləşdirmək, bədiiləşdirmək üçün nağıl üzərində xüsusi iş aparmaq vacibdir. Bu cəhətdən iki istiqamətdə iş aparmaq olar: a) şagirdlərin diqqətini bəzi obrazlı ifadələrə cəlb etmək olar:

*Onlar otuz üç il ömür sürmüşdü,*
*Nə xoş bir güzəran, nə gün görmüşdü.*
*Əynində qarının xəzdən kürkü var,*
*Başında zərxara yaylığı parlar,*
*Boynunda düzülmüş dümağ incilər,*
*Gün kimi şövq salır parlaq incilər.*

b) dəniz – göy (göy dəniz), sular – gömgöy (gömgöy sular), dəniz – mavi (mavi dəniz), düymə – şəfəqli – qızıl (qızıl şəfəqli düymə) və s.

**«Daniyarın gözləri».**

1. **Giriş söhbəti**. Giriş söhbətində müəllim «Balıqçı və balıq nağılı» haqqında uşaqların bildiklərinə əsaslana bilər. Məsələn, yaxşılığın batmadığını, yaxşılıq etməyin gözəl xüsusiyyət olduğunu şagirdlərə xatırlatmaq olar. Demək olar ki, qızıl balıq ona edilən yaxşılığın müqabilində qoca balıqçını həmişə çətinlikdən xilas etmiş, onun xahişlərini yerinə yetirmişdir.

Bu nağılda olduğu kimi, bəzi başqa nağıllarda da adamlara yaxşılıq etməyin nəcib insani xüsusiyyət olduğu mədh edilir. Bu cür nağıllardan biri də «Daniyarın gözləri»

adlı nağıldır. Belə bir qısa giriş söhbətindən sonra nağılın oxunuşunu təşkil etmək olar.

2. **Nağılın oxunuşu**. Nağılı iki əsas hissəyə ayırmaq olar: «Nənəm nağıl edərdi ki...» ifadəsinə qədər və oradan nağılın sonuna kimi. Hər hissəni bir şagirdin oxuması məsləhətdir.

3. **Nağılın ikinci oxunuşu**. Bu zaman ayrı-ayrı söz və ifadələrin izahı üzərində də dayanmaq lazımdır. Məsələn, kombayn, kombayncı, motor, küləş, köçəri yaşamaq, qazax və s. söz və ifadələrə diqqət yetirmək olar.

**Kombayn** – taxılbiçən, buğdanı küləşdən ayıran maşın.

**Kombaynçı** – həmin maşını işlədən adam.

**Motor** – kombaynı, yaxud hər hansı başqa bir maşını hərəkətə gətirən hissə (mühərrik).

**Küləş** – taxılın sünbülü biçilərkən artıq qalan gövdəsinə deyilir.

**Köçəri yaşamaq** – bir yerdə, bir şəhərdə və ya bir kənddə daimi yaşamamaq, yaşayış yerini tez-tez dəyişmək.

4. **Nağılın məzmunu üzərində iş**. Bu məqsədlə aşağıdakı suallar ətrafında müsahibə təşkil etmək olar:

-Söhbət kimlərin arasında gedirdi?

-Söhbət harada və nə zaman olmuşdur?

-Daniyar kim imiş?

-O, nə üçün od arxasınca getmişdi?

-Daniyar odu öz adamlarına nə üçün gətirə bilmədi?

Nağılın ideyasını uşaqlara başa salmaq üçün aşağıdakı suallardan istifadə etməyi məsləhət görürük:

-Daniyarın həqiqətən qoçaq olduğunu nədən bilmək olar?

-Qazax xalqı nə üçün Daniyarı unutmur, ona nağıllar qoşur?

-Nağıldan məqsəd nədir?

Bu cür suallar əsasında uşaqlar bilməlidirlər ki, Daniyar öz xalqına fayda verməyə çalışdığı üçün, öz adamlarına od gətirməyə cəhd göstərdiyi üçün xalq onu unutmur. Xalqa fayda verən adamlar unudulmur.

5. **Yazıçı haqqında**. Nağılı Xalidə Hasilova yazmışdır. O, 1926-cı ildə Zaqatalada anadan olmuşdur. X.Hasilova

Azərbaycan sovet uşaq yazıçılarından biridir. Onun əsərləri uşaqlarımız tərəfindən sevilə-sevilə oxunur: «Sular durulur», «Unutmaram», «Ulduzlu papaq», «Lalənin kitabı» və s.

**«Dənizdə şəhər».**

1. **Giriş söhbəti**. Şeirin əvvəlki nağıllarla yaxın əlaqəsi vardır. Bu əlaqəni müəllim bilməli və dərsdə ondan istifadə etməlidir. Şeirdə də adamların qoçaqlığından söhbət gedir. Qoçaqlıq, igidlik təkcə vuruşmalarda, müharibələrdə özünü göstərmir, bu keyfiyyətlər təkcə nağıllarda tərənnüm olunmur. İgid, qoçaq adamlar bu gün də vardır. Onlar adi işlərdə, kommunizm quruculuğunda möcüzələr göstərir, xariqələr yaradırlar. «Dənizdə şəhər» adlı şeirdə məhz bu cür adamlardan söz açılır.

2. **Əyanilikdən istifadə**. Şeirin məzmununu və onun ideyasını uşaqların yaxşı başa düşməsi üçün, müəllim sinfə Neft Daşlarını, dənizdə görülən işləri əks etdirən şəkillər gətirə bilər. Bu cür şəkillər əsasında qısa söhbət şeirin adını lazımınca dərk etməyə kömək edər. Bundan sonra şeirin qiraətinə keçmək lazımdır.

3. **Şeirin oxunuşu**. Şeiri şagirdlərə əvvəldən axıradək iki dəfə oxutmaq olar. Şeirin ulduzlarla ayrılmış bir hissəsini bir şagirdin oxuması məsləhətdir. Şeir isə yeddi hissədən ibarətdir. Deməli, şeiri hər dəfə yeddi şagird oxuya bilər. İlk oxu şeirlə ümumi tanışlıq məqsədini güdür. Şeirlə ümumi şəkildə tanış olandan sonra, müəllim təsadüf edilən bəzi söz və ifadələrin məzmununu uşaqların necə başa düşdüklərini yoxlayır və onların anlayışlarını dəqiqləşdirir. Bundan sonra şeirin ikinci oxunuşunu təşkil etmək lazımdır.

4. **Ayrı-ayrı söz və ifadələr üzərində iş**. Dərsdə şagirdlərin diqqətini aşağıdakı söz və ifadələrə cəlb etmək olar:

**İdarə** – iş sahəsini sahmana salan, ona rəhbərlik edən adamlar və onların oturduğu yer (bina)

**Estakada** – dənizdə suyun üstündə dəmir və taxtadan düzəldilən yol.

**Əfsanə** – həyatda görünməyən, yalnız təsəvvürdə mümkün olan hadisə.

**Briqada** – birlikdə çalışan adamlar qrupu.

**Mədən** – neftin və başqa xammalın çıxarıldığı yer və qurğu.

**Qış çağı** – qış vaxtı, qış zamanı.

**Qərq etmək** – batırmaq, boğmaq (suda).

**İnadkar adam** – məqsədindən dönməyən adam; istədiyinə nail olan adam; maneələri aradan qaldıran adam.

5. **Şeirin bədii cəhətləri üzərində iş**. Məsələn, eyni qafiyəli sözləri uşaqlara tapdırmaq olar: çağıydı – dağıydı; tökülürdü – sökülürdü; qalmışıq – işıq; qayığa – dalğa; dostları – sarı.

6. **Şeirin məzmunu və ideyası üzərində iş**. Şeirin əsas ideyasını uşaqlara başa salmaq üçün aşağıdakı suallardan istifadə etmək olar:

-Dənizdə işləmək nə üçün asan deyildir?

-Briqadanın dənizdə qoçaqlığı nədən ibarət idi?

-Dəniz buruqlarından neft çıxaran ustaların xarakterində hansı xüsusiyyətlər olmalıdır?

-Dənizdə çalışan adamların qoçaqlığına aid daha nə bilirsiniz?

**«Kəndli və muzdur».**

1. **Giriş söhbəti**. Təmsildə iki sifət, iki xarakter qarşı-qarşıya qoyulmuşdur. Bunlardan biri yaxşılıqdır, digəri isə pislik. Yaxşılığa yaxşılıqla cavab vermək əvəzinə, yaxşılığa qarşı pislik edildiyi təmsildə tənqid olunur. Bu cəhət müəllimin diqqət mərkəzində olmalı və giriş söhbətində nəzərə alınmalıdır. Uşaqlar hiss etməlidir ki, yaşından və cinsindən asılı olmayaraq bizim adamlar bir-birinə yaxşılıq, bir-birinə köməklik etməlidirlər.

2. **Təmsilin oxunuşu**. Giriş söhbətindən sonra müəllim təmsilin oxunuşuna keçə bilər. Təmsili qabaqca hökmən müəllim özü oxumalıdır. Çünki şeirin vəzni o qədər də yüngül deyildir. Qiraət nümunəvi, ifadəli olmasa şeirin həm

mənasını, həm də onun gözəlliyini uşaqlar lazımınca hiss etməzlər.

3. **Lüğət üzərində iş**. Müəllimin nümunəvi oxusundan sonra şagirdləri ayrı-ayrı sözlər üzərində işlətmək olar.

4. **Ayrı-ayrı sözlər üzərində iş**. Şeirdəki bəzi sözlərin mənasını uşaqlardan soruşmaq lazımdır. Bu cür sözlərə, məsələn, aşağıdakıları daxil etmək olar: kəndli, muzdur, pəncə, minnət, yaba, şivən.

**Kəndli** – inqilabdan əvvəl kiçik torpaq sahəsi olan və orada çalışan kənd adamı.

**Muzdur** – inqilabdan əvvəl kənddə yaşayan, torpaq sahəsi olmayan, başqasının sahəsində pulla işləyən adam.

**Pəncə** – ayının, şirin, pələngin, itin, pişiyin əli, qabaq ayağındakı barmaq və dırnaqlar.

**Minnət** – xahiş; yalvarış.

**Yaba** – ot və ya küləşi yığmaq üçün işlədilən alət.

**Şivən** – qışqırıq; haray; dad.

5. **Təmsilin uşaqlar tərəfindən oxunuşu**. Müəllim şeiri bir neçə şagirdə oxuda bilər. Sonra şeirin məzmunu üzrə söhbət keçirmək lazımdır. Söhbət zamanı sinif qarşısında bu cür suallar qoymaq olar:

-Necə oldu ki, ayı kəndlini tuta bildi?

-Muzdurun insanlığını, onun yaxşılığını siz nədə görürsünüz?

-Axırda kəndli muzdur Stepana nə dedi?

-Sizcə, kəndli nə üçün haqlı deyildi?

-Kəndli axırda nə etməli idi?

6. **Atalar sözləri üzərində iş**. Təmsilin sonunda verilmiş atalar sözlərini, xüsusən «Yaxşılıq bilməyən adam sayılmaz», «Pis adam yaxşının qədrini bilməz» kimi atalar sözlərini bir neçə şagirdə təkrar etdirmək, onların mənasını soruşmaq vacibdir. Həmin atalar sözü ilə oxunmuş təmsil arasında uyğunluq olub-olmadığını da uşaqlardan xəbər almaq faydalıdır.

7. Şeiri evdə əzbərləməyi uşaqlara tapşırmaq olar.

**«Kommunizmdə yaşayacağam».**

1. **Giriş söhbəti**. Giriş söhbətini sovet adamlarını səciyyələndirən xüsusiyyətlərin ictimai əsaslarını açmağa həsr etmək olar. Demək olar ki, sovet adamlarında dostluq və yoldaşlıq, vətənpərvərlik, insanpərvərlik, qayğıkeşlik və s. keyfiyyətlərin formalaşmasına bizim ictimai-siyasi mühit, şəraitimiz imkan verir. Xalqımız azad ölkəmizdə kommunizm qurmaqla məşğuldur. Ölkəmizdə, xalqın əməlləri ilə hamı fərəhlənir, qurub-yaratmaq hissi ilə yaşayır. Bizim uşaqlar da öz ata-analarının işindən, böyüklərin əməyindən zövq alır, onlarda da gözəl duyğular, gözəl xüsusiyyətlər yaranır.

Təqribən bu məzmunda söhbətdən sonra müəllim şagirdlərə deyə bilər:

Bu gün biz uşaqların hazırkı həyatdan necə zövq aldığına dair şeir oxuyacağıq. Şeir belə adlanır: «Kommunizmdə yaşayacağam».

2. **Şeirin oxunuşu**. Şeiri ilk dəfə axıradək müəllimin özü oxusa yaxşı olar. Belə olarsa, şeirdə əks olunan musiqini uşaqlar daha yaxşı hiss edər və mənanı daha tez tutarlar. Şeirin məzmununu və ideyasını şagirdlərə aydın hiss etdirmək üçün bəzi sözlər və ifadələr üzərində onları işlətmək vacibdir.

3. **Söz və ifadələr üzərində iş**. Şagirdlərin diqqətini xüsusən belə sözlərə cəlb etmək olar: bəxtiyar, el, leninçi, zəfər, kosmos, vüqar, şanlı, partiya, mayak, kommunizm.

**Bəxtiyar** – xoşbəxt; bəxtəvər, güzəranı yaxşı keçən; daim var olan.

**El** – xalq.

**Leninçi** – Lenin tərəfdarı olan; Lenin yolu ilə gedən.

**Zəfər** – qələbə; nailiyyət; müvəffəqiyyət.

**Kosmos** – səma, göy; ulduzlar aləmi.

**Vüqar** – əzəmət.

**Şanlı** – şöhrətli; adlı-sanlı.

**Partiya** – xalqın rəhbəri, istiqamət verəni; xalqın qabaqcıl dəstəsi.

**Mayak** – yolu işıqlandıran; istiqaməti göstərən; işıq saçan.

**Kommunizm** – hamının arzu etdiyi sinifsiz cəmiyyət.

**İfadələrdən:** damağı çağ, kefi kök.

**Damağı çağ** – dərdsiz, qəmsiz; ehtiyacı olmayan, xoşbəxt.

4. Şeir**in ideyası üzərində iş**. Şeirin əsas ideyasını şagirdlərin daha tez mənimsəməsi üçün aşağıdakı məzmunda söhbət keçirmək məsləhətdir.

**Müəllim**. Şeirdə Vətənin hansı əlamətləri qeyd olunur?

**Şagird**. Vətənimizin zəfəri saysızdır, hünəri saysızdır: geniş dənizdə şəhərlər salır; kosmosa, aya ucalır... Vətənimizin vüqarı dağ kimidir, şanlı partiya ona mayakdır. Vətənimiz şəndir, xoşbəxtdir.

**Müəllim**. «Onun günəşi bu gün doğur bax!» – ifadəsi nə deməkdir?

**Şagird**. Onun günəşi, yəni kommunizmin günəşi bu günkü işlərimizdə parıldayır.

**Müəllim**. «Lap yaxındadır o böyük günlər» – ifadəsini necə başa düşürsünüz?

**Şagird**. Yəni kommunizm günləri lap yaxındadır.

**Müəllim**. Şeir kimin dilindən yazılmışdır?

**Şagird**. Şeir uşağın dilindən yazıldığından və........

**Müəllim**. Bəs şeir nə üçün «Kommunizmdə yaşayacağam» adlanır?

**Şagird**. Şeir uşağın dilindən yazıldığından və kommunizm günləri lap yaxınlaşdığından, uşaq deyir ki, kommunizmdə yaşayacağam.

5. **Şagirdlərin qiraəti**. İzahlı qiraətdən sonra şeirin hissələrini ayrı-ayrı şagirdlərə oxutmaq lazımdır. Bu, uşaqlarda bədii və şüurlu oxu vərdişinin inkişafına kömək edir.

6. **Əzbər**. Şeirin birinci hissəsini uşaqlara əzbərlətmək məsləhətdir.

7. **Şair haqqında**. Dərsdə imkan olarsa, şair haqqında qısa məlumat vermək faydalıdır. Hikmət ziya oğlu Əfəndiyev 1930-cu ildə Şəki şəhərində anadan olmuşdur. Atasının xatirəsini əziz tutmaq məqsədi ilə şeirlərini Hikmət Ziya imzası ilə çap etdirməyə başlamışdır. Şair uşaqlar üçün çoxlu şeir, nağıl, təmsil, nəğmə, poema yazmışdır: «Atamın hədiyyəsi», «Bahar gözəldir, ya qış», «Ulduzların söhbəti»,

«Buludlar» və s. Hikmət Ziyanın şeirləri rus və digər qardaş xalqların, eləcə də bolqar, yuqoslav, ingilis, alman, hind, fransız, yapon və başqa dillərə tərcümə olunmuşdur.

**«Üç qardaş».**

1. **Giriş söhbəti**. Giriş söhbətində müəllim adamlarda hansı yaxşı xüsusiyyətlər olduğunu uşaqlardan xəbər ala bilər. Bu xüsusiyyətlər arasında bilikli olmaq, müşahidə etməyi bacarmaq, gördükləri hər şeydən nəticə çıxarmaq kimi xüsusiyyətlər də göstərilməlidir. Dərin biliyə, geniş məlumata malik olan, oxumağı, elm öyrənməyi sevən adamın xalq arasında hörmətli olduğunu göstərən bir neçə fakt gətirmək olar. K.Marksı, F.Engelsi, V.İ.Lenini, N.Q.Çernışevskini, N.Gəncəvini, M.F.Axundovu və bu kimi dərin biliyə malik şəxsləri nümunə gətirmək olar.

Bu cür söhbəti nağılla əlaqələndirmək lazımdır. Müəllim deyə bilər ki, bilikli olmağın faydasını xalq da yaxşı başa düşüb və bu fikri nağıl formasında verib. Belə nağıllardan birisi də «Üç qardaş» nağılıdır.

2. **Nağılın oxunuşu**. Nağılı altı hissəyə bölmək və hər bir hissəni bir şagirdə oxutmaq olar. Nəzərə almaq lazımdır ki, bu hissələr nisbi olaraq bitmiş hissələrdir: «Qardaşlar gedirdilər» ifadəsinə qədər; «Padşah ona diqqətlə qulaq asıb dedi» cümləsinə kimi; «Padşah güldü» ifadəsinədək; «Böyük qardaş dedi» cümləsinə kimi; «Padşah dedi» cümləsinə qədər, nəhayət, oradan axıradək.

3. **Nağılın əsas ideyası üzərində iş**. Nağılın ideyasını uşaqların nə dərəcədə başa düşdüyünü müəllim yoxlamalıdır. Bu məqsədlə yenidən müsahibə üsulundan istifadə etmək olar.

**Müəllim**. Nağılda xalq nə demək istəmişdir?

**Şagird**. Xalq adamlara, xüsusən uşaqlara məsləhət görmüşdür ki, bilikli olsunlar, oxusunlar.

**Müəllim**. Daha nə məsləhət görür?

**Şagird**. Həyatı, ətrafdakı hadisələri diqqətlə müşahidə etməyi, müşahidələrdən nəticələr çıxarmağı bizə məsləhət görür.

**Müəllim**. Xalqın hələ çox keçmişdə adamlara düzgün məsləhət verdiyini indi siz necə sübut edə bilərsiniz?

Uşaqlar özlərindən, eşitdikləri və oxuduqlarından konkret misal gətirir və bilik əldə etməyin vacibliyini sübut edirlər.

4. **Oxunmuş hissələr üzərində iş**. Nağılı əmələ gətirən hissələrin məzmununu yaxşı başa düşmək və onun planını tərtib etməyi asanlaşdırmaq üçün həmin hissələrlə əlaqədar söhbət keçirmək məsləhətdir. Bu söhbət təqribən aşağıdakı suallar vasitəsilə aparıla bilər:

-Ata oğullarına nə məsləhət görmüşdü?

-Öləndən sonra oğullar nə üçün başqa şəhərə getdilər?

-Onlar yolda nə barədə danışırdılar?

-Yolda qardaşlarla atlı kişi arasında nə söhbət oldu?

-Qardaşlar dəvəni görmədiklərini padşahın yanında necə sübut etdilər?

-Padşah, qardaşların düz danışdıqlarını və biliyini necə yoxladı?

-Sandıqda yetişməmiş nar olduğunu qardaşlar nədən bildilər?

5. **Nağılın hissələrinə başlıqlar vermək və plan tutmaq**. Bu məqsədlə uşaqlara suallarla müraciət etmək və başlıqları onlardan almaq lazımdır. Bunu bir misalda göstərək. Məsələn, birinci hissə ilə əlaqədar soruşmaq olar:

-Uşaqlar, nağılın birinci hissəsinə necə ad vermək olar?

-Atanın oğullara məsləhəti.

Nəticədə, təqribən aşağıdakı kimi başlıqlar alına bilər: 1) Atanın oğullara məsləhəti; 2) Yolda qardaşların gördükləri; 3) Yolda qardaşlarla atlının söhbəti; 4) Dəvəni görmədiklərini qardaşlar padşaha sübut edir; 5) Padşah qardaşların biliyini necə yoxladı; 6) Qardaşlar sandığın içindəkini necə müəyyən etdilər?

6. **Evə tapşırıq**. Uşaqlar evdə nağılı oxuyur və həmin plan üzrə danışırlar. Sinifdə də həmin plan üzrə danışmağı onlardan tələb etmək lazımdır.

**«Gicitkən».**

1. **Giriş söhbəti**. Girişdə xarakterin başqa cəhətindən – pislik etməyin yaramaz xüsusiyyət, yaxşılığın isə gözəl xüsusiyyət olduğundan söhbət açmaq lazımdır. Bu söhbəti müasir həyatla, uşaqların həyatı ilə bağlamaq faydalı olar. Konkret fakt lar uşaqları bu nəticəyə gətirməlidir ki, yoldaşına qarşı kobudluq etmək, ona toxunmaq böyük nöqsandır, sonralar peşmançılığa səbəb olur. Yoldaşa yaxşılıq isə adamın alnını açıq, üzünü ağ edir. İnsanda belə cəhətləri hiss edən şair «Gicitkən» adlı təmsil yazmışdır.

2. **Şeirin oxunuşu**. Təmsili, kiçik də olsa, müəllimin özü oxumalıdır. Çünki şeirin mənasını uşaqlar yalnız ifadəli oxu vasitəsilə daha yaxşı hiss edirlər. Müəllimin nümunəvi oxusundan sonra şeiri bir neçə şagirdin oxumasını təşkil etmək olar.

3. **Şeirin məzmunu və ideyası üzərində iş**. Bu istiqamətdə xüsusi iş aparmaq zəruridir. Hər şeydən əvvəl, gicitkənin ot olduğunu, onun yarpaqlarında kiçik-kiçik xırdaca iynələr olduğunu və toxunanda adamın əl-ayağını, bədənini daladığını uşaqlar bilməlidir.

Bundan sonra şeirin məzmunu üzərində uşaqları işlətmək lazımdır. Bu zaman belə bir müsahibə keçirmək olar:

**Müəllim**. Şeirdə gicitkənin hansı xüsusiyyətləri qeyd olunur?

**Şagird**. Şeirdə göstərilir ki, gicitkən heç kəsi özünə yaxın qoymur; o, tikanlarını qabardaraq dayanır, gicitkəni kim dadsa dili-ağzı yanır, vay, yandım, deyənə gicitkən baxıb gülür.

**Müəllim**. İstidən əzab çəkərkən gicitkən nə deyir?

**Şagird**. Deyir ki, «Qoymayın, soluram mən,
Artıq məhv oluram mən!»

**Müəllim**. Gicitkənin nə üçün harayına gələn olmadı?

**Şagird**. Çünki vaxtilə o, hamını bərk dalamışdı.

Bu cür söhbətdən sonra şeirin ideyasını uşaqların nə dərəcədə mənimsədiyini yoxlamaq lazımdır. Bu məqsədlə sinifdən soruşmaq olar:

**Müəllim**. Şair şeirdə nə demək istəyir?

**Şagird**. Şair demək istəyir ki, adam gicitkən kimi olmamalıdır.

**Başqa şagird**. Adam başqalarını sancmamalı, onları dalamamalıdır.

**Üçüncü şagird**. Adam başqalarına yaxşılıq etməlidir.

4. **Evə tapşırıq**. Şeiri evdə əzbərləməyi uşaqlara tapşırmaq lazımdır.

**«Alicənablıq».**

1. **Giriş**. Müəllim bilməlidir ki, nağıflın məzmunu «Gicitkən» adlı təmsilin ideyasını bilavasitə davam etdirir. Buna görə də, giriş söhbətində müəllim təmsilə dair uşaqların bildiklərini onlardan soruşmalıdır. Yaxşı olar ki, müəllim təmsilin sonunda və habelə nağılın axırında verilmiş atalar sözlərini də onlara xatırlatsın: «Nə tökərsən aşına, o çıxar qarşına», «Yaxşılıq edən yaxşılıq görər». Bu son atalar sözü ilə nağılın əlaqədar olduğunu uşaqlara demək və sonra nağıl üzərində işə keçmək lazımdır.

Nağıl üzərində sonrakı işi bu ardıcılıqda aparmağı məsləhət görürük:

2. Nağılın hissə-hissə oxunuşu.
3. Ayrı-ayrı çətin söz və ifadələr üzərində şagirdlərin işi.
4. Nağılın məzmunu üzərində iş.
5. Nağılın ideyası üzərində iş.
6. Nağılın hissə-hissə və bütövlükdə uşaqlar tərəfindən danışılması.
7. Evə tapşırıq.

**«Qartala daş atan qarğa»**

Bu təmsilin də əsas ideyası «Gicitkən» təmsilinin və «Alicənablıq» adlı nağılın başlıca ideyasına uyğundur. Təmsil, bir növ, əvvəlki materialları tamamlayır. Buna görə də «Qartala daş atan qarğa» adlı təmsil üzərində iş əvvəlki təmsil və nağıl haqqında şagirdlərin aldıqları məlumata əsaslanmalıdır.

# 7. «QIŞ» BÖLMƏSİ ÜZRƏ MATERİALLARIN PLANLAŞDIRILMASI VƏ TƏDRİSİ

| Dərslər | Mövzu | Müəllif | Saat |
|---|---|---|---|
| 55-ci | «Tap görüm» | V.Dal | 1 s. |
| 56-cı | «Birinci qar» | M.Seyidzadə | 1 s. |
| 57-ci | «Bozboyun» | D.Mamin-Sibiryak | 1 s. |
| 58-ci | «Bozboyun» | D.Mamin-Sibiryak | 1 s. |
| 59-cu | «Qışın sovqatı» | Ə.Ziyatay | 1 s. |
| 60-cı | «Ayı ovu» | B.Həsənov | 1 s. |
| 61-ci | «Təzə il» | Ə.Cəmil | 1 s. |
| 62-ci | Ümumiləşdirici dərs | | 1 s. |

**«Tap görüm».**

1. **Giriş söhbəti**. Söhbətdən əsas məqsəd il, ilin fəsilləri, fəsli əmələ gətirən aylar, həftələr və sutka haqqında uşaqların anlayışlarını sistemə salmaqdır. Belə bir didaktik məqsədə nail olmaq üçün sinif qarşısında müvafiq suallar qoymaq, suallara mümkün qədər şagirdlərdən tam cavablar almaq lazımdır. Suallar təqribən belə ola bilər:

-Bir ildə neçə fəsil vardır?

-Bu fəsillərin adlarını kim deyər?

-Kim hər fəsildəki ayların adını deyər?

-Bir ayda neçə həftə və neçə sutka vardır?

-Bir sutka nədən ibarətdir? Bir sutka hansı hissələrdən ibarətdir?

2. **Nağılın oxunuşu**. Bundan sonra «Tap görüm» adlı qısa nağılın oxunuşunu təşkil etmək olar. Nağılı axıradək bir neçə şagird oxuya bilər. Çünki o, həcmcə çox xırdadır. Nağılın qiraətindən sonra, uşaqları onun məzmunu üzərində işlətmək lazımdır.

3. **Məzmun üzərində iş**. Bu məqsədlə aşağıdakı şəkildə suallar qoymaq olar:

-«İlcə dörd dəfə qollarını açdı» nə deməkdir?

-«Hər açanda qollarından üç quş buraxdı» nə deməkdir?

-Birinci üç quş hansı aylardır?

-Nağılda yaz aylarının hansı əlamətləri göstərilir?

-İkinci üç quş hansı aylardır?

-Nağılda yay aylarının hansı əlamətləri göstərilir?
-Üçüncü üç quş hansı aylardır?
-Nağılda payız aylarının hansı əlamətləri göstərilir?
-Dördüncü üç quş hansı aylardır?
-Nağılda qışın hansı əlamətlərinin adı çəkilir?
-«Quşların hər birinin dörd qanadı var» nə deməkdir?
-Hər qanadın yeddi lələyi var nə deməkdir?
-«Hər lələyin bir üzü ağ, o biri üzü qara idi» ifadəsini necə başa düşürsünüz?

Bu cür söhbətdən sonra «Birinci qar» adlı şeirə keçmək məsləhətdir.

**«Birinci qar».**

1. **Giriş söhbəti**. Giriş söhbətini müəllim «Tap görüm» adlı nağılla əlaqələndirməlidir. Bu məqsədlə müəllim sinifdən soruşa bilər:

-Uşaqlar, nağılda dördüncü üç quş nəyə işarə idi?

Qış və onun aylarının adını uşaqlardan xəbər aldıqdan sonra müəllim deyir:

-İndi, gəlin qışa aid olan şeirlərdən birini – «Birinci qar» adlı şeiri oxuyaq.

2. **Şeirin oxunuşu**. Şeiri ilk dəfə nümunə üçün müəllim özü oxumalıdır. Sonra şeirin izahlı oxusunu təşkil etmək lazımdır. Şeiri müəllimdən sonra oxuyan şagird bəzi söz və ifadələrin mənasını necə başa düşdüyünü izah etməlidir.

3. **Bəzi söz və ifadələr üzərində iş**. Müəllim aşağıdakı söz və ifadələr üzərində şagirdləri işlədə bilər:

**Mövsüm** – vaxt, zaman. Qış mövsümü, yəni qış zamanı, qış fəsli.

**Xizək** – qışda qar və ya buz üzərində uşaqların oturub sürdüyü taxtadan, yaxud dəmirdən oturacaq.

**Yola göz dikirdik** – yola baxırdıq, gözümüz yolda idi, yolunu gözləyirdik.

**Ayna tək buz** – üstü dümdüz, sığallı olan buz, sürüşmək üçün əlverişli olan buz.

**Elə bil ağ çiçək açıb hər budaq** – yəni budaqların üstündə qar topaları var.

4. **Şair haqqında məlumatın verilməsi**. İmkan olarsa şair haqqında qısa məlumat verilməsi məsləhətdir. Mirmehdi Həsənağa oğlu Seyidzadə Azərbaycan sovet uşaq ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. O, 1907-ci ildə anadan olmuşdur. O, «Pinti Həsən», «İldırım və Şura», «Pilotlar», «Təzə şəhər» və s. kimi şeirlərin, «Cırtdan», «Qızıl quş», «Ayaz» və s. pyeslərin müəllifidir. M.Seyidzadənin bir çox əsərləri rus, erməni, tatar, türkmən, ləzgi dillərinə tərcümə olunmuşdur.

**«Bozboyun».**

1. **Giriş söhbəti**. Giriş söhbətinin əsas məqsədi ölkəmizin müxtəlif yerlərində qışın müxtəlif şəkildə keçdiyini uşaqların nəzərinə çatdırmaqdır. Uşaqlar bilməlidirlər ki, qış ölkəmizin şimalında daha sərt olur. Bizdə – Azərbaycanda isə o qədər qarlı-boranlı, şaxtalı olmur. Rusiyada qışın necə keçdiyini bir qədər ətraflı öyrənmək üçün «Bozboyun» adlı nağılı oxumağı məsləhət görə bilər.

2. **Nağılın oxunuşu**. Nağılı on hissəyə ayırmaq olar: «Görəsən, bu xırda quşlar hara belə tələsirlər» ifadəsinə qədər; «Ayrılığın yaxınlaşdığını hiss edən Qoca ördək» ifadəsinə kimi, «Vaxt nə qədər də tez keçdi!» cümləsinə qədər; «Ayrı-ayrı ailələr birləşib böyük dəstələr əmələ gətirirdilər» ifadəsinədək; «Tülkü məni o zaman yesəydi, daha yaxşı olardı» cümləsinə kimi; «Sahildə dayanmış tülkü mehribanlıqla dedi» ifadəsinə qədər; «İşim var...» cümləsinədək, «Tülkü onu yeyəcək» ifadəsinədək; «Qoca oturub düşünürdü» cümləsinə kimi, oradan sona qədər.

Bu hissələrin hərəsini bir şagird oxusa daha maraqlı olar.

3. **Nağılın məzmunu üzərində iş**. Nağılın hər hissəsinin məzmununu açmağa xidmət edən sual verilməsi məsləhətdir. Bu cür suallar təqribən belə ola bilər:

-Payız vaxtı havada, ağaclarda və quşların həyatında nə kimi dəyişikliklər baş vermişdi?

-Bozboyun anası ilə nə haqqında danışırdı?

-Payızın ortalarına doğru təbiətdə nə kimi dəyişikliklər baş vermişdi?

-Bozboyun çayda nə üçün tək qaldı?
-Bozboyunun qaldığı çay və onun ətrafındakı meşəlik qışda necə oldu?
-Tülkü Bozboyunu necə ələ keçirmək istəyirdi?
-Qoca ovçu dovşanları nə üçün vura bilmədi?
-Necə oldu ki, tülkü Bozboyunu tutub yeyə bilmədi?
Nağıl əsasında həmin suallara verilən cavablar qışda təbiətin necə dəyişdiyini uşaqlara daha yaxşı hiss etdirəcəkdir.

4. **Plan üzərində iş**. Nağılın hissələrə ayrılması, hər hissənin bir şagirdə oxudulması, hər hissənin məzmununu açmağa kömək edən sualın qoyuluşu gələcək plan tərtibini xeyli asanlaşdırır. Buna görə də hər hissəyə başlıq verməyi uşaqlardan tələb etmək olar. Nəticədə bu cür ardıcıl başlıqlar alına bilər: 1) Payızın əvvəllərində təbiətdə əmələ gələn dəyişikliklər; 2) Ana ördəklə ata ördək arasında söhbət; 3) Bozboyunun anası ilə danışığı; 4) Payızın ortalarına doğru təbiətdə baş verən dəyişikliklər; 5) Bozboyunun çayda tənhalığı; 6) Bozboyunun qaldığı çay və ətraf meşə qışda; 7) Tülkü Bozboyunu ələ keçirmək istəyir; 8) Qoca ovçu dovşan ovlamaq istəyir; 9) Bozboyun ölümdən xilas olur.

5. **Bədii ifadələr üzərində iş**. Müəllim nağılda uşaqların rast gəldiyi obrazlı ifadələr üzərində onları işlədə bilər. Obrazlı ifadələri uşaqlara tapdırmaq və onları dəftərə yazdırmaq məsləhətdir. Uşaqlar aşağıdakı obrazlı ifadələri tapıb dəftərlərinə yaza bilərlər: «Şüşə kimi nazik olan buz»; «Yerin üzü ağ yorğan ilə örtülmüşdü»; «Ağaclar qırovdan gümüş paltar geymişdi», «Küknar ağacları elə bil qardan isti kürk geymişdi» və s.

6. **Yazıçı haqqında qısa məlumat**. Dmitri Narkisoviç Mamin-Sibiryak 1852-ci ildə anadan olmuş və 1912-ci ildə vəfat etmişdir. O, görkəmli rus yazıçılarından biridir. Mamin-Sibiryak bir çox roman, nağıl və hekayə yazmışdır: «Dağ yuvası», «Küçədə», «Döyüşçülər» və s.

**«Qışın sovqatı».**

1. **Giriş söhbəti**. Müəllim giriş söhbətində uşaqların diqqətini qışın faydasına cəlb edə bilər. Əlbəttə, söhbəti

müəyyən plan üzrə aparmaq və istənilən cavabı mümkün qədər şagirdlərdən almaq lazımdır. Söhbəti təqribən aşağıdakı plan üzrə aparmaq olar: 1) Qarın bağ və bostan üçün əhəmiyyəti; 2) Tarlalar üçün qarın faydası; 3) Adamlar üçün qarın əhəmiyyəti.

Planın hər bəndi üzrə sinif qarşısında müvafiq sual qoymaq lazımdır. Məsələn, birinci bənd üzrə sualın qoyuluşu və ona uşaqların cavabı təqribən belə ola bilər:

**Müəllim**. Bağ və bostan üçün qarın əhəmiyyəti nədən ibarətdir?

**Şagird**. Qar nə qədər çox olarsa, torpaqda su bir o qədər bol olar, ağaclar bolluca su içər.

**Başqa şagird**. Qışda qar çox yağsa və yerdə çox qalsa, cücülər, böcəklər çox qırılar, ağacları xəstəlik tutmaz.

2. **Şeirin oxunuşu**. Şeiri nümunə üçün müəllim, yaxud ifadəsi gözəl olan şagird oxuya bilər. Şeir axıcı və oynaq olduğundan, onu bir neçə şagirdin oxuması məsləhətdir. Şeirin oxunuşu zamanı qalan şagirdlərin diqqətli olmasını təmin etmək məqsədi ilə, müəllim istədiyi hər hansı şagirdə oxunu davam etdirməyi tapşıra bilər.

3. **Şeirin məzmunu üzərində iş**. Şeirin məzmununu uşaqların daha yaxşı başa düşmələri üçün aşağıdakı suallardan istifadə etmək olar:

-Şeir kimin dilindən yazılmışdır?

-«Yorğanı ol, yorğanı» misrasına qədər uşaq nə arzu edir?

-Uşaq, qar yağmasını nə üçün arzulayır?

-Qarın ətrafa səpələndiyini görən uşağın xəyalında nə canlanır?

-Qar dənəcikləri pəncərəyə toxunduqca uşağın yadına nə düşür?

-Qarlı keçən qışdan sonra, yaz şeirdə necə təsvir edilir? Bəs yay?

-Şeir nə üçün «Qışın sovqatı» adlanır?

4. **Şeirin dili üzərində iş**. Şeirdə səsləşən, həmahəng olan sözləri tapmağı uşaqlardan tələb etmək olar. Onlar qar –

uşaqlar, yada – bağçada, yanı – yorğanı, paltarın – bağların, kimi – zəmi, yerə – birə və s. sözləri müəyyənləşdirəcəklər.

Obrazlı ifadələrə uşaqların diqqətini xüsusi olaraq cəlb etmək üçün belə bir sual-cavab aparmaq faydalıdır:

**Müəllim**. Şair şeirdə qarı nələrə bənzədir?

**Şagird**. Bağın və bağçanın pambıqdan ağ paltarına.

**İkinci şagird**. Tarlaların ağ yorğanına.

**Üçüncü şagird**. Zərif naxışlara.

**Dördüncü şagird**. Qarın pəncərəyə dəyməsini kombaynın dən sovurmasına.

**Beşinci şagird**. Ayaq altında xışıldayan qarı pıçıldaşan taxıla.

Bundan sonra uşaqlardan soruşmaq olar:

-Uşaqlar, şeiri bir də oxuyun və hansı yerin daha çox xoşunuza gəldiyini və nə üçün məhz həmin yeri xoşladığınızı izah edin.

**«Ayı ovu».**

1. **Giriş söhbəti**. Giriş söhbətində müəllim qış zamanı heyvanların yaşayış tərzi ilə uşaqları tanış edə bilər. Qışda, xüsusən bərk qar yağan zaman çöl və meşə heyvanlarının, o cümlədən ayının, canavarın, tülkü və çaqqalın, dovşan və porsuğun və s.-nin necə yaşadıqları haqqında uşaqların bildiyini onlardan soruşmaq olar. Müəllim şagirdlərin məlumatlarını ümumiləşdirməlidir. Bundan sonra müəllim deyə bilər:

-Uşaqlar, gəlin qışda meşə heyvanlarının həyatından bəhs edən bir hekayə oxuyaq. Hekayənin adı belədir: «Ayı ovu».

2. **Hekayənin oxunuşu**. Hekayəni yeddi hissəyə bölmək və hər hissəni bir şagirdə oxutmaq olar. Hissələr təqribən bunlardır: «Oğul, gəl dağı kəsə yolla aşaq» ifadəsinə kimi; «Dərəni yenicə addımlayırdım ki...» ifadəsinə qədər; «Ata, bu nə izidir» cümləsinədək; «Daha şübhəm yoxdur» cümləsinə kimi; «Oğul, sən burada dayan...» ifadəsinə qədər; «Qorxma, bala» cümləsinə qədər və nəhayət, axıra kimi.

3. **Ayrı-ayrı söz və ifadələr üzərində iş**. Müəllim aşağıdakı söz və ifadələri uşaqların necə başa düşdüklərini yoxlaya

bilər: hava sınmamışdı ki, kəsə yol, o tay, ayaq saxladı, nəfəs dərmək.

**Hava sınmamışdı** – hava isinməmişdi, hava əvvəlki kimi soyuq idi, şaxta idi.

**Kəsə yol** – qısa yol, dolama yol əvəzinə gedilən ara yol.

**O tay** – çayın və ya dərənin o tərəfi.

**Ayaq saxladı** – dayandı, durdu, yerimədi.

**Nəfəs dərmək** – dincəlmək, tövşüməyi dayandırmaq.

Sözlərdən: quzey, sümsünmək, ləpir, zağa.

**Quzey** – dağda günəş şüalarının az düşən tərəfi (güney isə günəş şüalarının çox düşdüyü tərəfidir).

**Sümsünmək** – iyləyə-iyləyə gəzmək, iyləyə-iyləyə nəsə axtarmaq (itə, çaqqala, canavara, ayıya aiddir).

**Ləpir** – iz.

**Zağa** – qışda ayının qaldığı yer.

4. **Obrazlı ifadələr üzərində iş**. Hekayəni ürəyində oxumağı uşaqlara tapşırmaq, bu zaman xoşa gələn obrazlı ifadələri dəftərə yazdırmaq və onların oxunuşunu təşkil etmək olar. Diqqəti xüsusən aşağıdakı obrazlı ifadələrə cəlb etməyi məsləhət bilirik. «Atamın qalın qaşları, uzun bığları, papağının qıvrım tükləri muncuq-muncuq qırov tutmuşdu», «Yanaqları köz kimi qızarmışdı», «Xəncərin tiyəsi ayının dal ayaqlarının altında gümüş kimi parıldayırdı», «Ayı kökündən qopmuş palıd ağacı kimi qabağımda yerə sərildi».

5. **İdeya üzərində iş**. Hekayənin məzmunu və nəhayət, onun ideyası üzərində də ayrıca iş aparmaq vacibdir.

## 8. «VƏTƏNİMİZ» BÖLMƏSİ ÜZRƏ MATERİALLARIN PLANLAŞDIRILMASI VƏ TƏDRİSİ

| Dərslər | Mövzu | Müəllif | Saat |
|---|---|---|---|
| 83-cü | «Öz vətənimdir» | M.Dilbazi | 1 s. |
| 84-cü | «Ölkəm» | S.Rüstəm | 1 s. |
| 85-ci | «Moskva» | M.Seyidzadə | 1 s. |
| 86-cı | «Bakı» | R.Rza | 1 s. |
| 87-ci | «Sovet kosmonavtları» | Ə.Quliyev | 1 s. |
| 88-ci | «Əqlin hünəri» | İ.Tapdıq | 1 s. |

| | | | |
|---|---|---|---|
| 89-cu | «Ay həkimi» | E.Mahmudov | 1 s. |
| 90-cı | «Xoşbəxt uşaqlar» | İ.Soltan | 1 s. |
| 91-ci | «Sumqayıtda» | Y.Şirvan | 1 s. |
| 92-ci | «Neft» | H.Abbaszadə | 1 s. |
| 93-cü | «Qatar dənizdən keçir» | E.Mahmudov | 1 s. |
| 94-cü | «Dağ çayı» | İ.Soltan | 1 s. |
| 95-ci | «Xeyirli çay» | Y.Şirvan | 1 s. |
| 96-cı | «Ana Kür» | N.Xəzri | 1 s. |
| 97-ci | Ümumiləşdirici dərs | | |
| 98-ci | Sinifdənxaric qiraətin yekunlaşdırılması | | 1 s. |

1. **Giriş**. Qiraət dərsliyində belə bir bölmə verməyin əsas məqsədini müəllim bilməlidir. Həmin bölmədə əsas məqsəd şagirdlərin Vətən haqqında anlayışlarını bir qədər dəqiqləşdirməkdən və bu zəmində vətənpərvərlik hisslərini inkişaf etdirməkdən ibarətdir.

Uşaqlar bilməlidirlər ki, bizim vətənimiz Sovet İttifaqıdır. O, dünyada ən böyük dövlətdir. Vətənimizin ucsuz-bucaqsız tarlaları, sulu çayları, başı qarlı dağları, zəngin balıqlı dənizləri, müxtəlif ağaclı meşələri, yaşıl çölləri, çoxlu şəhərləri, varlı kəndləri, böyük fabrik və zavodları vardır.

Bu istiqamətdə söhbəti məktəbin yerləşdiyi kənddən, şəhərdən, rayondan, respublikadan başlamaq lazımdır…

Bölməyə giriş söhbətinin sonunda müəllim deyə bilər ki, şairlərimiz Vətən haqqında bir çox şeirlər yazmışlar. Bu şeirlərdən biri də şair M.Dilbazinin «Öz vətənimdir» şeiridir.

**«Öz vətənimdir».**

1. **Şeirin nümunəvi oxunuşu**. Bu şeiri əvvəlcə müəllim özü ifadəli oxumalıdır. Sonra isə hər kupleti bir şagirdə oxutmaq olar. Bu zaman diqqəti yayına biləcək uşaqlara müraciət etmək, onları oxuya cəlb etmək lazımdır.

2. **Şeirdəki çətin sözlər üzərində iş**. Bəzi çətin sözlərin mənası üzərində şagirdləri işlədən müəllim şeirin mənasını daha yaxşı başa düşməyə kömək edir. Belə sözlərə aşağıdakıları aid etmək olar: qurşaq, Muğan, Şirvan, büllur, mərcan, meh, xəyal, dolama, lil, Şəfəq, Xəzər, Mil.

**Qurşaq** – toqqa, kəmər.

**Muğan** – Kür çayının sahillərində olan geniş düzənliklərin adı.

**Mil** – Araz çayının ətrafındakı geniş düzənliklərin adı.

**Şirvan** – Şamaxı şəhərinin və onun ətrafının keçmiş adı.

**Büllur** – olduqca saf, olduqca təmiz şüşə, şəffaf şüşə.

**Mərcan** – rəngli və təmiz bəzək muncuqları.

**Meh** – səhərlər, günorta və ya axşam həzin-həzin, asta-asta əsən külək.

**Xəyal** – istənilən hadisənin, cismin fikrimizdə, təsəvvürümüzdə canlanması.

**Dolama** – əyri-üyrü, yolun və ya çayın tədricən əyilərək uzanıb getməsi.

**Şəfəq** – səhərlər və ya axşamlar günəşin səmaya saldığı işıq.

**Xəzər** – ölkəmizdəki dənizlərdən birinin adı. Respublikamızın paytaxtı Bakı şəhəri Xəzərin sahilində yerləşir.

3. **Ayrı-ayrı ifadələr üzərində iş**. Xüsusən aşağıdakı ifadələrin və ya söz birləşmələrinin mənasını uşaqlardan soruşaq olar:

**Qurşağa çıxan** – toqqa yerinə qədər, kəmər çəkilən yerə qədər.

**Lal sular** – axarkən səsi eşidilməyən, səs-küyü olmayan çay, sakit axan çay (adətən, çox dərin olan çay lal axır).

**Bulaqların gözündən içmək** – bulaqda suyun qaynadığı, suyun çıxdığı yerdən içmək.

**Sovet insanı** – Sovet İttifaqında yaşayan adam, bizim özümüz, sən, mən.

**Yaradan əl** – ev tikən, paltar tikən, bina ucaldan, maşınlar qayıran, bağlar-bağçalar salan əllər.

4. **Obrazlı ifadələr üzərində iş**. Şeirdəki bəzi obrazlı ifadələrin, oradakı müqayisənin necə başa düşüldüyünü uşaqlardan soruşmaq lazımdır. «Axır büllur kimi sular dumduru», «Rəngi buludların mərcan tək aldır».

*«Boz dağın dolama ətəklərində*
*Kür gümüş kəmər tək dolanıb axır».*
*«Qızıl şəfəq rəngli sovet bayrağı».*

Həmin obrazlı ifadələr üzərində işin təşkilinə aid bir nümunə verək. Müəllim, məsələn, «Qızıl şəfəq rəngli sovet

bayrağı» ifadəsi ilə əlaqədar olaraq sinif qarşısında belə bir söhbət keçirə bilər:

**Müəllim**. Uşaqlar, sovet bayrağı ilə şəfəq arasında oxşarlıq varmı?

**Şagird**. Bəli, vardır.

**Müəllim**. Bu oxşarlıq nədən ibarətdir?

**Şagird**. Sovet bayrağının rəngi qırmızıdır. Şəfəq də qırmızı olur.

**Müəllim**. Bu oxşarlığı görən şair onu şeirdə necə ifadə etmişdir?

**Şagird**. Şair demişdir: Qızıl şəfəq rəngli sovet bayrağı.

5. **Evə tapşırıq**. Dərsin sonunda şeiri evdə əzbərdən öyrənməyi uşaqlara tapşırmaq lazımdır.

6. **Şair haqqında**. Vaxt imkan verərsə, şair haqqında qısa məlumat yerinə düşər.

Mirvari Paşa qızı Dilbazi 1912-ci ildə anadan olmuşdur. Dilbazi ən çox uşaqlar üçün şeirlər və hekayələr yazır: «Mənim hədiyyəm», «Balaca dostlarım», «Balaca nümayəndə» və s.

**«Ölkəm».**

«Öz vətənimdir» adlı şeiri üzərində tətbiq edilən iş metodikası «Ölkəm» şeiri üzərində də tətbiq edilə bilər: 1. Şeirin nümunəvi ifadəli qiraəti. 2. Şeirin bir neçə şagird tərəfindən oxunuşu. 3. Ayrı-ayrı sözlər üzərində iş. 4. Ayrı-ayrı ifadələr üzərində iş. 5-6. Şeirin məzmununun bütövlükdə şagirdlər tərəfindən nağıl edilməsi və nəhayət, şeirin əzbər öyrənilməsi.

**«Moskva» və «Bakı».**

Yuxarıda təsvir etdiyimiz metodik sxem «Moskva» və «Bakı» adlı şeirlərin də öyrənilməsinə tətbiq edilə bilər.

**«Sovet kosmonavtları».**

1. **Mətnin oxunuşunda əsas məqsəd**. Mətnin oxunmasında əsas məqsəd uşaqlarda iftixar hissi tərbiyə etməkdən ibarətdir. Belə bir hissin uşaqlarda formalaşdırılması üçün

istifadə olunan material isə kosmosun fəth olunmasında Sovet İttifaqının, partiyanın, sovet kosmonavtlarının, sovet texnikasının nailiyyətlərinə dair mətndə verilən məlumatdır. Müəllim mətnin oxunuşundakı pedaqoji məqsəddən və bu məqsədə nail olmağın vasitələrindən xəbərdar olmalıdır.

2. **Giriş söhbəti**. Giriş söhbətində müəllim şagirdlərin diqqətini ictimai həyatın müxtəlif sahələrində sovet xalqının əldə etmiş olduğu nailiyyətlərə cəlb etməlidir. Demək lazımdır ki, sosialist inqilabı nəticəsində ilk dəfə bizim xalq zəhmətkeşlərin hakimiyyətini qurdu, dünyada ilk dəfə sovet xalqı sosializm cəmiyyətini qurmuşdur; kommunizmə ilk dəfə qədəm qoyan bizim xalq olmuşdur.

Elm, texnika və mədəniyyət sahəsində də ilk cığırların sovet xalqı tərəfindən açıldığını uşaqlara çatdırmaq lazımdır. Bütün bunlardan sonra müəllim kosmosun fəthinə keçə və deyə bilər ki, kosmosun fəth olunmasında, Aya uçuşda, başqa planetlərə kosmik stansiyalar göndərilməsində də ilk addımları sovet adamları atmışdır. Bunu yəqin etmək üçün «Sovet kosmonavtları» adlı mətni oxuyaq.

3. **Mətnin oxunuşu**. Mətni yeddi hissəyə ayırmaq və hər hissəni bir şagirdə oxutmaq olar. Materialı aşağıdakı hissələrə ayırmağı məsləhət görürük:

«Sosialist Vətənimiz öz igid oğlunu bağrına basıb…» ifadəsinə qədər; «Biz hamımız Vətən oğlu Yuri Qaqarinlə fəxr edirik» cümləsinə kimi; «1963-cü il iyunun 14-də Valeri Bıkovski kosmosa uçdu» cümləsinədək; «Sonrakı illərdə kosmosa yeni-yeni sovet şahinləri qalxdı» ifadəsinə kimi; «İndi artıq bütün dünya bilir ki…» ifadəsinə qədər; «Sovet kosmonavtlarının sayı ildən-ilə artır» cümləsinə kimi və nəhayət, sona qədər.

4. **Lüğət üzərində iş**. Mətndə rast gəldikləri bir sıra sözlərin mənasını uşaqların necə başa düşdüklərini yoxlamaq və lazım gələrsə, onların anlayışlarını dəqiqləşdirmək vacibdir.

**Kosmos** – Yerin, Ayın, ulduzların yerləşdiyi sahələr, səma, göy.

**Texnika** – müxtəlif maşınlar, dəzgahlar, cihazlar, metal alətləri və s.

**Kosmik gəmi** – hava gəmisi, səma, fəza gəmisi, kosmosa uçmaq üçün adamların mindiyi gəmi.

**Kosmonavt** – kosmik gəmidə kosmosa uçan adam.

**Təyyarəçi-kosmonavt** – həm təyyarəni, həm də kosmik gəmini idarə etməyi bacaran adam.

**Raport vermək** – gördüyü iş haqqında qısa məlumat və ya hesabat vermək.

**Sosialist Vətənimiz** – sosializm quran ölkəmiz, yəni fabrik və zavodların, əkin sahələrinin – hər şeyin xalqa mənsub olduğu ölkə.

**Sovet İttifaqı Qəhrəmanı** – xüsusi qəhrəmanlıq göstərən adamlara verilən ən yüksək fəxri ad.

**Kosmik gəmidə qrupla uçuş** – kosmik gəmidə bir neçə kosmonavtın bir yerdə uçması.

5. **Mətnin məzmunu üzərində iş**. Materialın şagirdlər tərəfindən daha yaxşı mənimsənilməsini təmin etmək üçün mətnin hissələri üzrə söhbət keçirmək lazımdır. Söhbəti aşağıdakı suallar əsasında aparmaq məsləhətdir:

-Yuri Qaqarin nə vaxt kosmosa uçmuşdur?

-Qaqarinə nə üçün Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi?

-Xalqımız Yuri Qaqarini necə qarşıladı?

-German Titovun igidliyi nədən ibarət idi?

-Daha hansı kosmonavtları tanıyırsınız?

-Onlara nə üçün Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir?

-Kosmosun fəth olunmasında bizim nailiyyətlərimiz nədən ibarətdir?

6. **Mətnin ideyası üzərində iş**. Son sual mətnin mahiyyətini başa düşməyə kömək edir. Odur ki, sualın aid olduğu hissəni – mətnin altıncı hissəsini sinifdə bir şagirdə yenidən oxutmaq lazımdır.

7. **Plan tərtibi üzərində iş**. Yuxarıda qoyulmuş suallar əsasında mətnə plan tutdurmaq olar. Müəllim gələcək dərsdə mətni həmin planı üzrə danışmağı tapşırır.

8. **Müəllim üçün əlavə material**. Y.Qaqarin «Vostok» adlı kosmik gəmidə uçmuş və kosmosda 108 dəqiqə qalmışdı. O sübut etdi ki, kosmosa uçmaq mümkündür.

G.Titov «Vostok-6» adlı kosmik gəmi ilə uçmuş və sübut etmişdir ki, gəmini əllə idarə etmək, kosmosda yatmaq və işləmək olar.

A.Nikolayev «Vostok-3», N.Popoviç «Vostok-4» adlı kosmik gəmilərdə uçmuşlar.

V.Bıkovski «Vostok-5», V.Tereşkova isə «Vostok-6» adlı kosmik gəmilərdə uçmuşlar. G.Titov Yerin ətrafında 17 dəfə, V.Bıkovski 81 dəfə, Tereşkova 42 dəfə dövrə vurmuşdur.

V.Komarov, K.Feoktisov və B.Yeqorov birlikdə 1964-cü ildə oktyabrın 12-də «Vosxod» adlı kosmik gəmidə uçmuşlar.

Y.Qaqarin, G.Titov, A.Nikolayev, P.Popoviç, V.Bıkovski və V.Tereşkova «Vostok» seriyalı gəmilərlə yerə enəndə, hələ yerə bir neçə kilometr qalmış avtomatik olaraq gəmidən tullanmış və paraşütlə yerə enmişlər.

V.Komarovun idarə etdiyi «Vosxod» gəmisi isə avtomatik olaraq yerə astaca enmişdir.

1968-ci il oktyabrın 26-da G.Bereqovoy «Soyuz-3» kosmik gəmisində kosmosa uçmuş və bir gün əvvəl pilotsuz kosmosa uçmuş «Soyuz-2» kosmik gəmi ilə kosmosda görüşərək eksperiment aparmışdır.

1969-cu il yanvarın 14-də V.Şatalov, A.Yeliseyev, B.Volınov, Y.Xrunov «Soyuz-4» və «Soyuz-5» kosmik gəmilərində uçmuşlar. A.Yeliseyev və Y.Xrunov kosmosda skafandr geymiş, «Soyuz-5» gəmisindən açıq kosmosa çıxmış və oradan montaj işi ilə məşğul olmağın mümkün olduğunu sübut etmişlər. Onlar bir saata qədər açıq kosmosda qalmışlar. Sonra gəmilər bir-birindən aralanmışdır. Yanvarın 17 və 18-də onlar yerə qayıtmışlar.

**«Ay həkimi».**

1. **Giriş söhbəti**. Giriş müsahibəsini müəllim «Sovet kosmonavtları» və «Əqlin hünəri» adlı materiallarla

əlaqələndirməlidir. Bu məqsədlə şagirdlər qarşısında bir sıra suallar qoymaq, axırda isə soruşmaq lazımdır:

-Kim deyər, kosmonavtlar nə üçün kosmosa uçurlar? Onların məqsədi nədir?

-Nə üçün alimlər Marsa, Veneraya və Aya kosmik stansiyalar, süni peyklər göndərirlər?

Müəllim bu cür suallarla şagirdlərin verdiyi cavabları ümumiləşdirməli və deməlidir ki, kosmosu, Ayı, Veneranı, Marsı öyrənməkdə alimlər iki əsas məqsəd güdürlər: 1) kosmosun sirrindən, səma cisimlərinin həyatından xəbər tutmaq; 2) həmin biliklərdən istifadə edərək yerdə xalqın həyatını daha da yaxşılaşdırmaq.

Giriş söhbətinin sonunda uşalara demək olar:

-İndi gəlin kosmosu öyrənməyə aid bir fantastik hekayə oxuyaq. Hekayənin adı belədir: «Ay həkimi».

2. **Hekayənin oxunuşu**. Oxu zamanı hekayəni dörd hissəyə ayırmaq olar: «Alim atanın üç oğlu vardı» cümləsinə qədər; «Alim ata oğlanlarının dediklərini eşidib sevindi» ifadəsinə kimi; «Bu sözlər oğlanın ağzından çıxar-çıxmaz Raket at elə kişnədi ki…» ifadəsinədək və nəhayət, axıra qədər.

Hekayənin hər hissəsini bir şagird oxuya bilər.

3. **Hekayənin məzmunu üzərində iş**. Hekayənin məzmununu uşaqların yaxşı mənimsəməsi üçün xüsusi müsahibə keçirmək lazımdır. Müsahibəni aşağıdakı suallar əsasında qurmaq olar:

-Alim ata yuxudan ayılandan sonra nə gördü və nə qərara gəldi?

-Oğlanları Alim ataya nə cavab verdilər?

-Alim ata oğullarına nə məsləhət gördü?

-Oğlanları dağın zirvəsinə nə üçün getdilər?

-Onlar orada nə etdilər?

-Raket at haraları gəzdi?

-Alim ata Aydan necə xəbər tutdu?

4. **Həyatla əlaqə**. Hekayədə fantaziyanı həyata yaxınlaşdırmaq məqsədi ilə də müsahibə aparmağa vacib hesab edirik. Müsahibə bu məzmunda ola bilər:

**Müəllim**. Alim ata dedikdə kim nəzərdə tutulur?

**Şagird**. Kosmosa uçuşu öyrənən alimlər nəzərdə tutulur.

**Müəllim**. Bəs oğullar kimlərdi?

**Şagird**. Kosmosa uçuşu təşkil edən konstruktorlar, mühəndislər, texniklər, fəhlələr.

**Müəllim**. Alimlər Aydan əlavə hansı səma cisimlərinə stansiyalar, aparatlar göndərmişlər?

**Şagird**. Aydan başqa Veneraya, Marsa da aparatlar göndərmişlər.

**Müəllim**. Aydan, Marsdan və Veneradan məlumatlar nələrin vasitəsilə alınır?

**Şagird**. Həmin səma cisimlərinə göndərilmiş televiziya, radio və başqa qurğular vasitəsilə.

5. **Evə tapşırıq**. Uşaqlara tapşırmaq olar ki, hekayənin oxunmuş hissələrinə evdə ad versinlər, onun planını tərtib etsinlər və hekayəni həmin plan üzrə danışmaq üçün hazırlaşsınlar.

**«Xoşbəxt uşaqlar».**

1. **Şeirin oxunuşu**. Şeiri ilk dəfə müəllim özü ifadə ilə oxuyur. Sonra hər kupleti bir şagirdə oxutmaq olar. Şeiri üçüncü dəfə oxudanda hər kupleti oxuyan şagird çətin sözlərin mənasını izah edir.

2. **Lüğət və ifadələr üzərində iş**. Xüsusən aşağıdakı söz və ifadələrin mənasını izah etməyi uşaqlardan tələb etmək lazımdır:

**Yad ellər** – başqa ölkələr, başqa xalqların yaşadığı yerlər.

**Can dərmanı** – yeyilən hər şey; müxtəlif göyərti, müxtəlif meyvə; güllər-çiçəklər.

**Bəxtəvər** – xoşbəxt; qəmsiz-qüssəsiz.

3. **Məzmun üzərində iş**. Hər bəndi və ya hər iki sətri bir şagirdə yenidən oxudub, həmin bəndin mənasını öz sözləri ilə danışmağı uşaqlardan tələb etmək olar. Məsələn, son bənddəki ilk iki misranı şagird oxuyur:

*«Qanad açan azad, körpə quşuq biz.*
*Könülləri heyran edir nəğməmiz».*

Sonra isə bu misraların mənasını izah edir:

-Uşaqlar özlərini balaca quş, özü də azad, xoşbəxt quş hesab edirlər. Onlar deyirlər ki, oxuduğumuz şən nəğmələr hamını heyran edir.

4. **Evə tapşırıq**. Şeiri uşaqların hamısı evdə əzbərləyirlər. Növbəti dərsdə bir neçə şagird şeiri axıradək əzbər deyir, sonra isə hər bəndi bir şagird söyləyir: şagirdlər bir-birini tamamlayırlar.

**«Sumqayıtda».**

1. **Giriş söhbəti**. Giriş söhbəti vətən haqqında əvvəlki söhbətlərlə əlaqələndirilməlidir. Bu zaman diqqət *vətən* anlayışının tərkib hissəsi olan şəhərlərə cəlb edilməlidir. Söhbət nəticəsində uşaqlar təyin etməlidir ki, ölkəmizdə Moskva, Leninqrad, Kiyev, Bakı, Xarkov, Minsk, Daşkənd, Tbilisi, Yerevan, Alma-Ata, Aşqabad və s. kimi böyük şəhərlər vardır. Azərbaycanda da şəhərlər az deyildir: Kirovabad, Lənkəran, Şəki, Şuşa, Stepanakert, Əlibayramlı, Ağdam, Ağdaş, Göçay və s. Bunlardan biri də Sumqayıtdır.

Şəhərlər haqqında ümumi söhbətdən sonra «Sumqayıtda» adlı materialın oxunuşuna keçmək olar.

2. **Mətnin oxunuşu**. Mətni üç hissəyə ayırmaq mümkündür: «Əsl təbii kauçuk isti ölkələrdə bitən kauçuk ağacının gövdəsindən axan şirədən alınır» ifadəsinə qədər; «Dilara müəllim bizə…» ifadəsinə kimi və oradan mətnin sonunadək. Hər hissəsini bir şagird oxuya bilər.

3. **Söz və ifadələr üzərində iş**. Materialın məzmununu uşaqların daha yaxşı başa düşmələri üçün aşağıdakı söz və ifadələrin mənasını onlardan soruşmaq vacibdir:

**Təbii kauçuk** – xüsusi ağacın gövdəsindən süzülən şirədən alınır.

**Süni kauçuk** – zavodlarda qazdan və başqa maddələrdən alınır.

**Gübrə** – iki cür olur: təbii gübrə və süni gübrə: mal və qoyun peyini təbii gübrədir; zavodlarda başqa-başqa maddələrdən alınan gübrə isə süni gübrədir.

4. **Mətnin eyni zamanda bütün şagirdlər tərəfindən oxunması**. Ayrı-ayrı söz və ifadələrin mənasını uşaqlardan

soruşduqdan sonra yenidən tapşırmaq olar ki, hər kəs mətni ürəyində oxusun və sual-cavaba hazırlaşsın.

5. **Mətnin məzmunu üzərində iş**. Mətn üzərində şagirdləri işlətmək üçün aşağıdakı suallardan istifadə etməyi məsləhət görürük:

-Nə üçün əvvəllər qazdan istifadə etmirdilər?

-Qazdan kauçuk almağı kimlər öyrənmişdir?

-Sumqayıtda qazdan nələr alırlar?

-Sumqaıt kauçukundan nələr alınır?

-Sumqayıt şəhərində hansı zavodlar vardır?

6. **Mətnin nağıl edilməsi**. Mətnin məzmunu üzrə aparılan müsahibədən sonra bir-iki şagird materialı əvvəldən axıradək əlaqəli şəkildə danışır.

7. **Həyatla əlaqə**. Bundan sonra söhbəti yerli şəraitə keçirmək məsləhətdir. Məktəbin yerləşdiyi şəhər, qəsəbə, kənd, rayon haqqında uşaqların məlumatlarını yoxlamaq və onların təsəvvürlərini zənginləşdirmək vacibdir.

**«Neft».**

1. **Giriş söhbəti**. Söhbəti Vətənimizin təbii sərvətlərinə həsr etmək lazımdır. Söhbəti uşaqların yaşadığı kəndin, şəhərin, rayonun təbiəti ilə bağlamaq, orada hansı dağların, dərələrin, meşənin, düzün, çayların, hansı mədənlərin olduğunu onlardan soruşmaq lazımdır. Konkret kənd, şəhər, qəsəbə və ya rayonla əlaqədar söhbəti sonra respublika üzrə söhbətə çevirmək və nəhayət, demək lazımdır ki, neft də vətənimizin sərvəti, onun dövlətidir. Bundan sonra «Neft» adlı şeirin oxunuşuna keçmək olar.

2. **Şeirin oxunuşu**. Şeiri əvvəlcə müəllim aramla, ifadə ilə oxuyur. Müəllimin nümunəvi qiraətindən sonra şeiri iki-üç şagirdə oxutmaq lazımdır.

3. **Şeirin məzmunu üzərində iş**. Şeirin məzmununu uşaqların yaxşı başa düşmələri üçün müsahibə keçirilir. Bu zaman müəllim aşağıdakı suallardan istifadə edə bilər:

-Neft haralardan çıxarılır?

-Mədənlərdən çıxarılan neft zavodlara necə aparılır?

-Zavodlarda nefti nə edirlər?

-Zavodlarda neftdən nələr alınır?

-Neft məhsulları haralarda və nələrdə işlədilir?

-Şeirin sonunda şair nə üçün yazır:

*«Neftimiz Abşeironun*
*Tükənməz sərvətidir.*
*Sevimli ölkəmizin*
*Gücüdür, qüdrətidir».*

4. **Evə tapşırıq**. Çalışmaq lazımdır ki, bir şagird şeiri əzbərdən söyləsin.

**«Qatar dənizdən keçir».**

1. **Giriş söhbəti**. Giriş söhbətini nəqliyyat vasitələrinə həsr etmək maraqlı olar. Çalışmaq lazımdır ki, nəqliyyat vasitələrinin adını uşaqlar desinlər. Müəllim, məsələn, sinifdən soruşa bilər:

-Uşaqlar, indi adamlar bir şəhərdən başqasına nə ilə gedir?

Bu suala cavab olaraq şagirdlər deyəcəklər:

-Qatarla, avtobusla, təyyarə ilə, elektrik qatarı ilə, vertolyotla.

Bəlkə də, uşaqlardan heç birinin yadına bərə düşməyəcəkdir. Belə olduqda müəllim deyir:

-Adlarını çəkdiyiniz nəqliyyat vasitələrindən əlavə biri də vardır. Onun adı bərədir. Gəlin indi də bərə haqqında bir hekayə oxuyaq.

2. **Hekayənin oxunuşu**. Hekayəni dörd hissəyə ayırmaq olar: «Bir dəfə anamla birlikdə qatarda yol gedirdik» ifadəsinə kimi; «–Səlim, tez geyin, düş aşağı» cümləsinə qədər; «Günorta üstü bərəmiz sahilə yan aldı» cümləsinədək və nəhayət, sona qədər.

Hər hissəni bir şagird oxuyur və təsadüf edilən çətin sözlərin mənasını izah edir.

3. **Hekayənin məzmunu üzərində iş**. Müəllim mətnin məzmununu uşaqların necə başa düşdüyünü yoxlayır. O, aşağıdakı suallardan istifadə edir:

-Hekayə kimin dilindən yazılmışdır?

-Uşaq anası ilə nəyə minmişdi?

-O, yuxudan durandan sonra nə üçün təəccübləndi?
-Uşaq anasını harada gördü?
-Qatar nə üçün bərəyə keçirilmişdi?
-Bərə qatarın yolunu nə qədər qısaltmışdır?

4. **Hekayənin nağıl edilməsi**. Müsahibə zamanı müəllim şagirdlərin məlumatını dəqiqləşdirir və hekayəni iki-üç şagirdə danışdırır.

**«Dağ çayı», «Xeyirli çay», «Ana Kür».**

1. **Giriş**. Müəllim bilməlidir ki, bu üç mətn bir əsas ideyaya xidmət edir: çaylar elin sərvətidir; xalq bu sərvətdən istədiyi kimi istifadə edir. Belə bir ideya, ümumiyyətlə, çay və Kür çayı nümunəsində verilmişdir. Həmin ideya ictimai, quruluşla üzvi şəkildə əlaqələndirilmişdir. Həm birinci, həm də ikinci materialın əvvəli Sovet hakimiyyətindən qabaqkı dövrü, materialların ikinci hissəsi isə sovet dövrünü əks etdirir.

2. **Giriş söhbəti**. Söhbətdə bu iki cəhət nəzərə alınmalıdır. Materialların oxunuşunda şagirdlər həm təbii, həm də siyasi məzmunu başa düşməlidir.

3. **Dağ çayı şeirinin oxunuşu**. Şeiri əvvəlcə müəllim özü nümunə üçün oxuyub, sonra da bir neçə şagirdə ifadəli oxutsa, yaxşı olar. Birinci şagirdə şeirin ilk bəndini, yəni ilk dörd sətrini, ikinci şagirdə isə qalan hissəsini oxutmaq məsləhətdir. Bu cür oxu şeirin siyasi mənasını daha yaxşı başa düşməyə kömək edər.

3. **Məzmun üzərində iş**. Bu cəhət şeirin məzmunu üzərində iş aparanda da nəzərə alınmalıdır. Bu mənada sinif qarşısında suallar qoymaq lazımdır:
-Şeirin birinci dörd sətri hansı dövrə aiddir?
-Bəs şeirin qalan hissəsi hansı dövrü səciyyələndirir?
-Keçmişdə çay daşması nələrə səbəb olurdu?
-Bəs sovet dövründə təhlükənin qarşısı necə alınırdı?
-İndi çaydan necə istifadə edilir?

Eyni istiqamət «Xeyirli çay» adlı material üzərində aparılan işdə də həyata keçirilməlidir. Çünki yuxarıda dediyimiz kimi, burada da mətn iki hissədən ibarətdir: 1)

Kür çayının əvvəlki vəziyyəti; 2) Sovet hakimiyyəti illərində Kür çayının vəziyyəti.

Hər dəfə mətnin birinci hissəsini şagirdlərdən birinin, ikinci hissəsini isə başqasının oxuması məsləhətdir.

«Ana Kür» şeiri müəyyən mənada həm «Dağ çayı» adlı şeirin, həm də «Xeyirli çay» adlı materialın məzmununu tamamlayır. Buna görə də belə bir daxili əlaqə dərslərin təşkilində nəzərə alınmalıdır.

Həmin materiallara həsr olunmuş dərslərdən hansında imkan olarsa, şair İ.Soltan və N.Xəzri haqqında şagirdlərə ilkin məlumat vermək lazımdır.

Nəbi Ələkbər oğlu Babayev (Nəbi Xəzri) 1924-cü ildə Bakının Xırdalan kəndində anadan olmuşdur. O, bir sıra poemaların, çoxlu şeirlərin müəllifidir. «Təmiz ürək», «Sumqayıt səhifələri», «Günəşin bacısı», «Ana» və s. poemalarını oxucularımız rəğbətlə qarşılayır. Şair uşaqlar üçün də şeirlər yazmışdır: «Bənövşə», «Sarı top», «Axşam çağında» və s.

Nəbi Xəzrinin əsərləri bir çox SSRİ xalqlarının dilinə, habelə çex, polyak, türk, bolqar, monqol, serb dillərinə tərcümə olunmuşdur.

## 9. «SOVET ORDUSU» BÖLMƏSİ ÜZRƏ MATERİALLARIN PLANLAŞDIRILMASI VƏ TƏDRİSİ

| Dərslər | Mövzu | Müəllif | Saat |
|---|---|---|---|
| 99-cu | «Ordunun yaradılması» | A.Kononov | 1 s. |
| 100-cü | «Voroşilov cəbhəsi» | A.Tolstoy | 1 s. |
| 101-ci | «İgid partizan» | N.Tixonov | 1 s. |
| 102-ci | «Qoçaqlıq» | A.Kononov | 1 s. |
| 103-cü | «Partizan» | M.Dilbazi | 1 s. |
| 104-cü | «İsrafil Məmmədov» | | 1 s. |
| 105-ci | «İgid ölər, adı qalar» | N.Babayev | 1 s. |
| 106-cı | «General Həzi Aslanov» | | 1 s. |
| 107-ci | «General Dovatorun əlcəkləri» | V.Xomçenko | 1 s. |
| 108-ci | «Zoya asılan yerdə» | M.Dilbazi | 1 s. |
| 109-cu | «İradə» | Ə.Vəliyev | 1 s. |
| 110-cu | «Can nənə, bir nağıl de» | Ə.Cəmil | 1 s. |

| | | | |
|---|---|---|---|
| 111-ci | «Bülbül» | P.Tsvirka | 1 s. |
| 112-ci | «Zəfər bayramı» | Ə.Cəmil | 1 s. |
| 113-cü | Ümumiləşdirici dərs | | |
| 114-cü | Sinifdənxaric qiraətin yekunlaşdırılması | | 1 s. |

Bu başlıq altında verilən materialların əsas vəzifəsi şagirdləri Sovet Ordusunun şanlı yolu ilə tanış etməkdən və bu əsasda onları xalqın qüdrətli döyüş ənənələri ruhunda tərbiyə etməkdən ibarətdir.

Belə bir ümumi tərbiyəvi vəzifə iki dövrü əhatə edən materiallar vasitəsilə həyata keçirilməlidir: 1) Vətəndaş müharibəsinə və 2) Böyük Vətən müharibəsinə aid materiallar. «Ordunun yaradılması», «Voroşilov cəbhədə», «İgid partizan», «Qoçaqlıq» adlı materiallar vətəndaş müharibəsini xarakterizə edir. «Partizan», «İsrafil Məmmədov», «İgid ölər, adı qalar», «General Həzi Aslanov», «General Davatorun əlcəkləri», «Zoya asılan yerdə», «İradə», «Can nənə, bir nağıl de», «Bülbül», «Zəfər bayramı» adlı materiallar isə Böyük Vətən müharibəsinə aiddir.

Vətəndaş müharibəsinə həsr olunmuş materiallar üzrə giriş müsahibəsi keçirmək vacibdir.

**«Ordunun yaradılması».**

1. **Giriş söhbəti**. Söhbət Böyük Oktyabr sosialist inqilabının qələbəsinə və vətəndaş müharibəsinə həsr olunmalıdır. Sinif qarşısında qoyulmuş suallar vasitəsilə müəllim Böyük Oktyabr sosialist inqilabının qələbəsinə aid şagirdlərin bildiklərini onlara xatırladır və deyir ki, inqilab burjua hakimiyyətini devirdi və yeni hakimiyyətin – zəhmətkeşlər hakimiyyətinin qurulmasını təmin etdi. Hökumətin başında V.İ.Lenin durdu. Fəhlələr, kəndlilər və zəhmətkeş ziyalılar yeni həyat qurmağa başladılar. Lakin nə ölkənin daxilində, nə də ölkənin xaricində düşmənlər yeni təşkil olunmuş Sovet hakimiyyəti ilə barışmaq istəmirdilər. Daxildən inqilabın əleyhinə olan adamlar – çarın və burjuaziyanın tərəfdarları birləşərək Sovet hökumətinə qarşı vuruşmağa başladılar. Xaricdən də Almaniya,

İngiltərə və başqa burjua hökumətlərinin qoşunları Sovet Rusiyasına qarşı hücuma keçdilər.

Yenicə təşkil olunmuş Sovet hökuməti V.İ.Leninin rəhbərliyi altında həm daxildəki düşmənlərə, həm də xarici qəsbkarlara qarşı mübarizə aparmalı oldu. Vətəndaş müharibəsi başlandı.

Söhbətini davam etdirən müəllim deyir ki, vətəndaş müharibəsi hadisələrinə dair dərsliyimizdə bir neçə material vardır. Bunlardan biri də «Ordunun yaradılması» adlanır.

2. **Hekayənin oxunuşu**. Müəllim hekayəni dörd hissəyə ayıra bilər: «V.İ.Lenin ondan soruşdu» ifadəsinə kimi; «Kaş bu pulemyotçu kimi əsgərlərdən çox olaydı» cümləsinə qədər; «Səma get-gedə açılırdı» cümləsinədək; buradan da hekayənin sonuna qədər.

Hər hissəni bir şagird oxuya bilər.

3. **Ayrı-ayrı ifadələr üzərində iş**. Hekayənin məzmununu aydın başa düşməyə kömək edən ifadələri uşaqların necə anladıqlarını onlardan soruşmaq məsləhətdir. Belə ifadələrdən bəzilərini göstərək:

**Sovet paytaxtı** – Sovet dövlətinin mərkəz şəhəri. Vətəndaş müharibəsi illərində Sovet dövlətinin paytaxtı Petroqrad (indiki Leninqrad) idi. Hazırda isə ölkəmizin paytaxtı Moskva şəhəridir.

**Dan yeri ağarmağa başladı** – işıqlanmağa başladı.

**Səma get-gedə açılırdı** – göyün üzü ağarırdı.

**Sestroretsk** – o zamankı Petroqrad şəhəri rayonlarından birinin adı.

**Qızıl qvardiyaçılar** – əlində silah Sovet hakimiyyətini qoruyan adamlar – fəhlələr, əsgərlər.

**Qızıl əsgərlər** – Sovet hökumətinin ordu əsgərləri o zaman belə adlanırdı. Orduya isə Qızıl Ordu deyilirdi. İndi isə Sovet Ordusu, ordu əsgərlərinə isə sovet ordu əsgərləri deyilir.

4. **Hekayənin məzmunu üzərində iş**. Hekayənin məzmununu uşaqların daha yaxşı mənimsəmələri üçün sual-cavab aparılmalıdır. Müsahibədə aşağıdakı suallardan da istifadə etmək olar:

-Lenin gecə nə üçün yatmamışdı?
-Lenin əsgərlə nə söhbət edirdi?
-Sizcə, əsgər nəyə əsaslanıb deyirdi ki, biz almanları əzəcəyik?
-Səhər Smolnıya kimlər gəldilər?
-Onlar hara tələsirdilər?
-Bizim ordu nə vaxt yaradıldı?
-Bizim ordu qabaq necə adlanırdı? İndi necə adlanır?
-Ordunun yaranmasında V.İ.Leninin rolu nədən ibarətdir?

5. **Dərsin yekunlaşdırılması**. Axırda, vaxt olarsa, hekayəni bir neçə şagirdə əvvəldən axıradək danışdırmaq lazımdır. Dərsdə V.İ.Leninin maqnitofon lentinə yazılmış nitqindən bir hissəni səsləndirmək də yerinə düşərdi.

**«Voroşilov cəbhədə».**

1. **Giriş söhbəti**. Söhbətdə müəllim «Ordunun yaradılması» adlı mətnə qayıdır, şagirdlərin məlumatlarına əsaslanır və yenidən nəticə çıxarır ki, ilk illərdə Sovet hökuməti xarici düşmənlərə qarşı ölüm-dirim mübarizəsinə qoşulmağa məcbur olmuşdu. Sovet hökuməti həm də daxili düşmənlərlə üz-üzə gəlmişdi.

İndi də Lenin və onun tərəfdarlarının daxildəki düşmənlərlə necə vuruşduqlarına dair material oxuyacağıq. Material belə adlanır: «Voroşilov cəbhədə».

2. **Hekayənin oxunuşu.** Sinfin səviyyəsi yüksək olarsa, hekayəni şagirdlər, zəif olarsa, müəllim oxuya bilər. Mətni ilk dəfə müəllim oxumalı olarsa, sonradan onu şagirdlərə hissə-hissə oxutmaq lazımdır. Hekayəni hissələrə belə bölmək olar: «Motor söndü» ifadəsinə qədər; «Tüfəng atan adamlar gördülər ki» ifadəsinə kimi; «Kazaklar qaqqıltı çəkib gülüşdülər» cümləsinədək; «Tsıbaçenko motoru işə saldı» cümləsinə qədər və nəhayət, sona kimi.

3. **Bəzi söz və ifadələr üzərində iş**. Xüsusən aşağıdakı söz və ifadələr üzərində şagirdləri düşündürmək olar:

**Vətəndaş müharibəsi** – ölkə daxilində müxtəlif sinifləri təmsil edən adamlar arasında silahlı vuruşma.

**Zirehli maşın** – ətrafı metaldan olan maşın. Avtomobil də, parovoz da zirehli ola bilir.

**Kazaklar** – Don çayı sahillərində yaşayan adamlara kazaklar deyirdilər. Onlardan bəziləri çarın tərəfdarları idilər. Belələrinə ağ kazaklar deyirdilər. Bolşeviklərin, yəni Leninin tərəfdarları olanlara isə qırmızı kazaklar deyirdilər.

**Voroşilov Kliment Yefremoviç** – Leninin yaxın silahdaşlarından biri idi. O, vətəndaş müharibəsinin qəhrəmanlarındandır. Voroşilov SSRİ Müdafiə Naziri, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrində işləmişdir.

Voroşilovun xatirəsini əbədiləşdirmək üçün Sovet hökuməti Luqansk şəhərini Voroşilovqrad adlandırmışdır. Parxomenko, Şors, Kotovski və başqa qəhrəmanlar haqqında da qısa danışmaq lazımdır.

4. **Hekayənin məzmunu üzərində iş**. Mətnin məzmununu uşaqların yaxşı mənimsəmələri üçün müsahibə aparılmalıdır. Bu zaman sinif qarşısında aşağıdakı sualları qoymaq olar:

-Cəbhəni yoxlamaq üçün Voroşilov nə üçün zirehli maşınla getdi?

-Maşın nə üçün yolda qaldı?

-Kazaklar maşını nə üçün aparmaq qərarına gəldilər?

-Zirehli maşını kazaklar necə aparmaq istədilər?

-Maşındakılar nə üçün bir müddət pulemyotu işə salmadılar?

-Necə oldu ki, üç nəfər qırmızı əsgər əlliyə qədər kazaka qalib gəldi?

5. **Dərsin yekunlaşdırılması**. Müsahibədən sonra hekayəni bütövlükdə iki-üç şagirdə danışdırmaq olar.

**«İgid partizan».**

1. **Giriş söhbəti**. Söhbəti Vətəndaş müharibəsində partizan hərəkatına həsr etmək lazımdır. Belə bir söhbətdən uşaqlar nəticə çıxartmalıdır ki, ağlara qarşı, yəni yıxılmış çar hökumətinin və burjuaziyanın tərəfdarlarına qarşı təkcə Sovet hökuməti mübarizə aparmırdı. Ağların müvəqqəti ələ keçirdikləri yerlərdə ağlara qarşı yerli adamlar da mübarizə

aparırdılar. Belə adamlara partizanlar deyirdilər. Partizanların ağlara qarşı mübarizəsini göstərən materiallardan biri də «İgid partizan» adlı hekayədir.

2. **Hekayənin oxunuşu**. Hekayənin mətnini səkkiz hissəyə ayırmaq və hər hissəni bir şagirdin oxumasını təşkil etmək olar: «Onların hamısı getdi, Daniel isə qaldı» cümləsinə kimi; «Onlar hazırlaşıb qurtarmamışdılar ki…» ifadəsinə qədər; «Bu zaman dalca gələn atlılar dayandılar» ifadəsinədək; «Daniel düz atırdı» cümləsinə kimi; «İşi belə görən ağlar atışmanı saxlayıb…» ifadəsinə qədər; «Gələn adam» ifadəsinədək; «Ağların nümayəndəsi Danielin top atəşindən qorxub…» ifadəsinə qədər və hekayənin sonuna kimi.

3. **Bəzi söz və ifadələr üzərində iş**. Xüsusən aşağıdakı söz və ifadələrin mənasını uşaqlardan soruşmaq faydalıdır.

**Partizan** – düşmənin müvəqqəti tutmuş olduğu ərazidə həmin düşmənə qarşı mübarizə aparan adam.

**Yapıncı** – keçi tükündən hazırlanmış uzun və enli palto kimi geyim. Yapınc həm paltonu, həm də yorğanı əvəz edə bilər. Onu ən çox dağ yerində yaşayan adamlar və çobanlar gəzdirir.

**Yəhər** – atın belinə qoyurlar, üstündə otururlar.

**Çərkəzi paltar** – enli qolları və uzun ətəyi olan yun parçadan tikilmiş üst paltarı; döşündə ağ sümükdən qələmlər sıra ilə düzülür.

**Gümüş vəznə** – çərkəzi paltarın üstündən çəkilən toqqa və onun gümüş bəzəkləri.

**Qırmızı başlıq** – çərkəzi paltar geymiş adamlar yağış zamanı papaq əvəzinə başa geyir, istidə isə arxaya atırlar.

4. **Hekayənin məzmununu ətraflı qavramağa kömək edən müsahibə**. Bu zaman müəllim aşağıdakı suallardan istifadə edə bilər:

-Hadisə nə zaman baş vermişdi?

-Hadisə harada baş vermişdi?

-Partizanlar nə üçün dağlara çəkilirdi?

-Partizanlar Daniellə nə üçün razılaşdılar?

-Daniel qalada ağlara necə müqavimət göstərə bildi?

-Axırda ağlar nə qərara gəldilər?

-Ağlarla Daniel arasında nə danışıq getdi?

-Bu danışıqda Danielin udduğunu nə ilə sübut edə bilərsiniz?

5. **Hekayənin nağıl edilməsi**. Müsahibədən sonra hekayəni hissə-hissə iki-üç şagirdə danışdırmaq olar. Bir şagird bir hissəni danışır, ikinci şagird onu, üçüncü şagird isə ikincini davam etdirir.

6. **Evə tapşırıq**. Hekayəni evdə hissələrə ayırmağı, hər hissəyə başlıq verməyi və bu başlıqlar üzrə hekayəni danışmağa hazır olmağı uşaqlara tapşırmaq məsləhətdir.

7. **Yazıçı haqqında**. İmkan olarsa, dərsdə yazıçı haqqında qısa məlumat yerinə düşər. Nikolay Semyonoviç Tixonov 1896-cı ildə anadan olmuşdur. O, böyük sovet yazıçısı və şairlərindən biridir. «Özümüz», «Leninqrad hekayələri», «Alovlu il», «İki axın» və s. adda iri həcmli əsərlər yazmışdır. İctimai xadimdir, 1950-ci ildən Sovet Sülhü Müdafiə Komitəsinin sədridir.

**«İsrafil Məmmədov».**

1. **Giriş söhbəti**. Söhbət 1941-1945-ci illərdə sovet xalqının Böyük Vətən müharibəsinə həsr edilməlidir. Müəllim əvvəlcə alman faşistlərinin qəfləti hücumundan, müvəqqəti olaraq bir çox şəhər və kəndlərimizi aldıqlarından, orada sovet adamlarına divan tutduqlarından danışır; sonra isə sovet xalqının faşizmə qarşı ölüm-dirim vuruşmasına girdiyini, bütün sovet adamlarının – qocaların və cavanların, kişilərin və qadınların Vətəni müdafiəyə qalxdığını, faşistləri ölkəmizdən qovub çıxartdığını və ona qalib gəldiyini uşaqların gözü qarşısında canlandırır.

Vətən müharibəsində bütün sovet xalqları, o cümlədən Azərbaycan xalqı da iştirak etmişdir. Böyük vətən müharibəsində Azərbaycan xalqının oğul və qızlarının qəhrəmanlıqla vuruşduqlarına dair yazılmış materiallardan biri də «İsrafil Məmmədov»dur.

2. **Mətnin oxunuşu**. Hekayəni altı hissəyə ayırmaq olar: «Böyük Vətən müharibəsinin ilk günlərindən...» ifadəsinə

qədər; «1941-ci il dekabr ayının əvvəllərində...» ifadəsinə kimi; «Başda İsrafil Məmmədov olmaqla...» ifadəsinədək, «Faşistlər bicliyə əl atmağı qərara aldılar» cümləsinə kimi; «Dəhşətli ölüm-dirim döyüşündə 300-dən artıq faşist məhv edilmişdi» cümləsinə qədər və nəhayət, sona qədər. Hər hissəni bir şagird oxuyur.

3. **Ayrı-ayrı söz və ifadələr üzərində iş**. Müəllim aşağıdakı söz və ifadələrin mənasını uşaqlardan soruşur:

**Sədaqət** – verdiyi sözdən dönməmək; sadiq olmaq.

**Mahir** – usta; bilici; qabil.

**Sərrast atmaq** – düz atmaq; dəqiq atmaq.

**Qəfildən** – birdən; gözlənilmədən.

**Vətənpərvər** – Vətənini sevən; vətən üçün hər şeydən keçən.

**Dəf etmək** – qarşısını almaq; geri çəkilməyə məcbur etmək.

4. **Hekayənin oxunuşuna əsasən sual-cavab**. Hekayə hissə-hissə yenidən oxunur. Oxunmuş hissələr üzrə uşaqlar bir-birinə sual verirlər. Məsələn, birinci hissəni bir şagird oxuyur, digəri həmin hissə üzrə sual verir, üçüncü şagird suala oxunmuş hissəyə əsasən cavab verir. Digər hissələr üzrə də bu cür iş aparılır. Nəticədə, mətni altı şagird oxumalı, başqa altı şagird sual verməli, digər altı şagird isə cavab verməli olur.

5. **Hekayənin nağıl edilməsi**. Verilmiş suallar hər dəfə müəllimin rəhbərliyi altında dəqiqləşdirilir və yazı taxtasında yazılır. Axırda hekayəni həmin suallar əsasında iki-üç şagirdə danışdırmaq olar.

**«İgid ölər, adı qalar».**

1. **Mətnin oxunuşu**. Hekayəni səkkiz hissəyə ayırmaq olar: «Bir dəfə faşistlər bərk hücuma keçmişdilər» cümləsinə kimi; «Faşistlər çoxlu tələfatdan sonra geri çəkildilər» cümləsinə qədər; «Sinitskinin dəstəsi Tuapsenin yaxınlığındakı...» ifadəsinədək; «Axşamüstü idi» ifadəsinə qədər; «Qafur Qara dənizin sahilində sıldırım qayaların qoynunda əbədi yuxuya getmişdir» cümləsinə kimi; «İndi

Xəzər dənizində üzən…» ifadəsinə qədər və nəhayət, sona kimi. Hər hissəni bir şagird oxuyur.

2. **Bəzi söz və ifadələr üzərində iş**. Müəllim çətin hesab etdiyi söz və ifadələrin mənasını uşaqlardan soruşur:

**Mərdlik** – sözündən dönməmək; qorxmamaq; heç bir şeydən çəkinməmək.

**Qumbara** – içərisində partlayıcı maddə olan və əllə tullanan (atılan) yumru dəmir.

**Tələfat** – ölən; qırılan; məhv olan.

**Köks** – döş; sinə.

**Nəhəng** – böyük; iri.

**Mükafat** – dövlət tərəfindən verilən ad, hədiyyə, nişan.

**Sibirli balası** – Sibirdə anadan olmuş, orada yaşamış adam.

**Əbədi yuxu** – ölüm; ölmək.

Müəllim sinifdən soruşa bilər:

«Gülllə dolu kimi yağırdı» nə deməkdir?

«Dəniz qartalları» ifadəsini necə başa düşürsünüz?

3. **Hekayə üzrə plan tərtibi**. Mətn yenidən oxunur. Bu dəfə hekayənin hər hissəsini bir şagird oxuyur. Başqa bir şagird oxunmuş hissə üzrə sinif qarşısında sual qoyur. Şagirdlərdən biri suala cavab verir. Sual müəllimin rəhbərliyi ilə dəqiqləşdirildikdən sonra yazı taxtasında yazılır. Hekayənin qalan hissələri üzrə eyni iş görülür. Sonra müəllim hər sualı planın bəndi kimi ifadə etdirir. Nəticədə hekayənin planı tərtib edilmiş olur.

Sualın plan bəndi kimi ifadə olunmasına bir nümunə verək. Məsələn, hekayənin son hissəsi üzrə şagird sualı belə ifadə edə bilər:

-Nələrə əsasən deyirik ki, Qafur ölməmişdir, o yaşayır?

Müəllimin rəhbərliyi altında həmin sual planın son bəndi kimi belə ifadə edilə bilər:

-Qafur ölməmişdir, o yaşayır.

4. **Hekayənin nağıl edilməsi**. Dərsin sonunda uşaqlar tərtib olunmuş plan üzrə hekayəni nağıl edirlər.

Evdə də həmin plan üzrə uşaqlar hekayəni nağıl etməyə hazırlaşır və növbəti dərsdə danışarkən planın bəndlərinə istinad edirlər.

**«General Həzi Aslanov».**

1. **Giriş söhbəti**. Söhbətdə müəllim Böyük Vətən müharibəsinə aid oxunmuş materialları uşaqlara xatırladır, xüsusən İsrafil və Qafur haqqında uşaqların məlumatlarına əsaslanır. Nəhayət, deyir ki, müharibədə igidlik göstərmiş azərbaycanlı balaları çox olmuşdur. Onlardan biri də Həzi Aslanovdur.

2. **Hekayənin oxunuşu**. Başqa materiallarla əlaqədar olduğu kimi, bu hekayəni də müəllim hissələrə ayırır. Mətni beş hissəyə bölmək olar: «Tank qoşun hissələrinin komandiri Həzi Aslanov…» ifadəsinə qədər; «Həzi Aslanov Böyük Vətən müharibəsində…» ifadəsinə kimi; «1945-ci il idi» cümləsinədək; «Xalqımız onu böyük təntənə ilə dəfn etdi» cümləsinə kimi və nəhayət, sona qədər.

Hər şagird bir hissəni oxuyur. Oxunmuş hər hissə üzrə başqa bir şagird sinif qarşısında sual qoyur. Digər şagird həmin suala cavab verir. Beləliklə, beş şagird mətni oxuyur, beşi sual verir, beşi isə cavab. Bu qaydada oxu şagirdlərin diqqətini səfərbər edir, müstəqil mühakimə yürütməyə alışdırır.

3. **Seçmə oxu**. Müəllim sinfə müraciət edir:

-Kim bəyəndiyi hissəni oxumaq istəyir?

-Kim hekayənin son hissəsini oxuyar?

4. **Hekayənin nağıl edilməsi**. Dərsin sonuna yaxın iki-üç şagird materialı əvvəldən axıradək rabitəli şəkildə nağıl edir.

5. **Hekayənin yerli materialla əlaqələndirilməsi**. Müəllim dərsin sonunda mətni məktəbin yerləşdiyi kənd, qəsəbə, rayon və ya şəhər faktları ilə əlaqələndirməyə çalışır. Bu məqsədlə sinfə müraciət edir:

-Uşaqlar, öz kəndimizdən (rayonumuzdan və ya şəhərimizdən) Böyük Vətən müharibəsində iştirak etmiş adamlardan kimləri tanıyırsınız?

**«General Dovatorun əlcəkləri».**

1. **Giriş söhbəti**. Söhbət Böyük Vətən müharibəsində bütün sovet xalqlarının iştirak etdiyinə həsr olunur. Müəllim deyir ki, faşistlərə qarşı azərbaycanlılardan əlavə ermənilər də, gürcülər də, türkmənlər də, özbəklər də, ukraynalılar da, beloruslar da, başqa xalqlar da can-başla vuruşmuşlar. Müəllim buna konkret misallar gətirir və deyir ki, belorusların necə vuruşduğuna dair bir hekayə oxuyaq.

2. **Hekayənin oxunuşu**. Hekayənin məzmununu on hissəyə ayırmaq olar. «Bundan başqa heç nə başa düşə bilmədim» cümləsinə qədər; «Bu hadisə Böyük Vətən müharibəsinin birinci ilində, qışda olmuşdu» cümləsinə kimi; «Bir dəfə axşamçağı general çaparaq bizim dəstəyə gəldi» cümləsinə qədər; «General ata-anamın indi harada olması ilə…» ifadəsinə kimi; «Çox keçmədən məni polk komandirinin yanına çağırdılar» cümləsinə qədər; «İki saatdan sonra mən qərargaha çatdım» cümləsinədək; «Həmin gün döyüşdən sonra qorxunc bir xəbər yayıldı» cümləsinə qədər; «Dəri əlcəklər, bax, bütün bunları yadıma saldı» cümləsinə kimi və nəhayət, sonacan.

Həmin hissələrin hərəsini bir şagird oxuyur.

3. **Mətnin qiraəti əsasında sual-cavab**. Hər hissə oxunduqdan sonra onun məzmunu üzrə başqa şagird sual qoyur; digəri həmin suala cavab verir. Beləliklə, hekayəni on şagird bir-birini əvəz edərək oxuyur, başqa on şagird sual verir, digər on şagird isə cavab verir.

4. **Hekayə üzrə plan tərtibi**. Oxunmuş hissələr üzrə sualların qoyuluşu və həmin suallara cavab verilməsi plan tərtibini xeyli asanlaşdırır. Əvvəlki dərsdə plan tərtibindən bir qədər fərqli olaraq, bu dərsdə şagirdlərə daha çox müstəqillik verilir. Yəni suallar əsasında planın bəndlərini müəyyənləşdirərkən müəllim yalnız zəruri olduqda şagirdlərə kömək edir. Bunu bir bənd üzrə konkretləşdirək. Məsələn, hekayənin ikinci hissəsini şagird oxuduqdan sonra başqa birisi sual qoyur:

-Otağa keçdikdə ata nə gördü və uşaqlardan nə tələb etdi?

Bu suala verilmiş cavabdan sonra başqa şagird həmin hissəni planın bəndi kimi adlandırır, məsələn, belə:

-Atanın uşaqlardan tələbi.

Hekayənin planında qalan doqquz bənddə bu cür şagirdlər tərəfindən müstəqil müəyyənləşdirilir.

5. **Lüğət üzərində iş**. Müəllim hekayədə çətin hesab etdiyi sözlərin mənasını uşaqlardan soruşa bilər. Bu zaman diqqəti aşağıdakı sözlərə cəlb etmək faydalıdır:

**Süvari** – atlı.

**Durbin** – baxanda uzağı yaxın göstərən alət.

**Kəşfiyyatçı** – müharibə zamanı qabağa gedən, irəlidə nəyin olub-olmadığı barədə xəbər verən adam.

**Xizəkçi** – xizəkdə gedən; xizək sürən.

**Qəflətən** – birdən, gözlənilmədən.

**Məhmizlədi** – at sürən dabanı ilə atın böyrünə vurdu və yeriməsini tələb etdi.

**Əsgəri salam** – ayaqları qoşalayaraq əlini gözün üstünə qoymaq.

**Avtokolonna** – dəstə ilə gedən avtomobillər.

**Ayqır at** – erkək at.

**Mehriban** – adama qarşı mülayim olan, qayğı göstərən.

6. **Yazıçı haqqında**. Xomçenko Vasili Fyodoroviç 1919-cu ildə anadan olmuşdur. Belorus sovet yazıçısıdır. Uşaqlar üçün xeyli kitab yazmışdır: «Əziz hədiyyə», «Torağay», «Hərbi şəhərcik», «Nal» və s.

**«Partizan».**

1. **Giriş**. Sovet xalqlarının alman faşizminə qarşı qəhrəmanlıqla vuruşduğunu göstərən materiallar oxunduqdan sonra, müəllim faşistlər tərəfindən müvəqqəti olaraq tutulmuş şəhər və kəndlərdə, meşə və çöllərdə partizanların fəaliyyətini əks edən materialların oxunmasını təşkil edir. Dərslikdə bu məzmunu ifadə edən iki material vardır: «Partizan» və «Zoya asılan yerdə».

2. **Giriş söhbəti**. Müəllim giriş söhbətini alman faşizminə qarşı partizanların vuruşmasına həsr edir və sonra deyir ki, uşaqlar, gəlin «Partizan» adlı şeiri oxuyaq.

3. **Şeirin oxunuşu**. Şeiri nümunə üçün ilk dəfə müəllim oxuyur. Sonra bir-iki şagird şeiri ifadə ilə oxuyur.

4. **Lüğət üzərində iş**. Müəllim çətin hesab etdiyi bəzi sözlərin mənasını uşaqlardan soruşur. O, nəzərdə tutur ki, soruşacağı sözlərdən bir neçəsi üzərində uşaqlar bir müddət bundan əvvəl düşünmüşlər.

**Yurd** – yaşadığı yer; olduğu yer.

**Ön** – irəli; qabaq.

**Cummaq** – birdən-birə atılmaq; cəld yüyürmək; üstünü almaq.

**Yağı** – düşmən.

**Qisas** – intiqam; əvəz.

**Səngər** – güllə dəyməmək üçün gizlənilən yer.

**El** – xalq.

5. **İfadələr üzərində iş**. Şeirin məzmununu daha yaxşı başa düşmək üçün müəllim ayrı-ayrı ifadələr üzrində şagirdləri işlədir. Bu məqsədlə müəllim, məsələn, sinifdən soruşur:

-Şeirdə bu sətirləri necə başa düşürsünüz?

-Səngərimdir hər dağ-dərə.
Görünmürəm düşmənlərə.

-Şeirdəki: «Üzüm ağdır el yanında»,
Mərdəm döyüş meydanında» – ifadəsini kim izah edər?

6. **Şeirin məzmunu üzərində iş**. Bu dəfə müəllim sualı elə qoyur ki, şagirdlər həmin suala uyğun gələn yeri şeirdə tapıb oxuyur. Sualların belə qoyuluşuna bir neçə misal verək:

-Partizanların ən çox qaranlıq düşəndə hücuma keçdikləri barədə şeirdə nə deyilir?

-Gündüzlər düşmənə görünməmək üçün partizanların gizləndikləri yer haqqında şeirdə nə deyilir?

-Partizanların vuruşmaq qaydası şeirdə necə ifadə edilir? və s.

7. **Şeirin yenidən oxunuşu**. Ayrı-ayrı söz və ifadələr üzərində, şeirin məzmunu üzərində şagirdləri işlətdikdən sonra yenidən onun ifadəli oxunuşu təşkil edilir. İki-üç şagird şeiri əvvəldən axıradək ifadə ilə oxuyur.

8. **Evə tapşırıq.** Evdə uşaqlar şeiri əzbərləyirlər.

**«Zoya asılan yerdə».**

1. **Giriş söhbəti.** Söhbət zamanı müəllim ələ keçən partizanlara faşistlərin amansız divan tutduqlarından, bu zaman partizanların ölümə mərdliklə baxdıqlarından, düşmən qarşısında əyilmədiklərindən danışır. Bu cür minlərlə partizanlardan biri də Zoya Kosmedemyanskaya idi. Sonra müəllim deyir:

-Uşaqlar, gəlin Zoya haqqında bir şeir oxuyaq.

2. **Şeirdə çətin sözlərin müstəqil seçilməsi**. Müəllimin təklifi ilə şagirdlər şeiri ürəklərində oxuyurlar və yaxşı anlamadıqları söz və ifadələri seçib dəftərlərinə yazırlar. Sonra müəllim sinfin ayırdığı sözləri ümumiləşdirib lövhədə yazdırır. Bu məqsədlə müəllim şagirdlərdən ən zəifinə müraciət edir, seçdiyi çətin sözləri yazı taxtasına yazdırır. Sonra müəllim sinfə müraciət edir:

-Daha hansı sözlərin mənasının aydınlaşdırılmasını istərdiniz?

Əlavə sözlər seçmiş olan uşaqlar gəlib həmin sözləri də yazı taxtasına qeyd edirlər.

3. **Çətin sözlərin mənasının izahı**. Müəllim yazı taxtasında yazılmış sözlərin mənasını uşaqlardan soruşur və lazım gəldikdə özü uşaqların fikrinə düzəliş verir. Təqribən aşağıdakı sözlər seçilə və mənası izah edilə bilər:

**Abidə** – hər hansı bir tarixi hadisəyə həsr olunmuş daş və ya mərmər tikinti. Adətən belə tikintinin – abidənin üstündə yazı da olur.

**Pöhrən** – yenicə çıxan ağaclar; körpə ağaclar.

**Gündoğan** – gün çıxan tərəf; şərq.

**Tufan** – şiddətli külək (şeirdə müharibəyə işarədir).

**Qurban** – nəyinsə naminə bir şeyi güzəştə getmək (şeirdə ölümə getmək mənasındadır).

4. **Şeirin məzmunu üzərində iş**. Dərsin bu mərhələsində müəllim yenə uşaqların müstəqil işini təşkil edir: Müəllimin göstərişi ilə uşaqlar bir-birinə təqribən aşağıdakı sualları verirlər:

-Abidənin Zoya asılan yerdə qoyulduğu şeirdə necə ifadə edilir?

-Zoyanın şəkli ilə günəşin bir-birinə baxdığı şeirdə necə verilmişdir?

-Zoyanın vətən uğrunda öldüyünü şeirdə nədən bilmək olur? və s.

Yoldaşlarının birinci sualı ilə əlaqədar olaraq şagird şeirin ilk beş misrasını oxuyur.

İkinci sual üzrə şagird şeirdən oxuyur:

*«Şəkil elə qoyulmuş,*
*O gündoğana baxır.*
*Meşələrin üstündən*
*Günəş də ona baxır».*

Üçüncü suala cavab olaraq şagird şeirin son dörd misrasını nümunə gətirir.

*«O, tufanlı illərdə*
*Qurban getdi Vətənə.*
*Yaşayır insanların*
*Ürəklərində yenə»*

5. **Şeirin son ifadəli oxunuşu**. Müəllim hiss edir ki, dərsin əvvəlki mərhələləri şagirdləri şüurlu olaraq ifadəli oxuya hazırlayır. Buna görə də müəllim sinfə yenidən tapşırır ki, şeiri ürəklərində oxusunlar və bərkdən ifadəli oxuya hazırlaşsınlar. Uşaqlar şeiri ürəklərində oxuyub qurtardıqdan sonra müəllim bir neçə şagirdə şeiri bərkdən oxudur.

6. **Mətnin nağıl edilməsi.** Vaxt qalarsa, bir-iki şagird şeirin məzmununu öz sözləri ilə nağıl edir.

**«İradə».**

Bu hekayənin ideyası ilə «Zoya asılan yerdə» adlı şeirin ideyası bir-birinə çox yaxındır. Fərq yalnız mətnlərin formasındadır: biri şeir, digəri isə hekayə şəklində yazılmışdır. Şeir üzərində işin ardıcıllığı «İradə» adlı hekayə üzrə işə də şamil edilə bilər.

1. Giriş söhbəti sovet partizanları ilə əlaqədar olduğu kimi, əsir düşən sovet əsgərlərinin də özlərini çox iradəli, çox dəyanətli apardıqlarına həsr olunur.

2. Sonra hekayə bütün sinif tərəfindən ürəkdə oxunur. Bu zaman şagirdlər çətin söz və ifadələri qeyd edirlər.

3. Həmin çətin söz və ifadələrin mənasını uşaqlar izah edir.

4. Hekayəni uşaqlar yenidən ürəklərində oxuyurlar.

5. Onlar müəllimin rəhbərliyi altında hekayə üzrə sual-cavab keçirirlər.

6. Nəhayət, bir-iki şagird hekayəni nağıl edir.

7. Dərsin sonunda uşaqlar belə bir suala cavab verirlər: hekayəyə nə üçün «İradə» adı verilmişdir?

8. Evdə isə şagirdlər bu suala yazılı cavab hazırlayırlar.

**«Bülbül»**

1. **Giriş söhbəti**. Giriş söhbətində müəllim əsasən məktəblilərin, pionerlərin, ümumiyyətlə, uşaqların Vətən müharibəsində bacardıqları qədər iştirak etdiklərindən danışır. O deyir ki, şagirdlərimiz və uşaqlarımız müharibədə vuruşan ata-analarından geri qalmır, onlara hər cür köməklik göstərir, yeri gələndə faşistlərlə vuruşa da girirdilər. Vətən müharibəsində uşaqlarımızın böyüklərə necə kömək etdiklərinə dair dərsliyimizdə material vardır: «Bülbül».

2. **Hekayənin ilk oxunuşu**. Hekayəni altı hissəyə ayırmaq olar: «Ey! –deyərək, zabit oğlanı yanına çağırdı» cümləsinə kimi; «Zabit soruşdu» cümləsinə qədər; «Dəstə yola düşdü» cümləsinədək; «Meşənin uzaq bir yerində partizanlar tüfənglərini ağaca söykəyib uzanmışdılar» cümləsinə kimi; «Bir neçə dəqiqədən sonra cavan yolka arxasından faşist dəstəsi göründü» cümləsinə qədər; nəhayət, sonadək. Hər hissəni bir şagird oxuyur. İlk qiraət zamanı uşaqlar hekayənin məzmunu ilə ümumi tanış olurlar.

3. **Hekayənin ikinci oxunuşu**. Bu dəfə oxu qarşısında iki vəzifə qoyulur. Müəllimin göstərişi ilə hər hissəni yenidən bir şagird oxuyur. Başqa bir şagird oxunmuş hissə üzrə sual qoyur. Digəri həmin suala cavab verir. Beləliklə, hekayəni altı şagird oxuyub başa çıxır; bu zaman altısı sual verir, altısı isə cavab verir. Suallar yazı taxtasına yazılır.

Eyni zamanda uşaqlar çətin hesab etdikləri söz və ifadələri seçirlər.

4. **Söz və ifadələr üzərində iş**. Hekayəni oxuyan uşaqlar təqribən aşağıdakı söz və ifadələri seçir və mənalarını izah edirlər:

**Gözləri dörd oldu** – qorxa-qorxa o tərəf bu tərəfə boylandı.

**Öhdələrindən gələrik** – gücümüz çatar.

**Patrondaş** – patron qoyulan kabur.

**Tala** – meşənin ortasında ağac olmayan açıq yer – çəmənlik.

5. **Hekayənin məzmunu üzərində iş**. Hekayənin bəzi vacib yerlərinin şagirdlər tərəfindən necə başa düşüldüyünü yoxlamaq lazımdır. Bu məqsədlə sinif qarşısında aşağıdakı sualları qoymaq olar:

-Sizcə, balaca oğlan nə üçün arxın kənarında oturmuşdu?

-Zabitin «Sən kənddə tək qalmısan?» sualına uşaq nə üçün belə cavab verir: –Necə yəni tək? Burada sərçə də, qarğa da çoxdur. Bülbül isə təkcə mənəm.

-Sizcə, zabitin «Bəs partizanlar haqqında nə deyirlər? Onlar buralarda üzə çıxırlarmı?» sualına uşaq nə üçün «Göbələkmi deyirsiniz? Yox, burada yalnız meşə göbələkləri çıxır» cavabını vermişdi?

-Uşaq faşistlər haqqında məlumatı partizanlara necə çatdırdı?

-O biri gün həmin uşaq nə üçün yenə arxın üstündə oturmuşdu?

6. **Evə tapşırıq**. Qiraət zamanı hekayənin hissələri üzrə verilmiş suallara əsasən plan tərtib etməyi və hekayəni həmin plana uyğun olaraq danışmağı tapşırmaq olar.

7. **Yazıçı haqqında müəllim üçün məlumat.** Pyatras Tsvirka 1909-cu ildə anadan olmuş və 1947-ci ildə vəfat etmişdir. O, Litva sovet yazıçısıdır. Tsvirka çoxlu romanların, hekayələrin müəllifidir: «Qardaşlıq toxumu», «Gürcüstan ürəyi», «Usta və oğulları» və s. onun məşhur əsərləridir.

**«Can nənə, bir nağıl de».**

1. **Giriş müsahibəsi.** Müəllim müharibə zamanı cəbhədən uzaq olan şəhər və kəndlərdə qocaların və uşaqların ağır

yaşayışından danışır. Deyir ki, əli silah tutan adamlar cəbhədə vuruşurdu, şəhər və kəndlərdə qalan qoca qadın və qoca kişilər isə cəbhə üçün, əsgərlər üçün işləyirdilər. Uşaqlar, hətta körpə uşaqlar belə, müharibə haqqında, cəbhədə vuruşan qohumları, qonşuları və yaxınları haqqında düşünürdü. Gəlin, müharibə zamanı körpə uşaqların hisslərinə həsr olunmuş bir şeir oxuyaq.

2. **Şeirin ilk oxunuşu**. Şeiri ilk dəfə ifadə ilə müəllim oxuyur. Uşaqlar diqqətlə qulaq asırlar. Müəllim nənənin və uşağın sözlərini və ara sözlərini müvafiq tonda oxuyur.

3. **Şeirin səhnələşdirilməsi**. İlk oxunun ahənginə uyğun olaraq müəllim şeirin ikinci oxunuşunu səhnələşdirir. Nənənin sözlərini şagirdlərdən biri, uşağın sözlərini digəri, ara sözlərini isə üçüncüsü oxuyur. Məsələn, uşaq rolunu gedən şagird başlayır:

-Ay nənə, bir nağıl da de.

Nənə rolunda olan şagird cavab verir:

-Ömrüm-günüm, yat daha.

Hamısını indi desəm, nağıl qalmaz sabaha və s.

Şeirin üç yerində ara sözləri vardır. Birinci:

«Nənə yığır düyünçəyə iynəsini, sapını»

Misrası da daxil olmaqla dörd misra. İkinci:

«Bir gizilti duyur vücudunda bu ara» misrası da daxil olmaqla dörd misra. Üçüncü isə – sonuncu altı misra.

4. **Şeirin məzmunu üzərində iş**. Şeirin məzmununu uşaqların daha yaxşı başa düşməsi üçün sual-cavab keçirilməlidir. Bu zaman aşağıdakı suallardan istifadə etmək olar.

-Uşağın gözünə nə üçün yuxu getmirdi?

-Atasını uşağın həsrətlə gözlədiyini bildirən misraları kim oxuyar?

-Atasına uşağın canı yandığını hansı misradan bilmək olur?

-Uşaq atasını nə ilə qarşılamaq istəyir?

-Atasının nə vaxt gələcəyini nənə uşağa necə başa salır? Şeirdə bu yeri tapıb oxuyun.

-Nənə və nəvə atanı necə qarşılamaq istəyirlər? Bu yeri kim şeirdə tapıb oxuyar?

-Nəhayət, uşağın yuxuya getdiyini şeirdə bildirən yeri kim tapıb oxuyar?

-Uşaq yuxuda nə görür?

5. **Evə tapşırıq**. Tapşırmaq olar ki, kim şeirin harasını və nə qədər istəyirsə əzbərləsin.

**«Zəfər bayramı».**

1. **Giriş söhbəti**. Müəllim Böyük Vətən müharibəsində sovet xalqının tarixi qələbəsindən danışır; deyir ki, Sovet Ordusunun, partizanların, uşaqların, qocaların, bütün sovet adamlarının zəhməti, çətinliklərə dözməsi, verdiyi milyonlarla qurbanlar hədər getmədi. Xalqımız ədalətli müharibədə qalib gəldi. Faşizm məğlub oldu. Xalqımız faşist Almaniyası üzərində qələbəni hər il mayın 9-da bayram edir.

Söhbətin sonunda müəllim uşaqlara deyir:

-Gəlin bu bayrama həsr edilmiş bir şeiri oxuyaq.

2. **Şeirin oxunuşu**. Şeiri ilk dəfə müəllim ifadə ilə oxuyur. Sonra hər bəndi bir şagird oxuyur.

3. **Çətin sözlərin müəyyən edilməsi**. Müəllimin göstərişi ilə şagirdlər şeiri ürəklərində oxuyur və mənasını yaxşı başa düşmədikləri sözləri qeyd edirlər. Sonra müəllimin təklifi ilə bir şagird qeyd etdiyi sözləri yazı taxtasına yazır. Qalan şagirdlər yazılmış sözlərə əlavələr edirlər. Nəticədə təqribən aşağıdakı sözlər müəyyənləşdirilə bilər. Zəfər, çıraqban, qəndil, əlvan, çilçiraq, səda, novbar, bəxtiyar, çöhrə, anmaq, qürur.

4. **Sözlərin mənasının izahı**. Müəllim, şagirdlərin fəal iştirakı ilə müəyyən edilmiş sözlərin mənasının izahını təşkil edir. Sözlərin təqribən aşağıdakı izahı verilir. Şagirdlər onu izahlı-lüğət dəftərə yazırlar.

**Zəfər** – qələbə.

**Çıraqban** – işıqlı.

**Qəndil** – asma lampa.

**Əlvan** – rəngarəng, müxtəlif rəng.

**Çilçıraq** – bir dəstə lampa; ətrafında şüşələr.
**Səda** – səs; danışıq.
**Novbar** – ilk dəfə yığılan meyvə və tərəvəz.
**Bəxtiyar** – xoşbəxt; bəxti gətirmək; şən.
**Çöhrə** – üz; sifət; üz-göz.
**Anmaq** – yada salmaq; xatırlamaq.
**Qürur** – fərəh; iftixar.

5. **İfadələr üzərində iş**. Şeirin mənasını və onun gözəlliyini daha yaxşı duymaq üçün müəllim xüsusi iş aparır, ayrı-ayrı ifadələri uşaqların necə başa düşdüklərini onlardan soruşur. Bu məqsədlə müəllim aşağıdakı suallarla sinfə müraciət edir:

-Şeir Bakının hansı yerində keçirilən bayramı təsvir edir?

-«Yenə ulduzlarla şəhər çıraqban» ifadəsini necə başa düşürsünüz?

-«Qaçışlar sularda alovlu rənglər» ifadəsini kim izah edər?

-«Göydən ulduz yağır, şəfəq tökülür» ifadəsi nə deməkdir? və s.

6. **Şeirin yenidən oxunuşu**. Ayrı-ayrı söz və ifadələrin mənasını aydınlaşdırdıqdan sonra şeirin şüurlu, daha ifadəli oxunuşunu təşkil etmək lazımdır.

7. **Şair haqqında**. Əhməd Cəmil 1914-cü ildə anadan olmuşdur. Azərbaycan sovet poeziyasının görkəmli nümayəndələrindən biridir. «Bəxtiyar», «Açıl, ey səhər», «Dostlar, yenə görüşərik», «Mingəçevir ulduzları» və s. şeirlərin müəllifidir.

## 10. «YAZ» BÖLMƏSİ ÜZRƏ MATERİALLARIN PLANLAŞDIRILMASI VƏ TƏDRİSİ

| Dərslər | Mövzu | Müəllif | Saat |
|---|---|---|---|
| 115-ci | «Bahar gəlsin» | M.Rahim | 1 s. |
| 116-cı | «Arılar axtarışda» | K.Uşinski | 1 s. |
| 117-ci | «Bahar nəğməsi» | A.Şaiq | 1 s. |
| 118-ci | «Yaz deyir ki» | S.Vurğun | 1 s. |
| 119-cu | «Bağlar» | R.Rza | 1 s. |

| | | | |
|---|---|---|---|
| 120-ci | «Sərçə» | İ.Turgenev | 1 s. |
| 121-ci | «Qarışqa və milçək» | A.Səhhət | 1 s. |
| 122-ci | «Şir və tülkü» | S.Rəhimov | 1 s. |
| 123-cü | Ümumiləşdirici dərs | | |
| 124-cü | Sinifdənxaric qiraətin yekunlaşdırılması | | 1 s. |

**«Bahar gəlsin».**

1. **Giriş söhbəti**. Giriş söhbəti şagirdləri bahar fəsli ilə tanış edir, bahar haqqında uşaqların təsəvvürlərini daha da dəqiqləşdirir. Müəllim təbiətin qış yuxusundan oyandığı, tumurcuqların çiçək və yarpaq açdığı, çöllərin al-əlvan don geydiyi, quşların yenidən dil açdığı, adamların çöllərdə işə daha həvəslə girişdiyi barədə uşaqlara yığcam məlumat verir. Söhbətin sonunda isə uşaqlara deyir ki, gəlin bahar haqqında bir şeir oxuyaq.

2. **Şeirin nümunəvi oxunuşu**. Şeiri ilk dəfə nümunə üçün müəllim oxuyur. Müəllim şeirdə təbiətin hər əlamətlərini oxuduqca azacıq fasilə edir ki, uşaqlar şeirin hər hissəsində bir təbiət əlaməti əks olunduğunu asan başa düşsünlər. Bu hissələr aşağıdakılardır: 1) birinci üç misra; 2) dördüncü və beşinci misralar; 3) altıncı misra; 4) yeddinci – doqquzuncu misralar; 5) onuncu – on ikinci misralar; 6) on üçüncü – on səkkizinci misralar; 7) on doqquzuncu – iyirmi dördüncü misralar.

Göründüyü kimi, şeirdə baharın yeddi əlaməti əks olunur: 1) meşələrin oyanması; 2) yasəmən və bənövşələrin çiçək açması; 3) meyvə ağaclarının çiçəklənməsi; 4) quşların cəh-cəh vurması; 5) torpağın oyanması; 6) gül-çiçək və meyvə ağaclarının əkilməsi; 7) günəş şuaları və kölgənin gözəlliyi.

3. **Şeirin sonrakı oxunuşu**. Müəllimdən sonra şeiri şagirdlər oxuyurlar. Baharda təbiət əlamətlərini daha aydın hiss etmək üçün müəllimin təklifi ilə hər əlamətin əks olunduğu hissəni bir şagird oxuyur. Deməli, şeiri yeddi şagird oxuya bilər.

Şeirin hər hissəsi oxunduqdan sonra müəllimin müvafiq sualı əsasında başqa bir şagird həmin hissədə yazın hansı əlamətinin əks olunduğunu deyir. Məsələn, şeirin birinci üç

misrası oxunduqdan sonra müəllim sinfə belə bir sualla müraciət edir:

-Uşaqlar, şeirin bu hissəsində yazın hansı əlaməti ifadə olunmuşdur?

Qulaq asan şagirdlərdən birisi deyir:

-Şeirin həmin hissəsində bahar fəslində meşələrin oyanmasından, ağacların yarpaqlamasından danışılır.

4. **Şeirin tam oxunuşu**. Dərsin növbəti hissəsində şagirdlər şeiri əvvəldən axıradək ifadə ilə oxuyurlar.

5. **Şair haqqında qısa məlumat**. Məmməd Rahim Abbas oğlu Hüseynov 1907-ci ildə Bakıda anadan olmuşdur. Məmməd Rahim Azərbaycan sovet poeziyasının görkəmli nümayəndələrindən biridir. Onun bir sıra şeir kitabları çapdan çıxmışdır: «Arzular», «İkinci kitab», «Xəzər sahilərində», «Leninqrad göylərində» və s. Seçilmiş şeirləri rus dilində Moskvada çap olunmuşdur.

**«Arılar axtarışda».**

1. **Giriş**. Hekayənin məzmunundan göründüyü kimi, orada yazın iki əsas əlaməti tərənnüm olunmuşdur: 1) baharın əvvəllərində bənövşə nümunəsində ilk dəfə açan çiçək; 2) yazın ilk günlərində arı nümunəsində həşəratların həyat tərzi.

2. **Həyatla əlaqə**. Hekayənin məzmununu şagirdlərin yaşadığı təbii mühitlə əlaqələndirmək lazımdır. Hekayə üzərində müxtəlif formalı iş təşkil etdikdən sonra müəllim sinif qarşısında bu cür suallar qoya bilər:

-Uşaqlar, bizim yerlərdə bahar girəndə əvvəlcə çiçəkləyən hansı ağaclardır?

-Siz hansı çiçəklərin əvvəlcə çiçəklədiyini görmüşsünüz və ya eşitmisiniz?

-Bahar girəndə əvvəlcə gördüyünüz həşəratlar hansılardır?

-Baharda bizim yerlərə ilk dəfə uçub gələn quşlar hansılardır?

3. **Müəllif haqqında qısa məlumat**. Konstantin Dmitriyeviç Uşinski 1812-ci ildə anadan olmuş və 1870-ci ildə vəfat

etmişdir. Rus xalqının böyük oğlu K.D.Uşinski dünya pedaqogikasının klassik nümayəndəsidir. O, bir sıra gözəl dərsliklərin müəllifidir. K.D.Uşinski uşaqlar üçün kiçik həcmli hekayələr də yazmışdır.

**«Bahar nəğməsi».**

1. **Giriş**. Şeirin birinci hissəsində baharın üç əlaməti əks olunmuşdur: təbiətin dəyişməsi; bülbüllərin həvəslə oxuması; adamların şən səsləri.

Şeirin ikinci hissəsində isə baharın son günləri təsvir edilir. Burada əsasən insan əməyi tərənnüm edilir.

2. **Şeirin oxunuşu**. Şeirin məzmunundakı həmin cəhətləri müəllim nəzərə almalıdır. Bu məqsədlə hər əlamətin ifadə olunduğu bəndi bir şagird oxuya bilər.

3. **Şeirin həyatla əlaqələndirilməsi**. Şeirin məzmununu şəraitlə əlaqələndirmək vacibdir. Bu məqsədlə aşağıdakı suallar ətrafında uşaqları düşündürmək olar:

-Yaz zamanı tarlada hansı işlər görülür?

-Baharda bağlarda görülən işlər nədən ibarətdir?

-Yaz girəndə adamlar bostanda hansı işlərlə məşğul olurlar?

-Yazda adamların geyimində hansı dəyişikliklər olur?

4. **Şair haqqında qısa məlumat**. Abdulla Şaiq Talıbzadə 1881-ci ildə Tbilisi şəhərində anadan olmuş və 1959-cu ildə Bakıda vəfat etmişdir. Uşaqların sevimli yazıçısı bir çox roman, pyes, hekayə və şeir yazmışdır: «Araz», «Qoç Polad», «Xasay», «Eloğlu» və s.

Abdula Şaiq həm də gözəl müəllim və bacarıqlı pedaqoq olmuşdur.

**«Yaz deyir ki...»**

1. **Giriş**. Bahar mövzusunda əvvəlki materiallardan fərqli olaraq «Yaz deyir ki...» adlı şeirdə iki yeni əlamət tərənnüm edilmişdir. Müəllim, birinci növbədə, şagirdlərin diqqətini bu əlamətlərə cəlb etməlidir. Həmin əlamətlər bunlardır: a) yazda çayların daşması; b) yağışın çoxalması.

2. **Şeirin oxunuşu**. Müəllim şeiri şagirdlərə ifadə ilə oxudur. Hər şagird bir bəndi oxuya bilər. Şeirdə ifadə olunmuş bahar əlamətləri üzrə sinfə sual vermək lazımdır.

3. **Dil üzərində iş**. Bu məqsədlə müəllim şagirdlərin diqqətini materialların dilinə cəlb də bilər. Bu zaman şagirdləri belə bir tapşırıq üzərində işlətmək olar:

-«Bahar gəlsin», «Arılar axtarışda», «Bahar nəğməsi», «Yaz deyir ki...» adlı hekayə və şeirlərə yenidən nəzər salın (ürəyinizdə oxuyun) aşağıdakı suallara cavab hazırlayın:

-«Bahar gəlsin» adlı şeir kimin dili ilə yazılmışdır?

-«Arılar axtarışda» adlı hekayədə baharın əlamətləri kimlərin dili ilə verilmişdir?

-«Bahar nəğməsi» adlı şeir yəqin dili ilə yazılmışdır?

Bu cür suallar ətrafında aparılan söhbət şagirdlərə imkan verər ki, eyni hadisənin müxtəlif formada və müxtəlif tərzdə ifadə olunduğunu dərk etsinlər. Həmin suallara cavab hazırlayan şagirdlər görəcəklər ki, baharın əlamətləri birinci materialda uşağın dili ilə, ikinci materialda yazıçının, arı və ağacların dili ilə, üçüncü materialda şairin dili ilə, axırıncı materialda isə yazın öz dili ilə tərənnüm edilir.

Dərsdə vaxt çatmasa, bu işi müəllim evə tapşıra bilər.

4. **«Yaz deyir ki...» şeirinin müəllifi haqqında**.

Səməd Vurğun Vəkilov 1906-cı ildə Qazax rayonunun Qıraq Salahlı kəndində anadan olmuş və 1956-cı ildə Bakıda vəfat etmişdi. Səməd Vurğun sovet poeziyasının ən böyük nümayəndələrindən biridir. O, Azərbaycanın xalq şairi kimi fəxri ada layiq görülmüş, bir neçə orden və medallarla təltif olunmuş, iki dəfə Dövlət mükafatı laureatı adını almış, SSRİ Ali Sovetinin deputatı olmuşdur. Səməd Vurğun yüzlərlə gözəl şeir, poema və dram əsərləri yazmışdır; «Vaqif», «Xanlar», «26-lar», «Zamanın bayraqdarı», «Muğan», «Azərbaycan» və s.

**Ümumiləşdirici dərs.**

1. **Ümumiləşdirici dərs**. Müəllim bölmə üzrə oxunmuş materialları ümumiləşdirir. Qabaqca yazda təbiətin əlamətlərinin necə olduğunu uşaqlardan soruşmaq olar.

Sinif qarşısında qoyulan suallar yazda hava ilə, ağacların görkəmi ilə, yer üzünün görünüşü ilə, sularla, quşlarla əlaqədar suallar vermək olar. Sonra isə yazda adamların həyatı ilə, geyimləri ilə, işləri ilə əlaqədar baş verən dəyişikliklər haqqında uşaqların məlumatlarını sistemə salmaq olar.

2. **Film nümayişi**. Təbiətə və adamların əməyinə həsr olunmuş tədris filmləri az deyildir. Bu cür filmlərin birindən ümumiləşdirmə dərslərində istifadə etmək lazımdır. Məsələn, «Qarğıdalı necə yetişir» adlı film aşağı sinif uşaqlarına aiddir. Film bir hissədən ibarətdir. Həmin filmi nümayiş etdirmək və yazda kənd təsərrüfatında görülən işlərin xarakterinə dair uşaqların təsəvvürlərini daha da konkretləşdirmək mümkündür.

## 11. «XALQIMIZIN AZADLIĞI UĞRUNDA MÜBARİZƏ» BÖLMƏSİ ÜZRƏ MATERİALLARIN PLANLAŞDIRILMASI VƏ TƏDRİSİ

| Dərslər | Mövzu | Müəllif | Saat |
|---|---|---|---|
| 125-ci | «Xanlar» | Ə.Quliyev | 1 s. |
| 126-cı | «Qatır Məmməd» | Ə.Quliyev | 1 s. |
| 127-ci | «26 Bakı komissarı» | Ə.Quliyev | 1 s. |
| 128-ci | «Ananın çırağı» | Ə.Məmmədxanlı | 1 s. |
| 129-cu | «Rabitə komissarı» | Q.İlkin | 1 s. |
| 130-cu | «Nəcəf» | X.Hasilova | 1 s. |
| 131-ci | «Nəriman Nərimanov» | M.Dilbazi | 1 s. |
| 132-ci | «Çalpapaq» | Q.İlkin | 1 s. |
| 133-cü | «Qoçaq qız» | E.Ağayev | 1 s. |
| 134-cü | Ümumiləşdirici dərs | | 1 s. |

Bölmənin əsas məqsədi hazırda Azərbaycan xalqının azad həyatı, firavan dolanacağının böyük qurbanlar hesabına, uzun mübarizə nəticəsində qazanıldığını uşaqlara başa salmaqdan ibarətdir. Bölmədə verilmiş materialların qiraəti gedişində şagirdlər hiss etməlidirlər ki, keçmişdə bizim ata-babalarımız çar hökumətinə qarşı barışmaz mübarizə aparmışlar; onların çoxu öldürülmüşdür. Lakin

xalqımızın ədalətli mübarizəsi nəticəsiz qalmamışdır; inqilab olmuş və ölkəmizdə Sovet hakimiyyəti qurulmuşdur. Buna görə də indi biz sosialist inqilabının ön sıralarında getmiş, öz həyatlarını gələcək xoşbəxtlik naminə qurban vermiş olan adamları unuda bilmərik; onlara daim minnətdarıq.

Bölmə üzrə bu məzmunda giriş söhbətindən sonra müəllim üzünü uşaqlara tutub deyə bilər:

-İndi gəlin həmin adamlardan bəziləri haqqında dərsliyimizdə olan materialları oxuyaq. Belə adamlardan biri Xanlar idi.

**«Xanlar».**

1. **Hekayənin ilk oxunuşu**. Materialın hər abzasını bir şagird oxuyur. Hekayədə isə səkkiz abzas vardır. Deməli, müəllimin göstərişi ilə səkkiz şagird hekayəni oxuyur.

2. **Hekayənin məzmunu üzərində iş**. Müəllimin təklifi ilə şagirdlər hekayəni yenidən hissə-hissə oxuyurlar. Lakin bu dəfə oxunmuş hər hissə üzrə dinləyənlərdən biri sinif qarşısında sual qoyur, başqası isə cavab verir. Beləliklə, ikinci dəfə hekayəni əlavə olaraq səkkiz uşaq oxuyur, səkkizi sual qoyur və başqa səkkizi həmin suallara cavab verir.

Lazım gəldikdə müəllim uşaqların suallarını dəqiqləşdirməlidir. Suallar təqribən belə qoyulmalıdır:

-Xanlar kəndi tərk edib nə üçün Bakıya getdi?

-Xanlar Bakıya necə gəldi?

-O harada işə girdi? Necə dolanırdı?

-Xanlar kimlərlə dostlaşdı?

-Xanları nə üçün vurub öldürdülər?

-Xanları kimlər və necə dəfn etdilər?

-Xanlar nə arzu edirdi? Onun arzuları nə vaxt yerinə yetirildi?

-Xanlar adına nələr var? Nə üçün xalqımız Xanları həmişə yad edir?

3. **Uşaqlarda sinif haqqında ilk anlayışın yaradılması**. Müəllim bilməlidir ki, «Xanlar» adlı mətndə çar hökuməti və burjuaziyaya qarşı fəhlə sinfinin mübarizəsi əks olunur. Belə bir ideyanın şagirdlər tərəfindən başa düşülməsi üçün

müəllim xüsusi iş aparmalıdır. Göstərilən ideya haqqında uşaqlarda təsəvvür yaratmaq üçün aşağıdakı suallardan istifadə etmək olar:

-Xanlar Bakıda harada işləyirdi?

-Mədənlərdə kimlər işləyirdi?

-Mədənlərdən başqa, fəhlələr daha harada işləyirdilər?

-Kimlərə fəhlə deyirdilər?

-Onlar çar hökumətinə və burjuaziyaya qarşı nə üçün mübarizə aparırdılar?

**«Qatır Məmməd».**

1. **Giriş söhbəti**. Giriş söhbəti kənddə zəhmetkeşlərin çar hökumətinə və mülkədarlara qarşı mübarizəsinə həsr edilir. Müəllim şəhərdə zəhmətkeşlərin, o cümlədən mədən fəhlələrinin, fabrik və zavod fəhlələrinin inqilabi mübarizəsinə dair şagirdlərin əvvəlki dərslərdən bildiklərini onlara xatırladır. Bundan sonra deyir ki, bu cür mübarizə Azərbaycanın kəndlərində də var idi. Kəndlərdə yoxsul kəndlilər böyük torpaq sahiblərinə qarşı vuruşurdular.

Söhbətin sonunda müəllim mətnin oxunuşunu təşkil edir.

2. **Mətnin oxunuşu**. Müəllim mətnin hissə-hissə oxunuşunu təşkil edir. Əvvəlki mətndə olduğu kimi, bu mətn üzrə də hər şagird bir abzas oxuyur, başqa şagird oxunmuş mətn üzrə sual qoyur, üçüncüsü isə suala cavab verir.

Qiraətin bu cür təşkili şagirdlərdən son dərəcə diqqətli olmağı tələb edir. Əvvələn, bütün şagirdlər oxunu izləməli, ürəkdə oxumalı olur. Çünki müəllimin təklifi ilə hər bir şagird oxunu davam etdirə bilər. İkincisi, oxunmuş hissənin mənasına bütün şagirdlər fikir verməli olur. Çünki müəllimin təklifi ilə hər bir şagird yoldaşının qoyduğu suala oxunmuş hissə üzrə cavab verməyə hazır olmalıdır.

Bu cavablar aşağıdakı suallarla əlaqədar ola bilər:

-Qatır Məmməd kim idi?

-Qatır Məmməd hansı məktəbdə oxumuşdu?

-Onu məktəbdən nə üçün xaric etmişdilər?

-Qatır Məmməd sürgündən necə qaçırdı və qayıdıb nə ilə məşğul olurdu?

-O kimlərə qarşı vuruşurdu? Onun məqsədi nə idi?

-Qatır Məmmədi nə üçün öldürdülər?

-Xalqımız nə üçün Qatır Məmmədi unutmur?

-Sizcə, Azərbaycanda Sovet hakimiyyətinin qurulmasında Qatır Məmmədin əməyi varmı?

**«26 Bakı komissarı».**

1. **Giriş söhbəti**. Söhbət fəhlələrin və kəndlilərin çar hökumətinə və burjuaziyaya qarşı apardıqları mübarizənin nəticələrinə həsr edilir. Müəllim deyir ki, Xanlar kimi, Qatır Məmməd kimi minlərlə fəhlə və kəndlilərin mübarizəsi nəticəsiz qalmadı. 1918-ci ildə onlar Azərbaycanda çar hökuməti və burjua hökumətini yıxıb, Sovet hökumətini qurdular. Lakin ölkədə vəziyyət çox qarışıq və dolaşıq idi. Rusiyada Sovet hakimiyyəti yenicə qurulmuşdu. O, həm xarici qəsbkarlara, həm də yerli ağalara qarşı vuruşmalı olmuşdu.

Belə bir şəraitdə düşmənlər fürsətdən istifadə etdilər. Bakıda təşkil olunmuş Sovet hakimiyyətinin başçılarını tutub, onları vəhşicəsinə öldürdülər.

Müəllim hadisəni təfsilatı ilə danışmır. O, uşaqlara bildirir ki, bu barədə dərslikdə material var, onu oxuyaq.

2. **Mətnin ilk oxunuşu**. Müəllim mətni beş hissəyə bölüb hər hissəni bir şagirdə oxudur. Mətnin hissələri: 1) birinci abzas; 2) «26 Bakı komissarı kimlərdir?» cümləsindən «Lakin bu zaman xarici düşmənlər Sovet Bakısını tutmağa can atırlar» cümləsinə qədər; 3) «Xalqımız onların qanını yerdə qoymadı» cümləsinə kimi; 4) «Xalqımız onları unutmur» cümləsinədək və 5) axıradək. Müəllim 26-ların portretlərini bir-bir şagirdlərə göstərir.

3. **Mətnin izahlı oxusu**. İlk oxuda iştirak etməmiş olan şagirdlər mətni hissə-hissə oxuyurlar.

4. **Lüğət üzərində iş**. Mənası çətin başa düşülən söz və ifadələri şagirdlər müəllimin göstərişi ilə izah edirlər:

**Komissar** – nazir; hökumət başçılarından biri.

**Burjua hakimiyyəti** – fabrik və zavod sahiblərinin, varlıların hakimiyyəti.

**Sovet hakimiyyəti** – fəhlələrin və zəhmətkeş kəndlilərin hakimiyyəti.

**Bolşeviklər** – Leninin tərəfdarları; fəhlələrin tərəfdarları.

**Xarici düşmənlər** – Sovet hakimiyyətini istəməyən İngiltərə, Amerika, Almaniya burjua hökumətləri.

**İmperialistlər** – başqasının əməyi hesabına varlanan adamdır; daha çox varlanmaq üçün müharibə etmək istəyənlər.

**Əksinqilabçılar** – inqilabın əleyhinə olanlar; Sovet hakimiyyətini istəməyənlər.

**İşğalçılar** – qəsbkarlar; başqasının torpağını və var-dövlətini zorla ələ keçirənlər.

**Əbədi məşəl**– həmişə yanan; həmişə işıq saçan.

Müəllim hər dəfə müvafiq ifadəni göstərir və onun mənasını izah etməyi şagirdlərdən tələb edir. Məsələn:

**Müəllim**. Fəhlə və kəndlilər bütün dünyada «ilk dəfə Sovet dövlətini yaratdılar» ifadəsini necə başa düşürsünüz?

**Şagird**. Yəni fəhlə və kəndlilər birinci dəfə, başqa ölkələrdən əvvəl bizim ölkədə Sosialist dövlətini qurdular.

5. **Mətnin üçüncü oxunuşu**. Mətnin hər hissəsini bir şagird oxuyur. Dinləyən şagirdlərdən biri oxunmuş hissə üzrə sual qoyur, digəri isə suala cavab verir.

6. **Mətnin nağıl edilməsi**. Vaxt qaldıqda bir-iki şagird mətni əvvəldən axıradək nağıl edir.

26-lara aid kinodan epizodlar nümayiş etdirmək də yerinə düşərdi.

**«26-lar».**

1. **Giriş söhbəti**. Söhbət zamanı müəllim şeiri əvvəlki materialla əlaqələndirir. O, «26 Bakı komissarı» adlı materialı uşaqlara xatırladır. Bu məqsədlə soruşur:

26-ları kimlər həbs etdi və onları harada güllələdilər?

Suala cavab alandan sonra müəllim deyir:

-Uşaqlar, 26-ların vəhşicəsinə güllələnmələrinə aid dərslikdə şeir var, gəlin şeiri oxuyaq.

2. **Şeirin ilk oxunuşu**. Müəllimin təklifi ilə uşaqlar şeiri ilk dəfə ürəklərində oxuyurlar. Oxu zamanı aydın başa

düşmədikləri sözləri yazıb götürürlər. Dərslikdə verilmiş lüğət kifayət qədər material verməyən hallarda müəllim şagirdlərin köməyinə gəlir.

3. **Şeirin ikinci oxunuşu**. Bu dəfə şeirin hər hissəsini bir şagird ifadə ilə oxuyur. Şeir altı hissədən ibarətdir. Deməli, onu altı şagird oxuyur.

4. **Şeirin məzmunu üzərində iş**. Şeirin hissələri arasındakı məntiqi əlaqəni uşaqların daha yaxşı hiss etmələri üçün aşağıdakı suallar ətrafında söhbət keçirmək lazımdır:

-26-ları aparan qatarın Ağcaqum çölləri ilə getdiyi şeirin hansı hissələrində verilmişdir? Bunu nədən bilmək olur? (Birinci və ikinci hissədə).

-Şeirin hansı hissəsindən bilmək olur ki, qatar dayanır və 26-ları qatardan salıb silah qabağında aparırlar? (Üçüncü hissədə).

-26-ların öldürüldüyünü şeirin hansı hissəsindən bilmək olur? (Dördüncü hissədə).

-Şeirin dördüncü hissəsində hansı söz və ifadələrdən bilmək olur ki, 26-lar güllələnmişdir.

-Şeirin beşinci hissəsi hansı fikri ifadə edir?

-Şeirin son hissəsində nə kimi fikir verilmişdir?

-26-larla, Bakı fəhlələri ilə Peterburq fəhlələri arasında həmrəylik (dostluq) olduğunu şeirdə nədən bilmək olur?

-Bəs, 26-ların başqa ölkə fəhlələri ilə həmrəy (dost) olduğunu şeirdə hansı ifadələrdən bilmək olur?

**«Ananın çırağı».**

1. **Giriş söhbəti**. Müəllim qısaca olaraq deyir ki, 26 Bakı komissarı həbs edildikdən, yəni Azərbaycanda Sovet hakimiyyəti müvəqqəti yıxıldıqdan sonra xalqa düşmən olan müsavat hökuməti quruldu. Buna baxmayaraq, 26-ların tərəfdarları olan fəhlələr mübarizəni davam etdirdilər və yenidən Sovet hakimiyyətini həmişəlik qurdular.

2. **Hekayənin ürəkdə oxunuşu**. Müəllimin təklifi ilə bütün sinif hekayəni axıradək öz-özünə astadan oxuyur. Oxu zamanı şagirdlər müəllimin göstərişinə əsasən Fərhadın sözlərinə, ananın sözlərinə və ara sözlərə diqqət yetirirlər.

İlk oxunun bu cür təşkilində məqsəd şagirdləri növbəti oxuya hazırlamaqdan ibarətdir.

3. **Rollarla oxu**. Hekayə dərslikdə iki hissəyə ayrılmışdır. Birinci hissəni üç şagird oxuduqdan sonra başqa üç şagird ikinci hissənin qiraətini davam etdirir. Hər dəfə Fərhadın sözlərini bir şagird, ananın sözlərini başqa şagird, ara sözləri isə üçüncü şagird oxuyur.

4. **Hekayənin ideyası üzərində iş**. Hekayənin ideyasını şagirdlərə daha yaxşı başa salmaq məqsədi ilə aparılan söhbət zamanı aşağıdakı suallardan da istifadə etmək olar.

-Fərhad yoldaşları ilə evdə söhbət edərkən nə üçün çırağı söndürürdülər?

-Küləkli, yağışlı gecədə Fərhad anası ilə görüşəndə çırağı nə üçün keçirtdilər?

-İkinci dəfə evə qayıdanda Fərhad nə üçün çırağı keçirməyə qoymadı?

-Fərhad çırağın sönməsini nəyə, yanmasını nəyə oxşadır?

-Hekayəyə nə üçün «Ananın çırağı» adı verilmişdir?

5. **Kino nümayişi**. İmkan olarsa, dərsdən sonra «Çıraq» adlı kinoya baxış təşkil etmək məsləhətdir.

**«Rabitə komissarı».**

1. **Giriş söhbəti**. Söhbət müsavat hökumətinə qarşı Sovet hakimiyyəti uğrunda, 26-ların işi uğrunda mübarizədə uşaqların iştirakına həsr olunur. Müəllim deyir ki, 26-lar güllələndikdən sonra onların başlamış olduqları mübarizə yarımçıq qalmadı. 26-ların ardıcılları həmin mübarizəni davam etdirdilər. Bu işdə bir çox uşaqlar da böyüklərə kömək edirdilər. Uşaqların inqilabçılara köməyinə dair dərslikdə hekayə var. Onu oxuyaq.

2. **Hekayənin oxunuşu**. Mətni dörd hissəyə bölmək olar: «Əli Bayramovun dediyi sözlər Ağarəhimi gecələr düşündürərdi» cümləsinə qədər; «Əli Bayramov sarsıldı, lakin dinmədi» cümləsinə kimi; «Səsi zəif çıxırdı» cümləsinədək və nəhayət, sona kimi.

Hər hissəni bir şagird oxuyur.

3. **Hekayənin ikinci oxunuşu və hissə-hissə danışılması**. Müəllim hekayənin ikinci dəfə oxunuşunu təşkil edir. Hekayə başqa bir şagirdlər tərəfindən hissə-hissə oxunur. Hər hissə oxunduqdan sonra qulaq asan şagirdlərdən biri müəllimin göstərişi ilə oxunmuş hissənin məzmununu nağıl edir. Unudulmuş yerləri başqa şagirdlər əlavə edirlər.

Oxunun bu cür təşkili uşaqlara materialı hissə-hissə oxuyub danışmaq vərdişi aşılayır.

4. **Hekayənin nağıl edilməsi**. Vaxt qalarsa, dərsdə hekayəni bütövlükdə bir-iki şagirdin danışması da vacibdir. Bu, ayrılıqda oxunmuş və danışılmış hissələri əlaqələndirməyə və rabitəli nitqin inkişafına kömək edər.

**«Nəcəf».**

1. **Giriş söhbəti**. Söhbət Azərbaycanda Sovet hakimiyyətinin həmişəlik qurulmasına və bu işə rus xalqının köməyinə həsr edilir. Müəllim deyir ki, Azərbaycan inqilabçılarına Sovet Rusiyası köməklik göstərirdi. Bu yardım formalarından biri də On birinci ordunun Bakıya göndərilməsi idi. On birinci ordunun Bakıda olmasına dair dərslikdəki hekayəni oxuyaq. Qiraətdən əvvəl müəllim On birinci ordunun Bakı küçəsi ilə yeridiyini əks edən tablonu uşaqlara göstərir.

2. **Hekayənin ilk oxunuşu.** Hekayəni beş hissəyə bölmək olar: Birinci abzas, yəni «Əsgərlər dincəlmək üçün şəhər bağında dayandılar» cümləsinə kimi; «Qaş-gözü qara olduğu üçün qızıl əsgərlər Nəcəfə «Qaraçı» dedilər» cümləsinə qədər; «1943-cü ilin yayı idi» cümləsinə qədər; «Başlayın, –dedi» ifadəsinəcən və nəhayət, sona qədər.

Hər hissəni bir şagird oxuyur.

3. **Hekayənin ikinci oxunuşu**. Müəllimin göstərişi ilə uşaqlar hekayəni hissə-hissə ikinci dəfə oxuyurlar. Bu dəfə ilk qiraətdə iştirak etməmiş uşaqlardan oxuya cəlb edilir; hər hissə oxunduqdan sonra başqa bir şagird həmin hissənin məzmununa uyğun gələn sual qoyur, digəri isə suala cavab verir. Beləliklə, ilk oxuda beş şagird iştirak edir;

şagirdlərdən başqa beş nəfəri hekayəni ikinci dəfə oxuyur, beş nəfəri sual verir, beşi isə cavab.

Oxu zamanı uşaqlar bu cür suallar verə bilərlər:

-On birinci ordu Bakıya nə məqsədlə gəlmişdi? Əsgərlərin küçədə rast gəldikləri kim idi?

-Onlar uşaqla necə rəftar etdilər?

-Qızıl əsgərlər Nəcəfi yetimxanaya nə üçün vermədilər?

-1943-cü ildə faşistlərlə vuruşma zamanı generalla polkovnik arasında nə söhbət gedirdi?

-General və polkovnik kim imiş?

4. **Hekayənin nağıl edilməsi**. Dərsin sonuna yaxın bir-iki şagird hekayəni axıradək nağıl edir.

**«Nəriman Nərimanov haqqında xatirələr».**

1. **Giriş söhbəti**. Söhbət Azərbaycanda Sovet hakimiyyəti uğrunda mübarizə aparan adamlara, Sovet hakimiyyətinin ilk illərində görülən tədbirlərə həsr edilir. Axırda müəllim deyir ki, Sovet hakimiyyəti uğrunda, Azərbaycan xalqının səadəti uğrunda mübarizə aparmış ən görkəmli adamlardan biri də Nəriman Nərimanovdur. Gəlin onun haqqında yazılmış bir hekayə oxuyaq.

2. **Hekayənin ilk oxunuşu**. Mətni yeddi hissəyə bölmək olar: 1) birinci abzas; 2) ikinci abzas; 3) üçüncü və dördüncü abzaslar; 4) beşinci abzas; 5) altıncı abzas; 6) yeddinci abzas və 7) axıradək.

3. **Hekayənin ikinci oxunuşu**. Bu dəfə hekayənin hər hissəsini bir şagird oxuyur. Lakin müəllim əvvəlcədən xəbərdarlıq edir ki, yoldaşı oxuyarkən qalan hamı diqqətlə qulaq asmalıdır. Çünki oxunmuş hər hissə üzrə bir şagird sual verəcək, digəri isə cavab. Beləliklə, hekayənin ikinci oxunuşunda azı iyirmi bir şagird iştirak edir.

4. **Hekayə üzrə plan tərtibi**. İkinci oxu hekayənin hissələri üzrə şagirdlərin verdiyi sualları lazım gəldikdə müəllim dəqiqləşdirir və hər dəfə yazı taxtasında yazdırır. Nəticədə aşağıdakı suallar alına bilər:

1. Xalq Nəriman Nərimanova nə üçün doktor deyirdi?

2. Doktor Nəriman Nərimanovun həm də yazıçı olduğunu nədən bilmək olur?

3. Çar hökuməti Nərimanovu nə üçün həbs edirdi?

4. Hökumət başçılarından biri kimi Nəriman Nərimanov hansı işləri görürdü?

5. Məktəblərin açılmasında Nərimanovun xidmətləri nədən ibarətdir?

6. Nərimanov məktəblərə nə üçün gəlirdi?

7. Nərimanovun ölümünü Azərbaycan xalqı necə qarşıladı?

Sonra müəllim həmin sualları uşaqlara planın bəndləri kimi ifadə etdirir:

Doktor Nəriman Nərimanov.

Nəriman Nərimanov bir yazıçı kimi.

Nəriman Nərimanov inqilabçı kimi.

Nəriman Nərimanov Azərbaycanda Sovet hökumətinin başçılarından biri kimi.

Xalqın balalarının savadlanması sahəsində Nəriman Nərimanovun gördüyü işlər.

Nərimanov bir maarif xadimi, müəllim kimi.

Nərimanovun ölümü, xalqın ona münasibəti.

5. **Plan üzrə hekayənin nağıl edilməsi**. Bir neçə şagird hekayəni kollektiv şəkildə tərtib olunmuş plan üzrə danışır. Uşaqlar evdə də həmin plan üzrə hekayəni nağıl edirlər.

6. **Kino nümayişi**. Müəllim münasib bir vaxtda uşaqları «Ulduzlar sönmür» adlı kinoya aparır. Mümkün olsa kino lenti məktəbə gətirilir, məktəbdə nümayiş etdirilir.

**«Çalpapaq».**

1. **Giriş söhbəti**. Müəllim qısaca məlumat verir ki, V.İ.Lenin Azərbaycanda Sovet hakimiyyətinin qurulmasına kömək etdiyi kimi, fabrik və zavodların tikilməsinə, mədənlərin inkişaf etdirilməsinə, mədəniyyətin qol-qanad açmasına da kömək edirdi. Çətinə düşəndə adamlar Leninə müraciət edirdilər. İndi, gəlin bu barədə bir hekayə oxuyaq.

2. **Hekayənin ilk oxunuşu**. Mətni on dörd hissəyə ayırmaq mümkündür: 1) birinci abzas; 2) həmin abzasdan sonra «Maşın Qorkidən sütunlu ağ evin taxta hasarı yanında

durdu» cümləsinə qədər; 3) «Günəş günorta yerinə qalxmışdı» cümləsinə kimi; 4) «Hələ də gözləyirsiniz?» cümləsinədək; 5) «Maşın gurultu ilə uzaqlaşdı» cümləsinə kimi; 6) «-Cavan oğlan...» ifadəsinə qədər; 7) «Məsələ ondadır ki...» ifadəsinədək; 8) «-Demək, onlara söz vermişsiniz?» cümləsinə qədər; 9) «Onlar binanın arxa tərəfindən içəri keçdilər» cümləsinə kimi; 10) «Vladimir İliç!» ifadəsinədək; 11) «Qapı taqqıldadı və zəif bir qadın səsi eşidildi» cümləsinə kimi; 12) «Volodya, bu nədir?» cümləsinə qədər; 13) «Eh, Volodya, Volodya...» ifadəsinə kimi və nəhayət, axıradək.

Hər hissəni bir şagird oxuyur.

3. **Mətnin məzmunu üzərində iş**. Hekayə yenidən oxunur. Bu dəfə də hər hissəni bir şagird oxuyur. Qulaq asan şagirdlərdən birisi oxunmuş hissə üzrə sual qoyur, digəri cavab verir. Lazım gəldikdə müəllim sualı dəqiqləşdirir.

Suallara uyğun olaraq plan tutulur. Plan lövhədə yazılır. Uşaqlar evdə də hekayəni nağıl etməyə həmin plan üzrə hazırlaşırlar.

4. **Kino nümayişi**. Dərsdənkənar vaxtlarda Leninlə əlaqədar olan bir filmə məktəbdə baxış təşkil edilir.

## 12. «YENİ HƏYAT QURANLAR» BÖLMƏSİ ÜZRƏ MATERİALLARIN PLANLAŞDIRILMASI VƏ TƏDRİSİ

| Dərslər | Mövzu | Müəllif | Saat |
|---|---|---|---|
| 135-ci | «İməcilik» | A.Kononov | 1 s. |
| 136-cı | «Kommunist əməyi briqadası» | Ə.Quliyev | 1 s. |
| 137-ci | «Usta Pirməmməd» | Y.Əzimzadə | 1 s. |
| 138-ci | «Sirli çeşmə» | M.Seyidzadə | 1 s. |
| 139-cu | «Şamama Həsənova» | Ə.Quliyev | 1 s. |
| 140-cı | «Pambıq ustası Qüdrət Səmədov» | S.Rəhman | 1 s. |
| 141-ci | «Mərtəbələr» | Y.Əzimzadə | 1 s. |
| 142-ci | Ümumiləşdirici dərs | | 1 s. |
| 143-cü | Sinifdənxaric qiraətin yekunlaşdırılması | | 1 s. |
| 144-cü | «Doğma Azərbaycan» mövzusunda şifahi inşa | | 1 s. |

Söhbət inqilabdan və vətəndaş müharibəsindən sonra bərpa işlərinə, dinc quruculuq işlərinə həsr edilir. Müəllimin ümumi fikri bundan ibarət olur ki, xalq inqilab və vətəndaş müharibəsi nəticəsində dağılmış təsərrüfatın bərpasına başlayır. Adamlar hətta bayram və istirahət günlərində də həyətləri, küçələri, fabrikləri, zavodları sahmana salırdılar. Bu işdə hökumət rəhbərləri də iştirak edirdi.

Qısa giriş söhbətindən sonra müəllim hekayənin oxunuşunu təşkil edir.

**«İməcilik»**

1. **Hekayənin ilk qiraəti**. Hekayəni doqquz hissəyə ayırmaq olar: 1) «Bu zaman böyük bir iş başladı» ifadəsinə kimi; 2) «1920-ci il 1 May günü...» ifadəsinədək; 3) «Hərbi nizamla işə getmək üçün...» ifadəsinə qədər; 4) «Hamı musiqinin sədası altında...» ifadəsinəcən; 5) «Lenin bir hərbi qulluqçu ilə işləyirdi» cümləsinə kimi; 6) «Meydandakı şalbanların hamısını daşıdılar» cümləsinə qədər; 7) «Nəhayət, hamı yoruldu...» ifadəsinədək; 8) «Dincəldikdən sonra xərəklərdə daş və zir-zibil daşımağa başladılar» cümləsinə qədər və 9) sona qədər.

Hər hissəni bir şagird oxuyur.

2. **Hekayənin ikinci oxunuşu**. Müəllimin göstərişi ilə bu dəfə də hekayənin hər hissəsini bir şagird oxuyur. Oxuya qulaq asan şagirdlərdən biri həmin hissə üzrə sual qoyur, digəri cavab verir. Beləliklə, ikinci oxuda iyirmi yeddi şagird iştirak edə bilir.

Lazım gəldikdə müəllim şagirdlərin suallarını daha da dəqiqləşdirir.

3. **Hekayə üzrə müsahibə.** Fikirlər üzərində kollektiv iş nəticəsində təqribən aşağıdakı suallar verilir:

-1920-ci illərdə Rusiyada hansı işləri görmək lazım idi?

-İməciliklər zamanı adamlar nə işlə məşğul olurdular?

-1920-ci il 1 May günündə Moskvada adamlar nə edirdilər?

-Kremlin işçiləri nə üçün qızıl meydana çıxmışdılar?

-Kreml meydanında onlar nə ilə məşğul olurdular?

-Lenin işlədiyi hərbi qulluqçu ilə nə barədə danışırdı?
-Tir daşıyarkən Leninə nə deyirdilər?
-Dincələn zaman Lenin nə haqda söhbət edirdi?
-Lenin iməcilikdən hara getdi?

4. **Hekayənin müasir həyatla əlaqələndirilməsi**. Hekayə üzrə söhbəti müasir həyatla əlaqələndirmək lazımdır. Müəllim indi bütün idarələrdə, təşkilatlarda, fabrik və zavodlarda keçirilən iməcilikdən danışır, bu barədə uşaqların məlumatlarına əsaslanır.

Məktəbdə özünəxidmət işlərindən, məktəbin təmiz saxlanmasından, məktəb həyətinin daş-kəsəkdən təmizlənməsindən və s. işlərdə uşaqların iştirakından söz açır.

5. **Yazıçı haqqında**. Vaxt qalarsa və müəllim münasib bilərsə yazıçı haqqında uşaqlara qısa məlumat verə bilər. Aleksandr Terentyeviç Kononov 1895-ci ildə anadan olmuş və 1927-ci ildə vəfat etmişdir. Kononov bir çox romanların, povestlərin, hekayələrin müəllifidir. O, uşaqlar üçün də xeyli povest yazmışdır. «Çapayev haqqında hekayələr», «Sergey Qluşkovun günləri» və s.

**«Kommunist əməyi briqadası».**

1. **Giriş müsahibəsi**. Söhbət «İməcilik» mövzusu ilə əlaqələndirilir. Müəllim deyir ki, Sovet hakimiyyətinin ilk illərində yaranmış əmək fəallığı, qurub-yaratmaq həvəsi sonralar adamlarımızda daha da artmağa başlamışdır. Ayrı-ayrı sovet adamları, hətta bütöv kollektivlər də kommunistcəsinə işləməyə başlamışdılar.

Adamlarımızın əmək coşğunluğunu göstərən, kommunistcəsinə işlədiklərini ifadə edən yazılar çoxdur. Bunlardan birini oxuyaq.

2. **Mətnin oxunuşu**. Müəllimin tapşırığı ilə şagirdlər mətni ürəklərində oxuyurdular. Bu oxu iki məqsəd güdür: 1) şagirdlər mətnlə tanış olurlar; 2) müəllimin göstərişi ilə onlar özlərinə aydın olmayan sözləri dəftərlərinə qeyd edirlər.

3. **Söz və ifadələr üzərində iş**. Müəllim lazım bildiyi şagirdi qarşıya çağırır və qeydə aldığı çətin sözləri yazı

taxtasına yazmağı ona tapşırır. Sonra müəllim üzünü sinfə tutub deyir:

-Yazılmış sözlərə kimin əlavəsi var? Daha hansı sözlərin mənasını yaxşı başa düşmürsünüz?

Başqa şagirdlər də çətin hesab etdikləri sözləri yazı taxtasına yazırlar. Müəllim mətnin xeyli mücərrəd olduğunu nəzərə alaraq, çətin hesab etdiyi başqa sözləri də oraya əlavə edir, onların da mənasını uşaqlardan soruşur. Nəticədə təqribən aşağıdakı sözlər də qeyd edilə bilər: *kapitalist, istismar, əmək, kommunist əməyi, istehsalat, əmək intizamı, yarış, məhsul, fərasət, əmək məhsuldarlığı, müqəddəs.*

**Kapitalist** – fabriki, zavodu, bankı, torpaq sahəsi, çoxlu pulu olan adam.

**İstismar** – başqasını çox işlədib müqabilində az pul vermə.

**Əmək** – işləmək; zəhmət; qurub yaratma.

**Kommunist əməyi** – kommunistcəsinə işləmək; şüurlu işləmək; çoxlu məhsul götürmək.

**İstehsalat** – fabrik, zavod; adamların işlədiyi yer.

**Əmək intizamı** – işə vaxtında gəlib, vaxtında getmək, iş zamanı vaxtı boş keçirməmək.

**Yarış** – sözü bir yerə qoyub kimin daha yaxşı işlədiyini müəyyən etmək.

**Məhsul** – əmək, zəhmət, iş nəticəsində yığılan pambıq, taxıl; toxunan parça və s.

**Fərasət** – qabiliyyət, düşüncə, səriştə.

**Əmək məhsuldarlığı** – əmək nəticəsində alınan məhsulun azlığı, yaxud çoxluğu.

**Müqəddəs** – toxunulmaz, dəyişilməz.

3. **Mətnin izahlı qiraəti**. Müəllimin göstərişi ilə şagirdlər mətni hissə-hissə oxuyur və ayrı-ayrı cümlələri necə başa düşdüklərini izah edirlər. Bu, müəllimə imkan verir ki, hər bir sözün, hər bir cümlənin ayrı-ayrı şagirdlər tərəfindən necə başa düşüldüyünə nəzarət etsin. Müəllim, məsələn, mətnin ilk cümlələri ilə əlaqədar olaraq soruşur:

-«İnsanların həyatı və inkişafı üçün nə varsa, hamısı əməklə yaranır» nə deməkdir? Kim bu fikri öz sözləri ilə danışar?

4. **Mətnin ideyası üzərində iş**. Mətnin əsas ideyası kommunist əməyinin mahiyyətini açmaqdan ibarətdir. Buna görə də müəllim bu ideyanın şagirdlər tərəfindən başa düşülməsinə çalışmalıdır. O, xüsusən kommunist əməyi briqadalarının şüarlarının aydınlaşdırılması üzərində iş aparmalıdır. Şüarlar isə mətnin sonunda verilmişdir.

5. **Mövzunun həyatla əlaqələndirilməsi**. Müəllim dərsin sonunda materialı həyatla, istehsalatla əlaqələndirməlidir. Bu məqsədlə sinifdəki şagirdlərin təsəvvür və məlumatlarına əsaslanmaq vacibdir. Müəllim deyə bilər:

-Uşaqlar, şəhərimizdə (rayonumuzda) hansı kommunist əməyi briqadalarını tanıyırsınız?

Müvafiq cavab ala bilməsə, müəllim şəhərdəki (rayondakı) kommunist əməyi briqadalarının təcrübəsindən danışa bilər.

**«Usta Pirməmməd».**

1. **Giriş müsahibəsi.** Söhbət zamanı müəllim şagirdlərin diqqətini müasir sovet adamlarının fədakar əməyinə cəlb edir. Mətnin məzmunu haqda məlumat vermir. Axırda müəllim deyir ki, qabaqcıl adamlarımızdan biri də usta Pirməmməddir. Gəlin bu barədə dərslikdəki hekayəni oxuyaq.

2. **Hekayənin ilk oxunuşu**. Mətni doqquz hissəyə ayırmaq mümkündür: 1) Birinci abzas; 2) İkinci abzas; 3) «O günü axşamacan mədəndə olduq» ifadəsinə qədər; 4) «Mən usta Babanın özünü də daha yaxşı tanıdım» cümləsinə kimi; 5) «Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra vəziyyət tamamilə dəyişdi» cümləsinədək; 6) «Böyük Vətən müharibəsi illərində…» ifadəsinə kimi; 7) «Müharibə qurtarandan sonra…» ifadəsinə qədər; 8) «O günlərdən çox keçir» cümləsinəcən; 9) Axıradək.

Hər hissəni bir şagird oxuyur.

3. **Mətnin ikinci oxunuşu**. Bu dəfə də hekayənin bir hissəsini bir şagird oxuyur, digəri oxunmuş hissə üzrə sinif qarşısında sual qoyur, başqa biri isə həmin suala cavab verir. Beləliklə, hekayənin ikinci oxunuşunda 27 şagird iştirak edir.

Bu metodik işi hekayənin hissələrindən biri üzərində konkretləşdirək. Mətnin ilk hissəsini götürək. Müəllimin göstərişi ilə şagirdlərdən biri həmin hissəsini oxuyur. Başqa şagird həmin hissə üzrə sual qoyur. Sual dəqiq olmazsa, müəllim onu dəqiqləşdirir. Sual təqribən belə olur:

Bakının şöhrətini artıran nələrdir?

Başqa bir şagird həmin suala təqribən bu cür cavab verir:

-Bakını bütün dünyada məşhurlaşdıran onun fabrik və zavodlarıdır, nefti və neft ustalarıdır, əməksevər adamlarıdır; Piri Quliyev, Gülbala Əliyev, Piri Nuriyev, Ağa Nemətulla, Kaveroçkin kimi yüzlərlə qəhrəmanlardır.

4. **Hekayənin həyatla əlaqələndirilməsi**. Dərsin sonunda müəllim hekayənin məzmunu ilə əlaqədar olaraq sinif qarşısında bir sıra sual qoyur. Suallardan əsas məqsəd şəhərin (rayonun) sənayesində işləyən qabaqcıl adamlar haqqında uşaqların məlumatlarını genişləndirməkdir.

**«Şamama Həsənova».**

1. **Giriş söhbəti**. Söhbət kənd təsərrüfatına həsr edilir. Müəllim söhbət zamanı kənd zəhmətkeşlərinin, sovxoz işçilərinin, kolxozçuların igidliklərindən danışır; kənd təsərrüfatı məhsullarının: taxılın, pambığın, heyvanların, çayın, tütünün, baramanın, üzümün, pomidorun əhəmiyyətindən söhbət açır. Söhbətin axırında uşaqların diqqətini dərslikdəki «Şamama Həsənova» hekayəsinə cəlb edir və bunun oxunuşuna keçir.

2. **Hekayənin ilk oxunuşu**. Hekayənin hər abzasında bir bitmiş fikir ifadə olunmuşdur. Buna görə də hər hissəni bir şagirdin oxuması məsləhət görülür.

3. **Hekayənin ikinci oxunuşu**. Bu dəfə də hər hissəni bir şagird oxuyur. Oxunmuş hissənin məzmununu başqa şagird danışır.

4. **Hekayənin yerli şəraitlə əlaqələndirilməsi**. Müəllim materialı şəhər (kənd) həyatı ilə əlaqələndirir; kənddə, qəsəbədə, kolxoz və ya sovxozda çalışan istehsalat qabaqcıllarından kimi tanıdıqlarını uşaqlardan soruşur. Şagirdlər konkret faktlar gətirməkdə çətinlik çəksələr, müəllim onların köməyinə gəlir; rayonun kənd təsərrüfat qabaqcılları haqqında söhbət edir.

**«Pambıq ustası Qüdrət Səmədov».**

1. **Giriş söhbəti**. Söhbət zamanı uşaqların diqqəti kənd təsərrüfatında qadınlarla kişilərin çiyin-çiyinə çalışmalarına cəlb edilir. Məktəbi əhatə edən müəssisələrdə çalışan qabaqcıl qadınların və kişilərin qəhrəmanlıqlarından bir neçə nümunə gətirmək lazımdır. Söhbətin sonunda demək olar ki, bu cür kolxoz qəhrəmanlarından biri də Qüdrət Səmədovdur. Gəlin onun haqqında yazılmış hekayəni oxuyaq.

2. **Hekayənin ilk oxunuşu**. Hekayəni altı hissəyə ayırmaq olar: 1) «Bu necə işdir?» cümləsinə kimi; 2) «Qüdrət gəlib çıxmadı» cümləsinə qədər; 3) «Qüdrətin dalınca araba getdi» cümləsinədək; 4) «Sabahı günü Qüdrət səhər lap tezdən qalxdı» cümləsinəcən; 5) «Bu xəbər tezliklə hər yerə yayıldı» cümləsinə kimi; 6) axıradək.

Bu hissələrin hərəsini bir şagird oxuyur.

3. **Ayrı-ayrı sözlər üzərində iş**. Hekayənin ilk oxunuşuna başlamazdan əvvəl müəllim uşaqlara deyir ki, dərslikdə çətin hesab etdikləri sözlərin altında işarə qoysunlar. İlk qiraət qurtardıqdan sonra müəllim sinif qarşısında sual qoyur:

-Çətin hesab etdiyiniz sözləri kim oxuyar?

Uşaqlar bu cür sözləri oxuyur və sinifdə izah edirlər. Nəticədə aşağıdakı sözlər izah oluna bilər: *Sarvan kolxozçuları, təntənə, xaral, hünər* və s.

**Sarvan kolxozçuları** – Sarvan kəndinin kolxozçuları.

**Təntənə** – bir hadisəni kollektiv şəkildə qeyd etmək; demək, gülmək; gülər üzlə qarşılamaq.

**Xaral** – pambıq yığılan lap iri kisə.

**Hünər** – qoçaqlıq, qəhrəmanlıq, igidlik.

4. **Bəzi ifadələr üzərində iş**. Müəllim nisbətən çətin hesab etdiyi ifadələrin mənasını uşaqların necə başa düşdüyünü yoxlayır. O, təqribən aşağıdakı formada söhbət keçirir:

Müəllim, «Sovxoz direktoru» və «kolxoz sədri» ifadələrini kim izah edər?

**Şagird**. -Sovxoz direktoru – sovxozun başçısı, kolxoz sədri isə kolxozun başçısı deməkdir.

**Başqa şagird**. -Kolxozun sədrini iclasda kolxozçular seçirlər, sovxozun direktorunu isə iclasda seçmirlər, onu hökumət təyin edir.

**Müəllim**. -Kolxoz və sovxoz arasında nə kimi fərq vardır?

**Şagird**. -Kolxoz kollektiv təsərrüfat, sovxoz isə sovet təsərrüfatı deməkdir.

**Üçüncü şagird**. -Kolxozun məhsulunu kolxozçular əmək gününə əsasən öz aralarında bölüşdürürlər. Sovxozda isə işçilər əmək haqqı alırlar.

**Müəllim**. -«Əli elə işləyirdi ki, elə bil maşındır» ifadəsini necə başa düşürsünüz?

**Şagird**. -Yəni Qüdrətin əli çox tez-tez işləyirdi, yorulmaq bilmirdi.

6. **Mətnin ikinci oxunuşu**. Hekayədəki çətin söz və ifadələrin mənasını uşaqlardan soruşandan və onların təsəvvürlərini dəqiqləşdirəndən sonra müəllim hekayənin ikinci oxunuşunu təşkil edir. Bu dəfə də hər hissəni bir şagird oxuyur. Qulaq asanlardan biri oxunmuş hissə üzrə sinif qarşısında sual qoyur, digəri ona cavab verir. Beləliklə, mətnin axırınadək ikinci oxunuşda azı on səkkiz şagird iştirak edə bilir.

7. **Hekayənin planı üzərində iş**. Mətnin ikinci oxunuşu zamanı şagirdlərin verdikləri sualları lazım gəldikdə müəllim dəqiqləşdirir və yazı taxtasında yazılışını təmin edir. Sualların yazılışından məqsəd həm də plan tərtibində ona istinad etməkdir. İkinci oxunuş zamanı qoyulmuş altı sual planın tərkib hissələrinə çevrilir. Deməli, plan altı bənddən ibarət olur.

8. **Yazıçı haqqında**. Dərsdə vaxt qalarsa, yazıçı haqqında qısa məlumat vermək faydalı olar. Sabit Rəhman 1910-cu ildə anadan olmuş və 1970-ci ildə vəfat etmişdir. O, bir çox

satirik əsərlərin, romanların, pyeslərin, komediyaların müəllifidir: «Son faciə», «Toy», «Xoşbəxtlər», «Aşnalar» və s.

**«Mərtəbələr».**

1. **Giriş söhbəti**. Müəllim şagirdlərə böyük tikintilər, fabriklər, zavodlar, yaşayış binaları haqqında söhbət edir; bütün bunların xalqa məxsus olduğunu göstərir. Sonra söhbəti dərslikdəki hekayəyə gətirir, onun adını çəkir və oxunuşunu təşkil edir.

2. **Hekayənin ilk oxunuşu**. Hekayəni altı hissəyə ayırmaq olar: 1) ilk iki abzas; 2) üçüncü və dördüncü abzaslar; 3) beşinci abzas; 4) altıncı və yeddinci abzaslar; 5) səkkizinci abzas və 6) doqquzuncu abzas.

Hekayənin hər hissəsini bir şagird oxuyur. İlk oxudan əsas məqsəd hekayə ilə ümumi tanışlıqdır.

3. **İkinci oxu**. Bu dəfə oxunun əsas məqsədi çətin sözlərin və ifadələrin mənasını şagirdlərin qüvvəsi ilə izah etməkdir. Bu məqsədlə müəllim yenə hekayənin hər hissəsini bir şagirdə oxudur. Lakin uşaqlara tapşırır ki, çətin söz və ifadələri qeyd etsinlər. Nəticədə bu cür sözlər müəyyənləşdirilir: *memar, layihə, məxsus, bənna, dülgər, qaldırıcı kran, inşaatçılar*.

4. **Lüğət üzərində iş**. Söz və ifadələri şagirdlər izah edirlər. Lazım gəldikdə müəllim şagirdlərin fikirlərini dəqiqləşdirir. Nəticədə həmin sözlər təqribən aşağıdakı kimi izah olunur:

**Memar** – binaların, körpülərin əvvəlcə şəklini çəkib hazırlayan, sonra isə onun tikilişini təşkil edən adam.

**Layihə** – hər hansı binanı, abidəni, körpünü tikməmişdən əvvəl onun çəkilmiş şəkli (hər bina əvvəl tərtib olunmuş layihə əsasında tikilir).

**Məxsus** – aid (sinif otağı bizə məxsusdur; sinif otağı bizə aiddir, bizimdir).

**Bənna** – tikinti işində daş işi ilə məşğul olan, evin divarlarını tikən usta.

**Dülgər** – evin qapı və pəncərəsini, döşəməsini düzəldən usta.

**İnşaatçılar** – bina tikintisində iştirak edən bütün ustalar (inşaatçı – tikən, düzəldən, yaradan deməkdir. İnşa yazı ifadəsi də inşaat sözü ilə qohumdur. İnşa yazı, yəni yaradıcı yazı deməkdir).

**Qaldırıcı kran** – ağır yükü bir yerdən qaldırıb başqa yerə qoyan mexanizm-maşın.

5. **Hekayənin məzmunu və ideyası üzərində iş**. Mətnin əsas ideyası indi yaşayış binalarının sürətlə tikilməsini və kollektiv əməyin mənasını uşaqlara anlatmaqdan ibarətdir. Bu məqsədlə müəllim xüsusi sual-cavab təşkil edir. Aşağıdakı suallardan da istifadə etmək məsləhətdir:

-Memarın otağında gecələr işıq nə üçün sönmür?

-Binanın tikilişində kimlər iştirak edir?

-Tikilən binanın hər gün ucaldığını Camal nədən bilirdi?

-Memarla qoca bənna nə haqda danışırdılar?

-Camalın arzusu nə idi?

-Bəs siz nə arzu edirsiniz? Böyüyəndə kim olmaq istəyirsiniz?

6. **Hekayənin həyatla əlaqələndirilməsi**. Dərsin sonunda müəllim mətn üzərində işi həyatla, məktəbin əhatəsi ilə, uşaqların müşahidəsi ilə əlaqələndirir. Bu məqsədlə sinif qarşısında aşağıdakı sualları qoymaq olar:

-Uşaqlar, bizim şəhərdə (kənddə, qəsəbədə) hansı tikinti işləri gedir?

-Orada kimlər işləyir?

-Həmin tikintidə hansı mexanizmlərdən və maşınlardan istifadə edilir?

-Sizin valideynlərinizdən kim inşaatçıdır?

-Siz gələcəkdə hansı peşə sahibi olmaq istəyirsiniz?

## 13. «BÜTÜN XALQLARA SÜLH LAZIMDIR» BÖLMƏSİ ÜZRƏ MATERİALLARIN PLANLAŞDIRILMASI VƏ TƏDRİSİ

| Dərslər | Mövzu | Müəllif | Saat |
|---|---|---|---|
| 145-ci | «Leninin sülh bayrağı» | S.Rüstəm | 1 s. |
| 146-cı | «Angelito» | Y.Taits | 1 s. |

| | | | |
|---|---|---|---|
| 147-ci | «Yer üzündə uşaqlar var» | Z.Cabbarzadə | 1 s. |
| 148-ci | «Uşaqların həyatına aid şəkillər üzrə söhbət» | | 1 s. |
| 149-cu | «Bir May nəğməsi» | Ə.Cəmil | 1 s. |
| 150-ci | «1 May mövzusunda şifahi inşa» | | 1 s. |
| 151-ci | «Zərqələm» | Ə.Sadıq | 1 s. |
| 152-ci | «Mənim andım» | M.Dilbazi | 1 s. |
| 153-cü | Sinifdənxaric qiraətin yekunlaşdırılması | | 1 s. |
| 154-cü | «Mənim də Vətənim var» | Ə.Muxtar | 1 s. |
| 155-ci | «Sülh mahnısı» | Z.Cabbarzadə | 1 s. |
| 156-cı | «Kapitalist ölkələrində uşaqların həyatı» mövzusunda şifahi inşa | | 1 s. |
| 157-ci | «Kirpinin cavabı» | H.Ziya | 1 s. |
| 158-ci | Ümumiləşdirici dərs | | |
| 159-cu | Sinifdənxaric qiraətin yekunlaşdırılması | | 1 s. |

Bölmədə verilmiş materialların öyrədilməsi qarşısında bir neçə əsas vəzifə qoyulur: 1) həm sosialist və həm də kapitalist ölkələrində uşaqların həyatı ilə şagirdləri tanış etmək; 2) sülh uğrunda Sovet hökumətinin mübarizəsinə dair şagirdlərdə anlayışı formalaşdırmaq; 3) xarici ölkələrdə zəhmət adamlarının, hətta uşaqların sülhə can atdıqları haqqında məlumat vermək, «Angelito», «Zərqələm», «Mənim də vətənim var» adlı materiallar ayrı-ayrı kapitalist ölkələrində, «Yer üzərində uşaqlar var» adlı şeir isə ümumiyyətlə uşaqların həyatına həsr edilmişdir. «Sülh mahnısı» sovet uşaqlarının həyatından bəhs edir. Bölmə «Leninin sülh bayrağı» adlı şeirlə başlayır.

**«Leninin sülh bayrağı».**

1. **Giriş söhbəti**. Söhbəti müəllim sülh uğrunda Kommunist Partiyasının və Sovet dövlətinin mübarizəsinə həsr edir. O deyir ki, sülh uğrunda mübarizədə də sovet adamları Leninin fikirlərinə əməl edirlər. Həmişə olduğu kimi, indi də sovet xalqı sülh istəyir, sülhü qoruyur, müharibənin əleyhinədir. Sovet hökuməti bütün dünyada sülh işini qoruyub saxlamağa çalışır. Nəhayət, müəllim deyir:

-Uşaqlar, gəlin sülh haqqında bir şeir oxuyaq.

2. **Şeirin ilk oxunuşu**. Şeiri ilk dəfə nümunə üçün müəllim oxuyur. Sonra onun təklifi ilə hər bəndini bir şagird oxuyur. Deməli, ilk qiraətdə beş şagird iştirak edir. Çünki şeir beş bənddən ibarətdir.

3. **Şeirin məzmunu üzərində iş**. Şeirin məzmununu və onun əks etdirdiyi ideyanı uşaqların daha aydın başa düşmələri üçün müəllim sual-cavab aparır:

**Müəllim**. Uşaqlar, «Leninin sülh bayrağı» ifadəsini necə başa düşürsünüz?

**Şagird**. Yəni bizim hökumətin çəkic və oraqlı, qırmızı rəngli bayrağı dincliyin, əməyin, sülhün rəmzidir.

Müəllim ikinci bəndi oxuyur və bir şagirddən mənasını izah etməyi soruşur. Uşaq deyir:

-Lenin vəfat etmiş olsa da, biz sülh haqqında onun müəyyənləşdirmiş olduğu yolla gedirik. Ona görə də Lenini daim özümüzlə birlikdə hesab edirik.

Müəllimin təklifi ilə üçüncü, dördüncü, beşinci bəndlərin hərəsini bir şagird oxuyur və mənasını izah edir. Lazım gəldikdə izahat işində qalan şagirdlər yoldaşına kömək edir, fikri daha da dəqiqləşdirilir.

4. **Şeirin ifadəli qiraəti**. Dərsin axırına yaxın bir neçə şagird şeiri əvvəldən axıradək ifadə ilə oxuyur.

**«Angelito».**

1. **Giriş söhbəti**. Söhbət zamanı müəllim qısaca olaraq deyir ki, kapitalist ölkələrində uşaqların bir qismi məktəbdə oxumur; orada atasız-anasız uşaqlara baxan olmur. Uşaqlar ödəmək üçün özlərini dolandırmağa, işləməyə məcbur olurlar.

Qısa söhbətdən sonra müəllim hekayənin oxunuşunu təşkil edir.

2. **Hekayənin ilk oxunuşu**. Hekayəni doqquz hissəyə ayırmaq olar: 1) «Bizim ölkədə…» ifadəsinə qədər; 2) «Bir dəfə o, nədənsə yata bilmirdi» cümləsinə kimi; 3) «Angelito fikirləşdi və onun gözləri doldu» cümləsinədək; 4) «Mariya razı olmadı» cümləsinəcən; 5) «Bir dəfə uca boylu bir fəhlə...» ifadəsinə qədər; 6) «Axşamüstü bir qadın ona yaxınlaşdı…» ifadəsinə

kimi; 7) «Polis Angelitonu tutmaq istədi» cümləsinədək; 8) «Heyf bardaqdan» ifadəsinədək; 9) Axıradək.

3. **Hekayənin ikinci oxunuşu**. Hər hissəni bir şagird oxuyur, digər şagird oxunmuş hissə üzrə sual qoyur; üçüncü şagird ona cavab verir. Beləliklə, ikinci oxuya iyirmi yeddi şagird cəlb etmək mümkün olur.

Qiraət zamanı şagirdlərin verdikləri sualların dəqiq ifadə olunmasına çalışmalıdır. Lazım gəldikdə sualların dəqiqləşdirilməsinə müəllim kömək edir. Nəticədə bu cür suallar alına bilər:

-Angelito nə üçün pul qazanmağa məcbur idi?

-Angelito pulu necə qazanırdı?

-Gecə Angelito nə gördü və bacısı Mariya ona nə danışdı?

-Angelito Mariyadan nə xahiş etdi?

-Angelito su satan zaman başqa daha nə ilə məşğul olurdu?

-Ucaboylu fəhlə ilə Angelito arasında nə söhbət olmuşdu?

-Qadın nə üçün Angelitonu polisə vermək istəyirdi?

-Polis nə üçün Angelitonu tuta bilmədi?

-Angelito bardağın itməsindən nə üçün o qədər də kədərlənmədi?

4. **Plan üzərində iş**. Qiraət zamanı yuxarıda ifadə olunmuş suallardan plan tərtibində istifadə olunur. Hər sual planın bir bəndinə çevrilir. Müəllim çalışmalıdır ki, bəndlərin sözlə ifadəsini mümkün qədər şagirdlərin özlərindən alsın. Planın bəndləri təqribən belə ola bilər:

*1. Angelitonun pul qazanmasının səbəbi.*
*2. Angelito pul qazanır.*
*3. Gecə Angelitonun bacısı ilə söhbəti.*
*4. Angelitonun Mariyadan xahişi.*
*5. Angelito sülh işi ilə məşğul olur.*
*6. Angelito fəhlələr arasında hörmət qazanır.*
*7. Onu həbs etdirmək istəyirlər.*
*8. Adamlar Angelitonu tutmağa qoymurlar.*
*9. Angelito heyfsilənmir.*

5. **Evə tapşırıq**. Şagirdlər sinifdə tərtib olunmuş həmin plan üzrə hekayəni nağıl etməyə hazırlaşırlar.

6. **Yazıçı haqqında qısa məlumat**. Yakov Moiseyeviç Tayts 1905-ci ildə anadan olmuş və 1957-ci ildə vəfat etmişdir. O, məşhur uşaq yazıçısıdır. Bir çox hekayələr və povestlər məcmuəsi çap etdirmişdir: «Sönməyən işıq», «Sülhün dostları», «Məktəb döngəsində» və s.

**«Zərqələm» və «Mənim də vətənim var».**

1. **Giriş**. «Angelito» adlı hekayənin öyrənilməsi metodikasını bu hekayələrin tədrisində də tətbiq etmək olar. Buna görə də hekayələr üzərində işin metodikası belə olacaqdır: 1) Qısa giriş söhbəti; 2) hekayənin ilk hissə-hissə oxunması; 3) İkinci oxu və oxunmuş hissələr üzrə sual-cavab; 4) Plan üzərində iş; 5) Evə tapşırıq və 6) Yazıçı haqqında qısa məlumat.

**«Mənim andım» və «Sülh mahnısı».**

«Yer üzərində uşaqlar var» adlı şeirin tədrisi ilə əlaqədar məsləhət gördüyümüz metodikanı həmin şeirlərin öyrədilməsinə də tətbiq etmək olar. «Mənim andım» və «Sülh mahnısı» adlı şeirlərdən hər birini aşağıdakı ardıcıllıqla keçməyi faydalı hesab edrik: 1) qısa giriş söhbəti; 2) şeirin ilk oxunuşu; 3) şeirin ikinci oxunuşu; 4) çətin söz və ifadələrin mənasının uşaqlar tərəfindən izahı; 5) şeirin bütövlükdə ifadəli oxunuşu.

**«Yer üzərində uşaqlar var».**

1. **Giriş söhbəti**. Müəllim «Angelito» və «Zərqələm» adlı hekayələrlə əlaqədar şagirdlərin məlumatlarını qısaca sorğu vasitəsilə özlərinə xatırladır. Sonra şeirin oxunuşunu təşkil edir.

2. **Şeirin ilk oxunuşu**. Şeirin hər bəndini bir şagird oxuyur. İlk oxuya, ifadəli qiraəti nümunəvi olan şagirdlər cəlb edilir.

Müəllim bilməlidir ki, şeirin hər bəndi bir ideya, bir əlamət ifadə edir. Məsələn, mətnin ilk bəndi uşaqların

rənglərinə görə müxtəlif olduğunu, buna baxmayaraq onların hamısına salam verməyin zəruriliyini tərənnüm edir. Məhz buna görə də biz, lazım bilirik ki, hər bəndi bir şagird oxusun. Əsas məqsəd şeirlə ümumi tanışlıqdır.

3. **Şeirin ikinci oxunuşu**. Bu dəfə də hər bəndi bir şagird oxuyur. Lakin ilk oxuda iştirak etmiş şagirdlər deyil, başqa şagirdlər oxuya cəlb edilirlər. İkinci oxunun əsas məqsədi şeirdəki bəzi söz və ifadələrin mənasını uşaqların necə başa düşdüyünü aşkara çıxarmaq və ehtiyac olduqda müvafiq düzəlişlər verməkdir. Oxuyan şagird deyil, qulaq asanlardan biri oxunuş bənddə çətin hesab etdiyi ifadəyə aid sual qoyur, başqası bu ifadənin mənasını izah edir.

4. **Şeirin məzmunu üzərində iş**. Şagirdlərin çətin hesab edə biləcəkləri ifadələrə və verə biləcəkləri sual və cavablara iki nümunə gətirək.

**Şagird**. «Salamlayaq yad ellərdə
Əzab çəkən dostları biz» – ifadəsini necə başa düşürsünüz?

**Başqa şagird**. «Yad ellər» dedikdə kapitalist ölkələri nəzərdə tutulur. «Əzab çəkən dostlar» dedikdə isə kapitalist ölkələrində zəhmətkeşlərin uşaqları nəzərdə tutulur.

**Şagird**. «Uşaqlar var yer üzündə
Məktəb nədir bilməyirlər» – ifadəsini kim izah edər?

**Başqa şagird**. Yəni kapitalist ölkələrində kasıbların uşaqları oxumur.

Şeirdə belə ifadələr az deyildir. Həmin ifadələr üzrə şagirdlər arasında fikir mübadiləsi keçirmək, onların anlayışlarını dürüstləşdirmək vacibdir.

5. **Şeirin bütövlükdə oxunması**. Ayrı-ayrı söz və ifadələr üzərində bütün sinfi işlətdikdən sonra şeiri axıradək bir neçə şagirdə oxutmaq lazımdır. Bu cür ardıcıl oxu formalarının tətbiqi şeirin yadda qalmasını xeyli asanlaşdırır. Odur ki, şeirin yadda qalmış hissələrini əzbərdən deməyi də uşaqlardan almaq mümkündür.

Dərsin sonunda şeiri bütövlükdə əzbərləməyi evə tapşırmaq lazımdır.

6. **Şair haqqında qısa məlumat**. Zeynal Cabbarzadə 1920-ci ildə Bakıda anadan olmuşdur. O, Azərbaycan sovet poeziyasının görkəmli nümayəndələrindən biridir. Şair bir çox şeirlərin, poemaların müəllifidir: «Qəhrəman oğul», «Məni bağışlayın», «Kəndimiz», «Sürəyya», «Əziz vətən» və s.

## 14. «YAY» BÖLMƏSİ ÜZRƏ MATERİALLARIN PLANLAŞDIRILMASI VƏ TƏDRİSİ

| Dərslər | Mövzu | Müəllif | Saat |
|---|---|---|---|
| 160-cı | «Sünbül» | S.Vurğun | 1 s. |
| 161-ci | «Bir yay günü» | Y.Şirvan | 1 s. |
| 162-ci | «Yaylaqların mahnısı» | T.Mütəllibov | 1 s. |
| 163-cü | «Marallar» | O.Sarıvəlli | 1 s. |
| 164-cü | «Göygöl» | Ə.Ziyatay | 1 s. |
| 165-ci | «Ləpirlər» | S.Rəhimov | 1 s. |
| 166-cı | «Quzu» | Y.Şirvan | 1 s. |
| 167-ci | «Köpək balığı» | L.Tolstoy | 1 s. |
| 168-ci | «Təbiət mənzərələri» mövzusunda şifahi inşa | Z.Cabbarzadə | 1 s. |
| 169-cu | «Düşərgəmiz» | X.Əlibəyli | 1 s. |
| 170-ci | «Yan, ay tonqalımız, yan!» | G.Fəzli | 1 s. |
| 171-ci | «Gənc səyyahlar» | | 1 s. |
| 172-ci | Ümumiləşdirici dərs | | 1 s. |
| 173-cü | Sinifdənxaric qiraətin yekunlaşdırılması | | 1 s. |
| 174-cü | Yay tapşırıqlarının verilməsi | | 1 s. |

Bu bölmədə verilmiş materialların öyrədilməsi qarşısında bir sıra vəzifələr qoyulmuşdur. Materiallar, uşaqların yay fəslinə aid təsəvvürlərini daha da dəqiqləşdirməli və sistemə salmalı, yeri gəldikcə onların fikrini yeni məlumatlarla zənginləşdirməlidir.

İkinci vəzifə yay zamanı adamların, xüsusən kənd zəhmətkeşlərinin əməyi ilə uşaqları tanış etməkdən ibarətdir.

Yay tətili zamanı uşaqların istirahəti haqqında məlumat vermək, tətil zamanı onları fəal istirahətə, müşahidələr aparmağa hazırlamaq müəllimin diqqət mərkəzində durmalıdır.

Bölmədəki materiallar üzərində işin metodikasına dair bir neçə nümunə verək.

**«Sünbül».**

1. **Giriş müsahibəsi**. Giriş söhbətini müəllim kənd təsərrüfatının müxtəlif sahələrində becərilən bitkilər haqqında uşaqların təsəvvürlərini müəyyənləşdirməklə başlayır, müəllim, məsələn, sinifdən soruşur:

-Uşaqlar, kənd zəhmətkeşləri kolxozda və sovxozda hansı kənd təsərrüfatı bitkiləri yetişdirirlər?

Sualla əlaqədar olaraq şagirdlər bu cür cavablar verirlər:

-Taxıl, tütün, çay, kələm, pomidor, çuğundur, pambıq, çəltik…

Şagirdlərin fikirlərini yekunlaşdırdıqdan sonra müəllim deyir:

-Uşaqlar, bu bitkilərdən biri haqqında – taxıl haqqında dərsliyimizdə şeir vardır, gəlin, həmin şeiri oxuyaq. Şeir belə adlanır: «Sünbül».

2. **Şeirin oxunuşu**. Şeiri ilk dəfə nümunə üçün müəllim oxuyur. Şagirdlər diqqətlə qulaq asırlar. Müəllimin göstərişi ilə şagirdlər şeirdə çətin hesab etdikləri sözləri müəyyənləşdirirlər. Sonra müəllimin rəhbərliyi altında həmin sözlərin mənası izah edilir. Sözlər təqribən aşağıdakılardan ibarət olur: xırman, dərz, anmaq, mənzərə.

3. **Çətin sözlərin mənası üzərində iş.**

**Xırman** – taxılın döyüldüyü yer. Qabaqlar taxıl xırmanda döyülərdi. Taxıl döymək, yəni buğdanı samandan ayırmaq. Taxılı döymək üçün taxıl dərzlərini xırmana səpər, vələ at qoşub onun üstü ilə sürərdilər. Vəl taxılı əzərək buğdanı sünbüllərdən çıxarardı. İndi taxılı kombayn biçir, həm də döyür. Kombayn adamların əməyini xeyli yüngülləşdirmişdir.

**Dərz** – biçilmiş taxılın dəstə-dəstə bağlanması. Taxılı xırmana gətirmək üçün biçinçilər taxılı biçər, dəstə-dəstə, yəni dərz bağlayar və biçənəyə düzərdilər. Sonra isə dərzləri arabaya yığıb döymək üçün xırmana daşıyırdılar.

**Anmaq** – yada salmaq, xatırlamaq.

**Mənzərə** – görünüş, təbiətin müəyyən bir sahəsinin görünüşü.

4. **Obrazlı ifadələr üzərində iş**. Müəllimin təklifi üzrə şagirdlər şeiri ürəklərində oxuyur və obrazlı ifadələri qeyd edirlər. Onlar aşağıdakı obrazlı ifadələri dəftərlərinə yazır və mənasını izah edirlər.

Müəllim soruşur:

-Uşaqlar, «Qabaqdan al geyib gələndə bahar.

Ellər səni anar, salamlar» ifadəsini siz necə başa düşürsünüz?

Uşaqlar təqribən belə cavab verirlər:

-Yaz yaxınlaşanda, güllər-çiçəklər açanda xalqımız sünbülü, taxılı yadına salır, xatırlayır.

**Müəllim**. «Göz üstə yerin var bizim vətəndə,

Böyük bir ölkənin gözü var səndə» –ifadəsini kim öz sözlərilə izah edər?

**Şagird**. Burada sünbül, taxıl nəzərdə tutulur. Deyilir ki, Vətənimizdə taxılın hörməti çoxdur, taxılsız ölkə, xalq yaşaya bilməz.

Müəllim şeirin son bəndində axırıncı dörd misranı uşaqlardan birinə oxuyur və onun mənasını soruşur. Şagird cavab verir:

-Şair arzu edir ki, taxıl dərzlərimiz o qədər çox olsun ki, dağa bənzəsin, düşmən ona baxdıqca gözü qaralsın, rəngi saralsın.

Ayrı-ayrı söz və ifadələr üzərində şagirdləri işlətdikdən sonra müəllim şeirin son ifadəli oxusunu təşkil edə bilər. Bu zaman müəllimin təklifi ilə bir neçə şagird şeiri ifadə ilə əvvəldən axıradək oxuyur.

5. **Evə tapşırıq**. Evdə işləmək üçün müəllim iki tapşırıq verə bilər: a) şeiri əzbərləməli; b) iki misra götürüb, hər misrada neçə heca olduğunu müəyyənləşdirmək.

**«Bir yay günü».**

1. **Giriş müsahibəsi**. Müəllim giriş müsahibəsində kənd təsərrüfatının müxtəlif sahələri haqqında uşaqların məlumatlarını aşkara çıxarır. Bu məqsədlə sinifdən soruşur:

-Uşaqlar, kolxoz və sovxozlarımız nə ilə məşğuldur?

Müəllim həmin sual ətrafında bir neçə şagirdin məlumatını dinləyir, hər dəfə yeni təsərrüfat sahəsinin adını demələrinə nail olur. Sonra şagirdlərin fikirlərini yekunlaşdırır. O deyir:

-Uşaqlar, kolxoz və sovxozlarımız taxılçılıqla, heyvandarlıqla, qoyunçuluqla, pambıqçılıqla, çayçılıqla və s. kənd təsərrüfatı işləri ilə məşğul olur.

Şagirdlərin fikirlərini yekunlaşdırdıqdan sonra müəllim onların diqqətini dərsliklərindəki «Bir yay günü» adlı hekayəyə cəlb edir. O deyir:

-Gəlin kənd təsərrüfatında görülən işlərlə tanış olmaq üçün dərslikdən bir hekayə oxuyaq.

2. **Hekayənin oxunuşu**. Müəllim hekayəni on bir hissəyə ayırıb hər hissəni bir şagirdə oxuda bilər. Hekayəni aşağıdakı hissələrə ayırmaq mümkündür: 1) «Adilin kəndə gəldiyi bir həftə olardı» ifadəsinə kimi; 2) «Adilin babası kolxoz sədri idi» cümləsinə qədər; 3) «Baba maşını yavaş-yavaş sürür və bağları ona göstərirdi»; 4) «Baba xeyli tənəyə baxdı» cümləsinə kimi; 5) «Onlar traktorun işinə bir qədər tamaşa etdilər» cümləsinə qədər; 6) «Onlar yenə yola düşdülər» cümləsinədək; 7) «Onlar sonra enli asfalt yola çıxdılar» cümləsinə kimi; 8) «Adil sevindiyindən nə edəcəyini bilmirdi» cümləsinə qədər; 9) «Babası ona» ifadəsinədək; 10) «Adil maşındakı saata baxdı» cümləsinə qədər; 11) oradan hekayənin sonuna kimi.

3. **Mətn üzrə müsahibə**. Müəllim hekayənin əsas fikirlərini uşaqların nəzərinə çatdırmaq üçün aşağıdakı suallar ətrafında söhbət keçirir:

-Adil nə üçün babası ilə yaylağa getmək istəyirdi?

-Kənddə hansı meyvə ağacları vardı?

-Onlardan hansıları yayda yetişir, hansıları isə payızda?

-Adil yolda hansı bağları görmüşdü?

-Dağın yamaclarında Adil nələr gördü?

-Bir gündə aranın və yaylağın havası necə idi?

-Dağa qalxanda Adil nə üçün pencəyini geyindi?

4. **Hekayənin nağıl edilməsi**. Vaxt qalarsa hekayəni iki-üç şagirdə söylətmək olar.

5. **Evə tapşırıq**. Hekayənin oxunmuş hissələrinə başlıq verərək plan tutmağı və həmin plan üzrə hekayəni danışmağı uşaqlara tapşırmaq məsləhətdir.

**«Düşərgəmiz».**

1. **Giriş müsahibəsi**. Müsahibə yay tətilini uşaqların necə keçirdikləri ətrafında gedir. Müəllim ikinci sinifdən üçüncü sinfə keçərkən yayda uşaqların harada olduqlarını soruşur. Şagirdlər arasında pioner düşərgəsində istirahət etmiş uşaqlar olarsa, müəllim birinci növbədə onların təəssüratları haqqında danışmalarını təşkil edir. Müsahibənin sonunda müəllim uşaqların fikirlərini yekunlaşdırır və deyir:

-Uşaqların xeyli hissəsi yayda pioner düşərgəsində istirahət edir. Pioner düşərgəsinə həsr olunmuş şeirlər çoxdur. Bunların biri də «Düşərgəmiz» adlı şeirdir.

2. **Şeirin izahlı qiraəti**. Şeirin hər bəndini bir şagird oxuyur. Şeirdə üç bənd olduğundan, onu üç şagird ifadə ilə oxuyur. İkinci dəfə şeirin hər bəndini başqa şagirdlər oxuyur; dinləyən şagirdlərdən bəziləri oxunmuş bəndlər üzrə sual, digərləri isə cavab verir. Buna bir misal gətirək. Məsələn, şeirin üçüncü bəndini şagirdlərdən biri oxuyur, digəri belə bir sual verir:

-Vətənin bizdən ötrü göstərdiyi qayğı nədə ifadə edilir?

Üçüncü şagird isə həmin suala təqribən belə bir cavab verir:

-Oxuduğumuz məktəbin binasını xalqımız tikdirir, xalqımız müəllimlərə maaş verib bizi oxudur, istirahət etmək üçün düşərgələr tikdirir, sağlam olmaq üçün həkimlər hazırladır.

3. **Şeirin ifadəli qiraəti**. Şeirin məzmunu və ideyası üzərində şagirdlərin müstəqil işlərini təşkil etdikdən sonra şeirini ifadəli oxusuna yenidən qayıtmaq məsləhətdir. Bu məqsədlə əvvəlcə hər bəndi bir şagirdə, sonra isə şeiri bütövlükdə ayrı-ayrı şagirdlərə oxutmaq olar. Şeir üzərində həmin ardıcıllıqla aparılan iş şeirin yadda qalmasını xeyli

asanlaşdırar. Ona görə də dərsin sonunda şeirin ayrı-ayrı bəndlərini, yaxüd bütövlükdə şeiri əzbər danışmağı uşaqlara təklif etmək lazımdır.

4. «Yan, ay tonqalımız, yan!», «Gənc səyyahlar» adlı şeirlər üzərində şagirdlərin işini həmin metodika əsasında qurmaq olar.

**Bölmə üzrə ümumiləşdirici dərs.**

«Yay» bölməsi üzrə ümumiləşdirici dərsi aşağıdakı ardıcıllıqda təşkil etmək olar.

1. **Bölmə üzrə öyrənilmiş materialların adını yada salmaq**. Bu məqsədlə sinif qarşısında belə bir sual qoymaq olar:

-Uşaqlar, «Yay» bölməsi üzrə hansı materialları öyrəndik?

Şagirdlər keçilmiş hekayə və şeirlərin adını çəkirlər: «Sünbül», «Yaylaqların mahnısı», «Bir yay günü», «Marallar», «Göy göl», «Ləpirlər», «Quzu», «Köpəkbalığı», «Düşərgəmiz», «Yan, ay tonqalımız, yan!», «Gənc səyyahlar».

2. **Mətnləri məzmununa görə qruplaşdırmaq**. Oxunmuş materialı məzmununa görə qruplaşdırmaq bacarığını uşaqlarda inkişaf etdirmək üçün ümumiləşdirici dərslərin imkanları daha genişdir. Bu imkanlardan istifadə etmək məqsədi ilə müəllim soruşa bilər:

-Uşaqlar, adlarını dediklərimiz materiallardan hansılarında kənd təsərrüfatının xüsusiyyətləri ifadə olunur?

Uşaqlar cavab verirlər:

-«Sünbül», «Bir yay günü», «Quzu».

**Müəllim**. Bəs hansı şeir və hekayələrdə təbiət təsvir edilir?

**Şagirdlər**. «Marallar», «Göy göl» adlı şeirlərdə və «Köpəkbalığı», «Ləpirlər» adlı hekayələrdə.

**Müəllim**. Bəs hansı materiallarda pioner düşərgələrindən bəhs edilir?

**Şagirdlər**. «Düşərgəmiz», «Yan, ay tonqalımız, yan!», «Gənc səyahlar» adlı şeirlərdə.

3. **Yay tətili dövründə uşaqların istirahətinə dair**. Oxunmuş materiallara əsasən yayda uşaqların haralarda və

necə istirahət etdiklərinə dair məlumatlarını ümumiləşdirmək lazımdır. Bu məqsədlə müəllim müsahibə apara bilər.

**Müəllim**. Yay tətilini uşaqlar harada keçirirlər?

**Şagird**. Yayda uşaqların bəziləri kəndə qohumlarıgilə gedir, orada istirahət edirlər.

**Başqa şagird**. Uşaqların bəziləri pioner düşərgəsində dincəlir.

**Üçüncü şagird**. Yaylaqlara, bağlara gedən uşaqlar da olur.

4. **Yay tətili dövründə istirahətin başqa yolları haqqında söhbət**. Kənd məktəblərində oxuyan uşaqların yay istirahətlərinə dair, habelə istirahətin başqa növləri haqqında dərslikdə mətn yoxdur. Bunu ümumiləşdirici dərsdə nəzərə almaq.

5. **Fikir mübadiləsi**. Həmin istiqamətdə uşaqların fikir mübadiləsini təşkil etmək lazımdır. Belə bir vəzifəni yerinə yetirmək üçün aşağıdakı suallardan istifadə etmək vacibdir:

-Şəhər məktəblərinin uşaqları daha necə istirahət edirlər?

-Kənd məktəblərinin uşaqları yay tətili zamanı necə istirahət edirlər?

-Yayda uşaqların digər şəhərlərə turizm səyahətinə çıxdıqlarından kim danışar?

6. **Həyatla əlaqə**. Bölmə üzrə oxunmuş materialları sinifdəki şagirdlərin həyatı ilə əlaqələndirmək zəruridir. Yay tətili dövründə hansı şagirdin necə istirahət etdiyini müəyənləşdirmək lazım gəldikdə şagirdə və onun valideynlərinə məsləhət vermək lazımdır. Şagirdlərə bu cür suallar vermək olar:

-Siz yay tətili zamanı harada olursunuz?

-Yayda necə istirahət edirsiniz?

-Qarşıdakı yay tətilini necə keçirəcəksiniz?

7. **Yay tapşırığı**. Yayda təbiət hadisələrini, bitkilərin, quşların, heyvanların həyatını müşahidə etməyi, məktəb üçün bitkilər toplamağı, onların adlarını öyrənib yazmağı uşaqlara tapşırmaq olar.

**(«Maarif» nəşriyyatı, Bakı, 1973)**

# ÜÇÜNCÜ SİNİF ÜÇÜN «ANA DİLİ» DƏRSLİYİNİN MƏZMUNU

## PİONERLƏR GƏNC LENİNÇİLƏRDİR

### İlk gün

Məktəb qapısında bayraq asılmış,
Günəş işığında parlayır təmiz,
Qırmızı parçanın üstə yazılmış:
«Əziz məktəblilər, xoş gəlmişsiniz!»

Bağçanın içində ulu[1] rəhbərin,
Ucalır ağ rəngli böyük heykəli.
Süzərək mehriban pionerləri,
Elə bil söyləyir: «Oxu, irəli!»

Səhərdir, üfüqdən günəş yüksəlir,
Oyanır şeh yumuş güllər, çiçəklər.
Gəlirlər məktəbə ikibir, üçbir,
Qızıl qalstuklu şən məktəblilər.

Onların üzündə böyük sevinc var,
Tətil günlərini keçiriblər şən.
Dağların döşündə çadır qurublar,
Yaylaqları olub meşə, çöl, çəmən.

Qayalardan sızan sərin bulaqlar,
Meşələrdən əsən xoş səhər mehi[2],
Düzdəki gül-çiçək, zirvədəki[3] qar,
İnci tək parlayan səhərin şehi,
Onlara güc verib, qüvvət veribdir,
Gözəllik, gümrahlıq, qüdrət veribdir.

*Novruz Gəncəli*

---

[1] Ulu – böyük
[2] Meh – zəif əsən yel
[3] Zirvə – dağın təpəsi, ən hündür yeri

● Şeirdə «İlk gün» sözləri ilə nəyə işarə edilir?
Məktəbin həyatində nələr vardır?
Yayı necə keçirdiyiniz haqqında hekayə düzəldib, aşağıdakı plan üzrə yazın:
a) Yayda haralarda olmuşam?
b) Necə istirahət etmişəm?
c) İstirahət etdiyim yerdə nələr xoşuma gəlib?
ç) Nələri öyrənmişəm?

## Yaxşı yoldaş

### I

Kolxozun avtobusu təmirə göndərildiyindən uşaqlar məktəbə piyada getməli olmuşdular. Ona görə də Cavadla Ramiz bu gün evdən tez çıxmışdılar ki, dərsə vaxtında çatsınlar. Onlar məktəbə kolluğun arası ilə uzanan kəsə yolla gəldilər. Yolda onlar buz üstündə sürüşdülər. Söz qoydular ki, dərsdən qayıdanda yenə orada bir qədər sürüşsünlər.

Onlar məktəbə çatandan sonra hava dəyişdi, bərk qar yağdı, boran başladı. Bu məsələ Cavadın keyfini pozdu.

Məktəbdə bir məsələ onun qanını daha da qaraltdı.

Bu gün Cavad növbətçi idi. Cavad çox səliqəli və intizamlı bir şagird idi. O, növbətçilikdə də çox diqqətli olurdu. Tənəffüsdə sinifdə qalmağa heç kəsə icazə verməz, otağın havasını dəyişər, yazı taxtasını silər, pəncərədəki çiçəkləri yoxlayar, onları sulayardı.

Birinci tənəffüsdə Ramiz çölə çıxmaq istəmədi, gedib peçə söykəndi.

Cavad dedi:

-Ramiz, tənəffüsdür, çölə çıx.

Ramiz gülümsündü. Ona elə gəldi ki, Cavad onunla zarafat edir. Axı onlar dost və qonşu idilər. Neçə il idi ki, məktəbə bir yerdə gəlir, bərabər qayıdır, həmişə bir yerdə oynayır, dərslərini bir yerdə hazırlayırdılar. Buna görə Cavadın təklifi ona qəribə göründü. Amma Cavad elə fikirləşmirdi. O, qayda-qanun güdürdü. Axı Ramiz içəridə

qalsa, o biri uşaqlar da sinfə girmək istəyərdilər. Cavad yenə ciddi şəkildə dedi:

-Ramiz, çölə çıx, qaydanı pozma.

Ramiz əyri-əyri ona baxdı:

-Əcəb dostsan.

-Mən sənin dostunam. Amma qayda-qanunu da sevirəm.

Ramiz bir söz demədi, çölə çıxdı və daha onunla danışmadı. Cavad isə «Eybi yoxdur, hirsi soyuyar, evə gedəndə yenə barışar» deyə, fikirləşdi.

**II**

Dərs qurtardı. Uşaqlar paltolarını geyinib, evlərinə getdilər. Cavad nə isə yazırdı. Sinifdə heç kəs qalmamışdı. Ramiz də yox idi. Cavaddan bərk incidiyi üçün onu gözləmək istəməmişdi. Cavad geyinib sinifdən çıxdı, Ramizi görmədi. Məktəbin həyət qapısına yaxınlaşıb, evlərinə tərəf gedən yola baxdı. Boran daha da güclənmişdi. Heç bir şey görünmürdü. Cavadı qorxu bürüdü. Ramiz belə boranda evə tək gedə biləcəkdimi? O tez qapıçının yanına yüyürdü. Qapıçı Ramizin çoxdan getdiyini söylədi.

Cavadın ürəyi bərk döyünməyə başladı. Axı Ramiz bədəncə zəif idi. O bir ay soyuqdəymədən yatmışdı. Belə havada ona yenə soyuq dəyə bilərdi. Gecikmək olmazdı. Cavad evə tərəf yollandı. Yol güclə seçilirdi. O, bütün qüvvəsini toplayıb, sürətlə addımlayırdı.

Kolluq görünəndə Cavad təəccüblə yerində durdu. Yol yarı olmuşdu, ancaq Ramiz görünmürdü. Cavad onun evə tək çata biləcəyinə də inanmırdı. Birdən qarın üstündə bir qaraltı göründü. Cavad tez irəli cumdu. Ramiz üzü üstə yıxılıb qalmışdı. Cavad tez onu qucaqladı, başını bərk silkələdi, «Ramiz, Ramiz» - deyə, çağırdı. Ramiz gözlərini açdı və Cavadı görən kimi zarıdı. Cavad onu qucaqlayıb, yerdən qaldırdı və qar basmış dik cığırla yuxarı qalxmağa başladı. Elə bu zaman külək Ramizin papağını uçuruma atdı. Cavad tez öz papağını çıxarıb Ramizin başına qoydu və yoluna davam etdi.

**III**

Boran bərkiyirdi. Cavad taqətdən düşmüşdü, qollarında güc qalmamışdı. O, Ramizin dalına aldı və dizi üstə

sürünməyə başladı. Cavad tamamilə gücdən düşmüşdü. Onun qolları tez-tez bükülür və üzü üstə yıxılırdı. Lakin o yenə durur və sürünürdü. Axı Ramiz dona bilərdi. Evlərinə az qalırdı, uzaqdan hənirti eşidildi. Qabaqdan gələn adamları bir kölgə kimi görəndə Cavadın qolları büküldü və o, huşunu itirdi. Ramiz ilə birlikdə qarın üstünə yıxıldı.

İki saatdan sonra tibb məntəqəsində Cavadı ayıltdılar. O, otaqdakılara diqqətlə baxdı. Otaqda həkimdən başqa çox adam var idi. Atası da burada idi. O, həyəcanlı baxışlarla dostunu axtardı. Divanın üstündə oturmuş Ramizi görəndə dərindən nəfəs aldı. Onun sifətində xoş bir təbəssüm oyandı. Cavad yoldaşlıq borcunu yerinə yetirmişdi.

Cavad sonralar Ramizlə daha mehriban dost oldu. Onlar yenə məktəbə bir yerdə gedir, dərslərini birlikdə hazırlayır və birlikdə oynayırdılar.

*Qılman İlkin*

**Atalar sözü:**
Yaxşı dost yaman gündə tanınar.

● Cavad və Ramiz məktəbə nə üçün piyada gedirdilər?
Ramiz Cavaddan nə üçün incidi?
Cavad Ramizə necə kömək etdi?

## *PİONER YAXŞI YOLDAŞ OLMALI, BALACALARIN QEYDİNƏ QALMALI, BÖYÜKLƏRƏ HÖRMƏT VƏ KÖMƏK ETMƏLİDİR*

### Mən pioner olmuşam ki...

*(İxtisarla)*

Bu gün boynuma bağladım
Al-qırmızı qalstuku,
Çox sevindim, fərəhləndim,
Gözlərimdən qaçdı yuxu.

Yaxınlaşıb diz də çökdüm
Al bayrağın önündə mən.
Alqışladı məni Vətən!

* * *

İftixarla söyləyirəm:
Dünya, məni eşit, eşit!
Mən pioner olmuşam ki,
Hər işimlə,
                    vərdişimlə,
Səsim düşsün bu dünyaya.
Mən pioner olmuşam ki,
Böyüyəndə uçum Marsa,
                                uçum Aya!
Mən pioner olmuşam ki,
Elmləri bilim dərin,
Yiyələnim sirlərinə
                                biliklərin!
Mən pioner olmuşam ki,
Ömür sürüm Lenin kimi!
İşlər görüm Lenin kimi!
Mən pioner olmuşam ki,
Lazım gəlsə
Düşmənlərlə girim hərbə,
Zərbə üstdən vurum zərbə,
Qalib çıxım Lenin kimi!

* * *

O göstərən yolla gedir
İrəliyə Vətənimiz.
Bu yol ilə kommunizmə
Gedəcəyik yenə də biz!
Bu yol ilə beşilliklər
Başa vurur mərd xalqımız.
Bu yol ilə ölkəmizi
Tikir, qurur mərd xalqımız!

* * *

Bu yol ilə ataların
İntiqamı alınmışdır,

Bu yol ilə düşmən üstə
Zəfər marşı çalınmışdır!
Bu yol ilə səhralarda
İmarətlər salınmışdır!
Bu yol ilə həyat, ömür
Şad, firavan olubdur
Bu yol ilə ürəklərə
Sevinc, fərəh dolubdur!

* * *

Mən pioner olmuşam ki,
Addımlayım mətin-mətin.
Olum dostu, gözətçisi
Bizim ana təbiətin!

* * *

Mən pioner olmuşam ki,
Vətənimə göz dikməsin
Min bir yağı!
Mən pioner olmuşam ki,
Düşmənlərdən bədənimlə
Xilas edim bu torpağı!

* * *

Boynumdakı qalstukun
Rəngi, baxın, al-qırmızı,
O səsləyir yaxşı işə
Milyon-milyon oğlu, qızı!
Kommunistlər nəsliyik biz,
Lenin yolu yollarımız!
Vətən üçün çalışdıqca
Möhkəm olur qollarımız!

*Zeynal Cabbarzadə*

● Şagirdin sevinci nə üçün yerə-göyə sığmır?
Pioner Leninlə əlaqədar nə fikirləşir?
Ölkəmizdəki quruculuq işləri ilə əlaqədar şeirdə nə deyilir?
Mətnə daha necə şəkil çəkmək olar?

**Pioner salnaməsindən səhifələr**

**1924-cü il, yanvar.** 1924-cü ilin matəmli yanvar günlərində pionet təşkilatına Vladimir İliç Leninin adı verildi.

**1925-ci il, mart.** «Pionerskaya pravda»nın birinci nömrəsi çapdan çıxdı.

**1925-ci il, iyun.** Krımda, Qara dəniz sahilində «Artek» ümumittifaq düşərgəsi açıldı.

**1929-cu il, avqust.** Moskvada 1-ci Ümumittifaq pioner toplanışı keçirildi.

**1932-ci il, sentyabr.** Uralda Gerasimovka kəndində qolçomaqlar Pavlik Morozovu öldürdülər. Pavlik kolxozun təşkilinə mane olmaq istəyən qolçomaqları qorxmadan ifşa etmişdi.

**1941-1945-ci illər.** Böyük Vətən müharibəsində milyonlarla timurçu cəbhəçilərin ailələrinə hamilik etmişdir. Pionerlər kolxoz tarlalarında, fabrik və zavodlarda işləmiş, cəbhəçilər üçün isti paltar göndərmiş, hər bir işdə yaşlılara kömək göstərməyə çalışmışlar.

Müvəqqəti olaraq düşmən əlinə keçən ərazidə pionerlər partizan dəstələrinə getmiş və öz böyük yoldaşları ilə birlikdə məsul hərbi tapşırıqları yerinə yetirmişlər.

Faşist işğalçılarına qarşı mübarizədə misilsiz mərdlik və igidlik göstərdiklərinə görə Lyonya Qolikov, Vanya Kotik, Zina Portnova, Boris Tsarikov, Marat Kazey Vətənimizin ən yüksək mükafatı olan Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Bir çox pioner Sovet İttifaqının orden və və medalları ilə təltif olunmuşdur. Onların sırasında Volodya Dubinin, Vanya Andrianov, Vitya Kober, Kostya Kravçuk, Vasya Korobko, Tolya Şukov, Lara Mixeyenko, Yuta Bondarevskaya, Nina Kukoverova və başqalarının adları var.

**1949-cu il.** Yüksək çay yarpağı məhsulu topladığına görə pioner Natalya Çelebadzeyə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir.

**1960-cı il.** Sovet İttifaqı pionerləri 200 min ton metal qırıntısı toplamışlar. Həmin metal qırıntısı ilə Abakan-Tayşet yolu üçün relslər və körpülər hazırlanmışdır.

## Yürüş mahnısı

Səfərə çıxmış yenə
Gənc pioner dəstəmiz.
Vətənin övladları,
Leninin nəsliyik biz.

Dəstəmizin önündə
Şeypurumuz gurlayır.
Barabanın səsini
Külək ətrafa yayır.

Yolumuz partiyanın
Böyük, şanlı yoludur.
Ürəyimiz yaratmaq
Həvəsilə doludur.

Yeriyirik inamla,
Cərgələrimiz sıxdır,
Fikrimiz yurdumuzun
Səhəri tək açıqdır.

Yeriyirik dağlardan,
Dərələrdən aşaraq.
Başımızın üstündə
Yellənir qızıl bayraq.

*Hüseyn Abbaszadə*

● «Fikrimiz yurdumuzun
Səhəri tək açıqdır» - sözləri ilə şair nə demək istəyir?
«Partiyanın şanlı yolu» sözlərini necə başa düşürsünüz?
Şeiri əzbərləyin.

## Poçtalyon

### I

Həsən dayı poçtalyon idi. Onu hamı tanıyırdı. Elə bir qapı yox idi ki, Həsən dayı ora qəzet və məktub verməmiş olsun. Qışın şaxtalı, payızın yağışlı günlərində, yayın istisində Həsən dayı həyətlərdə olurdu.

16 nömrəli evin uşaqları göz açdıqları gündən Həsən dayını poçtalyon görmüşdülər. Onlar Həsən dayını səsindən tanıyırdılar. İsti yay günləri başlanmışdı. Uşaqların çoxu pioner düşərgələrinə getmişdi. Qalan uşaqlar üçün də pioner düşərgəsi açılmışdı.

Həyətdəki kiçik birmərtəbəli bina pionerlərin ixtiyarına verilmişdi. İdman oyunları üçün də yer düzəltmişdilər. Uşaqların günləri xoş keçirdi.

İsti günlərdə hərdənbir poçtalyon uşaqların düzəltdikləri kölgəlikdə əyləşib dincini alırdı. Bir gün Həsən dayı kölgəlikdə dincələndə üç-dörd uşaq ona yanaşdı. Onlardan biri dedi:

-Həsən dayı, məktub və qəzetləri verin biz paylayaq.

Həsən dayı heç bir şey başa düşmədi, təəccüblə onlara baxdı.

-Bəli, bizim evə gətirdiyiniz qəzet və məktubları verin paylayaq. Binamız böyükdür, hava da bərk istidir, yəqin ki, yorulmuşsunuz, - deyə oğlanlardan böyüyü onu razı salmağa çalışdı.

Həsən dayı gülümsəyərək:

-Çox sağ olun, - dedi, - hələ ki, qocalmamışam. Qocalanda deyərəm, kömək edərsiniz.

Uşaqlar nə qədər xahiş etdilərsə, Həsən dayı razı olmadı. Onlardan biri qaçıb baş dəstə rəhbərinə xəbər verdi. Baş dəstə rəhbəri Azad gəlib poçtalyonla danışdı. O yenə razı olmadı. Axırda Azad dedi:

-Həsən dayı, bu, pioner dəstəmizin qərarıdır. Onu pozmaq olmaz.

Poçtalyon bu sözləri eşidəndə bu uşaqlara, bir də dönüb Azada baxdı, sonra da başını aşağı dikdi. Uşaqlar da susmuşdular. Həsən dayı başını qaldırıb gülər üzlə dedi:

-Nə edim, deyirsiniz ki, qərarı pozmaq olmaz.

O, məktub və qəzetləri çantadan çıxarıb uşaqlara verdi.

On dəqiqə keçmədi ki, uşaqlar məktub və qəzetləri paylayıb qurtardılar. Poçtalyon:

-Uşaqlar, heç bilmirəm, sizə necə təşəkkür edim.

Azad dedi:

-Bu bizim borcumuzdur.

Həsən dayı razılıq edib getdi.

**II**

Bir necə gün idi ki, poçtalyonun gətirdiyi məktubları uşaqlar paylayırdılar. Poçtalyon isə kölgədə əyləşib dincini alırdı.

Bir gün Həsən dayı uşaqlar üçün bir neçə şəkilli jurnal gətirdi.

-Alın, - dedi, - sizin üçün gətirmişəm. Oxuyun, yenə də gətirəcəyəm.

-Çox sağ olun, Həsən dayı, - deyə Azad dilləndi, - zəhmət çəkmisiniz.

-Nə zəhmət,ay oğul,sizin zəhmətinizin əvəzində bu nədir ki?

Poçtalyon hər gün birinci növbədə həyətdəki pioner düşərgəsinin qəzet və jurnallarını gətirib verərdi. Uşaqlar isə yuxarı mərtəbələrə aparılacaq məktub və qəzetləri ondan alıb gedərdilər. Həsən dayı da bir neçə dəqiqə dincəlib, qonşu evlərə tərəf yönələrdi.

Bir gün Həsən dayı həyətə gəlib, yenə ağacın kölgəsində oturmuşdu. Birdən uşaqların hazırladıqları divar qəzetində öz şəklini gördü. Şəklin altında isə «Bizim təşəkkürümüz» sərlövhəli bir məqalə var idi. Həsən dayı tələsik məqaləni oxudu. Ancaq onu düşündürən bir şey vardırsa, o da şəkil idi. Axı o, belə bir şəkil çəkdirməmişdi.

-Yox, bu uşaqların işidir, - deyə öz-özünə gülümsündü. Yəqin söhbətə tutub şəklimi çəkiblər.

Poçtalyon yanılmamışdı. Uşaqlardan biri fotoaparatla gizlincə onun şəklini çəkmişdi. Poçtalyon özü haqqında yazılan məqaləni oxuyanda uşaqlar uzaqda dayanıb ona baxırdılar. Onlar öz təşəkkürlərini Həsən dayıya çatdıra bildikləri üçün sevinirdilər.

*Qılman İlkin*

- Həsən dayı kim idi və o, hər gün 16 nömrəli evə nə üçün gəlirdi?
  Uşaqlar Həsən dayının yorulduğunu görüb nə qərara gəldilər?
  Uşaqlar poçtalyona necə kömək edirdilər?
  Hekayəni öz sözlərinizlə danışın.

## Dostluq

*(İxtisarla)*

Biz xoşbəxt uşaqlarıq,
Pionerdir adımız.

Dərsdə geri qalarsa
Dostlarımızdan biri,

Doğma partiyamızdır
Sevimli ustadımız.

Biz sevirik dostluğu
Daim özümüz kimi.
Qoruyuruq hər zaman
İki gözümüz kimi...

Bu dostluğu həyatda
Zəhmətlə qazanmışıq,
Ülfətlə qazanmışıq,
Hörmətlə qazanmışıq...

Bu dostluq babalardan
Bizə bir yadigardır.
Yaxşı dost yaxşı dosta
Şərəfdir, iftixardır.

Ona kömək edirik,
Daha qalmasın geri.

Əziz bir dostumuzun
Əgər ağrısa başı,
Könlümüzdə məhəbbət
Oyanar ona qarşı...

Biz qoymarıq heç zaman
Dostluğumuz pozula.
Gərək dostluğumuza
Şən nəğmələr yazıla...

Bu möhkəm dostluğumuz
Qüvvətdir qolumuzda,
Qürurdur qəlbimizdə,
Məşəldir yolumuzda...

*Əli Tudə*

**Atalar sözü:**
Dost dosta arxadır.

● «Ustad» sözünü hansı sözlə əvəz etmək olar?
Dostluğu nə üçün qorumaq lazımdır?
Dostluğu necə qazanmaq olar?
Dostluq şeirdə necə qiymətləndirilir?

## Qoşa çinar

Kəndin kənarında nəhəng bir çinar ağacı vardı. O hər tərəfə qol-budaq atmışdı. O qədər hündür idi ki, kəndin hər tərəfindən başı görünürdü. Başında da hər yay sağsağanlar yuva tikərdi. Aşağı sallanmış yaşıl budaqlar az qala yerə dəyirdi. Yayın isti günlərində uzaq yoldan kəndə gələnlər onun kölgəsində dincəlməmiş kəndə girməzdilər.

Bu ağacın nə vaxt əkildiyini hamıdan yaxşı Calal bilirdi. Calalın cəmi on yaşı vardı. Ağacın tarixini isə ona babası

Nüsrət kişi danışmışdı. Nüsrət kişinin yaşı səksəni ötmüşdü. Ansaq sağlam bədənli, qədd-qamətli bir kişi idi, o, kolxozun bağbanı idi. Nüsrət kişi kolxozun heç bir işindən kənarda qalmazdı. Bütün meyvə bağları ona tapşırılmışdı. O, Calalı da özü ilə meyvə bağına aparır, ağacları ona göstərib, onlara necə qulluq etməyi öyrədirdi.

Bir gün onlar bağdan qayıdanda dincəlmək üçün çinar ağacının altında oturdular. Qoca başını qaldırıb ağacın qol-budağına baxdı, sonra üzünü nəvəsinə tutdu:

-Calal, görürsənmi? - dedi, - bu çinar kənddə ən qoca ağacdır. Onu mən əkmişəm. O zaman mən sən yaşda olardım...

Babası bu sözləri deyib fikrə getdi. Əlini ağ saqqalına çəkdi, gözlərini qıyıb dedi:

-Mənim babam da bağban idi. Mənə ağac əkməyi o öyrətmişdi. O zaman kəndimizdə ağac az idi. Bu yerlər elə isti olurdu ki, adamın nəfəsi tutulurdu. Bir gün babam mənə dedi: «Nüsrət, gəl burada ağac əkək...» Gördüyün bu yolun hər iki tərəfində bir çinar basdırdım. Onlara qulluq elədim. Biri tutdu, o birisi isə qurudu.

Qoca qurumuş ağacın yerini göstərib ah çəkdi:

-Yoxsa indi qoşa çinar olacaqdı.

Babası susdu. Calal gözlərini babasının gözlərinə zilləyib soruşdu:

-İndi daha əkmək olmaz? Qoy o tərəfdə də olsun.

Nəvəsinin bu sualından babanın gözlərinə sanki işıq gəldi:

-Nə üçün olmur, bala! Qoy o da sənin adına olsun.

-Bəs qurumaz?

-Yox, bala! O zamanlar çoxdan keçdi. İndi suyumuz boldur. İki çeşməmiz var. Kənddə nə əksən tutar.

Bu söhbətdən düz bir il sonra yolun o biri tərəfində qoca çinarın qarşısında körpə bir çinar ağacı yarpaqladı. Qollu-budaqlı qoca çinarın yanında onun zərif yaşıl yarpaqları ipək kimi parıldayırdı. Bir neçə il keçdi. Körpə çinar xeyli yekəldi. Kəndin girəcəyindəki bu qoşa çinar, kölgəsində əyləşənlərə baba ilə nəvəni xatırladırdı.

*Xalidə Hasilova*

● Calal nə üçün çinar ağacı əkdi?
Əkilən ağacların faydası nədir?
Siz hansı ağacları əkib böyüdürsünüz?
Nə üçün yaşıllığı qorumaq lazımdır?

**ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR**

Pionerlərin işi haqqında öyrəndiklərinizi danışın.

Pioner qanunlarında sovet uşaqlarının bütün dünya uşaqları ilə dostluğu necə əks olunmuşdur?

Gənc timurçular hərəkatı nə vaxt və nə ilə əlaqədar başlanmışdır?

Qəhrəman pionerlər haqqında bildiklərinizi danışın.

## Payız gəlir

Yay qurtardı, gəldi payız,
Səhər-axşam hava sərin.
Şux rəngləri soldu bütün
Yarpaqların, çiçəklərin.

Sarı-qızılı rəngə çaldı
Çəmənlər də, ağaclar da.
Şirələnib dada gəldi
Alma, armud ağaclarda.

Şeh düşəndə üstlərinə
Bağ-bağçalarda meyvələr.
Dondurma tək şirin olur,
Sərin olur səhər-səhər.

Ayaz düşür, külək əsir,
Göy üzündə ağır-ağır
Qara, boz buludlar gəzir,
Çiskin olur, yağış yağır.

Bağçalarda, meşələrdə
Hər yer yumşaqdır, nəmişdir.
Xəzəllərdən yerə sanki
Rəng-rəng xalça döşənmişdir.

Qaranquşlar, boz bülbüllər
Uçmuş isti ölkələrə.
Ördək, qaz, qu qatar-qatar
Gəlir bu vaxt bizim yerə.

*Mikayıl Rzaquluzadə*

**Tapmaca:**
Ayağı yoxdur, qaçır,
Qanadı yoxdur, uçur.

● Payızda havalar necə olur?
Payızda bitkilər necə olur?
Şeirdə yarpaqların və meyvələrin təsvir olunduğu bəndləri tapıb oxuyun.
Qaranquşlar, bülbüllər və başqa quşlar payızda nə üçün uçub gedirlər?
Bəs hansı quşlar bizim yerlərə uçub gəlirlər?
Şeiri əzbərləyin.

## Payızda

Havalar soyumuşdu. Günəş az-az görünürdü. Buludlar isə bir-birləri ilə yola getmir, payız girəndən bəri tez-tez yağış yağırdı. Elə bil bu yağışlar paltarını soyunmuş çılpaq ağacları yumaq istəyirdi.

Müəllim payızın gözəlliyindən danışanda, bu günlərdə meşəyə gəzintiyə gedəcəklərindən söhbət açanda hamıdan çox İradə sevindi. Axı o, şəhərdən gəlmişdi.

Meşəyə gedəndə İradə hamıdan qabaqda idi. O, arabir ayaq saxlayıb, boz buludlara, onunla gizlənpaç oynayan günəşə baxırdı. Meşəyə bir az qalanda seyrək yağış yağmağa başladı. Ancaq tez də kəsildi. Buludlar parçalandı. Günəş parıldadı. Meşə elə bil al-əlvan rəngə bürünürdü.

-Bir baxın, meşə necə də gözəl görünür, - deyə İradə sevincini bildirdi.

-Yarpaqların hərəsi bir rəngdədir: qırmızı, sarı, çəhrayı.

Uşaqlar dayandılar. Müəllim onları başa saldı ki, payızda Yer Günəşdən uzaqlaşır, elə buna görə istilər azalır, soyuqlar düşür, ağacların yarpaqları tökülür.

-Müəllim, nə üçün sinfimizdəki güllər həmişə yaşıl qalır? – deyə İradə soruşdu.

Uşaqlardan biri dedi:

-Axı otağın havası isti olur. Həm də onlar başqa cür, həmişə yaşıl olan bitkiləridir.

Müəllim onun sözünü təsdiq etdi.

Hava yenə tutuldu. Elə bil meşəyə axşamın ala-toranlığı çökdü. İradə dedi:

-Nənəm deyir ki, belə havalarda canavarlar yuvalarından çıxıb özlərinə yem axtarırlar.

Uşaqlardan biri:

-Məgər buralarda canavar olur?

-Bəs necə? Nənəm deyir, meşədə ayı da olur, canavar da.

Elə bu vaxt yaxından şıqqıltı sala-sala nə isə qaçdı. İradə qışqırdı:

-Yəqin canavardır...

Uşaqlar gülüşdülər:

-Yaman qorxaq qızsan. O ki dovşan idi.

Uşaqlar meşəni gəzdilər. Burada nə qədər müxtəlif ağac vardı. Palıd, fısdıq, küknar, qarağac, vələs sanki bir-biri ilə qucaqlaşmışlar.

Bir az gedəndən sonra onlar meyvə ağaclarına rast gəldilər. Uşaqlar cır alma, armud, əzgil yedilər. Onlar herbari düzəltmək üçün əlvan payız yarpaqları yığdılar. Hamı gəzintidən razı qaldı.

*Mirvari Dilbazi*

**Tapmaca:**

Yağış yağanda
Çimər, yuyunar.
Yazda geyinər,
Qışda soyunar.

● Hekayədə payızın hansı əlamətləri göstərilir?

## Qurd və quzu

*(Təmsil)*

Çay qırağında qəflətən naçar[1]
Bir quzu bir gün oldu qurda düçar[2].
Quzu qorxub dayandı xeyli məlul[3].

---

[1] Naçar – çarəsiz
[2] Oldu qurda düçar – qurda rast gəldi
[3] Məlul - kədərli

Qurd olarkən su içməyə məşğul
Fikri ondaydı ki, tapıb nə desin,
Quzunu bir bəhanə ilə yesin.
Dedi: - Axmaq quzu, məgər korsan,
Məni yoxsa görüb də saymırsan?
De görüm bir neçin suya girdin?
Niyə sərçeşməni[1] bulandırdın?
Qorxa-qorxa quzu dedi: - Əcəba[2],
Mən ki səndən dayanmışam aşağa.
Sən olan vaxt etmərəm cürət,
Su kənarına gəlmərəm heç vaxt.
Qurd acıqlandı, söylədi: - A yasar[3]
Səndə var cürbəcür yaman hallar.
İl yarımdır eşitmişəm bunu mən,
Danışırsan dalımca çox sözü sən.
Quzu and içdi, gəldi fəryada:
-Yox idim mən o vaxt dünyada.
Sən bilirsən, mənim yaşım azdır,
Anadan, olduğum həmin yazdır.
Qurd cavab tapmadı, qəzəbləndi,
Qışqırıb çox acıqlı səsləndi:
-Tutalım, sən o vaxt olmamısan,
Anadan ya ki heç doğulmamısan,
Var imiş ki atan, anan o zaman.
Nə deyirsən, bu doğrudur, ya yalan?
Bu yerə çün yetirdi qurd sözünü,
Tutdu, yırtdı, dağıtdı ol quzunu.

*İvan Andreyeviç Krılov*

**Atalar sözü:**
Böhtana düşən odsun yanar.
Qurd tükünü dəyişər, xasiyyətini yox.

---

1 Sərçeşmə – bulağın, axar suyun yuxarı tərəfi
2 Əcəba – görəsən
3 Yasar – alçaq, yaramaz

**Tapmaca:**
O tayda durar gedər,
Boynunu burar gedər.
Bir sürüyə girəndə,
Qırxını qırar gedər.

● Qurd Quzuya nə üçün acıqlandı və ona nə dedi? Quzu nə cavab verdi?

## Bozboyun

*(İxtisarla)*

Otları saraldan ilk payız soyuğu bütün quşları bərk təşvişə salmışdı. Quşların hamısı uzaq səfərə hazırlaşırdı.

Bəli! Bir neçə min kilometr yol uçub getmək asan iş deyildi. Yazıq quşların neçəsi yolda qüvvədən düşüb qalacaq, neçəsi məhv olacaqdı.

Qaz və ördək kimi iri quşlar da qarşıya çıxacaq çətinlikləri başa düşür, yola yaxşı hazırlaşırdılar. Cüllüt, qaratoyuq və sair quşlar isə hamıdan çox səs-küy salır, vurnuxur, əlləşirdilər. Onlar çoxdan dəstə-dəstə toplaşıb, çayların dayaz yerlərində və bataqlıqlarda sürətlə bir sahildən o biri sahilə uçuşurdular.

Meşələr isə qaranlıq və kədərli görünürdü. Orada səs-səmir eşidilmirdi, onun cəh-cəh vurub oxuyan quşları soyuğun düşməsini gözləmədən uçub getmişdilər.

-Görəsən, bu xırda quşlar hara belə tələsir? - deyə özünə əziyyət verməyi xoşlamayan yaşılbaş ördək deyinirdi. - Vaxtında hamımız uçub gedəcəyik... Başa düşmürəm, narahat olmalı nə var...

Onun arvadı Qoca ördək dedi:

-Sənin kimi də ata olar? Atalar uşaqlarının dərdinə qalırlar. Sənin isə dünya vecinə deyil.

-Sən bizim balamız Bozboyundanmı danışırsan? O uça bilmirsə, mən nə edə bilərəm? Mən təqsirkar deyiləm...

Bozboyun onların şikəst qızları idi. Hələ yazda Tülkü onu tutmaq istəyəndə qanadını qırmışdı. Qoca ördək

düşmənin üzərinə cəsarətlə atılıb balaca qızını onun əlindən almışdı.

Ana ördək göz yaşları içərisində dedi:

-Hamı uçub gedəcək, Bozboyun isə tək-tənha qalacaqdır. Bəli, tamamilə tək... Biz cənuba, isti yerə uçacağıq, o yazıq isə burada soyuqdan donacaq...

* * *

Ayrılığın yaxınlaşdığını hiss edən Qoca ördək öz şikəst qızına ikiqat nəvazişlə yanaşırdı. Yazıq qız hələ ayrılığın, tənhalığın nə olduğunu bilmirdi və başqalarının yola hazırlaşmalarına maraqla baxırdı. Bəzən o, öz bacı və qardaşlarının sevinclə uçmağa hazırlaşdıqlarına və heç zaman qış olmayan uzaq yerlərdə olacaqlarına həsəd aparırdı.

Bozboyun anasından soruşdu:

-Siz yazda qayıdacaqsınız, deyilmi?

-Bəli, bəli, mənim əzizim, qayıdacağıq...

-Yenə də hamımız birlikdə yaşayacağıq?

Fikrə getmiş Bozboyuna təsəlli vermək üçün anası burada qışlamağa qalan ördəklər haqqında bir neçə hadisə söylədi.

-Bir təhər keçinərsən, əzizim, - deyə Qoca ördək onu sakitləşdirdi. - Əvvəlcə darıxacaqsan, sonra isə öyrəşərsən. Səni qışda donmayan çeşməyə köçürmək mümkün olsa idi, lap yaxşı olardı. O çeşmə buradan çox da uzaq deyil. Lakin boş-boşuna danışmağın nə mənası var? Onsuz da biz səni ora köçürə bilməyəcəyik.

Yazıq Bozboyun təkrar etdi:

-Mən həmişə sizin haqqınızda düşünəcəyəm... Həmişə fikirləşəcəyəm ki, siz haradasınız, nə edirsiniz, gününüz şənmi keçir? Ürəyim həmişə sizin yanınızda olacaq.

Öz kədərini gizlətmək üçün Qoca ördək bütün qüvvəsini toplayırdı. Amma özünü şən göstərməyə çalışırdısa da, gizlində ağlayırdı...

Vaxt nə qədər də tez keçdi!.. Artıq soyuqlar düşürdü. Qırovdan qayın ağacları saralmış, qovaqlar isə qızarmışdı. Çayın suyu bulanmışdı. Sahildəki ağaclar yarpaqlarını tökmüşdü, sahil çılpaqlaşmışdı; çay daha geniş görünürdü.

Soyuq payız küləyi qurumuş yarpaqları qoparıb özü ilə aparırdı. Göyün üzünü tez-tez qalın buludlar bürüyür və narın payız yağışı yağırdı... Əvvəlcə bataqlıq quşları uçub getdi; çünki bataqlıqlar artıq donmağa başlamışdı. Hamıdan axıra suda üzən quşlar qaldılar.

Bozboyunu hamıdan çox durnaların uçub getməsi kədərləndirirdi. Onlar elə həzin-həzin qığıldaşırdılar ki, elə bil, onu da özləri ilə aparmaq istəyirdilər. Onun ürəyi ilk dəfə indi ayrılıq kədərindən sıxıldı və durna qatarı gözdən itənədək baxdı.

«Yəqin ki, onlar şaddırlar» - deyə Bozboyun düşündü. Qazlar və ördəklər də uçmağa hazır idilər.

Ayrı-ayrı ailələr birləşib böyük dəstələr əmələ gətirdilər. Qoca və təcrübəli quşlar cavanları öyrədirdilər. Uzaq yerə uçmaq üçün qanadlarını möhkəmlətsinlər deyə gənclər şən-şən qışqıraraq, böyük gəzintilər təşkil edirdilər. Ağıllı başçılar əvvəlcə ayrı-ayrı dəstələri, sonra isə hamını birlikdə byrədirdilər. Nə qədər qışqırıq, nə qədər şənlik və sevinc var idi!.. Yalnız Bozboyun bu gəzintilərdə iştirak edə bilmirdi və onlara ancaq kənardan tamaşa edirdi. Əlac nə idi!

Qoca dəstə başçısı deyirdi:

-Vaxtdır. Yola düşmək lazımdır... Gözləməli bir şey yoxdur. Bütün dəstə çayın üzərində bir yerə yığışdı. Suyun üzünə qalın duman çökmüşdü. Onların karvanı üç yüz ördəkdən ibarət idi. Qoca ördək bütün gecəni yatmamışdı - bu, onun Bozboyunla birlikdə keçirdiyi axırıncı gecə idi.

-Sən sahildə, çeşmənin çaya axdığı yerdə yaşa, - deyə o, məsləhət verirdi. Orada su bütün qışı donmur.

-Hə, yola düşək! - deyə dəstə başçısı nəzərləri ilə uzun müddət ötürdü. Əvvəlcə hamısı canlı bir yığın şəklində uçurdular, sonra isə düzbucaq təşkil edib gözdən itdilər.

«Doğrudanmı mən tamamilə təkəm?» - deyə Bozboyun düşünüb göz yaşı axıdırdı. «Tülkü məni o zaman yesəydi, daha yaxşı olardı...»

* * *

Bozboyunun qaldığı çay sıx meşələrin arasından şırıltı ilə axırdı. Bura çox səssiz idi, ətrafda heç bir kəs yaşamırdı.

Sahildəki sular gecələr donmağa başlayır; gündüz isə şüşə kimi nazik olan buz əriyirdi.

Bozboyun dəhşətə gəlirdi: «Doğrudanmı bütün çay donacaq?»

O, təklikdə darıxırdı, uçub getmiş qardaş və bacıları haqqında düşünürdü. «İndi onlar haradadırlar? Uçduqları yerə salamat çatdılarmı?.. Onu yada salırlarmı?» O, yalqızlığın dadını gördü. Çay bomboş idi. Meşədə yalnız dələ və dovşanlar atılıb-düşürdü.

İlk qar tezliklə düşdü, çay isə hələ də soyuğa təslim olmurdu. Gecələr donan yerlərin buzunu səhər günəş əridirdi. Ölüm-dirim mübarizəsi gedirdi. Çay elə bil yuxuya gedir və soyuq onun üstünü buz ilə örtmək istəyirdi. Yalnız çayın ortasındakı geniş bir yer donmamışdı. Üzmək üçün on beş metr yer qalmışdı... Sahildə tülkünü gördükdə Bozboyunun kədəri son dərəcəyə çatdı. Bu, onun qanadını qıran tülkü idi.

Sahildə dayanmış tülkü mehribanlıqla dedi:

-Baho! Köhnə tanış, salam! Çoxdandır görüşmürük. Qış münasibəti ilə səni təbrik edirəm.

Bozboyun cavab verdi:

-Buradan çıx get! Mən səninlə danışmaq belə istəmirəm!

Tülkü getdi. Artıq əsl qış girmişdi. Yerin üzü ağ yorğan ilə örtülmüşdü. Bir dənə də olsa, qara ləkə qalmamışdı. Qayın ağacı, qızılağac, söyüd və bəzi başqa çılpaq ağaclar daha da gözəlləşmişdilər. Onlar elə bil qardan kürk geymişdilər.

Yazıq Bozboyunu bir fikrr dəhşətə gətirirdi: tezliklə yaşadığı suyun ortası da donacaq və onun getməyə heç bir yeri olmayacaqdı. Tülkü bir neçə gündən sonra gəldi, sahildə oturdu və yenidən danışmağa başladı.

-Sənin üçün darıxmışam, ördəkciyim... Bura gəl, əzizim, istəmirsən, onda özüm sənin yanına gələrəm. Mən lovğa deyiləm.

Tülkü buzun üzəri ilə ehtiyatla donmamış yerə doğru sürünməyə başladı. Bozboyunun ürəyi qopdu. Lakin tülkü su olan yerədək gedə bilmədi, çünki orada buz hələ lap

nazik idi. O, başını qabaq pəncələrinin üstünə qoydu, onları yalaya-yalaya dedi:

-Sən nə axmaq ördəkciksən!.. Buzun üzərinə çıx! Çıxmırsansa, salamat qal! İşim var...

Tülkü suyun tamam donub-donmadığını bilmək üçün hər gün gəlməyə başladı. Şaxta öz işini görürdü. Suyun donmamış yerindən yalnız iki metr böyüklüyündə sahə qalmışdı. Buz möhkəm idi. Tülkü buzun lap ucunda oturdu. Bozboyun qorxudan suya cumdu. Tülkü isə durub qəzəblə ona gülürdü:

-Eybi yoxdur, cum, onsuz da səni yeyəcəyəm!.. Yaxşısı budur özün çıx!

Bir dovşan tülkünün hiyləsini sahildən görürdü. Onun ürəyi qəzəblə dolmuşdu.

-Ah, bu tülkü nə qədər də insafsızdır! Bozboyun necə də bədbəxtdir! Tülkü onu yeyəcək...

* * *

Su tamamilə donanda tülkü Bozboyunu yeyə bilərdi. Lakin belə bir hadisə baş verdi. Əhvalat səhər olmuşdu. Dovşan yem axtarmaq və başqa dovşanlarla oynamaq üçün öz yuvasından bayıra çıxdı. Bərk şaxta idi. Dovşanlar pəncərələrini bir-birinə sürtərək qızışırdılar.

-Qardaşlar! Özünüzü gözləyin! - deyə kim isə qışqırdı.

Doğrudan da, təhlükə başlarının üstündə idi. Beli bükük, qoca bir ovçu meşənin kənarında dayanmışdı. O, meşəyə xizəklə səssizcə gəlmişdi. Qoca ovçu vuracağı dovşanı seçmək üçün diqqətlə ətrafa baxdı. O, nişan da aldı. Onu görən dovşanlar dəli kimi meşəyə atıldılar.

-Ah, kələkbazlar! - deyə qoca hirsləndi, - mən sizə göstərərəm! Nə qədər qaçsanız, məni aldada bilməyəcəksiniz. Mən sizdən də hiyləgərəm.

Qoca ayaq izlərini tutub dovşanları axtarmağa başladı. Lakin onlar noxud kimi meşəyə səpələnmişdilər. Qoca tamamilə əldən düşdü, dincəlmək üçün çayın kənarında oturdu.

Qoca oturub düşünürdü. Bir də gördü ki, tülkü buz bağlamış çayın üzəri ilə pişik kimi sürünür.

-Aha, sən bir buna bax! Görünür, su içmək istəyir, bəlkə də balıq tutmaq fikrindədir.

Tülkü Bozbuyuna tərəf sürünürdü.

Qocanın gözləri pis görürdü. Tülkünün qabağındakı ördəyi gözü seçmirdi.

Qoca, tülkünü nişan ala-ala fikirləşdi:

-Elə atmaq lazımdır ki, dərisi xarab olmasın...

Güllə açıldı. Atəşin tüstüsü arasında ovçu buzun üstündən nəyinsə tullanıb suya atıldığını gördü. Ovçu oraya tərəf qaçdı.

Tülkü yox idi, suda isə ancaq qorxmuş Bozboyun üzürdü. Qoca əllərini yellədi və ah çəkdi:

-Bir hiyləyə bax! Birinci dəfədir ki, tülkünün ördəyə çevrildiyini görürəm. Bic heyvandır ha!

-Babacan, tülkü qaçdı, - deyə Bozboyun izah etdi.

-Qaçdı? Bəs, ay səfeh, sən niyə burada üzürsən?

-Babacan, mən başqaları ilə birlikdə uçub gedə bilmədim. Bir qanadım xarabdır.

-Ay səfeh! Axı sən burada donarsan. Axı tülkü səni yeyər.

Qoca xeyli düşündü, başını buladı və belə bir qərara gəldi:

-Gəl biz belə edək. Mən səni nəvələrimə aparım! Onlar çox sevinərlər! Yazda isə sən yumurtlayarsan, balaca ördəklər çıxararsan. Doğrumu deyirəm? Bax, belə!

Qoca, Bozboyunu sudan çıxarıb qoltuğuna vurdu və evə yollandı.

*Mamin-Sibiryak*

**Atalar sözü:**
Bala baldan şirindir.
Hər kəsə öz balası şirindir.

● Quşlar payızda doğma yurdlarını nə üçün tərk edirlər?
Ana ördək balası haqqında nələr fikirləşirdi?
Tülkü Bozboyunu nə üçün yeyə bilmədi?
Hekayəni yığcam nağıl edin

## Arxip baba və Lyonka

*(İxtisarla)*

Lyonka mürgüləyir, Arxip baba isə ürəyi ağrıdığından yata bilmirdi. Onların günəşdən qaralmış tozlu üzlərinin rəngi əyinlərindəki köhnə, cındır paltarın rəngindən seçilmirdi.

Lyonka arıq və balaca idi. Onun babası dağ çaylarının qırağa atdığı qurumuş ağaca, özü isə həmin ağacın qırılmış bir budağına bənzəyirdi. Qoca dirsəyini başının altına dayaq verib, o taydakı söyüd ağaclarına baxırdı... Onun halı həmişəkindən pis idi. Bu yaxınlarda öləcəyini hiss edirdi. Nəvəsinin halı da onu çox düşündürürdü. O ölsə, bəs Lyonkanın halı necə olacaqdı?

Qoca, nəvəsinin başını bağrına basıb öpdü. Bir azdan sonra o, dedi:

-Balacan, bəs mən öləndən sonra sən necə dolanaqsan?...

Elə bilirsən ki, dilənçinin adam hesab edən var? Yox, heç kəs! Mən on ildir ki, dilənçilik edirəm. Hamısını görmüşəm...

Toxların aclara yazığı gəlmir. Onlar bir-birini anlamırlar... Sən zəif bir uşaq, dünya isə vəhşi bir heyvan. O səni birdən-birə udar. Amma mən istəmirəm belə olsun. Axı mən səni sevirəm. Sən mənim təkcə balamsan, mən də sənin təkcə baban... Sənin başqa heç kimin yoxdur.

Qoca başını titrəyən dizləri arasına qoyub ağlamağa başladı. Lyonka dedi:

-Bəsdir, babacan, ağlama!

Onlar ayağa qalxıb, torbalarını, ağaclarını götürdülər. Balıq tutmağa gəlmiş bir kazakın arabasına minib, kəndə dilənməyə getdilər. Qoca ilə nəvəsi bir topa qovaq ağacının yanında arabadan düşdülər...

-Di, haydı!.. kilsənin yanında görüşərik...

Qoca soldakı döngəyə girdi. Lyonka isə düz getdi.

Lyonka on addıma qədər getdikdən sonra belə bir səs eşitdi: «Ay rəhmli ağalar, kimdir ac yoxsula kömək eyləyən!»

Bu gur səs qocanın səsi idi.

Lyonka divar dibinə yaxınlaşıb, küçəyə əyilmiş gilas ağaclarının kölgəsində oturdu. Sonra divarın kölgəsində, gəlib-gedənlərin gözlərinə görünməyən bir yerdə yatdı.

* * *

Lyonka ağlayan bir qızın səsinə oyandı.

-Ay qız, sənə nə olub, niyə ağlayırsan?

-Yaylığımı itirmişəm. Atam bazardan gətirmişdi. Göy güllü yaylıq idi, başıma bağlamışdım, indi itirmişəm...

Lyonka fikrə gedib, qaralmaqda olan göyə baxdı. Qıza çox yazığı gəlirdi.

-İstəyirsən mən də gedim, işin nə yerdə olduğunu anana danışım!

-Yox lazım deyil, getmə! Anam dilənçiləri xoşlamır.

Qız Lyonkadan ayrılıb getdi və iki dəfə dönüb dala baxdı.

* * *

Axşam yaxınlaşırdı. Lyonka babasının yanına getmək istədi, cəld addımlarla irəlilədi.

O, sədəqə yığmaq istəmirdi.

Lyonka yol gedə-gedə ürəyinin bərk döyündüyünü duyurdu. Qız onun fikrindən çıxmırdı. Düşünürdü ki, görəsən qızın başına nə gələcəkdir: əgər o, varlı uşağıdırsa, yəqin onu döyəcəklər. Çünki varlılar hamısı yaman xəsisdirlər. Kasıb uşağı olsa, bəlkə də döymədilər...

Budur, babası da kilsənin qabağına gedir. Özü də dağarcığın ağırlığından əyilmişdir; əlini alnına qoyub, yan-yörəsinə boylanır.

Papağını gözünün üstünə basmış bir kazak əlində bir ağac veyil-veyil qocanın ardınca addımlayırdı.

Baba kilsə hasarının yanında dayanıb gözlədi və nəvəsi yaxınlaşanda soruşdu:

-Nə var, yenə deyəsən, dağarcığın boşdur? Bir gör, mən nə qədər yığmışam, - deyə o hıqqana-hıqqana dağarcığı çiynindən yerə saldı. Of, burada yaxşı sədəqə verirlər ha!

Kazak bunlara yaxınlaşanda, qoca ona salam verib dedi:

-Xoş gördük!

-Sizi də xoş gördük! – deyə, kazak ayaqlarını biri-birindən xeyli aralı qoyub, dilənçilərin qabağında dayandı. Mənasız-mənasız baxan iri gözlərini onlara zillədi, başını qaşımağa başladı. Lyonka da diqqətlə ona baxırdı. Qoca gözlərini tez-tez qırpıb, kazakın nə deyəcəyini gözləyirdi...

Xeyli susduqdan sonra kazak dedi:

-Hə, gəl gedək divanxanaya[1].

Qoca diksinib soruşdu:

-Nə üçün?

-Elə belə, lazımdır!.. belə buyurublar! Tez ol, kimi gözləyirsən?

Qoca ilə Lyonka ayağa qalxıb onun ardınca getməli oldular.

Lyonka diqqətlə babasına baxdı; onun dodaqları əsirdi. Qorxa-qorxa yan-yörəsinə baxırdı, qoltuğunda nə isə qurdalayırdı. Lyonka qorxmağa başladı və Tamandakı əhvalat o saat gözünün qabağına gəldi. Orada babası bir həyətdən paltar oğurlamış və tutulmuşdu. Tamanda onları bərk döymüşdülər, hətta kənddən də qovmuşdular.

Kazak çubuq çəkə-çəkə onlardan beş addım irəlidə gedirdi. O, əlindəki ağac ilə qabağına çıxan çiçəkləri vurub qırırdı...

Lyonka babasının ardınca divanxanaya girdi.

Babasının heybəsini axtardılar, quru çörəkdən başqa bir şey tapmadılar... Qoca zarımağa başladı. Lyonka ağlayıb yerə yıxıldı. Ayıldıqda başını babasının dizləri üstündə gördü.

-Balacan, dur gedək, məlunlar bizi buraxdılar...

* * *

Onlar gəlib kəndin qırağında oturdular.

Qoca öskürəkdən büzüşə-büzüşə qoltuğundan uzun, parlaq bir xəncər çıxarıb nəvəsinə uzatdı:

-Lyonka, bir bax, gümüşdəndir. Azı əlli manata dəyər...

---

[1] Divanxana - məhkəmə

Qoca cındır paltarının arasından bir yaylıq da çıxarıb Lyonkaya göstərdi. Sanki Lyonkanın gözü qabağında olan dumanlı bir pərdə yırtıldı: guya

Yaxınlıqdakı evin pəncərəsindən onlara çığırırdılar: «Oğrular, oğrular...»

Qoca isə mızıldanırdı:

-Yüz manat yığa bilsəydim, rahat ölərdim...

Lyonka birdən acıqlı-acıqlı söyləndi:

-Ax, qoca oğru!.. Heç uşağın yaylığını da oğurlayarlar?

Birdən bütün çöl titrədi və göy işıqlandı... Çölü bürümüş qaranlıq bir anlığa yox oldu. Göy gürüldadı, yeri və qapqara buludlarla örtülü göyü titrətdi...

* * *

Gecə qaranlıqdı. Uzaqlarda ildırım çaxırdı. Qoca səssiz-səmirsiz arxasını ağacın kötüyünə dirəyib oturmuşdu. Lyonka göyün yenə də guruldayacağını gözləyib, qorxa-qorxa dedi:

-Babacan, gəl gedək kəndə! Göy yenə guruldadı, babacan!..

Qoca yerindən tərpənməyib dilləndi:

-Nədən qorxursan? Mən kəndə getməyəcəyəm! Qoy mən q o c a o ğ r u n u sel aparsın, ildırım vurub yandırsın!.. Getməyəcəyəm, gedirsən özün get... Mən istəmirəm sən burada tutulasan... Get buradan!.. Tez ol, get!

Qoca axırıncı sözlərini çığıra-çığıra dedi. Lyonka qocaya yaxınlaşıb yalvardı:

-Babacan, məni bağışla...

* * *

-Getməyəcəyəm dedim, bağışlamayacağam... Mən sənin üçün yaşamışam... Mənə heç bir şey lazım deyil... Mən ölürəm, ölürəm... Sən mənə oğru deyirsən!.. Kimin üçün oğurlamışam?..

Qocanın səsi naziklədi. Lyonka qorxuya düşdü. Yağış bərkidi. İldırım işığında yağışın damcıları polad kimi parıldayırdı.

Lyonka qorxudan və soyuqdan az qalmışdı ki, donsun. Onun gözləri bərəlmişdi, yağış damcıları üzünə düşəndə də

o, göz qırpmadan qocanın boğuq səsini dinləyirdi. Lyonka hiss edirdi ki, babası hərəkətsiz oturmuşdur. Ona elə gəlirdi ki, babası bu saat hara isə qaçıb onu tək qoyacaqdır.

İldırım işığında qocanın üzü ölü üzünə bənzəyirdi.

-Babacan, dur gedək! - deyə, Lyonka çığırdı və başını babasının dizləri arasına soxdu. Qoca əyildi, arıq əlləri ilə Lyonkanı bərk-bərk qucaqladı və birdən tələyə düşmüş qurd kimi bərkdən qışqırdı. Lyonka bu qışqırıqdan qorxdu. O, dartındı, qocanın əllərindən qurtarıb, ayağa qalxdı və qaçmağa başladı.

Lyonka yıxılır, dururdu. Yağış isə yağır, qorxunc səslər ətrafa yayılırdı...

* * *

Ertəsi gün səhər uşaqlar kəndin ətrafına çıxmışdılar. Onlar kəndə xəbər yaydılar ki, dünənki qoca dilənçi ağacın altında ölmüşdür, yanında da bir xəncər və bir yaylıq var.

Onu həmin ağacın altında basdırdılar.

İki-üç gündən sonra kəndin yaxınlığındakı bir dərənin üstündə dəstə-dəstə qarğa hərlənirdi. Adamlar orada, dərənin dibində palçıqlı yağış suyunun içində üzüqoylu yıxılmış, qolları açıq qalmış bir uşaq tapdılar... Bu, Lyonka idi. Onu da həmin ağacın altında, babasının yanında basdırdılar...

*Maksim Qorki*

● Arxip baba kim idi?
O nə üçün dilənir və oğurluq edirdi?
Lyonka onun dilənçilik və oğurluq etməsinə necə baxırdı?
Arxip baba Lyonkanın gələcəyi barədə nə düşünürdü?
O, varlılar barəsində nə deyirdi?
Nə üçün Lyonkanın qıza yazığı gəlirdi?
Arxip baba ilə Lyonkanın ölümünə səbəb nə oldu?
Hekayənin ayrılmış hissələrinə başlıq verin.
Başlıqlar üzrə hekayəni nağıl edin.
İnqilaba qədər yoxsulların həyatına aid daha nə bilirsiniz?

**Süleyman şah və qarışqa**

*(Azərbaycan xalq nağılı)*

Bir gün Süleyman şah qoşunu ilə yoldan keçirdi. Yol üstə dayanmış bir qarışqanı görüb soruşdu:

-Ay qarışqa, burada niyə durubsan?

Qarışqa cavab verdi:

-Dünyaya gəlib-gedən Süleymanları saymaq üçün durmuşam.

Sleyman şah xəbər aldı:

-Dünyaya neçə Süleymanlar gəlib-gedib?

Qarışqa dedi:

-Səninlə yetmiş Süleyman gəlib-gedib.

Süleyman şah təəccüblə soruşdu:

-Bunu nədən bilirsən?

Qarışqa dedi:

-Ağıl, bacarıq və qənaətcilliyimlə bilirəm.

Süleyman şah dedi:

-Ağıllı olduğunu nədən bilim?

Qarışqa başını göstərdi:

-Başımın yekəliyindən.

Süleyman şah soruşdu:

-Bacarıqlı olduğunu nədən bilim?

Qarışqa bir qədər yeridi:

-Əl-ayağımın çevikliyindən.

Süleyman xəbər aldı:

-Bəs qənaətcilliyini nədən bilim?

Qarışqa:

-Belimin nazikliyindən.

Süleyman şah təəccüblə soruşdu:

-Axı sən necə qənaət edə bilərsən?

Qarışqa dedi:

-Mən bir buğda ilə yeddi il dolana bilərəm.

Süleyman bir qədər fikrləşib dedi:

-Qarışqa, sənin bu sözlərini sınayacağam. Dediklərin doğru çıxdı, sənə nə istəsən verəcəyəm, yalan çıxdı, onda səni öldürəcəyəm.

Qarışqa cavabında:

-Mənim sözlərim doğrudur, sınaya bilərsən.

Süleyman qarışqanı bir buğda dəni ilə şüşənin içinə saldırıb mıxdan asdırdı.

Süleyman şahın başı kefə qarışdı. Bir də baxdı ki, o vaxtdan yeddi il keçib. O, əmr etdi:

-Gedin qarışqanı gətirin.

Qarışqanı gətirdilər. Süleyman şah şüşənin ağzını açdı. Qarışqa sağ-salamat idi. Buğdanın da hələ üçdə biri qalmışdı. Şah soruşdu:

-Ay qarışqa, buğdanın hamısını niyə yeməyibsən?

Qarışqa dilləndi:

-Süleyman əhli-kef bir adamdır. Qorxurdum, birdən yeddi ildən sonra da yadına düşmərəm, acından ölərəm. Ona görə də qənaət edib buğdanın üçdə birini saxladım.

Süleyman şah dedi:

-Qarışqa, bu sözün doğru çıxdı. İndi bacarığını sınayacağam. Bir xırman buğdanı nə vaxta daşıya bilərsən?

Qarışqa dedi:

-Toxunan olmasa, bir gündə daşıya bilərəm.

Süleyman şah qarışqanı bir xırman buğdanın üstünə buraxıb əmr verdi ki, ona toxunan olmasın.

Qarışqa buğdanı yuvasına daşımağa başladı. Səhəri gün Süleyman şah gəlib gördü ki, bir dənə də buğda qalmayıb.

O, razılıq elədi:

-Qarışqa, bu sözün də doğru çıxdı. İndi sənin ağlını sınayacağam. Get, hazırlaş, sabah qoşunumla sənə qonaq gələcəyəm.

Qarışqa yuvasına getdi. Qarışqaları çağırdı və onlara tapşırdı ki, qonaqlara nə lazımsa, hazır eləsinlər. Səhər açıldı. Süleyman şah atını minib qoşunu ilə qarışqaya qonaq gəldi. Qarışqa Süleyman şahı qarşıladı. Şah atdan düşdü.

Qarışqa yoldaşlarına dedi:

-Atları damlara çəkin.

Qarışqalar atları damlara çəkdilər. Özü isə Süleyman şahı qoşunu ilə içəri apardı. Qonaqlar xalı üstündə oturdular.

Qarışqa əmr etdi:

-Xörək gətirin.

Qarışqalar gümüş sinilərdə yağlı aş gətirib qonaqların qabağına qoydular. Qonaqlar aşı yedilər, doydular.

Süleyman şah dedi:

-Qarışqa, yaxşı qonaqlıq verdin. Səndən razı qaldım. Dur, bir sənin cah-cəlalına tamaşa eləyək.

Qarışqa dedi:

-Onda sən ixtiyar üzüyünü mənə ver, buradan qayıdanacan məndə qalsın. Bura mənim mülkümdür. Sənin burada hökm eləməyə ixtiyarın yoxdur.

Süleyman şah dedi:

-Verərəm, amma bu şərtlə ki, itirməyəsən, buradan çıxanda yenə özümə qaytarasan.

Qarışqa:

-Ver, qorxma, mən əmanət saxlamaqda qoçağam.

Süleyman şah üzüyünü qarışqaya verdi. Qarışqa üzüyü alıb getdi, tez qayıdıb dedi:

-İndi dur, gedək mənim cah-cəlalımı gör.

Süleyman şah qalxıb qarışqa ilə getdi. Gördü burada buğda bir yanda yığılıb, arpa bir yanda qalanıb, darı bir yana yığılıb, düyü bir yana tökülüb: hər yana baxırsan, anbar-anbar taxıldır. Atların qabağında arpa dağ kimi qalanıb. Qarışqalar top-top yığılıb, yerə düşən dəni bircə-bircə götürüb anbarlara atırlar. Süleyman şah oradan keçib qarışqa ilə bir dama girdi. Ora ağzına qədər yaraqla dolu idi. Hər yanda nizə, ox asılıb, qılınclar baş-başa çatılıb. Qalxanlar üst-üstə qalaq-qalaq yığılıb.

Süleyman şah oradan da keçib ayrı dama girdi. Gördü ki, bu dam ləl-cavahiratla doludur. Oradan axırıncı dama keçdi. Bu dam üzüklə dolu idi. Süleyman şah baxdı, məəttəl qaldı:

-Qarışqa, sənə Süleyman ixtiyarı, dövlət nə lazım, özün bir Süleymansan. Ver mənim ixtiyar üzüyümü, gedim.

-Hara gedirsən? Əhdinə vəfa elə. Bir üzük nədir ki, onu dilə gətirirsən? Axtar, bu üzüklərin içindən üzüyünü tap, götür.

Süleyman şah əyildi ki, üzüyünü tapıb götürsün, gördü ki, bütün üzüklərin qaşına Süleyman yazılıb, hamısı da bir-birinə oxşayır. Soruşdu:

-Qarışqa, bu üzüklərin hamısı Süleyman adınadır. Bunları haradan yığıbsan?

Qarışqa cavab verdi:

-Ay Süleyman, mən bunları Süleymanların yer-yurdundan yığmışam.

Süleyman qarışqaya dedi:

-Görünür yaşın çoxdur.

Qarışqa dedi:

-Dünyaya görə hələ cavanam.

Süleyman soruşdu:

-Qarışqa, sənin dostun, düşmənin kimdir?

Qarışqa cavab verdi:

-Mənim dostum torpaq, düşmənim sözündə doğru olmayanlardır.

Süleyman dedi:

-Qarışqa, mən sözümdə doğruyam. De görüm, sözlərinin doğruluğuna görə məndən nə istəyirsən?

Qarışqa dedi:

-Səndən heç nə istəmirəm, bircə xahişim budur ki, bizim nəsildən xərac alma.

Süleyman dedi:

-Bundan sonra sizin nəslə xərac yoxdur. Mənim ixtiyar üzüyümü tap, ver, gedim.

Qarışqa Süleymanın ixtiyar üzüyünü tapıb verdi. Süleyman qoşunu ilə atlanıb getdi.

Aradan bir az keçmişdi ki, Süleyman şahdan bir qasid gəldi. Qasid şahın əmrini gətirmişdi. Süleyman şah qarışqalardan yenə xərac istəyirdi.

Qarışqa əmri oxuyub istehza ilə güldü:

-Mən əvvəldən bilirdim belə olacaq. Bu şah tayfasına etibar yoxdur.

**Atalar sözü:**

İlanın ağına da lənət, qarasına da.

● Qarışqada hansı keyfiyyətlər vardı?

Qarışqanın dediyinin doğru olduğunu şah necə yoxladı?

Şah verdiyi vədə nə üçün əməl etmədi?

Nağılın əsas ideyası nədən ibarətdir?

«Qalaq-qalaq», «bircə-bircə» kimi təkrar olunan sözləri nağılda tapın və əhəmiyyətinə fikir verin.

Nağılı danışmağı öyrənin.

## Əlcək

*(İxtisarla)*

Arxasında zər mütəkkə,
Önündə ip yumağı, –
Pəri xala bardaş qurub
Şəkidə axşamçağı.
İsti əlcək toxuyur o,
Kimə isə bayaqdan.
Sarı, xallı yarpaqlar da
Düşür bir-bir budaqlardan…
Xəzan yeli hey titrədir
Arx üstündə otları,
Üfüq sarı,
Yarpaq sarı, ot sarı…
Çay da susub, əks eləmir
Şən səsini gen dərə.
Qatarlaşıb uçur quşlar
Uzaq-uzaq ellərə.
Xəzəl tutub bağ arası
Cığırları, yolları.
Başlarını dikib yerə
Dağda moruq kolları…
Elə bu vaxt Ülkər gəlir,
Salamlaşır qarıyla:
-Ay nənə, nə toxuyursan?
-Bu il qış sərt gələcək.
Onunçün də Rizvanıma

Toxuyuram yun əlcək.
-Bunu nədən bilirsən ki?
-Qızım, deyim, bil sən də.
Qış sərt olar
Ala çinar yarpağını
Aşağıdan tökəndə.
Bunu mənə nənəm deyib.
O zamandan hər il mən
Yoxlayıram, düz də çıxır.
Yalan olmaz el deyən…

*Bəxtiyar Vahabzadə*

**El sözü, el gözü:**

Ağaclar yarpağını gec tökərsə, qış fəsli sərt və uzun çəkər.

**Tapmaca:**

Əl ilə tutmaq olmaz,
Göz ilə görmək olmaz.

● Şeirdə payız fəslinin təsvir olunduğu nədən bilmək olar?
Pəri nənə qışın sərt olacağını nədən bilirdi?
Yaşlı alamların təcrübəli olduğu şeirdə necə ifadə edilmişdir?
Biz nə üçün yaşlılardan öyrənməliyik?
Yaşadığınız yerdə payız vaxtı pambıqçılıq, taxılçılıq, meyvəçilik, maldarlıq və başqa sahələrdə görülən işlərdən danışın.

**Payız**

Soyuq küləklər əsdi,
Payız qapını kəsdi.
Yaşıllıqda gizlənən
Günəş bulud dalında
Gah göründü, gah itdi.
Səsli quş qatarları
Yuvalar üzə çıxdı.
Meşələrin, bağların
Xəzəli dizə çıxdı.
Alaçıqlar yaylaqdan
Arana endi gəldi.
Şirvana dağın neçə

Harasa uçdu, getdi.
Dərələrdən dumanlar
Sürünməyə başladı.
Çobanlar yapıncıya
Bürünməyə başladı.

Obası, kəndi gəldi.
Payız xəbər gətirdi.
Yüksəldi nidaları:
-Qarşılayın, ay ellər,
Gələn şaxtanı, qarı.

*Yusif Həsənbəy*

● Şeirdə payızın hansı əlamətləri verilir?

**Payız qayğıları**

Tənəffüs idi. Payızda kənd təsərrüfatında hansı işlərin görüldüyündən danışırdıq. Çox fikirləşdik, pambıq, üzüm, nar və heyvanın yığılmasından, torpağın şumlanmasından başqa bir iş xatırlaya bilmədik.

Kənddə yaşayan əmim bizə qonaq gəlmişdi. Payızda kolxozçuların nə ilə məşğul olduğunu soruşdum. Əmim mənə nələr danışmadı?! Öyrəndiklərimi yoldaşlarıma çatdırmaq üçün tələsirdim. Böyük tənəffüsdə uşaqlar ətrafıma toplaşdılar. Əmimin dediklərini bir-bir danışdım:

-Bağlarda üzüm yığılır. Sonra cərgələrin arası şumlanır, tənəklərin dibi gübrələnir.

Əmim Şamaxıda üzümçülük sovxozunda işləyir. O deyir ki, üzüm bağlarını suvarmaq üçün göllər düzəltmişik. Onlardan biri də Mərzəndiyə gölüdür. Ağsuçaydan axan, dağların yamaclarından süzülən sular bir-birinə qovuşub gölə tökülür. Sonra borulara dolub dağların başına qalxır. Borular meşələrin qoynuna dolana-dolana yuxarı «dırmaşır», özü ilə həyat çeşməsi aparır. Göldən suyu nasosla qaldırıb tarlaları suvarırlar. Torpaq taxıl səpininə hazırlanır: şumlanır, hamarlanır, kanal və arxlar təmizlənir, sahə suvarılır.

Tütün yarpaqları yığılır, ipə düzülür, qurudulur, sonra məntəqələrə daşınır.

Nar bağlarında məhsul yığılandan sonra ağacların arası becərilir, pöhrələr[1] kəsilir.

---

[1] Pöhrə – təzə çıxan ağac

Pambıq yığılandan sonra sahələr çöpdən təmizlənir. Əmim qonşu rayonlarda pambığın becərilməsindən danışdı. O, dedi ki, gübrələr daşınıb sahələrə səpilir. Traktorla sahələr şumlanır.

Kənd təsərrüfatı maşınları və alətləri təmir olunur.

Uşaqlar öyrəndilər ki, payızda kolxoz və sovxozlarda iş dayanmır. Payızın da öz qayğıları var.

● Şəhər məktəbində oxuyan uşaqların kənd təsərrüfatında görülən işlər haqqında məlumatı nə üçün az olur? Uşaq əmisindən payızda görülən işlər haqqında nələri öyrəndi?

**Payız düşüncələri**

Həzin nəğmə deyir indi bağça, bağ,
Yadıma yaxınlar, uzaqlar düşür.
Yaralı quş kimi qanad çalaraq,
Yarpaqlar uçuşur, yarpaqlar düşür.

Ellərə car çəkən payızın səsi,
Düzlərdə sərt əsən küləklərdədir.
Mehriban baharın isti nəfəsi,
Ancaq ürəklərdə, ürəklərdədir.

Dağ susur, yüksəlir aranın səsi,
Yığılmış pambıqlar qar tayasıdır.
Qatardan ayrılmış durnanın səsi,
Köç etmiş baharın son nidasıdır.

Açdı ürəyini bağça, bağ mənə,
Qəlbim qanadlanıb uçmaq istədi.
Sanki əl eyləyib hər yarpaq mənə,
-Gələn baharadək, əlvida, - dedi.

*Nəbi Xəzri*

● Şeirdə payızın hansı əlamətləri verilir?
Şair yarpaqların tökülməsini nəyə bənzədir?
«Dağ susur, yüksəlir aranın səsi» sözlərini necə başa düşürsünüz?
Şeiri oxuyanda hansı hissləri keçirirsiniz?
Şeiri əzbərləyin.

**ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR:**

Payızda təbiət üzərində apardığınız müşahidələrdən danışın.

Payızın əlamətləri hansı şeirdə daha yaxşı verilib?

Nə üçün belə hesab edirsiniz?

Payız hadisələrini ifadə edən hansı sözləri bilirsiniz?

Payızda adamlar hansı işləri görürlər?

# AZƏRBAYCANDA SOVET HAKİMİYYƏTİ QURULANADƏK ZƏHMƏTKEŞLƏRİN HƏYATI; ZÜLMKARLARA QARŞI MÜBARİZƏSİ

## Fatma

*Azərbaycan xalq nağılı*

**I**

Biri var idi, biri yox idi, yoxsul bir kişinin Fatma adlı qəşəng bir qızı var idi. Fatmanın anası ölmüş, atası ikinci dəfə evlənmişdi. Bu arvadın əvvəlki ərindən çox çirkin, tənbəl və pinti bir qızı vardı. Fatma ögey bacısının köhnə paltarlarını geyinər, yavan çörək yeyər, səhərdən axşamadək işləyər, inək otarar, yun əyirərdi.

Analığı tez-tez onu döyürdü. Bir gün Fatma ağlaya-ağlaya yun əyirirdi. Birdən bərk yel əsdi və Fatmanın əlçimini götürüb apardı. Fatma əlçimin dalınca qaçdı. O qaça-qaça yelə yalvarıb dedi:

*Yel baba, yel baba,*
*Əlçimi sal, baba!*

Yel ara vermədən əsir, Fatmanın əlçimini aparırdı.

**II**

Fatma əlçimin dalınca qaça-qaça kəndlərindən xeyli uzaqlaşdı, çayın qırağında bir daxmaya çatdı. Yel Fatmanın əlçimini daxmanın bacasından içəri saldı.

Fatma ayağını içəri qoyan kimi qorxusundan yerindəcə donub qaldı. Daxmanın bir küncündə eybəcər bir qarı oturmuşdu. Qarının yekə ağzı, balta kimi iti dişləri, palaz kimi qulaqları var idi. Qarı Fatmanı görən kimi mehriban-mehriban dedi:

-Qızım, bilirəm niyə gəlmisən. Qorxma, gəl yanıma. Bir-iki gün qalıb mənə qulluq edərsən, əlçimini verərəm.

Fatma ürəkləndi. Gedib qarının yanında oturdu. Qarı soruşdu:

-Qızım, adın nədir?

-Fatma.

-Fatma, başıma baxarsanmı?

-Baxaram.

Qarı uzanıb başını qızın dizi üstə qoydu. Qarının başı çox çirkli idi. Tüklərinin arası çör-çöplə dolmuşdu.

Qarı soruşdu:

-Qızım, mənim başım yaxşıdır, yoxsa ananın?

-Qarı nənə, əlbəttə, sənin başın yaxşıdır...

Fatma, qarının evini sildi, süpürdü. Bir tabaq çörək bişirdi. Analığının ona verdiyi əzabları bir-bir nağıl elədi. Qarı dedi:

-Qızım, evimizin dalından üç su axır. Get ağ çayda çim, qara çayda saçlarını yu, onun suyundan bir az da qaşına, kirpiklərinə çək. Qırmızı çayın suyundan yanaqlarına, dodaqlarına çək.

Fatma, qarının dediklərini yerinə yetirdi. O qədər gözəlləşdi ki, adam baxdıqca baxmaq istəyirdi.

Qarı Fatmanın əlçimini özünə qaytarıb, onu evlərinə yola saldı.

**III**

Qızın birdən-birə bu qədər gözəlləşməsi ögey ananı daha da qızışdırdı, bir ağac götürüb onu o ki var döydü. Paxıllıqdan az qalırdı bağrı çatlaya. Fatma başına gələnlərin hamısını analığına nağıl elədi.

Səhəri gün ögey ana öz qızına bir kisə yun verdi ki, əyirsin. O istəyirdi ki, qızı da Fatma kimi qarının evinə getsin və eləcə də gözəlləşib gəlsin.

Fatmanın başına gələnlərin hamısı onun ögey bacısının da başına gəldi. Yel onun da əlçimini bacadan içəri saldı. Qız qapıdan içəri girən kimi eybəcər qarını görüb qorxusundan qaçmaq istədi.

**IV**

Qarı qızı görcək mehribancasına gülümsünüb dedi:

-Qızım, əlçimini almağa gəlmisən? Qorxma, gəl yanıma. Bir-iki gün yanımda qalıb qulluq edərsən, əlçimini verərəm.

Qız istər-istəməz oturdu.

-Bir az uzanım, başıma bax! - deyə, qarı uzanıb başını qızın dizinin üstünə qoydu.

Tənbəl qız qarının çirkli başından iyrənib tez əlini geri çəkdi. Qarı dedi:

-Qızım, mənim başım yaxşıdır, yoxsa ananın?

-Əlbəttə, anamın başı yaxşıdır. Sənin saçlarından adam iyrənir.

-Qızım, dur bir çörək bişir, həm özün yeyərsən, həm də mən. Qarı gördü ki, tənbəl qız çörək bişirmək fikrində deyil. O dedi:

-Onda dur, heç olmasa evimizi süpür.

-Heç öz evimizi süpürmürəm, durub zir-zibil təmizləyəcəyəm?

Qarı gördü ki, qız çox acıqlı və tənbəldir, heç bir iş görmək istəmir. Bütün günü taxtın üstündə uzanır. O, qıza dedi:

-Qızım, evinizə getmək istəyirsənsə, get. Ancaq evimizin dalından üç çay axır: birinin suyu qara, birininki qırmızı, o birininki isə ağdır. Qara suda üzünü yuyarsan, ağ sudan saçlarına, qaşlarına, kirpiklərinə çəkərsən, qırmızı suda da əllərini və ayaqlarını yuyarsan.

Qız qarının dediyi kimi etdi. Qapqara qaraldı, saçları, qaşları, kirpikləri ağappaq, əlləri qırmızı oldu.

Qarı tənbəl qızın əlçimini özünə qaytarıb onu evlərinə yola saldı.

Anası qızını görüb gecə-gündüz ağladı. O, acığını yazıq Fatmanın üstünə töküb onu incitməyə başladı.

**V**

Fatmagilin kəndlərində toy idi. Ana çirkin qızını geyindirdi ki, toya aparsın. Fatma da toya getmək istəyirdi.

Analığı:

-Bircə elə sənin yerin əskikdir, - deyə yerə kül qarışıq bir çanaq[1] darı səpdi:

-Biz qayıdıb gələnə qədər bu darını bir-bir küldən ayırıb yığarsan.

Ana qızı ilə toya getdi. Fatma evdə tək idi. O, ağlaya-ağlaya yerdəki darıları bir-bir yığıb çanağa tökürdü. Bu qayda ilə darını üç günə yığıb qurtarmaq olmazdı.

Fatmanın ağladığını görən Mərcan xoruz yaxına gəlib soruşdu:

---

[1] Çanaq – iri taxta qab (keçmişdi taxıl ölçmək üçün)

-Fatma, niyə ağlayırsan?

Fatma əhvalatı ona danışdı.

Mərcan xoruz dedi:

-Ağlama, biz sənə kömək edərik. Darıları dimdikləyib bir-bir yığarıq. Geyin, sən də get toya...

**VI**

Haradansa gözəl paltar və qəşəng ayaqqabı uçub gəldi. Fatma geyinib-gecinib toya getdi. Toyda hamı Fatmanın gözəlliyinə heyran qalmışdı. Təzə paltarda nə ögey anası, nə də bacısı onu tanıdı. Fatmanı oynamağa çağırdılar. O, oynaya-oynaya analığı və bacılığı oturan tərəfə bir ovuc kül, başqaları oturan tərəfə isə gül atdı.

Toy qurtardı. Fatma analığından və ögey bacısından qabaq evlərinə gəldi, paltarlarını dəyişib yenə ev işi ilə məşğul oldu.

Günlərin birində şahzadə öz adamları ilə ova çıxmışdı. Ovçulardan biri gözəl bir başmaq tayı tapıb şahzadəyə göstərdi. Şahzadə başmağın qəşəngliyinə heyran qaldı. Onun sahibini axtarıb tapmaq fikrinə düşdü, evlərinə çatan kimi öz adamlarına əmr edib dedi:

-Bütün ölkəni gəzib bu başmağı qızların ayaqlarına geyindirin, kimin ayağına olsa, elçilik edib o qızı mənə alın.

Şahzadənin adamları kənd-kənd, qapı-qapı gəzib başmağı bütün qızların ayağına geydirirdilər. Başmaq birinin ayağına böyük, o birinin ayağına kiçik olurdu. Onlar Fatmagilin kəndinə gəlib çıxdılar. Fatmanın analığı bu xəbəri eşidən kimi öz qızını geyindirdi, sir-sifətini bəzədi ki, şahzadənin göndərdiyi adamların xoşuna gəlsin. Fatmanın isə qollarını bağlayıb təndirə saldı, ağzına da böyük bir daş qoydu.

Şahzadənin adamları başmağı tənbəl qızın ayağına da geyindirdilər. Başmaq qızın ayağının ucunda qaldı. Onlar qayıdıb getmək istədikdə birdən Mərcan xoruz uca barının üstünə atılıb banladı:

*Quqqu-lu-qu, Quqqu-lu-qu!*
*Fatma xanım təndirdə,*
*Ayaqları kəndirdə.*

Şahzadənin adamları ayaq saxlayıb qulaq asdılar. Xoruz onların o tərəfə-bu tərəfə baxdıqlarını görüb, bir də ucadan banladı.

### VII

Şahzadənin adamları təndirin ağzını açdılar. Gördülər ki, təndirin içində qolları, ayaqları kəndirlə sarınmış gözəl-göyçək bir qız oturub.

Onu tez təndirdən çıxarıb, başmaq tayını ayağına geyindirdilər. Gördülər ki, başmaq lap qızın ayağına tikilmişdir. Fatma da öz başmağının tayını tanıdı. Tez tövləyə qaçıb başmağının o biri tayını da geydi. Şahzadənin adamları gördülər ki, bu başmaqlar bir-birinin tayıdır. Onlar şahzadənin arzusunu yerinə yetirdilər. Elçilik edib Fatmanı ona aldılar.

**Atalar sözləri:**
Nə əkərsən, onu da biçərsən.
Paxıl artmaz.

● Ögey ana Fatmaya nə üçün əzab verirdi?
Qarı nə üçün Fatmaya kömək etdi?
Fatmanın xasiyyətində hansı cəhətlər daha çox xoşunuza gəlir?
Ögey ananın xasiyyətində hansı pis cəhətlər var?
Ögey ananın doğma qızı nə üçün xoşbəxt ola bilmir?
Nağılın ayrı-ayrı hissələrini adlandırın və alınan başlıqlar üzrə onu danışın.

## Ananın səsi

Böyük Ağvan[1] hökmdarı qocalmışdı. Düşmənlər hökmdarın xəstələndiyini eşidən kimi qalınc çəkib, gözəl Azərbaycan ellərini bir-bir öz pəncələrinə keçirməyə başladılar.

Düşmən vətəni parçalayırdı. O, Araz çaynı keçmiş, düzlərə bərəkət, ellərə səadət gətirən Kür sahilini tutmuşdu.

---

[1] Ağvan – Şimali Azərbaycanın qədim adı

Gözəl Bərdə bağları düşmən atlarının ayaqları altında tapdalanırdı. Hökmdar:

-Cəngi[1] çalınsın, - dedi, - mən yenə də döyüşə gedəcəyəm. Ərlər, igidlər, məni eşidin! Mən bu qoca vaxtımda düşmənlə üz-üzə duracağam.

Cəngi səsi Şah dağından tutmuş Savalana, Murov dağından tutmuş Xəzər dənizinə kimi hər yerə əks-səda saldı. İgidlər hazır idi. Hökmdar səfər paltarını geyinmiş, atını yəhərlətmişdi. Yola düşmək vaxtı çatanda o, qılıncını qaldırmaq istədi, lakin gücü çatmadı. Hökmdar inildədi. Qılınca bir də əl atdı. Heç bir şey onun qoluna qüvvət vermədi

Hökmdarın özü kimi qocalmış arvadını ellər özünə ana hesab edirdi. O, hələ on altı yaşında olanda buzlu Savalan yaylaqlarından enmiş, böyük hökmdarla birlikdə döyüşlərə girişmişdi.

Başı Şah dağı kimi ağarmış ananın qəlbinə az dağ çəkilməmişdi. Vətən dərdi ilə birlikdə onun ancaq analara məxsus olan bir dərdi də vardı. Övlad dərdi! Bu dərd şahin kimi igid Azərbaycan qızının ömrünü soldurmuşdu. Ana beş oğul dağı görmüşdü. Beş aslan, beş qartal vətən uğrunda düşmənlərlə vuruşda ölmüşdü. İndi ananın bircə oğlu qalmışdı: ən kiçik oğlu – Cavanşir.

Vətən yenidən ayağa qalxanda ana da ağ saçlarını yana dağıtdı, örpəyini götürdü. Bu, böyük bir fəlakətin yaxınlaşmasına işarə idi. El bunu duydu. Ana böyük hökmdarın taqətsizliyini görəndə və onun iniltisini eşidəndə qəlbi odlandı:

-Vəfalı və igid dostum! - deyə o, hökmdara müraciət etdi, - sən səbr et, qorxma, mən vətəni yağılardan xilas edərəm.

Ana el başçılarını çağırtdırdı, onlara dedi:

-Şahinlər, tərlanlar! Siz Şah dağının, Savalanın suyunu içmisiniz, siz ceyranlar oylağında böyümüsünüz. Min illərdən bəri vətənə basqın edən düşmənlər sizin böyük əcdadınızın zərbəsini dadmışdır. Mən də sizinlə birlikdə çox

---

[1] Cəngi – keçmişdə vuruş meydanında çalınan marş

döyüşdə olmuşam. Böyük Ağvan hökmdarı əlli il sizinlə birlikdə yağıların sinəsini oxlamışdır. Amma bu gün hökmdar sizinlə döyüşə gedə bilməyəcəkdir. O, qoca və xəstədir. Siz məni tanıyırsınız. Mən öz oğullarımı davaya göndərmişəm. Beş oğul dağı görmüşəm. Bu gün kiçik oğlum Cavanşiri də döyüşə göndərirəm...

Ana susdu. El başçılarının üzünə ağır bir duman çökdü. Ana öz oğlunu böyük məhəbbətlə sevirdi. El başçıları da Cavanşiri sevirdilər. Onlar öz ölümlərinə razı olar, lakin Cavanşirin döyüşə getməsini məsləhət görməzdilər. O, böyük budaqda qalmış axırıncı meyvə idi. Ananın da, elin də dərdi ona bağlı idi.

* * *

Cavanşir çox gənc idi. Lakin o, at belinə qalxanda qayalar, uçurumlar onun qabağında dura bilməzdi; daşqın çaylar, qalın meşələr ona yol verərdi.

Ana Cavanşiri çağırtdırdı. El başçılarının yanında dedi:

-Atan qocalmış, mənim də belim bükülmüşdür. Sən bu gündən qalxan tax və qılınc götür. Budur, minlərcə igid vətən uğrunda döyüşə gedir. Sən də onlara qoşul, hökmdar oğlu olduğunu unut! Bircə şeyi yadda saxla. Vətən fəlakət qarşısındadır, onu xilas etmək lazımdır. Düşmənin üstünə bir əsgər kimi get, müzəffər bir aslan kimi qayıt... Ana vətəni, elləri xoşbəxt görmək istəyir. Düşmən qarşısından qaçsan, bu yurda dönmə! O zaman mən südümü sənə halal etmərəm. Sən arxadan yaralansan, Azərbaycan qızlarına sənin yaranı sarımağı məsləhət görmərəm. Düşməni yurdumuzdan qovmamış geri dönmə.

Cavanşir vüqarla başını qaldırdı və gəlib ananın titrək, zərif əllərindən öpdü:

-Arxayın ol, ana, mən vətən oğluyam!

-Cavanşir bizim sərkərdəmizdir!..

-Cavanşirə uğurlar olsun! – deyə, el başçılarının əzəmətli səsi gurladı…

-Sizə uğurlar olsun! - deyə, ana zərif əllərini qaldırıb onlara xeyir-dua verdi.

* * *

Bir neçə vaxt sonra anaya xəbər çatdırdılar ki, Cavanşir sinəsindən, alnından beş dəfə yara alıb, amma ölüm öz qanadını onun başı üstündə aça bilməyib. O, evə qayıdır.

Oğlunun qayıtdığını eşidən ananın sevinci aşıb-daşırdı.

El Cavanşiri təntənə ilə qarşıladı. Cavanşir anasının qarşısında diz çöküb dedi:

-Mən sənin əllərindən öpməyə, səni təbrik etməyə gəlmişəm. Sənin əmrin, vətənin əmri yerinə yetirildi. Düşmən ordusu dağıldı. O, bir daha bu torpağa ayaq basa bilməz.

Ananın gözü yaşardı. O, oğlunun və el başçılarının alnından öpdu.

Ananın bu mükafatı dünyada hər bir mükafatdan uca idi.

● Cavanşir kim idi?
O nə üçün döyüşə getməli oldu?
Anası ona nə tapşırdı?
Cavanşir anasının tapşırığını necə yerinə yetirdi?
Cavanşirin anasının xasiyyəti nə üçün xoşunuza gəlir?
Hekayəni hissələrə ayırın. Hissələrə başlıqlar verin.
Alınan plan üzrə hekayəni danışın.

**Babək**

Əlində kiçik bağlama tutmuş yoxsul bir qadın ağır və yorğun addımlarla dağa qalxırdı. Onun yaşı qırxdan çox olmazdı. Amma saçları tamam ağarmış, üz-gözü qırışmışdı. İri, qara gözləri çox kədərli idi. O, daşlı cığırla irəliləyir, qonşularının qoyununu otaran oğlu üçün yemək aparırdı.

Uzaq ellərdən axışıb Azərbaycana gəlmiş ərəb qoşunları onlara baş əyməyən, vergiləri ödəyə bilməyən adamlara ağır cəza verirdilər. Onlar qadının ərini də həbs edib Beyləqan şəhərinə aparmış və orada öldürmüşdülər. Qadın üç uşağı ilə qalmış, onları çox böyük çətinliklə böyütmüşdü. İki oğlu neçə il idi ki, başqa kəndlərdə, obalarda nökərçilik edirdi. Yanında qalmış kiçik Babək isə çoban idi.

Babək gün doğmadan evdən çıxar, günəş Savalan dağının arxasına çəkiləndən sonra qayıdardı. Bu yerlərin saf havası, səfalı meşələri, çiçəkli çəmənləri, gözəl suları Babəkə qüvvət verirdi. On üç-on dörd yaşlı Babək pəhləvana oxşayırdı. Bu da ananı sevindirirdi. Sağlam və güclü olmaq böyük xoşbəxtlik idi. Babək böyüyüb təkcə anasına deyil, elinə-obasına da böyük xeyir verə bilərdi.

Ana bu haqda fikirləşə-fikirləşə gedib dağın başına çatmışdı ki, bir haray eşitdi. Aşağıya baxanda gördü ki, Babəklə iki yoldaşı qoyunlara hücum etmiş canavarları qovurlar.

Ana əvvəl bərk qorxdu, nə edəcəyini bilmədi. Amma sonra Babəkin çomaq zərbəsi ilə yekə bir canavarı yerə sərdiyini görüb, özünə gəldi, yerdən daş götürüb balaca çobanların köməyinə getdi. Bir azdan oğlunun yanına çatdı. Ananın köməyinə ehtiyac qalmamışdı. Yerdə dörd canavar uzanmışdı. Babək anasını görüb onun üstünə yüyürdü.

Anası onu qucaqlayıb canavarlara baxdı. Babəkin iki yoldaşı da ananın yanına gəldi. Onlardan biri ən yuxarıdakı canavarı göstərib:

-Bunu ikimiz güc-bəla ilə öldürə bildik, - dedi. - İtlər kömək etməsə idi o, bizi parçalaya bilərdi. Bunları isə Babək öldürdü.

Ana:

-Qoçaq oğlanlarsınız! - dedi. - Gör nə qədər qoyunu xilas etmisiniz. Çox sağ olun!

Ana balaca çobanları bağrına basıb öpdü. Onların bu qoçaqlığı haqda xəbər kəndə çatdı.

* * *

Bir qədər sonra Babək daha böyük qoçaqlıq göstərdi. Qonşu mahaldan olan bir neçə atlı o yerlərdən keçib gedəndə sürülərin yanındakı çobanların uşaqlar olduğunu görüb bir neçə qoyunu aparmaq istədilər. Onlar sürüyə hücum edəndə Babək irəli keçdi. Birinci zərbəsi ilə quldurun birini yerə sərdi. İki balaca çoban və itlər də köməyə gəldilər. Bu vuruşmada Babək daha bir quldurun baş-

gözünü əzdi. O biri quldurlar isə atlarına minib qaçdılar. Camaat Babəki və dostlarını yenə alqışladı.

İllək keçdikcə Babək toyda, bayramlarda güclü pəhləvanlarla güləşir və hər dəfə qalib gəlirdi.

Babək atasından qalma kiçik tarlanı çox bacarıqlı bir əkinçi kimi becərirdi. Onu yaxşı əkinçi və çoban kimi tanıdılar. Babəkin əsl şöhrəti gücündə və qoçaqlığında idi. At sürməkdə, qılınc oynatmaqda onun bərabəri yox idi. Babəkin qorxusundan o tərəflərə quldurlar və soyğunçular gəlmirdi. Ərəblərin göndərdiyi vergi yığanlar da o tərəflərə gəlməyə qorxurdular.

* * *

Elə bir vaxt gəlib çatdı ki, Babəkgilin kəndi ərəb hakimlərinə vergi verməkdən boyun qaçırdı. Kəndə qoşun göndərildi. Bu vaxt kəndlilərin hamısı silaha sarıldı. Yaxın kəndlərdən də onlara köməyə gəldilər. Vuruşmaya Babək başçılıq etdi, ərəblərin qoşunu darmadağın edildi. Hər yerdən xalq dəstə-dəstə axışıb Babəkin yanına gəlir, ona şikayət edirdi:

-Babək, ərəblər bizim mal-qaramızı sürüb apardılar.

-Babək, ərəblər kəndimizdən çoxlu arvad-uşağı zorla özlərinə qul etdilər.

-Babək, amandır, bizə kömək et, ərəblər kəndimizin bütün ağsaqqallarını dar ağacından asmağa hazırlaşırlar.

-Babək, ərəblər bizdən o qədər vergi istəyirlər ki, ev-eşiyimizi də satsaq, gücümüz çatmayacaq.

Babək öz qoçaq yoldaşları ilə onların köməyinə gedir və hər yerdə işğalçıları cəzalandırırdı.

* * *

Ərəb işğalçılarının başçısı Babəkin üstünə bir neçə min silahlı adam göndərdi. Babəkgil onları da darmadağın etdilər. Kəndlər bir-bir ərəblərn əlindən çıxırdı.

Düşmənlərin başçısı daha da qəzəbləndi:

-Bu nədir, İranı Azərbaycanı alan, güclü hökmdarları diz çökdürən ərəb qoşunu bir çoban ilə bacara bilməyəcək?

Onun əmri ilə Babəkin üstünə daha böyük qoşun göndərildi. Ərəb qoşunu bu dəfə də məğlub edildi. Xəbər

gedib ərəblərin hökmdarına çatdı. Hökmdar özündən çıxdı. Babəkin yaşadığı mahala daha güclü qoşun göndərildi.

Bundan xəbər tutan Babək yolların ağzında bir neçə qala tikdirdi və ərəb qoşunları ilə vuruşdu.

Ərəblər yenə darmadağın edildi.

Ölkənin hər yerində xalq üsyan edib Babəkə qoşulur, ərəblərlə vuruşurdu. Ərəb hökmdarı başqa ölkələrdə olan qoşunlarını da Azərbaycana göndərdi.

Xalqımız Babəkin başçılığı ilə ərəblərlə 20 ildən çox vuruşdu. O vaxtdan çox keçir. Babəkin və onun igid yoldaşlarının adı isə dillərdən düşmür.

**Bayatı:**
Burda yolum oldu tən,
Varmı bu yoldan ötən?!
Bu dünyada şirin şey,
Bir anadır, bir vətən!

● Babəkin anası nə üçün tez qocalmışdı?
Babək xalq arasında necə tanındı?
Xalq Babəkdən nə üçün kömək istəyirdi?
Babək ərəblərə qarşı nə üçün mübarizə aparırdı?
O, nə üçün həmişə qalib gəlirdi?
Babəkin və xalqımızın başqa qəhrəman oğullarının şəkillərini tapıb «Xalqımızın qəhrəman oğulları» adlı albom düzəldin.
Hekayənin hissələrinə ad verib, plan üzrə danışın.

## Koroğlu ilə Dəli Həsən

*(«Koroğlu» dastanı əsasında işlənmişdir)*

### I

Günlərin bir günü Koroğlu Qırata minib Çənlibelin ətəyindəki yola çıxmışdı. Gördü ki, bir dəstə yaraqlı-yasaqlı atlı gəlir. Amma atlıların qabağında bir oğlan var, görkəmindən igidlik yağır. Oğlan Koroğlunu görcək dəstəsinə hay vurdu. Atlılar o saat Koroğlunu araya aldılar. Koroğlu

dayanır. Gözləyir ki, görsün işin axırı nə olacaq. Oğlan atı cövlana gətirdi, sürüb düz Koroğlunun qabağında dayandı. Sonra bir Koroğluya baxdı, bir atına baxdı, soruşdu:

-Ayə, de görüm kimsən?

Koroğlu dedi:

-Yoldan keçənəm.

Oğlan bir də Koroğlunun atına baxıb soruşur:

-Bu atı hardan alıbsan?

Koroğlu dedi:

-Özümünküdür.

Oğlan dedi:

-Düş atdan! Bu at mənə çatacaq!

Koroğlu dedi:

-Mən sənə məsləhət görürəm ki,öz yolunla düz keçib gedəsən. Yoxsa yaxşı olmaz!

Oğlan bu sözdən qəzəbləndi. Hirslə atının başını çəkdi. At dal ayaqları üstündə qalxır. Oğlan üzünü Koroğluya tutub dedi:

-Görünür, sən məni tanımırsan!.. Əgər tanısaydın, belə danışmazdın. Mənə Dəli[1] Həsən deyərlər. Bu yollardan kim keçsə, mənə bac-xərac[2] verməlidir.

**II**

Koroğlu sakitcə dedi:

-Dəli Həsən, səsinə güc vermə! İgid dil açmaz, əl açar.

-Ayə, sən kimsən ki, mənim qabağımda belə yekə-yekə danışırsan?

-Dayan, deyim kiməm.

Bunu deyib, Koroğlu atın başını çəkdi. At elə qalxdı ki, dırnağının altından qopan daş Dəli Həsənin başının üstündən keçib, o tərəfə düşdü. Koroğlunu dövrəyə almış atlılar çaxnaşmaya düşdülər. Koroğlu sazı çiynindən aşırıb sinəsinə basdı və dedi:

*Məndən salam olsun əcəm[3] oğluna,*
*Meydana girəndə meydan mənimdi!*

---

[1] Dəli – burada: *igid, qoçaq* deməkdir. Dəli Həsən – yəni igid Həsən.
[2] Bac-xərac – vergi
[3] Əcəm – burada: yad, özgə

*Qıratım köhləndi, özüm qəhrəman,*
*Çalaram qılıncı, düşmən mənimdi!*

* * *

*Meydana girəndə meydan tanıyan,*
*Haqqında vergisinə mən də qanıyam;*
*Bir igidəm, igidlərin xanıyam,*
*Bu ətrafda bütün hər yan mənimdi!*

* * *

*Adımı soruşsan, bil, Rövşən olu,*
*Atadan, babadan cinsim Koroğlu,*
*Mənəm bu yerlərdə bir dəli-dolu;*
*Gündoğandan ta günbatana mənimdi!*

**III**

Dəli Həsən bir Koroğluya baxdı, bir dönüb öz yoldaşlarına baxdı, hündürdən güldü. Atlılar da gülüşüdü. Onların bu gülüşmələri Koroğluya toxundu. Bir istəyir misri qılıncı çəkib, hünərini onlara göstərsin. Sonra «lənət şeytana» deyib sazı alır, görək nə deyir:

*İgid meydana girəndə,*
*Qaynayıb coşmamaq gərək.*
*Əgər olsa haqqa vergisi,*
*Qismətdən qaçmamaq gərək.*

* * *

*Baxmaram düşmən hayına,*
*Haqq bəla versin xayına;*
*İgid igidin payına*
*Köndələn düşməmək gərək.*

* * *

*Qoç Koroğlu çıxar düzə,*
*Baxmaram əlliyə, yüzə;*
*Mən dəlidən öyüd sizə,*
*Həddini aşmamaq gərək…*

**IV**

Koroğlunun belə nəsihət eləməyi Dəli Həsənə lap acıq gəldi. Öz adamlarına hay vurub, Koroğluya hücum eləmək istədi. Koroğlu deyir:

*Gəl sənə söyləyim, ay Dəli Həsən,*
*And içmişəm bu gün döyüş olmasın.*

*Yoxsa aslan kimi cuşa gələrəm,*
*And içmişəm bu gün döyüş olmasın.*

* * *

*Mərd igidlər müxənnətdən*[1] *seçilsin,*
*Qarı düşmən*[2] *dərələrə tökülsün.*
*Bizim aramızda münsif*[3] *tapılsın,*
*And içmişəm bu gün döyüş olmasın.*

* * *

*Çəkərəm qılıncı, kəsərəm yolu,*
*Mənəm igidlərdə bir dəli, dolu.*
*Hələ coşmayıbdır bu qoç Koroğlu,*
*And içmişəm bu gün döyüş olmasın.*

## V

Dəli Həsən elə bildi ki, Koroğlu ondan qorxur. Geriyə çevrilib adamlarına deyir:

-Ayə, mən də elə bilmişəm ki, bu doğrudan da igiddir. Sən demə bu yanşaq[4] gəvəzənin birisi imiş. Tutun, yekə-yekə danışdığına görə atını əlindən alın, özünə də bir-iki vurub yola salın.

Koroğlu baxdı ki, iş davasız keçməyəcək. Misri qılıncı çəkib, aldı görək nə dedi:

*Acıqlanma, Dəli Həsən,*
*Misri qılınca qataram.*
*Atılaram şeşpər*[5] *kimi,*
*Bağrın başına bataram.*

* * *

*Namərd nədir özün öyə?*
*Meydanda mərd igid söyə?*
*Qaçıb çıxar olsan göyə*
*Kəmənd tullayıb tutaram.*

* * *

*Hayqırıb açsam meydanı,*
*Su tək axıdaram qanı.*

---

[1] Müxənnət – pis adam
[2] Qarı düşmən – alçaq, köhnə düşmən
[3] Münsif – insaflı, ədalətli, çətin məsələni ayırd edən adam
[4] Yanşaq –aşıq.
[5] Şeşpər – qədim silah adı

*Dəstələyib bəyi, xanı*
*Qırat döşünə qataram.*

## VI

Koroğlunun bu sözündən Dəli Həsən qızışdı. Özü çəkildi, bir kənarda durdu, adamlarına hökm elədi ki, Koroğlunu tutsunlar.

Dəli Həsənin dəstəsi Koroğluya hücum elədi. Koroğlu qızmış şir kimi onların üstünə cumdu.

Bir yandan Koroğlu, bir yandan Qırat az vaxtda dəstəni əldən-ayaqdan saldılar. Dəstədən qırılan qırıldı, qalanlar da qaçıb dağıldılar. Koroğlu dəstəni dağılmış görüb, Qıratı Dəli Həsənin üstünə sürdü. Üzünü ona tutub, aldı görək nə dedi:

*Qıratı gətirdim cövlana*[1]*, indi*
*Varsa igidlərin meydana gəlsin!..*
*Görsün mən dəlinin indi gücünü,*
*Boyansın əndamı al qana, gəlsin!..*

* * *

*Qorxum yox paşadan, sultandan, xandan,*
*Gəlsin mənəm deyən, keçirdim candan.*
*Ərlər*[2] *daldalanıb qorxmasın qandan,*
*At sürsün, qovğaya mərdana gəlsin!*

* * *

*Koroğlu əyilməz yağıya, yada,*
*Mərdin əskik olmaz başından qada.*
*Nərələr çəkərəm mən bu dünyada,*
*Göstərrəm məhşəri düşmana. Gəlsin!..*

## VII

Dəli Həsən ilə Koroğlu dava eləyəsi oldular. Qılınclarını çəkib, bir-birinə hücum elədilər. Çox vuruşdular. Amma heç biri məğlub olmadı. Axırda atdan düşdülər, güləşməyə başladılar. Dəli Həsən ilə Koroğlu çox güləşdilər, gah o buna güc elədi, gah bu ona güc elədi. Qoç Koroğlu axırda bir nərə çəkdi, Dəli Həsəni götürüb yerə vurdu. Dizini onun

---

[1] Cövlana gətirmək – dolandırmaq, sürmək
[2] Ər – burada igid mənasındadır

sinəsinə dayadı, əlini qılınca atanda Dəli Həsən bir ah çəkdi.

Koroğlu dedi:

-Bir qaşıq qanından qorxub niyə ah çəkirsən?

Koroğlunun cavabında Dəli Həsən dedi:

-Ey igid, mən canımdan qorxub ah çəkmirəm. Əhdim var idi. Əhdimə çatmadım.

Koroğlu soruşdu:

-Əhdin nə idi?

Dəli Həsən dedi:

-Mən əhd eləmişdim ki, hər kim məni bassa, onunla dost, qardaş olam. Ölənə qədər onun yanında qalam. İndi sən məni basdın, ancaq öldürürsən, əhdimə çata bilmirəm.

Dəli Həsənin bu sözü Koroğlunu sevindirdi. Ayağa qalxdı. Dəli Həsənin qolundan yapışıb qaldırdı, əlini üç dəfə onun dalına vurdu.

Onlar həmin vaxtdan bərk dost oldular. Çənlibelə gəldilər. O gündən Koroğlunun başına yavaş-yavaş adamlar yığışmağa başladı. Çox çəkmədi ki, Çənlibel qoçaq oğlanların, igidlərin məskəni oldu.

● Koroğlu Dəli Həsənə harada rast gəldi?
Koroğlu özü haqqında ona necə məlumat verdi?
Onlar nə üçün vuruşmalı oldular?
Koroğlu haqqında daha nə bilirsiniz?
Hissələrə başlıq verin.

## Qaçaq Nəbi

Yüz il bundan əvvəl Qarabağ dağlarında, Araz çayı yaxınlığındakı kəndlərdə Nəbi adlı qoçaq bir adamın adı dillər əzbəri olmuşdu. Aşıqlar onun hünəri haqqında şeirlər qoşur, hər yerdə ondan danışırdılar.

O zaman Azərbaycanda çar hökuməti, bəylər, varlılar kəndlilərə çox zülm edirdi. Adamlar bu zülmə dözmür, çar hökumətinə qarşı vuruşurdular. Nəbi də belə adamlardan idi. Hökumət Nəbini cəzalandırmaq istəyirdi. Nəbi isə

tüfəngini götürüb Bozatı minmiş və dağlara qaçmışdı. Ona görə də Nəbini qaçaq adlandırırdılar. O burada da sakit oturmur, zalımlardan intiqam alırdı. Nəbinin arvadı Həcər də igidlikdə ərindən geri qalmırdı. Nəbini tuta bilməyən hökumət adamları Həcəri tutub həbsxanaya saldılar. Bu vaxt aşıqlar Həcərin adından belə bir şeir qoşurlar:

*Qazamat*[1] *istidir, yata bilmirəm,*
*Düşmənim güclüdür, bata bilmirəm.*
*Ayaqda qandalaq*[2] *qaça bilmirəm.*
*Mənim bu günümdə gələsən, Nəbi!*
*Qazamat damını dələsən, Nəbi!*

*Mən gələndə şamamalar gül idi,*
*Dörd yanımı atlı düşmən bürüdü.*
*Yazıq canım qazamatda çürüdü,*
*Mənim bu günümdə gələsən, Nəbi!*
*Qazamat damını dələsən, Nəbi!*

Bu xəbər Nəbiyə çatan kimi o, yoldaşları ilə gedib həbsxana keşikçilərini qırdı və Həcəri xilas etdi. Hökumət və bəylər bundan qorxuya düşdülər. Onlar necə olursa-olsun, Nəbini cəzalandırmağa çalışırdılar. Amma onu ələ keçirə bilmirdilər. Çünki xalq Nəbinin nə üçün qaçaq düşdüyünü yaxşı bilir və ona kömək edirdi. Aşıqlar da öz mahnılarında Nəbinin adından belə deyirdilər:

*Dağılmaz qalayam, yarılmaz dağam,*
*Fəqirin, yoxsulun, nə qədər sağam,*
*Yolunda xidmətkar*[3] *daşqın irmağam*[4]*.*
*Alar qüvvət-gücü elindən Nəbi!*
*El-obanı salmaz dilindən Nəbi!*

*Dara düşsəm el yetir köməyə,*
*Patronu bükürlər şala, tirməyə.*
*Atışma zamanı bizə verməyə.*
*Alar qüvvət-gücü elindən Nəbi!*
*El-obanı salmaz dilindən Nəbi!*

---

[1] Qazamat – həbsxana, dustaqxana
[2] Qandal – dustaqların əl-ayağını bağlamaq üçün dəmir buxov
[3] Xidmətkar – xidmətçi, burada: el-obaya kömək edən deməkdir.
[4] İrmaq – bulaqdan əmələ gələn kiçik arx

*Nəbiyə hay verir obalar, ellər,*
*El gücüdür daşqın çaylar, gur sellər,*
*El-obadan kənar bükülər bellər,*
*Alar qüvvət-gücü elindən Nəbi!*
*El-obanı salmaz dilindən Nəbi!*

Xalq Nəbini sevdiyi və kömək etdiyi kimi, Nəbi də onların köməyinə çatırdı. O zaman zalım bəylər və çar hökumətinin qulluqçuları – naçalniklər, pristavlar Nəbinin qorxusundan rahat otura bilmirdilər. Nəbi əlində tüfəng, Bozatın belində camaatın köməyinə çatır, zalımları cəzalandırırdı. Xalq isə onun bu yaxşılığını unutmur, öz mahnılarında ona razılığını bildirirdi.

Uzun illər çar hökuməti idarələrinin başçılarını və zalım bəyləri qorxudan Nəbini 1896-cı ildə gecə yatdığı yerdə xaincəsinə öldürdülər. O vaxtdan çox illər keçsə də, xalqımız Nəbini unutmur. Onun haqqında qoşulan mahnılar hələ də dillər əzbəridir.

**Atalar sözü:**
Elə arxalanan igidin arxası yerə dəyməz.

● Nəbi kim idi?
O nə üçün qaçaq düşmüşdü?
Həcəri nə üçün həbsxanaya salmışdılar?
Kəndlilər Nəbiyə nə üçün kömək edirdilər?
Xalqın azadlığı uğrunda mübarizə aparmış qəhrəmanlardan daha kimləri tanıyırsınız?
Mətndə Həcərin dilindən verlmiş şeiri əzbərləyin.

## Həcər

*(İxtisarla)*

### I

Yazın orta ayı idi. Gün günorta yerinə yenicə qalxırdı. Biz beş nəfər çoban Səlim bəyin qoyun sürüsünü otarırdıq. Hamımız cavan idik. Gözəl səsi olan, el-oba içində aşıq kimi tanınan Humay da bizim yoldaşımız idi.

Aşıq Humay sazı döşünə basıb Qaçaq Nəbi haqqında bir mahnı oxudu.

Aşığın səsi çəmənə, çölə yayılır, yamaclarda, dağlarda, daşlarda əks-səda verirdi.

Gün getdikcə yuxarı qalxır, köç yolu ilə bir-birinin dalınca qoyun sürüləri gedirdi. Sürülərin yanı ilə gedənlər ayaq saxlayıb aşığın sözlərinə qulaq asırdılar.

Ağ dəvələrin üstündə oturub yayxana-yayxana gedən və qucağında quzu, çəpiş, küçük tutan qarılar, yəhərli atlar minmiş cavan qadınlar, qızlar aşığa baxıb gülümsəyirdilər.

Başına bahalı papaq qoymuş, belinə enli gümüş toqqa bağlamış bəy balaları özlərini gəlinlərə göstərmək üçün yorğa[1] atlarını lovğa-lovğa irəli-geri çapır, köçü tələsdirir, nökərləri qamçılayırdılar.

Köçün dalınca yüyürərək gedən və dilini çıxarıb ləhləyən köç itləri də apabir başlarını qaratikan kollarının kölgəsinə soxur və azca dincəldikdən sonra yenə də sürünün dalınca qaçırdılar.

## II

Aşıq Humay yoxsulların başı üstündə qamçı oynadan bəy balalarına qan udduran Qaçaq Nəbidən deyir, Həcəri tərifləyirdi.

Gün qızır, isti bizə əsər eləyirdi. Üç gün sonra biz də köçəcəkdik. Ağa xəbər göndərmişdi ki, hazırlaşaq. Sevincimizin həddi-hüdudu yox idi. Yenə də başı qarlı dağlara qonaq gedəcəkdik. Ona görə də kefimiz çox kök idi. Aşıq Humay da sazı döşünə basıb yanıqlı-yanıqlı çalıb-oxuyurdu. O, oxuyub qurtaranda yoldaşlarımızdan biri nişan atmağı təklif etdi. Onun bir beşaçılan tüfəngi və beş-on patronu vardı. Yoldan bir az aralı nişan qoyub növbə ilə atmağa başladıq. Mərc gəldik. Kim kibritin qarasını vura bilsə, onun adını «Qaçaq Nəbi» qoyacaqdıq.

Adama iki güllə atdıq, heç birimiz vura bilmədik. Yaman pərt olmuşduq. Ancaq bir-birimizi ələ salıb gülürdük.

---

[1] Yorğa – rahat qaçan at.

## III

Elə bu vaxt irəlidə bir atlı göründü. Ardınca da bir bölük qoyun-keçi gəlirdi. Atlı bizə yaxınlaşdı. O, qadın idi. Altında bir boz at vardı.

Onun yaşı əllini keçmiş olardı. Buğdayı sifəti, iri və qürurlu gözləri var idi. Atın üstündə dik oturmuşdu. Başına qara kələğayı bağlamış, uzunboğaz çəkmə geymişdi. Yanımıza çatanda salam verdi. Nişan qoyduğumuzu görüb atın başını çəkdi. Boz at dayandısa da, dırnağı ilə yeri eşir, fınxırırdı. Qadın ata fikir vermir, diqqətlə bizə baxırdı.

Biz isə mat-mat baxırdıq. Qadın birdən qaşlarını çataraq dilləndi:

-Uzaqdan gördüm. Səsindən başa düşdüm ki, güllələriniz boşa çıxır. Adınızı da cavan qoymusunuz…

Biz susduq. İstəyirdik ki, o ötüb getsin və nişanı vura bilmədiyimizi yadımıza salmasın. O isə yenə dilləndi:

-Mən siz yaşda olanda bir gülləm belə boşa çıxmazdı.

Biz o qadını tanımırdıq. Onun yaxşı güllə atması isə bizə qəribə gəlirdi. Ona görə də susurduq.

Qadın bizim təəccüb etdiyimizi başa düşüb atdan düşdü, yoldaşımızdan tüfəngi istədi. O, vermək istəmədi. Qadın əlini uzadıb tüfəngi ondan aldı, diqqətlə ona baxdıqdan sonra dərindən bir ah çəkdi və «Aynalı, aynalı»… deyə ağlamsındı. O, qara kələğayısının ucu ilə gözlərini sildi. Sonra tüfəngin çaxmağını çəkdi. Onun boş olduğunu görüb soruşdu:

-Patron kimdədir?

Yoldaşımız dinməzcə ona bir patron verdi.

-Şərtiniz nədir? Nədən mərc gəlmisiniz?

Şərtimizi dedik. Qadın duruxdu, qaşları çatıldı, alnı qırışdı. Üzünə kədər çökdü, yenə də dərindən ah çəkdi. Ancaq bu dəfə ağlamsınmadı. Patronu lüləyə verdi. Tüfəngi qaldırdı və dərhal çaxmağı çəkdi. Güllə açıldı, kibritin qarasını üzüb apardı. Pərtlikdən qıpqırmızı olduq. Qoca bir qadın tüfəngi qaldıran kimi bizim heç birimizin vura bilmədiyi nişanı yerindən havaya qaldırmışdı.

Aşıq Humay özünü saxlaya bilməyib dedi:

-Bu kov[1] deyil.
Qadın yenə bir patron istədi.
Yoldaşımız axırıncı gülləni ona verdi. Gedib yenə bir kibrit dənəsini nişan qoyduq. Qadın tüfəngi qaldıran kimi kibritin qarası havaya uçdu. Qadın bir söz demədən tüfəngi yoldaşımıza qaytarıb atına sarı getdi. Qızılquş kimi onun üstünə sıçradı. Biz onu aralığa aldıq və əlini mehribanlıqla sıxdıq. O, atı mahmızlayıb aradan çıxmaq istəyirdi ki, aşıq Humay soruşdu:
-Bircə dayanın! Axı biz bu beş cavanı belə pərt edən xanımın kim olduğunu bilmədik!
Qadın atın başını çəkdi və gülümsünüb dedi:
-Mən Həcərəm.
-Hansı Həcər?
Qadının üzünə yenə kədər çökdü, o, yüngülcə gülümsündü.
-Qulaq asın:
*Gün qalxıbdır günortanın yerinə,*
*Həcər xanım qalxdı atın belinə,*
*Əşrəfi düzdürrəm onun telinə,*
*Qoy sənə desinlər ay Qaçaq Nəbi!*
*Həcəri özündən ay qoçaq Nəbi!*
O, nəğməni qurtarıb yenə üzümüzə baxdı. Mənə elə gəldi ki, o indi «Mən həmin Həcərəm, bu yerlərin qoçaq oğlu Qaçaq Nəbinin yoldaşı, silahdaşı Həcərəm», – deyəcəkdir. Amma o, bunu demədi, atını səslədi və uzaqlaşmış sürünün dalınca getdi. O getdi, amma gözümüzü açdığımız ilk gündən adını nəğmələrdən öyrəndiyimiz, qoçaqlığı haqqında sevə-sevə oxuduğumuz Qaçaq Nəbinin qəhrəmanlığı yadımıza düşdü. Biz adı dillər əzbəri olan qəhrəman Həcər xanımı görmüşdük.
O günlərdən xeyli keçmişdir. Həcər xanımın mehriban sifəti, uzağa qoyulmuş kiçik bir nişanı necə atıb vurması heç yadımdan çıxmır.

*Əli Vəliyev*

---

[1] Kov deyil – nəzərə alınmır, hesab olunmur

**Atalar sözü:**
Aslanın erkəi, dişisi olmaz.

● Çobanlar dağda nə ilə məşğul idilər?
Atlı qadın onlara yanaşıb nə etdi?
Qadın özünü necə tanıtdı?
Xalq Həcəri nə üçün unutmur?

**ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR:**

Azərbaycanda Sovet hakimiyyəti qurulanadək kəndlilər və fəhlələr necə yaşayırdı?

Keçmişdə xalqımızın hansı düşmənlərinə qarşı müburizə aparmaq lazım gəlirdi?

O zaman kəndlilər və fəhlələr nə üçün xanlara, bəylərə, mülkədarlara və kapitalistlərə qarşı mübarizə aparırdılar?

Kəndlilərin və fəhlələrin azadlığa çıxması və xoşbəxt yaşaması üçün nə etmək lazım idi?

Kəndlilərin və fəhlələrin mübarizəsinə kimlər rəhbərlik edirdi?

Xalq qəhrəmanlarındak kimlər yadınızdadır? Nə üçün onlar unudulmur?

## BÖYÜK OKTYABR SOSİALİST İNQİLABI VƏ XALQIMIZIN AZADLIQ UĞRUNDA MÜBARİZƏSİ

### Qanlı bazar günü

*(İxtisarla)*

1905-ci ilin əvvəllərində Peterburqun[1] fabrik və zavodlarını həyəcan bürümüşdü. Fəhlələr Rusiyada dövlət quruluşunun dəyişdirilməsini tələb edirdilər.

Yanvarın 9-da səhər tezdən hava şaxtalı idi. Fəhlə dəstələri öz arvad-uşaqları ilə birlikdə çarın sarayına doğru gedirdilər. Onlar özləri ilə xaç nişanı və çarın şəklini aparırdılar.

Qocalar, cavanlar, uşaqlar Vankanın yanından dəstə-dəstə keçib gedirdilər. O heç vaxt bu qədər adam görməmişdi. Onun başı gicəllənirdi. Qoca bir kişi onun qarşısında dayanıb, maraqla soruşdu:

-A bala, sən də gedirsən?

-Bəli, mən də gedirəm.

-Hara, nə üçün? Bilirsənmi?

-Niyə bilmirəm! Mən də, anam da fabrikdə işləyirik. Mən kiçik deyiləm.

Qoca nəsihətlə dedi:

-Bəli, bu gün böyük bazar günüdür. Xalq üçün yeni gün doğur, saraydakı çar və onun adamları istəsələr də, istəməsələr də, xalq öz haqqını alacaqdır.

Varvara ikona[2] ilə gəldi. Camaat hələ yola düşməyə hazırlaşırdı. Varvara oğlu Vankanı tapıb, onu dualadı. İkonanın Vankanın soyuqdan şişib qızarmış əllərinə verdi və onu camaatın qabağına itələdi:

-Hə, Vanka, çara diqqətlə bax! Hərgah orada səninlə danışmaq istəyən olsa, bütün həqiqəti danış.

-Danışaram, - deyə Vanka yavaşcadan səsləndi. Sonra soruşdu:

---

[1] Peterburq – indiki Leninqrad

[2] İkona – kilsələrdə saxlanılan dini şəkil

-Güllə atacaqlarmı?

Varvara güldü:

-Nə danışırsan? Polisin, zabitin və keşişin qabaqda getdiyini görmürsənmi? Məgər ikonaya güllə atarlar?

Qarşıda qırov basmış Narva qapıları görünürdü. Vanka qapıların hər iki tərəfində soldatların dayandığını gördü. Onların əllərindəki tüfənglərin süngüsü parıldayırdı. Elə bil ki, soldatlar dayanıb camaatı gözləyirdilər. Vanka qorxuya düşdü. O, daş qapılardan atlı dəstələr çıxdığını və çaparaq gəldiyini gördü.

Vanka dala göz gəzdirdi, onun ətrafındakı adamlar özlərini itirmişdilər, həyəcanlı idilər. Adamlar dərhal iki tərəfə ayrılıb, atlı dəstələrə yol verdilər. Vanka tez bir tərəfə çəkildi. Atlı dəstələr çaparaq əllərindəki qılıncla adamları vururdular.

Adamlar hər tərəfdən:

-Atırlar! Güllə atırlar... – deyə qışqırdılar. Birdən qulaqbatırıcı gurultu eşidildi.

Vankaya elə gəldi ki, hamı yerə, tapdalanmış qara batdı, Vankanın başı üstündə fəryad səsləri ucaldı:

-Bəs belə!..

-Çar bizi belə qarşılayır?!

Vanka qalxmaq istədi, qarnnında bərk ağrı duydu. Soyuqdan şişmiş əllərini qara dayadı. Şiddətli gürültü qopdu. Vanka çiynində ağrı hiss edib, qana boyanmış qarın üstünə sərildi.

* * *

Varvara adamların arasında irəli getmək üçün nahaq yerə əl-qol atırdı. İrəli getmək mümkün deyildi. O da hamı kimi başını aşağı əyərək, arxadan atılan güllə səslərini eşidirdi. Geri çəkilən adamlar onu itələyə-itəlyə ağacların yanından dar küçəyə gətirib çıxartdılar.

Ancaq burada Varvara öz ayaqları üstündə durduğunu hiss etdi. Qəzəblənmiş adamlar bir-birini itələyirdi. Varvara irəli gedə bilmədi.

Kim isə acıqla onun üstünə qışqırdı:

-Xala, hara soxulursan? Nələr olduğunu görmürsənmi?

Özünü itirmiş Varvara dayandı:

-Oğlum, oğlum oradadır!

-Nə olsun ki, oğlun gələr!

-Birdən vurub öldürərlər...

-Kömək edə bilməzsən...

Uca, arıq bir adam əl-qol ataraq qışqırdı:

-Gördünüzmü, yoldaşlar? Budur, bizim çar belədir!

-Yox, kifayətdir!

-Daha bizim padşahımız yoxdur!

-Rədd olsun çar!.. Bəsdir!..

Varvara yavaşcadan dedi:

-Nə allah var, nə də çar; onların heç biri yoxdur.

Varvara Vankanı xatırladı, yenə irəli atıldı, kimin isə əlini tutub soruşdu:

-Uşaqcığazı görmədinizmi?

-Hansı uşaqcığazı? Orada azmı uşaqcığaz var?

-İkona ilə, ikona ilə, qəsdən onu qabaqda qoymuşdum.

Kim isə xatırlayaraq dedi:

-İkona iləmi? Ağ papaqlı?

Varvara özünü itirli, güclə «bəli» deyə bildi.

Həmin adam cavab verdi:

-Vurdular, yıxıldı, gərək ki, ayağa durmadı. Varvaranı heç kim saxlaya bilmədi. O, adamları itələyərək, geniş, qarlı küçəyə çıxdı və donub qaldı. Tapdalanmış qarın üstü insan meyiti ilə dolu idi. Kiminin papağı, kiminінin də ayaqqabısı düşüb qalmışdı.

Varvara güllə səsinin kəsildiyini görüb ürəkləndi, irəliyə, oğlunu axtarmağa getdi.

* * *

Beləliklə, çar 9 Yanvarda fəhlələri aldadıb güllələtdi. Bununla o, özünün varlılarla əlbir olduğunu göstərdi.

Fəhlələr başa düşdülər ki, varlılarla mübarizədə ancaq özlərinə arxalanmalıdırlar

*Lev Qumilevski*

● Nə üçün fəhlələr əllərinə ikona və çarın şəklini götürüb saraya gedirdilər?

Çar onları necə qarşıladı?
Bu, kimin kələyi idi?
Fəhlələr çarın fitnəsini başa düşüb, nə qərara gəldilər?
9 Yanvar nə üçün «Qanlı bazar günü» adlanır?
Vankanın və Varvaranın başına gələnləri yığcam nağıl edin.

## Körpü üstündə

Üsyan gecə başladı.

Gecə qaranlıq və dəhşətli idi. Küçələrdə fənərlər yanmırdı, Nevada nəhəng bolşevik kreyseri «Avrora»nın işıqları söndürülmüş, kreyserdəki topların lüləsi isə Qış sarayına tuşlanmışdı.

Qaranlıqda uzaqdan güllə səsləri eşidilir, pulemyotlar şaqqıldayırdı. Soldat və matroslarla dolu maşınlar küçələrdən keçirdi.

Küçələrdə tonqallar yanırdı. Tonqalların ətrafına toplaşan qızıl qvardiyaçılar hücum əmrini gözləyirdilər. Nevanın bütün körpülərini tutmuşdular.

Körpülərdən birində petroqradlı gənc Andrey Krutov səkkiz qızıl qvardiyaçı ilə birlikdə keçik çəkirdi. Onlara qocaman bolşevik Vasili İvanoviç komanda verirdi.

Ağqvardiyaçılar körpünü iki dəfə atəşə tutdularsa da, qızıl qvardiyaçılar geri çəkilməyib, düşməni qovdular. Körpüdən yalnız xüsusi göstəriş vərəqəsi ilə keçmək olardı.

Bir nəfərin buraxılış vərəqəsi yox idi, amma onu körpüdən buraxdılar. O, keşikçi məntəqəsinə yaxınlaşanda Vasili İvanoviç əlində tapança ona tərəf addımlayıb dedi:

-Buraxılış vərəqənizi təqdim edin!

Həmin şəxs dayandı və paltosunun qaldırılmış yaxasını saldı. Onun üzü dəsmalla bağlanmışdı. O, yavaş bir səslə Vasili İvanoviçə nə isə dedi. Vasili İvanoviç kənara çəkildi və hərbi təzim etdi. Üzü bağlı şəxs cəld addımlarla Andreyin yanından körpünü keçdi və qaranlıqda gözdən itdi.

Keşikçi məntəqəsinin rəisi isə öz yerinə qayıdıb Andreyin yanında dayandı.

Andrey soruşdu:
-O sənə buraxılış vərəqəsini göstərdimi?
Vasili İvanoviç yavaş səslə cavab verdi:
-Yox, vərəqə almağa vaxtı olmamışdır. O, həmişə gizlənmişdirdir... Əvvəl Finlandiyada, sonra da burada. Budur, indi isə Smolnıya gedir. Ağlasığan şeydirmi, o, buraya ağqvardiyaçı qoşunların yanından keçib gəlmişdir. Başa düşürsənmi, onu öldürə bilərdilər...
Andrey birinci dəfə idi ki, komandirini belə narahat görürdü. O, Vasili İvanoviçdən soruşdu:
-Axı o kim idi?
Komandir cavab verdi:
-Vladimir İliç Lenin.

*Andrey Kononov*

- «Avrora» kreyseri harada dayanmışdı?
  Kreyserdəki toplar nə üçün Qış sarayına tuşlanmışdı?
  Üsyan gecəsi körpülər kimin əlində idi?
  Körpülərdə nə üçün keşikçi qoyulmuşdu?
  Xüsusi vərəqəsi olmayan şəxsləri körpüdən buraxsaydılar nə baş verə bilərdi?
  Bəs nə üçün Lenini buraxdılar?
  Oktyabr inqilabına hazırlıq getdiyini hekayədə nədən bilmək olur?

## Başlandı

*(İxtisarla)*

Oktyabrın iyirmi dördündə, silahlı üsyan günü Vladimir İliç səhərdən həyəcan keçirməyə başladı. O, hansı qüvvələrin toplanacağını, haraya göndəriləcəyini bilirdi; lakin sakit oturub gözləyə bilmir, fikirləşirdi: «Görəsən yoldaşlar cəsarətlimi hərəkət edirlər?» O, hadisələrin inkişafından hər dəqiqə xəbər tutmaq istəyirdi.
Səhər o, Marqarita Vasilyevnanı bir neçə dəfə Vıborq rayon partiya komitəsinə göndərdi və xahiş etdi ki, küçədə baş verən hadisələrə diqqət yetirsin.

Lakin Marqarita Vasilyevna Fofanova ona nə danışa bilərdi? Çərşənbə axşamı adi iş günü idi. İdarə və müəssisələr həmişəki qayda ilə işləyirdi, mağazaların, dəlləkxanaların, kinoteatrların hamısı açıq idi. Təkcə tramvaylar, nədənsə, gec-gec işləyirdi, şəhərdə çoxlu hərbi qulluqçu dolaşırdı.

Nikolayev körpüsünü qaldırmışdılar. Marqarita Vasilyevna Vıborq tərəfə başqa bir körpüdən keçmək üçün xeyli dövrə vurdu. Keçidlərin hamısı bağlı idi.

Qayıqçılar adamları Neva çayından qayıqla keçirirdilər.

* * *

Vladimir İliç əllərini arxasına qoyaraq həyəcanla dəhlizdə gəzişirdi. O, pariksiz idi.

-Şəhərdə nə var, nə yox? Vəziyyət necədir? – deyə ev sahibəsini qarşıladı.

Lakin Marqarita Vasilyevna ətraflı məlumat verə bilmədi. O yalnız silahlı adamlar görmüşdü və Neva çayındakı körpülərin nə səbəbə, kimin əmri ilə qaldırıldığını heç kəsdən öyrənə bilməmtşdi.

Vladimir İliç xahiş etdi:

-Rica edirəm, soyunmayın! Bu məktubu rayon partiya komitəsinə aparın.

* * *

Məktub Mrəkəzi Komitəyə çatdırılmalı idi. Fofanova rayon partiya komitəsinə gedib, məktəbu yoldaşlara verdi. Onlar telefonla Smolnı ilə əlaqə saxladılar. Xəbər verdilər ki, Mərkəzi Komitə Leninə qaldığı mənzili tərk etməyə icazə vermir.

-İcazə vermirlər?.. – deyə Lenin təəccüb etdi. – Onlar mənim üçün niyə qorxurlar? Qəribə adamlardır! Yox, mən işi belə qoymaram. Onları başa salmaq lazımdır.

Vladimir İliç tələsik, çox qısa, lakin, görünür, çox sərt bir məktub yazdı. Çünki Fofanova rayon komitəsinə gəlib, məktubu katibə verən kimi iclas gedən otaqdan Nadejda Konstantinovna həyəcanla çıxaraq soruşdu:

-Vladimir İliç çoxmu qəzəblidir?

-Çox qəzəblidir.

-Bununla belə, yenə də ona deyin ki, hələlik heç yerə çıxmaq olmaz. Oturub gözləsin.

* * *

Marqarita Vasilyevna geri dönüb cavabı eynilə təkrar etdi. O, Leninin narazı qaldığını hiss etdi.

Lenin xahiş etdi:

-Yenə də onların yanına gedib deyin ki, gözləmək olmaz. Bütün işlər pozula bilər.

-Yaxşı, gedərəm, - deyə Fofanova razılaşdı. – Ancaq bir şərtlə: Siz süfrəyə oturub nahar etməlisiniz. Mən xörək bişirmişəm, Siz isə dadına da baxmaq istəmirsiniz...

Vladimir İliç gülümsündü:

-Yaxşı, mən nahar edərəm, Siz isə mütləq bir də oraya gedin. Mən indi Mərkəzi omitəyə məktub yazaram.

Marqarita Vasilyevna xörəyi qızdırmaq üçün cəld mətbəxə keçdi. Lenin isə yazı masasına yanaşıb tələsik yazdı: - «Yoldaşlar! Mən bu sətirləri ayın 24-də axşam yazıram, vəziyyət son dərəcə çətindir. Tamamilə aydındır ki, üsyanda ləngimək indi, doğrudan da, ölümə bərabərdir».

Lenin məktubu yazıb mətbəxə gətirdi və ev sahibəsini tələsdirdi:

-Aparın, həm də tez qayıdın! Əgər saat on birə kimi gəlməsəniz, özüm istədiyim kimi hərəkət etməyə məcbur olacağam.

Fofanova getdi və uzun müddət gəlib çıxmadı. Onun əvəzinə qapını Eyno Raxya döydü. Vladimir İliç onun gəlişinə sevindi. İliç Raxyanı şama dəvət edərək, şəhərin mərkəzində baş verən hadisələr barədə onu sorğu-suala tutdu.

Lakin Raxya nə danışa bilərdi? Axı o, hərbi inqilab komitəsinin üzvü deyildi. Yalnız Smolnıdakılar – inqilab qərargahındakılar hər şeydən xəbərdar idilər.

Raxyada Smolnıya iki buraxılış vərəqəsi var idi. Ancaq indi oraya gedib çıxmaqmı olardı? Tramvaylar işləmir, piyada getmək isə mümkün deyil, çünki çox uzaqdır.

-Eybi yoxdur, bir təhər gedib çıxarıq, - deyə Vladimir İliç onu sakit etdi.

O, Fofanovaya məktub yazıb, geyinməyə başladı. Öz adi görkəmində küçəyə çıxmaq İliç üçün təhlükəli idi. Odur ki, o, parik qoyaraq, dişi ağrıyırmış kimi, üzünü yaylıqla sarıdı, başına köhnə papaq qoydu.

* * *

-Hə, görkəmimi kifayət qədər dəyişdim, gedək, işığı söndürün!

Raxya lampanı söndürdü. Onlar pilləkənlə aşağı endilər.

Küçələr bomboş idi. Sonuncu tramvay parka tələsirdi. Vladimir İliç atılıb tramvayın pilləsinə mindi. Raxya güclə özünü çatdıraraq, hoppanıb Leninlə yanaşı durdu.

Tramvayda sərnişin yox idi. Vladimir İliç konduktor qadının qarşısında oturub tramvayın pəncərəsindən qaranlığa baxırdı.

-Səsinizi çıxarmayın, - deyə Raxya pıçıldadı, - əgər o, Sizin səsinizi vaxtı ilə eşidibsə, o saat tanıyar.

Lakin Vladimir İliç elə hey sual verirdi:

-Parka gedirsiniz? – deyə o, konduktordan söz almağa çalışırdı.

Sərnişinin aramsız suallarından cana gəlmiş konduktor acıqla qışqırdı:

-Parka gedirik!

-Niyə?

-Sən kimsən ki, hər şeyi biləsən?

-Fəhləyəm.

Konduktor sərnişini inamsız nəzərlərlə süzərək dedi:

-Əcəb fəhləsən! «Niyə? Hara?» - deyə onu yamsıladı. – Yoxsa görmürsən nə həngamədir? Burjuyları əzəcəyik, indi bildin hara gedirik?!

Onun cavabı Vladimir İliçin çox xoşuna gəldi.

* * *

Uzun və düz küçədə heç kəs yox idi. Evlərin darvazaları bərk-bərk bağlanmışdı. Qabaqda nə dalandarlar gözə dəyirdi, nə də piyada yol gedən var idi. Elə bil Smolnının özünə kimi yolda heç bir təhlükəyə rast gəlməyəcəkdilər. Amma birdən tində iki atlı göründü. Onlar ötərək nə

barədəsə danışmağa başladılar. Atlılar topçı məktəbinin yunkerləri[1] idilər.

Raxya Vladimir İliçə pıçıldadı:

-Tez irəli gedin, mən onları ləngidərəm.

Yunkerlər, doğrudan da, geri döndülər. Raxyaya çatdılar, onu dayandırıb, buraxılış vərəqəsi soruşdular.

-Buraxılış vərəqəsi nədir? – deyə Raxya özünü bilməməzliyə qoyaraq soruşdu.

Vladimir İliç isə bu vaxt onlardan xeyli uzaqlaşmışdı.

-Buraxılış vərəqəsini ver, ya da...

Yunker tatarını[2] silkələdi.

-Vur görüm, vur, vur! Hünərin var, vur! – deyə Raxya sərxoş kimi səndələyərək əlinin birini tapança olan cibinə saldı və qürurla düz ata sarı getdi.

At hürərək kənara çəkildi.

-Bu sərxoşdan əl çək! – deyə ikinci atlı qorxaraq dilləndi.

-Əşi, qoy cəhənnəm olsun... gedək!

Yunker tatarını havada yelləyərək atını döndərdi və yoldaşına tərəf çapdı.

* * *

Bir qədər gedəndən sonra Smolnının binası göründü.

Keçmişdə əsilzadə xanımların təhsil aldıqları institut binasının bütün pəncərələrində işıq parlayırdı. Ağacların altında zirehli avtomobillər durmuşdu, tonqallar yanırdı. Deməli, qərargah fəaliyyət göstərirdi.

Baş qapının qarşısında İkinci Ümumrusiya Sovetlər qurultayına uzaq əyalətlərdən gəlmiş nümayəndələr toplaşmışdılar. Məlum oldu ki, mandat komissiyasında kök salmış menşeviklər qurultayqabağı buraxılış vərəqələrinin rəngini dəyişmişdilər. Onlar ağ buraxılış vərəqələri əvəzinə öz tərəfdarlarına qırmızı buraxılış vərəqələri paylamışdılar, qapıdakı keşikçilərə isə qəti surətdə əmr etmişdilər ki, içəriyə yalnız qırmızı mandatı olan nümayəndələri buraxsınlar.

Toplaşanlar səs-küy salır, dalaşırdılar.

Bir fəhlə ağ buraxılış vərəqəsini silkələyərək soruşurdu:

---

[1] Yunker – xüsusi təlim keçmiş çar zabiti

[2] Tatarı – qamçı

-Necə yəni içəri keçməyə qoymayacaqsınız?.. Nümayəndəni qapıda saxlayacaqsınız?

O, özlərini itirmiş keşikçiləri köksü ilə itələməyə başladı. Fəhlə ilə yanaşı dayananlar ona qoşuldular.

-Bu nə biabırçılıqdır?! İşi dolaşıq salırlar, sonra da içəri keçməyə qoymurlar. Tez olun, yol verin görək!

Adamlar bir-birini itələyə-itələyə koridora keçdilər. Onlar Vladimir İliçi də özləri ilə apardılar.

Vladimir İliç pilləkənləri çıxa-çıxa gülürdü:

-Biz həmişə istədiyimizə nail oluruq!

Vladimir İliç üçüncü mərtəbəyə qalxıb, Hərbi İnqilab Komitəsinin yerləşdiyi otaqlara getdi.

* * *

Leninin müəyyən etdiyi plan üzrə inqilabi dəstələrin necə hərəkət etdiyi barədə ona məlumat verdilər.

Bu gecə qırmızı qvardiyaçılar şəhərin ən mühüm yerlərini – vağzalları, bankları, körpüləri, telefon və teleqraf stansiyalarını ələ keçirdilər. Smolnıya elə hey rabitəçilər gəlir, körpülərin yenidən tutulduğunu, keçid yerlərinin qaydaya salındığını, Müvəqqəti hökumətin son sığınacağı olan Qış sarayına hücumun müvəffəqiyyəti haqqında xoş xəbərlər gətirirdilər.

Şəfəq doğarkən şəhər bütünlüklə üsyançıların əlində idi. Yalnız Qış sarayı meydançası və ona yaxın olan küçələr Müvəqqəti hökumətin ixtiyarında idi.

Vladimir İliç, demək olar ki, dincəlmədən işlədi, səhərə yaxın Rusiyanın bütün vətəndaşlarına müraciət yazdı.

Petroqraddakı üsyan qələbə çaldı və dövlət hakimiyyəti Hərbi İnqilab Komitəsinin əlinə keçdi.

Tarixdə birinci dəfə olaraq üsyançılar radio ilə xalqa müraciət etdilər.

Səhəri Vladimir İliç Petroqrad Sovetinin bir gündən çox davam edən iclasına gəldi.

Matroslar, fəhlə və əsgərlər əziz İliçi görəndə həyəcanlanaraq onu sürəkli alqış və «ura» səsləri ilə qarşıladılar.

Proletariatın rəhbəri tribunaya qalxaraq, adamların sakitləşməsini gözlədi, sonra isə aydın, uca səslə dedi:

-Yoldaşlar! Fəhlə və kəndli inqilabı başa çatmışdır!

Səhəri gün Ümumrusiya qurultayında Vladimir İliç Lenin Xalq Komissarları Sovetinin Sədri seçildi.

*Petrak Kapitsa*

● V.İ.Lenin inqilab qərargahı ilə necə əlaqə saxlayırdı?
V.İ.Lenin Smolnıya necə gəldi?
V.İ.Leninin planına görə fəhlələr əvvəlcə haraları ələ keçirdilər?
Hakimiyyət Hərbi İnqilab Komitəsinin əlinə nə vaxt keçdi?
Hekayəni bitmiş hissələrə ayırıb, hər hissəyə başlıq verin.
Hekayəni plan üzrə yığcam nağıl edin.

**Oktyabr üçün**

Coşğun bir dənizsən, dalğalarınla
Zülmət dünyasından intiqam aldın.
Uğurlu bir quşsan, qanadlarınla
Düşmənin canına vəlvələ saldın.

* * *

İncə bir şeirsən, hər bir misranın
Xəstə könüllərə şəfa gətirir,
Şirin meyvəsisən gözəl bir bağın,
Ətrin bu ellərə səfa gətirir.

* * *

Sönməz bir günəşsən, öz tellərinlə
Qatı qaranlığı bir anda boğdun.
Ellərə xoş gələn əməllərinlə
Baharın qoynundan xəzanı[1] qovdun.

* * *

Yox, bitib tükənməz sənin büsatın[2],
Sən ağ gün gətirdin bizim Vətənə.
Əzbərdir dilimdə uğurlu adın,
Bu şeiri, ilhamı sən verdin mənə!

*Süleyman Rüstəm*

---

[1] Xəzan – payız
[2] Büsat – şənlik, toy-bayram

- Şair şeirin birinci bəndində Oktyabrı nələrə bənzədir? Şeiri əzbərləyin.

## Smolnıda

*(İxtisarla)*

Uzaq Sibir kəndindən Petroqrada qoca bir kəndli gedirdi. Yolda o, hamıya Leninin yanına getdiyini söyləyirdi. O, Leninə kəndlilərin dolanacağı haqqında danışmaq istəyirdi.

Qoca xeyli yol getdikdən sonra Petroqrada çatdı. O, küçələrdə silahlı fəhlələrin dayandığını gördü. Musiqi ilə bir soldat alayı gəlib keçdi. Alayın önündə böyük bir qızıl bayraq aparırdılar.

Qoca bir qızıl qvardiyaçıya yaxınlaşıb soruşdu:

-Bu nə olan işdir?

O, cavab verdi:

-Elə-belə, dünəndən bizdə Sovet hakimiyyəti qurulub.

Qoca küçə ilə gedir, adamlardan Lenini harada görə biləcəyini soruşurdu.

Ona deyirdilər:

-Smolnıda görə bilərsən!

O, böyük bir binaya gəlib çatdı. Binanın yanında tonqallar yanırdı, pulemyotlar qoyulmuşdu. Matros və soldatlar gəzişirdilər. Bura Smolnı idi.

* * *

Cavan bir matros qocanın xoşuna gəldi. O, çəkməsinin dabanını yerə vurub əllərini ovuşdurur, qızınmağa çalışırdı. Soyuq idi, dənizdən bərk külək əsirdi.

Qoca ona dedi:

-Mən Lenini görmək istəyirəm.

Matros ona təpədən-dırnağa qədər baxdıqdan sonra soruşdu:

-Lenini nə üçün görmək istəyirsən?

-Gəlmişəm ona öz həyatımızdan danışım.

-Qoca, get komendantın yanına, ondan buraxılış vərəqəsi al, - deyə matros ona hara getmək lazım olduğunu göstərdi.

Komendantın yanına getmək üçün pilləkəndə növbəyə durmuşdular. Enli pillələr sürüşkən və çirkli idi. Görünür, bütün günü buradan çoxlu adam gəlib keçmişdi. Komendant ağır-ağır buraxılış vərəqəsi yazırdı: onun əli tüfəngə öyrəşmişdi. O, qələmi beş barmağı ilə, özünə inanmırmış kimi, qorxa-qorxa tutmuşdu.

Qoca ondan buraxılış vərəqəsi aldı və Lenini axtarmağa getdi.

* * *

Smolnının birinci mərtəbəsində fəhlə və matroslar silah alırdılar. Onlar bir-bir yaxınlaşır, ucaboy, şən bir soldatdan tüfəng və patron alır, imza edir və həyətə çıxırdılar. Orada dəst-dəstə düzülüb gedirdilər. Harada isə uzaqda toplar atılırdı. Petroqrad yaxınlığında vuruşma gedirdi.

Qoca, ucaboy soldatlardan Leninin yerini soruşdu. Soldat gülümsənərək cavab verdi:

-Otuz altıncı otaqdadır.

Otuz altıncı otağın qapısında iki nəfər qızıl qvardiyaçı keşik çəkirdi. Onlardan biri qara paltolu, bığlı qoca fəhlə, digəri əyninə yarımkürk geymiş bir oğlan idi.

Qoca onlara dedi:

-Mən Lenini görmək istəyirəm.

Bığlı fəhlə qocaya baxıb dedi:

-Dəhlizlə düz get. Lenin böyük salonda çıxış edəcəkdir.

Qoca ancaq indi anladı ki, nə üçün hamı dəhlizlə bir tərəfə gedirdi. Dəhlizin başındakı enli, ağ qapını taybatay açıq gördü. Qapının yanına çoxlu adam toplaşmışdı.

Qoca yavaş-yavaş qabağa keçməyə başladı. O, salona təzəcə girmişdi ki, birdən səs-küy qopdu. Qoca işin nə yerdə olduğunu birdən-birə anlaya bilmədi. Gördü ki, hamı qışqırır, əl çalır, papaqlarını çıxardaraq yelləyir. Bu bəzəkli salondakıların əksəriyyəti sadə şinel, yarımkürk və matros paltarı geymiş adamlar idi.

-Lenin! Lenin! – deyə qışqırırdılar.

Qoca ayaq barmaqları üstündə boylandı və salonun o biri başında Lenini gördü.

* * *

Vladimir İliç hündür yerdə dayanmışdı. O, səs-küyün kəsilməsini gözləyirdi. Sonra əlini yuxarı qaldırıb sakit olmağı tələb etdi. Ancaq salonda səs kəsilmirdi.

-Lenin! Yaşasın Lenin!

Vladimir İliç qaşqabağını tökdü. Sonra özünü saxlaya bilməyib, gülümsündü. Səs-küy daha da gücləndi.

Lenin əllərini yellədi. Bir az gözlədi. Yenə sağ əlini qaldırdı. Sonra, görünür ki, səs-küyə fikir verməməyi qərara aldı, bir az qabağa əyildi və danışmağa başladı. O dedi:

-Yoldaşlar! Bolşeviklərin həmişə dedikləri fəhlə və kəndli inqilabı başa çatmışdır!...

Lenin yeni həyatdan, Sovet hakimiyyətindən, müharibəni qurtarmaq lazım gəldiyindən, torpağın mülkədarlardan alınıb, kəndlilərə paylanacağından danışdı.

Qoca diqqətlə qulaq asırdı. Vladimir İliçin hər bir sözü ona aydın idi.

Lenin nitqini qurtardı. Qoca öz kəndini xatırladı. Leninin sözlərini orada danışmaq lazım idi. O, dəhlizlə gedir, küçəyə çıxan enli pilləkənləri axtarırdı.

Birdən kim isə onu səslədi. Bu, bir az əvvəl Smolnının qabağında gördüyü cavan matros idi.

-Hə, nə oldu, atacan? Leninə öz dolanacağından danışa bildinmi? – deyə matros gülə-gülə xəbər aldı.

Qoca cavab verdi:

-Yox, Lenin özü dolanacağımızdan mənə danışdı.

*Andrey Kononov*

● Sibirdən gələn kəndli Petroqrad küçələrində nə gördü?
Qoca kəndli Smolnıya nə üçün gedirdi?
O, Smolnıda nə gördü?
Qoca nə üçün Leninlə söhbət etmədi?
Hekayəni danışın.

## Ordumuzun yaradılması

*(İxtisarla)*

Dənizdən soyuq fevral küləyi əsirdi. Zavodlar aramsız fit verirdi. Bu, Leninin çağırışı idi. Lenin öz ölkəsini müdafiə

etməyə hazır olanları Smolnıya çağırırdı. Adətən təhlükədə idi: almanlar Petroqrada[1] hücum edirdilər.

Lenin bütün gecəni işlədi. O, hərdən ayağa durur, pəncərəyə yanaşırdı. Smolnıda pulemyot düzülmüş həyətində tonqallar yanırdı, boz şinelli əsgərlər hara isə qucaq-qucaq qılınc və tüfəng daşıyırdılar.

İyirmi saatlıq iş günündən sonra Lenin dincəlmək üçün aramla dəhlizlə getməyə başladı. Dəhliz tamam boş idi. Lenin pilləkənin ayağında durdu. Orada – pulemyotun yanında cavan bir əsgər keçik çəkirdi.

Lenin ondan soruşdu:

-Necə bilirsiniz, yoldaş, biz düşmənə bu pulemyotla qalib gələ bilərik?

-Şübhəsiz, onları əzəcəyik, Vladimir İliç! – deyə, əsgər şən səslə cavab verdi.

-Almanları?

-Almanları!

-Onların zirehli avtomobilləri, topları var, güclüdürlər.

-Buna baxmayaraq onları əzəcəyik, Vladimir İliç!

-Yoldaş, mən də bu fikirdəyəm... Doğru deyirsiniz: onları əzə biləcəyik.

Lenin yenə də bayaqkı kimi arxayın addımlarla öz otağına qayıtdı. Son hərbi məlumat hələ də lampanın yanında idi. Məlumatda deyilirdi: «Almanlar Pskova yaxınlaşır, Petroqrada zərbə endirməyə hazırlaşırlar».

Kaş bu pulemyotçu kimi əsgərlərdən çox olaydı. Məgər onlar azdır? Ancaq onları toplamaq, öz ordumuzu təşkil etmək üçün vaxt lazımdır.

Vaxt isə çox az idi, düşmən sovet paytaxtına doğru can atırdı.

Yavaş-yavaş dan yeri ağarmağa başladı. Daha həyəcanlı fit səsi eşidilmirdi. Haradan isə uzaqdan musiqi səsi gəlirdi. Bir dəqiqədən sonra musiqi gücləndi. Hərbi orkestrin mis boruları marş çalırdı. Komanda verildi, hərbi hissə Smolnının geniş darvazasından içəri girdi. Lenin pəncərənin

---

[1] Petroqrad – indiki Leninqrad

qarşısında durub küçəyə baxırdı. Döyüşçülər qısa kürk geymiş, dəyirmi papaq qoymuşdular.

Səma get-gedə açılırdı.

Smolnının dəhlizindən ayaq tappıltısı və danışıq səsləri eşidilməyə başladı.

Qapı cırıldadı, katib otağa daxil oldu.

-Bu yoldaşlar Sestroretskdən gəlmişlər? – deyə Lenin soruşdu.

-Qızıl qvardiyaçılardır. Sestroretsk silah zavodunun fəhlələridir. Doqquz min səkkiz yüz adamdır.

Həyəcan siqnalını eşidən kimi gecə Smolnıya Kronştadt matrosları, Piterin qızıl qvardiyaçıları, inqilabın sadiq əsgərləri axışıb gəlmişdilər...

Bir azdan qızıl əsgərlərlə dolu qatarlar təkərlərini taqqıldada-taqqıldada Narva və Pskova getdi. Qızıl əsgərlər 1918-ci il fevralın 23-də almanlara ilk zərbə endirdilər. Almanların hücumunun qarşısı alındı.

Həmin gün bizim ordumuzun yaranma tarixi oldu.

*Andrey Kononov*

● Almanların məqsədi nə idi?
Əsgər nə üçün deyirdi ki, «Onları əzəcəyik, Vladimir İliç!»?
İndi ordumuz necə adlanır?
Nə üçün 1918-ci il fevralın 23-ü Sovet Ordusunun yaranması günü hesab olunur?

### Voroşilov cəbhədə

Vətəndaş müharibəsinin qızğın günləri idi. Cəbhə komandiri Voroşilov zirehli maşında oturub təzə cəbhəni yoxlamağa getdi. Lukaş və Kisel də onunla idi. Zirehli maşın yola düşdü, arxasınca da on səkkiz qırmızı kazak atlandı.

Bərk yağan yağış yenicə kəsilmişdi. Yol kənddən keçirdi. Həyətlərin qapıları, daxmaların pəncərələri bağlı idi. Camaat qaçmışdı.

K.Y.Voroşilovun göstərişi ilə maşını dayandırdılar. O, atlılara əmr etdi ki, aralı gəlsinlər.

Lukaş Voroşilovun dediyinə əməl etdi.

Maşın palçıqlı yolla gedirdi. Qabaqda böyük bataqlıq göründü. Maşın onu sürətlə keçmək istəyəndə palçığa batdı. Motor söndü.

Sürücü Sıboçenko qapını açıb bayıra çıxmaq istədi. Voroşilov onun çiynindən aşağı basıb dedi:

-Tərpənmə!

-Yoldaş Voroşilov, burada ki heç kim yoxdur, - dedi.

İndi də Kisel qapını açmaq istədi. Voroşilov qəti tapşırdı:

-Çıxma!

Kisel qapını açıb, başını bayıra çıxartmışdı ki, güllələr açıldı. O, heç nəfəs də çəkmədi, zirehli maşından aşağı düşdü. Lukaş qapını tez çəkdi. İkinci dəfə yaylım atəşi açıldı. Güllələr zirehli maşını deşə bilmirdi.

Tüfəng atan adamlar gördülər ki, zirehli maşın dillənmir; hasarların arxasından bağıra-bağıra saqqallı adamlar çıxmağa başladı. Əlliyə qədər adam zirehli maşını dövrəyə aldı. Onlar tüfəngin qundağı ilə zirehli maşını qırmaq istəyirdilər.

-Kafirlər, bolşeviklər, bayıra çıxın! – deyə bağıraraq, zirehli maşını silkələyib, onun üstünə dırmaşdılar. Bir şey edə bilmədilər. Məsləhətləşdilər. Zirehli maşını yandırmaq istədilər. Heyifləri gəldi. Öküz gətirmək üçün adam göndərdilər.

Lukaş zirehli maşından səsləndi:

-Ey, kazaklar, sarsaqlıqdan əl çəkin! Onsuz da bizə heç bir şey edə bilməyəcəksiniz.

Kazaklar qaqqanaq çəkib gülüşdülər.

Altı cüt öküz gətirdilər. Yoğun kəndir də tapdılar. Zirehli maşının qabağından bağladılar. Zirehli maşın palçıqdan ağır-ağır çıxdı.

Voroşilov Lukaşdan soruşdu:

-Səndə patron varmı?

-Var.

Sürücü Sıboçenko sakit oturub rulu hərləyirdi. Qabaqda yoxuş var idi. Dartıb zirehli maşını oradan da çıxartdılar. Öküzlər dirəndi. Kazaklar tövşüdülər. Sıboçenko motoru işə saldı. Motor gurladı. Öküzlər hürküşdü. Kəndir qırıldı. Lukaş pulemyotdan atəş açdı. Kazaklardan salamat qalanları özlərini zorla böyürdəki arxa saldılar. Zirehli maşın gurultu ilə ötüb keçdi... Qırmızıların ağıllı tədbiri əlliyə qədər kazakın gücünə qalib gəldi.

*Aleksey Tolstoy*

**Atalar sözü:**
Qüvvə hər şeyi, ağıl qüvvəni sındırar.

● Voroşilov kim idi? Sonralar hansı vəzifələrdə olmuşdur?
O nə üçün cəbhəni yoxlamağa gedirdi?
Yolda onların başına nə gəldi?
Voroşilov yoldaşları ilə necə fənd işlətdi?
Vətəndaş müharibəsi qəhrəmanlarından daha kimləri tanıyırsınız?

## İgid partizan

*(İxtisarla)*

Vətəndaş müharibəsi zamanı Şimali Qafqaz dağlarında belə bir hadisə baş verdi. Partizanlar ağların böyük qüvvələri qarşısında geri çəkilməli oldular. Onlar daha uzaqlara – dağlara çəkilirdilər. Lakin ağlar onlara aman vermir, gəlib çatırdılar. Partizanlar isə ailələrini və heyvanları da dağlara aparmalı idilər. Məsləhət zamanı Daniel adlı bir gənc bir partizana dedi:

-Yoldaşlar, işlərinizi arxayınlıqla görün! Mən ağların qabağını bütün günü, bəlkə də, çox saxlayaram.

-Onların qabağını tək saxlaya bilməzsən! Kim kömək edəcək? Biz böyük bir dəstə ayıra bilmərik.

Daniel:

-Tək mən özüm onları saxlayaram, - dedi, - mənə nə bir adam, nə də dəstə lazımdır.

Partizanlar təəccüblə soruşdular:

-Sən onların qabağını necə saxlayacaqsan?

-Bu mənim öz işimdir. Sizə söz verirəm ki, onların qabağını saxlayaram, mənim söz verməyimi isə hamınız yaxşı bilirsiniz.

Partizanlar:

-Verdiyin sözü yerinə yetirdiyini hamımız bilirik, - dedilər və yola hazırlaşmağa başladılar.

* * *

Qayanın üstündə, dar cığırda qədim bir qala var idi. Daniel anası ilə birlikdə orada yaşayırdı. Onun anası qoca, lakin qüvvətli bir qadın idi. Partizanlar getdikdən sonra o, anasının yanına gəlib dedi:

-Ana, biz ikimiz dağlara gedən yolu müdafiə edib ağları irəliləməyə qoymamalıyıq.

-Yaxşı oğul, - deyə, ana cavab verdi. - De görüm mən nə etməliyəm?

Daniel qalada olan silahların hamısını bir yerə yığdı. Məlum oldu ki, onun üç təzə və iki də köhnə tüfəngi vardır. Patron da var, ancaq o qədər də çox deyil.

O, tüfəngləri qalanın pəncərələrinə qoydu. Onları doldurub, cığırın müəyyən bir yerinə yönəltdi.

O, anasından soruşdu:

-Tüfəng doldura bilərsənmi?

Qarı gülümsünüb dedi:

-Köhnələrini yaxşı doldura bilərəm, təzələrini də ki, sən mənə öyrədərsən.

Daniel buna cavab olaraq anasını öpdü və təzə tüfəngləri doldurmağın qaydasını ona öyrətdi. Anası bulağa gedib bir bardaq su gətirdi.

-Bəs bu nəyə lazımdır? – deyə Daniel soruşdu.

-Əgər sən su içmək içmək istəsən və ya səni yaralasalar, lazım olar.

* * *

Onlar hazırlaşıb qurtarmışdılar ki, birdən ağlar cığırda göründülər. Dəstənin qabağınca qırmızı başlığı kürəyinə düşmüş boylu-buxunlu iki atlı çapırdı. Çərkəzi paltarların-

dakı gümüş vəznələr par-par parıldayırdı. Bellərində xəncər, yanlarında qılınc, çiyinlərində tüfəng var idi. Yapıncılarını büküb yəhərin dal qaşına bağlamışdılar.

Ağlar qədim qalanın təhlükəli olacağını fikirlərinə belə gətirmədən irəliləyirdilər. Onlar irəliləyir və partizanlara gülürdülər.

Daniel nişan alıb iki dəfə atəş açdı. Tüstü çəkildikdə o, atlıları cığırda görmədi. Atlılar uçurumdan çaya düşmüşdülər.

Bu zaman dalca gələn atlılar dayandılar və məsləhətləşməyə başladılar. Onlar qalanı atəşə tutdular, lakin qalanın köhnə divarları o qədər qalın idi ki, onları güllə ilə deşmək mümkün deyildi. Bunu görən bir neçə atlı sürətlə qalaya doğru çapmağa başladı, lakin Daniel əvvəlcədən cığıra böyük daşlar yığıb yolu kəsmişdi. Atlar bu daşlara çatanda durdu. Danielin anası isə tüfəngləri bir-birinin dalınca doldururdu.

Gənc partizan qalada guya çox adam olduğunu bildirmək üçün müxtəlif yarıqlardan və pəncərələrdən atəş açırdı.

Ağlar qalanı arasıkəsilmədən atəşə tutmağa başladılar. Güllələr elə bir ucdan divar çıxıntılarına dəyərək vıyıldayırdı.

Daniel düz atırdı. O, sakitcə nişan alır və heç kimi qalaya yaxınlaşmağa qoymurdu. Cığırla qalaya yaxınlaşmaq istəyən ölür və ya yaralanırdı. Bunu görən ağlar çox qəzəbləndilər. İki nəfər cürətlisi uçurumdan çaya endi və çayı üzüb keçəndən sonra sıldırım çıxıntılarla o biri tərəfdən qalaya dırmaşmağa başladı.

Daniel onları görmədi, lakin anası gördü. Elə o dəqiqə oğluna bir söz demədən arxa tərəfdən dırmaşan ağları güdməyə başladı. Ana köhnə tüfəngi götürüb atəş açdı. Onlardan biri çaya yıxıldı. O birisi özünü itirdiyindən, qabağındakı daşdan möhkəm tuta bilməyib; yoldaşının dalınca aşağıya yumalandı.

İşi belə görən ağlar atışmanı saxlayıb məsləhətləşməyə başladılar. Onlar deyirdilər:

-Hər tərəfi atəş altında saxlayan qaladakı dəstə, şübhəsiz ki, təcrübəli dəstədir. Hər tərəfdən atırlar. Nə edəcəyik?

Ağların bəziləri deyirdi:

-Topu gözləməliyik, top qalanı tezliklə dağıdar.

Lakin bəziləri razılaşmırdılar:

-Topu qoymaq üçün yer yoxdur, top uçurma düşə bilər. Burada topun heç bir köməyi ola bilməz.

Onlar yenə vuruşmağa başladılar və Danieli qolundan yaraladılar. Anası oğlunun qolunu sarıdı və Daniel istirahət edəndə özü atmağa başladı. O, çox sərrast atırdı. Bu ara ağlar yenidən məsləhətləşməyə başladılar. Onlar:

-Gəlin belə edək, - dedilər, - top gətirməyək, ancaq onları topla qorxudaq. Danışıq aparmaq üçün onların yanına silahsız adam göndərək və deyək ki, əgər bizə yol verməsələr, onda biz onların hamısını top ilə məhv edəcəyik.

* * *

Bu təklif hamının xoşuna gəldi. Birdən Daniel bir adamın cığırla qalaya tərəf gəldiyini və tüfəngini, xəncərini, qılıncını çıxarıb daşın üstünə qoyduğunu gördü.

Gələn adam:

-Ey! - deyə, çağırdı, - biriniz çıxın, heç bir şeydən qorxmayın, sizə deyiləsi sözüm var.

Daniel anasına:

-Mən danışıq aparmağa gedirəm, - dedi, - sən isə göz qoy, bir balaca qarışıqlıq görən kimi atəş aç! Anacan, yəqin sən yorulmusan? Axı biz bütün günü vuruşmuşuq...

Anası dedi:

-Daniel, mən həyatımın qalanını ağ canavarlarla vuruşmağa hazıram. Mən nə yemək, nə də içmək istəyirəm, çünki qalibiyyətimiz məni doyurmuşdur.

Daniel:

-Gör nə qoçaqmışsan! - dedi və daşın yanında onu gözləyən ağların nümayəndəsinin yanına enməyə başladı.

Daniel daşların o biri tərəfindən durub soruşdu:

-Nə lazımdır, nə deyirsən?

-Nə deyirəm? Onu deyirəm ki, bizə yol verin, əgər verməsəniz, sizin bütün dəstənizi qırarıq.

Daniel:

-Əgər dediyin söz elə budursa, qayıda bilərsən.

-Yox, mənim bir təklifim var.

-De görüm nə təklifin var?

-Əgər siz bizim dəstəyə yol verməsəniz, biz top ilə hər şeyi: həm sizi, həm də sizin bu murdar qalanızı məhv edəcəyik...

Daniel:

-Qoy fikirləşim, - dedi və göyə baxdı.

Axşam düşürdü. Daniel nə qədər patronları qaldığını fikrində hesabladı. Lap az qalmışdı. O dedi:

-Yaxşı, biz yol verərik, ancaq bir şərtlə.

-Şərtini de.

-Mənim dəstəm bu yolu qaranlıq düşənə qədər saxlayacaqdır. Qaranlıq düşən kimi biz çıxıb gedəcəyik. Qoy o zaman yol sizin olsun.

Ağların nümayəndəsi Danielin top atəşindən qorxub güzəştə getdiyini fikirləşərək sevindi. Danieli məharətlə aldatdığından xoşlanaraq istər-istəməz dedi:

-Yaxşı, qoy elə olsun. Biz gecəyə qədər istirahət edərik, lakin siz tezliklə buradan rədd olun, yoxsa hamınız üçün pis olar.

* * *

Bu danışıqdan sonra ağların nümayəndəsi öz dəstəsinin yanına, Daniel isə qalaya qayıtdı. Hava tamamilə qaraldıqda Daniel atı qalaya gətirib, tüfəngləri yüklədi və anasını da atın üstünə mindirib dağa yola düşdü.

Ağlar isə pusquda durmuş partizan dəstəsindən qorxaraq gecəni yerlərindən tərpənmədilər. Onlar səhər dağa qalxanda dərədə heç kim yox idi. Səhərə qədər partizanlar xeyli uzaqlaşıb özlərinə yeni məskən salmışdılar.

*Nikolay Tixonov*

- Daniel ağların qarşısını kəsmək üçün nə fikirləşmişdi?
  Ağlar nə üçün qalaya yaxınlaşa bilmirdilər?
  Danışıq kimin üçün xeyirli oldu?
  Hekayəni nağıl edin.

**Qoçaqlıq**

*(İxtisarla)*

Bir dəfə Çapayev kəşfiyyata çıxmışdı. O, dörd atlı döyüşçü ilə gedirdi.Dalda isə arabada, pulemyotun yanında Petka İsayev və Çapayevin 8 yaşlı oğlu Arkadi oturmuşdu.

Axşam düşürdü. Çapayevçilər bir meşəyə rast gəldilər. Meşənin yanından kiçik bir çay axırdı. Çayın o tayında Klinsovka kəndi görünürdü.

Çayın kənarında otuza qədər at otlayırdı. Onları kənd uşaqları qoruyurdular. Çapayev onlara yanaşdı:

-Uşaqlar, siz klinsovkalısınız?

-Klinsovkalıyıq, - deyə onlar cavab verdilər və bir az irəli gəldilər.

-Siz burda nə edirsiniz?

-Atlarımızı qoruyuruq ki, kazaklar onları qaçırmasınlar.

-Deməli, kənddə ağlar var?

-Bəli, kazaklar.

-Onlar çoxdurmu?

-Çoxdur.

-Ağları kənddən qovmaq istəyirsinizmi?

-İstəyirik.

-Elə isə mənə qulaq asın, - deyə Çapayev söyüd ağacı qırmağı və qabığını soymağı onlara tapşırdı.

Çapayev əmr etdi:

-Hava tamamilə qaralanda atlara minib Klinsovkaya çapın. Ancaq ağacları qılınc kimi yuxarı qaldırın. Güllə səsi eşitdikdə evlərinizə cumun. Başa düşdünüz?

Uşaqlar:

-Başa düşdük! – deyə cavab verdilər.

Uşaqlar söyüd ağaclarını qırıb, qabığını soydular və atları minib bir sıraya düzüldülər... Artıq hava qaralmışdı. Uşaqlar atlarla kəndə çapdılar.

Çapayev isə öz döyüşçüləri ilə birlikdə Klinsovka kəndinin o biri tərəfinə keçdi.

Çapayev tapançasından fişəng buraxdı. Fişəng fışıltı ilə havaya qalxdı və rəngli qığılcımlarla ətrafa yayıldı.

Yuxulu kazaklar yerlərindən sıçrayıb bayıra çıxdılar. Fişəngin işığında əllərində ağ qılınc olan atlıların onlara tərəf çapdıqlarını görüb özlərini itirdilər.

Elə bu vaxt kəndin o biri tərəfində pulemyot şaqqıldadı, tüfəng və tapança gülləları vıyıldadı. Fişəng sönən kimi atlılar gözdən itdilər. Kazaklar tüfənglərini yenicə tapıb götürmüşdülər ki, Çapayevin dəstəsi onların üstünə atıldı.

Kazaklar tüfənglərini tullayıb, həyətlərdə gizləndilər.

Çapayev beş nəfər döyüşçü ilə qapı-qapı gəzib, onları yığıb əsir etdi. Bu zaman klinsovkalı uşaqlar öz söyüd ağacları ilə həyətlərində oturmuşdular.

Onlar sonralar bu hadisəni xatırlayıb gülürdülər.

*Andrey Kononov*

**Atalar sözü:**

Qorxaq qaçar hay gəlməmiş,
Qıç çırmayar çay gəlməmiş.

● Çapayev kimlərlə kəşfiyyata çıxmışdı?
O, uşaqlara nə tapşırdı?
Çapayevin dəstəsi necə qalib gəldi?

**ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR**

Oktyabr silahlı üsyanına kim rəhbərlik edirdi?

İnqilabın başlıca qüvvəsi kim idi?

Oktyabr silahlı üsyanı necə keçdi?

Oktyabr inqilabının qələbəsi ölkəmizin xalqlarına nə verdi?

Vətəndaş müharibəsi illərində ölkəmiz nə kimi çətinliklərlə qarşılaşdı? Gənc sovetlər ölkəsinin yeni həyatına kimlər mane olmaq istəyirdi?

Qızıl Ordu nə vaxt yarandı?

Qızıl Ordunun əfsanəvi qəhrəmanlarından kimləri tanıyırsınız?

## İməcilik

*(İxtisarla)*

1919-1920-ci illərdə dəmir yollarımızla gedən hər bir kəs «parovozlar qəbiristanı»nı görüb. Əzilib dağılmış parovozların tullandığı yer belə adlanırdı. Onlar vətəndaş müharibəsində top güllələri ilə əzilmiş, sonra da necə tullanıbsa, eləcə, dağınıq halda, sahibsiz qalmışdı.

Vəziyyət ağır idi. Hər yerdə müharibənin izləri qalmışdı: çay üzərindəki partladılmış körpülər, şəhərlərdə yanmış evlər, dəmir yollarında əzilib işdən çıxmış parovozlar diqqəti cəlb edirdi.

Sovet ölkəsi öz təsərrüfatını yenidən qurmalı idi.

Bu zaman böyük bir iş başlandı; sovet adamları öz ölkələrinə kömək üçün bayram günlərində və ya işdən kənar saatlarda pulsuz işləməyə başladılar.

Bu işə ilk dəfə Moskva Kazan vağzalı dəmiryolçularının kommunist fəhlələri 1919-cu il may ayının 10-da başladı.

Onlar könüllü olaraq öz təşəbbüsləri ilə parovozların bütöv hissələrini axtarıb tapır, odun və kömürlə dolu qatarları boşaldırdılar. Əvvəllər belə könüllü işi hər həftənin axırıncı günü, yəni şənbə (суббота) günündə görürdülər. Buna görə də sovet adamlarının belə işləməyə yığıldığı günü «субботник» (iməcilik) adlandırmağa başladılar.

1920-ci ildə 1 May günü Rusiyada iməcilik günü elan olundu. Bu bayram günündə Kremldən tutmuş uzaq Sibirin fəhlə qəsəbələrinədək hər yerdə işlədilər. Ancaq adamlar bayram şənliklərinə getdikləri kimi, iməciliyə də orkestrin sədaları altında gedirdilər.

Həmin gün səhər saat 8-də Kremldə bir-birinin ardınca üç dəfə top atəşi açıldı. Fəhlələr, qulluqçular, Kreml hərbi məktəbinin kursantları Qızıl Meydana çıxdılar.

Hərbi nizamla işə getmək üçün hamı cərgəyə düzüldüyü vaxt Kremlin komendantı dedi:

-Lenin yoldaş iməcilikdə iştirak etməyə gəlir.

Vladimir İliç cəld addımlarla irəliyə keçdi.

Hərbi məktəbin komissarı ondan xahiş etdi ki, o bir başçı kimi qabaqda, sağ tərəfdə dursun. Lenin dərhal ona göstərilən yerdə durdu. Komanda verildi:

-Sıraya düzül!

Sonra da:

-Sağa dön, addımla marş!

Hamı musiqi sədaları altında hərbi nizamla Kremlin daş, taxta, şalban, zibil tökülmüş yerinə getdi. Burada sınıq arabalar, top gülləsinin yerdə əmələ gətirdiyi çuxurlar vardı. Bunların hamısı Oktyabr inqilabı günlərində ağqvardiyaçılarla gedən döyüşlərdən qalmışdı.

Bir günün içində Kreml meydanının hər yerini təmizləmək və qaydaya salmaq lazım idi.

İşə əvvəlcə şalbanları daşımaqdan başladılar. Hər şalbanı iki nəfər, çox böyüyünü isə isə dörd nəfər aparırdı.

Lenin bir hərbi qulluqçu ilə işləyirdi. O, həmişə şalbanın nazik ucunu Leninə verməyə çalışır, özü isə yoğun və ağır tərəfindən yapışırdı. Vladimir İliç bunu başa düşdü və birinci olaraq şalbandan özü yapışmağa çalışdı.

Belə olduqda hərbi qulluqçu dedi:

-Mənim iyirmi səkkiz yaşım var, sizin isə əlli.

Lenin şalbanın ağır tərəfini öz çiyninə qoydu və gülümsəyərək dedi:

-Əgər mən sizdən yaşlıyamsa, bax, elə buna görə mənimlə mübahisə etməyin.

Meydanındakı şalbanların hamısını daşıdılar, sonra iri tirləri götürməyə girişdilər. Tirləri kiçik ağacların üstünə qoyur, altı nəfər köməkləşib aparırdı.

İndi Vladimir İliçlə üç kursant, iki fəhlə işləyirdi.

Fəhlələrdən biri Leninə baxdı və axırda dedi:

-Vladimir İliç! Biz bu işi sizsiz də görə bilərik, sizin, yəqin ki, daha vacib işləriniz var.

Vladimir İliç ona cavab verdi:

-İndi bu iş hamısından vacibdir.

Nəhayət, hamı yoruldu, dincəlmək və papiros çəkmək üçün oturdular.

Vladimir İliç papiros çəkmirdi, deyəsən, dincəlmək də istəmirdi. O gah saata, gah da daşınmamış yoğun tirlərə və daş yığınına baxırdı. Nəhayət, o da dincələnlərin yanında əyləşdi. Kim isə ona papiros təklif etdi. Lenin qəbul etmədi və gimnaziyada oxuduğu vaxt papiros çəkməyə yenicə başladığını, sonra isə tez bir zamanda atdığını və o vaxtdan artıq papiros çəkmədiyini nağıl etdi. Hamı Vladimir İliçlə daha çox danışmaq həvəsində idi, ancaq o yenidən saatını çıxarıb baxdı; o bu gün Xalq Komissarları Sovetinin iclasına da çatmalı idi.

Dincəldikdən sonra xərəklərdə daş və zir-zibili daşımağa başladılar.

Lenin tələsir, daha cəld işləməyə can atırdı, ancaq yenə də iməciliyin axırına bir neçə dəqiqə qalmış o getməli oldu; onu Xalq Komissarları Sovetində gözləyirdilər.

Meydanda artıq lap az iş qalmışdı.

Onlar işi tez qurtardılar, yorğun və çox razı bir halda dağılışdılar. Hamı başa düşürdü ki, doğrudan da bu gün vacib bir iş görmüşlər.

*Andrey Kononov*

**Atalar sözü:**
İş sahibindən qorxar

● İnqilabın ilk illərində ölkəmizin təsərrüfatı nə vəziyyətdə idi?
Təsərrüfatın bərbad vəziyyətə düşməsinin səbəbi nə idi?
Sovet adamları təsərrüfatı yenidən qurmaq üçün nə etdilər?
Lenin iməcilikdə kimlərlə və harada işlədi?
Görəsən iməcilikdə iştirak edən fəhlələr Lenin gedəndən sonra nə fikirləşdilər?
İndi iməcilikdə nə ilə məşğul olurlar?
Məktəbdə iməcilik olanda siz hansı işləri görürsünüz?

## Böyük ağac

Parkdakı ağaclar böyük və kölgə salan ağaclar idi. Onlar hündür yerdə bitmişdilər. Ətrafdan uca olduğuna görə buradan zəmi, ondan sonra kənd, kənddən sonra dəmir yolu aydın görünürdü.

Parkın sol tərəfindən Paxra çayı axırdı. Lenin arabir cığırla aşağı enib çaya gedərdi, kəndlilərlə görüşüb, necə yaşadıqları haqqında söhbət gedirdi. Bəzən də parkın yolunda dayanıb uzaqlarda parovozun buraxdığı ağ tüstünün burula-burula havaya qalxıb, kənd üzərində əriməsinə baxardı.

Parkın içindəki yolun kənarında, döngədə çox böyük bir ağac vardı. Ağacın şaxələri yolun üstünü örtmüş, yerə kölgə salmışdı. Budaqlar o qədər sıx idi ki, ağacın yarpaqları arasından günəşin ancaq üç-dörd şüası keçə bilirdi.

İsti yay günlərində uşaqlar yığışıb bu ağacın kölgəsində oynardılar. Yolla gedən yorğun adamlar burada oturub dincələrdilər.

Bir dəfə Lenin bu yerə gəlir və görür ki, ağacın kötüyü qalmışdır. Ağacın gövdəsi otun üzərinə uzadılmış, qol-budaqları da balta ilə doğranmışdır.

Vladimir İliç evə dönərək, bunun səbəbini bilmək istədi:

-Ağacı kim kəsmişdir? Bəs komendant nə üçün nəzarət yetirməmişdir?

Qorkidə komendant bütün təsərrüfata – evlərə və başqa tikililərə, elektrik stansiyasına nəzarət yetirirdi. Parkı gözləmək də onun vəzifəsi idi.

Lenin komendantın yanına adam göndərdi. Ağacın nə üçün kəsildiyini öyrənmək istədi. Məlum oldu ki, ağacı komendantın özü kəsdirmişdir.

Bunu eşidən Vladimir İliç bərk hirslənərək dedi:

-Gör nə biabırçılıqdı, komendantı üç gün həbs etməli!

Komendantın heç ağlına gəlməzdi ki, onu belə cəzalandıracaqlar.

O, Leninin yanına gələrək, ağacı nə üçün kəsdiyini izah etdi. Bildirdi ki, Qorki parkının darvazasını təmir etmək lazımdır.

Vladimir İliç ona sərt cavab verdi:

-Parkda ağaclar ona görə bitmir ki, onlarla darvaza təmir edilsin. Bunu kiçik uşaqlar da bilirlər. Halbuki, siz yekə kişisiniz.

Komendant özünü itirdi, qarma-qarışıq sözlər söyləməyə başladı.

-Əlbəttə, səhv etmişəm. Birinci dəfədir ki, belə iş tutmuşam. Ola bilməzmi ki, cəza yüngül olsun?

-Yüngül? – Vladimir İliç təəccübləndi, - Bu, mənim ağacım deyil.

Komendant beləcə də getdi.

Həmin gün İliçin yanında onun yaxın adamlarından biri komendantı müdafiə etməyə başladı. Lenin isə belə cavab verdi:

-Ağacı başqa birisi deyil, məhz komendant kəsdirmişdir. Bu, çox pisdir. Ona xalq malını qorumağı tapşırmışlar, o isə, əksinə, xalq malını xarab edir. Buna görə onun təksiri daha çoxdur.

*Andrey Kononov*

● Lenin nə üçün hərdən parka çıxırdı?
Vladimir İliç nə üçün kəndlilərlə söhbət edirdi?
Ağacı kəsən şəxsin kim olduğunu Lenin necə bildi?
O nə üçün əsəbiləşmişdi?
Nə üçün xalq malını qorumaq lazımdır?
Hekayəni danışın.

**Daniyarın gözləri**
*(İxtisarla)*

Gecəyarısı idi. Ayın işığında kombayn işləyirdi. Birdən ay buluda girdi. Çox gözlədik, çıxmadı. Axırda kombaynçı motoru saxladı. Mənim yanıma, ocağın başına gəldi. Ocağa çırpı atdıq. Çay qoyduq. Kombaynçı qıyıq gözlü qazax qızı idi. O, dincini almaq üçün təzə biçilmiş küləşin üstünə uzandı. Zəmilər sakit-sakit mürgüləyirdi. Ay hələ də

buludun dalından çıxmamışdı. Birdən ətrafda qırmızı qığılcımlar yanıb-söndü. Mən sevincək dedim:

-Gecə işıldaböcəyidir. Uşaqlıqda onlardan çox tutub bankaya salmışam.

Qız qaranlıqda parıldaşan işıqlara xeyli baxdı, sonra başını bulayıb dedi:

-Yox, bunlar işıldaböcək deyil. Daniyarın gözləridir.

Mən təəccüblə soruşdum:

-Daniyar kimdir?

Qazax qızı küləşin üstündə yerini rahatlayıb dedi:

-Daniyarı tanımırsan? O, igid qazax olub. Yadımdadır, nənəm hər dəfə bu işıldaböcəkdən görəndə deyərdi ki, Daniyarın gözləri yenə öz adamlarını axtarır...

Mən çaynikdən ikimizə də çay süzdüm. Qıyıq gözlərini hələ də qaranlıq zəmilərdən ayırmayan kombaynçı qız sözə başladı:

-Nənəm nağıl edərdi ki, bir zamanlar qazaxlar bu çöllərdə köçəri yaşayırmışlar. Düşmənlər onlara tez-tez hücum edib var-yoxlarını, mal-qaralarını əllərindən alırmışlar. Daniyargil çox yoxsul idilər. Bu dəfə düşmənlər yenə onlara hücum edirlər, olan-qalanlarını da soyub aparırlar. Adamları isə öz yurdlarından didərgin salırlar. Onların nə atı qalır, nə də odu. Düşmən, ocaqlarını da söndürüb, külünü göyə sovurur.

Daniyar çox igid oğlan olur. O, qazaxların halına dözə bilməyib, ildırımın dalınca gedir. Birdən ildırım çaxır, göy guruldayır. O, qurumuş yoğun bir ağacdan bir qədər aralı xəndəkdə gizlənir. Yenidən güclü ildırım çaxır, ağacı yandırır. Daniyar xəndəkdən çıxıb oddan götürür. Dincini almadan gecə-gündüz qaçır. Qaçmasaydı, od sönə bilərdi. Ancaq nə qədər axtarırsa, öz adamlarını tapa bilmir. Düşmənlər onları buradan da qovmuşlar. Daniyarı tutmaq, odu əlindən almaq üçün onlar pusquda dururlar. Daniyar onları görür. Amma qaçıb qurtara bilmir. Düşmənlər onu hər tərəfdən dövrəyə alırlar. Daniyar düşmənə təslim olmaq istəmir. Gətirdiyi odla özünü yandırır. Ancaq gözləri yan-

mır. Onun gözləri işıq sala-sala öz adamlarını axtarmağa başlayır. O vaxtdan Daniyarın gözləri həmişə axtarır...

Qız dərindən ah çəkib susdu. Nağıl mənim xoşuma gəlmişdi.

-Axır ki tapdı, - deyə, mən əlavə etdim.

-Kimi? - deyə kombaynçı qız mənə tərəf dönüb təəccüblə soruşdu.

-Kimi olacaq? - dedim, - öz adamlarını. İndi Daniyarın xam torpaqlarda işləyən nəslini deyirəm.

Kombaynçı qız gülümsündü. Deyəsən, sözlərimdən razı qalmışdı.

Ay buludun dalından çıxdı. Kombaynçı qız ayağa qalxıb, kombaynı işə saldı...

Mürgüləyən çöllər motorun səsindən oyandı...

*Xalidə Hasilova*

**Tapmaca:**
Əlində oraq,
Qolları daraq,
Üstündə xırman
Altı dəyirman.

● Əhvalat harada olmuşdu?
Hekayəyə nə üçün «Daniyarın gözləri» adı verilmişdir?
Kombaynçı qadınlardan kimləri tanıyırsınız?

## Usta Pirməmməd

*(İxtisarla)*

Bakını dünyada məşhur edən onun çoxlu zavodu, fabriki və neft mədənləridir. Bunlarla bərabər, bu şəhəri dünyaya tanıdan onun bacarıqlı neft ustalarıdı. Onların adı, hünəri Bakının və respublikamızın başını həmişə ucaltmışdır. Bu ustalar içərisində usta Piri Quliyev, Gülbala Əliyev, usta Piri Nuriyev, Ağa Nemətulla, Kaveroçkin, Qurban Abbasov kimi məşhur neftçilərin adları hörmətlə çəkilir.

Bakının şöhrətini bütün dünyaya yayan neftçi ustalardan biri də Usta Baba Pirməmməd idi.

Qəzetlərdə onun haqqında çox yazılır, radioda da ondan tez-tez danışırdılar. O vaxtlar Bakı ölkənin ən çox neft çıxarılan yeri idi. Ölkəmizə neft çox lazım idi. Təyyarələrə, avtomobillərə, traktorlara, avtobuslara və başqa maşınlara neft, benzin və neftdən hazırlanan yağlar lazım idi. Ona görə Bakı neftçiləri daha çox quyu qazmalı, daha çox neft çıxarmalı idilər.

Usta Babanın da şöhrəti aləmə bu vaxt yayıldı. Onun çox böyük sürətlə dərin neft quyuları qazmasından, yeni-yeni neft yataqları tapmasından, bir sözlə ölkəyə bol neft verməsindən danışır və yazırdılar. Onun adı da başqa qəhrəman neftçilərin adları ilə bir yerdə çəkilirdi.

O, ucaboy, enlikürək, iti baxışlı və gülərüzlü bir adam idi. Onun işi ilə tanış olmaq istədiyini söyləyənlərə baxıb Usta Baba deyərdi:

-Qazmaçının işi ilə mədənin özündə tanış olmaq lazımdır. Vaxtınız varsa, gedək, qazdığım buruqları sizə göstərim.

O, qonaqları mədənə aparır, yeni qurulan buruqları göstərir, ustalarla və fəhlələrlə tanış edirdi. Usta Baba neftçilər haqqında fərəhlə danışır, xüsusən gənc ustaları ürəkdən tərifləyirdi:

-Siz elə bilməyin ki, bu quyuları təkcə mən və köhnə yoldaşlarım qazıb. Yox, elə deyil. Bu işdə cavan neftçilər də bizə çox kömək edirlər. Onlar cəld işləməyi bacarır, qazmaçılıq sirrini tez öyrənirlər. Mən müəlliməm. Onlar da mənim zirək və ağıllı şagirdlərim.

Ustanın müdir olduğu idarənin qazmaçıları ilə tanışlıq göstərir ki, Usta Babanın fəhlə yoldaşları və şagirdləri çox səliqə ilə və cəld işləyirlər. Onların qazdığı quyularda qazma dəzgahları çox yaxşı və böyük sürətlə işləyir.

Usta Babanın qazmaçıları planı vaxtından çox qabaq yerinə yetirir və daha çox quyu qazırlar.

Usta Babanın atası da məşhur neftçi idi.

Baba on iki yaşından mədəndə işləməyə başlayıb. Əlbəttə, o zaman, yəni inqilabdan əvvəl neft mədənlərində

işləyən fəhlələrin vəziyyəti çox ağır idi. Neft quyularını əl ilə qazırdılar və nefti oradan vedrə ilə çəkirdilər. Quyular tez-tez uçur, xarab olur, yanğınlar baş verirdi, adamlar ölürdülər, şikəst olurdular. Usta Baba belə ağır bir vaxtda mədəndə işləməyə başlayıb.

Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra vəziyyət tamamilə dəyişdi. Quyuları yeni qayda ilə, elektriklə işləyən dəzgahlarla qazmağa başladılar. Yerin daha dərin qatlarından neft çıxarmağı öyrəndilər. Usta Baba da bu zaman yeni qayda ilə işləməyə başladı, bacarığı sayəsində məşhurlaşdı. Əvvəllər adi fəhlə olan bu adam sonra böyük bir mədəndə neft quyuları qazan idarənin rəisi oldu.

Böyük Vətən müharibəsi illərində neft və neft məhsulları daha çox lazım olanda Usta Baba öz hünərini daha çox göstərdi. O yorulmaq bilmədən, gecəni gündüzə qataraq daha sürətlə, daha çox quyu qazdı. Ona SSRİ Dövlət mükafatı laureatı fəxri adı verildi. Qocaman usta bundan sonra daha da yaxşı işlədi. Buna görə də ona Sosialist Əməyi Qəhrəmanı kimi çox yüksək və şərəfli ad da verildi.

Müharibə qurtarandan sonra yeni neft yataqlarında mədən qurmaq ona tapşırıldı. Çox keçmədi ki, Usta Babanın rəhbərlik etdiyi qazma idarəsi bütün ölkəmizdə məşhur oldu. Hətta bu idarəyə «Sürətli qazmanın ümumittifaq akademiyası» adı verdilər.

Usta Baba ilə sonralar da tez-tez görüşərdilər və onun qazdığı neft quyuları ilə tanış olardılar. O, hər dəfə adamı yola salanda deyərdi:

-Bizim işimiz hələ çoxdur, çox güman ki, bu axşam evə gedə bilməyim. Sizə təzə bir xəbər lazım olsa, mədənə zəng eləyin, vaxt tapıb yenə gəlin! Yaxşı yol!

O günlərdən çox keçir. Usta Babanı heç vaxt unutmuruq. Əgər siz indi də onun vaxtı ilə işlədiyi mədənlərə getsəniz, qazmaçılar o məşhur ustadan, öz müəllimləri olan o neftçi qəhrəmandan sizə çox şey danışa bilərlər.

*Yusif Əzimzadə*

● Usta Baba Pirməmməd kim idi?
Ustanın işlədiyi mədəndə əvvəl vəziyyət necə idi?
Usta Baba necə məşhur oldu?
Onun əməyini necə mükafatlandırdılar?
Məşhur neftçilərdən daha kimləri tanıyırsınız?

## Dənizdə şəhər

*(İxtisarla)*

Bir gün evdə atamdan
Soruşdum ki, söylə bir,
Sizin suda eviniz,
İdarəniz necədir?
* * *
Atam güldü, söylədi:
-Mənim mehriban oğlum,
Getsən əgər ora sən,
Neçə canlı əfsanə,
Neçə nağıl görərsən.
* * *
Göy suların qoynunda
Balaca bir şəhər var,
Orda yaşaya bilər
Ancaq qoçaq adamlar.
Oğlum, heç bir şəhərə
Bənzəməyir bu şəhər.
Onun ayaqlarıdır
Uzun, dəmir dirəklər.
Hey çırpınır,
çırpınır
Onun altında Xəzər.
Hirslənib səhərəcən
Yatmasa da göy dəniz,
İşdən gəlib yatırıq
Dənizin üstündə biz
* * *
Yaxşı yadıma düşdü:
Usta: - Qorxmayın, - dedi,
-Qorxmayın bu sulardan.
* * *
Altı adam, bir dəniz,
Yolsuz,
izsiz qalmışıq.
Gör nə yaman pis oldu,
Söndü buruqda işıq.
Usta: - Qorxmayın! - dedi,
-İnsan qorxmasın gərək.
Dəniz: - Düşünüz! - deyir,
-Nə durmusuz orada?
Sizi qərq edəcəyəm
Bu dəli dalğalarda.
* * *
Qalxır, atlanır,
düşür
Dənizin boz suları,
Bir də atlanır göyə,
İnadkar adamları
Sularda qərq etməyə,
Birdən usta qışqırır:
-Köməyə
dostlar gəlir!
Dünyada ən qəhrəman,
Qoçaq adamlar gəlir!
Görürsünüz işığı?
Bu işıq o işıqdır!

Soyuq bir qış çağıydı,
Hər dalğa, elə bil ki,
Qafqazın bir dağıydı.
Hər dağ birdən uçulub
Gurhagur tökülürdü.
Bəzi estakadalar
Dağılıb sökülürdü.

* * *

Çox uzaq bir mədəndə
Qalmışdı briqadamız.
Nə qayıq görünürdü,
Nə də estakadamız.
Başımızın üstünü
Sular aldı, nə aldı.
Düşündük ki, neyləyək?
Dalğalar çox, biz altı.
Bir budkaya boylandıq,
Bir də əsən buruğa.
Gördük yanımıza su
Dırmaşır dalğa-dalğa.
Gələn xilasedici
Bizim tanış qayıqdır!
Biz qışqırıb deyirik:
-Ey! Bura gəlin, bura!
Ey! Bizi itirməyin!
Hara döndünüz, hara?
Qayıq gəlir irəli,
Tez-tez alıb başına
Qaldırır onu dalğa.

* * *

Aşıb dalğalar üstdən
Tullanırıq qayığa.
Gəlir arxamızca çox,
Çox dəli,
hirsli dalğa.
Biz çatırıq sahilə,
Salamlayıb dostları
Keçib estakadadan
Gedirik evə sarı.

*Əli Kərim*

● Fırtına zamanı dənizin vəziyyətinin təsvir olunduğu hissəni tapıb oxuyun.
Nə üçün dənizdə polad dirəklər üstündə şəhər salınmışdır?
Briqadanın başına gəlmiş əhvalatı öz sözlərinizlə danışın.
Misraların sonunda gələn «çağıydı», «dağıydı» kimi eyni ahəngli bənzər sözləri seçib oxuyun.
Şeirdən xoşunuza gələn parçanı əzbərləyin.

## Ağ qızıl ustaları

Dördüncü sinfə keçdim. Yay tətili günləri başlandı. Kəndə xalamgilə qonaq getdik. Xalam Sabirabad rayonundakı 26 Bakı komissarı adına kolxozda işləyir.

Avqustun son günləri idi. Mən xalam və qızı Zümrüdlə pambıq tarlasına getdim. Hər tərəf qar kimi ağarırdı. Pambıq təzəcə açmışdı. Sahədə bir dəstə pambıqçı vardı. Onlar pambıq kollarına baxaraq iftixarla söhbət edirdilər. Zümrüd alçaq boylu, qara saçlı, gülər üzlü bir qadını göstərib dedi:

-Onu tanıyırsanmı?

Mən onu haradasa, bəlkə də televizorda görmüşdüm, lakin unutmuşdum. Zümrüdün söhbətlərindən məlum oldu ki, o kolxozun qabaqcıl briqadiri, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatı laureatı, Azərbaycan SSR Ali Sovetinin deputatı Zəminə Aslanovadır.

Yaxınlaşıb salamlaşdıq. Qarşıdakı işlərindən danışırdılar. Öyrəndim ki, briqada da mexanizatorlar da, sürət ustaları da, suçular da becərmə dövründə səylə işləmiş, sağlam və barlı kollar becərə bilmişlər. Briqada hər hektardan 65 sentner pambıq götürməyə çalışır. Briqada pambığın yarıdan çoxunu maşınla yığır. Sürət ustaları istənilən qədər döşlük və bardanlarla təmin olunmuşlar. Körpülər, sahələrə gedən yollar, pambıq qurudulacaq meydançalar vaxtında qaydaya salınır, «mavi gəmilər» təmir olunur.

Söhbətinin sonunda Zəminə Aslanova dedi:

-Vəzifəmiz dövlətə daha çox pambıq təhvil vermək, məhsul yığımını tez və itkisiz başa çatdırmaqdır.

Zəminə Aslanova sözünü təzəcə qurtarmışdı ki, mən ona yaxınlaşıb dedim:

-Yoldaş Aslanova, mümkünsə bir qədər də bu ada, bu şöhrətə necə nail olmağınızdan danışın.

O, məmnuniyyətlə razılaşdı:

-Gözümü dünyaya Muğan torpağında açmışam. Ağlım kəsəndən ağ örpəkli tarlaların vurğunu olmuşam. Məktəbdə oxuyarkən istirahət günlərində, dərsdən sonrakı boş vaxtlarda sahələrə gedərdim; pambığın becərilməsində və yığılmasında böyüklərə kömək edərdim. Kənd kitabxanasında, kolxoz komsomol təşkilatında işlədiyim illərdə də pambıq tarlalarına can atardım. Həvəsimi nəzərə alıb

komsomolçu-gənclər briqadasına başçılıq etməyi mənə tapşırdılar. Sevinclə razılıq verdim. Gecə-gündüz xəyalımdan getməyən pambıq tarlaları daimi məskənim oldu.

Ana torpaq səxavətlidir. Zəhmət çəkəni el yanında alnıaçıq, üzüağ edir. Məni də torpaq ucaldıb. Bərəkətli Muğan torpağı... Təkcə məni yox, neçə-neçə sabirabadlı qızı şöhrət zirvəsinə çatdırıb.

Sahədən qayıdanda Zümrüd Sabirabad rayonunun Zəminə Aslanova kimi onlarla qəhrəman qızından danışdı. Öyrəndim ki, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Ali Sovetin deputatı Fatma Hüseynova, Azərbaycan SSRİ Ali Sovetinin deputatı Narıc Kərimova, Ümumittifaq Lenin Komsomolu mükafatı laureatı Vəsilə Cəfərova və başqalarının adları indi respublikamızda və bütün ölkədə hörmətlə çəkilir.

Sürücü-mexanizatorların arasında qadınların olub-olmadığı ilə maraqlandım. Zümrüd məni sevindirdi. Sürücü-mexanizator qadınların işindən də danışdı. Onun Həzi Aslanov adına kolxozun sürücü-mexanizatoru Gülsurə İbadova haqqında söhbəti də yadımdadır. Gülsurə İbadova bir neçə ildir ki, maşınla pambıq yığır. Hər mövsümdə 300-350 ton məhsul toplamağa müvəffəq olur.

Zümrüd məlumatlı, bacarıqlı qız idi. Qonşu rayonların işindən də onun xəbəri vardı.

**Bayatı:**
Bağçalarda narın var,
Gülər üzlü yarın var.
Çox sağ ol, qəhrəman qız,
Tükənməyən varın var.

- Hekayə kimin dilindən yazılmışdır?
  Şagird pambıqçılar haqqında məlumatı kimdən öyrənmişdir?
  Zümrüd 26 Bakı komissarı adına kolxoz haqqında nə bilirdi?
  O, xalası qızına hansı pambıqçı qadınlar haqqında məlumat verdi?

### Kəndimizin bəzəyi

Cavanların gülüşməsi,
Aşıqların deyişməsi,
Maşın səsi, tütək səsi
Bir bəzəkdir kəndimizə,
Bu sevindirir kəndi bizə.

Yayında gül, qışında qar,
Pıçıldayıb axan sular,
Təzə bina və qurğular
Bir bəzəkdir kəndimizə,
Bu sevdirir kəndi bizə.

İgidlərin qadir əli,
Körpələrin şirin dili,
Tarın bəmi, sazın zili
Bir bəzəkdir kəndimizə,
Bu sevdirir kəndi bizə.

*Tacəddin Şahdağlı*

- Şeirin birinci bəndində kənd həyatının hansı səciyyəvi cəhətləri göstərilir?
  Şeirin ikinci bəndində kənd həyatının hansı cəhətləri qeyd edilir?
  Bəs şeirin son bəndində kəndə aid nələr deyilir?
  Kəndi bizə sevdirən nələrdir?
  Hər bəndin son iki misrasına diqqət yetirin, son sözlərin ahənginə, musiqi kimi səsləndiyinə fikir verin.
  Şeiri ifadəli oxuyun Hər bənddə birinci, ikinci və üçüncü misralarda eyni ahəngli sözləri sevin.

### Büllur salxım ustaları

Günəş Babadağın arxasında boylanmamış Muğanlı kəndi yuxudan oyanır. Yol-izdən gediş-gəliş kəsilir, həyət-bacadan səs-səmir azalır. Muğanlıya həmin səhər nabələd adamın yolu düşsəydi, darıxardı. Böyük bir kənd sübh açılan kimi boşalır.

Səriyyə kimi balaca uşaqlar şirin yuxuda olur... Səriyyə axşamdan tez yatmışdı ki, səhər sübhdən dursun, böyüklərlə üzüm bağına getsin.

Səhər gedəndə nə anası Səlfi arvad, nə də ağası Abdul kişi Səriyyəni şirin yuxudan oyatdı...

Səriyyə oyandı. Axşamdan pilləkənin başında qoyuduğu səbəti görməyəndə hər şey ona aydın oldu. Tələsik çay içib, çörək yeyib qapıdan çıxdı; birbaş bağlara gəldi. Qız-gəlinlər bağda cərgələrin arasında durna qatarı kimi düzülmüşdülər. Qızların əlindəki həsir səbətlər qızmar yay günəşindən şəkərləşmiş «Qaragilə» salxımları ilə dolub boşalırdı. Sovxozda üzüm yığımı başlanmışdı. Üzümçü qızların şaqraq gülüşü, şən qəhqəhəsi Səriyyəni vəcdə gətirirdi. O, boş səbətlərdən birini götürüb anasının yanına getdi; dinməz-söyləməz ona kömək etməyə başladı. Abdul kişi bir göz qırpımında dolan səbətləri aparıb söyüd ağaclarının kölgəsində dayanan maşınlara boşaldırdı.

Xeyli keçəndən sonra Səriyyə anasının məsləhəti ilə evə qayıtdı. Gedib bulaqdan su gətirdi. Samovara od saldı. Axşam çörək yeyib çay içən zaman radio üzüm yığımı haqda məlumat verdi. Səriyyə qabaqcıl üzümçülər arasında anasının da, atasının da adını eşitdi Elə bil bütün dünyanı ona bağışladılar.

O gündən xeyli vaxt keçdi. Səriyyə orta məktəbi bitirib ata-anası kimi üzümçü oldu. Az bir vaxtda onu qızlar briqadasına başçı qoydular.

Ötən qış sərtliyini Şamaxı bağlarında da göstərdi. Şaxta qılınc kimi kəsirdi. Bağların bəzi yerlərini don vurmuşdu. Bağbanlar bol məhsul uğrunda səylərini qat-qat artırmalı oldular. Çətinliklərə baxmayaraq, Səriyyə Fətəliyevanın manqası yenə də sovxozda ən yüksək göstərici qazana bildi. Qızlar hər hektardan normadan artıq yüksək keyfiyyətli üzüm götürdülər. Səriyyənin özü isə iş günündə min kiloqramdan artıq üzüm yığırdı.

Əməkdə qazandığı belə nailiyyətə görə Səriyyəni Azərbaycan SSR Ali Sovetinə deputat seçdilər.

**Bayatı:**
Nə gözəl ellərim var,
Ördəkli göllərim var.
Şirvan, Muğan düzündə,
Məhsullu çöllərim var.

- Nəyə görə Səriyyə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir?
  Səriyyənin əməksevər, işgüzar olmasına ata və anası necə təsir etmişdir?
  Səriyyənin balacalıqdan üzümçülüyə böyük maraq göstərdiyini nədə görürsünüz?
  Daha hansı qabaqcıl üzümçüləri tanıyırsınız?

**Sumqayıtda**

Rəxşəndənin əmisi Sumqayıtda işləyirdi. O, Rəxşəndəyə neft qazından kauçuku necə aldıqlarından danışmışdı. Rəxşəndə yoldaşı Tükəzə bu haqda danışanda Tükəz təəccüb edərək dedi:

-Bu necə şeydir? Qazdan da kauçuk alınar?

Bunu eşidən Dilara müəllim söhbətə qarışdı:

-Azərbaycan torpağının altında çoxlu neft qazı var. Əvvəllər bu qaz özbaşına çıxıb, havaya qarışardı. Sonralar ondan yanacaq kimi istifadə etməyə başladılar. İndi alimlərimiz öyrəniblər ki, neft qazından spirt çəkmək və bu spirtdən də yaxşı kauçuk almaq olur. Bundan ötrü Sumqayıt şəhərində böyük bir zavod tikildi. İndi Bakı neft mədənlərində çıxarılan qazın bir hissəsi borularla Sumqayıt şəhərinə aparılır. Orada bu qazdan əvvəl spirt çəkirlər, sonra da onu başqa maşında kauçuka çevirirlər. Əsl təbii kauçuk isti ölkələrdə bitən kauçuk ağacının gövdəsindən axan şirədən alınır. Sumqayıtda isə o, qazdan alındığı üçün süni kauçuk adlanır. Sumqayıtda hazırlanan süni kauçuk sonra rezin zavodlarına göndərilir. Belə zavodlardan biri də Bakıdadır. Həmin zavodda Sumqayıt kauçukuna başqa şeylər də qatıb avtomobil, traktor, təyyarə və motoroller üçün şinlər düzəldirlər. Sumqayıt kauçukundan qaloş, rezin, çəkmə, plaş, pozan və başqa şeylər də hazırlanır.

Dilara müəllim bizə Sumqayıt şəhərinin çox cavan olmasından danışdı. Orada polad boru qayıran, alüminium əridən, gübrə hazırlayan zavodlar, çoxlu məktəb,

mədəniyyət evi və gözəl parklar olduğunu da söylədi. O dedi ki, Sumqayıt şəhəri Bakının yaxınlığındadır, buna görə də ona Bakının kiçik qardaşı deyirlər.

**Bayatı:**
Bağçamızda gül bitdi,
Lalə bitdi, gül bitdi.
Vətəndə bir bağ saldıq,
Hər nə əkdik, gül bitdi.

● Tükəz nəyə təəccüb edirdi?
Dilara müəllim neft qazı haqqında nə məlumat verdi?
Kauçukdan hazırlanan şeylərin adlarını deyin.
Sumqayıt haqqında daha nə bilirsiniz?

**Dağ qartalı**

Mədəniyyət sarayı Xaçyal dağının sinəsində yerləşirdi. Gözəl bir bahar axşamı idi. Daşkəsən mədənçiləri çoxmərtəbəli, əzəmətli və yaraşıqlı mədəniyyət sarayına tərəf axışırdı. Mədənçilərdən biri soruşdu:

-Sarayda bu gün nə tədbir vardır?

-Bəs eşitməmisən? Təşkilatlar belə qərara gəliblər ki, ekskavatorçu Heydərin briqadasına kommunist əməyi briqadası adı verilsin.

Bunu briqada üzvlərinin geyimindən də görmək olar. Onlar bu gün xüsusi səliqə ilə geyinmişlər. Briqadanın üzvləri hər yerdə seçilirlər. Yenə də onların şən gülüşləri uzaqdan eşidilir. Məsələ bu gün mədəniyyət sarayında həll ediləcəkdir.

Müzakirə zamanı məlum oldu ki, ölkəmizdə kommunist əməyi briqadaları, sexləri, müəssisələri adı almaq uğrunda yarışa Heydərgil də qoşulmuşlar. Onların briqadası bu şərəfli adı almaq üçün bütün şərtlərə hər il əməl edir.

Briqadanın sorağı Daşkəsənin hüdudlarını aşmışdır. Qəzetlər, radio və televiziya onlardan tez-tez söhbət açırdı. Bu, gənclərin yaratmaq əzmini daha da artırırdı.

Heydər rayon sovetinə deputat, raykomun bürosunə üzv, Azərbaycan SSR Ali Sovetinə deputat seçiləndən sonra qayğıları daha da çoxalmışdı. Evə gələndə həyat yoldaşı zarafatla deyərdi:

-Ay Heydər, növbə qurtarandan sonra da tapılmırsan!..

Həyat yoldaşı yaxşı bilirdi ki, Heydər ictimai borcunu yerinə yetirir. Həyatda xalqın etimadını doğrultmaqdan yaxşı nə ola bilər?

Heydər istirahət günləri evlərinin üstündəki sinəsi kəklikotulu, quzuqulağılı təpəyə qalxıb şəhərlərinə tamaşa etməyi xoşlayır. Buradan Daşkəsən əl içi kimi apaydın görünür.

Döşünü Lenin ordeni bəzəyən Heydər Quliyev əfsanəvi mədənçilər şəhərinə baxmaqdan doymur. Qartallar süzən bu yerlərin calalını gördükdə hər dəfə Heydərin qəlbi fərəhdən coşur. Axı bu cəh-calalın, bu gözəlliyin yaradılmasında onun özü də fəal iştirak etmişdir. Görünən çoxmərtəbəli ağ evlərin daşına-torpağına, dağların döşündəki mədənlərə, çapılmış qayaların arası ilə dolanan asfalt yollara, filizsaflaşdırma kombinatının özülünə, Daşkəsəndən Quşçu dəmiryol stansiyasına çəkilmiş asma yollara, bu asma yollarla aşağı-yuxarı şütüyən filizli kiçik vaqonlara Heydərin də alın təri qarışmışdır. Buna görə də o, öz-özünə deyir: «Mənim şəhərim, mənim Daşkəsənim!»

Heydər öz ustadını da tez-tez xatırlayır. Ekskavator-çuluğu Heydərə və başqalarına öyrədən ukraynalı Fyodor olmuşdur. İşdən əlavə, onları həm də dostluq telləri möhkəm birləşdirmişdir. Heydər ekskavatorun bütün sirlərini hərtərəfli öyrənmiş və ölkəmizin adlı-sanlı adamlarından biri olmuşdur.

● Heydər Quliyev hansı peşənin sahibidir?
O, öz müəllimi Fyodoru nə üçün unutmurdu?
Heydəri şöhrətləndirən nə olmuşdur?
Heydər nə üçün «mənim şəhərim» deyirdi?

## Xeyirli çay

Ona Dəli Kür adı vermişdilər. Yaz aylarında dağların qarı əriyəndə, payızda güclü yağışlar yağanda o, coşub-daşar, sahilinə çəkilmiş bəndləri yıxardı. Güclü su əkin yerlərini, otlaqları, bağları basar, kəndləri dağıdar, mal-qaranı aparardı. Daşmış su Kür sahilindəki düzənliklərdə bataqlıqlar əmələ gətirərdi. Bu bataqlıqlar xəstəliklərin yayılmasına səbəb olardı. Yüz illər belə olmuşdu və belə də davam edirdi.

Sovet adamları Kür çayının vurduğu ziyanı aradan qaldırmaq üçün çarələr axtarırdılar. Kiçik Mingəçevir kəndinin yaxınlığında, çayın dağlar arasından çıxdığı yerdə böyük bir bənd quruldu. Orada nəhəng su-elektrik stansiyası tikildi. Bu bəndin qurulması Kür çayının aşıb-daşmasının qabağını birdəfəlik aldı. Bataqlıqlar quruduldu, onların yerində isə pambıq və taxıl əkildi, bağlar salındı. Bataqlıqların yaydığı qızdırma xəstəliyi ortadan qalxdı.

Mingəçevir su-elektrik stansiyası Bakı, Kirovabad, Şəki şəhərlərindəki, qonşu respublikalardakı fabrik və zavodlara elektrik gücü verdi. Respublikamızın onlarca şəhər və yüzlərcə kəndinə işıq çəkildi. Stansiyanın yanında gözəl bir şəhər salındı. Orada böyük fabrik və zavodlar tikildi. Yeni Mingəçevir şəhəri respublikamızın böyük sənaye şəhərlərindən biri oldu.

Kür çayının qabağına çəkilən bənd orada çox böyük bir göl əmələ gətirdi. Onu Mingəçevir dənizi adlandırdılar. Oraya yığılan çoxlu suyu əkin yerlərinə aparmaq üçün Qarabağ və Şirvan kanalları çəkildi.

Sovet adamları Kür çayından Bakı şəhərinə su kəməri də çəkmişlər. Bu su kəməri respublikamızın paytaxtında yaşayan adamları içməli su ilə təmin edir, fabrik, mədən və zavodlara, park və bağlara su verir.

İndi ona daha Dəli Kür demək olmaz. O, çox xeyirli bir çay olmuşdur.

**Tapmaca:**

Kolxozda təzə bir ev var,
Nə böyükdür, nə uca.

O hər yana məftillərlə
İşıq verir kənd boyunca.

● Kür çayına nə üçün Dəli Kür adını vermişdilər?
Onun vurduğu ziyanın qabağını almaq üçün nə cür ölçü götürüldü?
Mingəçevir su-elektrik stansiyasının xeyri nədir?

## Mərtəbələr

*(İxtisarla)*

### I

Camalın atası memardır. Şəhərdəki bir çox təzə evlər onun layihəsi ilə tikilmişdir. Camalgil də keçən il belə binaların birinə köçmüşlər. Onların mənzili üçüncü mərtəbədədir. Balkona çıxanda bütün şəhər görünür.

Otaqlardan biri Camalın atasınındır. Qapı ilə üzbəüz, pəncərənin qabağında atasının iş stolu qoyulmuşdur. Camalın atası gecələr burada işləyir, təzə binaların layihələrini gözdən keçirir, yeni layihələr hazırlayır. Otağın işığı bəzən səhərə qədər sönmür.

Camal atası ilə birlikdə tikinti sahələrini gəzir, atasının gördüyü işlərlə maraqlanırdı. Onun sevinci, fərəhi başından aşırdı. Yorulmaq bilmirdi. Bir sahəni gəzib qurtaran kimi atasına deyirdi ki, indi o birinə gedək. Hər şeyi öyrənmək, bilmək istəyirdi. Atası həvəslə cavab verirdi; görünür, oğlunun tikinti işləri ilə belə maraqlanması onun ürəyindən idi. Çox istəyirdi ki, Camal da böyüyəndə memar olsun, təzə və yaraşıqlı binaların layihəsini hazırlasın...

Hələ tikilib qurtarmamış mərtəbələri gəzmək, bənnaların, dülgərlərin işinə tamaşa etmək, qaldırıcı kranın necə hərəkət etdiyinə baxmaq Camalın xoşuna gəlirdi. Ustalar da uzaqdan ona əl edib gülümsəyirdilər. Atası Camala möhkəm tapşırmışdı ki, ondan ayrılmasın, yuxarı mərtəbələrə tək çıxmasın.

Camalgilin evlərinin yaxınlığında təzə bir bina tikilirdi. Birinci gündən başlayaraq, Camal orada görülən işləri

müşahidə edirdi. Ustalar əvvəlcə tikinti sahəsini taxta hasar içərisinə aldılar. Sonra ev üçün dərin bünövrə qazıb, dibini betonladılar. Yavaş-yavaş binanın divarları ucalmağa başladı. Pəncərələrin, qapıların yerləri açıldı, balkon üçün hazırlanmış beton hissələr öz yerinə qoyuldu.

**II**

Camal hər səhər yatağından qalxan kimi balkona çıxardı ki, görsün təzə mərtəbə tikilib, ya yox? O hər gün binada dəyişiklik görürdü. Camalı ən çox sevindirən o idi ki, binanı tikən bənnalar daşları bir-birinin üstünə qoyduqca, özləri də divarlarla birlikdə ucalırdılar.

Bax, o qoca bənna, kim bilir, ömrü boyu nə qədər ev tikmişdir. Yəqin ki, o hər dəfə bu evlərə baxanda sevinir. Onu tərifləyirlər, deyirlər ki, çox təcrübəli ustadır. Camalın atası da tez-tez onunla məsləhətləşir. Camal bunu öz gözləri ilə görüb, öz qulaqları ilə eşidibdir. Əvvəllər bu, Camala qəribə gəlirdi. Axı atası məşhur memardır. Hamı onu tanıyır, onunla hesablaşır. Sonra Camal başa düşdü ki, qoca usta kimi təcrübəli bənnalar olmasa, belə qəşəng evləri tikmək çətin olar.

Şəhərimizdə təzə binaların sayı artdıqca Camalın da arzuları böyüyür. Onun ən böyük arzusu bilirsinizmi nədir? Atası kimi memar olmaq, qoca və cavan bənnalarla, daşyonanlarla, dülgərlərlə, bir sözlə, şəhərimizi gözəlləşdirən inşaatçılarla əl-ələ verib işləmək...

● Camalın atası nə ilə məşğul olurdu?
Atası Camalı nə üçün özü ilə tikintiyə aparırdı?
Camalın atası qoca bənna ilə nə üçün məsləhətləşirdi?
Camal böyüyəndə nə olmaq istəyirdi?
Sizin yaşadığınız kənddə, qəsəbədə, şəhərdə hansı yeni binalar tikilmişdir?

**Kommunizmdə yaşayacağam**

Bəxtiyar elim,
Azad Vətənim,

Mən Vətənimlə,
Xoşbəxt elimlə,

Gənc leninçi tək
Adım var mənim.
Elə bir el ki,
Zəfəri saysız,
Elə bir el ki,
Hünəri saysız.
Geniş dənizdə
Şəhərlər salan,
Kosmosa uçan,
Aya ucalan
Mənim elimdir!
Elə Vətən ki,
Vüqarı dağdır,
Şanlı partiya
Ona mayakdır.

* * *

Gözəl şəhərlər
Kəndlər mənimdir.
Bu azad diyar
Şən vətənimdir.
Hər bir qarışı
Əzizdir bizə.
Hər an hazıram,
Nə əmr eləsə.
Ölməz adımla,
Ayım, ilimlə
Daha kefi kök,
Damağı çağam,
Kommunizmdə
Yaşayacağam!

* * *

Onun günəşi
Bu gün doğur, bax!
Moskvamızdan
İşıq saçaraq.
Şadlanır Bakı,
Əl çalır Xəzər,
Lap yaxındadır
O böyük günlər.
Böyüdür məni
Bu ana torpaq.
Yaraşmaz mənə
Kənarda qalmaq.
Dil açıb deyir
Sinəmdə ürək:
Vətən önündə
Mən üzü ağam,
Kommunizmdə
Yaşayacağam!

*Hikmət Ziya*

● Şeirdə vətən haqqında hansı xoş sözlər deyilir? «Şanlı partiya ona mayakdır» ifadəsini necə başa düşürsünüz?

## Qatar dənizdən keçir

*(İxtisarla)*

Təsəvvür edin ki, səhər tezdən yuxudan duranda evinizin başqa bir yerə köçdüyünü görürsünüz. Yəqin ki, əvvəlcə

gözlərinizə inanmayacaqsınız. Sizə elə gələcək ki, bu, yuxudur.

Bax, mənim başıma buna oxşar bir hadisə gəlmişdir. Ancaq evdə yox, dəmiryol vaqonunda. Deyə bilərsiniz ki, vaqon ev deyil, onun altında təkərləri var. Bu, düzdür. Ancaq orası da var ki, vaqon ancaq relsin üstü ilə gedə bilir. Relsi isə torpaq yolda qurmaq olar. Bəs dəmiryol qatarı dənizdə üzə bilərmi? Dəyəcəksiniz ki, yox! Lakin qatarı dənizin bir sahilindən o biri sahilinə keçirə bilirlər.

Bir dəfə anamla birlikdə qatarda yol gedirdik, təkərlər taq-taraq, taq-taraq... deyə nəğmə oxuyurdu. Mən bu nəğməyə qulaq asa-asa, özüm də bilmədən yuxuya getmişdim.

Səhər yuxudan oyananda anamı yanımda görmədim. Tez yerimdən qalxdım. Təkərlərin səsi eşidilmirdi. Qatar, deyəsən, dayanmışdı. Mən tez vaqonun pəncərəsindən boylandım. Ətrafda ucsuz-bucaqsız dənizdən başqa heç bir şey görünmürdü. Mənə elə gəldi ki, qatar dənizin yanında dayanıb. Ancaq vaqonun o biri tərəfindəki pəncərədən baxanda yenə dənizdən başqa bir şey gözə dəymirdi.

Bu nədir? Yoxsa qatar suya düşüb?

Doğrusu, əvvəlcə qorxdum. Sonra pəncərədən bir də boylanıb, ətrafa baxdım. Anam aşağıda, pəncərənin qabağında dayanıb dənizə tamaşa edirdi. O, məni görcək ucadan səsləndi:

-Səlim, tez geyin, düş aşağı!

Vaqonun pilləkənindən enəndə gördüm ki, qatarın bütün vaqonları böyük bir gəminin üstündə düzülmüşdür. Ancaq qatarımızı çəkib aparan teplovoz yox idi. Adamlar gəminin göyərtəsində gəzinir, sakitcə söhbət edirdilər. Gəmi isə dalğaları yara-yara gedirdi. Dənizdən əsən külək adama ləzzət verirdi.

Anam məni gəminin içərisindəki aşxanaya apardı. Orada iştahla yedik. Anam dedi ki, bu gəmi qatarımızı dənizin bir sahilindən o biri sahilinə aparır. Belə gəmilərə «bərə» deyilir.

Günorta üstü bərəmiz sahilə yan aldı. Gəminin arxa divarı qalxdı. Bu zaman körpünün üstü ilə bərəyə keçən

teplovoz qatarı çəkib sahildəki dəmir yoluna çıxardı. Az sonra qatar yenə relslərin üstü ilə gedir, təkərlərdən «taq-taraq, taq-taraq» səsləri gəlirdi.

Xəzər dənizində «Sovet Azərbaycanı» və «Sovet Türkmənistanı» adlı belə nəhəng gəmi-bərələr işləyir. Bu gəmilər qatarları Bakıdan Xəzərin o tayındakı Krasnovodsk şəhərinə aparır və oradan başqa qatarı götürüb Bakıya gətirir. Əgər bu vaqonları parovoza qoşub dəmir yolu ilə Krasnovodsk şəhərinə aparsalar, azı beş-altı gün çəkər. Bir görün, bərə yolu nə qədər qısaltmışdır...

*Emin Mahmudov*

**Tapmaca:**
Dənizdə bir ev gördüm
Üstündə də dam-baca.
Yeriyir yavaş-yavaş,
Tapmacadır, tapmaca.

● Uşaq yuxudan ayılanda nə üçün təəccübləndi?
Bərədən daha haralarda istifadə edirlər?
Daha hansı nəqliyyat vasitələrini tanıyırsınız?

## İz açın, ay balalar!

Vətən torpağı geniş,
Aranı var, dağı var.
Bir möhtəşəm zirvənin
Min gizli bulağı var.
Daşların sinəsində
Nələr oxunulmayıb
Oxuyun, ay balalar!
Niyə şimşəkdən qabaq
Maral boynunu burur,
Kəklik daşa sığınır,
Qartal qalxıb qıy vurur.
Dərələrə səs düşür,
Sellər, sular daşanda?
Niyə göyün üzündə
Sirli yazılar yatır.
Düşüncələr, fikirlər,
Şirin arzular yatır.
O dərin hikmətləri
Siz duyun, ay balalar!
Öyrənin, ay balalar?
Ucalmaq həvəsilə
Yaşayın bu həyatda,
Axtarın illər boyu
Nələr var kainatda.
Yarın dumanı, çəni,
Tüstüdən çəkinməyin.
Soyuq qorxulu deyil,
İstidən çəkinməyin.

Buludlar sıxlaşanda
Rəngi yerdə dəyişir
Çəmənin, ay balalar?..
Təbiətin dilini
Qayaların belindən
İz açın, ay balalar!
Biz açmayan yolları,
Siz açın, ay balalar!

*Hüseyn Hüseynzadə*

● Şair uşaqlara nələri məsləhət görür?
O nə üçün «Biz açmayan yolları siz açın, ay balalar!» deyir?
Şeirdə təbiətin öyrənilməsinə aid olan yerləri tapıb oxuyun.
Şeiri əzbərləyin.

## Sovet qanunları

Cahana nur saçan anamız
Vətən
Doğma sinəsində bəsləyir
bizi.
Yeni müjdə verib xoş
gələcəkdən
Qurub-yaratmağa səsləyir
bizi.

Baxdıqca Şirvana, Muğana,
Milə
Eşqin ürəyimdə bir dəniz
olur.
Sovet ölkəsində dünənki
fəhlə
Bu gün şəhər salan
mühəndis olur.

Susuz səhralarda Arazdan, Kürdən
Kanallar açmışıq, qollar açmışıq.
Elin qüdrətilə ilk dəfə yerdən
Aya, ulduzlara yollar açmışıq.

*Şamil Məmmədov*

● «Cahan» və «müjdə» sözlərini hansı sözlərlə əvəz etmək olar?
«Sovet ölkəsində dünənki fəhlə.
«Bu gün şəhər salan mühəndis olur» ifadəsinin mənasını izah edin.

Sovet adamlarının təbiəti dəyişdirdiyini ifadə edən misraları tapıb oxuyun.
Şeirdə kosmosla əlaqədar nə deyilir?

**ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR**

Sovet adamları yeni həyat qurmaq üçün hansı işləri görürlər?
Sənaye sahəsində sovet adamları hansı işlərlə məşğuldur?
Neft istehsalı, neft ustaları barədə bildiklərinizi danışın.
Pambıqçılıqla əlaqədar öyrəndiklərinizi danışın.
Respublikamızda üzümçülük haqqında nə öyrəndiniz?
Hansı şeir və hekayələrdə tikinti işlərindən söhbət gedir?
Yeni həyatın qurulmasında siz necə iştirak edəcəksiniz?
Oxuduğunuz hekayə və şeirlərdə insanların hansı yaxşı xasiyyətlərinə rast gəldiniz?
«İz açın, ay balalar!» şeiri ilə şair nə demək istəyir?

## Birinci qar

Bu qış mövsümündə gecikmişdi qar,
Onu gözləyirdi çöllər, tarlalar.
Küləklər çapırdı atını düzdə,
Yola göz dikirdik, hər səhər biz də.
Hərəmiz almışdıq yeni bir xizək,
Deyirdik qar yağsın, çıxıb bir gəzək.
Sürüşək ayna tək buzların üstə,
Qartopu oynayaq biz dəstə-dəstə.
Yanvarın biriydi, oyanıb erkən,
Boylanıb baxanda pəncərəmizdən.
Gördüm ki, hər tərəf olub ağappaq,
Elə bil ağ çiçək açıb hər budaq.
Geyib paltarımı tez çıxdım evdən,
Fərəhlə, sevinclə baxdım qara mən.
Məktəb yoldaşlarım axışıb gəldi,
Hər yanda bir şənlik səsi yüksəldi.
Qartopu oynadıq biz meydançada,
Xizəklə sürüşdük geniş bağçada.
O gün çox sevindi bizim uşaqlar,
Çıxmaz xatirəmdən bu birinci qar.

*Mirmehdi Seyidzadə*

**El gözü, el sözü:**

Sığırçınlar və qara qarğalar kəndə, şəhərə yaxın yerlərə toplaşarsa, qar gözlənilir.

**Tapmaca:**

Göydə uçar, qanadı yox,
Şəkərə bənzər, dadı yox.

- Uşaqlar nə üçün qarı həvəslə gözləyirdilər?
  Qarın xeyri nədir?
  Qışdakı oyun və əyləncələrinizdən danışın.

Şeirdəki «mövsüm», «erkən», «axışıb», «xatirəmdən» kimi sözləri hansı sözlərlə əvəz edə bilərsiniz?

**Əsl qış günü**

Təbiət qışda gözəldir. Şaxta ağacların gövdəsindəki və budaqlarındakı nəmişliyi sıxışdırıb çıxarır; kollar da, ağaclar da, hətta qamışlar və uzun otlar da qırovla örtülmüşdü; günəş şüalarından qırov parıldayırdı, elə bil, almazdan qığılcımlar yayılırdı. Qısa qış günləri aydın və sakit idi, su damcıları kimi biri o birinə oxşayırdı...

Nəhayət, mavi göyün üzü bozarmağa başladı, şimal küləyi vıyıldadı; pambıq kimi ağ buludlar hiss olunmadan üfüqü bürüdü. Külək elə bil öz işini görüb yenidən sakitləşdi; bərəkətli qar asta-asta, iri dənələrlə yerə enməyə başladı. Kəndlilər havada kəpənək kimi uçub yerə düşən quşbaşı qara baxdıqca sevinirdilər.

Qar səhər tezdən başladı, ara vermədən davam etdi, getdikcə gücləndi və sıxlaşdı. Mən quşbaşı qarın yavaş-yavaş yerə enməsinə baxmaqdan doymurdum. Bu mənzərədən daha çox ləzzət almaq üçün mən sahəyə getdim və gözlərim önündə möcüzəli mənzərə açıldı: ətrafımdakı sonsuzluq qar axınına çevrilmişdi, elə bil göy geniş açılmış və oradan qar yumşaq pambıq lopaları kimi havanı doldurur, ardı-arası kəsilmədən yerə ələnirdi. Ətrafı qəribə sakitlik bürüyürdü.

Qışa məxsus hava qaralmağa başladı; enən qar bütün əşyaları örtür, yerə ağ örpək çəkirdi.

Mən evə qayıtdım, lakin havasız otağa deyil, bağçaya keçdim. Kəndlilərin evlərində lampalar işıqlandı; tutqun şüalar küçəyə yanakı düşürdü. Qar örtüyündən və havanın qaralmasından ətrafda heç nə görünmürdü. Mən otağa keçdim, pəncərənin qarşısında xeyli dayanıb, qarın yağmasına baxdım.

*Sergey Aksakov*

● Şiddətli qardan əvvəl hava necə idi?
Quşbaşı qar yağanda hava necə idi?

Qarın yağmasını yazıçı necə təsvir edir?
Yazıçı nə üçün sahəyə getdi?
Mətndə işlənən obrazlı ifadələri tapıb oxuyun.
Hekayəni danışın.

## Qışın sovqatı

A dağlara yağan qar,
Düzləri də sal yada.
«Gəl-gəl» deyir uşaqlar
Hər bağda, hər bağçada.

* * *

Pambıqdan ağ paltarın
Qoy bəzəsin hər yanı.
Tarlaların, bağların
Yorğanı ol, yorğanı.

* * *

Zərif naxışlar kimi
Səpildikcə sən yerə,
Xəyalımda min zəmi
Canlanır birdən-birə.

* * *

Ayağın altda ağ qar
Xışıldadıqca hərdən,
Pıçıldaşan taxıllar
Gəlib keçir nəzərdən.

* * *

Səhər-səhər külək, qar
Pəncərəmi döyəndə,
Sanıram kombaynlar
Dən sovurur düzəndə.

* * *

Deyirəm yağ, yağ, ey qar,
Göydən yerə pay gətir,
Gül-çiçəkli bir bahar,
Bol məhsullu yay gətir.

*Ələkbər Ziyatay*

**Tapmaca:**
Suda batmaz, odda yanmaz

- Şeir nə üçün «Qışın sovqatı» adlanır?
Onu daha necə adlandırmaq olar?
Şeirin son bəndini necə başa düşürsünüz?
Şair qarı, küləyi şeirdə nələrə bənzədir?
Şeiri əzbərləyin.

## Ayı ovu

*(İxtisarla)*

Bazar günü atamla qonşu kəndə, xalamgilə qonaq getmişdik. Səhər tezdən onlardan qayıdırdıq. Deyəsən, gecə bərk şaxta olmuşdu. Yol şüşə kimi idi, ayaqlarımız yerdə durmurdu. Ancaq soyuq vecimizə deyildi, əynimiz qalın idi. Mənim əynimdə qısa palto, başımda qulaqlı papaq vardı. Atam isə sırıqlısını geyinmişdi. Tüfəngini, patrondaşını da partizanlar kimi onun üstündən çal-çarpaz çiyninə aşırmışdı. Xəncərini də kəmərinə bağlamışdı.

* * *

Bir azdan dağın ətəyindəki qalın meşəyə girdik. Qarlı budaqlar hər tərəfdən yola sallanmışdı. Bəzən onların altından əyilib keçməli olurduq. Hündür bir yerə qalxanda atam ayaq saxlayıb papiros yandırdı:

-Oğul, gəl dağı kəsə yolla aşaq, - dedi, - həm yolumuz qısalar, həm də evə əliboş getmərik. Qabağımıza, heç olmasa, bir dovşandan-zaddan çıxar. - Yolun üst tərəfini göstərdi: - Sən bura qalx. Yuxarıda alçaq qayalıq var, onun dibində dayan. Mən dərənin o tayında hop-hop kimi səs çıxaracağam. Onda hay-küy sala-sala mənə tərəf gələrsən.

Deməк, atam yolu kəsəcək, mən də ovu hürküdüb, onun üstünə aparacaqdım. Atam dərəyə endi. Mən isə yol ilə qalxdım. Qış girəndən üst-üstə yağan qar köhnələrək narın qum dənələri kimi olmuş, üstü nazik buz bağlamışdı. Ona görə də rast gəldiyim izləri tanıya bilmirdim. Qayalığa çatanda dayanıb atamın işarəsini gözlədim. Atam, dediyi

kimi, o tayda hop-hopa oxşar səs çıxırdı. Mən yerimdən tərpəndim. Quzeydə qar dərin idi, az qala dizə çıxırdı. Yerə əyilmiş budaqlardan, nəhəng ağacların aralığa alaraq sıxışdırıb günəş üzünə həsrət qoyduğu qamçı kimi nazik gövdəli ağaclardan tuta-tuta irəliləyir, arabir də dayanıb «Ey-hey!» deyə qışqıraraq meşəyə hay-küy salırdım ki, ovu hürküdüm.

* * *

Dərəni yenicə addımlayırdım ki, xeyli qabaqda atamın tüfəngi şaqqıldadı. Dedim, nəsə vurdu. Sevincək yıxıla-yıxıla səs gələn tərəfə qaçdım. Bir az irəlidə ağacların arasından gözümə boz bir şey dəydi; diqqətlə baxanda şələquyruq tülkünü tanıdım. Mənə sarı gəlirdi. Bərkdən qışqırdım ki, qorxub geriyə, atamın üstünə qayıtsın. Ancaq hiyləgər tülkü dala dönmədi, qaçıb özünü dərəyə saldı.

Atam balaca bir talada daşın üstündə oturmuşdu. Yanında heç nə yox idi. Demək, gülləsi boşa çıxmışdı…

-Ata, dərəyə tülkü endi, - deyə tövşüyə-tövşüyə xəbər verdim. Atam da heyfisiləndi ki, elə indicə gülləni ona atırdım. Ağac zəhrimar qabağımı kəsməsəydi, əlimdən qurtara bilməzdi.

* * *

Quzey lap soyuq idi. Atamın qalın qaşları, uzun bığları, papağının qıvrım tükləri muncuq-muncuq qırov tutmuşdu. Yanaqları isə köz kimi qızarmışdı. Bir azca nəfəsimizi dərib döşə qalxdıq. Biz dala qayıdırdıq. Atam qabaqda, mən isə onun açdığı izlə gedirdim. Böyük bir palıd ağacının yanından keçəndə atam dayanıb yerə baxdı. Qarın üstündə iri izlər vardı. Soruşdum:

-Ata, bu nə izidir?

O, aşağı çöməldi:

-Qar təzə olsaydı, o dəqiqə tanıyardım. Ancaq ayı izinə oxşayır. Özü də təzədir. Bircə o var ki, qışın bu vaxtında ayı yuvasından çıxmır.

Atam ləpirə bir az diqqət yetirib dedi:

-İndi bir iş də var: bu izlərdən baş açmaq olmur ki, hansı tərəfə qayıdıb. Çünki güneyə də gedəni var, quzeyə də. Atam ayağa durdu:

-Gedək, - dedi, - qarşıda bulaq var, bəlkə oraya su içməyə gedib.

Biz izə düşdük. Atam tez-tez ayaq saxlayaraq ətrafı dinləyir, sonra irəliləyirdi. Tüfəngini də əlində tutmuşdu. Yol bizi lap əldən saldı. Bulaq dərənin quzey tərəfində, uzun bir vələs ağacının altında idi. Dövrəsi gömgöy buz bağlamışdı. İz burada qurtardı. Demək, atam öz zənnində yanılmamışdı. Ayı bulağa su içməyə gəlibmiş. İndi də gəldiyimiz yerlərlə geri döndük. Bir az getmişdik ki, atam dayandı, aşağı əyilib, yenə izə diqqətlə baxdı. Dəyirmi daban, onun qabağında da qara batmış caynaq izləri burada çox aydın seçilirdi. Atam inamla dedi:

-Daha şübhəm yoxdur. Bu, ayı izidir. Su içməyə çıxıbmış. İndi yuvasında olar. Belə soyuq havada çöldə qalmaz.

Bizim meşələrdə aya yaşadığını eşitmişdim. Keçən payız ovçular birini vurmuşdular. Deyirdilər, cır armudların diblərində sümsünürmüş, birdən üstünə çıxırlar, qaça bilmir.

İz yuxarı dönürdü. Atam ağacların arasından qayalığı mənə göstərib alçaqdan dedi:

-Bala, onun yuvası mütləq burada olar.

Atamdan bir addım belə aralanmırdım. Yuxarıya qalxmaq çox çətin idi. Bir şeydən yapışmasaq, ayağımız yerdə durmurdu. Neçə yerdə ayı da iti caynaqları ilə qarı cırmaqlaya-cırmaqlaya xeyli sürüşmüşdü. Axır ki, özümüzü birtəhər qayalığa çatdırdıq. Qayanın dibinə qar düşməmişdi. Ayının izi burada itirdi. Ətrafımıza göz gəzdirdik. İyirmi-otuz addım aralıda bir zağanın ağzı qaralırdı. Atam xəncərini, tüfəngini yoxlayıb, mənə pıçıldadı:

-Oğul, sən burada dayan, mən bir o zağaya baxım.

Atam tüfəngin çaxmağını çəkib, addım-addım zağaya tərəf getdi; aşağı əyilərək gözünü yerə zillədi. Yəqin izi axtarırdı. Tez qalxıb zağaya girdi. Məni dəhşət bürüdü. Atamdakı ürəyə bir bax! Ayının yuvada olduğunu bilə-bilə üstünə gedirdi. Onun içəri girdiyi heç bir-iki dəqiqə

çəkməmişdi ki, tüfəngin gurultusu eşidildi. Səs elə bil dərin quyudan gəlirdi.

-Vurdu! - deyə sevincək irəli cumdum. Zağadan kəskin barıt iyi verən tüstü çıxırdı. Başımı irəliyə uzadıb, çəkinə-çəkinə içəriyə boylandım. Tüstüdən heç nə seçmək olmurdu. Ancaq uzaqdan ayının boğuq nəriltisi eşidilirdi.

-Ata! - deyə, qışqırdım. Cavab çıxmadı. Özüm də bilmirəm necə oldu ki, birdən-birə bu qədər cürətləndim.

-Ata! Ata! - deyə, qışqıraraq cəld zağaya soxuldum. İçəri çox qaranlıq deyilmiş. Ayı atamı yıxıb kobud pəncələrini sinəsinə qoymuşdu. Atam isə iki əli ilə onun boğazından yapışmışdı. Onu belə görəndə məni vahimə götürdü. Bir anlığa karıxıb yerimdə qaldım, nə edəcəyimi bilmədim. Ayının tüklü boynu qan içində idi. Ağzından köpüklü qan axırdı. Yəqin ki, güllə yaxşı dəyməmişdi. Atam tüfəngini bir də doldurana kimi ayı yerindən sıçrayaraq onu altına basmışdı.

-Ata! - deyə, dəhşətlə qışqırdım. Atam isə səsimi eşidəndə:

-Qorxma, bala! Xəncər əlimdən yerə düşdü. Tez onu tap, mənə ver! - deyə, elə arxayın dilləndi ki, elə bil ayının zorba pəncələrinin altında xırıldayan o deyildi.

* * *

Gördüm, xəncəri vaxtında tapıb verməsəm, ayı onu parçalayacaq. Özümü ələ alıb qabağa atıldım. Xəncərin tiyəsi ayının dal ayaqlarının arasında gümüş kimi parıldayırdı. Aşağı əyilib cəld onu yerdən götürdüm. Elə bu vaxt atam boğula-boğula qışqırdı:

-Şərif, harda qaldın? Tez ol!..

Düzü, xəncəri atama necə verdiyimi xatırlamıram. Ancaq o yadımdadır ki, ayı qorxunc bir nərə çəkərək dal pəncələri üstə qalxdı. Mən də divara qısıldım. Bir də onu gördüm ki, ayı kökündən qopmuş palıd kimi qabağımda yerə sərildi. Onun döşündən fışqıran isti qan üz-gözümə sıçradı. Atam isə ucundan qan damcılayan xəncər əlində ayıya baxırdı. Tez atama sıxıldım. Onun paltarı cırıq-cırıq olmuşdu. Yorulmuşdu, ayaq üstə zorla dururdu, bərk tövşüyürdü. Əlini kürəyimə vuraraq:

-Oğul, - dedi, - əgər özünü bir balaca itirsəydin, atanın işi bitmişdi.

*Bayram Həsənov*

**Atalar sözü:**
Kamil ovçu güllə atmaz boşuna

● Şərif ilə atası ayını necə tapdılar?
Şərifin atası ayıya necə qalib gəldi?
Şərifin köməyi nədən ibarət oldu?
Hekayədə «Şaxta qılınc kimi kəsirdi» ifadəsinə diqqət yetirin. Bu cür obrazlı ifadələri tapıb oxuyun.
Hekayənin arılmış hissələrinə başlıqlar verin.

## Qar

Axır ki,
Yağır ki!..
Nə yaxşı!
Elə bil
Ulduzdu.
Əl vurdum,
Bumbuzdu.
Hər fəslə
Qışın xoş
Töhfəsi,
Baharın
Çiçəkli
Nəfəsi,
Ora bax!
Quşbaşı
Qara bax!
Yay ilə
Payızın
Meyvəsi...
Bu qardır,
Bu qardır!
Çölümü,
Düzümü
Ağardır,
Qar yerin
Üzünü
Ağardır.

*Hikmət Ziya*

● Şeirdə eyni ahəngli sözləri tapın.
Şeirdə fəsillərin hansı əlamətləri göstərilir?
Şeiri ifadəli oxuyun.

## Qoçaq uşaqlar

Cəfərlə Nadir qış tətilinə buraxılmışdılar. Onlar kolxoz fermasına – atalarının yanına getdilər. Axşamüstü çobanlar örüşdən sürüləri gətirdilər. Cəfərlə Nadir aldıqları qiymətləri onlara göstərdilər. Çobanlar çox sevindilər.

Cəfərin atası Murad fermanın baş çobanı idi. O, sürüləri yoxladı. Çoban Qulunun sürüsündəki qoyunlardan biri yox idi. Qulu çomağını çiyninə alıb, meşəyə tərəf getdi. Cəfərlə Nadir Qulu ilə getmək üçün atalarından icazə istədilər. Ataları razı oldu. Uşaqlar Qulunun ardınca meşəyə yüyürdülər. Onlar meşəyə çatdıqda Qulu dedi:

-Uşaqlar, hamımız bir yerdə axtarsaq tapa bilmərik, siz o tərəfə gedin, mən də bu tərəfə.

Uşaqlar meşəyə girdilər. Qabaqda Cəfər, dalınca isə Nadir gedirdi. Onlar tez-tez dayanıb ətrafa boylanır, sonra yenə yollarına davam edirdilər. Birdən Cəfər qoyun ayağının izlərini gördü. Onlar həmin iz ilə getməyə başladılar. Hava qaralırdı.

Qar hər yeri ağartmışdı. Meşədə tez-tez anlaşılmaz səslər eşidilirdi.

Cəfər kolların arasını, qayaların dibini diqqətlə axtarırdı. Nadir könülsüz halda onun yanınca gedir, «Gəl qayıdaq, canavarlar bizi yeyər» deyirdi.

Cəfər isə Nadirin bu fikri ilə razılaşmırdı. Birdən lap yaxından bir şıqqıltı eşidildi, işıltı göründü. Uşaqlar qorxub dayandılar. Cəfər cəld cibindəki qəzeti çıxardı, onu uzun lülə şəklində eşdi. Sonra kibriti çəkib, onu yandırdı. Şıqqıltı gələn tərəfə baxdılar. Kolların arasında bir qoyun dayanıb, onlara baxırdı.

* * *

-Tapdıq! - deyə Cəfər qışqırdı və qoyunu kolların arasından çıxartdı.

Qayıdarkən uşaqlar azdılar. Yaxında hündür qaya var idi. Qayanın dibini qar o qədər də tutmamışdı. Cəfər və Nadir quru ağac budaqlarından xeyli yığıb qayanın dibində böyük bir ocaq qaladılar. Alov qalxıb, hər tərəfi işıqlandırdı. Qoyun da onların lap böyründə yatıb, asta-asta

kövşəyirdi. Nadir və Cəfər oturub, gözlərini meşəyə zilləmişdilər.

Birdən Cəfər ağacların arasından xırda lampaların işıqlandığını gördü. O, canavar gözünün qaranlıqda işıq verdiyini eşitmişdi. Uşaqlar özlərinə tərəf gələn dörd canavarı aydın seçdilər. Cəfər ocaqdan bir kösöv götürüb, canavarlara atdı. Onlar yox oldular. Bir azdan sonra yenə də canavarlar görünməyə başladı.

Uzaqdan atəş səsi eşidildi. Canavarlar güllə kimi qaçıb gözdən itdilər. Sonra yenə də güllə səsi eşidildi. Cəfər başa düşdü ki, onları axtarırlar. O, ocaqdan alovlu bir kösöv götürüb yaxındakı ağaca dırmaşdı. Kösövü havada yelləyə-yelləyə qışqırdı:

-Biz buradayıq! Bu-ra-da-yıq!..

İki-üç dəqiqədən sonra uşaqların ataları və çoban Qulu gəldi.

Bu əhvalatdan üç-dörd gün sonra rayon qəzetində iki pionerin kolxozun itmiş damazlıq merinosunu necə tapması haqqında məqalə çap olundu. Həmin məqalədə Cəfərlə Nadirin qoçaqlığından danışılırdı.

*İlyas Əfəndiyev*

● Cəfərlə Nadir fermaya nə üçün gəlmişdilər?
Uşaqlar nə üçün meşəyə getdilər?
Onlar qoyunu necə tapdılar?
Canvarları görən Cəfər nə üçün onlara kösöv atdı?

**Təzə il**

Təzə il!
        Gəzə-gəzə
Gəl, bizim eli bəzə!
Yağış gətir, qar gətir,
Günəşli bahar gətir.
Taxılçı taxıl əksin,
Suçu düzə su çəksin.
Bağ salsın qoca bağban,

Bar qonsun budaqlara…
Haraylasın gənc çoban
Sürünü otlaqlara.

* * *

Təzə il!
Gəzə-gəzə
Gəl, bu düzləri bəzə!
Gülsün çöllər, zəmilər…
Təyyarələr, gəmilər
Uzaq elli dostlara
Bizdən salam yetirsin,
Bizə sovqat gətirsin.

* * *

Təzə il!
Təzə-təzə
Nəğmələr gətir bizə!
Dağlardakı buzların,
Göydəki ulduzların
Nağılını eşidək,
Aya, ulduza gedək.

*Əhməd Cəmil*

● Şeirdə nədən bəhs olunur? Bunu şeirdəki ifadələrin köməyi ilə təsdiq edin.
Şair təzə ildə nə arzulayır?
Şeiri daha necə adlandırmaq olar?
Şeirdə «təzə», «bəzə» kimi həmahəng sözləri seçin.
Şeiri əzbərləyin.

## General Dovatorun əlcəkləri

*(İxtisarla)*

Qonşu otaqda iki oğlum oynayırdı.

Birdən oyun dayandı. Mən onların bəzi sözlərini eşitdim.

-Bu cür rahat deyil, - deyə, Styopka dilləndi. - Əgər bizim boksçu əlcəyimiz olsaydı!..

-Əlcəyi haradan alasan?! - deyə, Kastus ah çəkdi. - Gəl bir də oynayaq. Otaqda yenə tappıltı və səs-küy eşidildi.

Bir qədərdən sonra uşaqlar sakitləşdilər və pıçıldaşmağa başladılar. Şkafın qapıları qapıları cırıldadı.

-İkisini də götürdün, acgöz! - Kastusun səsi eşidildi. - Bax, atama deyəcəyəm...

Bundan başqa heç nə başa düşmədim. Otağa girəndə gördüm ki, Kastus yumruğuna dəsmal dolayıb, Styopka isə əlini arxasında gizlədir.

-De görüm, əlində nə var? - deyə soruşdum.

Styopkanın əlində dirsəyinə qədər çəkilmiş sarı rəngli dəri əlcək var idi.

-Çıxart! - deyə, qışqırdım. - Bilirsən bu nə əlcəkdir?

-Çıxart, çıxart! - deyə, Kastus onu qamarladı. - Bax ha, hər iki əlcəyi götürüb vermir.

Styopka əlcəkləri könülsüz verib, qaşqabağını salladı. Mən onları əllərimə keçirdim. Əllərim əlcəyin yumşaq, isti astarında isindi. Keçən günləri xatırladım...

Bu hadisə Böyük Vətən müharibəsinin birinci ilində, qışda olmuşdu. O vaxt mən cavan idim, süvari kazak dəstəsində xidmət edirdim. Mənim qılıncım, avtomatım var idi, özüm də həmişə İldırım adlı bir at minərdim. Süvari kazak polkuna general Dovator komandirlik edirdi.

Biz bir neçə gün faşistlərin arxasında döyüşdük. Bir kənddən başqa kəndə keçir, düşmənləri qılıncla doğrayır, körpüləri partladır, anbarları yandırırdıq. Bir sözlə, faşistlərin canına vəlvələ salırdıq.

O vaxt vəziyyət çox ağır idi. Faşist tankları Moskvaya yaxınlaşmışdı. Artıq düşmən durbinlə Moskva ətrafını diqqətlə gözdən keçirirdi...

Komandanlığın əmrinə əsasən biz almanların arxasından çıxdıq və Moskva ətrafında müdafiə mövqeyi tutduq. Demək olar ki, hər gün alman tankları bizə hücum edirdi. Biz onların üstünə içərisində partladıcı maddə olan butulkalar tullayıb yandırır, qumbara ilə partladırdıq.

O zaman bizim də çox döyüşçümüz həlak oldu.

Kazaklar general Dovatoru həmişə döyüşün ən qızğın yerində görürdülər. O, at üstündə quş kimi uçurdu, qara yapıncısı küləkdə yellənirdi.

Faşistləri Moskvadan geri qovduq. Biz onları bir neçə gün arasıkəsilmədən qovmaqda davam etdik.

Bir dəfə axşamçağı general çaparaq bizim dəstəyə gəldi. Onun sifətində yorğunluq hiss olunurdu, gözləri qızarmışdı, yəqin çox yuxusuz gecələr keçirmişdi.

-Salam, kazaklar! - deyə, o, atını saxlayaraq qışqırdı. - Necə dolanırsınız?

-Təki hər gün belə olsun! - deyə, döyüşçülər cavab verdi. - Bu gün otuz kilometr yol getmişik.

Məs dəstənin axırında at üstündə gedirdim. General məndən soruşdu:

-Hansı vilayətdənsən, kubanlısan?

-Kubanlı deyiləm.

-Bəs haradansan?

-Belorusiyadan, - dedim və kəndimin adını bildirdim.

General cəld atını döndərdi və mənim İldırımımla üzəngi-üzəngiyə sürdü.

-Biz ki, həmyerliyik. Mən də Belorusiyadanam. Vitebşinadan, - deyə əlimi sıxdı.

General ata-anamın indi harada olması ilə, müharibədən əvvəl harada işləməyimlə maraqlandı; xudahafizləşdi, çaparaq başqa polka getdi.

Bərk şaxta idi. Biz meşə yolu ilə gedirdik. Atların nalları altında qar bərk xışıldayırdı, bütün ağaclar qırov bağlamışdı. Qara atımın başı da, yalı da qırov idi.

Biz hələ meşədən çıxmamışdıq ki, kəşfiyyatçılar irəlidə kənd olduğunu və orada faşist xizəkçilərinin böyük bir dəstəsinin gecələdiyini xəbər verdi. Biz qəflətən kəndə hücum edib, hitlerçiləri yaxşıca əzişdirdi. Gör başıma nə iş gəldi – bu döyüşdə mən əlcəyimi itirdim.

Çox keçmədən məni polk komandirinin yanına çağırdılar. Orada təsadüfən generl Dovatorla rastlaşdıq.

-Paho, həmyerlim! – deyib, məni tanıdı.

Polk komandiri mənə bir zərf verib diviziya qərargahına aparmağı əmr etdi. Mən əsgəri salam verdim, zərfi yapıncımın altında gizlədib İldırımı mahmızladım.

Generalın səsi eşidildi:

-Dayan! Bəs niyə əlcəksizsən?

-Əlcəyimi döyüşdə itirmişəm.

Polk komandiri generala nə isə dedi. O, başını buladı.

-Al, götür, - deyə, general mənə sarı rəngli dəri əlcək uzatdı. – Götür, götür!.. Mənim biri də varımdır, özü də qu quşu tükündən. Belə tük eşitmisənmi?

İki saatdan sonra mən qərargaha çatdım. Zərfdə, şose yolu ilə geri çəkilən alman avtomobil dəstəsini ələ keçirmək haqqında general Dovatorun əmri var idi. Mən diviziyaya gedib geri dönüncə hava işıqlanmağa başladı. Göyün üzündə ulduzlar bir-birinin ardınca sönürdü. Şaxta isə daha da şiddətlənmişdi.

«Mən əlcəksiz nə edərdim?» - deyə, fikirləşib generalı xatırladım...

Polk komandirinə əmrin yerinə yetirilməsi haqqında məlumat verdim.

O, məni dinlədi və sonra soruşdu:

-Yaxşı əlcəkdirmi?

-Çox istidir.

-General isə bütün gecəni əlcəksiz yol getdi.

-Onun ki, qu tükündən əlcəyi var... - dedim.

Polkovnik əlini yellədi.

-Eh, onun başqa əlcəyi yoxdur... Tez ol, əlcəyi generala qaytar, sənə təzəsini verərlər. General haradasa kolonnanın başındadır...

Lakin mən generalı tapa bilmədim. O çapa-çapa başqa polka getmişdi.

* * *

Həmin gün döyüşdən sonra kədərli bir xəbər yayıldı: generalımızı öldürmüşdülər. Mən polk komandirinin ardınca kəndə çapdım. Deyilənə görə, generalı ora aparmışdılar. Podpolkovnik ayğır atını qovub, öz-özünə təkrar edirdi: «Ola bilməz! Ola bilməz!..»

Lakin bu xəbər doğru idi. Onun xizəyə qoşulmuş döyüş atının yüyənindən tutub sükut çökmüş küçə ilə aparırdılar. Üstünə yapıncı salınmış general Dovator xizəyə uzadılmışdı.

Dəri əlcəklər bütün bunları yadıma saldı. Bu barədə mən oğlanlarıma nağıl etdim...

Uşaqlar səslərini kəsib, ehtiramla əlcəkləri nəzərdən keçirdilər. Kastus əlcəkləri ehmallıca götürdü, lakin əlinə keçirmədi.

-Belə əlcəklə adam vuruşar? – deyə, öz-özünə söyləndi.

-General onunla qılınc tuturmuş... – Styopka sakitvə fikirli-fikirli dilləndi.

Uşaqlar yenə nə haqdasa danışdılar, lakin indi sakit və mehriban-mehriban danışırdılar. Sonra əlcəkləri ehtiyatla dəsmala büküb şkafda gizlətdilər.

*Vasili Xomçenko*

● Hadisənin qışda baş verdiyini nədən bilmək olur?
Ata nə üçün uşaqlara əlcək haqqında danışmalı oldu?
Döyüşçü əlcəkləri nə üçün qayğı ilə saxlayırdı?
Generalın insanpərvər olduğunu nədən bilmək olur?
Sovet əsgər və zabitlərinin insanpərvərliyi haqqında daha nə bilirsiniz?
Hekayənin hissələrinə başlıqlar verin. Alınan plan üzrə hekayəni danışın.

## Qışla bahrın çəkişməsi

*(«Gözəl bahar» pyesindən)*

**Birinci pərdə:** Qışın şiddətli vaxtında.

**Qış**

Qışam, mənim böyük adım, sanım var;
Qardan, buzdan iliyim var, qanım var.
Ayaz, Boran, Külək mənim əsgərim,
Dünyada tək bunlardır sevdiklərim.
Qanadımı çarpdıqca mən hər zaman,
Qüvvətlənər Külək, Ayaz, Qar, Boran…
Payız girər, mənə zəmin hazırlar,
Günəş artıq sönük-sönük parıldar.

**Boran**

Sən heç qorxma sarı saçlı Günəşdən,
Qarşına kim çıxa bilər biz varkən?
Dünyaları donduran oğlun Boran,
Ona da bir kəmənd atar qorxmadan.

**Bulud**

Qanadımla tutub onun üzünü,
Oymaram heç açsın odlu gözünü.

**İkinci pərdə:** Qışın sonu. Günəş gah qaralır, gah şəfəq saçır. Bulud, Boran və Qarla vuruşur. Qaranquş gəlir, dimdiyindəki bənövşəni Qışa uzadır.

**Qaranquş**

Qızıl Bahardan, al, məktubdur sana,
Çarpışırsa, deyir, çıxsın meydana!
Su, Torpaqdan, Günəşdən əsgərim var,
Bir vuruşda onu edər tar-mar.

**Qış**

Bu çöllərdən qaçmaq gərək dağlara,
Ağalığım tükəndi: ah, bu Günəş
Məni də yandırır, yağdırır atəş.
Bulud, Külək, ay Boran!
Qaçın, gəlin durmadan!
Dada çatın, ay aman!
Məni məhv etdi düşmən.

**Səhnə arxasından oxunur:**

Ellər, ellər, ay ellər!
Çiçəklənir, bax, çöllər.
Qaçdı Boran, Bulud, Qar.
Günəş par-par parıldar,
Yaşıllanır bağ, çəmən,
Bir səs gəlir hər yerdən:
Xoş gəldin, qızıl Bahar,
Yaşa, yaşa bəxtiyar!

*Abdulla Şaiq*

- Bir şagird Qışın, ikinci şagird Boranın, üçüncü şagird Qaranquşun sözlərini oxusun. Başqa bir şagird də nəğməni.

  Pyesə görə Qışın balaca əsgərləri hansılardır?

  Su, Torpaq, Günəş nəyin əsgərləri hesab olunur?

  Qışda Günəş nə üçün «sönük-sönük parıldar»?

  «Payız girər, mənə zəmin hazırlar» ifadəsini necə başa düşürsünüz?

  Pyesin xüsusiyyətlərini həmin mətn əsasında izah edin.

**ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR**

Hekayə və şeirlərdə qışın hansı əlamətlərini öyrəndiniz?

Qışda təbiətin əlamətlərini bildirən hansı sözləri bilirsiniz?

Qışda heyvanların və quşların həyatı haqqında danışın.

Qışda insanların həyatı və əməyindən danışın.

Uşaqlar nə üçün qışı çox sevirlər?

Qış haqqında ən çox sevdiyiniz şeiri oxuyun.

## Sev

Pəncərəm önündən hər səhər tezdən
Məktəbə gedirsən, ay kiçik dostum,
Səni bu dünyada xoşbəxt görməkdir,
Mənim ürəyimdə ən böyük arzum.

Sən böyük ümidsən, sən gələcəksən,
Arzusan, əməlsən, şirin diləksən.
Səadətlə boy at, əməklə yaşa,
Sən hələ çox gözəl gün görəcəksən!

Çəmənlər, çiçəklər, quşlar gözəldir,
İnsan daha üstün, daha əzəldir.
İnsanı yaşadan arzu, əməldir,
Günəşli, işıqlı bir baharı sev!

Vətəndir dünyada hər şeydən əziz,
Vətəni bir ana tanıyırıq biz.
Qoynunda böyüdür, bəsləyir səni,
Azadlıq vətəni, xoş diyarı sev!

*Nigar Rəfibəyli*

**Bayatı:**
Burda yolum oldu tən,
Varmı bu yoldan ötən?!
Bu dünyada şirin şey
Bir anadır, bir vətən!

● Şair kimə müraciət edir?
«Sən böyük ümidsən, sən gələcəksən» sözləri ilə şair nə demək istəyir?
Şair uşağa nələri məsləhət görür?
Şeiri əzbərləyin.

## Alov içində addımlar

Onlar məktəbdən birgə çıxdılar: Namiq, Fəzail, Gülağa. Məktəbdə hamı onları yaxın dost kimi tanıyır. Uşaqlar söhbət edə-edə dörd yol ayrıcına çatdılar və həmişəki kimi xudahafizləşib ayrıldılar. Lakin onlardan heç kim bilmirdi ki, bir saatdan sonra təkcə kənddə deyil, uzaqlarda da Namiqdən danışacaqlar. Necə də danışmasınlar? Axı Namiq həmişə yadda qalan bir iş görmüşdür!..

Namiq həyətə girən kimi qonşuluqdan həyəcanlı bir səs eşitdi:

-Kömək edin! Kömək edin! Evimiz yanır, balam evdə qalıb!

Namiq bu səsi tanıyıb dəhşətə gəldi. Bu ki, Məryəm xalanın səsidir! Onların evləri yanırdı. Tüstüdən göz-gözü görmürdü. Vaxt itirmək olmazdı. Namiq bilirdi ki, bu evdə üç balaca uşaq da yaşayır. İki uşaq anasının yanında idi. Deməli, lap kiçiyi evdə qalıb. Namiq tələsik yanan evin qapısını açdı. Alov sanki onu gözləyirmiş kimi düz oğlanın üstünə cumdu. Namiq içəriyə doğru bir addım atdı. Lakin elə birinci addımda tavandan ayrılan alovlanmış nazik taxta parçası düz onun başının üstünə düşdü. Namiq divara sıxılıb bir anlığa dayandı. Özünü ələ aldı. Gördü ki, evdə hər şey yanır. O, azacıq ləngisə, uşaq həlak ola bilərdi.

Namiq qüvvəsini toplayıb o biri otağa keçdi. Alovun, tüstünün əlindən körpənin harada olduğunu görə bilmirdi. Əvvəlcə o, bir çarpayıya yaxınlaşdı. Yanan yorğan-döşəyi alt-üst elədi. Uşaq yox idi. Üzbəüz çarpayıya tərəf yüyürdü. Körpə orada da yox idi. Elə bu zaman otağın sol tərəfindəki alov bürümüş beşikdən səs gəldi. Namiq həmin tərəfə qaçdı. Alov onun üzünü, qulaqlarını və saçlarını qarsaladı. Tüstüdən nəfəs almaq olmurdu. Paltarı od almışdı. O, beşiyə doğru getdi. Uşağı qucağına götürdü. Onun əlləri də yandı.

Geriyə dönmək lazımdı. Tüstünün içərisində qapını tapmaq o qədər də asan deyildi. O, qapını güclə tapdı. Var gücünü toplayıb həyətə çıxdı.

…Yarım saatdan sonra Namiqi də, balaca Fəridəni də xəstəxanaya gətirdilər. Təcrübəli həkimlər vaxt itirmədən

uşaqlara ilk yardım göstərdilər. Namiqə və balaca Fəridəyə qan vurmaq məsələsi ortaya çıxanda bütün məktəblilər xəstəxanaya axışdı. Hər kəs öz qanını vermək istədi.

Lakin həkimlər onları sakitləşdirdilər:

-Çox sağ olun, balalar, kifayət qədər ehtiyat qanımız var. Bir də ki, hələ sizin 16 yaşınız tamam olmayıb. Buna görə sizdən qan götürməyə ixtiyarımız yoxdur. Ancaq biz belə hesab edirik ki, siz qan vermisiniz.

Uşaqlar həkimin sözlərindən sonra sakitləşdilər. Həmin gündən xəstəxana ilə məktəb arasında uşaq ləpirlərindən bir cığır salındı. Bu cığırı Namiqin sinif yoldaşları salmışdılar – səkkizincilər açmışdılar. Onlar hər gün Namiqə baş çəkir, keçilən dərsləri ona izah edir, dostlarının darıxmaması və tez sağalması üçün əllərindən gələni edirdilər.

Ay yarım keçdi. Namiqin səhhəti yaxşılaşdı. O, balaca Fəridə ilə birlikdə xəstəxananı tərk etdi. Namiq yenə məktəbə getdi.

Uşaqlar yəqin etdilər ki, sinifdə heç kimdən fərqlənməyən, hamıya adi görünən pioner adamların xilası üçün hər cür çətinliyə sinə gərə bilir.

● Namiq yanan evə daxil olarkən nə düşünürdü?
Namiq alovlanan otaqda uşağı necə tapdı?
Namiq kimi cəsarətli uşaqlardan kimləri tanıyırsınız?
Əsl dostluğa aid olan hissəni tapıb oxuyun.
Hekayəni yığcam nağıl edin.

**Dostluğun gücü**

Bir ağac çöldə
Boy atarsa tək,
Onu kökündən
Qopardar külək.
Ağac ağaca
Arxa durmasa,
Meşə qalxarmı,
Orman olarmı?!
Çaylar olarmı,
Üman olarmı?!

* * *

İnsan insanla,
Dosta inamla
Yaşar dünyada.
Əsil dost dostu
Unutmaz heç vaxt,

* * *

Baş alan sular
Axıb qovuşar…
Damla-damladan
Qaçarsa kənar,
Sular birləşib
Gətirər yada…
Dostluğun gücü,
Qüdrəti vardır;
Həmdəmi, dostu
Olan insanın
Qəlbi bahardır.

*İlyas Tapdıq*

**Atalar sözü:**
Dost dosta tən gərək,
Tən olmasa, gen gərək.

● Nə üçün meşədə ağac hündür və möhkəm olur?
Şair ağacın ağaca, damlanın damlaya arxa olduğunu nə məqsədlə qeyd edir?
«Dostu olan insanın qəlbi bahardır» ifadəsində şair nə demək istəyir?
Şeirin ifadəli oxumağa hazırlaşın: əsas tonu, sürəti müəyyənləşdirin, fasilələri qeyd edin, əsas mənanı bildirən sözləri ucadan tələffüz edin.

## Oğullar

Bir gün ata oğulları
Çağırdı öz otağına.
Sakit, səsiz altı oğul
Gəldi onun qabağına.

Qoca böyük bir vüqarla
Soruşdu: - Bir deyin görək,
Hədər ömür sürməməkçin
Kim nə hünər göstərəcək?

Böyük qardaş söylədi ki,
Traktorçu olaram mən.
Yer şumlaram, zəhmətimlə
Bar gətirər geniş düzən.

İkincisi söylədi ki,
İşlyərəm mən şəhərdə.
Dəmir, polad əritməkçin
Domna peçi[1] olan yerdə.

Üçüncüsü dedi: - Ata,
Bir dənizçi olaram mən.
«Çelyusskin»[2] tək üzə-üzə
Keçərəm göy dənizlərdən.

Dördüncüsü söylədi ki,
Təyyarəçi olacağam,
Vətənimin göylərində
Süzüb, qanad çalacağam.

Beşincisi dedi: - Mənsə
Olaram bir igid əsgər.
Düşmənləri məhv edərəm,
Ölkəmə kəc[3] baxsa əgər.

Altıncısı dedi: - Gərək
Nəğmə qoşum bu ellərə.
Partiyanın sayəsində
Çatdıq böyük zəfərlərə.

Hər sənətə sahib olsaq,
Qiymətlənər zəhmətimiz.
Bizə xoşbəxt həyat verib
Şanlı Sovet dövlətimiz.

*Yanka Kupala*

**Atalar sözü:**
Sənətin pisi yoxdur.

---

[1] Domna peçi – dəmir, polad əridilən peç
[2] «Çelyuskin» – gəmi adı
[3] Kəc – əyri, pis fikirlə

● Oğulların cavabları nədən ibarət idi?
Hansı oğulun cavabı daha çox xoşunuza gəldi?
Sən böyüyəndə hansı sənətə sahib olmaq istəyirsən?
Şeiri əzbərləyin.

## Zəhmət, Ağıl, Bəxt

*(İxtisarla)*

Bir kişi tarlada kotanla yer şumlayırdı. Onun başında Zəhmət, Ağıl və Bəxt arasında mübahisə qalxdı.

Bəxt dedi:

-Əkinçini dolandıran mənəm, mənsiz o yaşaya bilməz.

Ağıl dedi:

-İndi ki, belədir, biz çəkilək kənara, tamaşa eləyək, görək əkinçini sən necə dolandırırsan.

Ağıl da, Zəhmət də kənara çəkildi. Bəxt işə başladı. Birdən kotanın qabağına küp dolusu qızıl çıxdı. Əkinçi qızılları görcək üzünü turşutdu:

-Bu zəhrimar da kotana mane olur. Bir adam olsa, küpü verərdim, çıxıb gedərdi.

Ətrafına göz gəzdirdi, əl eləyib yoldan gedən atlını çağırdı ki, küpü ona versin. Atlı əkinçiyə yaxınlaşdı, ağıl qayıtdı öz yerinə – kişinin başına, əkinçi təlaşa düşdü, dizinə döydü:

-Mən nə axmaq iş görürəm. Qızılları yoldan ötənə niyə verirəm, bunlar mənim ölümə də, dirimə də bəsdir. Lənət sənə kor şeytan!

Əkinçi fikirləşməyə macal tapmamış atlı gəlib yetişdi, salam verib soruşdu:

-Əkinçi qardaş, işin avand olsun! Mənə aid nə qulluğun var? İşində çətinlikmi çəkirsən, yoxsa şəhərə bir sifarişin var?

Əkinçi dedi:

-Atlı qardaş, sifarişim-zadım yoxdur. De görüm. Boz öküz Ala öküzün nəyidir? Bunlar necə qohumdurlar?

Atlı təəccüblə fikirləşdi: «Deyəsən bu kişi dəlidir».

-Bu nə sözdür soruşursan? Öküzlər sənin, mən haradan bilim ki, bunlar necə qohumdurlar! Bir də, bunun nə mənası var?

Atlı dönüb gedəndə ağıl yenə əkinçinin başından çıxdı. Bəxt qızılları əkinçinin gözü qarşısında parıldatdı. Əkinçi atlını təkrar çağırdı ki, küpü versin. Atlı qayıtdı. Ağıl yenə yerinə gəldi: «Ay qafil adam, nə eləmək istəyirsən? Qızıllar heyifdir!». Atlı əkinçiyə yaxınlaşıb soruşdu:

-Qardaş, nə deyirsən, məni niyə yoldan eləyirsən?

Əkinçi xəcalət çəkdi, bilmədi nə desin; irəli yeriyib öküzləri göstərdi:

-Ay rəhmətliyin oğlu, nə böyük məsələ soruşdum ki, cavabında aciz qaldın? Bax, bu Boz öküz Ala öküzün doğma bacısı oğludur. Görmürsən boyu balaca, özü cavan? Aşkar görünür. Nigaran getmə, bunu deyirdim.

Atlı başını bulayaraq, dönüb getdi.

Ağıl öz hünərindən dəm vuranda zəhmət dedi:

-Bəhs eləməyə vaxtım yoxdur. Əkinçini dolandıran mənəm. İndi ki, belədir, getdim.

Zəhmət kənara çəkilən kimi əkinçi dizlərini qucaqlayıb oturdu və öküzlərin kövşəməsinə tamaşa eləməyə başladı.

-Yaxşı ki, atlını yola saldım, yaxşı ki, qızılları vermədim, özüm aparıb xırdalayaram.

Durmaq istəyəndə gördü ki, nə qıçlarında taqət, nə əllərində qüvvət var. Axşamacan çöməlib bir yerdə mürgülədi, öküzlər də yatdı.

Bəxt qızılı göyə sovurub parıldadırdı. Ağıl bunları dönə-dönə sayır, xərcləməyə yer, çarə axtarırdı. Əkinçi yerindən tərpənə bilmirdi.

Ağıl gördü ki, kişini də, öküzləri də gecə burada canavar yeyəcək. Zəhmətə yalvarıb dedi:

-Gəl, qardaş, gəl, əkinçinin günü-güzəranı sənsən. Sənsiz bir günümüz olmasın. Gəl işin üstündə ol.

Zəhmət yerinə keçən kimi əkinçi cəld ayağa qalxdı. Kotanın dəstəyindən yapışıb öküzləri hayladı:

-Ay Ceyran, nə durmusan, zəmi yarımçıq qaldı. Hey, Maral, güc vur, bu torpaq laylarını qaldır! Hey, belə ha!

Əkinçinin işləri əvvəlki kimi sahmana düşdü. Zəhmətin köməyi ilə torpaq bol məhsul verdi, kişinin özü də, balaları da yaxşı güzəran keçirdilər.

*Mir Cəlal*

**Atalar sözü:**
«Halva, halva» deməklə ağız şirin olmaz.
Axtardığını zəhmət qapısında taparsan.

- Nağıla görə ağılın rolu nədən ibarətdir?
  Zəhmətin rolu necə verilmişdir?
  Sizin fikrinizcə, xoşbəxtlikdə ağlın, əməyin və bəxtin rolu varmı?
  Öz fikrinizi faktlarla sübut edin.

## Ağacların bəhsi

Alma, palıd, şam ağacı hal ilə
Eylədilər bəhs bu minval ilə[1].
Başladı tərifə palıd qamətin[2],
Öydü özün, zorbalığın, halətin:
«Yetməz olur, - söylədi, - dağlar mənə[3],
Layiq olur fəxr edə[4] bağlar mənə.
Az qala başım yetişə göylərə,
Şax-budağım kölgə salıb hər yerə.
Əssə külək, qopsa da tufan yenə,
Əyməyə əsla[5] gücü çatmaz mənə…»
Alma ağacı ona verdi cavab:
«Eyləmə tərif özünü, ey cənab.
Zorbadır, hərçəndi ki, qəddin[6] sənin,
Yox mənə tay olmağa həddin sənin.

---

[1] Bu minval ilə – bu qayda ilə
[2] Qamət – boy-buxun
[3] Mən o qədər güclüyəm ki, dağların da gücü çatmaz
[4] Fəxr etmək - öyünmək
[5] Əsla – heç cür
[6] Qədd – boy-buxun

Səndə bitir bir neçə vecsiz qoza,
Ancaq o da qismət olur donquza.
Məndə, vəli[1] yaxşı, gözəl alma var,
Rəngini hər kim görə, heyran qalar!
Dadlı, lətafətli, məlahətlidir[2].
Saplağı incə, özü ləzzətlidir!».
Şam ağacı bildi bu keyfiyyəti[3],
Söylədi: «Bəsdir, buraxın söhbəti.
Boş danışıqdan nə çıxar, ay balam?
Qış günü siz çılpaq olarsız tamam.
Leyk[4] mənim qışda dəxi yaz kimi,
Yaşıl olur paltarım atlaz kimi.
Lazımam ev tikdirən insanlara,
Həm dirəyəm, həm qapı eyvanlara.
Qış sobada xalq məni yandırar,
Mənfəətim[5] xalqa mənim çox dəyər».

*Mirzə Ələkbər Sabir*

**Tapmaca:**
Deyin, hansı ağacdır,
Nə saralır, nə solur.
Qışda da bahar kimi,
Paltarı yaşıl olur.

*Biriniz palıdın, biriniz almanın, biriniz də şam ağacının dediklərini ifadəli oxuyun.*

● Hansı ağac haqlıdır?

---

[1] Vəli – ancaq, amma
[2] Lətafətli, məlahətli – qəşəng, ləzzətli, xoşagələn
[3] Keyfiyyət – burada «əhvalat» deməkdir
[4] Leyk – ancaq, amma
[5] Mənfəət – xeyir, fayda

## Buz

*(İxtisarla)*

Mən 14 yaşında olardım. Xalam azarlamışdı. Xalamın əri Məşədi Zülfüqar bir köhnə faytonda həkimlə gəldi. Həkim xalama baxdı və əri ilə nə isə danışdı. Xalamın əri mənə bir qəpik verib dedi:

-Bala tez ol, durma, qaç, bir qəpiklik buz al, gətir.

Bir tərəfdən də anam hirsli-hirsli:

-Daha niyə durmusan? Axı sənə söz dedilər, tez ol, qaç buza!

Məlum oldu ki, həkim azarlının başına tezliklə buz qoymağı tapşırıb. Mən bazara tərəf üz qoydum. Anam arxadan yenə məni hayladı:

-Ay Musa, tez ol, bax, bu saat buzu gətirərsən.

Bazara tərəf getməyə başladım. Yolum Hacı Bayramın qapısı ağzından idi. Hacı Bayramın itlərinin və oğlu Şirəlinin mənimlə çoxdan düşmənçiliyi var idi. Hər keçəndə mən ya gərək itləri daşlayam, yaxud Şirəli ilə dalaşam. Bu dəfə onların heç biri mənə rast gəlmədi. Buz alıb evə qayıdırdım. Birdən itlər üstümə düşdü.

Siz elə bilməyin ki, mən onlardan qorxurdum... Həm itlərin, həm də Şirəlinin öhdəsindən gələrdim. Buzu yerə qoydum. Əlimə bir-iki daş alıb itlərə atdım. Səsə Şirəli çıxdı. Ona da bir-iki daş atdım. Şirəli də məni daşlamağa başladı. Biz həm bir-birimizi daşlayır, həm də söyürdük.

Mən Şirəlini çox bərk söydüm. O da məni söyəndə atası eşitdi və çıxıb onun qulağından çəkdi.

Mən divarın dibinə çəkilib oturdum. Ürəyim çox bərk yanırdı. Az qalırdı yerdəki buzu götürüb ağzıma salım. Buz da öz işində – əriməkdə idi. Özümü saxlaya bilmədim. Əlimdəki daşla buzun bir tərəfini əzib ağzıma soxdum. Yerdə qalan alma boyda buzu əlimə alıb xalama gətirmək istəyirdim ki, Şirəli mənə tərəf qışqıra-qışqıra dedi:

-Hə, beləcə it kimi qorxub qaçarsan, ha!

Heç bu yaxşı olmadı. Şirəli mənə hər nə desə qulaq ardına vurub, buzu xalama gətirərdim. Amma o, burada yaxşı danışmadı. Mən geri döndüm...

Biz bir-birimizə yaxın gəlməyə başladıq. Əlimdəki buz parçasını yerə qoymaq istədim, amma əlimi açanda gördüm ki, buz əvəzinə ovcumda bir çay qaşığı qədər soyuq su qalmışdır. Deməк, buz burada əriyib qurtardı. Biz əlbəyaxa olduq. Bir-birimizi bir qədər cırmaqlayandan, kötəkləyəndən sonra bir də gördüm ki, bir qoca kişinin qucağındayam. Mən onun əlindən çıxıb Şirəliyə hücum etmək üçün dartındım. Bu halda bir yumruq məni ayıltdı. Bu yumruq xalamın əri Məşədi Zülfüqar kişinin yumruğu idi. O məni bir də vurmaq istəyəndə mən evə tərəf qaçmağa üz qoydum. Dönüb arxaya baxdım. Dalımca gələn yox idi.

Yəqin ki, o, bazara buz almağa getmişdi. Utandığımdan xalamın yanına gedə bilmədim. Anam uzaqdan məni görüb qışqırdı:

-Sənin ciyərin yansın, necə ki, yazıq azarlı arvadın ciyərini yandırdın.

Bir neçə gündən sonra xalam vəfat elədi. Mən o günü ağlamadım. Ancaq bircə şey heç mənim yadımdan çıxmır. O şeyin adı buzdur.

Yay fəslində arabalarda daşınan ağ buz kərpiclərini görəndə xalam yadıma düşür. Yazıq xalam qızdırmanın içində öldü.

Ölümündən iki gün qabaq bircə tikə buza həsrət qaldı. Kimdir müqəssir? Əlbəttə, mənəm!

Hər bir yay fəsli küçələrdə arabalarda buz görəndə 14 yaşında olduğum zaman it kimi boğuşub azarlı xalamı bir qəpiklik buza həsrət qoyduğum yadıma düşür. Nə qədər uşaq idim, ağlım kəsmirdi. Böyüyəndən sonra həmin buz əhvalatı mənim üçün bir dərd olmuşdu.

*Cəlil Məmmədquluzadə*

- Musanın təqsiri nə idi?
  Nə üçün Musanın hərəkətinə haqq qazandırmaq olmaz?
  Sizcə, Musa necə hərəkət etməli idi?
  Nə üçün Musa hər yay həmin əhvalatı xatırlayırdı?

## Hörümçək və ipəkqurdu

Bir hörümçək özün çəkib durdu.
Dedi fəxr ilə: «Ey ipəkqurdu,
Nə kəsalətlə[1] iş görürsən sən?
Niyə bunca ağır hörürsən sən?
Gəl mənim sənətimdə sürətimi
Görüb iqrar qıl[2] məharətimi[3],
İşə gircək tamamını hörürəm,
Az zamanda necə çox iş görürəm».
Baxdı, güldü ona ipəkqurdu,
Sərzəniş etdi[4], tənələr vurdu[5],
Dedi: «Birfərz[6] olsa hər yerdə
Toxuyursan böyük, kiçik pərdə;
De görüm onların nədir səməri[7],
Bəlkə də hər kəsə çatır zərəri!..
Leyk[8] məndə yox isə də sürət,
Etdiyimi işdə var ağır qiymət.
Aləmə faidə verir karım[9].
Hər kəs istər ola xiridarım»[10].

*Mirzə Ələkbər Sabir*

**Tapmaca**

Bir quşum var balaca,
Gedər qonar ağaca,
Özünə bir ev tikər,
Nə qapı qoyar, nə baca.

---

[1] Kəsalət – burada: tənbəllik
[2] İqrar qıl – təsdiq et
[3] Məharət – bacarıq
[4] Sərzəniş etdi – pislədi
[5] Tənə vurdu – burada: danladı
[6] Bərfərz – tutaq ki
[7] Səmər – burada: fayda
[8] Leyk- lakin, amma
[9] Kar – iş
[10] Xiridar – alıcı, işlədən

- Hörümçək necə lovğalanırdı?
  İpəkqurdu ona nə cavab verdi?
  İpəkqurdunun bizə xeyri nədir?

## Balıqçı və balıq nağılı

*(İxtisarla)*

**I**

Keçmiş zamanlarda bir qoca varmış,
Qoca qarısıyla birgə yaşarmış.
Geniş göy dənizin sahillərində
Köhnə daxmasında, uçuq evində.
Onlar otuz üç il ömür sürmüşdü,
Nə xoş bir güzəran, nə gün görmüşdü.
Qocanın qarısı cəhrə əyirər,
Balığa gedərmiş özü hər səhər.
Bir gün yenə qoca suya tor atdı,
Lakin balıq deyil, o, lil çıxardı.
Torunu boşaldıb yenə də atdı,
Sudan dənizotu dartıb çıxardı.

**II**

O, üçüncü kərə toru çəkərkən,
Toruna bir balıq düşdü dənizdən.
Balıq sadə deyil, qızıl balıqdı.
Elə ki, dənizdən sahilə çıxdı,
İnsan tək danışdı, dil açdı birdən,
Dedi: «Gəl çıxartma məni dənizdən.
Yenə burax suya, rəhm elə mənə,
Könlün nə istəsə, verərəm sənə»,
Qorxudan qocanın rəngi saraldı,
Yazığın canına vəlvələ saldı...
Qarının yanına qayıtdı qoca:
«Möcüzə görmüşəm, - dedi, - olduqca
Qəribə möcüzə. Bu gün tor atdım,
Dənizdən bir qızıl balıq çıxartdım.
Balıq insan kimi dil açdı birdən,
Dedi: - Gəl ayırma məni dənizdən,

Yenə burax suya, rəhm elə mənə,
Könlün nə istəsə, verərəm sənə.
Qorxdum, şey almadım, sözünə baxdım,
Yaxşılıq eyləyib suya buraxdım».

**III**

Söydü, donquldandı, söyləndi qarı:
«Balıqdan bir təknə alaydın barı:
Görmürsən təknəmiz sınıqdır, axmaq!
Sarsaqdan baş verər belə iş ancaq».
Qoca tez dənizə yollandı birbaş,
Gördü dalğalanır su yavaş-yavaş.
Qışqırdı, balığı səslədi, birdən
Balıq üzə çıxdı dərinliklərdən.
Soruşdu: «Ay qoca, nə istəyirsən?»
Qoca baş endirib söylədi ki: «Sən,
Ey balıqlar şahı, mənə rəhm elə.
Qarı bərk dalaşıb indi mənimlə,
Bağırır, - Təknəmiz sınıqdır - deyir,
O, səndən bir yeni təknə istəyir».
Balıq cavab verdi: «Qəm çəkmə, dön, get,
Qoca, arxayın ol, haqqa dua et.
Düzələr sizinçün bir yeni təknə».

**IV**

Qoca dönüb birbaş gəldi evinə,
Gördü komasında yeni təknə var,
Qarının üzündən yağır zəhrimar.
Qarı söydü onu, dedi: «Ay axmaq,
Balıqdan bir təknə istədin ancaq?
Təknə nə şeydir ki, get, əl-əl üstə
Baş endir balığa, ondan ev istə»...
Qayıtdı sahilə qoca həvəssiz,
(Gördü bulanmışdır o mavi dəniz);
Çağırdı, balığı səslədi, birdən
Balıq üzə çıxdı dərinliklərdən.
Soruşdu: «Ay qoca, nə istəyirsən?»
Qoca baş endirib söylədi ki: «Sən,
Ey balıqlar şahı mənə rəhm elə,

Yenə bərk dalaşdı qarı mənimlə.
İndi də yeni bir daxma istəyir, –
Komamız uçuqdur, köhnədir, - deyir».
Balıq cavab verdi: «Qəm çəkmə, dön, get,
Qoca arxayın ol, haqqa dua et.
Get, daxma düzələr! Sən heç darıxma!»

**V**

Qoca gəlib gördü yox olub koma,
Yerində bir gözəl-göyçək daxma var,
Eyvan, kərpic baca, palıd qapılar...
Pəncərə önündə oturub qarı;
Onu görən kimi qudurub qarı,
Ağzına gələni dedi: «Ay axmaq,
Balıqdan bir daxma istədin ancaq?
Qayıdıb baş endir ona, söylə, mən
Çıxmaq istəyirəm rəiyyətlikdən[1],
Keçir ürəyimdən dvoryan[2] olmaq.
Eşitdinmi, daha dayanma, sarsaq!»
Qayıtdı sahilə qoca həvəssiz,
Gördü çalxalanır o mavi dəniz;
O, qızıl balığı çağırdı, birdən
Balıq üzə çıxdı dərinliklərdən.
Soruşdu: «Ay qoca, nə istəyirsən?»
Qoca baş endirib söylədi ki: «Sən,
Ey balıqlar şahı, rəhm elə mənə,
Qarı bərk dalaşdı mənimlə yenə,
O, çıxmaq istəyir rəiyyətlikdən,
Deyir: - «Dvoryanlıq istəyirəm mən».
Balıq cavab verdi: «Qəm çəkmə, sən get,
Qoca, arxayın ol, haqqa dua et».

**VI**

Qoca qarısının yanına döncək
Gördü ki, çox qəşəng, olduqca yüksək
Bir ev tikilmişdir, pillədə qarı
Dayanmış, seyr edir xiyabanları.

---

[1] Rəiyyət – heç bir hüququ olmayan, mülkədara tabe olan kəndli
[2] Dvoryan – Rusiyada böyük torpaq sahibi olan adamlar belə adlanırdı

Əynində qarının xəzdən kürkü var,
Başında zərxara yaylığı parlar,
Boynuna düzülmüş dümağ incilər,
Gün kimi şövq salır parlaq incilər.
Yaxasında qızıl şəfəqli düymə,
Geymiş ayağına qırmızı çəkmə.
Onun dörd yanında nökərlər durur,
Qarı birçəkləyib onları vurur!..
Bir-iki həftədə qarı qudurdu,
Qocanı çağırıb ona buyurdu:
«Balığa get, baş əy, ona söylə sən
Ki, bir padşah olmaq istəyirəm mən».

**VII**

Yönəldi sahilə qoca həvəssiz,
(Gördü ki, qəzəbdən qaralıb dəniz),
O, Qızıl balığı səslədi, birdən
Balıq üzə çıxdı dərinliklərdən,
Soruşdu: «Ay qoca, nə istəyirsən?»
Qoca baş endirib söylədi ki: «Sən,
Ey balıqlar şahı rəhm elə mənə,
Qarım yaman hay-küy salmışdır yenə,
Daha dvoryanlıq gəlmir xoşuna,
İndi də padşahlıq gərəkdir ona».
Balıq cavab verdi: «Qəm çəkmə, sən get,
Qarın padşah olar, haqqa dua et».

**VIII**

Qayıdıb gələndə nə gördü qoca?!
Bir qəşəng saray var, bəzəkli, uca.
Oturmuş arvadı padşah yerində,
Ağalar, əyanlar bütün əmrində.
Hamı baş endirir, xidmət eləyir,
Qarı şərab içir, şirniyyat yeyir.
Yanında qəzəbli keşikçilər var,
Onların çiynində gürzlər, baltalar.
Qoca bunu görüb lap heyran qaldı,
Qorxudan yazığın rəngi saraldı,
Diz çökdü, söylədi: «Böyük hökmdar,

Söylə, razısanmı indi halından?»
Heç əsla baxmayıb ərinə, qarı
Əmr etdi qovsunlar qoca kaftarı»...

**IX**

Bir-iki həftədə qudurdu qarı,
Qəzəblə əmr etdi, qapı qulları.
Ərini tapdılar, dedi: «Qoca, get,
Baş endir balığa, əvvəla salam et!
Daha istəmirəm padşahlıq etmək,
Dənizlər padşahı olam mən gərək,
Dəryalar içində qəsrim qurulsun,
Qızıl balıq gərək nökərim olsun».
Qocanın dinməyə dili gəlmədi,
Arvada etiraz edə bilmədi.
Yönəldi sahilə yazıq həvəssiz,
Gördü tufan qopub, coşubdur dəniz.
Qəzəbli dalğalar coşub gurhagur,
Acıqla səslənib, sanki ulayır,
Qışqırıb balığı səslədi, birdən
Balıq üzə çıxdı dərinliklərdən.

**X**

Soruşdu: «Ay qoca, nə istəyirsən?»
Qoca baş endirib söylədi ki: «Sən,
Ey balıqlar şahı, rəhm elə mənə,
Neyləyim, qudurub o qarı yenə.
Deyir: «İstəmirəm padşahlıq etmək,
Dənizlər padşahı olam mən gərək.
Dəryalar içində qəsrim qurulsun,
Qızıl balıq gərək nökərim olsun».

**XI**

Səs-səmir çıxmadı Qızıl balıqdan,
Ancaq quyruğunu çırparaq, bir an
Dənizdə yox oldu. Qoca bir müddət
Gözlədi, yorulub getdi, nəhayət...
Gördü köhnə koma önündə yenə
Oturmuş qarısı yanında təknə...

*Aleksandr Sergeyeviç Puşkin*

**Atalar sözü:**
Artıq tamah baş yarar.
Aza qane olmayan çoxa çatmaz.
Çox yemək adamı az yeməkdən də qoyar.

● Qızıl balığın söylədiklərini eşidən qarı nə istədi?
Qarı sonra nələr istədi?
Qızıl balıq nə üçün qəzəbləndi?
Bu nağılda şair nə demək istəmişdir?
Şeirin hissələrinə başlıqlar verin.
Qarının ən çox qudurğanlıq etdiyi hissəni oxuyun.

## Çalğıcı Yanko

*(İxtisarla)*

Yankonun on yaşı var idi. O, Polşada yaşayırdı. Yanko arıq və qarayanız idi, qarnı şişkin, yanaqları batıq idi; gümüşü rəngə çalan saçları geniş açılmış iri gözlərinin üstünə düşürdü. O, geydiyi köynəyin üstündən belinə nazik uzun əsgi parçasından kəmər bağlayırdı; başına isə həsir şlayapa qoyurdu. O, şlyapanın əzik kənarları altından başını yuxarı qaldırıb, quş kimi baxırdı.

Onun-bunun evində çətinliklə dolanan anası bəlkə də oğlunu sevirdi, lakin tez-tez döyür və «atılmış uşaq» adlandırırdı. Səkkiz yaşından ikən o, artıq mal-qara otaranlara kömək edirdi; daxmalarında yeməyə bir şey olmayanda meşədən göbələk yığırdı.

* * *

Heç kəs onun böyüyüb boya-başa çatacağına, anasını hər hansı bir işlə sevindirəcəyinə inanmırdı.

Onun musiqiyə böyük həvəsi vardı. Bu həvəsin haradan əmələ gəldiyi məlum deyildi. Hər yerdə onun qulağına musiqi səsi gəlirdi. Yanko bir az böyüyəndən sonra musiqidən başqa heç bir şey barəsində düşünmürdü. Bəzən görürdün ki, meşəyə mal-qara otarmağa, ya da əlinə səbət alıb giləmeyvə yığmağa gedər, lakin geriyə giləmeyvəsiz qayıdar və kəkələyə-kəkələyə deyərdi:

-Orada, meşədə elə musiqi çalınırdı ki...

Anası isə hisrli-hirsli cavab verərdi:

-Mən sənin üçün çalaram, bir dayan!

Doğrudan da, anası onu tez-tez çömçə ilə kötəkləyərdi. Oğlan ağlayıb qışqırır, söz verirdi ki, daha musiqiyə qulaq asmayacaq; ancaq elə bu vaxt meşədə çalınan musiqi haqqında fikirləşərdi. Lakin bu nədir? Şam, fıstıq, ağcaqayın ağacları, sarıköynəklər hamısı musiqi çalırdı; bütün meşə çalırdı.

Əks-səda da çalırdı... Çöldə onun üçün incə otlar musiqi çalırdı, evin yanındakı bağçada isə sərçələrin cikkiltisindən albalı ağacları yırğalanırdı. Axşamlar o, kənddə eşidilən bütün səslərə qulaq asırdı və yəqin ki, ona elə gəlirdi ki, bütün kənd musiqi çalır. O, peyin yığmağa gedərkən külək onun əlindəki yabanı çalırdı.

* * *

Bir dəfə o, saçları dağınıq halda dayanaraq ağac yabaya dəyib səslənən küləyə qulaq asırdı. Nəzarətçi Yankonu gördü və kəmərini açıb onu şappıldatdı. Lakin bu da bir nəticə vermədi. Adamlar onu «Çalğıçı Yanko» adlandırırdılar. Yazda o, özünə tütək düzəltmək üçün çayın kənarına gedərdi. Gecələr qurbağalar quruldayanda, çöldə quşlar oxuyanda, böcəklər vızıldayanda və çəpərlərin arxasında xoruzlar banlayanda o yata bilmir, həmişə qulaq asırdı.

Gecələr kəndin küçələrində gəzən keşikçi qaranlıqda tez-tez gizlicə meyxanaya yaxınlaşan ağ köynəkli Yankonu görürdü. Lakin o, meyxanaya getmirdi, yalnız meyxanaya yaxınlaşırdı. Orada o, divara qısılaraq qulaq asırdı. Əgər ona həmin musiqi alətini heç olmasa əlində tutmağa icazə versə idilər!.. Mümkün idimi?! O, yalnız qulaq asa bilərdi.

O, özü üçün çiləkəndən və at tükündən skripka düzəltdi. Bu skripka meyxanadakı skripka kimi gur səslə çalmırdı. Lakin o, bu skripkanı səhərdən axşama kimi çalırdı.

* * *

Mülkədarın evində skripka vardı. Həmin skripka nökərin idi. Bəzən nökər qulluqçu qadının xoşuna gəlmək üçün axşamçağı skripkanı çalırdı. Yanko skripkaya baxmaq üçün

arabir kolların arası ilə sürünə-sürünə yemək otağının açıq qapısına yaxınlaşırdı. Skripka qapı ilə üzbəüz divardan asılmışdı. O istəyirdi ki, heç olmasa bir dəfə sripkanı əlinə alsın, ona yaxşı-yaxşı baxsın. Belə bir səadət haqqında düşünəndə yazıq uşağın xırdaca ürəyi həyəcandan əsirdi.

Bir dəfə axşamçağı yemək otağında heç kəs yox idi. Ağalar çoxdan xarici ölkələrə çıxıb getmişdilər. Evdə kimsə olmurdu; nökər isə vaxtının çoxunu o biri evdə keçirirdi. Yanko kolların arasında gizlənərək taybatay açıq qapıdan skripkaya baxırdı. Qaranlıqda oğlana elə gəlirdi ki, skripka gümüş kimi parıldayır.

Balaca, büzüşmüş bədən yavaş-yavaş və ehtiyatla irəliləyirdi. Bülbül isə yenə də aşağıda cəh-cəh vururdu, elə bil deyirdi: «Gəl, yeri, götür!».

Köynək ağara-ağara yemək otağına yaxınlaşmaqda idi. Qaralan kollar daha onu gizlətmirdi... Yemək otağının kandarında xəstə uşağın köksündən qopan ağır nəfəs eşidildi. Daha bir neçə dəqiqə keçdi, ağ köynək görünməz oldu. Yanko asta-asta və ehtiyatla skripkaya yaxınlaşdı; lakin onun canına qorxu düşmüşdü. O, yöndəmsiz hərəkət etməyə, tez-tez töyşüyə-töyşüyə nəfəs almağa başlamışdı. Ayın mülayim şəfəqi göyü dolanıb yemək otağını, başını yuxarı qaldıraraq skripkaya baxan, sanki donub qalan Yankonu işıqlandırdı. Lakin şəfəq söndü, ayın üzünü buludlar aldı və daha heç bir şey görünmədi.

* * *

Bir dəqiqə keçəndən sonra kim isə yuxulu bir səslə yemək otağının küncündən acıqlı-acıqlı soruşdu:

-Kimdir?

Yanko nəfəsini saxladı.

Kim isə kibrit yandırdı, ətraf işıqlandı. Sonra isə... Ah, ilahi! Söyüş, zərbə səsləri, uşaq hönkürtüsü. «Vay, daha eləmərəm!» -deyə fəryad edən səs eşidildi. İtlər hürüşdü, pəncərələrdən işıq göründü, bütün evi həyəcan bürüdü.

Səhəri gün yazıq Yanko kəndxudanın məhşkəməsi qarşısında durmuşdu.

Necə etməli, onu bir oğru kimi mühakimə etməlimi? Kəndxuda da, məhkəmə üzvləri də baxıb gördülər ki, qarşılarında balaca, sısqa bir uşaq durub barmağını ağzına soxmuş və qorxudan gözlərini bərəltmişdir.

Kəndxuda dedi:

-Qoy gözətçi onu aparıb çubuqla döysün, vəssalam!

-Bax, bu doğrudur!

Gözətçi Staxı çağırdılar:

-Apar, bunun tənbehini ver!

Stax öz boş başını tərpətdi. Yankonu götürüb pişik balası kimi qoltuğuna vurdu və odun damına apardı. Uşaq heç bir şey başa düşmədiyindənmi, ya bərk qorxduğundanmı, bir kəlmə də olsun danışmırdı; yalnız ələ keçmiş quş kimi baxırdı. Bir də, məgər o bilirdi ki, başına nə açacaqlar?

Yankonu bərk əzişdirdilər...

Onun arıq sinəsi hələ tərpənirdi; oğlan açıq pəncərədən gələn səslərə qulaq asırdı. Çay tərəfindən tütək səsi gəlirdi. Yanko sonuncu dəfə kənd musiqisini dinləyirdi. Onun yanında özünün çiləkəndən düzəltdiyi skripka qoyulmuşdu. Balaca çalğıçının gözləri açıq, lakin hərəkətsiz idi; üzündəki təbəssüm yox olmuşdu. Donuq sifəti olduqca qəmgin idi... Günəşin şüası da sönmüşdü...

*Henrix Senkeviç*

● Yanko hansı ailədə anadan olmuşdu?
Yanko yarpaqlara, otlara, küləyə nə üçün qulaq asırdı?
Evə girməkdə Yankonun məqsədi nə idi?
Yankoya skripka versəydilər, necə adam olardı?
Yankonun qabiliyyətli, yaxşı oğlan olduğunu nələrdən görmək olur?
Ölkəmizdə uşaqların qabiliyyətini inkişaf etdirmək üçün hansı şərait yaradılmışdır?
Yankonun musiqiyə həvəs göstərdiyi hissəni oxuyun.

## Qarğa və tülkü

Pendir ağzında bir qara qarğa
Uçaraq qondu bir uca budağa.
Tülkü görcək yavaş-yavaş gəldi,
Endirib baş, ədəblə çömbəldi.
Bir zaman həsrət ilə qarğa sarı,
Altdan-altdan marıtdı[1] baş yuxarı.
Dedi: «Əhsən[2] sənə, a qarğa ağa!
Nə nəzakətlə[3] qonmusan budağa.
Bəzədin sən bu gün bizim çəməni,
Şad qıldın[4] bu gəlməyinlə məni.
Nə gözəlsən, nə xoşliqasan[5] sən!
Yeri var söyləsəm hümasan[6] sən!
Tüklərindir ipək kimi parlaq,
Bədnəzərdən vücudun olsun iraq[7]!
Bu yəqindir ki, var sevimli səsin,
Oxu, versin mənə şəfa[8] nəfəsin!»
Böylə sözdən fərəhlənib qarğa,
Ağzını açdı ta ki[9], etsin «qa».
«Qa» edərkən hənuz[10] bircə kərə,
Pendiri dimdiyindən endi yerə.
Tülkü fövrən[11] havada qapdı, yedi,
Qarğaya tənə ilə böylə dedi:
«Olmasaydı cahanda[12] sarsaqlar,
Ac qalardı, yəqin ki, yaltaqlar».

*Mirzə Ələkbər Sabir*

---

[1] Marıtdı – göz dikdi, gözünü ondan çəkmədi
[2] Əhsən – afərin
[3] Nəzakətlə – ədəblə, mərifətlə
[4] Şad qılmaq – şad eləmək
[5] Xoşliqa – xoşüz, xoşsifət
[6] Hüma – əfsanəvi gözəl quş
[7] İraq – uzaq
[8] Səfa – kef, ləzzət
[9] Ta ki – elə ki
[10] Hənuz – ancaq
[11] Fövrən – o dəqiqə, dərhal
[12] Cahan – dünya, aləm

- Qarğa nə üçün aldandı?
  Tülkünün xasiyyətini bildirən hissəni oxuyun. Onun xasiyyəti haqqında daha nə bilirsiniz?
  Şeirin axırıncı iki misrası ilə şair nə demək istəyir?
  Yaltaqlıq nə üçün pis xüsusiyyətdir?
  Şeiri əzbərləyin.

**Oxumaq həvəsi**

Doğma Bakıdan uzaqda, Şərq ölkələrindən birinin paytaxtında idim. Yaşadığım mehmanxana Aralıq dənizinin lap sahilində tikilmişdi.

Adət etdiyim kimi bu gün də səhər tezdən durmuşdum.

Bu dəm mehmanxanaya lap yaxın olan binanın qarşısında dörd uşaq çıxdı. Biri oğlan, üçü qız idi. Təxminən doqquz-on yaşlarında olardılar.

İçərisində balaca oğlanlar olan bir avtobus gəldi. Qızların yanındakı oğlan maşına əyləşdi. Qızlardan ən böyüyü əlini yellədi. Maşın uzaqlaşdı.

Bir neçə dəqiqədən sonra içərisində qızlar olan avtobus gəldi. Qızlardan ikisi maşına əyləşdi. Bayaq oğlan üçün əlini yelləyən qız yenidən həmin hərəkəti təkrar etdi. Maşın gözdən itənə qədər qız dayanıb baxdı. Onun gözlərində həsrət, kədər var idi. Sonra o, geri qayıtdı.

Məni fikir götürmüşdü. Bəs bu qız niyə məktəbə getmədi? Bu balaca gözətçi kimdir?

Dərsə getməyən qız haqqında düşünə-düşünə otağıma qayıtdım.

Fikirləşdim ki, günorta uşaqlar dərsdən qayıdan vaxt onları yenə görərəm. Bəlkə o qız ikinci növbədə oxuyur? Bələdçidən öyrəndim ki, burada məktəblər pulludur; oğlanlar qızlardan ayrı oxuyurlar. Məktəblər şəhərdən uzaqda yerləşir, hər səhər uşaqları ayrıca maşınlar aparır. Valideynlər təhsil pulundan savayı, həm də maşın üçün pul verirlər.

* * *

Ertəsi gün bir az tezdən oyanmışdım. Aşağı düşdüm. Günəş doğmuşdu. Hələ uşaqlar görünmürdülər. Əl arabalarında müxtəlif şeylər: xurma, alma, banan, portağal satan, ayaqqabı silən uşaqlar gəlib yanımdan keçirdilər.

Budur, yenə də qabaqda oğlan, sonra iki qız, onların dalınca da dünənki qaragöz, qıvrımsaç qız çıxdı. Daldakı qızın əlinə baxdım. Onun da əlində çanta var idi. «Nə yaxşı! Yəqin dünən xəstələnibmiş. Bax, bu gün dərsə gedir» - düşündüm.

Bir qədər də yaxına gəldim. İndi uşaqları lap aydın görürdüm. Qızların ikisi səliqə ilə geyinmiş, saçlarına ağ lent bağlamışdılar. Üzlərindən sevinc yağırdı. O biri qızın da qara, qıvrım saçları hörülmüş, lakin lent bağlanmamışdı. Üst-başı nimdaş idi. Dünənkindən də yorğun və solğun görünürdü.

Oğlan xeyli təkəbbürlü idi. Dünən dərsə getməyən qız onun qayğısına qalırdı. Fikir verdim ki, oğlanın çantası yoxdur.

Yenə dünənki avtobus gəldi. Qızlardan böyüyü əlindəki çantanı oğlana verdi. Oğlan eyni təkəbbürlə maşına oturdu. Maşın uzaqlaşdı. Bir azdan iki qız da maşına oturub getdi. Qız yenə də dayanıb məlul-məlul avtobusun dalınca baxdı, baxdı.

Uzaqlaşıb getmək istəyirdi ki, ona yaxınlaşdım:

-Salam, qızım! – dedim.

Qız dönüb baxdı. Məni görcək «Salam, sabahınız xeyir, xanım!» - deyə, cavab verdi.

Sanki ürəyimin telləri qırıldı. Uşaqlar mənə «müəllim» - deyə, müraciət edirdilər. Bu söz həmişə qəlbimi qürur hissi ilə doldurur. İndi bu balaca qızın dilindən «xanım» sözünü eşidəndə bir daha dördmərtəbəli məktəbimiz, işıqlı sinif otaqları, «salam, müəllim» - deyə, mənə müraciət edən şagirdlərim yadıma düşdü. Bir anlığa hər şeyi – qarşımda dayanıb gözləyən bu qızı da, lap yaxınlığımda sahil qumlarını yalayıb geri qayıdan dalğalı dənizi də, küçələrdə çoxalan adamları da unutdum.

-Xanım, nə buyurursunuz?

Sual məni xəyaldan ayırdı.

-Qızım, sənin adın nədir?

-Zeynəbdir, xanım, bəs siz kimsiniz?

-Mən müəllimə m. Bəs sən niyə qardaşın, bacıların kimi dərsə getmədin?

-Xanım, onlar mənim bacılarım, qardaşım deyildilər. Mən onların qulluqçusuyam. Özüm də oxumuram.

-Zeynəb, qızım, sənin neçə yaşın var ki, qulluqçuluq edirsən? Məgər anan-atan yoxdur?

-Atam da, anam da var. Ancaq atamın qazandığı pul ailəmizə çatmır. Biz yeddi nəfərik. On bir yaşım var. Məndən kiçik bacım da qulluqçuluq edir. Qardaşım da ayaqqabı silir. Pulumuz heç yeməyə çatmır. O ki, qaldı oxumaq olsun... Heç birimiz oxumuruq. Ancaq elə oxumaq istəyirəm ki... Hər səhər Samirin çantasını aparanda ürəyim elə vurur ki... Bilirsiniz, evdə mənim də çantam var. Samirin keçənilki çantasını xanım atmağı əmr etmişdi. Mən də gizlincə evimizə aparmışam. Hələ içində kitablar da var. Onlar da Samirin köhnə kitablarıdır. Evimizə gedən kimi çantanı götürür, içindəki kitablara baxır, yenə yerinə qoyuram. Heç kimə vermirəm. Xanım, böyüsəm, işləsəm, pulum olsa, məni məktəbə qoyarlarmı?

Zeynəb bütün bu sözləri birnəfəsə dedi. Mən də dayanıb ona baxırdım. Bu balaca qızın oxumaq arzusu qəlbimi titrətdi. Mən əl çantamdan oktyabryat nişanını çıxarıb, Zeynəbin yaxasına sancmaq istədim.

-Yox, xanım, ver mənə, onu gizlədəcəyəm. Yoxsa məndən alarlar. Sağ olun, sağ olun! – deyə, o, uzaqlaşdı.

Zeynəb gözdən itənədək dayanıb arxasınca baxdım...

* * *

Şəhərdə qalacağım axırıncı gün idi. Hələ gecədən Zeynəbə bağışlamaq istədiyim şeyləri hazırlamışdım. Bunlar bir qutu rəngli karandaş, Bakının mənzərəli yerlərini əks etdirən şəkillər, üstündə qırmızı xalları olan ağ lent, bir də şokolad bağlısı idi.

Yenə həmin vaxtda aşağı düşdüm.

Avtobuslar gəlib uşaqları apardı. İndi Zeynəbin gözləri məni axtarırdı. Yaxınlaşıb əlimdəki bağlamanı ona verdim.

-Mən daha gəlməyəcəyəm. Bu gün gedirəm. Bakıya gedirəm. Böyük qız ol! Məni unutma!

Onu qucaqlayıb qara gözlərindən, qıvrım saçlarından öpdüm, öpdüm...

-Yox, xanım, getmə! Sən yaxşısan! Mən səni unutmayacağam! Hər səhər gözləyəcəyəm! Bax! - o, əlini açdı. Ovcundakı mənim bağışladığım oktyabryat nişanı idi. Qırmızı ulduz Zeynəbin balaca ovcunda sanki alışıb yanırdı, şəfəq saçırdı. -Sənin hədiyyəni saxlayıram, heç kimə, heç kimə vermərəm. Xanım desə də, vermərəm.

-Sağ ol, Zeynəb! Mənim də qızlarım, şagirdlərim var. Onlar da mənim üçün darıxırlar. Mən də səni həmişə xatırlayacağam. İndi isə get, qızım!

Mən yenidən onu öpdüm... Zeynəb mənə baxdı. Gözlərindən iri yaş dənələri tökülürdü. Atılıb boynuma sarıldı. Üzümdən öpdü. Sonra geriyə baxmadan, verdiyim bağlamanı ürəyinin başına sıxaraq qaçdı.

Ancaq indi ana qəlbim, müəllim qəlbim dözə bilmədi. Zeynəbin dalınca baxa-baxa gözlərimdən yaş axdı.

«Eh, Zeynəb, Zeynəb! Kaş sənə kömək edə biləydim» - fikirlə otağıma qayıtdım...

* * *

İndi hər səhər işıqlı, geniş dərs otaqlarına girir, «Salam, uşaqlar!» - deyə gülərüzlü, xoşbəxt şagirdlərimlə salamlaşıram. Onlara baxdıqca bir cüt kədərli göz – Zeynəbin gözləri yadıma düşür...

● Hekayənin müəllimin dilindən yazıldığını nədən görmək olur?
Müəllimin sovet məktəbində işlədiyini hekayədə nədən bilmək olur?
Zeynəb nə üçün oxumurdu?
Görüşün kapitalist ölkəsində olduğu nədən bilinir?
Kapitalist ölkələrində kasıbların uşaqları nə üçün oxumurlar?

Sovet uşaqları ilə kapitalist ölkələrində yaşayan uşaqlar arasında fərq nədən ibarətdir?
Hekayəni yığcam nağıl edin.

## Biləndər

*(Azərbaycan xalq nağılı)*

Qədim zamanlarda Gəncə şəhərində bir oğlan yaşayırdı. Ağıllı və hazırcavab olduğundan hamı ona Biləndər deyərdi. O bir dəfə qala divarının yanında yoldaşları ilə oynayırdı. Bir də gördü ki, qoltuğunda xoruz tutub eşşəyin üstündə oturmuş bir nəfər onlara tərəf gəlir. Kəndli paltarı geymiş bu adam qonşu ölkənin vəziri idi. Vəzir çox tədbirli və hazırcavab idi. Ona görə də padşah onu tez-tez başqa ölkələrə danışığa göndərərdi. Vəzir həmişə sual-cavabda qalib gələr və o yerin hökmdarından yüz qızıl alıb geri qayıdardı. Bu dəfə padşah onu Gəncə hökmdarının yanına göndərmişdi.

Vəzir uşaqları səslədi. Biləndər irəli keçib soruşdu:

-Nə buyurursunuz, əmi?

-De görüm bu şəhərin böyüklərini harada görmək olar?

-Gedək, mən sizə göstərim.

Bir qədər gedəndən sonra Biləndər bir karvansaranın qabağında dayandı:

-Bax, əmi, bizim şəhərdə böyüklər burada yaşayırlar. Odur ey, özləri də orada durublar.

Vəzir Biləndərin göstərdiyi tərəfə baxanda üç-dörd dəvə görüb ucadan güldü:

-Ay ağılsız uşaq, bu cür böyüklər yox ey, mən deyənlərin uzun saqqalı olur, - deyə, öz saqqalını göstərdi.

-Hə, başa düşdüm, gedək.

Onlar gəlib bir həyətə çatdılar. Biləndər keçib tövlənin qapısını açdı. Oradan beş-altı keçi çıxdı:

-Əmi, bizim şəhərdə bunlardan uzun saqqallı yoxdur.

Söz güləşdirməyə alışan vəzir bərk acıqlandı:

-Buna bax, bir qarış boyu ilə məni dolayır. Böyük deyəndə dəvə, saqqallı deyəndə keçi göstərir. Mən danışmağa adam axtarıram, bildin?

-Nə? Adam axtarırsınız? Adam mən, elə mənimlə danışın da.

Əlacı kəsilmiş vəzir deyir:

-Adama bax, gör kiminlə danışmaq istəyir? Yaxşı, biz uzaq yerdən gəlib acmışıq. Bircə dinar da pulum var. Bu bir dinara nə alım ki, həm özüm, həm xoruzum, həm də eşşəyim yeyə bilsin.

Biləndər gözlərini qıyıb başını qaşıya-qaşıya cavab verir:

-Gedək, əmi! Mən elə bir şey alaram ki, üçünüz də yeyərsiniz.

Onlar bazara gəldilər. Biləndər təpə kimi qalanmış yemişlərdən birini seçib vəzirə verir:

-Buyurun, lap siz deyən şeydir. İçini özünüz yeyin, toxumlarını xoruzunuza verin, qabığını da atın eşşəyə!

Özünü hamıdan ağıllı hesab edən vəzir öz-özünə dedi:

-Bir şəhərin ki, uşaqları bu qədər ağıllı ola, gör böyükləri necə olar!

O, fikirləşib, əliboş geri qayıdır.

**Atalar sözü:**

Ağıl yaşda deyil, başdadır.

- Vəzir nə üçün başqa hökmdarların torpağını gəzirdi?
  Biləndər onun suallarına necə cavab verdi?
  Vəzir nə vəziyyətdə qayıtdı?
  Hazırcavab olmaq üçün nə lazımdır?
  Nağılı danışın.

### Kirpinin cavabı

*(Təmsil)*

İlan bir gün Kirpidən
Soruşdu ki: - Söylə bir,
Niyə məni heç kəsin
Gözü görmək istəmir?
Amma baxıram, sənə
Hörmət edir çoxları.

Bu sirri mənim üçün
Özün açıb de, barı!
Çox qorxulu deyiləm,
İki dənə dişim var.
Səndə isə, özün bax,
Saya gəlmir tikanlar.
Arxayın dolanırsan,
Öldürməyirlər səni.
Amma fürsət gəzirlər
Məhv eləməkçün məni.

* * *

Kirpi dedi: - Ay İlan,
Olsa da iki dişin,
Qəfildən başqasını
Sancmaqdır sənin işin.
Saysız şiş tikanlarım
Olsa da, hər zaman mən
Qoruyuram özümü
Yalnız düşmənlərimdən.
Toxunmaram, dəymərəm
Mənə dəyməyənlərə.
Axıtmaram əsla qan
Nahaq yerə, boş yerə.

* * *

Bu sözlərdən tutulub,
İlan keçdi qabağa.
Yığılıb cəld atıldı
O, Kirpini sancmağa.
Tikanları şişləyib
Qoçaq Kirpi də bu an,
Tutdu xain İlanı
Dişilə quyruğundan.
İlan çox qəzəb ilə
Vurnuxduqca hər yana,
Dəyib şiş tikanlara
Boyandı o, al qana.

*Hikmət Ziya*

**Atalar sözü:**
Sirkə nə qədər tünd olsa, öz qabını sındırar.

● Kirpi ilanı nə üçün sevmirdi?
O, ilanı necə cəzalandırdı?
Şair «kirpi» və «ilan» dedikdə necə adamları nəzərdə tutur?
Şeirin əsas mənasını izah edin.

## Üç qardaş

*(Özbək xalq nağılı)*

Biri var idi, biri yox idi, bir kişi və onun üç oğlu var idi. O, tez-tez oğullarına deyərdi:

-Uşaqlarım, bizim nə sürümüz, nə qızılımız, nə də bir başqa mal-qaramız vardır. Özünüz öz qeydinizə qalın; çalışın hər şeyi dərindən öyrənəsiniz. Belə olsa, heç bir çətinlik sizi qorxutmaz.

Bir qədər sonra ata öldü. Qardaşlar yığılıb məsləhətləşdilər, qərara gəldilər:

-Bizim burada bir işimiz yoxdur. Yaxşısı budur, gedib dünyanı gəzib-dolanaq. Yad ellərdə çoban, nökər olarıq – acından ölmərik. Qardaşlar səfərə çıxdılar. Onlar dərin dərələrdən, uca dağlardan aşıb gedirdilər. Az getdilər, çox getdilər – qırx gün yol getdilər. Götürdükləri çörəyin hamısını yedilər, yorulub lap əldən düşdülər. Ancaq yol hələ də uzanıb gedirdi, axırı görünmürdü. Nəhayət, qabaqlarına bir şəhər çıxdı. Qardaşlar sevindilər, addımlarını sürətləndirərək dedilər:

-Artıq pis günlər keçib getdi, yaxşı günlər qabaqdadır.

* * *

Qardaşlar gedirdilər. Birdən qabaqda gedən böyük qardaş dayandı, yerə baxıb dedi:

-Bir az əvvəl buradan böyük dəvə keçib.

Onlar bir az yol getmişdilər ki, ortancıl qardaş dedi:

-Bu dəvənin bir gözü kormuş.

Az sonra kiçik qardaş dedi:

-Bu dəvənin üstündə qucağında körpə uşağı olan bir arvad varmış...

Qardaşlar yollarına davam etdilər. Belində qılınc olan bir nəfər atlı onların qabağına çıxdı. Bu adam qardaşların üçünə də diqqətlə baxdı. Böyük qardaş ona dedi:

-Ey yolçu, deyəsən, bir şey axtarırsan?

-Bəli!

-İtən dəvədirmi? - deyə, böyük qardaş soruşdu.

-Dəvədir.

Ortancıl qardaş soruşdu:

-Dəvənin sol gözü kor idimi?

-Bəli!

-Dəvənin üstündə, qucağında balaca uşaq olan arvad oturmuşdumu? - deyə, kiçik qardaş soruşdu.

Atlı, qardaşlardan şübhələnərək dedi:

-Aha! Demək, mənim dəvəm sizdədir! Deyin görüm dəvəmi harada gizlətmisiniz? Arvad-uşağımın başına nə iş gəlib?

-Biz sənin dəvənin üzünü də görməmişik, - deyə, qardaşlar ona cavab verdilər.

-Əgər görməmisinizsə, bütün nişanələr sizə haradan məlumdur?

-Biz bunları öz ağlımıza vurub bu qərara gəlmişik. Tez bu tərəfə get, axtarıb dəvəni taparsan, - deyə, qardaşlar ona cavab verdilər.

-Xeyr, mən o tərəfə gedən deyiləm! Dəvənin yerini deyin!

Qardaşlar yenə də dedilər ki, onlar dəvənin üzünü görməyiblər. Ancaq atlı onlara qulaq asmaq istəmədi. O, qılıncını çəkib qardaşlara əmr etdi ki, düşsünlər onun qabağına. O, qardaşları saraya, padşahın yanına gətirdi və əhvalatı ona danışdı.

* * *

Padşah diqqətlə qulaq asıb dedi:

-Əgər onlar özləri sənə dəvənin bütün əlamətlərini sayıblarsa, onda yəqin dəvəni gizlədiblər. Oğruları gətirin buraya!

Dəvə sahibi çıxıb üç qardaşı içəri gətirdi.

-Ey, oğrular! - deyə, padşah qəzəblə qışqırdı, - siz bu kişinin dəvəsinin başına nə iş gətirmisiniz?

-Biz bu kişinin dəvəsinin üzünü də görməmişik, - deyə, qardaşlar cavab verdilər.

Padşah dedi:

-Siz özünüz dəvənin bütün əlamətlərini saymısınz. Siz necə cürət edib təqsiri boynunuza almırsınız?

-Padşah sağ olsun, - deyə, qardaşlar cavab verdilər, - burada heç bir təəccüblü şey yoxdur. Biz uşaqlıqdan hər şeyi dərindən öyrənməyə alışmışıq, fikirləşib çox şeyi ayırd edə bilirik; ağlımızı işlədib işin nə yerdə olduğunu başa düşürük. Buna görə də biz dəvənin üzünü görməyə-görməyə onun bütün əlamətlərini bildik.

Padşah güldü:

-Heç vaxt görmədiyiniz bir şeyi fikrləşməklə necə tapa bilərsiniz? Yaxşı, biz indicə sizi yoxlayarıq, görək düz deyirsiniz, ya yox!

* * *

Padşah öz vəzirini çağırıb qulağına nə isə dedi.

Vəzir o saat saraydan çıxdı. Az keçmədi ki, böyük bir sandıq gətirən iki nökərlə qayıdıb gəldi. Qardaşlar uzaqdan nökərlərin sandığı haradan gətirdiklərinə diqqətlə baxırdılar.

Padşah dedi:

-Hə, tapın görək bu sandığın içində nə var?

Böyük qardaş dedi:

-Bu sandığın içində balaca, girdə bir şey var.

-O, nardır, - deyə, ortancıl qardaş əlavə etdi.

-Özü də hələ yaxşı yetişməyib, - deyə, kiçik qardaş dilləndi.

Padşah əmr etdi:

-Sandığı buraya gətirin!

Sandığı gətirdilər. Padşah sandığı açıb içinə baxdı. Sandıqda, doğrudan da, bircə dənə kal nar var idi. Padşah narı götürüb oradakılara göstərdi və üzünü dəvəsini itirən kişiyə tutub dedi:

-Yox, bu adamlar oğru deyillər. Onlar elə, doğrudan da, yaxşı bilicidirlər. Get, öz dəvəni başqa yerdə axtar.

Padşah cürbəcür yeməli şeylər gətirib qardaşları qonaq elədi və sonra dedi:

-Sizin heç bir təqsirinz yoxdur. Siz hara istəyirsiniz, gedə bilərsiniz. Ancaq əvvəlcə deyin görüm, bu adamın dəvəsini itirməsini nədən bildiniz?

* * *

Böyük qardaş dedi:

-Yolun üstündəki böyük izdən bildim ki, qabağımızca buradan bir dəvə keçib, bu adamın da dəvəni axtardığını ondan bildim ki, gözü dörd idi, o tərəfə bu tərəfə baxırdı.

Padşah ortancıl qardaşdan soruşdu:

-Sən nədən bildin ki, dəvənin sol gözü kordur?

-Mən ona görə bu qərara gəlmişdim ki, yolun sağ tərəfindəki ot yeyilmiş, sol tərəfindəki ota isə dəyilməmişdi.

Padşah soruşdu:

-Yaxşı, bəs dəvənin üstündə qucağında körpəsi olan arvadın oturduğunu deyən hansınız idi?

Kiçik qardaş dedi:

-Onu mən demişəm. Mən gördüm ki, dəvə bir yerdə dizi üstə qumun üstünə çökmüş, dincəlmək üçün oturan adamın dizi yerdə qalmışdı. Bu adamın oturuşuna görə mən bildim ki, bu, qadındır, ondan kiçik izə görə də bildim ki, onun yanında uşaq varmış.

* * *

Padşah dedi:

-Bütün bunlar doğrudur! Bəs siz sandığın içində bircə dənə kal nar olduğunu necə bildiniz?

-Sandığı iki nökər gətirirdi, - deyə, böyük qardaş cavab verdi, - ancaq sandığın lap yüngül olduğu bilinirdi. Nökərlər sandığı yerə qoyanda mən eşitdim ki, sandığın bu başından o başına nə isə bir şey diyirləndi.

-Mən də fikirləşdim ki, bağdan gətirilən sandığın içində yumru bir şey varsa, bu ancaq nar ola bilər, - deyə, ortancıl qardaş əlavə etdi:

-Doğrudur! - Padşah üzünü kiçik qardaşa tutub soruşdu: - Yaxşı, bəs sən haradan bildin ki, bu nar kaldır?

-İndi ilin elə fəslidir ki, nar hələ yetişməyib, yamyaşıldır.

* * *

Padşah qardaşların biliciliyinə və ağlına heyran qalıb dedi:

-Sizin varınız-dövlətiniz yoxdursa da, ağıldan, kamaldan varlısınız.

**Atalar sözü:**
Ağıl ağıldan üstün olar.

● Ata həmişə oğullarına nə deyərdi?
Ata öləndən sonra qardaşlar nə üçün səfərə çıxdılar?
Qardaşları nə üçün tutub saraya gətirdilər?
Qardaşlar dəvənin yol ilə getməsini və sandığın içində narın olmasını nədən bildiklərini necə izah etdilər?
Ən çox xoşunuza gələn hissəni oxuyun.

### Kəndli və muzdur

Bir kəndli muzdur ilə axşam üstü biçindən
Qayıdırdı evinə qalın meşə içindən.
Qaranlıqda ayı ilə gəldi burun-buruna,
«Ax» da deyə bilmədi, ayı mindi boynuna.
Xışmalayıb kəndlini pəncəsiylə əzirdi.
Möhkəm yapışmaq üçün münasib yer gəzirdi.
Gördü işi əngəldir, birdən bağırdı: «Aman!
Öldürdü məni ayı, kömək elə, Stepan!»
O yalvardı muzdura, çox çəkdi minnətini,
Cavan muzdur topladı bütün var qüvvətini;
Balta ilə ayının böldü qafa tasını[1],
Soxdu yoğun qarnına o, dəmir yabasını.
Bağıraraq yıxıldı, qopardı ayı şivən,
Ölümdən qurtularaq kəndli qalxdı yerindən,

---

[1] Qafa tası – kəllə

Muzduru söydü. O da şaşqın-şaşqın[1] baxaraq
Dedi: - Neçin söyürsən?
- Çünki axmaqsan, axmaq!
Yaxşı kürk çıxacaqdı ayının dərisindən,
Deşik-deşik oldu o, neyləyim, de, indi mən!»

*İvan Andreyeviç Krılov*

**Atalar sözü:**
Keçi can hayındadır, qəssab piy axtarır.
Pis adam yaxşının qədrini bilməz.

● Ayıya rast gələndən sonra Stepana kəndli nə üçün yalvardı?
Stepan ona necə kömək etdi?
Kəndli Stepanı nə üçün söydü?
Kəndli yaxşılığına görə Stepana nə deməli idi?

## Qəhrəmanın heykəli

Kamilə «Uzaq sahillərdə» filminə baxandan sonra böyük qardaşı Səlimdən soruşdu:

-Mehdi Hüseynzadəni tanıyırsan?

-Əlbəttə, tanıyıram!

-Onun haqqında filmə baxmısan?

-Baxmışam!

-Mən də onun kimi qəhrəman olmaq istəyirəm.

-Kim, sən?! - Səlim kitabdan ayrıldı. Təəccüblə arıq, ağbəniz bacısına baxıb ucadan güldü:

-Səndən qəhrəman olar? Sən ki, pişikdən də qorxursan? Qəhrəman ha… həm də Mehdi kimi! Özünə bir bax, arıq qızsan.

-Niyə gülürsən? Zoya da arıq qız idi...

-Ancaq qoçaq idi. Kinoda gördün, Mehdi nə qədər faşist öldürdü? Gördün, görmədin?

-Gördüm.

-Sən heç güllə də ata bilmirsən!

---

[1] Şaşqın-şaşqın – çaşqın

-Nə olar, öyrənərəm də…

Bu söhbətdən bir neçə gün sonra Kamilə qardaşına gözəl bir albom göstərdi. Alboma Mehdi Hüseynzadənin şəkilləri toplanmışdı. Səlim ona baxıb güldü:

-Yenə də Mehdi kimi qəhrəman olmaq istəyirsən.

-İstəyirəm!

-Bum… Bum… hə, qorxdun? Bəs güllələr vıyıldayanda nə edəcəksən, ay qəhrəman qız?

Kamilə hirsini gizlətməyə çalışdı, albomu ondan alıb qaşqabaqla öz otağına çəkildi.

Günlər keçdi. Bir dəfə məktəbin direktoru hamının yanında Kamiləni təriflədi, dedi ki, qoçaq qızdır. «Qoçaq ha!» Səlim qulaqlarına inanmaq istəmədi. Sən demə, Kamilə birinci sinif uşaqlarını hər gün evlərinə aparıb ötürürmüş. Bir neçə gün sonra bacısının televizorda çıxışına qulaq asdı. Sonra onun Mehdi Hüseynzadənin heykəlinin açılışında şeir dediyini, heykəlin qarşısına bir dəstə gül qoyduğunu gördü.

Səlim Kamilənin ondan incidiyini duyurdu. Hərdən evdə zarafatla deyirdi:

-Deyəsən, yavaş-yavaş qəhrəman olursan, Kamilə?!

...Mehdi Hüseynzadənin heykəlinin qarşısında bir dəstə məktəbli sıra ilə düzülmüşdü. Onların arasında Kamilə də vardı. O, bu gün pioner sıralarına qəbul olunurdu. Səlim də gəlib oraya çıxmışdı. Dayanıb bacısına baxırdı. Kamilə irəli çıxdı, üzünü sinəsi orden və medallarla bəzənmiş generala tutub həyəcanla şeir oxudu:

*İstəyirəm bu heykəli*
*Gül-çiçəkli bəzəyim,*
*İstəyirəm Mehdi kimi*
*Qəhrəmana bənzəyim!*

Hamı əl çaldı. General Kamiləyə yaxınlaşıb pioner qalstukunu onun boynuna bağladı. Sonra qızı azca yuxarı qaldırıb alnından öpərək dedi:

-Sağ ol, qızım! Sənin ki, ürəyində belə böyük bir arzun var, sən o arzuna çatacaqsan.

Kamilə qızların yanına qayıdanda gözü Səlimə sataşdı. Səlim uzaqdan-uzağa bacısını təbrik edirdi.

*Tofiq Mahmud*

- Kamilə nə arzulayırdı?
  O, öz arzusuna çatmaq üçün necə səy göstərirdi?
  Kamilənin arzusuna qardaşının münasibəti barədə nə deyə bilərsiniz?
  Qəhrəmanlığın adi günlərdə, adi işlərdə də mümkün olduğunu sübut edin.

**Gicitkən**

Yaxına buraxmırdı
Gicitkən heç bir kəsi.
Eşitsəydi bir qoyun,
Ya da bir quzu səsi,
Körpə tikanlarını
Qabardıb dayanardı,
Kim dadsa, dili-ağzı
Alışardı, yanardı.
Gülüb ürəkdən bu an,
Xoşlanardı Gicitkən.
Gəl ki, bu gün istidən
Yaman pis günə düşdü,
Yarpaqları bürüşdü…
-Qoymayın, soluram mən,
Artıq məhv oluram mən! –
Deyib haray salsa da,
Olmadı yaxın duran.
Vaxtilə hamını bərk
Dalamışdı Gicitkən.

*Hikmət Ziya*

**Atalar sözü:**
Nə tökərsən aşına,
O çıxar qaşığına.

- Gicitkən nə üçün köməksiz qaldı?
  Nə üçün həmişə yaxşılıq etmək lazımdır?
  Şeiri ifadəli oxuyun.

**Alicənablıq**

*(Tacik xalq nağılından)*

Keçmiş zamanlarda bir köçəri ərəbin çox oynaq və gözəl atı var idi. Ərəbin işi-peşəsi ata qulluq etmək idi. O, var-yoxunu itirib lat-lüt qaldı və atını satmaq qərarına gəldi. Ata min qızıl pul, iyirmi qoyun və qiymətli ipək paltarlar yüklənmiş iyirmi dəvə qiymət qoydu. Ərəb and içdi ki, atı bundan ucuz qiymətə satmayacaqdır.

Xeyli vaxt keçdi. Bu qiymətə atı alan olmadı. Atın sorağı ərəblərin əmirinə çatdı. O fikirləşərək dedi: «İnsanın ömrü uzun deyil, bütün şənliklərdən istifadə etmək lazımdır. O atı mən alıram».

O, lazım olan şeyləri yığdı, etibar etdiyi bir adam çağırıb dedi:

-Atın əvəzinə istənilən hər şeyi hazırlamışam. O adamın yanına get və atı ondan al.

Əmirin adamı pulları və karvanı götürüb ərəb yaşayan səhraya yönəldi. Xeyli yol gedib axırda köçəri ərəbin yaşadığı yerə gəlib çatdı. Atın cilovu dirəyə bağlanmışdı. Bütün tayfa hara isə köçmüş, təkcə bu ərəb öz atı ilə orada qalmışdı. Əmirin elçisi öz adamları ilə çadıra yaxınlaşıb, ərəbə salam verdilər və onun qonağı oldular.

Qonaqları yedirmək üçün ərəbin heç bir şeyi olmadığından o, sevimli atını kəsməli oldu. Atın ətini bişirib qonaqların qabağına qoydu. Ertəsi gün əmirin elçisi ev sahibinə dedi:

-Qardaşım, biz eşitmişik ki, bu yerlərdə çox baha qiymətə bir at satılır. Mən onu almağa gəlmişəm.

Ərəb bir qədər susdu, sonra dedi:

-Sənin almaq istədiyin atın sahibi mənəm. Amma sizi qonaq eləmək üçün atı bu gecə kəsmişəm. Siz onun ətini yemisiniz.

Əmirin elçisi heyrətdən barağını dişlədi. Sonra ərəbə razılıq etdi, atı almaq üçün gətirdiyinin hamısını ona verib geri qayıtdı.

Təyin olunmuş gün əmir öz adamları ilə elçini qarşılamağa çıxdı. Əmir baxıb gördü ki, nə at var, nə də karvan. O, elçini çağırıb dedi:

-Qardaşım, nə olmuşdur ki, sən nə atı, nə də karvanı gətirmisən?

Elçi söylədi:

-Ey yerin-göyün hökmdarı, biz səhraya çatıb yanına at bağlanmış bir çadıra rast gəldik. Çadır sahibi köçəri tayfasından idi. Onun tayfası başqa yerə köçmüşdü. Çadır sahibi bizi qonaq elədi. Sonra bildim ki, o özünün atını kəsib bizi qonaq eləyibmiş. Tayfanın adamları köçüb getdiyindən, bizi qonaq etməyə heç şeyi yox imiş. Mən bunu eşidəndə deməyə söz tapmadım. Atı almaq üçün apardığım şeylərin hamısını ona verdim.

Əmir başını aşağı dikib bir qədər susdu, sonra dilləndi:

-Qardaşım, o alicənab ərəbə atın qiymətini vermiş olmasaydın, sənin boynunu vurdurardım... Mən sənin belə ağıllı hərəkətini bəyənirəm.

**Atalar sözü:**

Yaxşılıq edən yaxşılıq görər.

● Köçəri ərəb atını nə üçün kəsdi?
Əmir elçinin hərəkətini nə üçün bəyəndi?
Xalqımızın qonaqpərvərliyi haqqında bildiklərinizi danışın.
Nağılda başlıca fikir nədən ibarətdir?

**ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR**

Oxuduğunuz hekayə və şeirlərdən insanların hansı yaxşı xüsusiyyətlərini öyrəndiniz?

Yaxşılığa dair ən çox xoşunuza gələn şeir və hekayə hansıdır?

Hansı hekayə və ya şeirdə pislik daha güclü verilmişdir?

Yaxşılığa dair hansı kitabları oxumuşsunuz?

Yaxşılıq və pislik haqqında atalar sözləri deyin.

**Ölkəm**

Qaranlıqlar uzaq səndən,
Düşmək olmaz iraq səndən,
Qoy biz hər gün yazaq səndən,
Təzə ölkəm, azad ölkəm!
Qazanmısan sən ad, ölkəm!

Durna gözlü bulaqların
Axar bu gün, axar yarın[1]
Sərin-sərin, narın-narın,
Əziz ölkəm, nazlı ölkəm!
Ey söhbətli, sazlı ölkəm!

Qucağında bəslə bizi,
Qələbəyə səslə bizi,
İşığında süslə[2] bizi,
Sənsən mənim sazım, ölkəm!
İlk baharım, yazım, ölkəm!

Sən işıqsan, mən pərvana
Dolanıram hey başına,
Dönə-dönə, yana-yana...
Sən ey sönməz günəş ölkəm!
Üzü daim güləş ölkəm!

*Süleyman Rüstəm*

**Atalar sözü:**
Vətən viran olsa da, cənnətdir

● Şair yurdumuzun gözəlliyini hansı sözlərlə təsvir edir?
Şeirdə ölkəmiz nələrə bənzədilir?
Şeiri əzbərləyin.

[1] Yarın – sabah
[2] Süslə - bəzəndir

## Moskva

Ölkəmizin ürəyisən, Moskva,
Sülhün möhkəm dirəyisən, Moskva!
Ey dünyada ilk azadlıq diyarı,
Sənsən böyük rus xalqının vüqarı.
Fabriklərin, zavodların nəhəngdir,
Yüksək-yüksək binaların qəşəngdir.
Yer altında elə sarayların var,
Heyran olur onu görən adamlar.
Böyüyürsən, gözəl şəhər, hər gün sən,
İzdihamlı küçələrin gün-gündən
Dönür coşğun bir dənizə, Moskva,
Fərəh verir qəlbimizə Moskva.
Hər parkını, hər bağçanı sevirəm,
Sənin Qızıl Meydanını sevirəm.
Parıldayan ulduzları Kremlin
Bir səadət günəşidir hər elin.
Ölkəmizin ürəyisən, Moskva,
Sülhün möhkəm dirəyisən, Moskva!

*Mirmehdi Seyidzadə*

**Atalar sözü:**
Doğma torpağın hər qarışı əzizdir

● «Ölkəmizin ürəyisən, Moskva» İfadəsini izah edin.
«Ey dünyada ilk azadlıq diyarı» sözləri ilə şair nə demək istəyir?
Şair Kreml ulduzlarını nəyə bənzədir?

## Öz vətənimdir

Uca təpələri dumanlı-qarlı,
Döşləri laləli bağlar mənimdir.
Qızıl sünbülləri qurşağa çıxan
Muğan da, Şirvan da öz vətənimdir.

Axır büllur kimi sular dumduru,
Rəngi buludların mərcan tək aldır.

Meh dəyib meşələr pıçıldaşanda,
Hər şey, elə bil ki, xoş bir xəyaldır.

Bozdağın dolama ətəklərində
Kür gümüş kəmər tək dolanıb axır.
Hərdən lal suları olur dumduru,
Hərdən də lil olur, bulanıb axır.

Sərin bulaqların içib gözündən,
Keçirəm yamyaşıl Şirvan düzündən...
Sovet insanının yaradan əli
Bəzəmiş gör necə Milli, Muğanı
Qızıl şəfəq rəngli Sovet bayrağı
Gör necə bəzəmiş Azərbaycanı!

Baxdıqca ölkəmə doymayır gözüm;
Yamyaşıl tarlalar, düzlər mənimdir!
Buzlu okeandan Xəzərə qədər
Böyük sovet yurdu öz Vətənimdir!

*Mirvari Dilbazi*

**Atalar sözü:**
Hər quşa öz yuvası doğmadır.

● Şair sünbülü, suyu, buludların rəngini, Kürü, Sovet bayrağını nəyə bənzədir?
Ölkəmizin böyüklüyü haqqında şeirdə nə deyilir?
Şeiri əzbərləyin.

### Nə qədər ki əlim silah tutur…

İsrafil Məmmədov məktəbdə ən bacarıqlı və şən uşaqlardan biri idi. O bədən tərbiyəsi ilə məşğul olar, idman yarışlarında iştirak edərdi. Möhkəm bədəni və çevikliyi ilə seçilən bu gənc dostluqda da möhkəm və sədaqətli idi. O, həmişə ədalətlə hərəkət edərdi. Yeddinci sinfi bitirdikdən sonra müəllim olmaq, xalqımızın balalarına bilik vermək

İsrafilin arzusu olmuşdu. Lakin müharibə başlandı. İsrafil könüllü olaraq Ordu sıralarına getdi.

Böyük Vətən müharibəsinin ilk günlərindən komsomolçu İsrfail düşmənə qarşı amansızcasına vuruşmağa başladı. O, ilk günlərdən özünü mahir kəşfiyyatçı, sərrast atıcı, qorxmaz döyüşçü kimi göstərdi.

1941-ci il iyul ayının axırlarında İsrafilin vuruşduğu hissə döyüş tapşırığı aldı. Onlar yolda ikən qəfildən meşənin arxasından düşmən tankları hücum etdi. Döyüşçülər arasında çaxnaşmanı görən İsrafil yoldaşlarına kömək etmək qərarına gəldi. O, xəlvətcə düşmən tanklarına tərəf sürünüb bir-birinə bağlanmış qumbara dəstəsini atdı. Alman komandirinin tankı sıradan çıxdı. Gözlənilməz zərbə hitlerçilərin arasına çaxnaşma saldı. Əsgərlərimiz ruhlanıb hücuma keçdilər. Düşmənin hücumu dəf edildi. İsrafil ilk imtahandan igidliklə çıxdı.

1941-ci il dekabr ayının əvvəllərində İsrafil Məmmədov əsl qəhrəmanlıq göstərdi. İsrafilin başçılığı ilə bir dəstə döyüşçü Novqorod şəhəri yaxınlığındakı Pustınka kəndinin yanında mühüm bir yeri qoruyurdu. Bundan xəbər tutan faşistlər İsrafilin dəstəsinin əsas qüvvəmiz ilə əlaqəsini kəsdi. Radio ilə əmr verildi ki, kömək gələnədək dəstə bir addım da geri çəkilməsin.

İsrafil dedi:

-Əgər biz geri çəkilsək, yoldaşlarımızı darda qoyarıq. Düşmən hücumunun qarşısını saxlamalıyıq ki, onları xilas edək.

İsrafil Məmmədovun başçılığı ilə iyirmi qorxubilməz sovet əsgəri çətin bir vuruşa girdi.

Düşmən topları atəş açdı. Bu cəsur döyüşçülərin üstünə əlliyə qədər faşist göndərildi. İsrafil düşməni 40-50 metrliyə qədər yaxına buraxdı. Onun əmri ilə döyüşçülər hər tərəfdən atəş açdılar. Faşistlərə göz açmağa imkan vermədilər. Düşmən məhv edildi.

Cəsur əsgərlərin belə möhkəm dayanmaları hitlerçiləri daha da qəzəbləndirdi. Faşistlər ikinci dəfə hücuma keçdilər. Onlar çox idilər. Lakin sovet döyüşçüləri yenidən

böyük ruh yüksəkliyi ilə şücaət göstərdilər. İsrafilin döyüşçülərinin cəsarəti, əsl mərdliyi sayəsində düşmənə daha bir zərbə vuruldu.

Hitlerçilər döyüş meydanında 100-ə qədər soldatın meyidini, çoxlu pulemyot, tüfəng qoyub geri çəkilməyə məcbur oldular. İsrafilin dəstəsi öz yerini daha da möhkəmləndirdi.

Faşistlər hiyləyə əl atmağı qərara aldılar: onlar sovet əsgərlərini mühasirəyə almağa çalışdılar. İsrafil isə onların fikrini başa düşüb dörd tərəfə atəş açmağı əmr etdi. Düşmənin növbəti hücumu da dəf edildi.

Bu ağır vuruşmadan sonra İsrafilin dəstəsində cəmi yeddi döyüşçü sağ qaldı.

Hitlerçilər əl çəkmirdilər. Onlar yeni qüvvə ilə hücuma keçdilər. İsrafil düşmənləri lap yaxına – 10-15 metrliyə buraxıb, sərrast atəşlə onları ot kimi biçdi. Güllə qurtarmışdı. Lakin düşmənə təslim olmaq yaramazdı. İsrafil beş dostu ilə birlikdə əlbəyaxa döyüşə girişməli oldu. Onlar ələ keçən almanları da öldürdülər.

Bu dəhşətli ölüm-dirim döyüşündə 300-dən artıq faşist məhv edildi. Təkcə İsrafil yetmiş soldat və üç zabit öldürmüşdü.

Mərdliyinə və igidliyinə görə Azərbaycan xalqının qəhrəman oğlu İstrafil Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı verildi. Ona Lenin ordeni və Qızıl Ulduz təqdim olunanda İsrafil dedi:

-Mən hələ gəncəm! Nə qədər ki, əlim silah tutur, hitlerçilərə qarşı amansız olacağam!

İsrafil Məmmədov verdiyi sözü sonrakı döyüşlərdə də şərəflə yerinə yetirdi.

● Hekayədən İsrafil Məmmədovun xasiyyətini göstərən hisəni seçib oxuyun.
İsrafil nə üçün çətin döyüşlərdən qələbə ilə çıxırdı?
Sovet İttifaqı Qəhrəmanlarından daha kimləri tanıyırsınız?
«Azərbaycanın qəhrəman oğulları» adlı albom düzəldin.

## İgid ölər, adı qalar

*(İxtisarla)*

Qafur dənizi çox sevirdi. Axşamlar Dağüstü parkın ətəyindəki evlərinin məhəccərinə söykənib Xəzərə baxmaqdan doymazdı.

Kaş Qafur da Xəzərdəki gəmilərin birisinin kapitanı olaydı, doğma vətənini liman-liman[1] gəzəydi. Lakin Qafur arzusuna çatmadı. Müharibənin qasırğası onu Qara dənizin sahillərinə atdı. Qafur dənizçi oldu, lakin gəmi sürə bilmədi. O, dənizçi piyadaların sırasına düşdü. Əldə silah səkkiz ay gecəli-gündüzlü Sevastopolu düşməndən qorudu.

1942-ci ilin sentyabrı idi. Qafurun xidmət etdiyi dənizçilər hissəsi Tuapseni[2] düşməndən qoruyurdu. Leytenant Sinitskinin rotasında çoxlu igid oğlanlar var idi. Lakin, nədənsə, leytenantın gözü Qafuru tutmuş, onu özünə rabitəçi seçmişdi.

Bir dəfə faşistlər bərk hücuma keçdilər. Sinitskinin dəniz qartalları bu hücumun qarşısını mərdliklə aldılar. Lakin almanlar sakitləşmədilər. Bir dəstə faşist avtomatçısı daşların arası ilə sürünərək irəli gəlirdi. Güllə dolu kimi yağırdı. Elə bu zaman hücuma keçənlərin sağ cinahından pulemyot da dilləndi.

Döyüşçülərimiz yerə yatmalı oldular. Pulemyot susdurulmalı idi. Ancaq necə? Leytenant qəti bir əmr verməyə macal tapmamışdı. Qafur yumalanıb, pulemyotun alt tərəfindəki çuxura düşdü. Leytenanta elə gəldi ki, Qafuru vurdular. Görünür, faşist pulemyotçusu da belə güman etmişdi. Çünki o, hərəkətsiz düşmüş Qafura əhəmiyyət vermədən atəş açmaqda davam edirdi. Qafur birdən qırğı kimi sıçradı. İki qumbara bağlamasını qayanın arxasına, faşist pulemyotunun atəş açdığı yerə tulladı. Toz göyə sovruldu. Pulemyot susdu. Qəhrəman döyüşçülər hücuma keçdilər.

---

[1] Liman – gəmilər dayanan yer

[2] Tuapse – Qara dəniz çsahilində şəhər

Faşistlər çoxlu tələfatdan sonra geri çəkildilər. O gün döyüşdən sonra hər yerdə söhbət Qafurdan gedirdi. Leytenant mehriban nəzərlərlə Qafuru süzüb dedi:

-Qafur, bu günün qəhrəmanı sənsən, nə arzun var, söylə!

-Yoldaş leytenant, mən sizdən komsomola keçmək üçün zəmanət istəyirəm.

-Qafur, mən sənə təkcə zəmanət yox, canımı da verərəm...

* * *

Sinitskinin dəstəsi Tuapsenin yaxınlığındakı Pşada qəsəbəsini müdafiə edirdi. Elə bu zaman leytenant:

-Dəniz qartalları, arxamca! - dedi.

Dənizçilər komandirin arxasında dalğa kimi axdılar. Faşistlər sovet zabitinin hücumda böyük bir qüvvə olduğunu duymuşdular. «Döyüşçülərin iradəsini qırmaq üçün komandiri məhv etmək lazımdır» - deyə, qət etdilər. Faşist avtomatçısı öz zabitindən bu tapşırığı alıb, təpələrin arası ilə Sinitskiyə tərəf sürünməyə başladı.

Axşamüstü idi. Dəniz yavaş-yavaş tutqun bir pərdəyə bürünürdü. Komandirin yanınca irəliləyən Qafur birdən kənara çevrildi. İlan vurmuş kimi dik atıldı. Faşist avtomatçısı çılpaq bir qayanın böyrünə qısılıb, leytenantı nişan almışdı.

Komandiri xilas etmək lazım idi. Onun həyatı təhlükədə idi. Bir an belə gecikmək olmazdı. Qafur baxa-baxa komandirinin, qardaşdan artıq sevdiyi bu sibirli balasının həlak olmasına yol verə bilməzdi.

-Yoldaş komandir! - deyə, Qafur özünü leytenanta tərəf atdı. Qafurun kürəyi onun mehriban köksünə dayandı. Elə bu zaman atəş açıldı. Qafurun gözləri qaraldı... O, komandirini xilas etməkdə gecikməmişdi...

Bunların hamısı bir anda, bəlkə də bir göz qırpımında baş verdi. Qafurun eşitdiyi son söz hücuma keçən əsgərlərin «Ura» səsləri oldu.

Pşada qəsəbəsi faşistlərdən xilas ediləndə Sinitskinin bütün rotasına Vətən öz yüksək mükafatlarını göndərmişdi. Qafura isə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.

Qafur Qara dənizin sahilində sıldırım qayaların qoynunda əbədi yuxuya getmişdir. Lakin Pşada qəsəbəsinin sakinləri qəhrəmanı ölmüş hesab etmirlər. Onlara elə gəlir ki, bu igid əsgər yenə də əlində silah xalqının dinc əməyi keşiyində durub, onların xoşbəxtliyini qoruyur.

İndi Xəzər dənizində üzən gəmilər arasında «Qafur Məmədov» gəmisinə baxanda adamların üzündəki kədər ifadəsi silinib gedir; gözləri işıqlanır. Demək, xalqımızın qəhrəman oğlu ölməmişdir. Bu nəhəng gəminin köksündə çırpınan, onu hərəkətə gətirən Qafurun qəhrəman ürəyidir.

*Nurəddin Babayev*

**Atalar sözü:**
İgid oğul düşmənə əyilməz

● Qafur nə kimi igidliklər göstərmişdir?
O, nə üçün bilə-bilə düşmən gülləsinə sinə gərdi?
Yazıçı hekayənin adını nə üçün «İgid ölər, adı qalar» qoymuşdur?
İgidliyə aid daha hansı atalar sözlərini bilirsiniz?

## General Həzi Aslanov

Həzi Aslanov Azərbaycanın gözəl guşələrindən olan Lənkəranda doğulmuşdur. O, hələ uşaqlıqdan hərbi işi çox sevmişdi. 15 yaşında ikən o, Bakıda hərbi hazırlıq məktəbinə daxil olmuşdu. Balaca Həzi bütün dərslərindən «5» qiymət alırdı. O, hərbi intizama həmişə riayət edirdi. Bakı hərbi hazırlıq məktəbini müvəffəqiyyətlə bitirən Həzi Aslanov Leninqrada – Hərbi Akademiyaya göndərildi. O, burada yorulmadan hərbi biliklərə yiyələnir və rus dilini dərindən öyrənirdi.

Hərbi Akademiyanı qurtaran Həzi Aslanov Böyük Vətən müharibəsində ilk günlərdən iştirak etmişdir.

Həzi Aslanov tank qoşun hissələrinin komandiri idi. Vətənimizin paytaxtı Moskvanı müdafiə edərkən göstərdiyi şücaətə görə o, böyük şöhrət qazanmışdır. Alman faşistləri

Moskva ətrafında darmadağın edildikdən sonra komandanlıq Həzi Aslanovu qəhrəman tankçıları ilə birlikdə Cənub cəbhəsinə – Stalinqrada göndərdi. Göstərdiyi igidliyinə görə Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Həzi Aslanov Böyük Vətən müharibəsində alman faşistlərinə qarşı mərdliklə vuruşduğuna görə dəfələrlə təşəkkür almışdı. Vətən qarşısında göstərdiyi misilsiz xidmətlərini nəzərə alan hökumətimiz onu 14 orden və medalla təltif etmişdir.

1945-ci il idi. Müharibənin qurtarmasına az qalmışdı. Sovet qoşunları düşməni onun öz torpağında məhv edirdi. Belə qızğın döyüşlərin birində Azərbaycan xalqının igid oğlu, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov qəhrəmancasına həlak oldu.

Xalqımız onu böyük kədərlə dəfn etdi. Həzi Aslanovun məzarı Bakı şəhərində S.M.Kirov adına Dağüstü parkdadır. Sovet adamları onun məzarına tez-tez təzə əklillər qoyur.

Həzi Aslanovun əziz xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır.

● Həzi Aslanovun xatirəsini xalqımız nə üçün əziz tutur?
Böyük Vətən müharibəsində iştirak edən azərbaycanlı komandirlərdən daha kimləri tanıyırsınız?
Hansı yerlər Həzi Aslanovun adınadır?

**İradə**

*(İxtisarla)*

Alman zabitinin Fərhad ilə mülayim sorğu-sualı get-gedə çox ciddi bir şəkil aldı. Zabitin təklifi ilə Fərhada bir yekə parça ağ çörək və xeyli kolbasa uzatdılar.

Fərhad danışmamağı qət etdi. Sonra düşündü ki, «təfavütü yoxdur, onsuz da bunlar məni sağ qoymayacaqlar, yaxşısı budur, ürəyini boşalt, sözlərini əsirgəmə!» Elə də etdi. Fərhad «faşist sədəqəsi»nə gözünün ucu ilə də baxmadı. Soldatın əli uzana qaldı.

Rus dilində çox rəvan danışan zabit şirin dilini işə saldı:

-Utanma! Müharibədir, adam yaralanar da, əsir də düşər. Eybi yoxdur. Müharibə tezliklə qurtaracaq, evinizə qayıdacaqsan. Görünür, çoxdandır ki, acsan, qüvvədən düşmüsən. Al, ye, bir az toxta, nahar hazırlanan kimi doyunca yeyərsən.

Fərhad ürəyində bu sözlərə güldü.

-Cənab zabit! Mən azərbaycanlıyam, bizdə haram tikə yemək adət deyil!

Zabit bir qədər duruxdu. Fərhadın sözləri onu bərk tutmuşdu. Bir müddət aralığa dərin sükut çökdü. Yalnız uzaqlarda guruldayan səsi eşidilirdi. Zabit öz-özünə deyindi:

-Belə de! Siz azərbaycanlısınız! Azərbaycanlının Krım torpağında nə işi var? Niyə oturmusunuz o gözəl, səfalı yerinizdə? Bizim ki, azərbaycanlılarla işimiz yoxdur.

Fərhad zabitin sözünün qurtarmasını gözləmədi:

-Rica edirəm, bu nəsihətləri Berlində qoyub gəldiyiniz oğlunuza yazasınız ki, bəlkə böyüyəndə hara getdiyini yaxşı bilsin.

Zabit yaralı əsirin sözlərindəki dərin kinayəni duydu. Sarı üzü qulağına kimi qızardı. Ona dilə tutmağın lüzumsuz olduğunu bilib, barmağını Fərhada silkələyərək səsini ucaltdı:

-Unutmayın ki, sizinlə danışan alman leytenantıdır! Suallarıma müxtəsər və doğru cavab verməlisiniz. Yalnız doğru məlumat sizi ölümdən qurtarar, səhhətinizin düzəlməsinə və vətəninizə qayıtmağınıza kömək edər. Yalan məlumat güllələnmə və ya dar ağacı ilə nəticələnəcəkdir...

Zabit çörək və kolbasa uzadan soldata göz vurdu. O, əlindəkiləri çantasına qoydu. Soldatlar zabitin əmrini gözləyirdilər. O isə fikirləşirdi. Fərhad gözlərini zabitdən ayırmırdı... Zabit onunla vəhşicəsinə rəftar etməyi qərara aldı:

-Sizin hissənin təyyarə meydanı haradadır?

Fərhad suallara dərhal cavab verirdi.

-Krım düzənliklərinin hər yerində.

-Nə qədər təyyarəniz vardır?

-Sizin soldatların sayı qədər.
Zabit dayanıb Fərhada baxdı, başını yırğaladı.
-Belə cavablar sənə çox baha tamam olacaq və ölümünü yaxınlaşdıracaq.
-Məni ölümlə az hədələ, cənab zabit!
Zabit güldü.
-Azərbaycanlılar, doğrudan da, yaxşı atan və vuran olurlar.
Fərhad:
-Cənab zabit! Onu doğru deyirsən. Biz faşistlərlə pis vuruşmuruq.
Zabit elə bağırdı ki, elə bil qabanın bədəninə biz soxdular. Bütün soldatlar dik atıldılar. Fərhad da səksəndi.
Zabit əmr verdi:
-Dörd nəfəriniz sağ qolunu, dörd nəfəriniz sol qolunu tutub burun!
Soldatlar işə başladılar. Bir azdan zabit əmri dəyişdi:
-Sol qolunu tutun, sağ qolunu burub sındırın!
Dörd nəfər ucaboylu, yekəpər faşist Fərhadın sağ qolunu tutub burmağa başladılar. Fərhad əvvəlcə yavaş-yavaş zarıdı. Sonra üzünü turşutmaq, alnını qırışdırmaqla ağrını düşmənə bildirməməyə çalışdı. Ancaq bu mümkün olmadı. Qolu geri burulanda elə bil ağacın bir budağını sındırdılar.
Fərhad sınan qolunun ağrısından huşunu itirib yerə yıxıldı. Zabitin əmri ilə soldatlar onun sol qolunu buraxdılar. Zabit qəhqəhə çəkib güldü.
Fərhad haçandan-haçana özünə gəldi. Gözlərini açdı... Sonra bir tərəfinin olmadığını zənn etdi. Alman zabiti isə qana susamış ac canavar kimi bunlardan doymur, yenə də sorğu-sualı davam etdirirdi:
-Hissənizin qərargahı haradadır?
-Moskvada, Kremldə!
Zabit indi yaralı qabana dönmüşdü. O, əmr etdi:
-Sol qolunu da sağ qolu kimi geriyə!
Fərhadın sol qolu çətin sındı. Soldatların alınlarından və boyunlarından tər axmağa başladı. Onlar əməliyyatı

qurtarandan sonra bir anlığa Fərhad susdu və nədənsə yenə tez gözlərini açdı. Zabit Fərhada yaxınlaşdı:

-Suallara düzgün cavab verməsən cəzan böyük olacaq...

Fərhadın gözləri baxırdı. Bu gözlər ölməmişdi. Əksinə, bu gözlərdən intiqam qığılcımları yayılır, qisas alovu qalxırdı. Bu gözlər öz hökumətinə, partiyasına son nəfəsinə kimi sadiq olan qəhrəman bir xalqın nişanəsi kimi parlayırdı.

Faşist zabiti Fərhadın qoluna möhkəm bir təpik vurub dedi:

-Yenə dinmirsən? Səninlə danışan bilirsən kimdir?

Fərhad elə bil son sözünü dedi:

-Biz sizi Avropadan qovacaq, Asiyaya buraxmayacağıq, pudralı zabit! Əlindən gələni əsirgəmə!

Zabitin əmri ilə Fərhadı atın dalına bağlayıb, oradan iki kilometr aralı olan kəndə sürürdülər. Kənddə gur yanan tonqalın üstündə iri bir dəmir parçasını möhkəm qızdırdılar. Fərhadı qıpqırmızı qızarmış dəmirin üstünə atdılar...

Axşam oldu. Şiddətli hücum edən sovet qoşunlarının zərbəsinə tab gətirməyən düşmən səhərə yaxın tələsik geri çəkildi. Sübh vaxtı sovet tankları kəndə girəndə tankçılar bu kənddə törədilən alçaq cinayəti eşitdilər. Kəndin kənarında çiçəkli bir təpədə qəbir qazıb, Fərhadı hörmətlə dəfn etdilər. Azərbaycanın qəhrəman oğlu Fərhad dəmir iradəsi ilə burada bir heykəl kimi ucaldı.

*Əli Vəliyev*

**Atalar sözü:**
Mərd döyüşdə tanınar.
Ağac əyildi, sındı; igid əyildi, öldü

● Alman zabiti Fərhaddan nə öyrənmək istəyirdi?
Fərhad nə üçün ona düzgün cavab vermirdi?
Alman zabiti Fərhadın sözlərindən nə üçün hisrlənirdi?
Hekayəyə nə üçün «İradə» adı verilmişdir?
Hekayəni hissələrə ayırın. Hər bir hissəyə başlıq verin.

## Can nənə, bir nağıl de

*(İxtisarla)*

-Ay nənə, bir nağıl da de!
-Ömrüm-günüm, yat daha.
Hamısını indi desəm, nağıl qalmaz sabaha.
-Can nənə, de birini də…
-Ağrın alım, sözə bax.
Evimizdə səndən sava gör heç varmı bir oyaq?
Gecə keçib, ev soyuyub, hənir gəlmir ocaqdan;
Taxt üstündə Məstan pişik, odur, yatıb bayaqdan.
Ört üstünü, dərdin mənə, bax eşikdə yel əsir…
-Qar yağırmı?
-Elə yağır... sazaq qılınc tək kəsir...
Belə yağsa, qar sübhəcən yolu, izi örtəcək;
Kirpiklərin lap qovuşub, əziz bala, yat görək.
Nənə yığır düyünçəyə iynəsini, sapını,
Külək hərdən taqqıldadır pəncərəni, qapını.
Körpə çəkir təzə, güllü yorğanını üzünə,
Gözlərini yumur… Amma yuxu getmir gözünə.
-Ay nənə, o kimdir elə pəncərəni bərk vurur?
-Heç kim deyil, yat, ay bala, yeldir, qarı sovurur…
Bir gizilti duyur uşaq vücudunda bu ara.
Həsrət qonan gözlərini zilləyərək divara,
Çarpayının baş ucunda öz əliylə asdığı
Şəklə baxır, fikrə gedir, qucaqlayır yastığı…
-Bəs, ay nənə, atam indi haradadır, görəsən?
-Bıy, başıma nələr, oğul, yatmayıbsan hələ sən?
-Axı, nənə, heç demirsən atam haçan gələcək,
İndi onu səngərdə bəs üşütmürmü qar, külək?
-Ömrüm-günüm, körpə quzum, qurban olum adına,
Niyə köks ötürürsən o düşəndə yadına?
Atan yazır: hələ xoşdur bu tərəfdə havalar,
Deyir: oğlum darıxmasın, görüşərik bu bahar…
Bağçalarda çiçək açar gülöyşə nar, yasəmən,
Qaranquşla bir zamanda qayıdaram kəndə mən.
Heç darıxma, dərdin alım, atan gələr, o zaman
Sənə çoxlu nağıl deyər əsgərlikdən, davadan.

Di yat indi, gecə keçir…
-Onda, nənə, ay nənə,
Qoy kəsməyək ağ toğlunu, qalsın atam gələnə.
–Yaxşı, bala, qoy bağlarda çiçək açsın nar, ərik,
Sağlıq olsun, ağ toğlunu atan üçün kəsərik…
Mən eyvana xalı sallam, anan evi bəzəyər,
El qaydası süfrə açar, qohum-qonşular gələr.
Sən atanı qucaqlayar, üz-gözündən öpərsən,
Qoca baban saz kökləyib nağıl deyər sübhəcən.
Körpə güldü… Həsrət qonan gözlərindən uçdu qəm,
Öpdü onun xəyalını indi özgə bir aləm.
Qaranquşlar uçub gəldi, açdı çiçək, güldü yaz,
Qucaqladı atasını, sonra kimsə çaldı saz.
Körpə özü hiss etmədən onu yuxu apardı,
Çöldə isə bütün gecə külək tufan qopardı…

*Əhməd Cəmil*

● Uşağın atasının cəbhədə olduğunu şeirdə nədən bilmək olar?
Uşağın atası cəbhədən nə yazırdı?
Biriniz nənənin, biriniz nəvənin, biriniz də şairin sözlərini oxuyun.

## Bülbül

*(İxtisarla)*

### I

Vuruşma qurtaran kimi kəndə bir dəstə faşist daxil oldu. Evlər yanıb dağılmışdı. Kənd boş idi. Səs-səmir gəlmirdi.

Bülbül cəh-cəhi yay gününün səssizliyini pozdu. Bir dəqiqəliyə cəh-cəh ara verdi. Sonra yenidən başladı.

Əsgərlərin və zabitin gözləri dörd oldu. Onlar ətrafdakı kolluqlara, aşağı sallanan ağcaqayın budaqlarının altına nəzər saldılar. Arxın kənarında oturmuş balaca bir oğlan gördülər. O, ağac parçasını döşünə basıb yonur, nəsə düzəldirdi.

-Ey! - deyə, zabit oğlanı yanına çağırdı.

Oğlan bıçağı cəld cibinə qoydu, üstündəki yonqarları çırpdı və zabitin yanına gəldi.

Alman zabiti dedi:

-Göstər görüm!

Oğlan ağzından kiçik bir şey çıxardıb zabitə uzatdı. Bu, ağcaqayından düzəldilmiş ney idi.

-Ustalıqla düzəldilmişdir, oğlan, ustalıqla, - deyərək, zabit başını yırğaladı. Belə fit verməyi sənə kim öyrətmişdir?

-Mən özüm öyrənmişəm. Hələ ququ quşu kimi oxumağı da bacarıram.

Oğlan ququ quşu kimi oxudu. Sonra o, neyini ağzına alıb yenə cəh-cəh vurdu.

Zabit soruşdu:

-Sən kənddə tək qalmısan?

-Necə yəni tək? Burada sərçə də, qarğa da çoxdur. Bülbül isə təkcə mənəm.

-Ey, avara! Səndən söz soruşuram, burada adam var, ya yox?

-Adammı? Müharibə başlayandan burada adam yoxdur. Atışma başlayan və kənd yanan kimi «Vəhşilər gəlir!», «Yırtıcılar gəlir!» deyə-deyə hamı qaçdı.

Zabit fikirləşdi ki, oğlan axmaqdır. O yenə soruşdu:

-Bəs, Surmantsa gedən yolu tanıyırsanmı?

-Necə tanımıram, tanıyıram.

-Bizi oraya apar! Düz aparsan, bunu sənə verəcəyəm, - deyib, zabit alışqanı göstərdi və sözünə davam etdi, - ora aparmasan, başını üzəcəyəm. Anladınmı?

## II

Dəstə yola düşdü. Oğlan gah bülbül, gah da ququ quşu kimi oxuyurdu. Yeridikcə əlləri ilə yolun üstünə əyilən budaqları dartır, daşları ayağı ilə vururdu; guya o, arxasınca gələn soldatları unutmuşdu.

Meşə getdikcə sıxlaşırdı; əyri-üyrü yol sıx bitən cavan ağcaqayınların arası ilə burulurdu.

Zabit oğlandan soruşdu:

-Bəs partizanlar haqqında nə deyirlər? Onlar buralarda üzə çıxırlarmı?

Oğlan cavab verdi:

-Göbələkmi deyirsiniz? Yox! Burada yalnız meşə göbələkləri çıxır.

Zabit uşaqdan söz ala bilməyəcəyini görüb susdu.

Meşənin uzaq bir yerində partizanlar tüfənglərini ağaca söykəyib uzanmışdılar.

-Eşidirsinizmi? Bülbül! - deyə, partizanlardan biri başını qaldırdı və üzünü quşun səsi gələn tərəfə çevirdi.

Bülbül cəh-cəhi getdikcə ucalırdı. Bülbül səsini ilk dəfə eşidən partizan yerindəcə donub qaldı və cəh-cəh səslərini saymağa başladı.

-Otuz iki faşist...

Partizan, bülbül cəh-cəhindən sonra iki dəfə ququ quşunun səsini eşidib əlavə etdi:

-İki də pulemyot.

-Öhdəliklərindən gələrik! - deyə, saqqalı kişi tüfəngi əlinə aldı, patrondaşı düzəltdi.

Bir neçə dəqiqədən sonra cavan küknar ağaclarının arxasından faşist dəstəsi göründü. Bülbül isə eyni həvəslə oxumaqda davam edirdi. Lakin indi onun cəh-cəhində partizanlar üçün yeni bir şey yox idi.

Faşistlər açıq talaya çıxdılar. Birdən əks-səda kimi, oğlanın fitinə qalın meşədən cavab gəldi. Oğlan tez dayandı, cəld dönüb meşəyə cumdu. Güllə səsləri meşədəki sakitliyi dağıtdı. Zabit əlini heç tapançaya uzada bilmədi. Avtomatlardan atılan güllələr faşistləri yerə sərdi. Uğultu və çığırtı meşəni bürüdü.

O biri gün həmin oğlan yenə yandırılmış kəndin kənarındakı arxın üstündə oturub nəsə yonurdu. O, hərdən yola baxır, elə bil, kimi isə gözləyirdi. Onun oxumağını əsl bülbül cəh-cəhindən ayırmaq olmurdu...

*Pyatras Tsvirka*

**Atalar sözü:**

Xamın gözü böyük olar

● Hekayəyə nə üçün «Bülbül» adı verilmişdir?

Oğlan faşist dəstəsini nə üçün meşəyə apardı?
O, faşistlərin və onlardakı pulemyotun sayını partizanlara necə bildirdi?

## Partizan

*(İxtisarla)*

Meşələrdir mənim yurdum,
Hər döyüşdə öndə durdum.
Ay buludda gizlənəndə
Qılıncımı çəkdim mən də.
Hey cumuram düşmən üstə,
Faşistləri dəstə-dəstə
Batırıram qızıl qana,
Baş əymərəm heç düşmana.
Çox yağıdan qisas aldım,
Gecə-gündüz qılınc çaldım.
Səngərimdir hər dağ, dərə,
Görünmərəm düşmənlərə.
Üzüm ağdır el yanında,
Mərdəm döyüş meydanında.
Gözlənmədən, birdən-birə
Zərbə vurram faşistlərə.

*Mirvari Dilbazi*

● Şeir kimin dilindən yazılmışdır?
Şeirdə hansı müharibə təsvir olunur? Bunu bildirən sətirləri tapıb göstərin.
Şeirdə eyni ahəngli sözləri tapıb oxuyun.

## Adımız qisasdır

1941-ci ilin payızı idi. Ukraynanın şəhər və kəndləri od içində yanırdı.

Öz batalyonu ilə kiçik bir kəndin xarabalıqlarında gecələmiş faşist zabiti qorxudan səhərədək yata

bilməmişdir. Səhər tezdən soldatlar onun yanına ağ saçlı qoca bir ukraynalı gətirdilər.

-Bu kimdir? Partizandırmı? - deyə, zabit soruşdu.

-Yox, cənab zabit, özü partizan deyildir, amma üç partizan oğulun atasıdır.

Bunu eşidən zabit:

-Oğullarının yerini de, qoca! - deyə, bağırdı.

Qoca başını vüqarla qaldırdı. Zabitə baxıb gülümsündü. Zabit vəhşi kimi nərildədi, tapançasını çıxarıb qocanı qorxutdu. Lakin qoca yenə də cavab vermirdi. Axırda zabit xırıltılı bir səslə bağırdı:

-Divara söykəyin, onu özüm güllələyəcəyəm.

Soldatlar qocanı divara söykədilər. Zabit artırmadan aşağı endi. Qocaya bir neçə addım qalmış dayandı, tapançasını qaldırdı. Bu zaman qoca da başını dikəldib zabitin gözlərinə baxdı. Qocanın baxışından zabitin əlləri əsməyə başladı. O, qocanın gözlərinə baxa-baxa ona güllə atmaqdan qorxurdu.

Lakin soldatlarının yanında rüsvay olmaq istəməyən zabit boğuq bir səslə qışqırdı:

-Üzünü divara çevirin.

* * *

Soldatlar qocanın üzünü divara tərəf çevirdilər. Zabit ürəyindəki qorxudan tez xilas olmaq üçün yenə əlini qaldırdı. Gözlərini yumub tətiyi çəkdi. Qoca yıxıldı. Onun gözləri həmişəlik örtüldü.

Faşist zabiti bütün gecəni qorxu içində çırpındı. Güllələdiyi qocanın nifrətli baxışları ona rahatlıq vermədi.

Birdən diksinib yerindən dik atıldı və gördüyü mənzərədən gözləri böyüdü. Bu dəfə onu qara basmırdı. Üç cüt göz qırpılmadan ona zillənmişdi. Zabit dərhal onların kim olduğunu anladı: bunlar qocanın üç partizan oğlu idi. Zabit çığırmaq, canavar kimi ulamaq istədi, lakin səsi çıxmadı. Yalnız xırıltılı bir səslə: «Siz kimsiniz?» - deyə bildi.

Qocanın on beş yaşlı kiçik oğlunun səsi eşidildi:

-Tanımadınmı, cəllad? Adımız qisasdır!..

*Ənvər Məmmədxanlı*

● Alman zabiti qocanı nə üçün öldürdü?
Qoca nə üçün oğullarının yerini demədi?
Zabit qocanı güllələyərkən nə üçün qorxurdu?
Hekayənin əsas mənası nədir?

**Böyük döyüşlərin balaca qəhrəmanları**

Böyük Vətən müharibəsi başlayanda Valentin Kotikin on yaşı yenicə tamam olmuşdu. O, pioner sıralarına qəbul edilmişdi. Təntənəli vəd vermişdi: «Mən, Sovet İttifaqının pioneri öz yoldaşlarım qarşısında vəd verirəm ki, ... doğma Vətənimi qızğın məhəbbətlə sevəcəyəm...»

Balaca Valik dediyi kimi də etdi. O, partizan hərəkatına qoşuldu. Tez-tez düşmən mövqelərinə gedir, maraqlı məlumatlar toplayıb gətirirdi. Bir dəfə ona mühüm tapşırıq verildi: «Alman baş qərargahına gedən rabitə xəttini kəsməli».

Valik bu işin də öhdəsindən bacarıqla gəldi. O, partizanların yaxın köməkçisi oldu. Dəmir yollarının minalanmasında, sursat anbarlarının partladılmasında partizanların karına gəldi. Növbəti döyüşlərin birində o, ağır yaralandı və həlak oldu. Ölümündən sonra Valentin Kotik birinci dərəcəli Vətən müharibəsi ordeni ilə təltif edildi. 1958-ci ildə isə ona yüksək ad – Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Bəs görəsən balaca Lyonya Qolikov nəyə görə Sovet İttifaqı Qəhrəmanı adını almışdır? Müharibə başlayanda onun on yaşı yenicə tamam olmuşdu.

Lyonya alman generalını öldürmüş və onun sənədlərlə dolu portfelini ələ keçirib partizanların qərargahına gətirmişdi.

Lyonya Qolikov cəmi bir il partizanlıq etmişdi. Partizan dəstəsinin komandiri Vasili Qriqoryeviç deyirdi ki, Lyonka peşəkar, təcrübəli partizanların uzun müddət ələ keçirə bilmədikləri sənədləri toplamışdır.

Lyonya Qolikov 1943-cü ilin yanvarında Pskov vilayəti uğrundakı döyüşlərdən birində həlak olmuşdur. Ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Zina Portnovanın da adı Vətənimizin qəhrəmanlıq tarixinə yazılmışdır. O, Belorusiya torpağında gizli fəaliyyət göstərən «Gənc intiqamçılar» təşkilatının ən balaca və ən fəal üzvlərindən biri olmuşdur.

O, faşistlər tərəfindən tutulduğu anda da xüsusi igidlik göstərərək «Gənc intiqamçılar» təşkilatını ələ verən satqınları və polis rəisini məhv etmişdir. Zina polis idarəsindən qaçarkən tutulmuş və işgəncə ilə öldürülmüşdür. Bu mərd qıza da Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Qəhrəman pioner Marat Kazey də məşhur partizan olmuşdur. O, döyüşçülərimiz üçün qiymətli sənədlər toplayıb gətirmişdir. Bir dəfə o, növbəti tapşırıqdan gələndə düşmən mühasirəsinə düşmüşdür. Faşistlər Maratı təslim olmağa çağırsalar da, o, mərdliklə ölmüşdür. Son qumbara ilə həm özünü, həm də beş faşisti öldürmüşdür.

Bəli, Böyük Vətən müharibəsi tarixinə bir çox balaca qəhrəmanların da adı yazılmışdır. Borya Sorikov, Mişka Qlazok, Vasya Korobko, Volodya Kozansev, Adel Litviyenko, Anatoli Komar, Volodya Dubinin, Vasya Şişkovski, Nadya Qordiyenko, Lena Nikulina və onlarca başqalarının adını çəkmək olar. Bu balaca qəhrəmanlar doğma Vətənimizə olan sonsuz məhəbbətlərini öz igidlikləri ilə nümayiş etdirmişlər. Həmin uşaqların bəziləri qəhrəmanlıqla həlak olmuşdur.

Vətənin azadlığı uğrunda ölənlər əbədi yaşayırlar. Bu gün hamımız balaca qəhrəmanları sevir və onları hörmətlə yad edirik.

● Balaca Valikin qəhrəmanlığı nədən ibarət olmuşdur?
Lyonya necə igidlik göstərmişdir?
Vətəni ürəkdən sevdiyini Zina necə sübut etmişdir?
Faşist işğalçılarına qarşı öz nifrətini balaca Marat necə ifadə etmişdir?
Hekayədə adları çəkilən uşaqların şəkillərini toplayıb albom hazırlayın.
Qəhrəman uşaqlardan daha kimləri tanıyırsınız?

**Hər şey cəbhə üçün, hər şey qələbə üçün!**

Bizim ailədə babamın söhbətinə hamı diqqətlə qulaq asır. Onun müharibə dövrünə aid söhbətləri daha maraqlı olur. Bu söhbətlərdən biri yaxşı yadımdadır. O, müharibə zamanı sovet adamlarının cəbhəyə köməyindən söz açmışdı. Babam deyirdi:

-Alman-faşist işğalçılarına qarşı Böyük Vətən müharibəsində ölkəmizin bütün xalqları ilə birlikdə Azərbaycan zəhmətkeşləri də böyük igidlik nümunələri göstərmişlər. Düşmən üzərində qələbəmizi təmin etmək üçün onlar gecə-gündüz var qüvvələri ilə çalışmışlar.

Mən babamdan soruşdum:

-Baba, müharibə zamanı şüarlar olurdumu? – O zaman küçələrdə, fabrik və zavodların qarşısında bu cür şüarlar olurdu: «Var qüvvəmizi cəbhəyə, qəhrəman Qızıl Ordumuza yardım işinə sərf edək!», «Bütün qüvvəni düşmənin darmadağın edilməsinə!», «Arxada da cəbhədə olduğu kimi!» və s.

-Baba, sən özün cəbhəyə, orduya necə kömək edirdin?

-Cəbhəyə, tanklara, təyyarələrə, avtomobillərə daha çox yanacaq vermək üçün mən və yoldaşlarım gecə-gündüz neft mədənlərində çalışırdıq; planı artıqlaması ilə yerinə yetirirdik. Sovet hökuməti əməyimizə yüksək qiymət vermiş, neftçilərin böyük bir dəstəsi orden və medallarla təltif olunmuşdur.

-Baba, bəs müharibə zamanı işləməyən nənələr də cəbhəyə, Qızıl Orduya kömək edə bilirdilərmi?

-Əlbəttə, qızım! Onlar heç bizdən geri qalmırdılar. Əllərindən gələn köməkliyi göstərirdilər. Kimi corab toxuyurdu, kimi əlcək, kimi kürk tikirdi, kimi köynək! Göndərirdilər cəbhəyə.

-Baba, bəs alman faşistlərinin dağıtdıqları şəhərlər və kəndlər necə bərpa olunurdu?

-Alman faşistlərindən geri qaytarılan şəhər və kəndlərimiz tezliklə bərpa olunur. Çünki bərpa işində bütün sovet adamları iştirak edirdi. Yadımdadır, Stavropol şəhərinin bərpası üçün Azərbaycandan traktor, ehtiyat

hissələri, tikinti materialları, şəhərin sakinləri üçün taxıl, qaramal, paltar və ayaqqabı göndərirdik.

Şairlərimiz, yazıçılarımız öz qələmləri ilə də cəbhəyə kömək edirdilər. Müharibənin ilk günlərində şair Səməd Vurğun bütün şair və yazıçıların fikrini belə ifadə etmişdi:

*«...Bilsin ana torpaq, eşitsin Vətən,*
*Müsəlləh[1] əsgərəm mən də bu gündən!*
*Bu gün bir süngüdür əlimdə qələm...»*

**Bayatı:**
Bülbül qonar güllərə,
Qurban şirin dillərə.
Hamı əl-ələ versə,
Yağı neylər ellərə.

● Babanın söhbəti nə üçün maraqlı olur?
Azərbaycan zəhmətkeşlərinin cəbhəyə, Qızıl Orduya köməyi haqqında baba nələr dedi?
Böyük Vətən müharibəsi illərində zəhmətkeşlərin cəbhəyə köməyi barədə daha nə bilirsiniz?

## Zəfər bayramı

Yenə şənlik səsi, yenə tar, qaval,
Yenə ulduzlarla şəhər çıraqban.
Sahilin sayrışan qəndilləri al,
Üzən qayıqlarda fənərlər əlvan.

Hər yaşıl budaqda bir ağ çılçıraq,
Nəğmələr, mahnılar, ney sədaları...
Hər ağac altında bir od, bir ocaq,
Hər şirin süfrədə bahar novbarı!

Dənizin üstündə yanır fişənglər,
Elə bil göylərə səpilir çiçək.

---

[1] Müsəlləh – silahlı

Qaçışır sularda alovlu rənglər...
Bir sonsuz fərəhlə döyünür ürək.

Zəfər bayramıdır!.. Atılır toplar,
Göydən yerə ulduz, şəfəq tökülür.
Hamı şən, hamı şad, hamı bəxtiyar,
Könüllər, çöhrələr, baxışlar gülür.

Ey zəfər topları! Ey haqqın səsi,
Ey yaylım atəşi, qüvvətlə gurla!
Qoy hər il xalqımız bayram gecəsi,
Şanlı döyüşləri ansın qürurla!

*Əhməd Cəmil*

● Zəfər bayramı hansı tarixi günə işarədir?
Xalqımız 9 May qələbə bayramını necə keçirir?
«Ey zəfər topları! Ey haqqın səsi» sözlərini necə başa düşürsünüz?
Axırıncı iki bəndi əzbərləyin.

## ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR

Bu bölmədə hansı hekayə və şeirlərdə Böyük Vətən müharibəsinin dəhşətləri daha canlı verilib?

Böyük Vətən müharibəsində sovet adamlarının qəhrəmanlığından danışın.

Hansı hekayələrdə uşaqların müharibədəki igidliyindən bəhs olunur?

Sovet Ordusunun Qərbi Avropa xalqlarını faşizmdən qurtarmağı haqqında nə bilirsiniz?

Böyük Vətən müharibəsi dövründə ən böyük vuruşmalar haralarda olub?

Böyük Vətən müharibəsi qəhrəmanlarından kimləri tanıyırsınız?

### Ana məhəbbəti

O, günəş tək hərarətli,
Bahar kimi təravətli,
Dağlar qədər möhtəşəmdir.

İgidlər tək istiqanlı,
Ürək kimi həyəcanlı,
Qranitdən möhkəm olur.

Bir çiçəkdir bir dünyada,
Boranda da, şaxtada da
Üzərində şəbnəm olur.

Heç bir zaman üzü dönmür.
Alışdıqca odu sönmür,
Bir alovdur, bu dünyada.

Sellər qədər coşması var,
Çaylar kimi daşması var
Bir ürəyə sığışsa da.

Sən, ey ana məhəbbəti,
Ömrün canlı şeiriyyəti,
Günəşdənmi yaranmısan?

Arzun böyük, eşqin dərin,
Bir ürəksən, ürəklərin
Keşiyində dayanmısan.

*Hüseyn Razi*

● Şair ana məhəbbətini nələrə bənzədir?
Ananın balasına məhəbbətindən danışıldığını şeirdə nədən bilmək olur?
Şairə görə ananın böyüklüyü nədədir?

## Şamama Həsənova

Kommunist Partiyası və Sovet hökuməti kolxoz tarlalarında çalışan adamlarımızın əməyinə yüksək qiymət verir.

Qəhrəman neftçilərimizlə bərabər, yüzlərlə kolxozçuya da Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. Respublikamızda iki dəfə Sosialist Əməyi Qəhrəmanı adı ilk dəfə olaraq Bəsti Bağırovaya, sonra Şamama Həsənovaya verilmişdir.

Bir vaxt çoban Mahmudəlinin yuxusuna da girməzdi ki, onun qızı Şamama böyük bir ölkənin adlı-sanlı adamı olacaqdır.

Pambıq ustası Şamama Həsənova Füzuli rayonundakı «Bir may» kolxozunun sədridir. Şamama Həsənova əvvəllər qızlardan ibarət komsomolçu-gənclər manqasına rəhbərlik edirdi. Onun manqası neçə illər öhdəsində olan sahədən yüksək məhsul götürmüşdü. Şamama Həsənovanın rəhbərlik etdiyi manqa Özbəkistan kolxozçuları ilə yarışırdı.

Kolxozçular yaxşı işini görüb onu öz kolxozlarına sədr seçdilər. Şamama sonralar da yaxşı işlədi və onun başçılıq etdiyi kolxoz respublikamızda ən qabaqcıl kolxozlardan biri oldu.

Şamama daim əzmlə çalışır və böyük qələbələr qazanır. O, ölkəmizin ən xoşbəxt qadınlarından biridir. Hökumətimiz onun zəhmətinə yüksək qiymət vermişdir. Şamama dəfələrlə SSRİ Ali Sovetinin deputatı seçilmişdir.

Respublikamızın kolxozçuları Şamamanın qabaqcıl təcrübəsini öyrənir və öz işlərində tətbiq edirlər. Şamamanın rəhbərlik etdiyi kolxoz hazırda üzümçülüklə də məşğuldur.

**Bayatı:**

Pambıq ellər bəzədi,
Muğan, Millər bəzədi.
Kolxozun tarlasında,
Açdı güllər, bəzədi.

● Şamamaya nəyə görə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir?
Qəhrəman pambıqçı qadınlardan daha kimləri tanıyırsınız?
«Pambıqçı qadınlar» mövzusunda şəkilli albom düzəldin.

## Hədiyyə

Bayramıydı qadınların,
Yerdən, göydən yağırdı nur.
Anaların üz-gözündən
Tökülürdü fərəh, qürur.
Qadınları hamı o gün
Tələsirdi təbrik üçün...

* * *

Ata aldı təzə çətir,
Böyük oğul çiçək, ətir,
Ortancılı kitab aldı,
Lap kiçiksə fikrə daldı.
Ürəyində sevinc, həvəs
Bilməyirdi nə etsin bəs!..
Keçirirdi çox həyəcan,
İrəliyə gəldi bu an.
Gündəliyi açıb birdən
Gülümsündü mehriban, şən.
Anasını qucub qəfil
Körpə quş tək ötdü dil-dil:
-Anamın bir arzusunu
Mən yerinə yetirmişəm.
Bu gün onun bayramına
Çoxluca «beş» gətirmişəm.

* * *

Baxışlarda duyuldu yaz,
Belə ömrün gülü solmaz.
Ana dedi: - Sağ ol, əhsən!
Məni nə çox istəyirsən!

*Cavad Cavadlı*

- Uşaqlar hansı hədiyyələrlə analarını təbrik etdilər?
  Sizcə, ana üçün ən yaxşı hədiyyə hansıdır?
  Siz öz ananızı necə təbrik edirsiniz?

## Kursk qövsündə

*(İşlənmişdir)*

1943-cü il iyulun 5-də səhərin ala-qaranlığında uzaqdan atılan top səsləri bizi yuxudan oyatdı. Ölüm-dirim döyüşləri başladı. Hər bir metr irəliləmə düşmənə böyük itki hesabına başa gəlirdi. Onların zirehli qüvvələrinin göstərdiyi təzyiq sovet müdafiəsinin mətanəti nəticəsində darmadağın olurdu. Faşistlərin böyük ümid bağladıqları ağır «Pələng» tankları və özüyeriyən «Ferdinand» onlara kömək edə bilmədi. Tankçılarımız və zirehdələnlərimiz onları vurub yandırırdılar.

* * *

Gərgin bir intizarla hər dəqiqə döyüş əmri gözləyirdik. Əmr isə ikinci gün alındı: böyük bir dəmiryol qovşağını havadan müdafiə etmək bizə həvalə olunmuşdu. Burada Kursk qövsündə müdafiədə dayanan mərkəzi və Voronej cəbhələri üçün göndərilən qoşun və texnika gəlib keçirdi.

Səhəri gün radio ilə əmr alıb öz qrupumu havaya qaldırdım.

Aşağıda göz işlədikcə yanıb qaralmış Kursk torpağı görünürdü. Qara tüstü burumları hər tərəfi bürümüşdü. Göydə çoxlu təyyarə uçurdu… efirdə bərk səs-küy vardı. Ara-sıra qulaqlıqda tanımadığım təyyarəçilərin səsini eşidirdim:

-Hücuma keçirəm, məni qoru!

-Diqqət, soldan «Messer» görünür!..

Hava döyüşü şiddətlənir, motor uğultusundan, top və pulemyot səsindən səma lərzəyə gəlirdi. Müxtəlif xırıltılar arasından bizim təyyarəçi qızlardan da birinin səsi gəlirdi:

-Şahinlər, irəli, bizdən aşağıda düşmən təyyarələri uçur!

Ətrafa göz gəzdirirəm. «Yunkers»lərin böyük bir dəstəsi hara isə uçur. Bəlkə onlar bizim obyektə gedirlər? Özləri də iyirmiyə yaxındır…

Cəld qərara gəldim:

-Hücuma keçirik!

Təyyarəmi düşmənə doğru döndərib «Yunkers»lərdən birisinin arxasına keçirəm. Döyüş həyəcanı vücuduma

hakim kəsilir. Düşmən təyyarəsini nişangahda tutub tətiyi basıram. Bizim təyyarəçilərdən də hansı isə mənimlə birgə düşmən maşınına hücum etdi. Uzun yaylım atəşi açırıq. Qulaqlıqda Marusya Kuznetsovanın həyəcanlı səsi eşidildi:

-Vur, Züleyxa, səni qoruyuram!

«Yunkers»in qanadlarındakı qara xaç nişanını aydın görürəm. Onu vurub parçalamaq arzusu ilə coşuram, yenidən uzun yaylım atəşi açıram. Bu lənətə gəlmiş «Yunkers»ə güllə-zad batmır, nədir? Mən ona lap yaxınlaşıram. Atəş aça-aça fikirləşirəm: «Əgər vura bilməsəm, taran edəcəyəm...»

Elə onda gördüm ki, «Yunkers» qara tüstüyə bürünüb aşağı yuvarlanır.

Sevincdən özümü itirmiş halda qışqırıram:

-Mariyka, birin vurduq!

Cavab eşidilmədi. Çevrilib baxdım. Yalnız bu zaman məndən uzaqlaşan «Messerşmidt»i görürəm. Başım döyüşə elə qızışmışdı ki, onun arxama necə keçdiyini duymamışdım. Amma Marusya Kuznetsova sayıq idi. O, lap vaxtında mənim köməyimə gəlmiş, atəş açıb «Messerşmidt»in hücumunu dəf etmişdi.

-Çox sağ ol, Mariyka!

Yalnız maşını yerə endirəndən sonra gördüm ki, onun lonjeronu və sükanı güllə ilə dəlik-dəlik edilib. Ancaq bu zaman anladım ki, məni necə böyük bir təhlükə gözləyirmiş… Gözəl təbiətli bu qız ilə möhkəm dost olmuşdum. Biz təkcə səmada deyil, yerdə də bir-birimizdən ayrılmırdıq…

*Züleyxa Seyidməmmədova*

**Atalar sözü:**
Aslanın erkəyi, dişisi olmaz.

● Züleyxaya nə tapşırılmışdı?
O, tapşırığın öhdəsindən necə gəldi?
Mariyka və Züleyxanın möhkəm dost olduğunu nə ilə isbat edərsiniz?
Azərbaycanlı qadınların ruslarla və başqa millətlərin nümayəndələri ilə dostluğuna misallar gətirin.

## Zoya asılan yerdə

Zoya asılan yerdə
Günəş elə parlaqdır,
Otlar elə yumşaqdı.
İnanmırsan bu yerdə
Bir qız asmış
qansızlar.
* * *
Çiçəklər əkmiş bura
Zoya yaşında qızlar.
Üzərində onların
Ağ mərmərdən çox gözəl
Bir abidə ucalmış.
Bura pöhrən ağaclar
Ucalıb kölgə salmış.
* * *
Abidənin üstündə
Şəkli də var Zoyanın.
Xoş arzularla gülür
Mavi gözləri onun.
Şəkil elə qoyulmuş,
O, gündoğana baxır.
Meşələrin üstündən
Günəş də ona baxır.
* * *
Tarlalardan səs gəlir,
Nəğmə oxuyur qızlar.
O səslərin içində
Zoyanın da səsi var.
O, tufanlı illərdə
Qurban getdi Vətənə.
Yaşayır insanların
Ürəklərində yenə.

*Mirvari Dilbazi*

● Şair «O səslərin içində Zoyanın da səsi var» ifadəsi ilə nə demək istəmişdir?
Zoyanın ürəklərdə yaşadığını necə sübut edə bilərsiniz?
Böyük Vətən müharibəsində iştirak etmiş daha hansı qadınları tanıyırsınız?
L.Kosmodemyanskayanın «Zoya və Şura haqqında povest» adlı kitabını oxuyun.

## Zərqələm

*(İxtisarla)*

Onu siz görsəydiniz, mənim qədər sevərdiniz. Təbrizə gəldiyimin ikinci günü idi. Hələ şəhərdə heç bir tanışım yox idi. Səttarxan xiyabanı[1] ilə gedirdim. Birdən qolumun

---

[1] Xiyaban – iki tərəfi ağaclıq olan geniş küçə

dartıldığını hiss etdim. Dönüb baxdım. Bu, bir dilənçi idi. Şirin dil ilə:

-Əybab[1], xoş gəlmisən, - dedi.

Qarşımda on-on bir yaşında kiçik qız dururdu. Başına çoxdan solmuş və indi nə rəngdə olduğu anlaşılmayan bir çadra örtmüşdü. Çadranın altından yırtıq-yamaqlı, bir neçə cür çitdən quraşdırılmış donu görünürdü. Ayaqlarına dabanları əyilmiş bir kişi başmağı geymişdi. Corabı yox idi. Qıçları dizlərinə qədər palçığa batmışdı. Lakin bütün bunlar onun gözəlliyi və incəliyini itirə bilməmişdi.

-Qız, sən məni haradan tanıyırsan? - deyə təəccüblə soruşdum.

O utandı, gözlərini yerə dikdi və astadan dedi:

-Tanımayanda nə olay, əybab? Buyada olan ki deyilsən, gəlməsən də...

-Adın nədir?

-Adımı nə ediysən, puy vey!

Mən ona bir mis pul uzatdım. O, razılıq edib atıla-atıla uzaqlaşdı.

* * *

Mən həmin gündən balaca Zərqələmlə tanış oldum. Yayın istisində, qışın soyuğunda həmişə onu Səttarxan xiyabanının eyni yerində görürdüm. O, oturub dilənməzdi: gözünə xoş və mərhəmətli görünən adamların dalınca bir neçə yoldaşı ilə bərabər qaçardı.

Zərqələmin və yoldaşlarının bir dəstə mehriban iti də vardı. Bu itlər xüsusilə qışda onların işinə yarayırdı. Onlar gecələr qar göydən tökdüyü zaman küçədə bir qapının arasında itlərlə bir yerdə yan-yana, baş-başa verib yatardılar. İtlərin hərarəti bu körpə balaları qızdırırdı. Zərqələm gecələr evdə, anasının yanında yatsa da, yenə də itlərdən ayrılmazdı. Qızların hər biri kimi, o da bir tərəfə gedəndə bu itlərdən bir neçəsi onun dalınca düşərdi. Ancaq qışın çovğununda, soyuq iliklərinə işləyəndə nə Zərqələmin, nə də yoldaşlarının oturub ağladıqlarını görmək olmazdı.

---

[1] Əybab – burada: ağa (qız «r» səsini «y» kimi deyir)

Uşaqlıq öz hökmünü yerinə yetirirdi. Onlar pul alarkən sevindikləri kimi, xəsis bir adamı təngə gətirib qaçırmaqdan da ləzzət alırdılar. Gülə-gülə qayıdıb təzə adama rast gələnə qədər öz aralarında zarafat edər və oynayardılar.

Kiçik dilənçilərin ən qorxulu düşməni bəzi böyük dilənçilərdi. Onlar güclü olduqlarından istifadə edib, balacaların yığdıqları pulları əllərindən alır, öz razılıqları ilə vermədikləri zaman döyüb incidirdilər. Onlar hətta kiçik dilənçilərin gözlərini o qədər qorxudurdular ki, balacalar yığdıqları pulun bir qismini gətirib, həmin böyük dilənçilərə verməyə məcbur olurdular. Mən bir dəfə Zərqələmin belə bir dilənçi tərəfindən döyüldüyünü gördüm. Pırtlaşıq saçları gözlərinə qədər enmiş, kifir, çirkli və üst-başı üfunət qoxuyan iri bir oğlan Zərqələmin yolunu kəsərək, ondan yığdığı pulları istəyirdi. Zərqələm məni görəndə cürətləndi və gözünün yaşını üzünə axıda-axıda:

-Əybab, bunu döy, - dedi, - pullayımı alıy.

Zərqələmi oğlanın əlindən xilas etdim. O mənə daha çox yaxınlaşdı, etibar etməyə başladı. Bir gün Zərqələm mənə həyatından və ailəsindən danışdı. Artıq biz onunla görüşəndə bir-birimizi dost kimi mehriban qarşılayırdıq.

Bir dəfə görüşəndə Zərqələm:

-Əybab, puy istəmiyəm, söhbət edək, - dedi və əlavə etdi: - Sizin adamlay yaxşı adamlaydı.

Zərqələm «sizin adamlar» dedikdə Sovet Ordusunun əsgərlərini nəzərdə tuturdu. Onlar sovet ölkəsində dilənçi görməyə alışmadıqlarından, bu cür sahibsiz uşaqları dəstə ilə görəndə ürəkləri yanır və yerlilərdən qat-qat çox pul verirdilər.

Zərqələm sonralar məndən pul istəməzdi. Dost kimi yaxınlaşar, salamlaşar, maraqlı bildiyi söhbətlərdən edər, yaxud suallarıma cavab verərdi. Mən Zərqələmin kor anasının onu dilənçiliyə göndərdiyini, ən kiçik ehtiyacları ödəmək üçün gündə ona, heç olmasa, bir tümən[1] yığmağı tapşırdığını öyrəndim. O, bəzən axşam qaranlıq düşərkən

---

[1] Tümən – təxminən on manat

rast gələndə salam verib, evə getmək istədiyini bildirərdi. Zərqələmin bu xəbərdarlıqdan məqsədi vardı. Mən bunu bilirdim. Demək olar ki, hər axşam bizim aramızda belə söhbət olurdu:

-Əybab, deyiyəm, axı gecdiy, gedim evə.

-Get, ancaq işlər necədir, Zərqələm? - deyə, soruşurdum.

Zərqələm yalan deməzdi. Əgər təyin olunmuş qədər pul yığıbsa, mərd-mərdanə:

-Əybab, yaxşıdıy, - deyər və uzaqlaşardı. Yox, əgər yığmayıbsa: - İşləy xayabdı, əybab, beş qyanım çatmıy.

Beş qranı[1] alınca sevinər, bir quş kimi qanadlanıb, evlərinə uçardı.

Zərqələmin atası beş il bundan qabaq ölmüş, üç balası yetim qalmışdı. Uşaqlardan biri – Zərqələmdən kiçik Mehparə adlı bir qız, biri də Zərqələmdən böyük İmaməli adlı bir oğlan idi. İmaməlini xalça karxanasında şagird qoymuşdular. Uşaq hər gün səhər saat altıda durub karxanaya gedir, axşam qaranlıq düşəndə evə gəlirdi. İmaməlinin qazancı çox az idi. Ona əvvəllər gündə iki qran, sonra isə dörd qran muzd kəsmişdilər. Zərqələmin dilənçilikdən yığdığı pul İmaməlinin qazancından iki-üç dəfə artıq olurdu. Buna görə də anaları Səlimə Zərqələmi dilənçiliyə göndərməyi işə qoymaqdan üstün tutmuşdu. Hərdən qonşular qızını dilənçiliyə göndərdiyi üçün Səliməni məzəmmət edəndə o, cavab verirdi:

-Nə edim, oğlumu qoymuşam, görmüşəm də, qazancı yox, balam da saralıb-solur. Daha dilənçilikdən başqa gücüm nəyə çatır?

Həqiqətən, dilənçilik karxanada o cür şəraitdə işləməkdən yaxşı idi. Xalça karxanası günəş üzü görməyən iki rütubətli otaqdan ibarət idi. İmaməli burada gündə azı on saat yaş torpağın üstündə oturmalı və xalça toxumalı idi. Uşağın beli indidən bükülmüşdü. Kiçik Mehparə isə evdə oturub gözləri kor olmuş anasını saxlayırdı...

*Əvəz Sadıq*

---

[1] Qran – tümənin onda biri (xırda pul)

- Zərqələm kim idi?
  O nə üçün dilənirdi?
  Zərqələm və yoldaşları niyə itlərlə dost olmuşdular?
  Böyük dilənçilər balaca dilənçilərlə necə rəftar edirdilər?
  Zərqələm sovet adamlar barəsində nə deyirdi? Bunun səbəbi nə idi?

**Mənim andım**

*(İxtisarla)*

Mən körpəmi xoş günlərçün bəsləyib,
Beşik üstə ağartmışam başımı.
Mən körpəmi səadətə səsləyib,
Zəhmətimlə keçirtmişəm yaşımı.

Mən körpəmi atomların odunda,
Yandırmaqçın verməmişəm dünyaya.
Səadəti yaşatmaqçın görmüşəm,
Mən bir ilin işini bircə aya.

Gecələri sübhə qədər onunçun,
Başı üstə həzin layla çalmışam.
Balaların səadəti naminə,
Gecələri çox vaxt oyaq qalmışam.

Mən demədim: qara gözlü oğlumu
Cəbhələrə yola salım bir daha.
Mən dedim ki, bütün dünya göz açsın,
Mənim kimi bir işıqlı sabaha.

Yaşıl bağda sakit yatan körpəmin
Kölgə salıb beşiyinə yarpaqlar,
Qönçələnmiş gül kolları dibində
Şən nəğmələr oxuyurlar uşaqlar.

Mən qoymaram qəm buludu onların
Bir də qara kölgə salsın üzünə,

Mən qoymaram dəysin düşmən ayağı
Vətənimin torpağına, düzünə!

Milyonlarla anaların andıdır –
Qanlı hərbə mənim nifrət şüarım.
Sülh andımız səsləndikcə dünyada
Xəzan olmaz bu çiçəkli baharım!

*Mirvari Dilbazi*

● Şair nə üçün müharibənin əleyhinədir?
Ananın öz uşağını ürəkdən sevdiyini bildirən misraları oxuyun.
Şairin öz vətənini qəlbən sevdiyini bildirən misraları oxuyun.
«Mən dedim ki, bütün dünya göz açsın,
Mənim kimi bir işıqlı sabaha» sözlərini necə başa düşürsünüz?
Şeirdə başlıca fikir nədir?

## Mənim də Vətənim var

*(İxtisarla)*

Mustafa boş vaxtlarında gedib limanda yük daşıyardı. Qazancı lap az olurdu. Bu vaxt gözlənilmədən ayaqyalın, uzun qara paltar geymiş bacısı qızı Cəbriyyə kənddən gəldi. Qız dərdli-dərdli Mustafaya dedi:

-Onlar babamı öldürdülər!

Cəbriyyə başını Mustafanın çiyninə qoyub acı-acı ağladı. Mustafa nəvazişlə qızın başını sığallayıb, fikrə getdi:

-Mən indi bu yazıq uşağı necə saxlayacağam?

* * *

Qız həmişə kənddə, babasının yanında qalırdı. Baba onun üçün həm ata, həm də ana idi.

Son vaxtlarda baba dəyişilmişdi. Fikri dağınıq olmuşdu, süfrə başında çox iştahasız yeyirdi. Papiros çəkir, hey kəndxudanın dalınca deyinirdi.

Amerikalı zabitlər kəndə gəlmişdilər. Onlar qarğıdalı tarlalarında raket bazaları tikməyə hazırlaşırdılar; buna görə də özlərinə fəhlə tuturdular.

Yaşlı kəndlilər qarğıdalı tarlalarını əllərindən vermək istəmirdilər.

Cəbriyyənin babası deyirdi:

-Nahaq yerə zəhmət çəkirlər, mən burada anadan olmuşam, boya-başa çatmışam. Uşaqlıqdan bu bir parça torpaq məni saxlayır. Bunu da gəlmələrə verib, qoca vaxtımda dilənməyə gedim? Yox! Axı onlar məni kimdən müdafiə etmək istəyirlər? Heç kəs məni hədələmir. Mənə torpaq lazımdır, onu mənim əlimdən yalnız ürəyimlə bir yerdə ala bilərlər.

Bədbəxtlik, fəlakət gözlənilmədən baş verdi. Baba axşam evə qayıtmadı. Səhər tezdən Cəbriyyə axtarıb onun meyidini tapdı. O, tapança gülləsindən ölmüşdü. Dərddən başını itirmiş Cəbriyyə özünü al-qana boyanmış babasının üstünə saldı. Günortaüstü kəndxuda gəlib güclə qızı babasından ayırıb, oradan qovdu... Həmin gecə qonşuların məsləhəti ilə Cəbriyyə şəhərə qaçdı...

Cəbriyyə indi ağlamaqdan qızarmış gözlərini Mustafaya zilləyib durmuşdu:

-Nə edim? Qıza necə kömək edim? Şəhərdə onların uzaq bir qohumları olur. Bəlkə, xahişə onun yanına gedim, - deyə Mustafa fikirləşdi.

Onun adı Zikriyyə əfəndi idi. O, hansı bir Amerika qəzetininsə redaktoru idi, evdə də öz ana dilində danışmırdı. Buna görə Mustafa belə bir qohumla danışmaq belə istəmir, ondan uzaq gəzirdi.

İndi istər-istəməz Zikriyyə əfəndiyə ağız açmalı olacaq... Mustafa, babanın əhvalatını ondan gizlətməyi qərara aldı. Əgər bilsə, yəqin ki, Cəbriyyəni heç cür qəbul etməz. Mustafa bacısı qızına dedi:

-Sən orada babanın ölümü barədə bir kəlmə də danış-ma... De ki, qonaq gəlmisən. İstambulu görmək istəyirdin.

* * *

Cəbriyyənin Zikriyyə əfəndinin evində olması bu ailənin həyatında heç bir dəyişiklik etmədi. Qızın qarşısında bircə şərt qoymuşdular: özünü sakit aparsın, qohumları narahat eləməsin.

Ancaq Cəbriyyə elə ilk gecə bütün evdəkiləri ayağa qaldırdı. O, başında yaşıl beret, böyründə tapança asılmış, qısa şalvarlı zabiti yuxuda görmüşdü. Cəbriyyə qışqırıb yuxudan oyandı, onun qışqırığına qulluqçu yüyürüb gəldi. Cəbriyyə ondan bərk-bərk yapışdı:

-Getməyin, mən qorxuram!

Səhər bunu heç kəs üzə vurmadı.

Cəbriyyə şəhəri gəzməyə çıxdı. Babası həmişə İstambulu çox tərifləyərdi. «Böyüyərsən, səni mən oraya gəzməyə apararam», - deyərdi.

İndi o, təsəvvür etdiyi kimi böyük, əzəmətli şəhərdə gəzirdi. O, hara istəsəydi, gedə bilərdi. Xoşuna gələn şeyə istədiyi qədər tamaşa edə bilərdi. Ancaq o, yavaş-yavaş, ehtiyatla gəzirdi.

Böyük küçəyə gəlib çıxanda yuxuda gördüyü zabitlə rastlaşdı. Əlbəttə, bu həmin zabit deyildi, ancaq ona çox oxşayırdı. Cəbriyyə qorxdu, adamlara baxmadan qaçmağa başladı...

Ancaq zabit hər yerdə onun qabağına çıxırdı. Elə bil bütün şəhəri onlar tutmuşdular.

Hər dəfə Cəbriyyə zabitə rast gələn kimi qorxudan əsim-əsim əsirdi... Ona elə gəlirdi ki, hər bir ağacın altından zabit sıçrayıb onun üstünə atılacaqdır.

Cəbriyyə evə tələsirdi. Şam eləməyib, axşamdan yerinə girdi. Gecə isə yenə də həmin əhvalat təkrar olundu: yuxuda zabiti gördü.

-Əgər bu, yol yorğunluğundandır, onda qorxusu yoxdur. Birdən qıza cin-şeytan toxunmuş olar? - deyə, qulluqçular həyəcanla pıçıldaşırdılar.

O biri gün Cəbriyyə gəzməkdən lap tez qayıtdı. Yolda yenə də zabitə rast gəldi. Zabit onun babasına çox oxşayan bir qocaya yumruq ilişdirdi, qoca yerə yıxıldı. Cəbriyyə geri dönüb evə qaçdı. Ona elə gəldi ki, zabit onun dalınca gəlir.

Cəbriyyə dala baxmadan xeyli qaçdı. Qüvvədən lap düşəndə canını dişinə tutub geri baxdı. Qorxudan az qaldı ürəyi partlasın: gözünə yenə zabit göründü.

Evə çatıb bir küncə sıxılaraq sakitləşdi. Ancaq burada da onun dumanlanan gözlərinə yenə həmin zabit göründü. Sanki dişlərini ağardaraq Cəbriyyəyə baxırdı. Qız qışqırırdı.

Qulluqçular tökülüb gəldilər. İndi onlar daha əmin oldular ki, qıza nəsə olub.

Zikriyyə əfəndi özü də gəldi. Qıza nə olduğunu, nədən qorxduğunu soruşdu.

* * *

Bu vaxt Cəbriyyə babasının ölümünü və zabit haqqındakı əhvalatı olduğu kimi danışmağa məcbur oldu.

Zikriyyə əfəndi əl ağacını oynada-oynada qıza qulaq asdı, sonra dinməzcə çıxıb getdi.

Bir saatdan sonra qulluqçu Cəbriyyəyə bir boğça verdi. Boğçanın içində çörək, paltar və qaloş var idi.

-Qızım, yaxşı olar bir də buraya qayıtmayasan, - deyə, gözləri yaşarmış qulluqçu dilləndi; onu küçə qapısından bayıra ötürdü.

Cəbriyyə yenə də Mustafanın yanına gəldi. Görünür, Mustafa bunu gözləyirdi, ona görə də Cəbriyyənin qayıtmasına qətiyyən təəccüb eləmədi...

Cəbriyyə Mustafanın yanında, tələbə yataqxanasında qalmalı oldu. O, çox tezliklə tələbələrə alışdı. Yavaş-yavaş onların bərkdən etdikləri mübahisələrinə qulaq asmağa başladı.

Cəbriyyə mənasını bilmədiyi «vətənpərvər» sözünü dəfələrlə təkrar edirdi.

Bir dəfə Cəbriyyə Mustafadan soruşdu:

-Mustafa, «vətənpərvər» sözü nə deməkdir?

-Vətənpərvər bütün qəlbi, varlığı ilə vətənini sevən adama deyirlər, - deyə, Mustafa cavab verdi.

-Mustafa, mənim də vətənim var?

Mustafa fikrə getdi, sonra dedi:

-Sənin vətənin – sənin anadan olduğun kənddir. İstambul şəhəridir. Türkiyədir! Sən öz vətənini sevməlisən!

Cəbriyyənin yadına həmin zabit düşdü. Ancaq indi o, qorxmurdu. İndi Cəbriyyə bilirdi ki, onun da Vətəni var. İstambul da, Türkiyə də onun özününküdür...

*Əsgər Muxtar*

● Cəbriyyənin babasını nə üçün öldürmüşdülər?
O, nə üçün İstambul şəhərinə gəlmişdi?
Zikriyyə əfəndi Cəbriyyəni nə üçün qovdurdu?
Zabitləri görəndə Cəbriyyə nə üçün qorxurdu?
Hekayəni hissələrə ayırıb, hər hissəyə başlıq verin.
Hekayənin başlıca mənası nədir? İzah edin.

## Qadın əlləri

Qadın əllərinin nəvazişini
Yaraşıq bilmişəm öz ömrümə mən.
Canıma od axıb, gözümə işıq,
O zərif əllərin hərarətindən.
Ah, necə yumşaqdır ana əlləri –
Körpə şirin-şirin uyuyur onda.
Fəqət möhkəm olur, ağır, sərt olur
Qılınc götürəndə, tüfəng tutanda.
Ay qadın əlləri, parça üstünə
Nə incə naxışlar salırsınız siz.
Şimşək olursunuz – uca dağlardan
O vaxt ki, daşları endirirsiniz.
Elə ki yol tapır qəlbimə kədər,
Əvəzsiz həkimim, məlhəmim olur.
Mənə qucaq açan qayğılı əllər.

*Nazir Nəcmi*

● Şair qadın əllərini nələrə bənzədir?
Şeirdə ifadə olunan arzu nədən ibarətdir?
Şeirdə ana ilə əlaqədar hansı ifadə daha çox xoşunuza gəlir?

### Bahar gəlsin

Gözəl bahar, gözəl bahar!
Yurdumuza tez gəl, bahar!
Gəl oyansın sıx meşələr.
Yasəmənlər, bənövşələr,
Gəlişinlə ətir saçsın.
Alma, armud çiçək açsın.
Bu düzlərdə, bu dağlarda
Yaşıl donlu budaqlarda
Quşlar şirin nəğmə desin.
Həyat versin xoş nəfəsin
Bərəkətli torpaqlara,
Mehribansan uşaqlara.
Sən gələndə, gözəl fəsil,
Baxçamızda mən keçən il
Badam, püstə, nar əkmişəm.
Öz həvəsim var, əkmişəm.
Düymələnib budaqları,
Gəl, açılsın yarpaqları,
Qoy yayılsın günəş düzə,
«Gəl! Gəl!» desin dəstəmizə
Ağacların xoş kölgəsi,
Bağçaların nəğmə səsi
Çulğalasın başdan-başa,
Gəl, səninlə gəzək qoşa.

*Məmməd Rahim*

**Tapmaca:**
Bağda uçur səhər-səhər,
Verir bizə yazdan xəbər.

● Şeiri diqqətlə oxuyun, kimin dilindən yazıldığını deyin.
Şagird nə üçün yazın gəlməsini arzulayır?
Yazda hansı ağaclar çiçəkləyir?

Şagird hansı ağacları əkmişdi?
Şeirdə Günəşlə əlaqədar nə deyilir?
Şeiri ifadəli oxuyun.

## Bahar nəğməsi

Dəyişir donunu meşə, dağ, dərə,
Al-əlvan geynir hər təpə, hər dağ,
Çöllərdə görünür başqa mənzərə,
Oxuyur bağlarda şur[1] ilə bülbül.
Bağçalar gül açıb, yenə yaz gəlir,
Hər yana baxırsan xoş avaz[2] gəlir.

Titrəsin zəmilər dəryalar kimi,
Vurulsun taylar qayalar kimi,
Çöllərdə görünür başqa mənzərə,
Oxuyur bağlarda şur ilə bülbül.
Bağçalar gül açıb, yenə yaz gəlir,
Hər yana baxırsan xoş avaz gəlir.

*Abdulla Şaiq*

● «Al-əlvan», «mənzərə», «vurulsun», «xoş avaz» sözlərini eyni məna verən başqa sözlərlə əvəz edin.
«Gəlir», «gəlir», «kimi», «kimi» təkrar olunan sözlərdən əvvəl gələn eyni ahəngli sözləri tapıb və musiqililiyinə diqqət yetirin.

## Yaz deyir ki…

Yaz deyir ki, bağlarım var,
Güllərim var çiçək-çiçək,
Qoxla məni, ətrimi çək.
Mənə könül bağlayanlar,
Hər sirrimi saxlayanlar
Boran üzü görməyəcək.

---

[1] Şur – burada: həvəs
[2] Avaz – səs

Adım yazdır, gələndə mən
Axar çaylar daşa-daşa.
Haray salar dağa-daşa.
Seyrə çıxar oylağımı,
Hər bağçamı, hər bağımı
Əziz dostlar qoşa-qoşa.
Adım yazdır, gələndə mən
Yağış yağar narın-narın,
Üzü gülər torpaqların.
Günəş bizə qonaq gələr,
Kölgəsində quş dincələr
Yaşıl, gözəl yarpaqların.

*Səməd Vurğun*

● Şeirdə yazın hansı əlamətləri verilir?
Şeiri əzbərləyin.

**Bağlar**

Yay – budağı **çiçək-çiçək**,
Yaz – yarpağı **ləçək-ləçək**,
Payız – barı **gözəl-göyçək**.
Min bir dərdə şəfa bağlar,
Qoynu dolu səfa bağlar.
Kölgələrin **sərin-sərin**,
Bir aləmdir hər səhərin.
**Şirin-meyxoş** meyvələrin
Min bir dərdə şəfa, bağlar,
Qoynu dolu səfa bağlar.
Budaqların **peyvənd-calaq**,
Narın, heyvan **qalaq-qalaq**.
**Alma-armud**, qozun bitraq,
Sıralanıb düzəl, bağlar!
Bir-birindən gözəl bağlar!

*Rəsul Rza*

**Tapmaca:**
O nədir ki,
Kötüyü göydədir,
Budağı yerdə.

● Birinci bəndin məzmununu öz sözlərinizlə danışın.
Şeirdə qara hərflərlə verilən qoşa sözlərin aralarındakı fərqi söyləyin.
Sizin kənddə (şəhərdə) hansı meyvələr yetişir?
Şeiri əzbərləyin.

## Sərçə

*(İxtisarla)*

Ovdan qayıdanda bağın içi ilə evə gedirdim. Ov itim də qabağımca qaçırdı. O, birdən yerişini yavaşıtdı. Qarşısında ov duymuş kimi, yata-yata yeriməyə başladı. Diqqətlə baxdıqda qarşıda sarıdimdik, başı tüklü bir bala sərçə gördüm. O, uça bilmirdi. Külək onu ağacdakı yuvadan yerə salmışdı. Aciz sərçəcik yeni çıxmış qanadlarını açıb hərəkətsiz halda oturmuşdu.

İt yavaş-yavaş balaca quşa tərəf gedirdi. Elə bu vaxt yaxındakı ağacdan ana sərçə qalxıb, tez itin qabağında yerə qondu.

O, ucadan cikkildəyir və tüklərini qabardıb qanadlarını çırpa-çırpa itə hücum edirdi. Ana sərçə balasını xilas etmək üçün itlə vuruşmağa, özünü ölümə verməyə hazır idi.

İt onun gözündə yekə bir pələng kimi görünürdü. Buna baxmayaraq, o, hündür ağacın budağında rahat otura bilməmişdi. Balasına olan güclü məhəbbət onu yerə atılmağa məcbur etmişdi. O, körpə balasını xilas etmək üçün özünü ölümə verirdi. Bir tərəfdən öz qorxusu, o biri tərəfdən də balasını xilas edə bilməməsi ana sərçəni acınacaqlı bir hala salmışdı.

Bu vəziyyəti görən it dayandı, sonra da bir-iki addım geri çəkildi... Görünür, itin sərçəyə yazığı gəlirdi.

Mən döyükmüş iti geri çağırıb cəld oradan uzaqlaşdım…

*İvan Turgenev*

- Quşlar nə üçün yazda bala çıxarırlar?
  Heyvanların və quşların öz balalarını düşməndən qorumalarına dair daha nə bilirsiniz? Danışın.
  Yazda quşların həyatına aid eşitdiklərinizi danışın.
  Hekayəni nağıl edin.

## Qarışqa və milçək

Dedi bir gün qarışqaya milçək:
«Sən zirəksən və ya ki mən zirək?»
Hara mən istəsəm uçub gedərəm,
Özümə hər yeri yuva edərəm.
Hər xörək üstünə qonub yeyərəm,
Səndən artıq hünərliyəm, deyərəm.
Sən əgər dən gətirməyə gedəsən,
Sənə mümkün deyil fərar edəsən[1]
Məni hərgah[2] ki, qovsalar, qaçaram,
Uçmaqda onda[3] qol-qanad açaram.
Qanadım vermiş ixtiyar mənə,
Yoxdur əsla qəmim, nə var mənə?
Xörəyimdir həmişə amadə[4],
Kim yaşar mən kimi bu dünyadə?
Yoxdur əsla nə hörmətin, nə yerin,
Söylə, aya, nədir sənin hünərin?
Dedi qarışqa: «Kəs daha sözünü,
Bəsdir, az tərif eylə öz-özünü.
Yay günü yığmayanda mayehtac[5]
Qış olanda, odur, qalarsan ac.
Çəkərəm yayda mən əgərçi cəfa[6],
Sürərəm leyk[7] qış zamanı səfa[8].

---

[1] Fərar etmək – qaçmaq
[2] Hərgah – əgər
[3] Onda – o zaman, o vaxt
[4] Amadə – hazır
[5] Mayehtac – yem
[6] Cəfa – əziyyət
[7] Leyk – lakin, ancaq
[8] Səfa sürmək – yaxşı dolanmaq; yaxşı ömür sürmək

İşdən ötrü ki, getmədi tənbəl,
İşinin axırı olar əngəl.
Çəksə hər kim bir qədər zəhmət,
Olar, əlbəttə, hər zaman rahət».

*Abbas Səhhət*

**Atalar sözü:**
Milçək bir şey deyil, könül bulandırır.

**Tapmaca:**
Yazda yığar yeməyini,
Çox sevər öz əməyini.
Yuvasında baharadək
Yeyib yatar, tapın görək.

● Milçək nə üçün lovğalanırdı?
O, qarışqaya nə dedi?
Qarışqa onun sözlərinə nə cavab verdi?
Onların hansı haqlıdır?
Şair şeiri ilə nə demək istəyir?
Qarışqa nə üçün yazdan özünə azuqə toplayır?
Yazda cücülərin həyatına dair hansı maraqlı hadisələr müşahidə etmişsiniz? Danışın.

## Şir və tülkü

*(Nağıl)*

Başı buluda çatan Şah dağının ətəyində qalın bir meşə vardı. Meşə cürbəcür heyvanlar və quşlarla dolu idi. Bu meşədə həmin Şir şahlıq eləyirdi. O öz-özünə bitib tökülən meyvələrdən birini də dilinə vurmur, ova gedir, təzə ət yeyirdi. Şir yatıb yuxuya gedəndə belə digər heyvanlar ondan gen gəzir, göydəki quşlar qanad salırdı.

Bir gün Şah dağının Şiri ova çıxdı, çox gəzdi, çox dolandı, ancaq əlinə heç nə düşmədi; bütün gecəni ac yatdı. Sabahı açıb yenə ova getdi, bu dəfə onun pəncəsinə şələquyruq Tülkü keçdi.

Qəzəbli Şir dişlərini qıcadı:
-Yeyəcəyəm səni… Bəs bu neçə gündə harada itib-batmışdın?
-Xalamgilə getmişdim.
-Niyə getmişdin?
-Getdim xalama deyim ki, mənə xoşbəxtlik üz veribdir.
-Nə xoşbəxtlik?
-Bəs yuxuda görmüşəm ki, Şah dağının şahına qismət olmuşam.
Ağzı köpüklənən Şir bar-bar bağırdı:
-Yalan deyirsən! Gözlərinin içinə, bəbəyinin ortasına qədər yalan deyirsən!
-Şahın öz başına and içirəm!
-Mən səni indicə parçalayacağam!..
Şələquyruq Tülkü Şirin pəncələrini tumarlayıb dabanlarını yaladı:
-Qurd-quşa yem olmaqdansa, şaha qismət olmaq mənə xoşdur. Mən anadan gör necə xoşbəxt doğulmuşam ki, Şah dağının böyük şahına yem oluram!
Şələquyruq Tülkünün yağlı dili qəzəbli Şirin ürəyini yumşaltdı:
-Bəs mən səni parçalamasam nə təhər?
Tülkü əlləri üstə dikəldi:
-Yox, siz məni yeyin... Axı siz acsınız!
-Əgər səni bağışlasam, necə?
-Onda ömrüm uzunu sizin qulunuz olaram.
Şələquyruq Tülkünün sözləri Şirin xoşuna gəldi. Tülkü sağ qaldı, getdikcə Şirin qılığına girdi, onun ürək dostu oldu. Şirin mağarasını öz yumşaq quyruğu ilə silib-süpürdü, itaətində durub bir sözünü iki eləmədi…
Şir hər nə ovladısa, gətirib süfrəyə tökdü, Şələquyruq Tülkü Şirin bol süfrəsindən doyunca yedi. Ağası başını qoşa pəncəsinin üstünə qoyub istirahət edəndə şələquyruq, Şirin misilsiz igidliklərindən söz açdı, basıb-bağladı, olanı-olmayanı onun adına çıxdı.
Vaxt dolandı, vədə ötdü, bir gün Şir ovdan yaralı döndü… Tülkü Şirin yüngül yarasına baxıb gözlərindən

qanlı yaş axıtdı. Cəld şahın yarasını bağladı. Bir neçə gündən sonra yarası sağalan Şir yenə ova çıxdı və ağır yaralanıb mağarasına qayıtdı.

Tülkü diqqətlə yaralı Şirə baxıb, bu yaradan da ölməyəcək deyə yenə də ağasına qulluq göstərdi, birbaş Şirin pəncələrinə sərildi:

-Məni yeyin, şahım! Siz ac qalmayın! Qoyun bu dəfə arzuma çatım!..

Şir nə qədər ac olsa da, Tülkünün tükünü də tərpətmədi. Sınaqlardan çıxan şələquyruq Tülkü Şah dağı şahının vəziri oldu. İndi daha artıq ərklə Şahın süfrəsində yedi, içdi, get-gedə yağlanıb şişdi. Bir gün Şir Şah dağının ətəyində qılınclı-qalxanlı bir pəhləvanla üzləşdi, çox ağır yara aldı, sürünə-sürünə mağarasına gəldi. Bu dəfə də Tülkü zənlə Şirə baxdı: «Yox, daha yüz canı olsa, bir də qalxa bilməz!» - dedi.

Ağır yaradan ürəyi od tutub yanan Şir dostunu səslədi:

-Su!.. Mənə bir qurtum su!..

Toy-bayram edən Tülkü caynaqları boşalan Şirin ağzını əydi:

-Sən belə kimdən su istəyirsən, kaftar?

-Səndən başqa bu Şah dağında mənim kimim var ki?!

-Sən məni özünə əbədi nökər tutmusan?!

-Məgər sən bir zaman mənim bu pəncələrimə sərilib «qulunam» demirdinmi?

Şələquyruq iri bir daş qucaqlayıb üstdən aşağı Şirin yarasına çırpdı:

-O vaxt mən sənin qulun olsam da, indi sən mənim ayaqlarımın çulusan!..

Tülkünün xainliyini görən Şir öz dirsəyini yerə dayayıb, bütün hiyləgərliyi üzə çıxan Tülkünün cəzasını vermək istədi. Tülkü isə sıçrayıb mağarada hündür bir yerə qalxdı, əlini-əlinə çəkib güldü:

-Bu qədər vaxtda mən sənin dərini gözləyirdim, sarsaq! Yoxsa, mən əzəl gündən belə sənin atanın nökəri-zadı deyildim!..

Kim bilir, bəlkə də, Şah dağı Şirinin ağır yarası sağalacaq, o, dizlərini dayayıb ayağa qalxacaqdı… Ancaq Şir daha qalxmadı. Pəhləvanın qılınc yarası yox, şələquyruq Tülkünün dil yarası Şiri bir daha qalxmağa qoymadı…

*Süleyman Rəhimov*

**Atalar sözü:**
Qılınc yarası sağalar, dil yarası sağalmaz.
Nə yada sirrini ver, nə namərdə bel bağla.

● Tülkü Şirin qılığına necə girdi?
Nə üçün Şir Tülkünü parçalamadı?
Şir ağır yaralandıqdan sonra Tülkü özünü necə apardı?
Nağılda başlıca fikir nədir?

## Bahar

Bağçalarda açır gül
Fərəhlənir hər könül.
Uçur duman, qəm, kədər,
Şən-şən ötür hər bülbül.
Yaşıllanır dağ, yamac,
Bəzək vurur hər ağac.
Dərə, təpə, çöl, çəmən
Çiçəklərdən qoyur tac.
Bahar eylədikcə naz,
Elin kefi olur saz.
Əkir, biçir həvəslə,
Deyir: – Var ol,
Gözəl yaz!

*Abdulla Şaiq*

● Şeirdə baharın hansı əlamətləri göstərilir?
«Bəzək vurur hər ağac» ifadəsi ilə şair nə demək istəyir?
Çiçəklərdən tac qoymaq fikrini necə başa düşürsünüz?

«El» sözünü eyni məzmunlu başqa sözlə əvəz edin.
Şairə görə, həvəslə əkib-biçən kimlərdir?
«Var ol, gözəl yaz» ifadəsi kimə məxsusdur?

## Yağış

Ağacların canı yağış,
Tarlaların qanı yağış.
Göydən yerə töküləndə
Tutursan hər yanı, yağış.

Yağ, torpaqlar olsun sulu,
Yaşıl bağlar olsun sulu.
Səndən fayda gəlsin elə,
El götürsün bol məhsulu.

Şırhaşırla yağ, ey yağış!
Bərəkətli olsun tarla.
Deyək sənə biz min alqış,
Bağlar yayda dolsun barla.

*Mirmehdi Seyidzadə*

● Yağış nə üçün yazda çox yağır?
Yağışın xeyri nədir?

## ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR

«Yaz» bölməsində daha çox xoşunuza gələn nə oldu?
Yazda təbiətin necə dəyişdiyindən danışın.
Yazda tarlalarda hansı işlər görülür?
Yazda heyvanların və quşların həyatı necə keçir?
Yazın əlamətləri hansı hekayə və ya şeirdə daha yaxşı verilib?
Yaza aid sözlər tapıb deyin.

# SOVET KOSMONAVTLARI

1961-ci il 12 aprel. Bu gün haqqındakı xatirə dünya durduqca yaşayacaqdır. Aprelin 12-də Yer üzünün bütün xalqlarının dilində iki söz gəzirdi: Yuri Qaqarin.

Dünya tarixində birinci dəfə kosmosa yol açan sovet vətəndaşının adı dillər əzbəri olmuşdur.

Qabaqcıl texnika əsasında yaradılmış hava gəmisində kosmosa ilk dəfə səyahət edən adam sağ-salamat yerə qayıtmışdı. Onun adı Yuri, familiyası da Qaqarindir. Xalqın və partiyanın sadiq oğlu Yuri Qaqarin kommunizmin polad qanadları üzərində səmalara yol açdı. O, neçə yüz kilometr yüksəyə qalxıb, 108 dəqiqə ərzində dünyanın ətrafına bir dəfə fırlanıb yenə də sovet torpağında yerə endi. Təyyarəçi-kosmonavt Yuri Qaqarin bu böyük qələbə haqqında partiya və sovet xalqına raport verdi. Sosialist Vətənimiz öz igid oğlunu bağrına basıb, onu xalqımız adından səmimi salamladı.

Yuri Qaqarinin Moskvada qarşılanması böyük bir bayrama çevrildi. Hamı qəhrəmanla görüşmək üçün gül-çiçəklərə, meydanlara çıxmışdı. Atalar, analar, uşaqlar və qocalar bir ağızdan «Yuri Qaqarinə eşq olsun!» deyirdilər. Bu sözlərdə böyük bir həqiqət var idi. Yuri Qaqarin Vətənimizin şöhrətini ucaltmış, sovet elm və texnikasının gücünü bir daha sübut etmişdi.

Partiya və hökumətimiz Yuri Qaqarinin hədsiz rəşadətini yüksək dərəcədə qiymətləndirdi, ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı verdi.

Biz hamımız Vətən oğlu Yuri Qaqarinlə fəxr edirik.

Sosialist Vətənimizdə Yuri Qaqarin tək deyildir. 1961-ci il avqustun 6-da German Titov sovet kosmik gəmisində havaya qalxdı. O, kosmosa 25 saat uçdu, yerin ətrafına 17 dəfə fırlandı, ertəsi günü sağ-salamat yerə endi. Xalqımız German Titovu da təntənə ilə qarşıladı, onun açıq alnından ata məhəbbəti ilə öpdü.

German Titova da Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi.

1962-ci ilin yayı sovet xalqına yeni bir qələbə gətirdi. Sovet kosmonavtları Andrian Nikolayev və Pavel Popoviç dünyada ilk dəfə kosmik gəmilərdə qruplarla uçuş keçirdilər. Onlar bu dəfə yerin ətrafında bir neçə gün fırlandılar. A.Nikolayevə və P.Popoviçə də Sovet İttifaqı Qəhrəmanı adı verildi.

1963-cü il iyunun 14-də Valeri Bıkovski kosmosa uçdu. Ondan üç gün sonra dünyada ilk dəfə olaraq sovet qadını Valentina Tereşkova da kosmosa uçdu. Onlar Bıkovski ilə birlikdə uçuş keçirdilər. Sonrakı illərdə kosmosdan bir-birinin ardınca yeni sovet şahinlərinin səsi eşidildi: Vladimir Komarov, Valentin Feoktistov, Boris Yeqorov, Pavel Belyayev, Aleksey Leonov, Vitali Sevastyanov, Vladimir Şatalov, Aleksey Yeliseyev, Georgi Bereqovoy və onlarla başqa kosmonavtların da şöhrəti dünyaya yayıldı. P.Belyayev və A.Leonov bir gəmidə kosmosa qalxdılar. Uçuş zamanı Leonov yoldaşı Belyayevin idarə etdiyi hava gəmisindən kosmos boşluğuna çıxıb bir müddət orada qaldı. Gəmidəki televizor onun hərəkətlərini bütün dünyaya göstərdi.

Sonrakı illərdə kosmosa yeni-yeni sovet şahinləri qalxdı. Onlar indi daha böyük, daha rahat hava gəmilərində kosmosa qalxırlar, orada aylarla uçur, daha çətin imtahanlardan çıxır, kosmosda görüşürlər. Kosmosa yük daşıyan gəmilər də var.

İndi artıq bütün dünya bilir ki, göyə Yerin ilk süni peykini sovet xalqı buraxmış, kosmosa ilk qadın bizim Vətənimizdən qalxmışdır; açıq kosmosa bir neçə dəfə sovet vətəndaşı çıxmışdır Aya, Marsa, Veneraya kosmik aparatları ilk dəfə sovet alimləri göndərmiş, ayın fotoşəklini ilk dəfə sovet aparatları çəkmişdir.

Sovet kosmonavtlarının sayı ildən-ilə artır. Onlar hər dəfə yeni-yeni nailiyyətlər əldə edirlər. Sovet kosmonavtları arasında qadınlar da var: Valentina Tereşkova, Svetlana Savitskaya.

Xalqımızın qəhrəman oğul və qızlarına olan məhəbbəti bu sözlərdə öz əksini tapmışdır: «Sağ olun, bizim igidlər, Vətən haqlı olaraq sizinlə fəxr edir!»

**Tapmaca:**
Dolanar bütün ərzi,
Aşar dağı, dənizi.
Gəzib göydə gecələr,
Gəlib yerdə dincələr.

● Xalqımız Yuri Qaqarinin hünərinə nə üçün böyük qiymət verdi:
Sovet kosmonatvları sonralar daha hansı yeni qələbələr qazandılar?
Hökumətimiz kosmos qəhrəmanlarının hünərinə necə qiymət verdi?
Daha hansı kosmonavtları tanıyırsınız?

### Əqlin hünəri

Qaqarin – yurdumun igid övladı
Sonsuz fəzalara ilkin[1] yol açdı.
Onun ürəklərə nəqş oldu adı,
Bu ad yer üzünü gəzib dolaşdı.
İnsan cürətinə mat qaldı göylər,
Marsın, Veneranın[2] tapdıq yolunu.
Yer oğlu göstərdi elə bir hünər –
Bir hünər varmı ki, bənzədək onu?!
Ellər bayram etdi bu şad xəbəri,
Bəşər[3] alqışladı cəsarətini.
Dünyaya sığmayan eşqi, hünəri
Ucaltdı Vətənin şan-şöhrətini.
Uzaq səmaların ulduzlar eli
Neçə kosmonavtın məskəni oldu.

---

[1] İlkin – ilk dəfə, birinci
[2] Mars, Venera – ulduz adları
[3] Bəşər – insan

Qaranlıq sirlərin açıldı dili,
Ay yeni kəşflər[1] vətəni oldu.

*İlyas Tapdıq*

**Tapmaca:**
Bir quşum var, səsi düşüb dünyaya.
O quş məni aparacaqdır aya.

● Qaqarin kosmosa nə üçün uçmuşdu?
Şair «Sonsuz fəzalara ilkin yol açdı» sözləri ilə nə demək istəyir?

## Ay həkimi

*(İxtisarla)*

Gecə yarısı Alim ata yuxudan oyandı. Pəncərədən süzülən Ay işığı düz onun gözlərinə düşürdü.

-Çox qəribədir, - deyə, Alim ata düşündü, - Ayın rəngi necə də solmuşdur. Deyəsən, xəstələnib.

O, durub pəncərəni açdı. Diqqətlə Aya xeyli baxdı. Bir parça qara bulud Ayın üzünü örtmüşdü. Ay pis görünürdü.

Alim ata öz-özünə dedi:

-Ay yaman qocalıb, üz-gözü qırış-qırışdır. Bir gör yazıq nə kökə düşüb. Gərək dərdini öyrənəm.

Alim atanın üç oğlu vardı. Səhər o, oğlanlarını yanına çağırıb dedi:

-Oğlanlarım! Ay gözümə çox kefsiz görünür. Onun dərdini öyrənə bilərsinizmi?

Böyük oğlan dedi:

-Mənim bir qutum var. Adına radio deyirlər. Onun qulağı çox uzaq yerlərdən səs eşidə bilir. Radionu quraram. O, Ayın necə nəfəs aldığını eşidər, biz də xəstəliyini öyrənərik.

Ortancıl oğlan dedi:

---

[1] Kəşflər – yeni tapılan şeylər

-Mənim də bir sehrli güzgüm var. Adına televizor deyirlər. O, çox uzaq yerlərdən şəkil çəkib, yerə göndərə bilir.

Kiçik qardaş dedi:

-Mənim isə bir atım var. Quş qanadlıdır. İldırımdan da iti gedir. O, bir illik yolu bircə günə gedə bilər. Adı da raketdir.

Alim ata oğlanlarının dediklərini eşidib sevindi:

-Çox yaxşı, - dedi, - belə sehrli güzgü və raket atla nəinki Ayın, lap ulduzların da dərdindən xəbər tutmaq olar. Qoy, raket Aya tərəf uçsun, radionu və sehrli güzgünü də özü ilə aparsın. Biz də yerdə Ayın həm nəfəsini eşidərik, həm də şəklini çəkərik. Onun dərdini tapmaq da lap asan olar.

Oğlanlar razılaşdılar. Böyük qardaş özünün sehrli qutusunu, ortancıl qardaş isə sehrli güzgüsünü götürdü. Onlar kiçik qardaşdan soruşdular:

-Bəs sənin Raket atın haradadır?

O dedi:

-Buradan xeyli uzaqda bir dağ var. Mənim atım onun lap zirvəsindədir.

Qardaşlar üç gün, üç gecə yol gedib, həmin dağa çatdılar. Raket at dağın lap başında dayanmışdı. Kiçik qardaş əlini sehrli atın yalına çəkib dedi:

-Ey mənim Raket atım, Alim ata Ayın dərdindən xəbər tutmaq istəyir. Sən Ayın yanına üç, qoy sehrli qutu ilə, sehrli güzgü oradan yerə xəbər göndərsin.

Bu sözlər oğlanın ağzından çıxar-çıxmaz Raket at elə kişnədi ki, səsindən qayalar titrədi. At qanadlandı. Onun burun deşiklərindən güclü alov, tustu püskürdü.

Böyük və ortancıl qardaş indi bildilər ki, kiçik qardaş öz atını niyə əldən-ayaqdan uzaq olan bir dağda saxlayırmış.

Bəli, Raket at az getdi, üz getdi, Aya yetişdi. At qanad açıb Ayın dövrəsinə dolanmağa başladı. O, belə edirdi ki, sehrli qutu ilə sehrli güzgü onu yandan görüb eşidə, şəklini çəkə bilsinlər.

Alim Ata səsini eşidib, şəklini görəndə çox sevindi. Sevindi ki, Ayın dərdinə əlac tapıb onu sağaldacaq. Bir də onu sevindirən oğlanlarının məharəti idi..

*Emin Mahmudov*

● Alim aya baxıb öz-özünə nə dedi?
Alimin oğulları Ayın dərdini öyrənmək üçün nə təklif etdilər?
Onlar Ayın dərdini necə öyrəndilər?
Sovet alimlərinin Ayla yaxından tanış olmaq üçün nə etdiklərini öyrənin.

**ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR**

Dünyada ilk kosmonavt kim olmuşdur?

Hansı sovet kosmonavtlarını tanıyırsınız?

Sovet kosmonatvların arasında qadınların adlarını deyin.

Sovet kosmonavtlarına nə üçün Sovet İttifaqı Qəhrəmanı adı verilir?

Sovet xalqı kosmonavtları nə üçün böyük sevinc və hörmətlə qarşılayır?

Sovet kosmonavtlarının igidliyinə aid bildiklərinizi danışın.

Kosmonavtlar hansı işləri görürlər?

Kosmonavt olmaq üçün nə etmək lazımdır?

### Vladimir İliçin uşaqlıq illəri haqqında

*(İxtisarla)*

Mən Vladimir İliçin uşaqlıq illəri haqqında onun qohumlarından tez-tez xəbər alardım. Bu barədə danışmağı onun böyük bacısı Anna İliniçna daha çox çevirdi. O deyirdi:

-Volodya müəyyən saatda yatağından qalxardı. O, səhər saat doqquzun yarısında gimnaziyada olmalı idi. Düz saat yeddi tamamda Volodya özü yuxudan ayılardı. Onu kimsə oyatmazdı. Yuxudan ayılan kimi o, dərhal yerindən qalxardı, yataqda qalmağı sevməzdi. Yatağını özü yığışdırardı. Dişlərini təmizlər, yaxşıca yuyunar, bədənini yaş dəsmalla silərdi. Ailəmizdə belə qayda vardı: uşaqlar özləri özlərinə qulluq edərdilər. Qızlar gərək göz yetirəydilər ki, həm özlərinin, həm də oğlanların paltarlarında cırıq-sökük olmasın.

Sonra Volodya oturub həmişə axşamdan hazırladığı dərslərini təkrar edərdi. Bu vaxt anamız səhər yeməyi hazırlayardı. Biz hamımız yemək otağına toplaşar və verilən hər şeyi yeyərdik. Volodya buna xüsusilə diqqət yetirərdi; onun həmişə yaxşı iştahası olardı, həvəssiz yeyənlərə rişxənd edərdi.

Anamız özləri ilə məktəbə aparmaq üçün uşaqların hamısına yemək verərdi. Volodya yeməyi çantasına qoyar və üstəlik alma aldıqda çox sevinərdi. On dəqiqə o sakitcə oturardı, çünki anam çaydan çonra soyuq dəyməkdən ehtiyat edərək, birdən-birə küçəyə çıxmağa icazə verməzdi. Saat doqquza düz on dəqiqə işləmiş Volodya ayağa qalxıb anam və atamla vidalaşdıqdan sonra cəld paltarını geyər, formanın bütün düymələrini düymələyib yola düşərdi.

Məktəbdən evə qayıdandan sonra Volodya havadan asılı olaraq, bir və ya iki saat həyətdə gəzərdi.

Volodya topaldıqaç, qaçdı-tutdu və xüsusən qaçaq-qaçaq oynamağı çox sevərdi. Onu həmişə başçı seçərdilər. Volodya oyunda çox ədalətli idi. O, çox qüvvətli uşaq idi, lakin vuruşmaqdan zəhləsi gedərdi, heç vaxt vuruşmada

iştirak etməzdi və bir qarışıqlıq düşən kimi oyunu dayandırardı. «Bu, oyun deyil, biabırçılıqdır» - deyərdi.

Elə hallar da olurdu ki, o, oyunda yoldaşlarını məzəmmət edər, bir başçı kimi düzgün hərəkət etdiyini sübut eləməyə başlardı.

Nahar vaxtı hamımız stolun başına toplaşar, bu gün nələr baş verdiyini danışardıq. Anamız və atamız bizə diqqətlə qulaq asar və bütün işlərimizlə yaxından maraqlanardılar.

Anamız tələb edirdi ki, biz onunla, eyni zamanda öz aramızda bir gün rusca, bir gün fransızca, bir gün almanca danışaq. Bu, bizim həmin dilləri öyrənməyimizə çox kömək edirdi. Volodya bu dilləri mükəmməl bilirdi. Sonralar o özü ingilis, italyan və polyak dillərini öyrəndi. Gimnaziyanın lap birinci sinfindən o, latın və yunan dillərini xüsusilə sevmişdi. Bu dilləri şagirdlər çox çətinliklə öyrənərdilər. Volodya isə çox asanlıqa öyrənirdi.

Nahardan sonra Volodya oturub dərslərini hazırlayardı. O, bütün dərslərdən verilən tapşırıqları həmişə artıqlaması ilə hazırlayardı. Çox oxuyardı. Volodya sinifdən-sinfə mükafatla keçərdi. O, gimnaziyanı birinci şagird olaraq qurtardı, qızıl medal aldı.

Onun otağı həmişə təmiz olardı: kitabları qəzet kağızına bükər, dəftərlərini səliqəli saxlayardı. Bir dəfə Volodya vərəqin üstündə böyük bir ləkə salmışdı. Bu, onu çox narahat etmişdi. O həmin vərəqi dəftərdən çıxarmış, əvəzinə başqasını tikmiş və əvvəl yazmış olduğu üç səhifənin hamısını dərhal köçürmüşdü. Məşğələ zamanı o son dərəcə diqqətli olardı, fikrini başqa yerə verməzdi. Dərslərini hazırlayıb qurtarandan sonra lazımlı kitab və dəftərlərini çantasına yığışdırar, qalanlarını isə stolun yeşiyinə, ya da şkafın rəflərinə qoyardı.

Dərslərini qurtarandan sonra Volodya kiçik bacıları ilə həvəslə oynayardı. Sonra hamımız çay içər və axşam saat səkkiz tamamda şam edərdik: saat doqquzun yarısında Volodya dişlərini təmizləməyə gedər, yatmazdan qabaq əl-üzünü yuyar və hamı ilə vidalaşdıqdan sonra yatağına girib,

dərhal yuxuya gedərdi. Dəcəllik etməyi sevirdisə də, çox sözəbaxan idi – anamızın və atamızın sözü onun üçün qanun idi. Onlar nə deyirdilərsə, hamısına əməl edirdi. Ailədə hamı onu çox sevirdi.

*B.Bonç-Bruyeviç*

**Bayatı:**
Mən aşığam hər yana,
Xəbər yayın hər yana.
Lenin bizə çıraqdır,
İşıq salır hər yana.

● Volodya səhərlər hansı işləri görərdi?
O, dərslərini necə hazırlayardı?
Volodya hansı dilləri bilirdi?
O, həmin dilləri nə üçün öyrənirdi?
Hekayədən Volodyanın xasiyyətini bildirən yerləri öz sözlərinizlə danışın.

## Bəndin bərpası

*(İxtisarla)*

Bənd çox ağır və yavaş-yavaş tikilirdi. Əvvəlcə dirəkləri yerə çalırdılar. Onları sadə yolla, döyəclə[1] bərkidirdilər.

Fəhlələr dirəkləri çalanda «Kötükcük» nəğməsini oxuyurdular. Nəğməni başlayan şəxs bəzən sözləri özü uydururdu. Te-tez təkrar olunan əks-səda eşidilirdi:

*Vuraq,*
*Vuraq,*
*yerə çalaq!*

Bəndin tikilməsi hamının diqqətini cəlb edirdi. Volodya «Kötücük» nəğməsini eşidən kimi, səhər çayını içib qurtarmamış tələsik bəndə tərəf qaçırdı; onu orada hər şey maraqlandırırdı...

---

[1] Döyəc – əltutanı olan ağır kötük

Dülgər Leonti ürəkdən izah edirdi ki, bu iş çox çətindir, dirəkləri döyəclə, kötüklə çalırlar. Volodya soruşdu:

-Döyəc blok boyunca qalxandan sonra, necə olur ki, birdən aşağı düşür və dirəyə dəyir?

Leonti bu suala uzun-uzadı və dolaşıq izahat verirdi.

Atlı araba ilə çöldən qayıdan əkinçi də, Çeremışev kəndindən qayıdan peç ustası və balıqçı Karpey də dayanıb işə baxırdı.

Volodya onu Turgenev tipi, İlya Nikolayeviç[1] isə filosof adlandırırdı.

Karpey uzun qara saqqallı, keçə şlyapalı, tək-tək ağaran qara qıvrım saçlı, uca boylu, arıq kəndli idi.

Qonşu kənddən belində tüfəng, yanında isə Valetka adlı ov iti olan oğlan uşağı Kuzma da bəndin yanında dayanırdı. Kokuşkino kəndinin qızları deyirdi:

-Kuzma, görünür, sən öz Valetkanı yedirtmirsən, odur ki, it acından toyuqlara hücum çəkir.

Kuzma etiraz edib bildirirdi:

-Durub indi də iti yedirdəcəyəm? Özü yem tapar!

Valetka da «ov edib» yem tapırdı.

Valetkanın izlədiyi ovu Kuzma vuran kimi, o, itlə daban-dabana ova tərəf cumurdu. Bir balaca gecikdimi, Valetka vurulmuş quşu götürüb qaçır və tələsik onu yeyirdi...

*Nikolay Veretennikov*

● İnqilabdan əvvəl çayın qabağını necə kəsirdilər?
Volodya səhər-səhər hara gedirdi?
O, bənddə nə ilə maraqlanırdı?
Nə üçün Kuzmanın iti arıq idi?
Turgenevin əsərləri ilə Volodyanın balacalıqdan maraqlandığını nədən bilirsiniz?
Bəs siz həyatda nələrlə maraqlanırsınız?
Hekayəni danışın.

---

[1] İlya Nikolayeviç – Volodyanın atası

## Razliv gölü ətrafında

*(İxtisarla)*

Leninqraddan o tərəfdə Razliv adlı bir stansiya vardır. Stansiyanın yaxınlığında çox da iri olmayan bir göl yerləşir. Yazda, qar əridiyi zaman göl daşır və ətraf çəmənlikləri basır. Buna görə də bu yer Razliv[1] adlanır. Yayda, iyul ayının əvvəllərində çəmənliklərdə hündur ot qalxır. Otu çalmaq vaxtı çatmışdı.

Lenin Razliv 1917-ci ildə belə bir zamanda gəldi. İyul günlərindən sonra o, xalqa qarşı düşmən siyasət yürüdən Müvəqqəti burjua hökumətinin casuslarından gizlənməli idi.

Vladimir İliç gölün o tayında yaşamağa başladı.

Onun üçün yaşayış yeri hazırlamışdılar: ot tayasının ortasını boşaldıb koma düzəltmişdilər; burada yağışdan daldalanmaq olardı.

Ancaq belə bir mənzil Vladimir İliçin xoşuna gəlmədi. O, meşəyə getdi, möhkəm budaqlar kəsdi, şaxələr qırdı, iri ağcaqayın ağacı yaxınlığında budaqları dərindən yerə bərkitdi, onların üstünü yaşıl şaxələrlə örtdü və içərisinə ot döşədi. Yaxşıca bir otaq əmələ gəldi.

Vladimir İliçin çox şeyi yox idi: cəmisi bir dəmir çayniki, kiçik qazanı, baltası mişarı və bir dəryazı var idi.

Lenin komada yaşamağa başladı.

Onun ən çox sevdiyi yer qızılağacların arasındakı iri kötüyün yanı idi. Lenin orada yerdə oturar, kötüyün üstünə kağız vərəqlər qoyub yazardı. Şaxələr onu hər tərəfdən örtərdi.

Hər axşam göldə qayıq görünərdi. İnanılmış bir şəxs bu qayıqla Leninə Petroqraddan təzə qəzet və məktublar gətirərdi.

Vladimir İliç məktubları oxuyar, qəzetləri diqqətlə nəzərdən keçirər, maraqlandığı yerlərə göy karandaşla qeydlər edərdi.

Düşmənlər bu zaman Lenini axtarırdılar, ancaq tapa bilmirdilər. Öz qəzetlərində yazırdılar ki, Lenin təyyarə ilə xarici ölkələrə uçmuşdur, dənizdə sualtı qayıqda gizlənmişdir.

Lenin bunları oxuyub gülür və deyirdi:

---

[1] Razliv - daşqın

-Yazıq təlxəklərə bir bax!

O vaxt yemək məsələsi çox çətin idi. Bəzən Leninin çörəyi belə olmurdu. Bununla belə çox zaman yemək İliçin yadına düşmürdü; yalnız stansiyadan ona səhər yeməyi gətiriləndə çox acdığını hiss edirdi.

* * *

Bir dəfə Razliv uşaqları göldən böyük bir durnabalığı tutdular və komaya gətirdilər. Leninin koması qarşısında kiçik payalardan bir qazança asılmışdı. Uşaqlar dərhal Leninə balıq şorbası bişirmək istədilər. Ancaq Vladimir İliç onları qoymadı:

-Bircə dayanın! Bu gün mənim hələ çörəyim, çayım vardır. Sabah nahara isə heç bir şey yoxdur. Gəlin balığı nahara saxlayaq.

Vladimir İliç ot çalır, onu qurudur, yağış yağmamışdan tayaya vururdu. Bir dəfə meşə arxasından böyük bir bulud qalxdı və göy üzünün yarısını bürüdü. Vladimir İliç tələsə-tələsə otu tayaya vurmağa başladı. Gurultu ilə şimşək çaxıb buludu parçaladı. Yağış yağmağa başlayanda ot artıq bir yerə toplanmışdı.

Yağışdan sonra hava açıldı, nəm otun və torpağın qoxusu ətrafa ətir saçırdı. Günəş yenidən gölün üzərini işıqlandırdı.

* * *

Axşamdan xeyli keçmiş sahilə bir qayıq yanaşdı.

Qayıqda gələn yoldaş Orconikidze idi. O, kolların arası ilə uzanan cığırla gəlir və Lenini görmürdü. Vladimir İliç kolların dalından onun qabağına çıxanda Orconikidzenin kefi pozuldu. Öz-özünə dedi:

-Bu naməlum adam kimdir? O, haradan gəlir? Nə üçün o, Lenin yaşayan yerin ətrafında dolanır?

Vladimir İliçi tanımaq doğrudan da çətin idi: saqqalı və bığı qırxılmışdı, papağı alnının yarıya qədər örtmüşdü. Lenin salam verdi, lakin Orconikidze yenə də onu tanımadı. Bu zaman Vladimir İliç sevinclə əlini onun çiyninə vuraraq dedi:

-Hə, tanımırsınızmı, yoldaş Serqo?

Orconikidze ancaq bu vaxt Lenini tanıdı.

Onlar komaya getdilər. Serqo mühüm xəbərləri Vladimir İliçə yetirmək üçün Petroqraddan gəlmişdi. Hər şeyi məktubda yazmaq mümkün deyildi. Məktub düşmənlərin və ya xainlərin əlinə keçə bilərdi.

* * *

Avqustun axırlarında yağışlar başladı. Leninin ən çox sevdiyi yerdə – qızılağac şaxələri arasında işləmək mümkün deyildi. Kötük yaş, sürüşkən olmuşdu; ətrafı da göbələklə örtülmüş və elə bil ki, şişmişdi.

Havalar soyumuşdu. Partiyanın Mərkəzi Komitəsi Vladimir İliçin Razlivdən Finlandiyaya köçməsini təşkil etdi.

Koma artıq boş idi. Lenin getmişdi...

İndi həmin yerdə qranitdən çapılmış koma vardır.

Artıq qızılağaclar da böyümüşdür. Amma iri ağcaqayın görünmür. Onun kökündən üç cavan, zərif ağcaqayın qalxmışdır.

Hər bir sovet adamının qəlbi üçün əziz olan bu yerdə başqa heç bir şey dəyişməmişdir.

*Andrey Kononov*

**Bayatı:**
Mən aşığam xan olmaz,
Sultan olmaz, xan olmaz.
Lenin quran dünyada
İndən belə qan olmaz.

● Leninin gizləndiyi yer nə üçün «Razliv» adlanırdı?
Hekayədə Razliv necə təsvir olunur?
Lenin kimlərdən gizlənirdi?
Dostları Leninlə necə əlaqə saxlayırdılar?
Serqo Orconikidze Leninlə necə görüşürdü?
V.İ.Lenini nə üçün Finlandiyaya köçürdülər?

## Vladimir İliç Lenin

*(İxtisarla)*

Otaqda divardan portret asılmışdır. Vasya aktasına dedi:

-Ata, onun haqqında mənə danış.

-Sən bilirsən o kimdir?

-Bilirəm. O, Lenindir.

-Bəli, o, Vladimir İliç Lenindir. Bizim sevimlimiz, əzizimiz, böyük rəhbərimizdir.

Mən gənc idim. O vaxt biz fəhlələr pis yaşayırdıq. İşimiz çox ağır idi. Səhərdən gecə yarıya kimi işləyirdik; bir qarını ac, bir qarını tox dolanırdıq. Bizlərdən zavodda işləyən çox idi. Zavodun sahibi Danilov idi. O işləmirdi. Əlini ağdan-qaraya vurmurdu, ancaq çox varlı yaşayırdı.

-Onda bu var-dövlət haradan idi?

-Biz onun üçün işləyirdik. O, gördüyümüz iş üçün bizə az pul verirdi, düzünü desək, bizi lap soyurdu. Bizim əməyimizdən varlanırdı. Onun zavodu, pulu, maşını vardı; bizim isə işlək əllərimizdən başqa heç nəyimiz yox idi. Buna görə də onun yanında işləməyə məcbur olurduq.

Təkcə Danilovun zavodunda deyil, bütün zavod və fabriklərdə vəziyyət belə idi.

Kənddə yaşayan kəndlilərin də güzaranı pis idi. Onların torpağı az, mülkədarlarınkı isə çox idi. Kəndlilər mülkədarlar üçün işləyirdilər. Mülkədarlar varlı, kəndlilər isə kasıb idilər. Mülkədarlarla kapitalistlər əlbir idilər. Ən böyük, ən varlı mülkədar olan çar da onlarla əlbir idi. Onun qoyduğu qaydalar yalnız mülkədar və kapitalistlər üçün əlverişli idi. Bu qaydalar fəhlə və kəndlilərin güzəranını daha da pisləşdirirdi.

Vladimir İliç fəhlələrin dostu, yoldaşı idi. O, bütün qaydaları dəyişmək istəyirdi ki, işləyənlərin hamısı yaxşı yaşasın. Lenin fəhlə işi uğrunda mübarizə aparırdı.

Lenin fəhlələrin tərəfində duranları bir yerə toplamağa başladı. Onların sayı getdikcə artır, fəhlə partiyası, kommunist partiyası daha da möhkəmlənirdi. Partiya görürdü ki, mübarizəsiz heç bir şey əldə etmək olmaz. Bütün ölkənin fəhlələri də bunu anlamağa başladılar.

Fəhlələr Lenini sevir, mülkədar və kapitalistlər isə onu görmək istəmirdilər. Çar polisi onu tutub həbsxanaya salır, uzaq Sibirə sürgünə göndərir, onu həmişəlik zindanda saxlamaq istəyirdi.

Lenin xaricə getdi və uzaqdan fəhlələrə yazılı göstərişlər verdi. Sonra o, yenə qayıdıb mübarizəyə rəhbərlik etdi.

1917-ci ilin fevral ayında fəhlələrlə əsgərlər birlikdə çarı qovdular, sonra da həmin ilin oktyabrında mülkədar və kapitalistləri qovdular. Torpağı, zavodları, fabrikləri onların əlindən aldılar və öz qayda-qanunlarını yaratdılar. Daha çar, mülkədar və kapitalistlər yox, fəhlə və kəndlilər öz işlərini müzakirə və həll etməyə başladılar.

Bu, onlar üçün yeni bir işi idi. Lenin və onun yaratdığı partiya fəhləri bu çətin yol ilə aparıb yeni həyat qurmaqda onlara kömək edirdi.

Lenin çox işləməli olurdu. Çox şeyin qayğısını çəkirdi. Onun səhhəti pisləşdi. 1924-cü ildə Vladimir İliç vəfat etdi. Leninin vəfatı bizi çox kədərləndirdi; lakin onun dediklərini biz heç vaxt unutmuruq. Biz çalışırıq hər işimizi onun məsləhət etdiyi kimi görək. İşimizi, həyatımızı təzə qayda ilə qururuq.

*Nadejda Krupskaya*

**Bayatı:**
Mən aşiqəm bu dağda,
Bülbül oxur budaqda,
Lenin ölməyib, sağdır –
Şəkli bizim otaqda.

● Nə üçün fəhlələr çox zəhmət çəkir, amma yarıac yaşayırdılar?
Nə üçün kəndlilər çox işləsələr də, kasıb dolanırdılar?
Bəs nə üçün kapitalistlər və mülkədarlar dövlətli idilər?
V.İ.Lenin kimlərə qarşı mübarizə aparırdı?
Fəhlə və kəndlilər 1917-ci ilin fevral ayında nə etdilər?
1917-ci ilin oktyabr ayında hansı böyük hadisə baş verdi?
V.İ.Leninin həyatına aid şəkillər toplayıb albom düzəldin.

**Lenin**

Mən hansı bir insan
Bənzədim ki Lenini,
Həm xalqın xidmətçisi,
Həm xalqa rəhbər oldu.

Mən hansı sərkərdəyə
Bənzədim ki Lenini,
Tarixlərə komandan,
Günlərə əsgər oldu.

Mən hansı bir rəhbərə
Bənzədim ki Lenini,
Yüz-yüz milyon insana
Əziz bir sirdaş oldu.

Mən hansı bir bağbana
Bənzədim ki Lenini,
Yaratdığı bağçalar
Xəzansız bahar oldu...

Mən hansı bir alimə
Bənzədim ki Lenini,
Zəkasından əsrlər
Nura boyanmış olsun.

Mən hansı bir natiqə
Bənzədim ki Lenini,
Bir sözündən milyonlar
Qalxıb oyanmış olsun.

*Rəsul Rza*

**Bayatı:**
Bu sular nə sərindi?
Yu dəsmalın, sər indi.
Xoş gün bağbanı Lenin,
Bu meyvələr sənindi.

● Şeirdə Lenin kimlərə bənzədilir?
Leninin bağbana bənzədildiyi bəndi ucadan oxuyun.
Onun mənasını izah edin.
Şeiri əzbərləyin.

**ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR**

Vladimir İliçin uşaqlığına aid bildiklərinizi danışın.
Vladimir İliç inqilaba qədər nə üçün xaricdə qalırdı?
Nə üçün o, Razliv gölü kənarında yaşayırdı?
Fəhlələr və kəndlilər Vladimir İliçi nə üçün sevirdilər?
Çar hökuməti Lenini nə üçün düşmən hesab edirdi?
Çar hökumətinin fikri nə üçün baş tutmadı?
Leninin Böyük Oktyabr sosialist inqilağına rəhbərlik etməsi, Sovet dövlətini yaratması təsvir olunan parçaları tapıb oxuyun.
V.İ. lenin haqqında bildiyiniz şeirləri əzbərdən oxuyun.

## AZƏRBAYCANDA SOVET HAKİMİYYƏTİNİN QƏLƏBƏSİ

### Yaşa, vətən!

Biz bilirik bir ilk bahar
Necə güldü xalqın üzü.
Necə çıxdı azadlığa
Xalqın yurdu, xalqın özü.
Bir səs qopdu dodağından
Azərbaycan adlı elin.
Böyük-kiçik, oğul-uşaq
Bir ağızdan dedi: - Lenin!
Aprel günü dalğalandı
Al bayraqlar laləsayaq.
Aprel günü səs yayıldı
Oba-oba, oymaq-oymaq.
Könüllərin güldü yazı,
Ellər geydi toy libası.
Böyük Lenin partiyası
Azad etdi xalqımızı.

*Zeynal Cabbarzadə*

● «Könüllərin güldü yazı» sözlərini necə başa düşürsünüz? Azərbaycan xalqı öz azadlığı üçün kimə minnətdardır?

### Xanlar

Azərbaycanın hər yerində olduğu kimi Xanlargilin kəndində - Qoçəhmədlidə[1] də kəndlilərin vəziyyəti çox ağır idi. Kəndlilərin nə torpaqları vardı, nə də yeməyə çörəkləri. Yüzlərlə Xanlar kimiləri dəstə-dəstə Bakıya zavod və mədənlərə işləməyə gəlirdilər. Kəndin cavanları ağıllı və mehriban yoldaşları Xanlardan ayrılmaq istəmirdilər. Xanlar Bakıya işləməyə gedirdi.

[1] Qoçəhmədli – Füzuli rayonunda kəndin adı

Uzun zaman piyada yol gəldikdən sonra Xanlar Yevlaxa çatdı və oradan da dəmir yolu ilə Bakıya gəldi. O, tezliklə şəhər həyatına alışdı və özünə yeni yoldaşlar tapdı.

Xanlar o zaman məşhur varlı Musa Nağıyevin mədənində işləyirdi. Başqa mədənlərdə olduğu kimi, burada da fəhlələrin vəziyyəti ağır idi. Onların maaşları çox az, yeməkləri pis idi. Fəhlələr tamamilə hüquqsuz idilər.

O zaman Bakıda inqilabçıların böyük bir dəstəsi işləyirdi. Onların çoxlu inanılmış şagirdləri vardı. Bunlar vərəqlər və qəzetlər çap edib, fəhlələrin arasında yayırdılar. Bu işdə Xanlar da çox çalışırdı. Xanlar tez-tez görkəmli inqilabçılarla görüşür və onlardan tapşırıqlar alırdı.

* * *

Varlıların Xanları və onun inqilabçı yoldaşlarını görməyə gözləri yox idi.

O, 22 yaşında qoçaq bir gənc olmuşdu. Payız gecələrindən biri idi. Xanlar işdən çıxıb mənzilinə gedirdi. O, yol uzunu kəndlərindəki yoldaşları, ailəsi və fəhlələrin gələcək həyatı haqqında da düşünürdü. Bu zaman onun qarşısında qara bir kölgə göründü. Elə bu vaxt güllə açıldı. Mədən sahibi tərəfindən öyrədilmiş xain onu sinəsindən vurdu.

Xanlar ağır yaralandı. Həkimlər onu xilas edə bilmədilər. Xanların dəfnində 20 mindən artıq adam iştirak etdi. Xanlar Şıx kəndindəki qəbiristanlıqda dəfn edildi.

Bakı proletariatı çar hökumətindən və kapitalistlərdən Xanların qisasını tezliklə aldı. Onun arzu etdiyi Sovet hakimiyyəti quruldu.

İndi ölkəmizdə Xanların adına rayon və küçələr, məktəblər, kolxozlar vardır. Onun dəfn olduğu yerdə böyük xatirə abidəsi ucalır.

● Xanlar harada anadan olmuşdur?
O, Bakıya nə üçün gəlmişdi?
Xanlar Bakıda kimlərlə tanış oldu?
Xanları nə üçün öldürdülər?
Hekayəni öz sözlərinizlə nağıl edin.

## Qoçaq qız

Polis zabiti qarşısındakı qızı qəzəbli baxışlarla süzdü. Qızın on yaşı ancaq olardı. Qarabuğdayı idi. Çiyninə tökülmüş xurmayı saçları, iri qara gözləri var idi.

Zabit onu hədələməyə başladı:

-Düzünü deməsən, sənə ağır cəza verərəm. De görək haradan gəlib, hara gedirdin?

Qız ona sakitcə cavab verdi:

-Haradan gələcəyəm ki?! Evdən gəlib, bazara gedirəm. Xanımım qulluq buyurubdur... Bu cənab isə məni zorla bura gətirdi.

Zabit soruşdu:

-Zənbildən çıxardığın bağlamanı verdiyin adam kim idi?

-Ağa zabit, nə adam, nə bağlama? - deyə, qız həyəcanla cavab verdi. - Buraxın gedim, geciksəm xanım məni öldürər.

Zabit daha da qəzəbləndi:

-Səni mən özüm döyəcəyəm! - dedi, bir az susduqdan sonra əlavə etdi:

-Kimin qızısan, adın nədir?

-Kimin qızıyam? Atamın... o, mən balaca olanda ölüb... anam da... Adım Sənubərdir...

Zabit yaxın gəldi. Sənubərin qoluna keçirdiyi zənbilin içinə baxdı. Zənbil doğrudan da boş idi.

Sənubər əlindəki yaylığı zabitə verdi:

-Alın, baxın!

Zabit yaylığın düyünlərini açdı. Oradakı xırda pulları saydı.

-Xanımın sifarişi nədir? - deyə, o, rişxəndlə soruşdu.

-Xanımım şorba bişirəcək. Mən göyərti və düyü almalıyam...

Zabit dodaqlarını büzdü:

-Deyəsən, xanımın çox kasıbdır?!

-Xeyr ağa zabit, kasıb deyil, xəsisdir. Həmişə bazardan qayıtdıqdan sonra dava-dalaş salır, deyir: səni aldadırlar, məni dilənçi gününə salacaqsan...

-Yaxşı, yaxşı, - deyə, zabit acıqlandı. - Az çərənlə, de görüm, bağlamanı verdiyin adam kimdir, harada olur?

Sənubər yazıq bir görkəm aldı.

-Mən bağlama aparmırdım, onu heç kəsə də verə bilmərəm. Bazara gecikirəm, buraxın gedim, xanımım məni...

Sənubərin sözü ağzında qaldı. Zabitin sağ əli onun üzünü alışdırdı. Qıza elə gəldi ki, qulaqlarının dibində ildırım çaxdı. Şiddətli zərbədən gözləri qaraldı.

Zabitin əmri ilə Sənubəri ayrıca bir otağa saldılar. Polisin əlinə keçdiyi üçün Sənubər çox təəssüfləndi. Amma bağlamanı vaxtında Sərdar əmiyə çatdırdığına görə sevindi. Yaxşı oldu ki, polis Sərdar əmiyə çata bilmədi. Əgər o vaxt konka[1] gəlib keçməsə idi, bəlkə də onu yaxalayacaqdılar. İndi zabit nə eləyir eləsin, Sənubər qorxan deyil.

Səhər tezdən küçədən atışma səsi gəldi. «Bəlkə mənim Sərdar əmiyə çatdırdığım patronları atırlar?» - deyə, Sənubər fikirləşdi. Yoğun bir polis qapını açaraq qışqırdı:

-Çölə çıx, küçük! Rədd ol buradan!

Sənubər ayağa qalxıb, zənbili qoluna keçirdi. Qapıdan çıxanda polis ona elə bir dürtmə vurdu ki, qız az qaldı üzüqoylu yerə yıxılsın.

Sənubər döngədə ayaq saxladı. Dərindən nəfəs alıb, polis idarəsinə tərəf baxdı. Axşam polisi necə aldatdığını xatırlayıb gülümsündü.

Elə bu vaxt gözlənilməz bir əhvalat oldu. Küçənin yuxarı başından gələn, yaxalarında qırmızı lent olan silahlı adamları görəndə Sənubər gözlərinə inanmadı. Onun atası, Sərdar əmi və Kamran əmi dəstənin qabağında addımlayırdılar. Onlar gəlib çatanda üçü də Sənubəri bağrına basdı.

Kamran əmi Sənubərin yaxasına qırmızı lent sancdı:

-Sağ ol, Sənubər, sən bizə çox kömək etdin!

*Böyükağa Ağayev*

● Sənubəri nə üçün polis idarəsində dindirirdilər?
Polis zabitinin suallarına Sənubər necə cavab verirdi?

---

[1] Konka – atların çəkdiyi tramvaya bənzər nəqliyyat vasitəsi

Səhər o, küçəyə çıxanda kimlərə rast gəldi?
Fəhlələr nə üçün küçəyə çıxmışdılar?
Hekayəni yığcam nağıl edin.

## Qatır Məmməd

1918-1919-cu illərdə Bakıda və Azərbaycanın başqa yerlərində xarici düşmənlərə və yerli ağalara qarşı mübarizə kəskinləşirdi. Azərbaycanda inqilabi hərəkat genişlənirdi.

O zaman Gəncə qəzasında kəndli üsyanları alovlanırdı. Kəndlilər silaha qurşanıb mülkədarlarla mübarizə edirdilər. Kənd zəhmətkeşlərinin azadlığı uğrunda mübarizə aparanlardan biri də Qatır Məmməd idi. O, üsyançı kədlilərə başçılıq edirdi.

Qatır Məmməd indik Qasım İsmayılov rayonunda anadan olmuşdur. O, ilk təhsilini kənd ibtidai sənət məktəbində almışdır. O zaman sənət məktəbində oxuyanların vəziyyəti də ağır idi. Məktəbdə kəndli uşaqlarını taqətdən düşənədək işlədirdilər.

Qatır Məmməd kəndli uşaqlarının gizli yığıncağını çağırıb onların təşkilatını yaratdı. Müdiriyyət Qatır Məmmədi 18 nəfər yoldaşı ilə birlikdə məktəbdən xaric etdi. Az sonra Qatır Məmməd Azərbaycandan sürgün edildi. Çox çəkmədi ki, o, sürgündən qaçıb kəndlərinə gəldi. Qatır Məmməd bir mülkədarı öldürdüyü üçün yenə həbs edildi. Bu dəfə də inqilabçıların köməyi ildə həbsxanadan xilas ola bildi.

Qatır Məmməd kəndlərdə partizan dəstələri düzəldir, o zaman Azərbaycanda ağalıq edən müsavatçılarla vuruşurdu. Onun partizan dəstəsi hər yerdə düşmən qoşunlarını darmadağın edirdi.

Qatır Məmməd Azərbaycana köməyə gələn Qızıl Ordunu qarşılamağa hazırlaşırdı. Bundan xəbər tutan casuslar Gəncə qubernatoruna xəbər verdilər. 1919-cu il sentyabrın 18-də düşmənlər bir xainin köməyi ilə Qatır Məmmədi yatdığı yerdə öldürdülər, meyidini Gəncəyə aparıb, rüsvay

etmək istədilər. Lakin kəndlilər buna imkan vermədilər. Gecə meyidi oğurlayıb, qalın meşədə hörmətlə dəfn etdilər.

Xalq Qatır Məmmədin xatirəsini unutmadı. Onun mübariz silahdaşları düşmənə yeni-yeni zərbələr endirir, ondan intiqam alırdılar.

Fəhlə sinfinin başçılıq etdiyi zəhmətkeş kəndlilər kənddə Sovet hakimiyyətinin qurulmasına yaxından kömək göstərdilər.

Xalq öz qəhrəman oğlu Qatır Məmmədin xatirəsini daim əziz tutur. Onun haqqında qoşulmuş mahnılar və dastanlar dildən-dilə gəzir.

● Qatır Məmmədi nə üçün həbs edib sürgünə göndərdilər?
O nə üçün silahlı dəstələr düzəltmişdi?
Qatır Məmməd kimlərə qarşı mübarizə aparırdı?
Düşmənlər Qatır Məmmədi nə üçün öldürdülər?
Xalq Qatır Məmmədin düşmənlərindən necə intiqam aldı?
Azərbaycanda kəndli qəhrəmanları haqqında bildiklərinizi nağıl edin.

## Ölməz komissarlar

Atamla Bakıya getmişdim. 26-lar abidəsini görməyimə çox şad oldum. Daşa can vermək, onu danışdırmaq mümkün imiş! 26-lar abidəsinin ortasında qranit daşdan yonulmuş fəhlə heykəli var. Elə bil yerin təkindən çıxıb güclü qollarını irəli uzatmışdır, başını aşağı əyib 26-ların matəmini saxlayır. Onun əlindəki məşəl gecə-gündüz yanır. Baxdıqca baxırsan, öz-özünə düşünürsən: 26-lar faciəli surətdə həlak olsalar da, onların həyatı xalqımızın yolunu işıqlandırır.

Bir qədər aralı 26-ların güllələndiyi anı əks etdirən qranit lövhə daha heyrətləndiricidir: 26-ların məğrur duruşu, intiqam ifadə edən düyünlənmiş yumruqlar, nifrət rəmzi olan kip sıxılmış dodaqlar, əqidə naminə düşmən gülləsinə açılmış sinələr.

Daşın bu ifadəliliyi 26-ların güllələnməsi barədə oxuduqlarımı yadıma saldı. Xəyala daldım: 1918-ci il... sentyabrın 20-si... Dan yeri yenicə sökülür. Həyatdan əsər-əlamət olmayan Ağcaqum çölləri. Doğma Bakının 26 cəsur qəhrəmanı sıra ilə məğrur dayanmışdır. Bir qədər aralı türkmən paltarı geymiş və türkmən papağı qoymuş ingilis cəlladları. Tüfənglər 26-lara tuşlanmışdır. Yan tərəfdə ingilis zabiti əlini qaldırıb «Atəş!» deyir. Komissarların səsi eşidilir:

-Biz kommuna uğrunda ölürük! Yaşasın kommuna!

«Atəş»! və güllə səsləri. 26-ların bir-bir yerə sərilməsi. Mən xəyaldan ayrılıram...

1917-ci il oktyabr ayının 25-də Rusiyada fəhlə və kəndlilər burjua hakimiyyətini yıxıb ilk sosialist dövlətini yaratdılar. Bu xəbər Bakıya çatdı. Burada da fəhlələr ayağa qalxdılar. Onlar bolşeviklərin rəhbərliyi ilə Bakıda Sovet hakimiyyəti qurdular. S.Şaumyan, M.Əzizbəyov, A.Caparidze, İ.Fioletov, M.Vəzirov və onların 21 yoldaşı Bakı fəhlələrinin yaxşı yaşamaları üçün çox çalışdılar. Lakin onların bu nəcib işi xarici düşmənlərin ürəyindən olmadı. Düşmənlər Bakıda Sovet hakimiyyətini yıxmaq qərarına gəldilər. İngilis işğalçıları Bakıya soxuldular; 26-ları həbs etdilər, Ağcaqum çöllərinə aparıb öldürdülər...

Ətrafımda xeyli adam vardı. Bir dəstə əcnəbi turist də 26-lar məqbərəsinin qarşısında dayanmışdı. Bələdçi abidə üzərinə qızılı hərflərlə həkk olunmuş sözləri onlara tərcümə edirdi: «1918-ci il sentyabrın 20-də Zakaspi çöllərində imperializm agentləri tərəfindən vəhşicəsinə güllənmiş 26 Bakı komissarına – kommunizm uğrunda mərd mübarizələrə əbədi eşq olsun!»

Boynu qırmızı qalstuklu məktəblilər əllərində gül-çiçək söhbət edə-edə abidəyə yaxınlaşırdı:

-Biz pioner sıralarına burada keçmişik.

-Biz də...

Xiyabanla üzü bəri gələn bir dəstə əsgərin danışığını da eşidə bildim.

-Biz burada – 26-ların abidəsi qarşısında hərbi and içmişik.

Küçədə sıra ilə çoxlu maşın dayanmışdı. Qabaqdakı bəzədilmiş ağ «Çayka»dan bəylə gəlin çıxdı. Əllərində gül dəstələri vardı. Qohumların və dost-tanışların müşayiəti ilə onlar abidəyə yaxınlaşdılar. Onlar daşdan yonulmuş Bakı fəhləsinin irəli uzanmış əllərində tutduğu məşəl qarşısında baş əydilər; çiçəkləri mərmər lövhə üstünə qoydular. Bu anda onların yadigar şəklini çəkdilər.

26-ların arasında müxtəlif millətlərin nümayəndələri olmuşdur. İndi 26-lar abidəsinin ətrafında gəzişən adamlar da müxtəlif millətlərin nümayəndələridir.

● Hekayə kimin dilindən yazılmışdır?
Bakı şəhərindəki 26-lar bağında şagird nələr gördü?
26-lar kimlər idi?
İngilislər nə üçün 26-ları güllələmişdilər?
Xalqımız nə üçün 26-ları unutmur?
«26-lar ölməmişdir» mövzusunda albom düzəldin.

## 26-lar

Ağcaqum çölündə qatar düz gedir,
Piter[1] fəhləsindən xəbərsiz gedir.
O, xəbər tutsaydı, bütün sədləri[2],
Bütün cəbhələri vurub yarardı.
Aşardı Xəzəri, gedən qatarı
Polad sinəsilə dayandırardı...

Lakin öz yolunda qatar düz gedir,
Dünya fəhləsindən xəbərsiz gedir.
Axma, ey solğun ay, əsmə ey külək!
Dayanın, dayanır sinəmdə ürək.

Ağcaqum çölündə kəsir səsini
O məhbus[3] aparan silahlı qatar.

---

[1] Piter – Peterburq (indiki Leninqrad)
[2] Sədd – bir şeyin qabağına çəkilmiş hasar, divar
[3] Məhbus – dustaq

Pulemyot önündə[1], tüfəng önündə
Ölümə yollanır ölməz oğullar...

Fit verib dəhşətlə bağırır qatar,
Zabit yatağında əsir, titrəyir.
Dünyanı qisasa[2] çağırır qatar,
Tökərlər qışqırıb «intiqam» deyir.

Ey vətən uğrunda canından keçən,
Qırmızı bayrağı öpüb and içən,
Güllələr önündə məğrur dayanan,
Məsləki[3] qəlbində günəş tək yanan,
Ana torpağımın fəxri, vüqarı,
Mübariz Bakının komissarları!

Böyük bir məsləkin, eşqin yolunda
Qandal[4] ayağında, zəncir qolunda,
Qatillər[5] əlində ölsəniz də siz,
Ölmədi arzunuz, əməlləriniz!
Köksünə dəysə də min ağır yara,
Bakı baş əymədi qəsbkarlara[6].

*Xəlil Rza*

● Bu şeirdə təsvir olunan hadisə nə zaman və harada baş vermişdir?
Bu hadisənin gizli təşkil olunduğunu bildirən misraları tapıb oxuyun.
26-ları nə üçün gizli aparırdılar?
Şeirin sonuncu sətrinin mənasını necə başa düşürsünüz?
Şeirin daha çox xoşunuza gələn hissəsini əzbərləyin.

---

[1] Önündə – qabağında
[2] Qisas – intiqam
[3] Məslək – yol
[4] Qandal –dustaqların ayağına vurulan qıfıllı zəncir
[5] Qatil – adam öldürən
[6] Qəsbkar – başqasının yerini və var-dövlətini zorla əlindən alan

## Rabitə komissarı

Polis görkəmli inqilabçı Əli Bayramovun izinə düşmüşdü. Buna görə də o, evdə gecələmirdi. Gizli yığıncaqlar şəhərin ucqar yerlərində keçirilirdi. Axır zamanlar polislər hər evə baş soxduqları üçün yığıncaqları bir evdə keçirmək mümkün olmurdu. Görüş yerini hər gün dəyişmək lazım gəlirdi. Təzə mənzilin ünvanını dərhal yoldaşlara çatdırmaq «rabitə komissarı»na tapşırıldı. Komissarın cəmi doqquz yaşı vardı. Ağır dəqiqələrdə yoldaşlar arasında dərhal əlaqə saxlaya bildiyi üçün hamı onu «Komissar» çağırırdı. Çətin bir tapşırığı yerinə yetirəndən sonra Əli Bayramov həmişə onu bağrına basar və cod saçlarını sığallayardı. Onun əsl adı Ağarəhim idi. Ağarəhim hər dəfə sınaqdan çıxdıqdan sonra Əli Bayramov ona deyərdi:

-Komissar, işin çətinə düşə bilər! Polislər səni tuta bilərlər. Ancaq yadında saxla ki, komissarlar ölüm ayağında da heç bir sirr vermirlər.

Əli Bayramovun dediyi sözlər Ağarəhimi gecələr də düşündürərdi.

1920-ci ilin mart gecələrindən birində Əli Bayramov gizli yığıncaqdan evə qayıdarkən polislər onu həbs etdilər. Qorxmaz inqilabçını üç-dörd gün polis idarəsində saxladılar. Ağır əziyyət verdilər. Lakin Əli Bayramov yoldaşlarından heç birinin adını çəkmədi.

Bir gün yenə onu səhər tezdən sorğu-suala çağırdılar. Bu mərd inqilabçını polis rəisi özü dindirəcəkdi. O, uzun bığlarını eşib ayağa qalxdı. Əllərini dalına qoyub gəzişdi, sonra Əli Bayramovun qarşısında durub lovğa-lovğa dedi:

-Vətəndaş Bayramov! Yəqin ki, görəcəyiniz hadisəyə heç inanmayacaqsınız. Komissar bizim əlimizdədir. Güman edirəm ki, tanıyırsınız?

Əli Bayramov sarsıldı, lakin dinmədi.

Rəis əmr etdi, komissarı içəri gətirdilər. Əli Bayramov komissarın parça-parça edilmiş köynəyi arasından onun bədənindəki göy ləkələri, döyülməkdən altı qaralmış gözlərini gördükdə az qaldı ki, bərkdən çığırıb desin: «Alçaqlar, siz uşağı nə üçün bu günə salmısınız?»

Ancaq dişlərini qıcayıb susdu. İnqilab belə tələb edirdi.

Polis rəisi Əli Bayramovu göstərib Ağarəhimdən soruşdu:

-Küçük, de görüm, onu tanıyırsanmı?

Komissar başını buladı.

-Bir də soruşuram, de görüm o, səni kimlərin yanına göndərirdi? Nə tapşırırdı?

Ağarəhim yenə başını bulayaraq dedi:

-Mən onu tanımıram.

Səsi zəif çıxırdı. Deyəsən, bütün gecəni onu döymüşdülər.

Polis rəisi əlindəki qamçını uşağın çiyninə elə vurdu ki, o, durduğu yerdə səndələyib yerə yıxıldı. Əli Bayramov polis rəisinin üzərinə hücum çəkib, onun uzun bığlarını yoluşdurmaq istədi, ancaq yenə özünü ələ aldı.

Ağarəhimi ayağa qaldırdılar. Yenə eyni sual verildi. Bu dəfə də komissar dinmədi, ancaq başını buladı. Qamçının şappıltısı eşidildi. Komissar yenə döşəməyə sərildi. İndi Əli Bayramov daş heykəl kimi dayanmışdı. Dişlərini bir-birinə sıxmışdı.

Komissarı ayağa qaldırmaq istədilər. Qalxa bilmədi. Taqətdən düşmüşdü. Polis rəisinin işarəsi ilə onu sürüyüb aparanda gözlərini açdı və Əli Bayramovla vidalaşdı.

Ağarəhimlə ona son görüşdən Əli Bayramovun xatirində yalnız bir şey qalmışdı. O, əzablara əsl komissar kimi dözdü.

*Qılman İlkin*

● Ağarəhimə nə üçün «rabitə komissarı» deyirdilər?
Ağarəhim nə üçün inqilabçıları satmadı?
Ağarəhimin mətinliyini göstərən hissəni oxuyun.

**Nəcəf**

1920-ci ilin may ayının əvvəlində On birinci Ordunun hissələri Bakının küçələrindən keçirdi. Camaat qoşunun qabağınca gedən nəfəsli orkestrin səsinə yollara çıxmışdı. Birdən musiqi səsi kəsildi, qabaqdakı binanın yanından bir

uşaq zarıltısı eşidildi. Atlar qoşulmuş arabanın yanınca addımlayan, üst-başı tozlu qızıl əsgər Vasili ətrafına boylandı. Səs gələn tərəfi axtardı. Divarın dibində bir uşaq büzüşüb oturmuşdu. O, kiçik yumruqları ilə gözlərini ovxalaya-ovxalaya ağlayırdı. Vasili yoldaşlarından ayrılıb uşağın yanına getdi. Adamlar onun başına toplaşdılar. Məlum oldu ki, balaca oğlanın nə atası, nə anası var. Vasili bunu eşitcək uşağı qucağına alıb, yoldaşlarının yanına getdi.

Əsgərlər dincəlmək üçün şəhər bağında dayandılar. Az sonra komandir gəldi. Hansı hissənin hansı binada yerləşəcəyini xəbər verdi. Birdən onun gözü arabanın içərisindəki yumşaq otun üstündə oturub çörək yeyən uşağa sataşdı. Komandir balaca oğlana baxıb soruşdu:

-Bu uşaq kimdir?

Vasili tez qabağa çıxıb dedi.

-Yoldaş komandir, onu küçədən götürdük. Ata-anası yoxdur.

-Adı nədir?

-Nəcəf!

Komandirin ciddi sifəti birdən-birə dəyişdi. O kədərləndi və Nəcəfin başını oxşayıb getmək istəyəndə Vasili dilləndi:

-Yoldaş komandir, icazə versəniz, onu şəhərə yetimxanalardan birinə qoyarıq.

Komandir ayaq saxladı, fikrə getdi:

-Yox! Hələlik qoy sənin yanında qalsın.

Qaş-gözü qara olduğu üçün qızıl əsgərlər Nəcəfə «Qaraçı» deyirdilər. «Qaraçı» Vasilinin və yoldaşlarının sevimlisi oldu. Hamı ona elə alışmışdı ki, bir gün görməyəndə darıxırdılar. Nəcəf də elə bil hər gün boy atırdı. Hələ onun üçün qızıl əsgər paltarı da tikdirmişdilər.

Komandir Timofeyev də boş vaxtlarını bu balaca oğlanın yanında keçirirdi.

Bir gün Vasili soruşdu:

-Yoldaş komandir, bəs Nəcəfi yetimxanaya verməyək?

Vasilinin sözləri Timofeyevə toxundu:

-Nə danışırsınız?

Sonra məlum oldu ki, Timofevey Nəcəfi oğulluğa götürüb.

* * *

1943-cü ilin yayı idi. Sovet hissələri faşist qoşunlarını Vətənimizin torpaqlarından qovurdular. Uca boylu bir polkovnik diviziyanın komanda məntəqəsindəki çal saçlı generalın qabağında durub soruşdu:

-Yoldaş general, hücuma başlayaqmı?

General saatına baxıb sakitcə:

-Başlayın, - dedi.

Sovet əsgərləri o gün qəti hücuma keçib Kiyev şəhərini faşistlərdən təmizlədilər. Uca boylu polkovnikin komandir olduğu hissə o gün çox böyük qəhrəmanlıq göstərdi. Polkovnik özü isə hamıdan yaxşı vuruşdu. Onu hamı təriflədi, alqışladı. Bu uca boylu polkovnik bizim tanıdığımız Nəcəf, general isə onu 1920-ci ildə Bakıda oğulluğa götürmüş Timofeyev idi.

*Xalidə Hasilova*

● Vasili nə üçün Nəcəfi yetimxanaya qoymaq istəyirdi?
Timofeyev nə üçün buna razı olmadı?
Nəcəf böyüyüb necə adam oldu?

**Nəriman Nərimanov haqqında xatirələr**

Mən balaca olanda onu öz gözümlə görmüşdüm. Orta boylu, səmimi, mehriban bir insan idi. Köynəyi qar kimi ağ, kostyumu ütülü, səliqəli və təmiz olardı. Xalq ona «doktor Nəriman» deyərdi. Çünki o, həkim idi. Xəstə uşaqlara dərman, konfet, şəkilli kitablar verərdi. Doktor Nəriman həm də yazıçı idi. Maraqlı əsərlər yazardı.

Bir dəfə qonşumuzdakı gənc bir oğlan bərk xəstələnmişdi. Ata-anası doktor Nərimanı çağırdı. Doktor oğlanın yastığının üstündə bir kitab gördü. Kitabın adı «Bahadır və Sona» idi. Doktor gülümsündü. Çünki bu, onun əsəri idi. Oxucular həmin kitabı çox sevirdilər. Bu əsər

xalqları dostluğa çağırırdı. İnsanlara bir-birini sevməyi, hörmət etməyi öyrədirdi.

Doktor xəstələri müalicə edib, evə nə qədər yorğun qayıtsa da, axşamlar Karl Marksın, Vladimir İliç Leninin əsərlərini oxuyardı. O, kommunist idi. Kommunistlər yoxsul insanlar, fəhlələr və kəndlilər üçün yaxşı həyat qurmağa çalışırdılar. Buna görə də çar hökuməti kommunistləri həbs edir, sürgünə göndərirdi.

Doktor Nərimanı dəfələrlə həbs edib, qaranlıq zindanlara atmışdılar. Həbsxanadan çıxanda o, yenə də öz işinə davam edər, gah Bakıda, gah Həştərxanda işləyərdi.

1920-ci ildə, yazda çaylar daşıb, çöllərdə qızıl lalələr açılanda Azərbaycanda qırmızı bayraqlar dalğalandı. Vətənimizdə Sovet hakimiyyəti quruldu. Fəhlə və kəndlilər, müəllim və həkimlər hər tərəfdən doktor Nərimanın yanına axışıb gəlirdilər. O, yeni hökumətin başçısı idi. Doktor hamını dinləyir, hamıya kömək edirdi. Uşaqlar üçün çoxlu məktəb, körpələr evi və uşaq bağçaları açdırırdı. Rayonlardan balaca oğlan və qızları Bakıdakı yeni məktəbə gətirtdirirdi.

Mən də balaca qızlar ilə birlikdə Bakıya gəldim. Müəllimlər hazırlayan məktəbdə oxudum. Gecələr məktəbimizdə çoxlu çıraq yanırdı. Gündüzlər günəş hündür pəncərələrdən sinif otaqlarımıza işıq saçırdı. Biz günəşi görəndə çox sevinirdik. Doğma kəndimizin gözəl təbiətini xatırlayırdıq. Bizə məktəbdə pianino çalmaq, oxumaq da öyrədirdilər.

Doktor Nəriman axşamlar arvadı Gülsüm xanımla vaxt tapıb tez-tez məktəbə gəlirdi. Hamımız onların başına toplaşardıq. Doktor bizə şeir və nəğmə oxudur, dərslərimizi yoxlayırdı. Hər dəfə bizə keçmişdən, gələcəkdən maraqlı söhbətlər edirdi. Xüsusilə gələcək haqqında elə şirin danışırdı ki, quş olub gözəl gələcəyə uçmaq istəyirdik. O, fikrə gedəndə biz çiyninə söykənər, ona sığınardıq. Məktəbimizdən gedəndə isə yaman darıxardıq. Dəstə ilə onları yola salardıq. Doktor Nəriman bizim üçün əziz insanlardan biri idi.

Bir axşam yenə məktəbin çıraqları yanırdı. Salonda doktor Nərimanın ətrafına toplaşmışdıq. O lap gecə yarısı bizdən ayrılıb getdi.

Bir neçə ay gözümüz yolda qaldı. O isə gəlib çıxmadı. Biz əvvəl onun Moskvaya işləməyə getdiyini eşitdik. 1925-ci ildə isə doktor Nərimanın vəfat etdiyini xəbər verdilər. Bu xəbər onun azadlığa təzəcə çıxmış xalqını, balaca nəvələrini yaman kədərləndirdi, ağlatdı. Sevimli Nərimanın ürəyi xalq yolunda yanırdı. Xalqımız da onu öz ürəyində yaşadır.

*Mirvari Dilbazi*

- Yazıçı Nəriman Nərimanovun xarici görünüşünü necə təsvir edir?
  İnqilabdan əvvəl Nərimanov hansı işlərlə məşğul idi?
  Nərmanov uşaqlarla necə dostluq edərdi?
  Nərimanov haqqında daha nələr bilirsiniz?
  Nərimanovun adını daşıyan yerlərdən hansıları tanıyırsınız?

**Çal papaq**

*(İxtisarla)*

Bünyad Kremldə nə qədər xahiş etdisə, heç kəs razılıq vermədi. Ona dedilər ki, əvvəla, Vladimir İliç Moskvada deyildir. İkincisi, əgər burada olsaydı da, onun yanına gedə bilməyəcəkdi. Həkimlər dönə-dönə tapşırıblar ki, yanına heç kəs buraxılmasın. Bünyad bundan çox kədərləndi. Onun ürəyi Bakıdan Moskvayadək bütün yolu İliçi şəxsən görmək, planlarını ona danışmaq arzusu ilə çırpınmışdı. İndi isə ona deyirdiklər ki, çırpınmışdı. İndi isə ona deyirdilər ki, bu, mümkün olan şey deyildir. Ümidi boşa çıxırdı. Bununla belə o, əl çəkmədi. Bir gün təsadüfən öyrəndi ki, Xalq Komissarları Sovetinin işçilərindən biri avtomobillə İliçin yanına getməyə hazırlaşır. Bünyad tez soraqlaşa-soraqlaşa onu axtarıb tapdı və xahiş etdik i, onu da özü ilə aparsın.

-Ancaq aparın! Başqa heç bir xahişim yoxdur.

-Bəs sonrası? - deyə, işçi təəccüblə soruşdu.

-Orada bəlkə həkimlərlə danışdım, heç olmasa, iki dəqiqəliyə yanına buraxdılar.

Xalq Komissarları Sovetinin işçisi fikirləşdi, ancaq qəti bir söz deyə bilmədi. Bünyad isə şirin dilini işə salaraq, onu insafa gətirməyə çalışdı. Axır ki, onu razı sala bildi. Bir neçə dəqiqədən sonra üstüaçıq avtomobillə sıx şam meşəliklərinin içi ilə yola düşdülər. Çox çəkmədi ki, Moskva ətrafının gözəl mənzərəsi gözü qabağında açıldı. Bünyad çal papağının gözlərinin üstünə basaraq avqustun istisində meşədən maşına dolan xoş, ətirli havanı ciyərlərinə çəkə-çəkə fikirləşirdi: «Görəsən, İliçi görə biləcəyəmmi?»

Maşın sütunlu ağ evin taxta hasarı yanında durdu. Darvazada növbətçi var-gəl edirdi. Xalq Komissarları Sovetinin işçisi maşından düşdü və Bünyada tərəf dönərək, çiyinlərini çəkdi:

-Təəssüf ki, sənə bundan artıq kömək edə bilməyəcəyəm.

-Bilirəm, çox sağ olun! Ancaq bir xahişim var...

-Buyurun!

-Mümkün olsa, siz də orada bir deyin ki, İliçi görmək istəyən var. Mühüm məsələdən ötrü. Bəlkə razılıq verdilər.

-Deməyinə deyərəm, ancaq bunun sənə köməyi olmayacaq.

* * *

O, başını bulayıb, növbətçiyə yaxınlaşdı və buraxılış vərəqəsini göstərib içəri keçdi. Bir azdan taxta darvaza laybalay açıldı. Şofer maşını içəri sürdü. Bünyad onların dalınca həsrətlə baxa-baxa qaldı.

Günəş günorta yerinə qalxmışdı. Bünyad özünü yaxındakı ağcaqayın kölgəsinə verdi. Ağacın seyrək yarpaqlı budaqları hər tərəfdən salxım-salxım sallanırdı. Ətrafda növbətçidən başqa heç kəs görünmürdü. O da bir neçə dəfə Bünyada şübhəli-şübhəli baxıb, içəri keçdi və darvazanı bağladı. İndi onun bütün ümidi Xalq Komissarları Sovetinin işçisinə qalmışdı. Belə düşünürdü ki, onun burada, on addımlıqda olduğunu bilsələr, yəqin ki, rədd etməzlər. Bu ümidlə o, yarım saat gözlədi. İçəridən səs

eşidən kimi kölgəlikdən çıxıb hasara yaxınlaşda. Xalq Komissarları Sovetinin işçisi onu görən kimi soruşdu:

-Hələ də gözləyirsiniz?

-Gözləyirəm!

-Xahişinizi çatdırdım. Həkimlər qəti etiraz etdilər.

-Salamat qalın!

* * *

Maşın gurultu ilə uzaşlaşdı. Bünyad fikirli halda hasarın dövrəsində dolaşmağa başladı. Qaranlıq düşdü. Bünyad burada qalmağın mümkün olmadığını və öz hərəkəti ilə növbətçini şübhəyə sala biləcəyinihiss edib, uzaqlaşmaq istədi. Bu zaman uzaqda ağacların arasında bir nəfərin ağır addımlarla gəzişdiyini gördü. Bünyadın yerlilərdən hesab etdiyi bu adam tünd rəngli qış kepkasını gözlərinin üstünə endirmişdi. Çiyninə saldığı paltosunun boynunu qaldırdağından, sifəti aydın seçilmirdi. Həmin adam Bünyadın taxta hasarın yanında tək-tənha gəzişdiyini görüb, ona yaxınlaşdı.

-Cavan oğlan, - dedi, - buralarda nə gəzirsiniz?

Bünyad dalğın halda dedi:

-Lenini görmək istəyirəm.

-Aha, Lenini görmək istəyirsiniz? Axı onun yanına buraxmırlar. Xəbəriniz yoxdur?

-Bilirəm. Ancaq mən onu mütləq görəcəyəm.

-Mütləq görəcəksiniz?

-Bəli!

-Siz buna arxayınsınız?

-Bəli!

-Niyə? Bəlkə əlinizdə Kremldən buraxılış vərəqəsi var?

Bünyad bu adamın hər şeydən xəbərdar olduğunu düşünüb, onunla səmimi söhbətə girişdi.

-Məsələ ondadır ki, - dedi, - Kremldə buraxılış vərəqəsi vermədilər. Dedilər ki, həkimlər qəti qadağan ediblər. Ona görə də buraya gəldim. Söz vermişəm ki, onu görməmiş getməyəcəyəm.

Müsahibinin gözləri qıyıldı. Solğun dodaqlarındakı xəfif təbəssümünü gizlədə bilmədi:

-Siz haradan gəlmişsiniz?
-Uzaqdan. Azərbaycandan.
Aha... - müsahibi çənəsini ovuşdurdu. - Nə üçün gəlmişsiniz, bilmək olar?
-Mən neft məsələsi haqqında İliçlə danışmalıyam. Bu saat biz köhnə quyuları bərpa edirik. Ancaq bu azdır. Yenilərini də qazmalıyıq. Lakin avadanlıq yoxdur. Əgər İliç bu işə qarışmasa, heç bir şey çıxmayacaq. Bakılı yoldaşlar arxayındırlar ki, mən İliçlə şəxsən danışacağam.
-Demək onlara söz vermişsiniz?
-Bəli.
Müsahibi paltosunun boynu içində gizlənmiş başı ilə onun sözlərini təsdiq etdi:
-Əlbəttə, - dedi, - sözünün üstündə durmamaq çox pis şeydir. Bilirsinizmi nə var? - deyə, birdən o sanki nəyi isə xatırladı. - Mən sizə kömək edə bilərəm.
-Doğrudanmı?
Bünyad sevincindən müsahibinin qollarını çiyninə saldığı paltosunun üstündən sıxdı.
-Bəli. Ancaq xahiş edirəm, səs-küy salmayasınız. Mən Leninin mənzilinə gedən ehtiyat qapısını tanıyıram. Oradan keçə bilərik. Arxamca gəlin.

* * *

Müsahibi qabağa düşdü. Bünyad da sevinə-sevinə onun dalınca getdi. Arxa tərəfdən taxta hasarın kiçik qapısı da vardı. Onlar maneəsiz qapıdan içəri keçdilər. Müsahibi yavaşcadan ona pıçıldadı:
-Biz arxa tərəfdən keçməliyik. Burada görsələr, içəri buraxmazlar.
Onlar binanın arxa tərəfindən içəri keçdilər. Ensiz pillələrlə yuxarı qalxıb, bir qapının qabağında durdular. Müsahibi əlini dodaqlarına aparıb səs çıxarmamasını ğapşırdı, sonra cibindən açar çıxarıb qapını açdı.
Bünyad müsahibinin bu hərəkətindən şübhələndi, hətta bir az qorxuya da düşdü. Lakin Leninlə görüşmək arzusu bu dəqiqə hər şeyə qalib gəlirdi. Onlar sadə, lakin gözəl bəzənmiş bir otağa daxil oldular. Müsahibi ona oturmaq

üçün yer göstərdi. Tanımadığı bu adamın bütün hərəkətləri Bünyadı heyrətə salmışdı. Dinə də bilmirdi. Elə bil sehrlənmişdi. Leninin yaşadığı evin bütün yollarına bələd olan bu adam kim ola bilərdi? Lakin bu sual ətrafında çox fikirləşmək lazım gəlmədi. Müsahibi papağını və paltosunu soyunub asdığı zaman Bünyad heyrət içərisində donub qaldı. Bəli, onun qarşısında, şəkillərdən ona yaxşı tanış olan Lenin özü durmuşdu.

-Vladimir İliç! – deyə, Bünyad yerindən qalxıb ona tərəf getmək istəyəndə İliç gülümsünüb, barmağını dodaqlarına apardı:

-S-s-s...

* * *

Sonra İliç otağın o biri qapısına tərəf gedib, cəftəni saldı. Bünyad hələ də özünə gəlməmişdi. Ona elə gəlirdi ki, bütün bu gördükləri yuxudur.

Nəhayət, İliç ona yaxın oturdu:

-Hə, indi danış. Hələlik, deyəsən heç kəs bundan xəbər tutmayıb.

Bünyad Bakı mədənlərinin vəziyyətindən söhbətə başladı. Ancaq hiss edirdi ki, özünü itirdiyindən, dediyi sözlərin arasında heç bir əlaqə yoxdur. Vladimir İliç də bunu hiss etdi:

-Tələsməyin, - dedi, - demək, güman edirsiniz ki, köhnə quyuları bərpa edə biləcəksiniz?

-Bəli, Vladimir İliç. Ancaq avadanlıq çatışmır. Buraya gələndə məndən xahiş etdilər ki, şəxsən sizinlə danışım...

Bünyad danışdıqca İliçin gözləri qayılırdı. Bünyad yeni mədənlərin salınması haqqında da danışmaq istəyirdi ki, qapı ardından səs gəldi. Vladimir İliç cib dəftərinin vərəqinə tələsik nə isə qeyd edib, onu Bünyada uzatdı və yavaşcadan pıçıldadı:

-Bunu Xalq Komissarları Sovetinin işlər müdirinə verin. O sizə kömək edəcək. Bakı fəhlələrinə mənim salamımı yetirin və yoldaşlara xəbər verin ki, hazırda Xalq Komissarları Soveti neft sənayesi haqqında böyük tədbirlər

hazırlayır. Biz ən yaxşı mütəxəssisləri sizə kömək üçün göndərəcəyik.

Qapı taqqıldadı və zəif bir qadın səsi eşidildi:

-Vladimir İliç, siz yatırsınız?

-Bəli, bəli, yatıram, bu saat.

-Bəs qapını niyə bağlamısınız?

-Bu saat.

O, Bünyadı tələsdirdi:

-Siz gəldiyiniz qapıdan çıxın. Bakılılıra arxayın olsunlar, əgər onlar da sizin kimi hər şeydə belə inadkar olsalar, istəklərinə çatarlar.

* * *

Bu sözləri deyib, Vladimir İliç Bünyadın əllərini bərk-bərk sıxdı və başı ilə işarə etdi ki, tez çıxsın. Özü isə qapıya tərəf yönəldi. Cəftəni qaldırdı. Həkim və Nadejda Konstantinovna içəri girdilər.

-Volodya, bu nədir? Qapını niyə bağlamısan?

İliç gülümsədi:

-Yatmaq istəyirdim, qorxurdum ki, mane olarsınız?

-Bəs səs haradan gəlirdi?

İliç laqeydliklə çiyinlərini çəkdi:

-Xəbərim yoxdur.

Bu zaman həkim stolun üstündə yaddan çıxıb qalmış çal papağı göstərib soruşdu:

-Vladimir İliç, bəlkə bundan da xəbəriniz yoxdur?

İliç gülümsədi:

-Bu başqa məsələ! Faktdır və təəssüf ki, faktı inkar etmək qabiliyyətinə malik deyiləm.

Bu sözləri deyib İliç narahatlıqla pəncərədən bayıra baxdı, aşağıda heç kəsi görmədikdə həkimə müraciətlə:

-Çox xahiş edirəm, bunu ona çatdırın, - dedi.

Nadejda Konstantinovna papağı alıb, başını yellədi:

-Eh, Volodya, Volodya...

* * *

O gün işin axırına yaxın Bünyad Leninin məktubunu Xalq Komissarları Sovetinə təqdim etmək istədikdə katibə qadın papağını ona qaytarıb zarafatla dedi:

-Cavan oğlun, məsləhət görürəm ki, bir də qaçanda papağınızı yaddan çıxarmayasınız...

*Qılman İlkin*

- Bünyad kim idi və Moskvaya nə üçün gəlmişdi?
  Onun Leninin yanına nə üçün buraxmırdılar?
  O, Leninlə necə görüşdü?
  Onun xahişini yerinə yetirmək üçün Lenin nə etdi?
  V.İ.Leninin Azərbaycana köməyi haqqında daha nə bilirsiniz?
  Hekayədən V.İ.Lenin haqqında nələri öyrəndiniz?
  Hekayəni hissələr ayırıb, onlara başlıqlar verin.
  Hekayəni hissələr ayırıb, onlara başlıqlar verin və onu danışın.

**Azərbaycanım**

İstər al qumaşa tutalar məni,
İstər yanar oda atalar məni,
Səsləyə dənizlər, adalar məni,
Sənsən ilk mənzilim, axır ünvanım,
Azərbaycanım!

Lenin xilaskarın, rəhbərin oldu,
Çayların, sellərin suyu duruldu,
Hər evdə bir yeni məclis quruldu,
Başlandı mənim də xoşbəxt dövranım,
Azərbaycanınm!

Sən mənim nəğməkar kainatımsan,
İlk mahnım, ilk yaylam, ilk bayatımsan.
Gəncləşən, çağlayan bir həyatımsan
Adınla başlanır neçə dastanım,
Azərbaycanım!

Lalələr düzlərə köz salıb gedir,
Durnalar bu eldən söz alıb gedir,

Göyə naxış-naxış iz salıb gedir,
Səndədir mənim də söz asimanım,
Azərbaycanım!

Doğma anamızdır sovet Vətəni,
Qardaşım – rus, gürcü, özbək, erməni...
Bu birlik, bu dostluq yaşadır məni,
Gedir kommunizmə ömür karvanım,
Azərbaycanım!

Ay aprel günəşi, aprel səhəri,
Sənsən qoca Şərqin ümid ülkəri.
Gəzir eldən-elə o vaxtdan bəri
Dünyaya sığmayan şöhrətim, şanım,
Azərbaycanım!

*Gəray Fəzli*

● Şair Azərbaycana bağlı olduğunu hansı sözlərlə ifadə etmişdir?
Vətənin anaya bənzədildiyi misranı tapın.
Şeirdə xalqlar dostluğu barəsində nə deyilir?
«Gedir kommunizmə ömür karvanım, Azərbaycanım» misrası ilə şair nə demək istəyir?
Şeirin istədiyiniz bəndini əzbərləyin.

**Bakı**

Açılanda ay qabağı,
Göydən bulud çəkiləndə.
Sədəf kimi ağ ulduzlar
Göy sulara töküləndə.
Dalğaların qucağında
Qızıl güllər əkiləndə.
Bayıldan ta Narginəcən
Dəmir körpü çəkiləndə
Baxıb sola, sağa Bakı,
Fərəhindən coşan qəlbim
Sularını qoca Xəzər
Sularına qatanda Kür,
Baxıb sola, sağa Bakı,
Fərəhindən coşan qəlbim
Dönəydi bir dağa, Bakı!

* * *

Qüvvət aldım sevinc verən,
Həyat verən nəfəsindən,
On beş qardaş arasından
Gələn azad, gur səsindən.

Dönəydi bir dağa, Bakı.
* * *
Dərə, təpə aşa-aşa
Qucağına çatanda Kür,
Bahar gülən çöllərində
Çiçəklərə batanda Kür,
Günəş kimi bir göl olub,
Dağlarında yatanda Kür,
Gündüzlərin nəğməsindən
Sən boy atıb böyüdükcə
Coşdu könlüm həvəsindən,
Dedim yaşa, yaşa, Bakı,
Sənə düşmən çıxanların
Oxu dəysin daşa, Bakı!

*Rəsul Rza*

● Şeirdə «Sədəf kimi ağ ulduzlar göy sulara töküləndə» ifadəsini nə deməkdir?
«Günəş kimi bir göl olub
Dağlarında yatanda Kür» ifadəsində şair nəyi nəzərdə tutur?
«On beş qardaş arasından
Gələn azad gur səsindən» ifadəsini izah edin.

**Neftçilər**

Canım Bakı, qanım Bakı, ana vətən!
Yaranmısan xalqımızın qüdrətindən.
Qara qanın qaranlığa işıq saçar,
Ağ günlərdən gələcəyə yollar açar.
Sənsən həyatım, qolum, qanadım,
Vüqarım, adım, Azərbaycan!
Qəlbində qaynar, qızıldan çaylar,
Şöhrətim, şanım, Azərbaycan!
Sən gözümün işığısan, mavi Xəzər,
Günəşlə bir oyanırsan səhər-səhər.
Gözəl Bakı, göz bəbəyim, paytaxtımsan,
Öz şəhərim, öz zəfərim, öz baxtımsan.
Sənsən həyatım, qolum, qanadım,
Şöhrətim, adım, Azərbaycan.
Qəlbində qaynar qızıldan çaylar,
Şöhrətim, şanım, Azərbaycan!

*Süleyman Rüstəm*

● Şeirdə Bakı nələrə bərabər tutulur?
«Qəlbində qaynar qızıldan çaylar» ifadəsini necə başa düşürsünüz?
Şeiri əzbərləyin.

## ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR

Bu bölmədə daha çox xoşladığınız mətnlər hansılardır? Onlar nə üçün xoşunuza gəir?

Azərbaycanda Sovet hakimiyyətinin qurulması üçün kimlər mübarizə aparırdı?

Fəhlələr və kəndlilər Sovet hakimiyyəti uğrunda necə mübarizə aparırdılar?

Bu mübarizə kimlər rəhbərlik edirdi?

Azərbaycanda Sovet hakimiyyəti nə üçün qalib gəldi?

Xanlar və Qatır Məmmədkimlərin nümayəndəsi idi?

Stepan Şaumyan, Məşədi Əzizbəyov, Alyoşa Çaparidze, İvan Fioletov və başqaları kimlər idi?

Nə üçün 26-ları tutub güllələdilər?

Nəriman Nərimanov kim idi?

Azərbaycan xalqının ruslarla və digər xalqlarla sıx əlaqə saxlamasına oxuduğunuz mətnlərdən misallar gətirin.

# DÜNYA ZƏHMƏTKEŞLƏRİ BİRLİYİ VƏ BEYNƏLMİLƏL DOSTLUĞU

**Leninin sülh bayrağı**

Yurdumuza bəzəkdir
Leninin sülh bayrağı.
Lenindən öyrənmişik
Kommunizm qurmağı.

Lenin sülh uğrundakı
Cəbhədə bizimlədir.
Aramızda yoxsa da,
Yenə də bizimlədir.

Dünən Lenin uçurdub
Çarın qanlı taxtını,
Güldürdü insanların
Həmişəlik baxtını.

Çevirir şəhərlərə
Susuz qalan çölləri,
Partiyanın əlilə
Leninin əməlləri.

Gedirik kommunizmə
Leninin yoluyla biz,
Partiyadır bu yolda
Dahi müəllimimiz.

*Süleyman Rüstəm*

**Bayatı:**
Partiyamız uludur,
Xalqın vuran qoludur.
Xalqımızın ürəyi,
İftixarla doludur.

● Şeir nə üçün «Leninin sülh bayrağı» adlanır?
Şair nəyə əsasən deyir ki, Lenin bizimlədir?
Şeiri əzbərləyin.

**Bir may nəğməsi**

Bir gün kəndlər, şəhərlər
Don geyinir lalədən.
Ətir saçır hər səhər
Bağ-bağçaya bənövşə.

Tarlalar dövrəsində
İlk dəfə yarpaq açır
Bu il bizim kolxozun
Təzə saldığı meşə!

Qızların oxuduğu
Nəğmələrdə duyuram
Tarla düşərgəsinə
Bir mayın gəlişini.
Hər zavodda, hər sexdə
Görürük ürəkaçan
Yaradıcı əməyin
Yeni yüksəlişini!

Bu gün bizim ellərə
Min bir fərəh gətirir
Dünya fəhlələrinin
Qardaşlıq günü Bir may.
Gəlib Qızıl Meydana
Eldən salam gətirir
Vətənin oğulları,
Qızları alay-alay.

*Əhməd Cəmil*

● Bir may kimlərin bayramıdır?
Nə üçün Bir may günü hamı nümayişə çıxır?
Sizin məktəb Bir may bayramını necə qarşılayır?
Şeiri əzbərləyin.

**Angelito**

*(İxtisarla)*

Angelito on bir yaşlı bir uşağın adıdır. O, İspaniyanın paytaxtı Madrid şəhərində yaşayırdı. Onun atasını İspaniyada ağalıq edən faşistlər öldürmüşdülər. Anası da bir neçə il əvvəl xəstələnib ölmüşdü. Angelito özündən on yaş böyük bacısı Mariya ilə yaşayırdı.

Mariya öz küçələrində olan tikiş fabrikində işləyirdi.

O qədər az maaş alırdı ki, pul onların yavan çörəklərinə də çatmırdı. Buna görə də Angelito iki ildir ki, pul qazanmağa məcbur olmuşdu. Minlərlə ispan uşağı kimi Angelito da oxumurdu. O, səhər tezdən evdən çıxar, uzun və yaraşıqlı bir bardağı ehtiyatla tutaraq, evlərindən xeyli uzaqdakı çaya gedər, qabı su ilə doldurub bazara qayıdardı. İspaniyanın paytaxtında su çox azdır…

Balaca Angelito da gündə bir neçə bardaq su satar, axşam bir ovuc xırda pul ilə evə qayıdar və qazandığı pulun hamısını bacısına verərdi. O, səhər tezdən axşam hava qaralana kimi bir tikə çörək yemədən bazarda, küçədə gəzər, nazik səsi ilə:

-Sərin su! Sərin su! - deyə çığırardı. Axşamlar isə o, çörək yeyən kimi yatardı.

Bir dəfə o, nədənsə yata bilmirdi. Yorğanının altından baxıb gördü ki, bacısı paltosunun astarına tikdiyi parçaları sökdü, oradan bir neçə kağız çıxardı və stolun üstünə qoydu. Angelito bu kağızların nə olduğunu öyrənmək istədi.

-O, nə kağızdır? - deyə soruşdu.

Mariya diksindi, qardaşına əyri-əyri baxdı:

-Yat, Angelito, hər yerə başını soxmaq yaxşı iş deyil.

Angelito yatağından qalxdı:

-O məktubdur, nədir?

-Yox, məktub deyil, yat!

-Yuxum gəlmir, tezdir. Hə, sən de görüm o kağızlarda nə yazılmışdır? Nə üçün sən onu gizlədirsən?

Mariya bir az fikirləşdi:

-Yaxşı, Angelito! Budur, bu kağızı görürsənmi, burada müharibə əleyhinə sözlər yazılmışdır. Kim müharibə istəmirsə, yoxsulluq istəmirsə, kim rahat və xoşbəxt yaşamaq istəyirsə buradakı yazıların altına qol çəkir.

Angelito fikirləşdi və onun gözləri doldu:

-Mariya, qol çəkməyi mənə öyrət; mən də aclığı və müharibəni istəmirəm.

-Mən sənə yazıb-oxumağı öyrədərəm. Amma sənə bura qol çəkmək lazım deyil. Sən hələ balacasan… Buraya ancaq böyüklər qol çəkməlidirlər. Mən onları böyüklərə göstəririrəm… Onlar da oxuyub, qol çəkirlər...

-Onda o kağızlardan mənə də ver. Mən də sənin kimi onu böyüklərə göstərim, qol çəksinlər.

-Yox, yox, Angelito, olmaz… Polislər səni tutarlar.

-Tutmazlar, tuta bilməzlər… Mən qaçaram.

Mariya razı olmadı. Angelito isə ondan əl çəkmədi. Axırda o, bacısından bir vərəqə və bir karandaş ala bildi. Mariya ona ehtiyatlı olmağı, adamlara necə yanaşmağı da öyrətdi.

O gündən başlayaraq küçə və bazarda Angelitonun yenə:

-Sərin su! - deyən nazik səsi eşidilirdi.

Angelito ondan su alıb içən adamlara yaxşı-yaxşı baxır, onların əllərinə diqqət edirdi. O, adamın fəhlə, qulluqçu, zəhmətkeş olduğunu müəyyən edib, cibindəki vərəqəni çıxarır və «Bunu oxuyun» deyirdi.

Adamlar da ehtiyatla kağızı oxuyardılar. Angelito sonra karandaşı onlara verərdi:

-İndi də qol çəkin!

Bir dəfə uca boylu bir fəhlə ondan su alıb içəndə Angelito kağızı ona verdi.

Fəhlə vərəqəni oxudu, öz karandaşını çıxarıb qol çəkdi. O, gülümsündü. Bu, Angelitonun xoşuna gəldi. O, fəhləni sərin suya qonaq etmək istədi:

-Bir qab sərin suya qonaq olun!

-Sağ ol, bala, istəməz. Amma, balaca, göz-qulaq ol, polis əlinə keçmə. Onlar sənin atanı öldürmüşlər. Ehtiyatlı ol!

İki-üç gün içərisində Angelito yüzdən artıq adama qol çəkdirə bildi. Amma bir dəfə az qaldı ki, polislər onu tutsunlar. Əhvalat belə oldu.

Axşamüstü bir qadın ona yaxınlaşdı və su istədi. Angelito ona su verdi, sonra vərəqəni ona uzatdı.

-Xala, bunu da oxuyun!

Qadın kağızı ondan aldı, baxdı və həmin dəqiqə Angelitonun qolundan yapışıb bağırmağa başladı:

-Polis, polis, tez gəl!

Angelito qadının üzünə baxdı və onu tanıdı. Bu qadın Mariyanın işlədiyi fabrikin sahibi idi.

Angelito dartınır, qadın isə bağırır, adamları, polisi köməyə çağırırdı. Adamlar qadına kömək etmir, əksinə, ona gülürdülər. Cavan bir fəhlə yaxına gəldi. Angelitonu qadının əlindən aldı. Bu zaman bir polis də oraya gəldi. Qadın yenə bağırdı:

-Onu tutun, o, hökumətin əleyhinə çalışır.

Polis Angeliotonu tutmaq istədi. Angelito qaçdı. Polis də onun dalınca yüyürdü. Polis Angelitodan yaxşı qaçırdı. O, Angelitonu tuta bilərdi. Amma bacarmadı. Çünki polisin qaçdığı küçədə adamlar özlərini bilməməzliyə vurub tez-tez yolu kəsir, ona toxunur, qaçmasına mane olurdular. Polis bunun qəsdən edildiyini başa düşmürdü.

Bu, Angelitoya qaçıb gözdən itməyə kömək etdi. O, çaya qədər qaçdı. Ancaq bu zaman gördü ki, su bardağı polisin onu tutmaq istədiyi küçədə qalıbdır. Angelito bunu xatırlayanda gözləri yaşardı, amma o, ağlamadı:

-Heyf bardaqdan, - dedi, sonra cibindəki imzalanmış kağızlar yadına düşdü. Bu zaman o gülümsədi: - Eybi yoxdur, - deyə, öz-özünə danışdı, - bardaq getdi, amma nə olsun! Dava ki, olmayacaq. Ən vacib məsələ budur. Dava olmayacaq, Mariya özünə yaxşı iş tapacaq və mənə bardaq alacaq, mən yenə su satacağam.

Angelito fikrə getdi. Ona elə gəltdi ki, onun yeni bardağı var və o, faşist polisləri olmayan bir küçdə su satır. Buna görə də o, əllərini şalvarın cibinə salıb var səsi ilə:

-Sərin su! - deyə bağırdı.

*Yakov Taits*

● Angelito kim idi, o nə üçün su satırdı?
Mariya vərəqələri evə nə üçün gətirmişdi?
Angelito nə üçün vərəqələri adamlara oxudurdu?
Angelito polisin əlindən necə qurtardı?
Bardağını itirən Angelito nə fikirləşdi?
«Pioner» jurnalında və «Azərbaycan pioneri» qəzetində xarici ölkələrin uşaqları haqqında yazılan məqalə və hekayələri tapıb oxuyun.

## Yer üzərində uşaqlar var…

Yer üzündə uşaqlar var
Rəngi qara, rəngi sarı.
Gəlin, dostlar, salamlayaq
Bu gün bütün uşaqları!
    Dəryalardan üzüb keçsin,
    Səmalardan süzüb keçsin,
    Dağlar aşsın gur səsimiz,
    Salamlayaq dostları biz!
Uşaqlar var uzaqlarda,
Dərdi, qəmi çox böyükdür.
Ac, yalavac, gülmür üzü,
Bir dəridir, bir sümükdür.
    Uşaqlar var yer üzündə,
    Məktəb nədir bilməyirlər,
    Uşaqlar var doğulandan
    Bir doyunca gülməyirlər.
Uşaqlar var, bahar belə
Onlar üçün acı qışdır.
Uşaqlar var, dərd əlində
Gənc olmamış qocalmışdır.
    Atasına, anasına
    Həmişəlik həsrət qalan,
    Açılmamış gül tək solan
    Uşaqlar var bu dünyada.
Gəlin, dostlar, biz onları
Sevə-sevə salaq yada.
Qoy titrəsin səsimizdən
Yad ellərin cəlladları!
    Qardaş olsun, sirdaş olsun,
    Bu dünyanın övladları.

*Zeynal Cabbarzadə*

● Şeirdə uşaqların rəngləri haqda nə deyilir?
Kapitalist ölkələrindəki uşaqlar haqqında şeirdə deyilənləri öz sözlənirizlə danışın.
Şeirdə bir-birinə əks mənalı sözləri tapıb oxuyun.
Şeiri əzbərləyin.

## Sülh haqqında pioner mahnısı

*(İxtisarla)*

Ana yurdun qucağında
Boy atırıq azad, şən.
Bəslər bizi,
Səslər bizi
Xoş günlərə bu Vətən.

Qoy mahnımız hər tərəfi
Ağız-ağız dolaşsın!
Qoy səsimiz keçilməyən
Meşə keçsin, dağ aşsın!

Hərbi qızışdıranlar
Olmuş sülhün düşməni,
Tökmək istər,
Sökmək istər
Bombalarla dünyanı.

Qoy mahnımız bir tərəfi
Ağız-ağız dolaşsın!
Qoy səsimiz keçilməyən
Meşə keçsin, dağ aşsın!

*Zeynal Cabbarzadə*

● «Boy atırıq» ifadəsini başqa ifadə ilə əvəz edin.
«Bəslər bizi,
Səslər bizi
Xoş günlərə bu Vətən» ifadəsini izah edin.
Müharibə qızışdıranlar kimlərdir?
Nə üçün imperialistlər müharibə istəyirlər?
Pionerlərin səsi meşə keçsə, dağ aşsa nə olar?

## May nəğməsi

Bu gün rəsmi keçid var,
Tez toplanın, uşaqlar!
Səslənir şeypur səsi!
Hanı uşaq dəstəsi?
Bu işçi bayramını,

Kolxozçu bayramını
Qarşılayaq sevinclə.
Hamı verib əl-ələ,
Nümayişə gedək biz,
Eli təbrik edək biz.

*Abdulla Şaiq*

● Şeirdə 1 May kimlərin bayramı hesab olunur?
Böyüklər 1 May nümayişinə nə məqsədlə çıxırlar?
Bəs uşaqlar nə üçün nümayişə qoşulurlar?
Şeiri əzbərləyin.

**ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR**

1 Mayı nə üçün bayram edirik?

Bu bayramın dünyanın müxtəlif dövlətlərində necə keçməsi haqqında bildiklərinizi danışın.

1 May bayramının nə üçün sülh və əmək bayramı adlandırırlar?

Sovet adamları nə üçün sülhün tərəfdarıdır?

Nə üçün dünya zəhmətkeşləri də sülh istəyirlər?

Bəs imperialist dövlətləri nə üçün müharibə tərəfdarıdır?

Sülh uğrunda mübarizədə uşaqların iştirakına aid bildiklərini danışın.

## Sünbül

Sünbülüm, sünbülüm, sarı sünbülüm!
Adına söz qoşum barı, sünbülüm!
Ellər arzusudur bu əmri verən,
Şirin gecələrdə yuxuma girən
Yaşıl tarlamızın mənzərəsidir![1]
Xırman üstündəki ana səsidir.

Sünbülüm, sünbülüm, sarı sünbülüm!
Könlümün qonağı, yarı, sünbülüm!
Qabaqdan al geyib gələndə bahar,
Ellər səni anar[2], səni salamlar.
Göz üstə yerin var bizim vətəndə,
Böyük bir ölkənin gözü var səndə.

Sünbülüm, sünbülüm, sarı sünbülüm!
Sənmisən çiçəyim, sənmisən gülüm?
Qaldırsın başını göylərə sarı
Geniş xırmanlarda dərz tayaları.
Baxdıqca düşmənin gözü qaralsın,
Xəzan[3] yarpağı tək üzü saralsın…

*Səməd Vurğun*

**Atalar sözü:**
Taxıl bol olarsa, basılmaz vətən.

**Tapmaca:**
Balacayam, sarıyam,
Deməyin ki, darıyam.
Sizə çörək oluram,
Zəmilərin barıyam.

---

[1] Mənzərə – görünüş
[2] Anmaq – yada salmaq, xatırlamaq
[3] Xəzan – payız, bitkilərin saralıb-solan vaxtı

- Şair «Böyük bir ölkənin gözü var səndə» misrası ilə nə demək istəyir?
  Şeirin bir bəndini seçib oradakı sözlərin hamısını hecalara ayırın və hər misranın neçə hecalı olduğunu deyin.
  Buğdadan nələr hazırlayırlar?
  Taxıl necə becərilir?
  Şeiri əzbərləyin.

## Yaylaqların mahnısı

Keçək sərin yaylaqlardan,
İçək buzlu bulaqlardan.
Gözəllikdir baxsan hara,
Salam deyək durnalara.

Gözəllikdən doymur ürək,
Çiçəklərə nəğmə deyək.
Qoy dinləsin çöllər bizi,
Durna gözlü göllər bizi.

Hər tərəfdə bir yaraşıq,
Yerlər işıq, göylər işıq.
Açaq burda toy süfrəsi,
Qanadlansın mahnı səsi.

*Tofiq Mütəllibov*

- Yaylaqların əlamətini bildirən misraları tapıb göstərin.
  Zəhmətkeşlər yayda nə üçün yaylara gedirlər?
  Şeirin əzbərləyin.

## Bir yay günü

Hava çox isti idi. Quşların hamısı susmuş, toyuq və cücələr çəpərlərin dibində, kolların altında gizlənmişdilər. Ala köpək də kölgəlikdə uzanıb gözlərini yummuşdu. Adil əlini nəyə vurur, çılpaq ayağını nəyin üstünə qoyurdusa, tez geri çəkirdi.

Adilin babası kənddən qonaq gəlmişdi. O, kolxoz sədri idi. Babası şəhərdə olan istidən şikayət edərək dedi:

-Bura yaman istidir, elə deyilmi, Adil? Səni yaylağa aparacağam. Ora çox sərindir. Gedib yaxşıca dincələrsən, istədiyin qədər havada gəzərsən.

Adilin kəndə gəldiyi bir həftə olardı. O, ilk dəfə idi ki, kənd görürdü. Babasıgilin yaşadığı kənd bağlı-bağçalı idi. Həyətdə çoxlu meyvə ağacları vardı. Ağaclarda tut və gilas qurtarmışdı. Alma və armud hələ xırda və gömgöy idi. Nar kollarında çiçəklərin çoxu tökülmüşdü. Adam bunların böyüyüb iri və ləzzətli nar olacağına inana bilmirdi.

Adilin babası hər gün tezdən qalxıb işə gedirdi.

Bakıda Adilə vəd etməsinə baxmayaraq, o, hələ yaylağa getmək üçün tələsmirdi. Adil yaylaq haqqında söz alanda baba deyirdi:

-Qoy kolxozdakı işləri yoluna qoyum, gedərik.

Bir axşam baba evə həmişəki kimi yorğun gəldi. Adili görən kimi:

-Hazırlaş, - dedi, - sabah tezdən səni yaylağa aparacağam.

Adil səhər çox tez oyandı. Az sonra onlar üstü açıq maşına oturub yola düşdülər.

Baba maşını yavaş-yavaş sürür və bağları ona göstərirdi.

-Bunlar alma-armud bağlarıdır. Burada da şaftalı əkmişik. Sağ tərəfdə də innab və badam ağacları var. Bura isə ərik bağlarıdır. Meyvəsini də təzəcə dərib qurtarıblar. O adamlar olan bağda da gavalı və göyəm yığırlar.

Maşın sonra üzüm bağlarının arası ilə getməyə başladı. Baba bir yerdə maşını saxlayıb düşdü. Tənəklərə baxdı və sonra Adili də yanına çağırdı:

-Görürsənmi, üzüm sahəmiz nə qədər böyükdür. Biz bu bağları beş il olar ki, salmışıq. Bu il tənəklər yaxşı bar vermişdir. Üzümümüz yenə bol olacaq.

Baba xeyli tənəyə baxdı. Sonra maşına oturub yola düşdülər. Bağlar qurtardı. Yaşıl tarlalar başladı. Adil uzaqdan buranı da üzüm bağlarına oxşatmışdı. Amma yaxınlaşanda tarlada bitən şeylərin üzüm tənəklərinə oxşamadığını gördü. Babası onun tarlaya baxdığını görüb dedi:

-Pambıq tarlalarımız xoşuna gəlirmi?

Adil qəzet və kinoda pambıq tarlasının şəklini az görməmişdi. O şəkillərdəki kollarda həmişə ağ pambıq olurdu. Adamlar əlləri ilə və ya maşınlarla onu toplayırdılar. Amma burada pambıq yığan yox idi. Yaxında isə bir traktor gurultu qopara-qopara tarla ilə gedirdi. Bunu görəndə Adil içini çəkdi:

-Baba, bəs traktor onları əzmir?..

Baba gülümsündü və maşını saxladı:

-Yox, o, becərmə aparır. Bircə bax, kolların dibini yumşaldır. Belə edir ki, kollar yaxşı bitsin və bol məhsul versin.

Onlar traktorun işinə bir qədər tamaşa etdilər. Adil birdən başqa gurultu eşitdi. Başını yana çevirəndə alçaqdan uçan bir təyyarə gördü. Təyyarə yolun o biri tərəfinə keçən kimi arxasınca havaya ağ bulud burumları buraxmağa başladı. Tarlanın üstünü ağ duman bürüdü. Adil əvvəl ona, sonra babasına baxdı.

Baba onun fikrini başa düşdü:

-Təyyarə oraya dərman səpir… Bu dərman olmasa, zərərli cücülər kollardakı çiçəkləri yeyər, məhsulu azaldar…

Onlar yenə yola düşdülər. İndi taxıl zəmilərinin arasıyla gedirdilər. Baba maşını yavaş-yavaş sürür, qızılı rəngli zəmi ilə irəliləyən maşınları Adilə göstərirdi:

-Bunlar kombaynlardır. O bol zəmini görürsənmi? Orada arpa əkilmişdi. Onu çoxdan biçib qurtarıblar. İndi isə buğda zəmilərini biçirlər.

Bir qədər də getdilər. Baba bir körpünü keçəndə:

-Buradan qonşu rayon başlayır, - dedi. - Yolumuz da tən yarı oldu.

Onlar sonra enli asfalt yola çıxdılar. Bir qədər uzaqda meşəli dağ görünürdü. Yola yaxın yamaclar isə tünd-yaşıl kolluq idi. Elə bil kolları sıra ilə əkmişdilər. Adil onların xırda yarpaqlı kollar olduğunu gördü. Babasından bunların nə olduğunu soruşdu:

Baba:

-Bunlar çay kollarıdır... - dedi.

Bu vaxt Adil gördü ki, ağacların dalından çıxan traktor kimi guruldayan bir maşın kolların arası ilə irəliləyir. O, elə

bil qollarını açıb kolları qucaqlayırdı. Adil bunun nə olduğunu xəbər aldı.

-O, çayyığan maşındır. Bu yerlərdə çox ətirli çay bitir. Maşın onların yarpağını yığır. Onları fabrikə aparıb qurudurlar. Sonra da kağızlara bükürlər. Biz də onu çaynikdə dəmləyib içirik.

Adil sevindiyindən nə edəcəyini bilmirdi. Bu gün o nə qədər maraqlı şey görmüşdü. Məktəbə qayıdanda danışmaq üçün nə qədər sözü olacaqdı.

Babası maşını enli yoldan sola burdu. Maşın indi dağa dırmaşırdı. Burada çoxlu mal-qara otlayırdı. Dağın döşündə yenə taxıl zəmiləri görünürdü. Amma bu zəmilər hələ yaşıl idi. Adil bunun səbəbini babasından soruşdu.

Babası ona:

-Bayaq keçdiyimiz yerlər aran idi. Orada hava daha istidir. Taxıl orada yetişmişdir. Burada isə on beş-iyirmi gün sonra yetişəcək.

Bir azdan Adil üşüdüyünü hiss etdi. Babası ona pencəyini geyməsini tapşırdı. Özü də plaşını geydi. Maşın yenə öz yoluna davam edirdi. Burada Adilin gözü qarşısında geniş mənzərə açıldı. Hər yer yamyaşıl idi. Yolun kənarında çoxlu çiçək bitmişdi. Bir az kənarda qoyun sürüləri otlayırdı. Yamaclarda alaçıqlar, çadırlar görünürdü. Baba onları Adilə göstərdi:

-Kolxozumuzun qoyunçuluq fermasının alaçıqlarıdır. Biz oraya gedirik.

Adil maşındakı saata baxdı. Saat on ikiyə işləyirdi. Dünən bu vaxt o, kölgəsiz yerdə gəzə bilmirdi. Günəş az qala bədənini yandırırdı. O, şikayət edəndə nənəsi:

-Yay belə olar, - demişdi. - Bu istilər olmasa, heç bir meyvə yetişməz. Taxıl və pambıq bitməz. Yaylağa gedərsən, orada istidən şikayət etməzsən.

Maşın indi daha ağır-ağır gedirdi. Adil pencəyinin yaxasını düyməməmişdi, amma yenə də üşüyürdü. «Əcəb də yaydır, - deyə o, fikirləşdi: - İyul ayıdır, amma hava mart ayının havası kimi soyuqdur. Burada ağac və kol da yoxdur. Ot da hündür deyil. Elə bil yazın əvvəlidir». Onun

gözü birdən irəlidəki uca dağa sataşdı. Dağın başındakı qarı görəndə üşüməsinin səbəbini başa düşdü.

**Tapmaca:**
Yer üzünün qarası,
Ağacların anası.

● Adil yolda nələr gördü?
Hekayədə kənd təsərrüfatının hansı sahələrindən söhbət gedir?
Yayda daha hansı kənd təsərrüfatı işləri görülür?
Hansı yaylaqlarda olmusunuz? Oranı təsvir edin.

## Marallar

Göy tarlada uşaqlar
Çiçək toplayırdılar.
Elə bu anda birdən
Şaqqıltıyla meşədən
Sıçraşaraq dalbadal
Çıxdı bir sürü maral.
Ana öndə qaçırdı.
Elə bil yol açırdı.
Qalınlığı yararaq,
Lap arxada, odur, bax,
İri döşlü, buxaqlı,
Başı pərli, budaqlı,
Baxıb dala, qabağa,
Məğrur gəlir boz buğa.
Marallar tez, qəflətən
Uşaqları görərkən,
Ürküşərək qaçdılar,
Təpələri aşdılar.
Bizim hər meşəmizdə
Neçə belə sürü var.
Nə çoxdur ölkəmizdə,
Qəşəng, gözəl
marallar.

*Osman Sarıvəlli*

**Tapmaca:**
Ağanəzər, ay ağanəzər
Adı dağları bəzər,
Başında ağac gəzər.

● Marallar uşaqları görüb nə etdilər?
Maralın ceyrandan fərqi nədir?
Hansı heyvanları və quşları ovlamaq qadağandır?
Şeiri əzbərləyin.

## Göy göl

Düz səkkiz yüz ildən bəri
Adın düşüb dilə, Göy göl!
Aşıqlar söz açıb səndən
Mizrab vurur telə, Göy göl!

Gündən, aydan nur alırsan,
Ya-yörənə şövq[2] salırsan,
Kim deyir ki, qocalırsan?
Çox cavansan hələ, Göy göl!

Ellər sənə mehman[1] olur,
Saf suyuna heyran olur.
Üstündən çən, duman olur,
Bürünürsən tülə, Göy göl!

Bu meşələr, dağ-dərələr
Xəstələrə dərman verər.
Səndəki bu mənzərələr
Yaraşıqdır elə, Göy göl!

Biz getsək də hansı yana
Yüz-yüz bağa, gülüstana.
Könül istər qanadlana
Düz yanına gələ, Göy göl!

*Ələkbər Ziyatay*

● Aşağıdakı beyti necə başa düşürsünüz?
«Üstündə çən, duman olur.
Bürünürsən tülə, Göy göl!»
Şair nə üçün Göy gölə getməyi arzulayır?
Göy göl haqqında nə bilirsiniz?
Şeiri əzbərləyin.

## Ləpirlər

*(Nağıl)*

Qədim zamanlar Piri baba adlı bir qoca ilə nəvəsi Gülbala vardı. Onlar dənizə yaxın bağdakı kiçik daxmada yaşayırdılar. Baba və nəvə gün çıxandan gün batana qədər işləyir, meynələrin[3] diblərini belləyib-becərir, güzəran keçirirdilər.

Bir gün onlar qum üstündə qəribə ləpirlər gördülər. Onlar bir-birinin üzünə heyrətlə baxıb, dinməz-söyləməz bu

---

[1] Mehman – qonaq
[2] Şövq – işıq
[3] Meynə – tənək

ləpirlərin izinə düşdülər. Getdilər, getdilər dənizin kənarında ucalan sıldırım qayaya çatdılar... Gördülər ki, bu ləpirlərin üçü də həmin qayanın üstündə oturubdur. Piri baba ləpirin birsindən soruşdu:

-Adın nədir?

-Var-dövlət.

Gülbala babasının ətəyindən tutub dedi:

-Gəl bunu götürüb bağımıza aparaq, yoxsulluğun daşını birdəfəlik ataq.

Piri baba əlini qaldırdı, nəvəsini səbirli olmağa çağırdı:

-Qoy bu birisindən soruşaq. - O, ikinci ləpirdən soruşdu:

-Sənin adın nədir?

-Xoşbəxtlik.

-Ay baba, daha bundan gözəl nə olar? - Gülbala sevincindən atılıb düşdü. - Gəl bunu götürüb aparaq, bu dünyada üzümüz gülsün, xoşbəxt olaq!

Piri baba üçüncü ləpirə müraciət etdi:

-Bəs sənin adın?

-Dostluq-doğruluq.

Baba nəvəsinə dedi:

-Bax, bala, yapış bunun əlindən, götürüb bağımıza aparaq.

Gülbala dedi:

-Niyə, nə üçün, baba? Quru, boş dostluqdan ətəyimizə nə töküləcəkdir?

Piri baba damarları çıxan əlini dümağ saqqalına aparıb şiş papaqlı başını tərpətdi:

-Dostluq-doğruluq heç də quru, boş şey deyildir, bala! Günün birində var-dövlət tufana düşər, əldən gedər.

Piri baba kəndlərindən bir neçə adamı misal gətirdi. Onların əllərindən var-dövlətin necə çıxdığını, necə yoxsullaşdıqlarını dedi.

-Bəs xoşbəxtlik necə, baba?

-Oğlum, hər necə xoşbəxtlik olsa da, baxarsan, bir gün qəfildən elə bir bədbəxtlik üz verər ki, çox çətin ki, ömrün uzunu ondan yaxa qurtara biləsən! - Piri baba yenə də bir

neçə adamın əvvəllər necə xoşbəxt olduqlarından, sonra necə bədbəxt hala düşdüklərindən danışdı.

Babasının gətirdiyi bu misallar da nəvənin beyninə batdı.

-Bəs dostluq-doğruluq necə, baba?

-Dostluq-doğruluq hər zaman sənin karına gələ bilər. Var-dövləti itirib yoxsullaşanda yaxşı dost sənin qolundan yapışıb sənə dayaq durar. Qoymaz ki, başqasına möhtac olasan. Əsl dost son tikəsinə qədər səninlə bölüşər. Ocaq üstünə su qoyub isitsə də, sənsiz onun doğazından bir qurtum keçməz...

Piri babanın dediklərini diqqətlə dinləyən Gülbala çal qayaya dırmaşdı. Dostluğu-doğruluğu götürüb bağrına basdı, qaça-qaça öz bağlarına apardı...

*Süleyman Rəhimov*

**Atalar sözü:**
Dost min olsa azdır, düşmən bir olsa çox.
Dost dostun eybini üzünə deyər.
Yaxşı dost qara gündə bilinər.

● Piri baba ilə nəvəsi dəniz kənarına nə üçün gəldilər?
Orada onlar nəyin ləpirlərini gördülər?
Piri baba nə üçün ləpirlərin ikisini bəyənmədi?
O, üçüncü ləpir haqqında nə dedi?
Dostluq və doğruluq haqqında atalar sözlərini öyrənin.
Nağılda başlıca fikir nədir?

**Tonqal ətrafında**

Tez yığılın, uşaqlar!
Gün batdı, şər qarışdı.
Yandı əlvan işıqlar,
Tonqalımız alışdı.

Ətrafında tonqalın
Qoy düzülsün cərgəmiz.

Gündüz gəzdik, oynadıq
Çöldə, dağda, dənizdə.

Qəlbimizə yaxındır
Sevimli düşərgimiz.

Biz gəlmişik buraya
Neçə kənddən, şəhərdən.
Gəlin bir-bir oxuyaq
Sevimli nəğmələrdən.

Bizə yollar açıqdır
Sevimli ölkəmizdə.

Açmış ana vətənin
Çiçəkləri, gülləri,
Partiyamız veribdir
Bizə bu şən günləri.

*Aslan Aslanov*

● Tonqalı nə zaman yandırırlar?
Tonqalın ətrafında uşaqlar nə ilə məşğul olurlar?
Uşaqlar düşərgədə gündüz nə ilə məşğul olurlar?
«Bizə yollar açıqdır
Sevimli ölkəmizdə» sözlərini necə başa düşürsünüz?

**Quzu**

Yayın əvvəli idi. Mən qoyunçuluq fermasında süd qəbul edirdim. Bir gün quzuları analarının üstünə buraxanda mən də orada idim. Balaca quzular analarını axtarıb tapdılar və iştah ilə əmməyə başladılar.

Bu zaman gördüm ki, təkcə bir quzu anasını tapa bilmir. O, sürüdəki bütün qoyunların üstünə cumur, amma heç bir qoyun onu yaxına buraxmırdı. Quzu bir az dayanıb mələyir, yenə qoyunların üstünə yüyürürdü, qoyunlar isə onu yox, öz balalarını əmizdirirdilər. Mən maraqla quzuya baxırdım. Bu vaxt çoban gəldi, quzunu tutub tumarladı, öpdü və köksünü ötürərək dilləndi:

-Bu gün qurd onun anasını boğmuşdur.

Çoban sürüyə baxdı, bir qədər fikirləşdi, sonra quzunu kənarda dayanmış bir ağ qoyunun yanına apardı. Ağ qoyun başını çevirib baxdı. Çoban onun başını sığalladı. Sonra yavaşca əyilib quzunu əmizdirməyə başladı. Qoyun əvvəl dartındı, qaçmaq istədi. Çoban ona acıqlandı. Qoyun elə bil bunu başa düşdü. Qaçmadısa da, quzuya əyri-əyri baxdı. Quzu da əvvəl qoyunu əmmək istəmirdi. Amma sonra o, çobanın köməyi olmadan əmməyə başladı. Qoyun quzuya xeyli baxan-

dan sonra yavaşcadan mələdi, quzunun balaca quyruğunu və qıvrım tüklü dərisini yaladı. Baş çoban gülümsünüb:

-Barışdılar, - dedi, - yoxsa quzu ac qalacaqdı.

Çoban on yaşlı qızını çağırdı:

-Şəhla, bura gəl, bax, qumral quzunu görürsən? Bu gündən quzular əmişməyə buraxılanda sən onu tutub, bu qoyunun yanına gətirərsən.

Şəhla çox sevindi, əyilib quzunun iştah ilə əmməsinə baxdı. Quzu doyub kənara çəkildi. Əvvəl qoyuna baxdı, sonra balaca quyruğunu oynada-oynada atılıb düşməyə başladı.

Bu əhvalatdan sonra bir neçə gün qəsdən quzuların əmişməsi zamanı oraya gəlirdim. Qumral quzu yenə də qoyunların üstünə yüyürüb, anasını axtarır və hər dəfə də baş çoban onu tutub qızına verirdi. Şəhla da onu kənarda duran ağ qoyunun yanına aparırdı. Ağ qoyun qumral quzunu görən kimi mələyir, onu yalayır və əmməsinə etiraz etmirdi. Bu, bir neçə gün belə oldu. Amma sonralar gördüm ki, quzular qoyun sürüsünün üstünə yürüyəndə qumral quzu daha yüyürmür, kənarda dayanıb boynunu yenə yana əyir və mələyir. Bu zaman Şəhla ona yaxınlaşır. Quzu Şəhlanı görən kimi tez onun üstünə yüyürür, mehriban bir uşaq kimi onun qucağına dırmaşmaq istəyir. Şəhla da onun alnından öpür, sonra qucağına alıb ağ qoyunun yanına aparır.

Qumral quzu böyüyürdü. Hər gün quzular əmizdirilər-kən, Şəhla gəlməyincə o, yerindən tərpənməz və ağ qoyunun yanına getməzdi.

**Atalar sözü:**

Yayda kölgədə oturan qışda ocaq axtarar.

● Qumral quzu nə üçün anasız qalmışdı?
Ağ qoyun qumral quzunu necə qəbul etdi?
Sonralar quzu nə üçün qoyuna yaxınlaşmırdı?
Ev heyvanlarının qəribə xasiyyətləri haqqında bildik-lərinizi danışın.
Məktəbinizin şagirdləri kolxozun (sovxozun) ferma-sında hansı işləri görürlər?

## Köpək balığı

*(İxtisarla)*

Gəmimiz Afrika sahillərində lövbər salıb dayanmışdı. Hava gözəldi; sərin külək əsirdi. Lakin axşamçağı hava dəyişildi; yaman bürkü oldu. Böyük səhradan üstümüzə elə bil ki, ocaqdan gələn kimi isti və bürkülü hava gəldi.

Gün batana yaxın kapitan göyərtəyə çıxıb «Çimin!» - deyə, əmr etdi. Dənizçilər bir dəqiqənin içində soyunub, suya atıldılar, yelkəni suya saldılar, kənarını gəmiyə bağlayıb, onun üzərində çimməyə başladılar.

Gəmidə bizimlə iki oğlan uşağı da vardı. İlk dəfə onlar suya atıldılar. Yelkən darısqal olduğundan, açıq dənizə çıxıb bir-birini keçməyə çalışırdılar.

Hər ikisi suda kərtənkələ kimi uzanıb, var gücü ilə lövbərin üstündəki çəlləyə tərəf üzürdü.

Uşağın biri əvvəl yoldaşını keçdi, sonra isə geri qalmağa başladı. Uşağın atası göyərtədə dayanıb, oğluna tamaşa edirdi. O, köhnə topçu idi. Ata oğlunun geri qaldığını görüncə qışqırdı:

-Geri qalma! Gücünü topla!

Birdən kim isə göyərtədən «Köpək balığı!» - deyə qışqırdı. Biz dəniz nəhəngini gördük. Köpək balığı düz uşaqların üstünə gəlirdi.

-Geri qayıdın! Geri qayıdın! Suda köpək balığı var! - deyə, topçu qışqırdı.

Uşaqlar isə onun sözlərini eşitməyib, irəliyə üzür, əvvəlkindən daha şən və daha bərk qışqırırdılar.

Topçu, kətan kimi ağarmış bir halda, qımıldanmadan uşaqlara baxırdı.

Dənizçilər cəld qayığı suya salıb, var gücləri ilə avar çəkərək, onu uşaqlara tərəf sürdülər. Köpək balığı uşaqlara lap yaxınlaşmışdı.

Uşaqlar adamların onları çağırdıqlarını eşitmir, köpək balığını da görmürdülər, ancaq sonradan onların biri dönüb baxdı. Bərk qışqırıq eşitdik. Uşaqların hərəsi bir tərəfə üzməyə başladı.

Bu qışqırıq elə bil topçunu ayıltdı. O, durduğu yerdən sıçrayıb, topa sarı qaçdı. Topun lüləsini çevirib üzərinə əyildi, nişan aldı və fitili götürdü.

Qorxudan yerimizdəcə donub qaldıq və işin dalını gözlədik.

Top atıldı. Topçunun yerə yıxılıb, əlləri ilə üzünü tutduğunu gördük. Köpək balığı və uşaqların başına nə gəldiyini görmədik; çünki bir dəqiqəliyə gözümüzün qabağını tüstü bürümüşdü.

Ancaq tüstü suyun üstünə yayıldıqca əvvəlcə hər tərəfdən narazılıq eşidildi, sonra bu səs getdikcə artdı, axırda isə hər tərəfdən ətrafa şadlıq, sevinc səsi ucaldı. Qoca topçu əllərini üzündən çəkdi, ayağa qalxıb dənizə baxdı.

Ölmüş köpək balığının sarı cəmdəyi qanlı dalğalar üzərində yırğalanırdı. Qayıq bir neçə dəqiqə içərisində uşaqlara çatıb, onları gəmiyə gətirdi.

*Lev Tolstoy*

● Topçu uşaqlara nə üçün geri qayıtmağa əmr etdi?
Dənizçilər uşaqları ölümdən qurtarmaq üçün nə etdilər?

**Düşərgəmiz**

Bayrağımız səhər-səhər
Yelləndikcə havada,
Quşlar bizi salamlayır
Budaq üstə, yuvada.
Gəl-gəl deyir bizə meşə,
Dərə, təpə, çöl, dəniz.
Nə qəşəngdir, nə gözəldir
Pioner düşərgəmiz!

* * *

Düşərgənin dörd tərəfi
Axar sulu, meşəli.
Günlərimiz keçir burda
Bir-birindən nəşəli.
Hara baxsan, ürəkaçan,

Hara baxsan, tərtəmiz.
Nə qəşəngdir, nə gözəldir
Pioner düşərgəmiz!

* * *

«Beş» qiymətlə verdik bu il
Dərsimizdən imtahan.
Vətən çəkir qayğımızı
Ana kimi hər zaman...
Daha yaxşı oxumaqçın
İstirahət edək biz.
Nə qəşəngdir, nə gözəldir
Pioner düşərgəmiz!

*Zeynal Cabbarzadə*

**Atalar sözü:**
Yay işini qışda gör, qış işini yayda.

● Şeirin birinci bəndindəki sözləri misralar üzrə hecalara ayırın. Hər misradakı hecaların sayını deyin.
Düşərgə həyatından bildiyiniz maraqlı hadisələri danışın.
Şeiri əzbərləyin.

## Gənc səyyahlar

Gəz, əzizim, qarış-qarış
Qucağında bu diyarın.
Onun güllü yaylağında
Çiçək açsın arzuların.
Quşlarla bir yuxudan dur,
Dilini bil, sirrini sor
Dağ-daşların, gur suların!

* * *

Öyrən görüм bu dağların
Niyə daim başı qardır?
Hər qayanın, hər çəmənin,
Öyrən, neçə yaşı vardır?
Özün baxıb öyrən, bala,

Bu daş körpü, bu tunc qala
Bizə kimdən yadigardır?
Ovçu kimi tələsərək,
Ötüb keçmə dağ yanından.
Ağ köpüklü gur çayların
Nəğməsini dinlə bir an.
İç hər sudan sərin-sərin,
Silinməsin gördüklərin
Sənin körpə xəyalından.

* * *

Hər keçiddə ayaq saxlı,
Asta-asta qalx bu dağı.
O qartala baxıb öyrən
Yavaş-yavaş ucalmağı.
Dağda-daşda yorulanda
Unutma gəl sən bir an da
Bu torpaqdan güc almağı…

*Gəray Fəzli*

**El sözü, el gözü:**
Yaz bitirir, yay yetirir, payız götürür, qış ötürür.

● Şair gənc səyyahlara nə məsləhət görür?
Hava, bitkilər, heyvanlar, quşlar, cücülər üzərində müşahidə aparın.
Müşahidələrinizi müşahidə gündəliyində qeyd edin.

**Xoşbəxt uşaqlar**

Yer üzünü qarış-qarış gəzəsən,
Bu torpağa, bu diyara tay olmaz.
Yad ellərin yüz baharı yığılsa,
Yurdumdakı bir bahara tay olmaz.
Yurdumuzun çəməni xoş, çölü xoş,
Quba qazlı, yaşılbaşlı[1] gölü xoş.

[1] Yaşılbaş – ördək

Şirvanı xoş, Muğanı xoş, Mili xoş,
Dünya gələ, bu çağlara[1] tay olmaz.
Bu torpaqlar nə istəsən bitirir,
Tarlaları can dərmanı yetirir,
Ağacları dadlı meyvə gətirir,
Min bar ola, bizim bara tay olmaz.
Qanad çalan azad, körpə quşuq biz,
Könülləri heyran edr nəğməmiz.
Bizimkidir torpaq, hava, göy dəniz…
Biz bəxtəvər uşaqlara tay olmaz.

*İsmayıl Soltan*

● Şair sovet uşaqlarını nə üçün «xoşbəxt uşaqlar» adlandırır?
Şeirdəki «bahar», «bar» sözlərini hansı sözlərlə əvəz etmək olar?
Azərbaycanın hansı ərazisinə Şirvan deyilir?
Şeiri əzbərləyin.

**ÜMUMİLƏŞDİRİCİ SUAL VƏ TAPŞIRIQLAR**

Yay mövzusunda oxuduğunuz şeir və hekayələrdən hansılar daha çox xoşunuza gəlir? Nə üçün?

Yay fəslində təbiətdə hansı dəyişikliklər baş verir?

Yayda hansı meyvələr yetişir?

Yayda kənd təsərrüfatında nə kimi işlər görülür?

Yayda necə istirahət edəcəksiniz? Bəs hansı işləri görəcəksiniz?

Yayda oxuduğunuz kitablar haqqında qeydlər götürün.

Yayda ağac yarpaqları, çiçəklər və otlardan kolleksiya düzəldin.

Yayda müxtəlif həşəratlardan herbari düzəldin.

**(Bakı, «Maarif» nəşriyyatı, Bakı, 1983-cü il / ixtisarla, təkmilləşdirilmiş on üçüncü nəşri)**

[1] Çağ – vaxt, zaman

## KİTABIN İÇİNDƏKİLƏR

**TƏRTİBÇİDƏN**........................................................ **3**

**ÜÇÜNCÜ SİNİFDƏ «ANA DİLİ» DƏRSLƏRİ**

1. Bir neçə söz.......................................................... **7**
2. «Pionerlərin həyatı və işləri» bölməsi üzrə materialların planlaşdırılması və tədrisi................................. **8**
3. «Qəhrəman keçmişimizdən» bölməsi üzrə materialların planlaşdırılması və tədrisi................................. **19**
4. «Payız» bölməsi üzrə materialların planlaşdırılması və tədrisi.............................................................. **30**
5. «Oktyabr inqilabı» bölməsi üzrə materialların planlaşdırılması və tədrisi........................................... **43**
6. «Əsl insnan olmalı» bölməsi üzrə materialların planlaşdırılması və tədrisi........................................... **49**
7. «Qış» bölməsi üzrə materialların planlaşdırılması və tədrisi.............................................................. **74**
8. «Vətənimiz» bölməsi üzrə materialların planlaşdırılması və tədrisi................................................... **80**
9. «Sovet ordusu» bölməsi üzrə materialların planlaşdırılması və tədrisi................................................ **93**
10. «Yaz» bölməsi üzrə materialların planlaşdırılması və tədrisi.............................................................. **112**
11. «Xalqımızın azadlığı uğrunda mübarizə» bölməsi üzrə materialların planlaşdırılması və tədrisi............. **117**
12. «Yeni həyat quranlar» bölməsi üzrə materialların planlaşdırılması və tədrisi........................................... **127**
13. «Bütün xalqlara sülh lazımdır» bölməsi üzrə materialların planlaşdırılması və tədrisi......................... **136**
14. «Yay» bölməsi üzrə materialların planlaşdırılması və tədrisi.............................................................. **142**

**(«Maarif» nəşriyyatı, Bakı, 1973)**

## ÜÇÜNCÜ SİNİF ÜÇÜN «ANA DİLİ» DƏRSLİYİNİN MƏZMUNU

Pionerlər gənc leninçilərdir........................................ 149
Payız........................................................................ 162
Azərbaycanda Sovet hakimiyyəti qurulanadək zəhmətkeşlərin həyatı; zülmkarlara qarşı mübarizəsi....... 186
Böyük Oktyabr Sosialist inqilabı və xalqımızın azadlıq uğrunda mübarizəsi.............................................. 208
Sovet adamları yeni həyat qurur................................ 232
Qış............................................................................ 258
Yaxşı nədir, pis nədir?.............................................. 275
Vətənimiz və onun keşiyində.................................... 314
8 Mart beynəlxalq qadınlar günü............................... 337
Yaz........................................................................... 352
Sovet kosmonavtları.................................................. 362
Lenin bizimlədir........................................................ 368
Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi............ 378
Dünya zəhmətkeşləri birliyi və beynəlmiləl dostluğu.. 402
Yay........................................................................... 410

**(Bakı, «Maarif» nəşriyyatı, Bakı, 1983-cü il / ixtisarla, təkmilləşdirilmiş on üçüncü nəşri)**